AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 11

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2019

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Vasim Məmmədəliyev, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Əsgər Rəsulov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Həbib Zərbəliyev, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., prof. Tofiq Hacıyev, f.ü.e.d., prof. Sevil Mehdiyeva, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, f.ü.f.d., dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2019, № 11

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2019

www. filologiyameseleleri.net

DİLÇİLİK

NADİR MƏMMƏDLİ
Filologiya elmləri doktoru, professor
Ayna Sultanova, 11, Bakı, Yasamal, AZ1073
elm. ve. tehsil@mail. ru

RƏSUL RZANIN DİLÇİLİK GÖRÜŞLƏRİ

(Müəllifin "Mülahizələr" və "Azərbaycan dilinin bugünkü vəziyyəti
və gələcək vəzifələri haqqında" məqalələri əsasında)

Xülasə

Ədibə görə, dilin formalaşmasına bir sıra siyasi, iqtisadi, mədəni-tarixi faktorlar təsir göstərir. Elə sözlər, tərkiblər var ki, onlar dildə çox geniş işləndiyinə baxmayaraq, dildə mənimsənilməmişlər. Məsələn, *əhvali-ruhiyyə, rifahi-hal, sərf-nəzər, nöqteyi-nəzər, tərcümeyi-hal* və bu kimi sözlərin bəzisinin anlaşıqlı Azərbaycan sözləri ilə əvəz etməyi vacib bilir: *rifahi-hal* yerinə *dolanacaq*, *güzəran* əvəzinə *qırım*, *əhvali-ruhiyyə* əvəzinə *təhər-tövr*. İnanır ki, bu sözlər işlənsə, dilin axarına girsə, qulağa yatıb adiləşəcək. Bir çox alınma sözlərin lazımlığını nəzərə alaraq, onları dilimizdə saxlamağı məsləhət bilir. Ancaq bir şərtlə ki, qardaş xalqdan və ya başqa millətdən aldığımız sözlər mütləq Azərbaycan dilinin öz qanununa, qrammatikasına, bütün incə xüsusiyyətlərinə tabe edilərək işlənsin, dilin qanunu, dilin ruhu sözlər üzərində hakim olsun. Azərbaycan dilinə "bir sıra zərərli cərəyanlar gəlməsini" vurğulayan ədib "bunlarla mübarizə eləməyi" hər bir Azərbaycan ziyalısının şərəfli işi hesab edir. Dilimizdəki nöqsanları şərti olaraq iki hissəyə bölür: 1) yerli-yersiz yeni sözlər gətirmək, onların mənasının başa düşülüb-düşülmədiyi ilə maraqlanmadan dili zibilləmək; 2) cümlə savadsızlığı, sözləri yerində işlədə bilməmək, Azərbaycan dilinin ən sadə qanun-qaydalarına tabe olmamaq. Bu nöqsanların hər ikisini qorxulu hesab edir, çünki hər ikisi dilimizi geniş xalq kütləsindən ayırır.

Rəsul Rzanın tədqiqatları ən kiçik dil vahidlərindən böyüyə doğru gedir – fonetikadan başlanıb, ardıcıl şəkildə morfoloji və sintaktik səviyyələrə doğru irəliləyir. Dilin fonetik, leksik, semantik, morfoloji və sintaktik normalarına realistcəsinə yanaşır, real həyatda *necə deyilir* və *necə deyilməlidir* məsələlərinə aydınlıq gətirir. O, dillər üçün ümumi, müştərək prinsipləri müəyyənləşdirməyi, onlara rasional-fəlsəfi baxımdan qiymət verməyi bacarır. İnsanın daxilində maksimum yığcamlığa, sadəliyə meyil vardır, bu qənaət dildə də özünü göstərir, əks halda bəzi yanlışlıqlar yaranır.

Dilimizin inkişafında yeni söz yaratmanı mühüm şərt, ehtiyacdan doğan elmi-məntiqi bir hadisə hesab edir və belə bir qənaətə gəlir ki, yeni sözlər və ya yeniləşdirilən sözlər süni yox, dilin tarixi gəlişi, axarından doğmalı, semantik əhatə dairəsində, lüğət imkanlarında olmalıdır. Bu gün də ədəbi dilimizdə, canlı danışıqda işlədilən *özümləşmək, özümlü, gətirmə, bəlirmək, bəlir, gərəklik, nəğmələnmək, ayrılış, eşidimli, doyumsuz, öyrənc, çağdaş, sənətdaş, əsrdaş, çimərlik, uçarlıq* kimi sözlər şairin fərdi yaradıcılıq məhsuludur.

Açar sözlər: söz yaratma, mdilin ruhunu qorumaq, purism, alınma sözlər, beynəlmiləl sözlər, morfoformantlar, norma

Rəsul Rza üçün ana dilinin milli varlığını və ruhunu qorumaq şərəfli bir vəzifə olmuşdur: "Dilin zənginliyi sözün çoxluğu ilə ölçülmür – dil ictimai dəyişikliklər, tarixi inkişaf nəticəsində şüurun özü kimi daim dəyişir. Dilin harmonik inkişafı üçün onun gərəkliyi mühüm şərtdir. Metal alət işlədilməsə, paslanar. Dil də işlədilməsə get-gedə kəsərini, məna dəqiqliyini və dərinliyini, ifadə incəliyini və gözəlliyini itirər, inkişafdan qalar" (1, 46).

Dil mədəniyyətindən danışarkən "hələ çözülməmiş problemlərini açmağa çalışır". Ədibə görə, dilin formalaşmasına bir sıra siyasi, iqtisadi, mədəni-tarixi faktorlar təsir göstərir. Onlardan biri də milli və beynəlmiləl mədəniyyətlərin münasibətidir. Mədəniyyətlərin bir-birinə yaxınlaşması ilə beynəlmiləl leksika yaranır, dünyada baş verən bütün ictimai dəyişikliklər dildə öz əksini tapır. Elm və texnika sahəsində xalqlar arasında əlaqələr qüvvətlənir, bunun nəticəsində elmi terminologiya beynəlmiləl səciyyə qazanır. Bu inteqrasiya bu günün özündə də aktuallığını itirmir. Beynəlmiləl sözlər Azərbaycan dilində eyni səviyyədə yayılmamışdır, bu, hər şeydən əvvəl, cəmiyyətin, ümumiyyətlə, sosial təbəqələrin marağından asılıdır. Şair bu məsələyə toxunarkən bəzi qeyri-Azərbaycan sözlərinin vətəndaşlıq qazanmasına münasibət bildirir, bunlardan yan durub köhnəlmiş sözləri saxlamağı, köhnəyə qayıtmağı düzgün hesab etmir. Dünyanın bütün mədəni xalqlarının "internasional", "universitet", "partiya" kimi sözləri işlətməsini qanunauyğun tarixi proses kimi əsaslandırır, ondan kənarda qalmamağı tövsiyə edir. Bəzi hallarda dilimizdəki alınma ərəb və fars tərkibli beynəlmiləl sözləri aydın, səlis Azərbaycan sözləri ilə əvəz etməyi xeyirli bilir: "beynəlxalq" deməkdənsə, "xalqlararası" desək, daha yaxşı olmazmı?"

Dilin lüğət tərkibi və onun zənginləşməsi yollarından danışarkən dilə gəlmə və gətirilmə sözlərə, yeni yaranan anlayışları bildirmək, həm də dildə çoxdan alınan və geniş yayılan terminləri əvəz etmək üçün süni söz və terminlər yaratmağa – purizmə münasibətini bildirir: "Belə bir cərəyan bizdə də vardı, revolyusiyanın ilk illərində bütün azərbaycanca olmayan sözlərin hamısını Azərbaycan sözləriylə əvəz etmək istəyənlər vardı. Onlar *aeroplana* "uçquc", *samovara* "qur-qur", *paravoza* "buğla gedən" deyir və bu kimi yöndəmsiz sözlərlə dili düzəltmək istəyirdilər. ..Bu adamlar dili təmizləmək bayrağı altında dilə girmiş bütün ərəb və fars sözlərini atmağı təklif edir, dilimizi anlaşılmaz sözlərlə doldururlar. Yaxud dilimizi saflaşdırmaq pərdəsi altında dili dəmir hasar içinə almaq, ona heç bir yeni sözün gəlməsinə imkan verməmək istəyirlər. Bu təşəbbüslərin hər ikisiylə mübarizə aparmaq lazımdır. Biz ərəb, fars, osmanlı dillərinin təsiri ilə mübarizə deyəndə, o dillərin vaxtilə dilimizə soxulmuş ruhu ilə mübarizə məsələsindən danışırıq. "Şayani-diqqət", "hissi-qəbləlvüqu" və bu kimi xalqımıza yad olan, xalq tərəfindən mənimsənməmiş, xalqın dilinə girməmiş, dilimizin ruhuna uymamış sözlərin və ifadələrin dildən qovulmasından danışırıq. Bu işdə solçuluq edənlər və məsələnin mahiyyətini anlamayıb Azərbaycan dilini ancaq Azərbaycan sözlərindən ibarət bir dil etmək istəyənlər zərərli iş görürlər" (1, 36-37). Soruşur: *kasıb, ağıllı, sovqat, fəhlə, fabrik, sovet* və yüzlərlə belə sözləri işlədəndə kim bu sözlərin Azərbaycan sözü olmadığı barədə düşünür? Kim bu sözləri anlamır? Cavabını da özü verir: "Dilin qüdrəti də orasındadır ki, onillər sürən ərəb istilası, fars təzyiqi, osmanlı təsiri altında öz ruhunu saxlamışdır. Xalqımız ərəblərdən, farslardan, osmanlılardan və başqa millətlərdən aldığı sözləri özünün dil süzgəcindən keçirərək, onları Azərbaycan dilinin ahənginə, qanunlarına uyğunlaşdıraraq elə bir hala salmışdır ki, indi çox çətinliklə o sözlərin ibtidai halını axtarıb tapmaq olar" (1, 47). Təəssüf edir ki, başqa dillərdən alınmış sözlərin dilimizdə necə, nə şəkildə işlənməsi haqqında çox az danışılır, az yazılır. Xalq arasında *silis, silistçi, yaranal, koburnat* və bu kimi sözlər var, bunların əsli məlumdur, lakin bu şəkildə işlənməsinin mənfi, ya müsbət olduğu haqqında ümumi fikir olmadığını bildirir.

Şairə görə, elə sözlər, tərkiblər var ki, onlar dildə çox geniş işləndiyinə baxmayaraq, "gətirildikləri dilin dadına-duzuna uymamış, dil üçün özümləşməmişlər". *Əhvali-ruhiyyə, rifahi-hal, sərf-nəzər, nöqteyi-nəzər, tərcümeyi-hal* və bu kimi sözlərin bəzisinin anlaşıqlı

Azərbaycan sözləri ilə əvəz etməyi vacib bilir. Məsələn, *rifahi-hal* yerinə *dolanacaq*, *güzəran* əvəzinə *qırım*, *əhvali-ruhiyyə* əvəzinə *təhər-tövr*. İnanır ki, bu sözlər işlənsə, dilin axarına girsə, qulağımıza yatıb adiləşəcək.

Bir çox alınma sözlərin lazımlığını nəzərə alaraq, onları dilimizdə saxlamağı məsləhət bilir. Ancaq bir şərtlə ki, qardaş xalqdan və ya başqa millətdən aldığımız sözlər mütləq Azərbaycan dilinin öz qanununa, dilimizin qrammatikasına, bütün incə xüsusiyyətlərinə tabe edilərək işlənsin: "Dilin qanunu, dilin ruhu sözlər üzərində hakim olsun". Beləliklə, həm alınma sözlərin lazımlığını vurğulayır, həm də əcnəbi sözləri onlardan fərqləndirir. Məsələ belədir ki, alınma sözlər təkcə bizim həyatımıza daxil olan başqa həyatın reallıqlarını, sosiumları bildirən işarələr deyil, ehtiyacdan dilə keçən sözlərdir; mənalarında aprobasiya baş verir, fonetik, qrafik, orfoqrafik, leksik, qrammatik, semantik cəhətdən mənimsəmə prosesi keçərək, dilin bütün normalarına uyğunlaşır və lüğət vahidinə çevrilirlər. Alınma sözün morfoloji quruluşu və digər formal mənsubiyyət elementləri dilin müvafiq quruluşuna uyğun gəlir və sözləri ilə harmoniya yaradır, söz yaradıcılığı prosesində iştirak edirlər. Əcnəbi sözlər isə Azərbaycan dili qrafikası ilə yazılsalar da, müəyyən izahsız anlaşılmırlar. Alınma müəyyən müddət ərzində dildə mövcud olan müxtəlif əcnəbi dil elementlərinin məcmusu yox, fasiləsiz bir prosesdir, o, sosial mədəni-tarixi səciyyə daşıyır. Bu antinomiyalar dilin inkişafına təkan verən stimullardır, ictimai tələbatdan dilə gələn sözlər dil sistemini dağıdıb məhv etmir, çünki inkişafda olan dilin daxili qanunları son nəticədə ictimai əhəmiyyətə malikdirlər. Doğru qənaətə gəlir: "Dünyada az-çox inkişaf etmiş elə bir dil yoxdur ki, o, başqa xalqların dilindən faydalanmamış olsun. Yalnız ayrı-ayrı kəlmələr deyil, bəzi ifadə formaları da bir dildən başqa dilə keçə bilir. Bu götürmələr, gətirmələr ana dilinin ruhuna, deyiminə, ahənginə, qrammatik qaydalarına, bir sözlə, qanına-canına yatırsa, xaric səslənmirsə, dili zənginləşdirir. Vay o haldan ki, o, başqa xalqın dilindən alınmış kəlmə, qanun və ahəng xüsusiyyətlərimizi nəzərə almadan dilə pərçim edilsin. Hər dilin əsrlər boyunca yaranmış biçimi, dadı-duzu var. Onun sözlərinin, ifadələrinin, deyiminin özünəməxsusluğu var. Bu çalarlar bəzən qabarıq, bəzən haman-haman duyulan olur. Dilin bu incəliklərinə toxunanda o sızlayır, göynəyir" (1,47).

Rəsul Rza Azərbaycan dilinin xalqın istək-arzularını ifadə edən bir şəkildə inkişaf etməsi uğrunda mübarizə apararkən zamanın dil quruculuğunun müvəffəqiyyətlərini də yaddan çıxarmır. Dilimizi 1925-26, hətta 1930-32-ci illərlə müqayisə edir, nə qədər böyük irəliləmə, inkişaf olduğunu göstərir. Müqayisə üçün 1925-ci il "Maarif və mədəniyyət" jurnalının bir nömrəsindən misal çəkir: "Hər şeydən əvvəl şunu qeyd etməliyik ki, məktəb dərslərində olan qramer kəndisinə əfv edilən böyük diqqət və əhəmiyyətə rəğmən, məktəbli çocuqlar tərəfindən hala da hüsn-təvəccöh qazanmamışdır". Və qeyd edir ki, bu dil heç bir zaman Azərbaycan xalqının dili olmamışdır. Azərbaycan dili Vaqifin: "Ay qabaqlı, bulud zülflü gözəlin, duruban başına dolanmaq gərək; Bir evdə ki, belə gözəl olmadı, o ev bərbad olub talanmaq gərək" misralarında əks olunmuş gözəl dilin ruhunu, ənənələrini saxlayaraq inkişaf etmişdir. Bu günün Azərbaycan dili də belədir: safdır, axıcıdır, gözəldir, sadədir (bax: 1, 37).

Azərbaycan dilinə "bir sıra zərərli cərəyanlar gəlməsini" vurğulayan ədib "bunlarla mübarizə eləməyi" hər bir Azərbaycan ziyalısının şərəfli işi hesab edir. Dilimizdəki nöqsanları şərti olaraq iki hissəyə bölür: 1) yerli-yersiz yeni sözlər gətirmək, onların mənasının başa düşülüb-düşülmədiyi ilə maraqlanmadan dili zibilləmək; 2) cümlə savadsızlığı, sözləri yerində işlədə bilməmək, Azərbaycan dilinin ən sadə qanun-qaydalarına tabe olmamaq. Bu nöqsanların hər ikisini qorxulu hesab edir, çünki hər ikisi dilimizi geniş xalq kütləsindən ayırır.

Rəsul Rza xüsusilə nüfuzlu və rəhbər, Mərkəzi Komitənin orqanı olan "Kommunist" qəzetində yer tutan nöqsanlara göz yuma bilmir, çünki "mərkəz və rayon qəzetləri, fəhlə və kolxozçular, ziyalılar ondan öyrənirlər". İstehzanı qrotesk səviyyəsinə yüksəldir: "Kommunist" qəzetinin bəzi əməkdaşları dilə lüzumsuz yeni sözlər gətirməkdə, həqiqətən, birinci yer tuta

bilərlər*: natura, uçastok, mexanizator, mobilizasiya, sort, pozisiya, transport, spekulyasiya, ekipaj, reys, produksiya, korpus, uçot, xormeyster, avariya, prosent, prostoy, komissariat, masştab, realizə etmək, maşinist, laryok, struktura, instruksiya, populyarlaşdırmaq, buksir* və bundan başqa yüzlərlə belə sözləri yazan qəzet işçiləri bir balaca özlərinə zəhmət versələr, bu sözlərin əvəzini Azərbaycan dilində tapa bilərlər" (1, 39).

Ən görkəmli yazıçılarımızın dilində belə hərc-mərclik olması diqqətindən yayınmır: "Onların dilində *sobor, kupol, dvornik, eqoizm, kaşa, svita, interes, qeroik, traktovka* sözləri ilə bərabər *təhti-himayə, hissi- qəbləlvüqü* və belə-belə şeylər də var. Məsələn, "Ədəbiyyat qəzeti" yazır ki, "Məcnun rolunun traktovkası düzgün deyil". Məcnun hara, traktovka hara? Ayrı-ayrı qəzetlərimizin, tərcüməçilərimizin bu və ya başqa sözü dilimizə gətirməsi ilə məsələ bitmir, yəni onlar sözlərlə birgə şəkilçiləri də işlədirlər". Məsələn, nümunələrə əsasən bildirir ki, indi bu saat çox yerdə *traktorçu* yerinə *traktorist* yazırlar, *uçot* sözünü peşə-sənət bildirən milli şəkilçimiz əvəzinə *-çik* şəkilçisi ilə *uçotçik* yazırlar: "Nə üçün gözəl *yedək* sözümüz varkən *buksir* yazılsın? Bizim qoca analarımız deyərlər ki, "başına yüz min qəza gəldi". Yaxud: "Görəsən, yazığa bir qəza üz verdimi?" Bunun yerinə bizim qəzetlər "qəza" deyil, "avariya" yazırlar" (ətraflı bax: 1, 40). Dilimizi belə şəklə salanları yazı dilimizi xalqdan uzaqlaşdırmaqda suçlayır.

O, həmişə dilimizin ayrı-ayrı problemləri haqqında açıq, sərbəst, geniş müzakirələrin tərəfdarı olmuşdur. Dil haqqında fikir söyləyən bəzi mütəxəssislərin yazılarındakı ayrı-ayrı cümlə, söz birləşmələri onda təəccüblə qarışıq təəssüf hissi doğurur: "Bu eksperiment, təcrübə dildə hərc-mərcliyə, özbaşınalığa aparıb çıxarmazmı?" Hansı məntiqlə "səciyyə daşıyır" demək olar, "Vurğun kəsildim" demək olmaz? Nə üçün "anmaq" demək olar, "anımlı" demək olmaz. "Duymaq"dan "duyum" sözü yaratmaq niyə qəbahət olsun? "Olmaq" sözü var, "ölmək" sözü var. Hansı məntiqlə "olum" sözünü rədd edib, "ölüm" sözünü işlətməliyik. Deyirlər: çünki belə demirlər. Nə olsun demirlər, deyərlər. Məncə, bu və bu qəbildən olan etirazlar, mübahisələr, fikir ayrılıqları hökm şəklində deyil, müzakirə, götür-qoy eləmək üçün bir baxım nöqtəsi şəklində olmalıdır" (1, 49). Müəllif Azərbaycan dilindəki *ötəri, keçəri, köçəri, gedəri, səfəri* və bu kimi sözlərin mənasında *öləri* sözünü daha üstün sayır. Dilimizdə *görüm, baxım, içim, gəlim, verim, atım (bir atımliq barıtı var), yeyim, geyim* və bu kimi sözlər olduğunu və onlardan düzgün istifadə etmədikdə yanlış məna alındığını qeyd edir. Məsələn: "Bu vaxta qədər böyük bir nazirliyin adı "Yeyinti sənayesi" şəklində işlənir. Məlumdur ki, *yeyinti* mənfi mənada olan sözdür (filan yerdə bu qədər yeyinti olmuşdur)" (bax: 1, 51). Nazirliyin adının "Yeyim nazirliyi" olmasını daha doğru hesab edir.

Rəsul Rzanın tədqiqatları ən kiçik dil vahidlərindən böyüyə doğru gedir – fonetikadan başlanıb, ardıcıl şəkildə morfoloji və sintaktik səviyyələrə doğru irəliləyir. Dilin fonetik, leksik, semantik, morfoloji və sintaktik normalarına realistcəsinə yanaşır, söyləmin anlamına diqqət yetirir, real həyatda *necə deyilir* və *necə deyilməlidir* məsələlərinə aydınlıq gətirir. Sifətin çoxaltma dərəcəsi keyfiyyətin adi dərəcə ilə müqayisədə çoxluğunu bildirir. Əlamət və keyfiyyətin adi normadan artıq olduğunu ifadə etmək yollarından biri fonosintetik üsuldur. Bu halda sifətin ilk iki səsinə *m, p, s, r* səslərindən biri əlavə edilir və söz bütövlükdə yenidən təkrarlanır. Müəllif bu formanı *qoşalaşma* adlandırır: "Bəzən bir söz başqası ilə necə qoşalaşdığından asılı olaraq yeni məna çaları verir. "Qırmızı", "düz", "yaşıl" sözlərinə "qıp", "düm", "yam" əlavələr etməklə onların mənasında yeni şiddət, daha artıq məna çalarları yaranır: "qıpqırmızı", "dümdüz", "yamyaşıl". Bütün belə qoşalaşdırmalarda əlavə hissə əvvəl, sözün əsli sonra gəlir – *yumyumşaq"*. Lakin bir istisnanı nəzərə alır: "Yalnız *ağ* sözündə əlavə ikinci sıraya keçir: *ağappaq.* Niyə*?"* (1, 47-48). Cavabını dilçilərin öhdəsinə qoyur.

Avropa mənbəli termin elementlər Azərbaycan dilində canlı suffiksasiya, prefiksasiyada işlənmir, bu alınma morfoformantlar müntəzəm şəkildə yeni sözlər yaratmaq qabiliyyətinə malik deyillər. Onlar söz tərkibində üzvlənmir, bağlı çıxış edir, sözlərlə birlikdə dilimizə daxil

olurlar. Bununla belə, bu formantların Azərbaycan dili sözlərinə qoşulması faktlarını müşahidə etdiyindən (məsələn, bu gün də dilimizdə işlənən *antimüharibə, hiponüvə* və s.) ədib, rus dilində olduğu kimi, qeyri-, anti-, əks-, na-, bi- və bu kimi sözün mənasını dəyişən derivasiya, termin elementlərdən yaradıcı şəkildə istifadə etməyi, onların tətbiq dairəsini zənginləşdirməyi tövsiyə edir. O, dillər üçün ümumi, müştərək prinsipləri müəyyənləşdirməyi, onlara rasional-fəlsəfi baxımdan qiymət verməyi bacarır. İnsanın daxilində maksimum yığcamlığa, sadəliyə meyil vardır, bu qənaət dildə də özünü göstərir, əks halda bəzi yanlışlıqlar yaranır. Məsələn, şair *öz* əvəzliyindən bəhs edərkən yazır: "Müşavirə işini qurtardı" yerinə, "Müşavirə *öz* işini qurtardı" deyirik. "Əhməd oğluna nəsihət elədi" yerinə, "Əhməd *öz* oğluna nəsihət elədi". Bəzən bu *öz* sözü gərək olur. Məsələn, belə bir cümlədə: "Əhməd uşaqların mübahisəsinə qulaq asdı, *öz* oğlunu danladı", ya "Əhməd kitablar arasından *öz* kitabını götürdü". Başqa bir nümunədə: "İndiki danışıq və yazı dilimizdə "artıqlaması ilə", "plana dair" və bu kimi sözlər geniş işlənir. Məlumdur ki, "artıq" sözünün *çox* ifadə edən mənasından başqa bir də *qalıq* ifadə edən mənası vardır. *Artıqlama* isə uydurma sözdür, hələ "-sı" da əlavə ediləndə eybəcər bir söz yaranır. Bir halda ki, "daha çox", "daha artıq" deyilərsə, həm aydın, həm də yaxşı olar". Mətbuatda və danışıqda tez-tez işlədilən *kol* sözünü də mexaniki tərcümə bəlası hesab edir: "əslində *kust* kol deyil, "dəstə, topa" mənasındadır; ata-babadan "nar topası", "gül topası", "pambıq topası" eşitmişik, indi "gül kolu", "pambıq kolu" yazırıq" (ətraflı bax: 1, 46-47).

Dilimizin inkişafında yeni söz yaratmanı mühüm şərt, ehtiyacdan doğan elmi-məntiqi bir hadisə hesab edir və belə bir qənaətə gəlir ki, yeni sözlər və ya yeniləşdirilən sözlər süni yox, dilin tarixi gəlişi, axarından doğmalı, semantik əhatə dairəsində, lüğət imkanlarında olmalıdır. Bu gün də ədəbi dilimizdə, canlı danışıqda işlədilən *özümləşmək, özümlü, gətirmə, bəlirmək, bəlir, gərəklik, nəğmələnmək, ayrılış, eşidimli, doyumsuz, öyrənc, çağdaş, sənətdaş, əsrdaş, çimərlik, uçarlıq* kimi sözlər şairin fərdi yaradıcılıq məhsuludur. Əmindir ki, dilə gərəkli, uyar olan, dilin qəhətliyini doldura bilən sözlər qalacaq, olmayanlar lazımsız bir şey kimi sıradan çıxacaq.

"Qrammatik qaydalar mövcud dil əsasında yaranır", – deyən müəllif haqlıdır, dilin qanunauyğunluğunun sistemləşməsi də dil materialından doğur. Ehtiyat edir ki, bu gün səhv sayılan bir ifadə, söz, tərkib sabah varlığını doğrulda bilər. Məsələn, "qəzet yazır" ifadəsinə təəccüblə yanaşır, əslində "qəzetdə yazılmışdır", "dərc olunmuşdur"u daha dürüst hesab edir. Müəllifin fikrincə, Sabir: "Adətimiz daş idi, dava günü", – deyərkən formal məntiqin qanunlarına əsaslanıb. Ədib ritorik sualla müraciət edir: adət necə daş olur? Burada "atmaq" sözü çatmır. Gərək "Adətimiz daş atmaq idi, dava günü" deyilsin. Aydındır ki, Sabirin yazdığı daha lakonik olmaqla məna anlamında heç bir "necə?" doğurmur. Sabir: "Gəl-gəl, a yaz günləri", – deyir, "Gəlin", – demir. Bu, qrammatik baxımdan "səhv", əslində isə düzdür". Belə qənaətə gəlir ki, dilin müəyyən qaydalarını gözləmək şərtdir, lakin onu məhdud çərçivəsində saxlamaq lazım və mümkün deyil (ətraflı bax: 1, 50).

Şair dialektləri əsərlərin bədii keyfiyyətinə müsbət təsir edən, kolorit verən bir etnoqrafik fakt, saf, etibarlı mənbə kimi dəyərləndirir, ədəbi dilimizin təkcə alınma sözlər deyil, öz daxili imkanları – dialekt və şivələrimiz hesabına zənginləşməsi üçün mənbə, baza hesab edir.

Rəsul Rza yaradıcılığı konkret poeziya ilə məhdudlaşmır, o, həm də istedadlı publisist, tərcüməçi, naşir və dilçidir. Azərbaycan poeziyasındakı novatorluğunu məşğul olduğu bütün sahələrdə, xüsusilə dilçilik görüşlərində qoruyub saxlamışdır. Yaradıcılıq simfoniyasını özü belə cavablandırır: "Mən küləyəm, əsməsəm; kim bilər ki, mən varam".

Ədəbiyyat

1.Rəsul Rza. Seçilmiş əsərləri. V c., Bakı, "Öndər", 2005, s.46.

N.Mammadli

The linguistic viewpoint of Rasul Rza

(Basing on the articles dealing with "Analyses" and "The present state of the Azerbaijan language and its future duties")

Summary

In Rasul Rza's opinion, some factors such as political, economic, cultural-historical affect the formation of the language. There are some kinds of words, expressions which are used much in the language are observed not to be adopted by the language. For instance, the words such as *mood, mentality, viewpoint, autobiography* and some others are considered to be important to be replaced by many other clear Azerbaijan words. Rasul Rza prefers to use *dolanacaq* instead of the word *rifahi-hal; qırım* instead of *guzaran; təhər-tövr* instead of *əhvali-ruhiyyə.* He believes that these words will become common (ordinary) if they are used much. Considering the necessity of many borrowings, he advises to keep them in our language. According to the opinion of this poet, it is considered to be possible only in that case the borrowings from other nations should follow the rules of the Azerbaijan language, its grammar, etc. The poet states that there are some 'harmful currents' which needs to fight against. He considers this fight to be the honor for an Azerbaijan intelligent. He divides the defects in our language into two parts: 1) to waste the language by borrowing any words not paying any attention whether they are useful or not; 2) not to use the words in their right order. He names it 'sentence illiteracy', and he blames those who do not pay any attention to the simplest laws of the Azerbaijan language. He defines all of these two defects harmful as they are able to divide the language of our people.

Rasul Rza's investigations go from the simplest language units up to the largest ones. They begin from phonetics, and then regularly follow the morphological and syntactic levels. He realistically approaches the phonetic, lexical, semantic, morphological and syntactic norms of the language, and he clarifies the problems how *it is said*, and *how it must be said* in the real world.

He is able to define common, joint principles of the language and to evaluate them from a rational and philosophical point of view. There is a tendency for maximum concentration and simplicity within a person, and this saving is manifested in the language, otherwise there may be some misunderstanding.

The development of the new vocabulary is an important prerequisite, a scientific and logical phenomenon, and concludes that new words or updated words should be artificial rather than artificial, in their native language, in semantic terms, in vocabulary capabilities.

The words which are used in our language nowadays such as *özümləşmək, özümlü, gətirmə, bəlirmək, bəlir, gərəklik, nəğmələnmək, ayrılış, eşidimli, doyumsuz, öyrənc, çağdaş, sənətdaş, əsrdaş, çimərlik, uçarlıq, etc.* are individual creative product of a writer.

Key words: word forming, to protect the soul of the language, purism, borrowings, international words, morphoformants, norm

Н.Мамедли

Лингвистические взгляды Расула Рзы

(на материале статей автора «Рассуждения» и «О современном состоянии азербайджанского языка и его будущих задачах»)

Резюме

По мнению просветителя, на формирование языка влияют ряд политических, экономических, культурно-исторических факторов. Существует многие слова, состав слов, которые, несмотря на их использование, таки не были языком обнародованы. Например, такие слова, как *əhvali-ruhiyyə, rifahi-hal, sərf-nəzər, nöqteyi-nəzər, tərcümeyi-hal* и т.д. он считал важным заменить азербайджанскими словами: вместо *rifahi-hal dolanacaq*, вместо *güzəran qırım*, вместо *əhvali-ruhiyyə təhər-tövr*. Он верил, что если эти слова будут употребляться, станут обыденными словами. Учитывая надобность некоторых слов, он советовал их оставить в языке. Но с учетом того, что заимствуя слова из других языков они должны подчиняться грамматическим правилам азербайджанского языка, использоваться в соответствии с тонкостями языка.

Указывая на «приход вредных направлений» на азербайджанский язык, просветитель считал, что борьба с ними это честь для каждого азербайджанского интеллигента. Недочеты в языке он делит условно на две части: 1) используемые не к месту слова, не зная их значение засоряющие язык; неправильное упобребление слов, предложений, не подчинение их правилам азербайджанского языка. Эти недочеты он считает опасными, так как оба варианта разделяют наш язык от широкой народной массы.

Исследования Расула Рзы идут от малой единицы языка к больгой – начинается с фонетики, постепенно переходит к морфологическому и синтаксическому уровню. Он реалистически подходит к фонетической, морфологической, семантической и синтаксической нормам языка, привносит ясность к тому как используется и как должно быть использоваться. Он может определять и оценивать с рационально-философской точки-зрения общие для языков принципы. Человек стремится к простоте и лаконичности, данное заключение и в языке себя проявляет, в противном случае могут возникнуть некоторые неточности.

Он считает словообразование важным условием, научно-логическим событием в развитии языка и приходит к выводу о том, что новые слова должны естественным путем войти в язык, имея семантическое поле. И в настоящее время, используемые в живой разговорной речи такие слова, как *özümləşmək, özümlü, gətirmə, bəlirmək, bəlir, gərəklik, nəğmələnmək, ayrılış, eşidimli, doyumsuz, öyrənc, çağdaş, sənətdaş, əsrdaş, çimərlik, uçarlıq* являютсяиндивидуально-творческим продуктом автора.

Ключевые слова: словообразование, сохранение духа языка, пуризм, заимствованные слова, интернациональные слова, морфоформанты, норма.

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi:01.08.2019
Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayev tərəfindən çapa tövsiyə olunmuşdur.

İDRİS ABBASOV
AMEA, Nəsimi adına Dilçilik İnstitutu, f.e.d.
idris.abbasov.2017@mail.ru
GÜNEL BAYRAMOVA
ADU, filologiya üzrə fəlsəfə doktoru
gunelf@mail.ru

SƏS TONUNUN TƏSVİRİ İLƏ BAĞLI MƏKAN METAFORALARININ İYERARXİK STRUKTURU (SEMİO-KOQNİTİV YANAŞMA)

Xülasə

Ç.Pirsin semiotikasına işarələr, işarə prosesləri, adlandırma, analogiya, metafora, oxşarlıq, simvolizm, əlamət və kommunikasiya daxildir. Orada 64 müxtəlif işarə növündən bəhs edilir. O, indeks, ikona və simvolları bir-birindən fərqləndiridi. Məlum olduğu üzrə, koqnitiv linqvistika təliminin əsasında metforalar nəzəriyyəsi dayanır. Bu nəzəriyyənin ardınca metaforaya qeyr-ənənəvi yanaşmalar geniş yayılmağa başlamışdır. Artıq, *metafora* dedikdə təkcə ədəbiyyatşünaslıqdan bildiyimiz ənənəvi istiarə başa düşülmür. Linqvistik metaforalar, koqnitiv metaforalr, mental metaforalar, konseptual metaforalar, psixoterapevtik, metaforalar, məkan metaforaları və s. kimi müxtəlif elm sahələrində işlənən çox sayda metafora mövcuddur. Səs tonlarının, məkan-səs reprezentasiyalarının koqnitiv müstəvidə araşdırılması *musiqi metaforaları*nın tədqiqini xeyli aktuallaşdırmışdır. Bu istiqamətdə araşdırmaların sayı getdikcə artmaqdadır (1; 2; 3; 4; 5; 6; 7; 8; 9). Səs tonlarının təsviri ilə bağlı məkan metaforalarının strukturuna semio-koqnitiv yanaşma, linqvistik və qeyri-linqvistik metaforaların bir-birindən fərqləndirilməsi xüsusi aktuallıq kəsb edir. Ümumiyyətlə, koqnitiv fəaliyyətlər dillə beyin strukturu arasındakı əlaqələri başa düşmək məqsədilə linqvistika, psixologiya, neyropsi-xologiya, neyrolinqvistika, neyrofiziologiya və digər elm sahələrində çoxsaylı tədqiqtların predmeti olmuşdur. Bir çox dillərdə səs tonu vertical məkan baxımından metaforikləşdirilir. Yüksək tezlikli ton "yüksək", alçaq tezlikli ton "alçaq" adlandırılır. Hazırkı məqalədə koqnitiv linqvistikanın başlıca müddəaları ilə yanaşı, koqnisiya, səs-məkan inikası, mental metaforaların universallığı, linqvistik və konseptual metaforalar tədqiqata cəlb olunur, iyrarxik mental metafora nəzəriyyəsinin mahiyyətinə aydınlıq gətirilir.

Açar sözlər: səsin yüksəkliyi, qeyri-linqvistik, iyerarxik, kross-domeyn, identiklik, inikas, metafora, neyrofiziologiya

Koqnitiv linqvistikanın sıx bağlı olduğu epistemologiya elmi dilin yaradılması, öyrənilməsi və istifadəsinin ən mükəmməl şəkildə insan idrakına istinad etdiyini təsdiqləyir. "Koqnisiya" termini müxtəlif elm sahələrində müxtəlif cür mənalandırılır. *Koqnisiya* dar mənada "idrak" və "şüur" məfhumlarının sinonimi kimi anlaşıla bilər. Geniş mənada isə onun duyğu orqanları tərəfindən dərk etmək, saxlamaq, emal etmək və toplanmış məlumatdan faydalanmaq üçün beynin (idrakın) qabiliyyətinə əsaslanması mümkündür. Hazırkı prosesi koqnitiv cəhətdən təsvir etmək istəsək, onda hədəfə çatmaq üçün həmin prosesi həyata keçirilmiş fəaliyyətlər məcmuyu kimi nəzərdən keçirməliyik. Təbii dillər insan idrakı tərəfindən gerçəkləşdirilən koqnitiv fəaliyyətlər arasında yüksək yer tutur. Koqnitiv fəaliyyətlər dillə beyin strukturu arasındakı əlaqələri başa düşmək məqsədilə linqvistika, psixologiya, neyropsixologiya, neyrolinqvistika, neyrofiziologiya və digər elm sahələrində çoxsaylı tədqiqtların predmeti olur. Koqnitiv

linqvistika daxili mental proseslərə xüsusi əhəmiyyət verməklə dil tədqiqinə ümumi yanaşmadır (11; 12; 13; 14).

V.Kroft və A.Kruz dilə koqnitiv baxımdan yanaşmanı səciyyələndirən üç fərziyyə irəli sürürlər: a) dil avtonom koqnitiv qabiliyyət deyildir, b) qrammatika konseptuallaşmadır, c) dil haqqında bilik dilin istifadəsindən doğur. Müəlliflərin vurğuladığı kimi, bu üç fərziyyə əslində o zaman sintaksisə və semantikaya yanaşmaya ilk koqnitivistlərin cavabı idi. Birinci prinsip törədici qrammatikanın "dil qeyri-linqvistik koqnitiv qabiliyyətlərdən təcrid olunmuş avtonom koqnitiv qabiliyyət, yaxud moduldur" kimi məşhur fərziyyəsinə qarşıdır. İkinci prinsip semantik metadilin dünyada həqiqət və yalan nöqteyi-nəzərindən dəyərləndirilən həqiqətlə şərtləndirilmiş semantikaya qarşıdır. Üçüncü prinsip isə istər törədici qrammatika, istərsə də həqiqətlə şərtləndirilmiş semantika ilə ziddiyyət təşkil edir. Törədici qrammatika və həqiqətlə şərtləndirilmiş semantika bu gün aktiv tədqiqat paradiqmaları kimi mövcud olmaqdadır. Ona görə də koqnitiv linqvistlər öz fərziyyələrinin xeyrinə dəlillər gətirməkdə davam edir, habelə koqnitiv-linqvistik paradiqma çərçivəsində sintaksis və semantikanın konkret emririk məsələlərini müzakirə edirlər (14, s. 1-2).

Məlum olduğu kimi, koqnitiv linqvistika tərəfdarları dili öyrənmək üçün idrakın müstəqil və tək vahidə malik olduğunu qəbul etmirlər. Bu pozisiya törədici qrammatikanın mahiyyəti ilə ziddiyyət təşkil edir. Bununla belə, koqnitivistlər insanın dil qabiliyyətinin bir hissəsinin fitri olduğunu qəti şəkildə inkar etmirlər. Həmin dil qabiliyyəti insan idrakının qalan hissəsindən təcrid olunmamışdır. Bu minvalla, koqnitiv linqvistlər belə hesab edirlər ki, dil fenomenləri haqqındakı bilik, yəni fonetika, morfologiya və tərkiblər (sintaksis, söz birləşmələri, strukturlar) öz mahiyyətinə görə konseptualdır. Bundan başqa, onlar sübuta yetirməyə çalışırlar ki, linqvistik məlumatların saxlanılması və iqtibası heç də başqa elmlərin saxlanılması və iqtibasından çox fərqlənmir. Bununla da, idrak prosesində dildən istifadə olunması qeyri-linqvistik məsələlərdə tətbiq olunan oxşar koqnitiv qabiliyyətləri funksionallaşdırır.

Simvol müəyyən bir məqsədə xidmət edir. Çünki o, konsepti ifadə etmək üçün şüurdan törəmişdir. Bəşər varlığının genişləndirilmiş şüuru dil qabiliyyəti üçün təməl rolunu oynayır. Deməli, dil digər koqnitiv qabiliyyətlərdən asılıdır. Dilin spesifikliyi onun düşünülmüş simvolik xarakteridir. F.Sössürün linqvistik işarəsi simvolik bağla əlaqələnmiş iki psixi vahidin assosiasiyası ilə xarakterizə olunur: konsept (işarə olunmuş) və akustik təsvir (işarə edən). C.Teylor (2002) simvolik əlaqə vasitəsilə iki qütbü bir-birinə birləşdirərək dil işarəsinin F.Sössürə xas təyin olunması ilə R.Lanqakerə xas simvolu arasındakı oxşarlığı xatırladır. Bunlar fonoloji struktur və semantik strukturdan ibarətdir (15, s. 174-175)

Koqnitiv linqvistlər şərtləşdirilmiş həqiqətlə əlaqədar semantika məktəbini tərk edərək mənanı konsept konstruksiyası baxımından nəzərdən keçirirlər. Mənaya dünya modeli nöqteyi-nəzərindən baxmaq əvəzinə, ona əqli (mental) məkanlar müstəvisində baxırlar.

Nəhayət, koqnitivistlər iddia edirlər ki, dil müəyyən bir mühitdə təcəssüm edir. Bunu Sapir-Uorf fərziyyəsinin mötədil bir qolu kimi nəzərdən keçirmək olar, çünki dil və idrak təcrübənin ayrılmaz hissəsi olub bir-birinə təsir edir. Bəzi dilçilərə görə, koqnitiv linqvistika üç əsas tədqiqat sahəsinə ayrılır:

a) Əsas etibarilə, leksik mənalarla məşğul olan koqnitiv semantika.

b) Başlıca olaraq, tərkibləri, morfologiyanı və ənənəvi qrammatikanın digər sahələrini öyrənən qrammatikaya koqnitiv yanaşmalar.

c) Koqnitiv fonetika.

Koqnitiv linqvistikanın koqnitiv aspektləri aşağıdakıları ehtiva edir:

- Sintaktik qaydalar və koqnitiv qrammatika.
- Konseptual metafora və konseptual blend (qarışıq).
- Obraz-sxemlər və güc dinamikaları.

– Konseptual tənzimləmə: təsnifatlandırma, metonimiya, semantik çərçivələr, ikoniklik.
– İllüstrasiya və identiklik.
– Jest və işarə
– Linqvistik nisbilik.
– Koqnitiv nevrologiya.

Yuxarıda deyilənlərin çoxu ilə kəsişən bir sıra məsələlər vardır:

– Dilin iqtibası və mənimsənilməsi üçün kompüter modelləri.
– Psixolinqvistik tədqiqtlar.
– Törədici linqvistikanın nümayəndəsi, dilçi-alim R.Cekendofun konseptual semantikası aktiv psixoloji gerçəkliklə bağlı olub model-formaları və ritorik obrazları əhatə edir (16).

Koqnitiv linqvistikanın istifadə etdiyi terminologiyanın qeyri-stabil olması müəyyən çətinliklərə səbəb olur ki, bunu sözügedən elm sahəsinin yeniliyi ilə izah etmək olar. Həm də koqnitiv linqvistika bir sıra digər elm sahələri ilə sıx əlaqədardır.

Çarlz Pirs öz semiotikasında (bura işarələr, işarə prosesləri, adlandırma, analogiya, metafora, oxşarlıq, simvolizm, əlamət və kommunikasiya daxildir) 64 müxtəlif işarə növündən bəhs edirdi. O, indeks, ikona və simvolları bir-birindən fərqləndiridi (1, s.212).

Məlum olduğu üzrə, koqnitiv linqvistika təliminin əsasında metforalar nəzəriyyəsi dayanır. Bu nəzəriyyənin ardınca metaforaya qeyr-ənənəvi yanaşmalar geniş yayılmağa başlamışdır. Artıq, *metafora* dedikdə təkcə ədəbiyyatşünaslıqda öyrənmdiyimiz *istiarə* başa düşülmür. Linqvistik metaforalar, koqnitiv metaforalar, mental metaforalar, konseptual metaforalar, psixoterapevtik (17) metaforalar, musiqi metaforaları (4), məkan metaforaları və s. kimi müxtəlif elm sahələrində işlənən çox sayda metafora mövcuddur.

Biz D.Kasasantonun musiqi səslərinin məkanda reprezentasiyası, universalilər və dil xüsusiyyətləri, səsin təsviri ilə bağli məkan metaforalarinin iyerarxik strukturu haqqında araşdırmaları üzərində bir qədər dayanacağıq.

Belə ki, bir çox dillərdə səs tonu vertical məkan baxımından metaforikləşdirilir. Yüksək tezlikli ton "yüksək", alçaq tezlikli ton "alçaq" adlandırılır. Lakin bu, məkanla bağlı səs tonunu göstərmək üçün yeganə metafora deyil. Fars və türk dillərində yüksək tezliyə malik tonu ifadə etmək üçün "nazik" (incə), alçaq tonu ifadə etmək üçün "qalın" sözlər mövcuddur. İngilisdilli insanlar ton haqqında fikir yürüdərkən şaquli məkan-tona üstünlük verirlər.

İnsanlar dildən istifadə etmədikdə də məkan-ton assosiasiyalarından istifadə edirlərmi? Tonla bağlı mental metaforalar onların linqvistik metafora təcrübəsindən irəli gəlirmi? Qeyd edildiyi kimi hollandlar səs tonunu *hoog* (yüksək) və ya *lag* (alçaq), farsdillilər isə "nāzok" və "koloft" kimi təsəvvür edirlər (8, s.51).

D.Kasasanto öz əsərində Dolçeydin dil daşıyıcıları üzərində apardığı təcrübəyə müraciət edir. Bu təcrübədə səs tonunun qeyri-linqvistik cəhətlərinin aşkar edilməsi üzərində dayanılır. Səs tonlarını təsvir etmək üçün nəzərdə tutulan xətlər yüksəkliyə və ya aşağılığa görə fərqlənirdi. Holland dil daşıyıcılarının ton yüksəkliyi ilə bağlı fərziyyələri məkanla bağlı verilən fərqli məlumatlar nəticəsində güclü təsirə məruz qalır. Kompüter ekranında bu səsi göstərmək üçün oxunan not verilən müvafiq yüksək xətdən daha yüksək və aşağı xətdən daha aşağı ifa olunurdu. Belə olduqda müxtəlif qalınlığa malik xətlər holland dilli iştirakçılarda ton ölçüsü ilə bağlı təəsürat yaratmırdı. Farsdilli iştirakçılar üçün tədqiqatın nəticələri fərqli idi. Başqa sözlə, bununla bağlı fars və hollandlar üzərində təcrübə aparılır. Hollandlara müvafiq səslər kompüter ekranında hündür və alçaq xətərlə göstərilir. Onlar bu səsləri yüksək və aşağı tonallıqda oxuyur, lakin qalın və nazik səsləri görəndə reaksiya vermirlər; farsdillilərdə isə bu, əksinə olur. İnsanlar musiqi səsini təsvir etmək üçün məkan interferensiyasına müraciət edirlər ki, bu da onların dilində məkan-səs metaforalarının yaranmasına gətirib çıxarır (8, s.51-52).

C.Lakof və M.Consonun metafora nəzəriyyəsinin başlıca prinsiplərindən biri də mental (konseptual) metaforalarla inqvistik metaforalar arasındakı fərqi ayırd etməkdir. Konseptual metafora biliyin iki müxtəlif strukturu, yaxud iki müxtəlif sahə arasında koqnitiv inikas, yaxud metaforik proyeksiyadır. İki sahə dedikdə, mənbə-sahə ilə hədəf-sahə nəzərdə tutulur. Birinci ikinciyə nisbətən daha konkret hesab olunur. Linqvistik metafora eyni layihələşdirmənin (inikasın) dil vasitəsilə ifadəsidir. L.Zbikovski musiqinin dərk edilməsində kross-domeyn layihələşdirməsinin mühüm rolundan bəhs edir. Kross-domeyn layihələşdirməsi musiqi konseptini başqa sahələrin, o cümlədən dillə assosiasiya olunmuş sahələrin konseptləri ilə əlaqələndirir. Eyni zamanda o, gündəlik təcrübədən alınmış konseptlər vasitəsilə gözə çarpmayan musiqi hadisələrinin təsvirini verir. Bütün bunlar konseptlərlə musiqi nəzəriyyəsi arasında əlaqələrin qurulmasına xidmət edir. Məhz kross-domeyn layihələşdirmə sayəsində musiqi sahəsi fiziki jest sahəsi kimi digər sahələrlə əlaqəyə girir (2, s.64).

Belə sual doğa bilər ki, linqvistik metaforaların tətbiqi mövcud mental metaforalardan istifadəyə necə təsir göstərə bilər? Bunu dəqiqləşdirmək məqsədilə məkan-səs uyğunluğunu aşkarlamaq üçün 4 aylıq körpələr üzərində təcrübələr aparılmışdır. Artan və azalan səslərə qulaq asan zaman körpələrə yuxarı və aşağı hərəkət edən toplar, yaxud nazikləşən və qalınlaşan silindir göstərilirdi. Bu müşahidə məkan-zaman mütənasibliyinin pozulması ilə müşayiət olunmuşdur. Məlum olmuşdur ki, körpələr müvafiq ardıcıllıqda baş verən hərəkətlərə daha uzun müddət baxdıqları halda, səs-məkan uyğunluğunun pozulması hallarında daha az konsentrasiya olurlar. Bu, həm yüksəklik, həm də qalınlıqla bağlı davranışda eyni şəkildə özünü göstərmişdir. Yüksəklik və ya qalınlığa görə məkan-səs uyğunluğunun həcmində uşaq təfəkkürü üçün heç bir fərq aşkarlanmamışdır. *Demək, körpələr dildə bu anlayışlarla bağlı metafora yaratmaq və ya onları anlamaq qabiliyyətinə malik deyil*. Lakin onlar dil daşıyıcılarının səslə bağlı qeyri-linqvistik təsəvvürlərində olan metaforanı duymaq qabiliyyətinə malikdirlər. Bu isə səsin təsviri ilə bağlı müxtəlif linqvistik metaforalardan istifadə edən insanlarda sözügedən anlayışla bağlı fərqli fikirlər yaradır. Bunun səbəbi o deyildir ki, dil onlara hansısa məkan əlaqələndirməsini aşılayır, ona görədir ki, dil onların şüurunda mövcud olan məkan-səs əlaqəsinin biri digərinə nisbətən güclüdür. Deməli, linqvistik metaforalar və qeyri-linqvistik olan konseptual metaforalar arasında əlaqə mövcuddur (8, s.52-53).

Səsin təsviri ilə bağlı məkan metaforalarının iyerarxik strukturundan bəhs edən D.Kasasanto səslə bağlı yüksəklik və ya qalınlıq təsəvvürlərinin aktuallığını diqqətə çatdırır. O belə bir sualla çıxış edir: uşaqlarda necə olur ki, böyüdükdən sonra bu əlaqələndirmənin yalnız biri aktual olur? Müəllif bu prosesin iyerarxik mental metafora nəzəriyyəsi ilə izah oluna biləcəyini iddia edir. İlk növbədə superordinat sahə müəyyən olunur. Məkan və səslə bağlı bu sahə həm yüksəkliyi, həm də qalınlığı özündə əks etdirir. Səs-ton əlaqələndirməsi, yüksək səslə danışan zaman insanın qeyri-ixtiyari şəkildə qırtlaq, çənə və ya digər bədən üzvlərini (bəzən qaşlarını) qaldırması, və ya alçaq səslə danışan zaman aşağı salması ilə də izah olunur. Çox vaxt yüksək səsin yüksək nöqtədən, alçaq səsin isə aşağı nöqtədən əks olunması ilə bağlı statistik məlumatlar da mövcuddur. Həcm-səs inikası bu səsin yarandığı obyekt və varlıqların ölçüsü arasındakı əlaqəni əks etdirir: məsələn, gitaranın qalın və nazik simlərinin müvafiq olaraq səsləndirilməsini; qalın və ya nazik boruya zərbə endirən zaman gələn səsi, yaxud kiçik və ya böyük itlərin hürüşməsi zamanı səslərindəki müvafiq fərqi nümunə gətirmək olar. Hərçənd ki, səs tonu və səs həcmi inikasının uşaq təfəkküründə eynilə mövcud olduğunu iddia edənlər vardır, bununla belə bu inikasın nə vaxt və necə reallaşması məsələsi hələ də açıq qalır.

D.Kasasanto yazır: "Məkan-səs inikasının dildən öncəki mərhələdəki əsas mənşəyinin nə olmasından asılı olmayaraq, uşaqlar dildə metaforaları öyrənməyə başladıqda artıq ikinci proses başlayır. Dolçeyd və həmkarlarının (2013) böyüklərdə apardığı müşahidələrdən aydın olur ki, insanlar hər dəfə linqvistik metaforadan (məs: "*yüksək* səs") istifadə edəndə onlar müvafiq

mental metaforanı fəallaşdırır və bununla da həmin assosiasiyanı, yəni məkan-səs assosiasiyasını digər rəqabət aparan assosiasiyaya nisbətən gücləndirir. Nəticədə holland və ya ingilis dillərində danışanların (üzərində təcrübə aparılan dillərin – *müəlliflər*) səs təsəvvürləri vertikal sxemə uyğun qərar tutur, fars dililərdə isə çoxaspektli məkan sxemi daha güclü təəssürat yaradır" (8, s.54-55).

İyerarxik mental metafora nəzəriyyəsinə görə müvafiq linqvistik metaforaların istifadəsi vasitəsilə mental metaforaların güclənməsi prosesi digər eyni ailədən olan assosiasiyaların zəifləməsinə gətirib çıxarır, amma onları tamamilə yox etmir. Nəzəriyyənin bu aspekti təsəvvür elastikliyi ilə izah olunur. Mental metaforaların formalaşmasında dilini mühüm rolunu vurğulayan D.Kasasanto qeyd edir ki, linqvistik təcrübə pre-linqvistik mənbə-hədəf inikaslarını (layihələşdirmələrini) modifikasiya edir. "Bizim mental metaforalarımız iyerarxiya üzrə strukturlaşmışdır" (7, s. 164).

Ədəbiyyat:

1. Seifert U. Semantics of Internal and External Worlds / Language, Music, and the Brain: A Mysterious Relationship by ed. Arbib A. London: MIT Press, 2013, 680 p., pp. 203-233.
2. Zbikowski L. Conceptualizing Music: Cognitive Structure, Theory, and Analysis. New York: Oxford University Press, 2002, 376 p.
3. Temperley D. The Cognition of Basic Musical Structures. London: MIT Press, 2004, 404 p.
4. Julia E., Spitzer M. Metaphor and Musical Thought. University of Chicago Press, 2004, 380 p.
5. Truth, Rationality, Cognition, and Music by ed. K. Korta, Jesús M. Larrazabal. Springer Science & Business Media, 2013, 254 p.
6. Honing H. Musical Cognition: A Science of Listening. New Brunscwisk and London: Transaction Publishers, 2014, 165 p.
7. Casasanto D. Linguistic relativity / The Routledge Handbook of Semantics by ed. Nick Riemer. New York: Routledge, 2015, 534 p., pp. 158-175.
8. Casasanto, D. The hierarchical structure of mental metaphors / In B. Hampe (Ed.), Metaphor: Embodied cognition and discourse, Cambridge: Cambridge University Press, 2017, pp. 46-61.
9. Zbikowski L. Foundations of Musical Grammar. New York: Oxfd. University Press, 2017, 255 p.
10. Lakoff J., Johnson M. Metaphors we live by. Chicago and London: University of Chicago Press, 1980, 256 p.
11. Lakoff G. Women, fire, and dangerous things: What categories reveal about the mind. Chicago: University of Chicago Press, 1990, 614 p.
12. Lakoff G. and Turner M. More than cool reason: A field guide to poetic metaphor. Chicago: University of Chicago Press, 1989, 230 p.
13. Croft W., Cruse A. Cognitive Linguistics. New York: Cambridge University Press, 2004, 374 p.
14. Abbasov İ. Koqnitiv linqvistika haqqında // Dilçilik İnstitutunun əsərləri, № 1, 2017, s.168-194.
15. Taylor J. Cognitive Grammar, Oxford: Oxford University Press, 2002, 634 p.
16. http://academiworld.org/blog-post_20/
17. Barker Ph. Psychotherapeutic Metaphors: A Guide to theory and practice. Routledge, 2013,176 p.

И.А.Аббасов
Г.М.Байрамова

Иерархическая структура пространственных метафор связанных звукового тона
(Семио-когнитивный подход)

Резюме

Семиотика Пирса включает в себя изучение знаков и знаковых процессов, обозначения, сходства, аналогии, метафоры, символики, значения и коммуникации. Пирс различал не менее 64 отличительных классов знаков, в том числе известное фундаметальное различие между указателем, значком и символом. Как известно, теория метафоры основана на исследовании когнитивной лингвистики. Теперь, когда мы говорим *метафора*, это не только традиционная метафора, которую мы знаем из литературоведения. Существует множество метафор в различных областях науки, таких как лингвистические метафоры, когнитивные метафоры, ментальные метафоры, концептуальные метафоры, психотерапевтические метафоры, пространственные метафоры и так далее. Исследование пространственных питчов и когнитивной интерпретации значительно улучшило изучение музыкальных метафор. Количество исследований в этом направлении увеличивается (bax: 1; 2; 3; 4; 5; 6; 7; 8; 9). Семио-когнитивный подход к структуре пространственных метафор в описании основного тона и разграничении лингвистических и нелингвистических метафор очень важен. В целом, когнитивная деятельность была предметом многих исследований в лингвистике, психологии, нейропсихологии, нейро-логистике, нейрофизиологии и других областях науки, чтобы понять связь между языком и структурой мозга. Во многих языках высота звуков метафорически связана с вертикальным пространством. Высокочастотный тон - «высокий», низкочастотный - «низкий». В настоящей статье рассматриваются основные идеи когнитивной лингвистики, когниция, пространственные отображения звуковой высоты, универсальность ментальных метафор, лингвистические метафоры и концептуальные метафоры, а также раскрывается сущность теории иерархической ментальной метафоры.

Ключевые слова: высота звука, нелингвистическая, иерархическая, кросс-домейн, идентичность, отображение, метафора, нейрофизиология

I.A.Abbasov
G.M.Bayramova

Hierarchical Construction of Spatial Metaphors for Pitch
(Semio-cognitive approach)

Summary

The semiotics of Peirce includs the study of signs and sign processes, designation, similarity, analogy, metaphor, symbolism, signifiation, and communications. Peirce distinguished at least 64 different classes of signs, including his well-known fundamental distinction between index, icon, and symbol. He distinguished the index, icons and symbols. As it is known, the theory of metophor is based on cognitive linguistics teaching. Now, while we say metaphor, it is not only traditional metaphor that we know from literary criticism. There are numerous

metaphors in different fields of science as linguistic metaphors, cognitive metaphors, mental metaphors, conceptual metaphors, psychotherapeutic metaphors, space metaphors, and so on. Investigating spatial pitches, and cognitive interpretation has dramatically improved the study of music metaphors. The number of investigations in this direction is increasing (1; 2; 3; 4; 5; 6; 7; 8; 9). Semio-cognitive approach to the structure of spatial metaphors in the description of the pitch and distinction the linguistic and non-linguistic metaphors are very important. In general, cognitive activities have been the subject of many studies in linguistics, psychology, neuropsychology, neuro-logistics, neurophysiology and other fields of science to understand the relationship between language and brain structure. In many languages, the pitch is metaphorically correlated to vertical space. High-frequency tone is "high", low-frequency tone is called "low". The present article deals with with the basic ideas of cognitive linguistics, cognition, space-pitch mappings, universality of mental metaphors, linguistic metaphors and conceptual metaphors, and discovers the essence of the theory of hierarchical mental metaphor.

Key words: pitch, non-linguistic, hierarchical, cross-domain, identity, mapping, metaphor, neurophysiology

Redaksiyaya daxil olma tarixi:29.06.2019
Çapa qəbul olunma tarixi: 03.08.2019
Filologiya elmləri doktoru, professor Oruc Musayev tərəfindən çapa tövsiyə olunmuşdur.

ƏSMƏTXANIM MƏMMƏDOVA
filologiya üzrə fəlsəfə dokttoru, dosent
BDU
Zahid Xəlilov23
kamillik@mail.ru

FARS DILINDƏ [y], [r], [l] SONORLARININ DİSTRİBUTİV VƏ FONETİK XÜSUSİYYƏTİ

Xülasə

Bu məqalədə fars dilinin sonor samitləri [y], [r], [l] araşdırılmışdır. Tədqiqat işləri SankPeterburq Dövlət Universitetinin Pus dili kafedrasınıın L.V. Şerba adına Eksperimental Fonetika laboratoriyasında yerinə yetirilmişdir. Diktorlar dörd iranlı tələbə olmuşdur. Təcrübə işlərində dövrün müasir aparatlarından istifadə olunmuşdur. 3600 söz, tərkiblərdən düzəldilmiş proqramlar diktorlar tərəfindən oxunduqdan sonra maqnit lentləri 102 tipli 8 şleyfli ossiloqraf, spektoqraf СЗЧ, "Görünən nitq" nümunələri vasitəsilə tədqiq edilmişdir.

Sonor, yaxud sonant elə səslərdir ki, tələffüzləri zamanı küy ya heç iştirak etmir, və ya çox az miqdarda iştirak edir. Səslər akustik baxımdan sonorlara (səslilərə) və küylülərə bölünürlər. Sonor səslər rezonator tonu ilə müəyyənləşir. Sonorların ağız sonorları, burun sonorları, dilyanı kimi növləri mövcuddur. Tədqiqat göstərir ki, hər bir fonemdə olduğu kimi [y], [r], [l] sonorunun da distributuv xüsusiyyəti, variativliyi, bir sözlə akustik və fonoloji təhlili aparıldıqda maraqlı nəticələr əldə edilir. Fars dilində [y], [r], [l] fonemlərinin yuxarıdakı şərtlərdən asılı olaraq 5- 6 allafonu mövcuddur.

Açar sözlər : samit, sonant, fonem, heca, artikulyasiya, distribusiya, allafon

Giriş: Sonor, yaxud sonantlar elə səslərdir ki, tələffüzləri zamanı küy ya heç iştirak etmir, və ya çox az miqdarda iştirak edir. Səslər akustik baxımdan sonorlara (səslilərə) və küylülərə bölünürlər. Sonor səslər rezonator tonu ilə müəyyənləşir (3, s. 256).

Müqəddimə: Fars dilinin bir samit fonem kimi formalaşan hər bir səsi ayrı - ayrılıqda söz daxilində bir neçə cür tələffüzə malik ola bilir. Bunlar qonşuluq etdikləri səslərin fiziki-akustik xüsusiyyətlərinə, hecaların növünə, söz daxilində yerləşmə şəraitinə, vurğulu və vurğusuz heca tərkibində olmalarına görə bir fonemin müxtəlif variantları kimi təzahür edirlər, lakin bu səslərin hər biri nə qədər fərqli tələffüz variantlarına malik olsalar da idrakda, başa düşülmədə adətən eyni bir səsin müxtəlif allafonları olurlar.(7,s.271)

1. Fars dilinin sonantları:

Fars dilinin [m], [n], [l], [r], [y] sonor samitlər hansı rezonatorda əmələ gəlmələrinə görə ağız və burun sonorlarına bölünür. Danışıq səslərinin formalaşmasında 2 əsas rezonator- ağız və burun boşluğunun mühüm rolundan danışmaq lazımdır. Damaq pərdəsi, dilçək aşağı düşərək ağız boşluğunun yolunu kəsdikdə bronxlardan gələn hava ağız boşluğuna deyil, burun boşluğuna gedir və buradan keçib, xaricə çıxır. Nəticədə fars dilinin [m] , [n] burun sonantları formalaşır ki, bunlardan da [m] qoşa dodaq burun sonoru; [n] isə dilönü, burun sonorudur.

Əgər damaq pərdəsi yuxarı qalxıb burun boşluğunun yolunu kəsərsə, nəticədə səs axını ağız rezonatoruna gedər. Bu zaman fars dilinin ağız sonorları [l], [r] və küylü samitlərin hamısı əmələ gəlir. Bu məqalədə biz ağız sonorları [y], [r], [l] fonemlərinin fonetik, fonoloji, distributiv xüsusiyyətlərini araşdırmağa çalışacayıq. Tədqiqatda məqalə müəllifinin müxtəlif illərdə Sankpeterburq Dövlət Universitetinin Rus dili kafedrasının akademik L.R. Şerba adına Eksperimental fonetika laboratoriyasında apardığı təcrübə işlərinin nəticələrindən istifadə olunmuşdur. (4,

s.52) Hər üç fonem fars dilinin ən cox rast gəlinən və daha cox işlək olan /CVCC/, başqa sözlə: /vəhy/, /deyn/, /beyt/, /ʾ eyd/; /ʾ əbr/, /kəsr/, / čərx/; /tefl/, /ʾ elm/, /solh/ və s. kimi təkhecalı sözləri daxilində araşdırılmışdır.

1.[y] fonemi - dilyanı, ağız sonoru:

/y/ səsinin distribusiyasından bəhs etsək, demək lazımdır ki, bu səs də başqa fonemlər kimi nitq axınında özündən əvvəl və sonra gələn səslərin təsiri, söz daxili mövqeyi, hecanın növü, fonetik şəraiti, prosodik əlamətlərə münasibəti baxımından bir neçə tələffüz məxrəcinə, başqa sözlə fonem variantına malikdir. Belə ki. "yek" sözündəki /y/-nın tələffüzü ilə "keyf", "nəfy", "quya", "yəvaş", "yad", "yara", "yasəc" sözlərindəki /y/ foneminin tələffüzü eyni deyildir. Diqqətlə nəzər yetirsək bu səslərin hər biri /y/ samitini müəyyən dərəcədə dəyişdirir. Qeyd edilməlıdir ki, ümumiyyətlə götürdükdə bu səsin tələffüzü zamanı ciddi bir dəyişiklik, yaxud tələffüz məxrəcinin dəyişilməsi baş vermır. Çünki əgər bu dəyişiklik baş versə idi, o zaman bir fonemdən deyil, iki ayrı-ayrı fonemdən bəhs etmiş olardıq . Akustik (tousifi) fonetika baxımından /y/ səsini sait bir səs kimi də qəbul etmək mümkündür. Ona görə ki, ossiloqraf lentlərində, "görünən nitq" nümunələrində bu səsi əmələ gətirən səs dalğalarının titrəyişləri çox vaxt periodik şəkildə təkrar olunur. Klassik və müasir mənbələrin bir çoxunda ərəb dilinin təsiri altında belə bir fikir formalaşmışdır ki, fars dilində söz başında sait səs işlənmir. Yəni söz başında hər bir saitdən əvvəl mütləq bir samit səs /həmzənin verdiyi səs/ tələffüz olunur. Odur ki, Y. Səməreh məhz bu baxımdan çıxış edərək belə bir qeyd edir: "... /y/ samiti öz periodik əyrilərinə görə sait səslərə çox bənzəyir. Lakin fars dilində söz başında sait səs gələ bilmədiyindən onu sait deyil, yarımsait və ya yarımsamit adlandırıriq." (9, s. 90) Fars dilində söz başında sait fonemin işlənib, yaxud işlənə bilməməsi ayrı və daha dəqiq bir tədqiqatın mövzusudur.

/y/ sonoru müxtəlif sövti tərkiblərdə işlənə bilir:

söz başında : yad, yadeqar, yəd, yəx, yek, yoqor və s.

söz ortasında: əyar. əyyam. meydan eyd. eyvan və s.

söz sonunda: ay , mey, azmay , ney, buy, ruy və s.

Ətrafında, qonşuluğunda gələn səslərin təsiri nəticəsində /y/ samitinin aşağıdakı fonem variantlarını müşahidə etmək mümkündür:

1./y/ Bu samit səs 3 fonetik vəziyyətdə tam şəkildə əslinə uyğun olaraq, reduksiyaya uğramamış şəkildə tələffüz edilir: 1. heca və sözün əvvəlində- yek, yad; 2. sözün sonunda,sait səsdən sonra –/ ney/,/ çay/ ; 3. iki sait səs arasında :/ jeyan/,/ miyan/ (9, s. 94)

Aşağıdakı vəziyyətdə isə /y/ samitinin fonem variantları tələffüz edilir və eşidilir:

2. / ŷ/ sözün sonunda samit səsdən sonra :/ nəfŷ/ , /məşŷ/

3. /ŷ/ söz ortasında /i/ saitindən sonra : /piÿaz/ . /niÿaz/

4./y̱/ təşdidli, yəni /y/ samitindən sonra : /məziyyət/, /mə"şiyyət/

1. /y/ samiti / CC/ birləşməsində:

Cədvəl- 1

/y/ sonor foneminin / CC/ birləşməsində kipləşən, novlu və sonor samitlərə münasibətini əks etdirən cədvəl.

CC birləşməsinin birinci tərəfi			CC birləşməsinin ikinci tərəfi		
kipləşən	novlu	sonor	kipləşən	novlu	sonor
sə ʾ y	vəhy		qeyb	heys	deym
	məşy		beyt	feyz	deyn
	nəfy		ʾeyd	ʾeyš	meyl
			peyk	heyf	qeyz
			bey ʾ		

Araşdırmanın nəticələri yuxarıdakı 1 saylı cədvəldə verilmişdir. Beləliklə demək olar ki :

1. Fars dilində təsadüf olunan dil faktlarında /y/ samiti ən çox /CC/ birləşməsinin birinci tərəfində yer alır. 17 dil faktından 13-də birləşmənin birinci tərəfində; 4 nümunədə isə, birləşmənin ikinci tərəfində durur.

2. Fars dilinin özünə məxsus /p, č , j, g/ samitləri /y/ ilə yanaşı gəlib, /CC/ birləşməsi yarada bilmirlər.

3. Fars dilində /yq/ kimi kipləşən , yəni, /yv,yx,yh/ novlu samitlərlə birləşmə yaratmasına da təsadüf edilməmişdir.

2. Titrək ağız sonoru /r/

/r/ samiti /CC/ birləşməsində fars dilinin ən fəal samitlərindən biridir. Bu xüsusiyyət onun artikylyasiyasının münasibliyi ilə əlaqədardır. /r/-nın tələffüzündə dilin ucu və yuxarı dişlərin arxa tərəfi iştirak etdiyindən onun formalaşması zamanı dodaqlar, dilin gövdəsi və ağız nisbətən sərbəst qalır. Elə buna görə də danıışıq aparatı çox asan və sadə bir şəkildə /r/-nın tələffüzü ilə paralel başqa bir samitin tələffüzü üçün özünü hazırlaya bilir. Bundan başqa /r, l/ samitlərinin tələffüzü asan və rahat olduğu üçün hər iki samitə dilçilikdə "axıcı samit" (fars dilində - "rəvan" ; ingilis dilində - "liquid") adı verilmişdir. Qeyd etmək lazımdır ki, /r/ sonor samit olduğu üçün onların həm də tonluluq və saitlik xüsusiyyətləri vardır. (ossilloqraf lentlərində saitlər kimi təzahür edirlər.(Ətraflı məlumat üçün bax: mənbə -5)

Cədvəl- 2

Titrək ağız sonoru /r/ CC birləşməsində:

/CC/ birləşməsinin birinci tərəfi			/CC/ birləşməsinin ikinci tərəfi		
kipləşən	novlu	sonor	kipləşən	novlu	sonor
ʾəbr	sefr	ʾomr	čərb	sərf	kerm
čətr	tovr		šərt	sərv	qərn
sədr	kəsr		sərd	fars	
məkr	bəzr		čerk	tərz	
fəqr	qešr		mərg	fərš	
šeʾr	fəxr		bərq	čərx	
	mehr		fərʾ	tərh	

1. Yuxarıdakı cədvəldən göründüyü kimi /r/ samiti kipləşən samitlərlə /CC/ birləşməsinin birinci tərəfində 6 nümunədə /b, t,d,k,q, ʾ/ samitlərini izləyə bilmişdir.
2. /r/ samiti fars dilinin özünə məxsus /p, g/ kipləşən samitlərini /CC/ birləşməsi daxilində izləyə bilmir.
3. /CC/ birləşməsinin ikinci tərəfində isə /p/ istisna olmaqla kipləşən samitlərdən hər biri /r/ samitini izləyə bilmişdir.
4. /CC/ birləşməsi zamanı /r/ samiti novlu samitlərlərin /ž/ istisna olmaqla qalan 7 samitin hər birindən sonra gələ bilir. Cədvəldən göründüyü kini /ž/ nə /r/-dan əvvəl, nə də sonra birləşmə yarada bilmir, belə ki, fars dilində /rž/, /žr/ kimi /CC/ birləşməsinə təsadüf edilməmişdir.
5. /r/ samiti burun sonoru /m/ - dən həm əvvəl, həm də sonra işlənə bildiyi halda, digər burun sonoru /n/- dan sonra tələffüz məxrəcləri çox yaxın olduğundan birləşmə yarada bilmir.
6. Qovuşuq (mürəkkəb) /j/ samitindən həm əvvəl, həm də sonra /CC/ birləşməsində işlənə bildiyi halda, /č/ samitindən əvvəl yalnız iki dil faktında /CC/ tərkibi / qarč, parč/ yarada bilir.
7. Tələffüz məxrəcləri eyni olduğu üçün /l/ samiti ilə yanaşı gələrək, /rl , lr/ fonem birləşmələri yarada bilmir.

3. Ağız sonoru /l/ samiti

Bu samit də kimi tələffüzünün asanlığına görə CC birləşməsi yaratmaqda özünün fəallığı ilə seçilir.

Cədvəl- 3
Ağız sonoru /l/ samiti /CC/ birləşməsində:

/CC/ birləşməsinin birinci tərəfi			/CC/ birləşməsinin ikinci tərəfi		
kipləşən s.	novlu s.	sonor s.	kipləşən s.	novlu s.	sonor .s
təbl	tefl	həml	jəlb	zolf	ʾelm
rətl	hovl		qəlt	dəlv	
ʾədl	ʾəsl		xold	sols	
šekl	fəzl		molk	təlx	
nəql	dəxl		holq	solh	
feʾl	ʾəhl		xəlʾ		

1. Yuxarıdakı 3 saylı cədvəldən göründüyü kimi /l/ samiti kipləşən samitlərlə /CC/ birləşməsinin birinci tərəfində 6 dil faktında /b, t,d,k,q, ʾ / samitlərini izləyə bilmişdir. Birıəşmə yaratmayan samitlər /p/ və /g/- dır.
2. /CC/ birləşməsinin ikinci tərəfində də /p/ və /g/ istisna olmaqla kipləşən samitlərdən hər biri /l/ samitini izləyə bilmişdir.
3. /CC/ birləşməsi zamanı /l/ samiti novlu samitlərlərdən /ž/ və /š/ istisna olmaqla qalan 6 samitin hər birindən sonra gələ bilir. Beləliklə, fars dilində /žl,lž/ və /šl,lš/ birləşmələri mövcud deyildir.
4. /l/ samiti /y/-dan sonra gələ bildiyi halda, tələffüz məxrəcləri yaxın olduğu üçün /CC/ birləşməsində ondan əvvəl gələ bilmir.
5. /m/ sonorundan həm əvvəl, həm də sonra: /helm; həml/ dil faktlarında olduğu yanaşı işlənə bilir.
6. /l/ və /n/ samitlərinin formalaşma məxrəcləri eyni olduğu üçün /CC/ birləşməsi yarada bilmirlər. Yəni fars dilində /nl; ln/ samit birləşmələri mövcud deyil.

Nəticə: Nəticə olaraq qeyd etmək lazımdır ki, hər bir fonemdə olduğu kimi [y], [r], [l] sonorlarının da distributuv xüsusiyyəti(7, 270), variativliyi, allafonları , bir sözlə akustik və fonoloji təhlili aparıldıqda maraqlı nəticələr əldə edilir. Fars dilində [y], [r], [l] fonemlərinin yuxarıdakı şərtlərdən asılı olaraq 5- 6 allafonu mövcuddur.

İstifadə olunmuş ədəbiyyat

1. David Cristal, A Dictionery of Linguistics and Fhonetics, Fifth edition,USA, Oxsford: 2003, səh. 508
2. Dilçilik Ensiklopediyası, F.Veysəllinin redaktorluğu ilə, I cild, “Mütərcim”, Bakı: 2006, səh. 514
3. Dilçilik Ensiklopediyası, F.Veysəllinin redaktorluğu ilə, II cild, “Mütərcim”, Bakı: 2008, səh. 526
4. Məmmədova Ə. B., Fars dilində vurğu, AMEA, Nafta-press nəşriyyatı,; Bakı: 2007 səh. 242
5. Məmmədova Ə.B., Müasir fars dilinin /r/ sonoru haqqında bəzi mülahizələr,Azərbaycan Dillər Universiteti, Elmi Xəbərlər, səh. 30-37, Bakı: 2007
6. Məmmədova Ə.B., Fars dilinin fonetik və qrafik quruluşunda /y/ fonemi, Dil və Ədəbiyyat Beynəlxalq Elmi-nəzəri jurnal, 6(66), səh. 91-96 Bakı, 2008
7. Məmmədova Ə.B., Müasir fars dili samit fonemlərinin distribusiyası, Az.MEA, akad. Z.M. Bunyadzadə adına Şərqşünaslıq İnstitutunun Elmi tədqiqləri, Şərq filologiyası məsələləri, IY buraxılış, səh. 252-275, Bakı: 2009
8. Мамедова А.Б., Фонемный инвентарь современного персидского языка, «Перспективы науки», Научно-практический журнал,№ 10, октябрь, стр. 125-129, Тамбов: 2013

9. Yədollah S., Avaşenasi-ye zəban-e farsi, virayeş-e dovvom, Mərkəz-e nəşr-e daneşqahi, Tehran: 1392, 195 s.

А.Мамедова

Дистрибутивного и фонетического характеристике сонантов
[y], [r], [l] в персидском языке

Резюме

В данной статье исследуются сонорный консонант персидского языка: [y], [r], [l].

Наши исследования были проведены в фонетической лаборатории имени Л.В. Щербы Кафедра русского языка Санкт-Петербургского Государственного Университета. Дикторами были четыре студента иранцы. В исследовании была использована современнейшая аппаратура. После чтения различных программ составленных из 3600 слов и словосочетаний, были анализированы в образцах аппарата восьми шлейфного осциллографа типа 102 и спектрографом СЗЧ и «Видимой речью». Сонорный или сонант - согласный звук, в образовании которого голос играет главную роль, а шум либо вообще отсутствует, либо участвует в минимальной степени; противопоставленный шумный. Существует различные виды сонорных звуков: сонорные боковые; сонорные боковые; сонорные дрожащие; сонорные носовые. Исследование показывает что, как и во всех фонемах также и сонорный фонемы [y], [r], [l] в зависимости фонетический позиции, дистрибутивности, вариативности, акустический и фонологический анализ этого сонанта получаем интересные выводы.В персидском языке сонорный фонемы [y], [r], [l] имеют 5 - 6 аллофонов.

Ключевые слова: согласный, сонант, слог, фонем , артикуляция, дистрибуция, аллофоны

A.Mammadova

The phonetic and distributives feature of the sonant [y], [r], [l]
In the Persian language

Summary

This article deals with sonant consonant's [y], [r], [l] in the Persian language. The investigations were carried out at the phonetics laboratory of the department of Russian language of Sank-Petersburg's State University of Experiment ales Phonetics named after L.V.Sherba with the participation and pronunciations of four Iranian students using the contemporary apparatus. After reading programmers consisting of 3600 words and structure at oscillograph apparatus with 102 types and 8 chutes, at spectrometry with SZC type "visual speech examples" they were dialyzed and investigated as well.Resonant term used by some phoneticians to refer to speech sounds produced at the glottis with a relatively wide articulatory channel, so that no subsequent audible friction is produced, e.g. vowels, laterals, nasals, frictionless continuants.The investigation shows that as in every phoneme the distributive feature of the sonant [y], [r], [l] and its variety with one world if we make their acoustic and phonological analyses we come across with interesting results.

Depending on the above mentioned conditions, the phoneme [y], [r], [l] has 5 - 6 allophones.

Key words: consonant, sonant , phoneme, syllable, articuletion, distribution, allophones

Redaksiyaya daxil olma tarixi: 12.05.2019
Çapa qəbul olunma tarixi: 01.06.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Nigar Musayeva tərəfindən çapa tövsiyə olunmuşdur.

TƏRANƏ XƏLİLOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət İqtisad Universitenin dosenti (UNEC)
Y.Mürsəlov küç bina 3 mən 23
txalilova1962@gmail.com

TERMİN YARADICILIĞINDA ŞƏKİLÇİLƏRDƏN İSTIFADƏ

XÜLASƏ

Dil müasir ictimai inkişafa özünəməxsus barometr kimi xidmət edir. Yəni, dildə həmin anlayışı ifadə edən vahidləri müəyyənləşdirdikdə yeni ifadələrin əmələ gətirilməsi problemindəki çətinliklər praktik cəhətdən aradan qaldırılmış olur. Lüğət tərkibinin Azərbaycan dilinin öz terminləri ilə ifadə olunması Azərbaycan dilində elmi terminologiyanın inkişafına təkan verir. Ona görə də yeni anlayışların ifadəsi üçün terminlər yaradılarkən ən əvvəl ana dilinin lüğət tərkibinə nəzər salmaq, onun daxili imkanlarından səmərəli istifadə etmək lazımdır. Elmi terminologiyanın yaradılması üçün Azərbaycan dili hər cür imkana malikdir. elm və texnikanın sürətli inkişafı ilə əlaqədar olan informasiya həmin sahəyə aid anlayışları ifadə edən terminlərin yaranmasına çox mühüm bir təkan verir.

Terminologiya elmin, texnikanın, istehsalatın, sənaye və kənd təsərrüfatının, ədəbiyyat və incəsənətin, iqtisadiyyatın, ictimai-siyasi həyatın müxtəlif sahələrinə məxsus anlayışları dəqiq və düzgün ifadə edən xüsusi funksiyalı leksikanı əhatə edir.

Terminologiya ümumxalq leksikasının ən fəal, ən dəyişkən, artan, təkmilləşən, yeniləşən hissəsidir. Müasir sosial-iqtisadi inkişaf, elmi-texniki tərəqqi, mədəni inqilab, istehsalın intensivləşdirilməsi yeni elmi anlayışların, yeni elmi fikirlərin inkişafına, yaranmasına səbəb olur. Bu da, şübhəsiz, dilin terminoloji leksikasının dəyişməsinə, yeniləşməsinə, artmasına təsir edir.- Elmi anlayışların təbiətini və mənasını dəqiq və aydın ifadəetmə baxımından terminologiyaya iki cəhətdən xüsusi diqqət yetirilməlidir:

mövcud məfhumları ifadə edən terminlərin yenidən nəzərdən keçirilməsi;

yeni məfhumların məna və təbiətinə uyğun terminlərin seçilməsi

Açar sözlər: termin, elm, texnika, dil, struktur

Terminoloji leksikanın özünəməxsusluğunu şərtləndirən amillərdən biri də ayrı-ayrı terminlərin ifadə etdiyi anlayışların müasirliyi və aktuallığı ilə əlaqədardır. (2, 177-178). Yeni yaranan məfhumlar hökmən müasir həyatın, elm və texnikanın tələbi ilə meydana gəlir və konkret əşya, hadisə və ya prosesin adlandırılmasına xidmət edir. Odur ki, termin kimi müəyyənləşən sözün ümumxalq ədəbi dilinə keçməsi və yaxud dildə mövcud olan hər hansı bir sözün eyni anlayış əsasında terminləşməsi tamamilə qanunauyğun hal almalıdır. Yeni anlayışların meydana gəlməsi elmi axtarış və dilin inkişaf diaiektikası ilə bilavasitə bağlı olduğundan, belə bir fikir də təkzibedilməzdir ki, ifadə olunan hər hansı bir məfhum, əşya və ya predmet, hadisə, proses və anlayışın aktuallığı terminin ümumi ədəbi dil materialına çevrilməsinə ciddi təsir göstərir. Başqa sözlə desək, termin və ümumi ədəbi dil əlaqəsi şüur və dil bağlılığı qədər mühümdür. Məhz həmin qarşılıqlı əlaqənin nəticəsində milli ədəbi dil təşəkkül tapır, inkişaf edir və zənginləşir.

Terminlər elmin müxtəlif sahələrinin təşəkkülündə əvəzsiz rol oynayır, çünki onlar müəyyən bir elmi anlayışın düzgün qavranılmasında, anlaşılmasında, fikrin dəqiq ifadə və dərk edilməsində, şifahi və yazılı nitqin aydın və dəqıq olmasında, təlim və tədris prosesində, yazı

mədəniyyətinin inkişafında, sabitləşməsində böyük rol oynayır. Buna görə də, terminlərin yaranmasında, yazılmasında (orfoqrafiyasında) və işlədilməsində vahid qayda və prinsiplər gözlənilməli, onların fonetik tərkib və mənaca müxtəlifliyinə yol verilməməlidir, çünki terminlərin müxtəlif fonetik tərkiblə eyni məna ifadə etməsi və ya eyni fonetik tərkibli terminlərin müxtəlif mənalar bildirməsi elmi-texniki dildə hərc-mərclik yaradar, qarışıqlığa, fikir dolaşıqlığına səbəb olar, onların öyrənilməsi və mənimsənilməsini çətinləşdirər.

Terminlər adlandırdıqları məfhumlara, anlayışlara, əşya və hadisə adlarına uyğun olmalı, mənaca dəqiq və anlaşıqlı, müəyyən zaman kəsiyində sabit olmalı və sistem əmələ gətirməlidir. Onların dəqiqliyi, anlaşıqlı, sadə və aydın olması, müəyyən zaman müddətində sabit qalması ümumxalq qayğısına və dövlət siyasətinə söykənməlidir, çünki cəmiyyətin intellektual (əqli), iqtisadi, mədəni-mənəvi, ictimai və siyasi tərəqqisində, inkişafında terminlərin rolu əhəmiyyətlidir.

Terminoloji leksika bir elm sahəsində işlədilən terminlərin sistemi, toplusudur. Hər termin sistemi konkret bir elm sahəsinin məfhumlar sistemini əks etdirir. Elmi dilin leksikasında terminlər əsas spesifik vahidlərdir. Terminlər üçün iki cəhət səciyyəvidir: 1) qeydedilmə (müxtəlif tipli lüğətlərdə); 2) işlədilmə (məqalə və elmi əsərlərdə) (

Terminlərin yaranmasını şərtləndirən amillər arasında tarixi şərait (dildənkənar faktor) mühüm rol oynayır. Tarixi şərait əvvəlcə məfhum və anlayışı doğurur və sonra onlar sözə, həmçinin terminə çevrilir. Beləliklə, anlayışın əlamətləri terminin quruluşunda əks olunur, terminoloji anlayışlar isə denotatın qavranışı, şərhi və onu adlandıran leksik vahidin elmi refleksi yolu ilə qəbul olunur

Azərbaycanda elm və texnikanın inkişafı ədəbi dilimizdə elmi-texniki terminlərin yaranmasına və elmi terminologiyanın zənginləşməsinə səbəb olmuşdur.

Hazırkı dövrdə elmi-texniki tərəqqi əmək məhsuldarlığının yüksəldilməsini nəzərdə tutduğuna görə, o, təbiəti etibarı ilə ictimai-iqtisadi quruluşla bağlıdır. Yəni, elmi-texniki tərəqqi dedikdə, müstəqil Azərbaycan dövlətinin həm mütərəqqi texnika və terminologiyaya malik olmaqla iqtisadiyyatın strukturunun təkmilləşməsi, həm də ayrı-ayrı elm sahələrinin inkişafı nəzərdə tutulur. Bu baxımdan cəmiyyətin inkişafı həmişə ünsiyyət vasitəsi olan dildə öz əksini tapır. Dil müasir ictimai inkişafa özünəməxsus barometr kimi xidmət edir. Yəni, dildə həmin anlayışı ifadə edən vahidləri müəyyənləşdirdikdə isə yeni ifadələrin əmələ gətirilməsi problemindəki çətinliklər praktik cəhətdən aradan qaldırılmış olur. Lüğət tərkibinin Azərbaycan dilinin öz terminləri ilə ifadə olunması Azərbaycan dilində elmi terminologiyanın inkişafına təkan verir. Ona görə də yeni anlayışların ifadəsi üçün terminlər yaradılarkən ən əvvəl ana dilinin lüğət tərkibinə nəzər salmaq, onun daxili imkanlarından səmərəli istifadə etmək lazımdır. Elmi terminologiyanın yaradılması üçün Azərbaycan dili hər cür imkana malikdir. elm və texnikanın sürətli inkişafı ilə əlaqədar olan informasiya həmin sahəyə aid anlayışları ifadə edən terminlərin yaranmasına çox mühüm bir təkan verir.

Terminlər elmin müxtəlif sahələrinin təşəkkülündə əvəzsiz rol oynayır, çünki onlar müəyyən bir elmi anlayışın düzgün qavranılmasında, anlaşılmasında, fikrin dəqiq ifadə və dərk edilməsində, şifahi və yazılı nitqin aydın və dəqiq olmasında, təlim və tədris prosesində, yazı mədəniyyətinin inkişafında, sabitləşməsində xüsusi rol oynayır. Buna görə də terminlərin yaranmasında, orfoqrafiyasında və işlədilməsində vahid qayda və prinsiplər gözlənilməli, onların fonetik tərkib və mənaca müxtəlifliyinə yol verilməməlidir, çünki terminlərin müxtəlif fonetik tərkibdə eyni məna ifadə etməsi və ya eyni fonetik tərkibli terminlərin müxtəlif mənalar bildirməsi elmi-texniki dildə hərc-mərclik yaradar, qarışıqlığa, fikir dolaşıqlığına səbəb olar, onların öyrənilməsi və mənimsənilməsini çətinləşdirər.

Müasir Azərbaycan dili terminologiyası müxtəlif istiqamətlərdə inkişaf edir. Bu istiqamətlər dilin daxili imkanları və alınmalar hesabınadır. İstər dilin daxili imkanları hesabına,

istərsə də digər dillərdən alınmalar hesabına olan termin yaradıcılığı prosesi qəbul olunmuş qayda və normalar əsasında qurulmalıdır. Sözün mənası ilə onun forması arasındakı əlaqə xüsusi əhəmiyyət kəsb edir. Çünki bunlar arasındakı əlaqə ənənəvi motivasiya, motivləşdirmə, motivləşdirilmiş terminlər ilə ifadə olunur. Motivasiya sözün daxili məzmunu və onun komponenetlərinin mənalarının cəmidir.

Termin yaradıcılığında şəkilçilərdən istifadə üsulundan geniş istifadə olunur, belə ki, müasir Azərbaycan ədəbi dilində morfoloji üsulla terminlərin yaradılması üçün münbit şərait var. Dilimizdə mövcud olan sözdüzəldici şəkilçilər söz kökünə artırıldıqda onun mənasına ciddi təsir göstərir. Bu üsulun aktivliyi hər şeydən əvvəl onunla şərtlənir ki, Azərbaycan dili sözdüzəldici şəkilçilərlə zəngindir. Bu müxtəlif şəkilçilərin dilin morfoloji qanunauyğunluqları əsasında dildə yeni söz və ifadə, həmçinin termin yaratması da, şübhəsiz ki, dilin lüğət tərkibinin və terminlər sisteminin zənginləşməsinə təsir göstərir.

Termin yaradıcılığında şəkilçilərin və söz-termin düzəldən ünsürlərin hamısı eyni dərəcədə fəal deyil. Bunlardan bir qismi son dərəcə məhsuldardır. Digər qismi isə dilin daimi inkişafı ilə bağlılığından mütəhərrik funksionallığa malikdir.

Azərbaycan ədəbi dilinin müasir inkişaf mərhələsində sahə terminlərinin yaradılmasında əsasən bu şəkilçilərdən istifadə olunur:

–çı, –çi, –çu, –çü

Bu şəkilçi həm Azərbaycan dilində, həm də digər türk dillərində öz aktivliyi ilə seçilir. Bunları həm milli dil vahidlərinə, həm də alınma sözlərə artırmaqla bir sıra yeni termin yaratmaq olar. Həmin şəkilçilər adətən peşə və sənət bildirir: mühafizəçi, layihəçi, təbliğatçı və s.

–ıcı, –ici, –ucu, –ücü

Bu şəkilçilər o qədər də fəal deyillər. Əsasən fövqəladə hallara aid terminlərin yaranmasında aktivlik göstərirlər: zəhərləyici, törədici.

Bu şəkilçilər fellərə qoşulduqda, müxtəlif sahə terminləri yarada bilirlər. Bu şəkilçilər həmçinin fellərə əlavə olunaraq ayrı-ayrı proseslər və alətlərin adlarını bildirən terminlər əmələ gətirir: sorucu, qaldırıcı və s. A.Əlizadə qeyd edir ki, **–ıcı, –ici** şəkilçilərini fel kökləri və düzəltmə fellərə artırmaqla keyfiyyət məzmunlu terminlər düzəlir; .. **–ıcı, –ici** şəkilçiləri ilə düzələn terminlər daha çox termin birləşmələrinin komponenti kimi çıxış edir (2, 229-230)

–cıq, –cik, –cuq, –cük şəkilçiləri qeyri-məhsuldar şəkilçilərdir ki, onlardan texniki terminlər yaradıcılığında istifadə olunur. Onlar daha çox ümumişlək sözlərə artırılır: yuvacıq, kürəcik.

–iş, –is, –us, –üş. Bu şəkilçilər fellərə qoşularaq terminlər yaradır, müxtəlif hərəkət və prosesləri adlandırır: çıxış, eniş, quruluş və s.

–xana şəkilçisi müxtəlif nitq hissələrinə artırılaraq adətən məkan anlayışı ifadə edir: qiraətxana, emalatxana və s.

–ma, –mə şəkilçiləri terminoloji leksikanın zənginləşməsinə fəal təsir göstərir və elmi-texniki terminlərin yaradılmasında istifadə olunurlar. Bu şəkilçilər həm də hal-hərəkət, proses anlayışı bildirən terminlər əmələ gətirir.

–lıq, –lik, –luq, –lük.

Bu şəkilçilər müxtəlif nitq hissələrinə artırılır. İnşaat terminləri yaradıcılığında onlardan geniş istifadə olunur. Bənnalıq, rəngsazlıq, həmkarlıq və s. bu kimi terminlər isimlərə artırılır. Həmin şəkilçilər sifətlərə və saylara da qoşula bilir. Bu zaman müxtəlif tikinti materiallarına aid keyfiyyət, əlamət ifadə olunur: sərtlik, plastiklik, elastiklik və s. Bu göstəricilər digər sözdüzəldici şəkilçilərdən sonra da işlənə bilir. Müasir Azərbaycan ədəbi dilində sözyaratma məhsuldarlığı ilə seçilən **–cı, –lı, –sız** şəkilçilərindən sonra bu şəkilçilərdən istifadə etmək mümkündür: planlılıq, çəkisizlik, qaynaqçılıq və s.

S.Cəfərov yazır ki, dilimizdə istər məna xüsusiyyətlərinə, istərsə də çox söz yarada bilməsinə görə ən məhsuldar sayılan **–lıq, –lik, –luq, –lük** şəkilçilərinə azacıq fonetik dəyişikliyə uğramış bir şəkildə digər türk dillərində təsadüf edilir (1, 158).

–qac, –ğac, –kəc, –gəc şəkilçiləri müxtəlif texniki vəsaitin adlandırılmasında fəal rol oynayır. Məs: sayğac, süzgəc və s.

–an, –ən şəkilçiləri məhsuldar olmasalar da, sadə terminlərin düzəldilməsi üçün müəyyən qrammatik imkanlara malikdir. Fellərə qoşularaq substantiv isimlərdən ibarət terminlər yaradırlar.

–dar, -iyyat, –kar, –şünas, –daş, –keş şəkilçiləri məhdud dairədə işlədilir. Onlar özünü adətən tarixən formalaşmış terminlərin tərkibində göstərir: icarədar, xətkeş, boyakar və s.

Müasir Azərbaycan dilində şəkilçilərdən istifadə yolu ilə termin yaradıcılığının əksər hissələrini feldən düzələn terminlər təşkil edir ki, onlar terminoloji leksikanın zənginləşməsində mühüm rol oynayırlar.

Ədəbiyyat:

1. Cəfərov S. Müasir Azərbaycan dili. Bakı, “Maarif”, 1982
2. Əlizadə A. Azərbaycan dilində termin yaradıcılığı problemləri. Bakı, 1988
3. Sadıqova S. Azərbaycan dili terminologiyasının nəzəri problemləri. Bakı “Elm”, 2002

Т.Халилова

Употребление аффиксов в терминообразовании

Резюме

Развитие науки и техники в Азербайджане сыграло большую роль в образовании научно-технических терминов в литературном языке и в обогащении научной терминологии.

В настоящее время прогрессирование трудовой деятельности, значимость связана с социально-экономической структурой. То есть, говоря о научно-техническом прогрессе, подразумевается развитие техники и терминологии, а также усовершенствование экономической структуры и различных научных областей.

Образование терминов с употреблением аффиксов является самым активным способом в терминообразовании. Причина продуктивности терминообразования этим путем, заключается в том, что азербайджанский язык очень богат лексическими окончаниями, то есть аффиксами.

В современной терминологии азербайджанского языка основную часть составляют термины, образованные от глаголов. Так как глаголы в отличии от некоторых частей речи с точки зрения оттенков семантического значения очень активны, поэтому они выделяются в терминообразовании. Составные термины такого типа составляют основную часть терминологической лексики азербайджанского языка.

Активность употребления аффиксов связана с тем, что наш язык очень богат словообразовательными и словосочинительными лексическими окончаниями. Они способствуют образованию различных научных и технических терминов, и этим оказывают существенную роль в обогащении современной терминологии. В этой статье говорится о некоторых аффиксах отличающихся своей активностью в терминообразовании.

Ключевые слова: термин, наука, техника, язык, структура

T.Khalilova

The use of affixes in terminology

Summary

The development of science and technology in Azerbaijan played an important role in the formation of scientific and technical terms in the literary language and in enriching scientific terminology.

Currently, the progress of labor activity, the importance is associated with the socio-economic structure. That is, speaking of scientific and technical progress, we mean the development of technology and terminology, as well as the improvement of the economic structure and various scientific fields.

Formation of terms with the use of affixes is the most active way in term formation. The reason for the productivity of terminology in this way is that the Azerbaijani language is very rich in lexical endings, that is, affixes.

In the modern terminology of the Azerbaijani language, the main part is composed of terms derived from verbs. Since verbs, unlike some parts of speech, are very active from the point of view of the shades of semantic meaning, therefore they are distinguished in term formation. Composite terms of this type form the main part of the terminological vocabulary of the Azerbaijani language.

The activity of using affixes is due to the fact that our language is very rich in word-formative and the word is composed by lexical endings. They contribute to the formation of various scientific and technical terms and thus have a significant role in enriching modern terminology. This article deals with some affixes that differ in their activity in terminology.

Key words: term, science, technology, language, structure

Redaksiyaya daxil olma tarixi: 12.05.2019
Çapa qəbul olunma tarixi: 03.08..2019
Filologiya üzrə fəlsəfə doktoru, Mətanət Əmrahova tərəfindən çapa tövsiyə olunmuşdur.

ŞƏRQİYYƏ HÜMBƏTOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
ADPU-nun Şəki Filialı
M.Rəsulzadə305
humbetova.55@mail.ru

"OĞUZNAMƏ"NİN DİLİNDƏ PAREMİK VAHIDLƏRİ QRAMMATİK CƏHƏTDƏN FORMALAŞDIRAN FELİ BİRLƏŞMƏLƏR

Xülasə

Bu məqalədə XVI-XVII əsrlərə aid "Oğuznamə" abidəsinin dilində paremik vahidlərin qrammatik cəhətdən formalaşmasında mühüm rol oynayan feli birləşmələrdən bəhs olunur. Abidənin dilində belə birləşmələrdən xeyli istifadə edilmişdir.

"Oğuznamə" dilində paremik vahidlərin tərkibində işlənmiş feli birləşmələr araşdırılarkən aydın olur ki, onlar da yaranma baxımından, eləcə də məna və ifadəetmə xüsusiyyətlərinə görə müasirlərindən fərqlənmir. Belə ki, idarə və yanaşma əlaqəsi ilə qurulan bu birləşmələrin əsas tərəfi məsdər, feli sifət və feli bağlamalardan ibarətdir. Asılı tərəfi isə müxtəlif nitq hissələri, feli bağlama, feli sifət və qoşmaların iştirakı ilə düzəlmişdir. Abidənin dilində müşahidə etdiyimiz feli birləşmələri belə qruplaşdırmaq olar: "ad+feil"tipli feli birləşmələr; "feil+feil"tipli birləşmələr; "zərf+ feil" tipli birləşmələr; qoşmalı feli birləşmələr. Göründüyü kimi, bu formalar müasir dilimizdəki feli birləşmə modellərinə uyğundur.

Abidənin dilində də "ad+feil"tipli birləşmələrdə birinci tərəf ismin adlıq, yönlük, təsirlik, yerlik və çıxışlıq hallarında işlənərək müxtəlif münasibətlər ifadə edir. Bu növ birləşmələr çoxluq təşkil edir. Paremilərin tərkibində "feil+feil"tipli birləşmələrə və qoşmalı feli birləşmələrə az təsadüf olunur. "Zərf+ feil" tipli birləşmələr də nisbətən az işlənmişdir.

Apardığımız müşahidələr göstərir ki, feli birləşmələr tarixən də müasir formalarından az olmamışdır.

Açar sözlər: "Oğuznamə", abidə, paremik vahidlər, feli birləşmə, birinci tərəf (asılı tərəf), ikinci tərəf (əsas tərəf), məsdər, feli sifət, feli bağlama.

XVI-XVII əsrlərə aid "Oğuznamə" abidəsinin dilində paremik vahidlərin qrammatik cəhətdən formalaşmasında mühüm rol oynayan söz birləşmələrinin bir hissəsini də feli birləşmələr təşkil edir. Abidənin dilində belə birləşmələrdən də xeyli istifadə edilmişdir.

"Oğuznamə" min illərin təfəkkür məhsulunun XVII əsr yazısıdır, buna görə də mənbədəki feli birləşmələrin təhlili məsələsi diqqəti daha çox cəlb edir.

Əsas tərəfi, yəni tabeedici sözü feillərdən ibarət olan birləşmələrə feli birləşmə deyilir. "İdarə və yanaşma əlaqəsi ilə qurulan bu tip birləşmələrin əsas tərəfi məsdər, feli sifət və feli bağlamalardan ibarət olur. Asılı tərəfdə isə isim, sifət, say, əvəzlik və digər nitq hissələri işlənir."(7,382)

Azərbaycan dilçiliyində feli birləşmələr müxtəlif başlıqlar altında öyrənilir. Məsələn, prof. Y.Seyidovun fikrincə feli birləşmələrin dörd növü vardır: "ad+feil"tipli feli birləşmələr; "feil+feil" tipli birləşmələr; "zərf+feil" tipli birləşmələr; qoşmalı feli birləşmələr.(6,229-414) Prof. Q.Kazımov isə feli birləşmələri tərəfləri arasındakı sintaktik əlaqə üsullarına görə qruplaşdırır: koordinativ feili birləşmələr (subyekt əlaqəli birləşmələr); yanaşma əlaqəli feli birləşmələr; idarə əlaqəli feli birləşmələr.(3,55-61) Prof. Ə.Tanrıverdi də yazılı abidələrin dilində işlənən feli birləşmələri həmin formalara, xüsusən də prof. Y.Seyidovun müəyyənləşdirdiyi

modellərə uyğun şəkildə izah edir.(7,382-386) Müqayisələr göstərir ki, feli birləşmələrin qruplaşdırılmasında müxtəliflik nəzərə çarpsa da, onlar əsasən eyni xətdə birləşir. Bu mənada "Oğuznamə"nin dilində işlənmiş və paremik vahidlərin formalaşmasında mühüm rol oynamış feli birləşmələri həmin formalara uyğun şəkildə təqdim edirik.

"Oğuznamə"nin dilində **"ad+feil" tipli birləşmələr**. Bu tip birləşmələrin asılı tərəfi (birinci tərəfi) isim, sifət, say və əvəzliklə ifadə olunur. Əsas tərəfdə (ikinci tərəfdə) isə felin şəxssiz formalarından biri- məsdər, feli sifət və feli bağlama işlənir.Məs.: **Allah-Allah deməyincə** işlər onmaz.(5,.22) **El keçdügi** köprüdən sən də keç.(5,23) **Ata-ana verdügi** könüllü, **Tanrı verdügi** doyumluqdur.(5,42) **Eyü alan** aldanmaz, **yaramaz alan** aldanur.(5,37) **Bir söyləmək toquz çeynəmək**dən qour. (5,78) **Özüni bilməyən**ə bildirirlər, Cəhan xəlqini ana güldürürlər. (5,47) **Kəndü düşən** ağlamaza ağlamaq degil, amma gözi də çıqar.(5,156) Bu paremilərdəki feli birləşmələrin birinci tərəfi isim(Allah, el, ata-ana, Tanrı), sifət(eyü, yaramaz), say(bir, toquz) və əvəzliklə (özüni, kəndü) ifadə olunmuşdur. İkinci tərəfdə isə feli bağlama(deməyincə), feli sifət(keçdügi, verdügi, tutan, alan,bilməyən, düşən) və məsdərlər(söyləmək, çeynəmək) əsas tərəf kimi çıxış edir. Ad+feil" tipli birləşmələrdə birinci tərəf ismin adlıq, yönlük, təsirlik,yerlik və çıxışlıq hallarında işlənərək müxtəlif münasibətlər ifadə edir. Ümumiyyətlə, feillər adları yönlük, təsirlik, yerlik və çıxışlıq hallarında tələb etməklə yanaşı, adlıq halla da əlaqələnir. Bu cəhətdən "ad +feil"tipli birləşmələr aşağıdakı növlərə ayrılır:

Adlıq hallı feli birləşmələr.Bu növ birləşmələrdə hərəkətlə onun subyekti arasındakı əlaqə və münasibət ifadə olunur.

Abidənin dilində ikinci tərəfi məsdər və ya feli sifətlə ifadə olunan adlıq hallı feili birləşmələr ikinci tərəfi feili bağlama ilə ifadə olunan adlıq hallı feili birləşmələrə nisbətən çox az işlənmişdir.Bəzi nümunələri təqdim edirik: **Bal deməklə** ağız tatlu olmaz.(5,72) Məskənətdən kəl bir kişiyə **"qulunam" deməklə** qulı olmazsan.(5,163) **Atası ölən** öksüz qalmaz, **anası ölən** öksüz qalur.(5,60) **Oğlı ölən** ağlar, **oğlı olmayan** ağlar.(5,62) **"Soq"deyən** düşməndir.(5,118) Nümunələrdən göründüyü kimi, məsdərlər özündən sonra ilə qoşması ilə işləndikdə adlıq haldakı sözlə birləşərək feli birləşmə əmələ gətirə bilir.

"Oğuznamə" dilində paremik vahidləri formalaşdıran feli birləşmələrin əmələ gəlməsində feli bağlamaların isə rolu az deyildir. Abidənin dilində ismin adlıq halındakı sözlərlə əlaqələnərək feli birləşmə yarada bilən feli bağlamalar əsasən -ınca[4] , -kən,-cək, -madən[2] şəkilçiləri ilə əmələ gələnlərdir. Məs.: **Ağır qalqınca** yeyin uçar.(5,33)Axır zamanda **atalar dururkən** oğullar söyləyə, **analar dururkən** qızlar söyləyə.(5,34) **Öküz yüzülməyincə** qarnı cıqmaz.(5,46**) Bən utanınca** sofram utansun. (5,71) **Baş gedicək** payidar olmaz ayaq.(5,73**) Dost gəlməyincə** yaramaza satılma.(5,94) **Dəlü uslanınca** uslu(ağıllı) işini bitürər.(5, 97) **Məmə əmməyincə** oğlan hasil olmaz.(5,164) **Qəza gəlicək** göz bağlanur.(5,132) **Göz görməyincə** könül qatlanır.(5,144) **Məscid yapılmadan** ğərib qapusına gəlür.(5,161)**Yaxşı aş qalınca** yaman qarnı yırtılsun.(5,182)

Qeyd etmək lazımdır ki, əsas tərəfi məsdər və ya feli sifətdən ibarət olan adlıq hallı feili birləşmələr əsasən qoşmaların köməyi ilə düzəlir. Bunlar demək olar ki, adlıq halın qoşmalarla idarə olunması ilə bağlıdır. Bu haqda "qoşmalı feli birləşmələr" bölməsində məlumat veriləcək.

Yönlük hallı feli birləşmələr. Bu birləşmələr işin kimə və nəyə tərəf yönəldiyini göstərir və "yönlük hal+ şəxssiz feil"formasında qurulur. Bu növ birləşmələrin mənasını hərəkətlə onun istiqaməti arasındakı əlaqələr təşkil edir. Məs.: **Həmmamə girən** dərlər.(5,88**) Dəgirmənə gedən** un ügüdər, evdəki növbət sayar.(5,95) **Yüksək dəpəyə çıqmaq** zəhmətdir, amma çoq tamaşası var.(5,180) Yılan nə dənlü əgri bögri yürürsə, **ini qapusına gəlicək** toğrulur.(5,180)

Abidənin dilindəki yönlük hallı feli birləşmələrin tərəfləri arasında aşağıdakı məna münasibətləri müşahidə olunur:

a) Obyekt əlaqəsi.Birləşmənin birinci tərəfi hərəkətin müəyyən obyektə doğru istiqamətini göstərir. Belə birləşmələrdə birinci tərəf ikinci tərəf üçün obyekt rolu oynayır.Məs.: El eybin **sana söyləyən** sənin eybini də elə söylər.(5,24) **İssinə**(sahibinə) **bənzəməyən** oğurluqdur.(5,26) **Uzunayaqluya inanmaq** olmaz.(5,27) **Oynaşına inanan** ovrət ərsiz qalur.(5,34) **Eşəgə güci yetməyən** səmərin dögər.(5,46) **Başına gələn** başmaqçıdır.(5,66) **Lağa qatlanan** yenər.(5,160) Hər bir yerün bir ərkanı(qayda-qanunn) olur, **Oduna gedən**in orğanı olur.(5,170) Bu birləşmələrdə hərəkət obyekti əhatə edə bilmir, sadəcə olaraq, obyektə doğru meyl, istiqamət ifadə olunur. Təsirlik hallı feli birləşmələrdə isə hərəkət obyekti bütünlüklə əhatə edir.

b) Məkan əlaqəsi.Bu qrupa daxil olan feli birləşmələrin birinci tərəfi yer bildirən isimlərlə, ikinci tərəfi isə müxtəlif şəxssiz feillərlə ifadə olunur.Məs.: Yügrük **meydana gəlicək** dinsüzə dinin bildürər.(5,184) Yurdundan sürülən **yurdına varınca** ağlar.(5,186)

c) Zaman əlaqəsi. Bu növ birləşmələrdə birinci tərəf ya işin icra müddətini bildirir, yaxud zaman bildirən sözlərlə ifadə olunaraq hərəkətin zaman istiqamətini, hərəkətin davam etdiyi zaman müddətini bildirir. Məs.: **Ertəyə qalan** bəladan qorqma.(5,56) "Oğuznamə" dilində zaman əlaqəsi ifadə edən feli birləşmələrə az təsadüf olunur.

Bəzən elə yönlük hallı feli birləşmələrə təsadüf edilir ki, birinci tərəf sayla ifadə olunur.Məs.: **Altmışa çıqmış** sıpa kibi sorutma erkək.(5,47) **Birə yetən** ikiyə də yetər.(5,71)

Təsirlik hallı feili birləşmələr. Bu birləşmələrdə təsirlik halda olan sözlər və ya birləşmələr şəxssiz feillərdən biri ilə işlənərək müstəqim obyekt kimi çıxış edir. Məs.: **Ətmək**(çörək) **kəsmək** hünərdir.(5,32) **Atın sevən** bir avuç əksik verər.(5,33) **İti öldürən** sürüyü bilür.(5,36) **Dürlü yalanın adını** eşq qomuşlar, **Eşqi çəkən** kişilər dostu xəlvət bulmuşlar.(5,101) **Süci(**şərab) **içmək** ğəm gedirər.(5,110) **Saqalın taradığ**ın tarağ ilə bığın tarama.(5,118)

Qəssabı yıqan qoyundur.(5,138)

Nümunələrdən göründüyü kimi, "Oğuznamə" dilində təsirlik hallı feli birləşmələrdə ismin təsirlik halında bəzən hal şəkilçisi işlədilmiş (iti,yalanın adını, eşqi, qəssabı), bəzən işlədilməmiş(ətmək, suci), bəzən isə hal şəkilçisi ixtisar edilmiş, ancaq bitişdirici **n** samiti qalmışdır(atın, saqalın). Yeri gəlmişkən qeyd edək ki, prof.Y. Seyidov Nəsiminin dili kontekstində şairin "Gül kimi gülə-gülə gəl, aradan **pərdə** götür" və ya "**Kəpənək** geymişəm, əndişədən azad oluban"- misralarındakı pərdə, kəpənək kimi sözlərin qrammatik mənasını belə izah edir: "İsmin adlıq halı Nəsimi dilində də təsirlik hal mövqeyində çıxış edir. Bu mövqedə o öz qrammatik mənasına görə təsirlik halla birləşir – müstəqim obyekt bildirir. Fərq ondadır ki, ismin təsirlik halı həmişə müəyyənlik bildirirsə, bu mövqedə çıxış edən adlıq hal qeyri-müəyyənlik bildirir." Prof. Ə.Tanrıverdinin fikrincə, həmin tip sözlərin məhz qeyri-müəyyən təsirlik hal başlığı altında öyrənilməsi düzgündür.(7,204)

Beləliklə, abidənin dilindəki təsirlik hallı feli birləşmələrin də iki növünə təsadüf edilir:

"1) birinci tərəfi qeyri-müəyyən təsirlik halla ifadə olunanlar;

2) birinci tərəfi müəyyən təsirlik halla ifadə olunanlar." (4,62)

Birinci tərəfi qeyri-müəyyən təsirlik halla ifadə edilən feli birləşmələrin ikinci tərəfi, bir qayda olaraq, təsirli feil olur və birinci tərəf həmişə qeyri-müəyyənlik, ümumilik bildirir. Məs.: **Sədəqə verən** əllər dərd görməsün.(5,119) **Tavşan tutan** it dişin göstərməz.(5,121) **Qız oğlan** (qız uşağı) **qucmayan**, **ayğır at binməyən** yigidlik səfasın bulmaz.(5,137) **Gözəl sevməgə** tövbə olmaz.(5,149) **Vətən sevmək** imandandır, vay ana kim, içində olmaya.(5,168) **Varın verən** yad olmamışdır.(5,168) Yazın **kölgə bəkləyən**in(gözləyənin) qışın unı qar olur.(5,182)

Birinci tərəfi müəyyən təsirlik halla ifadə olunan feli birləşmələr birləşməyə daxil olan sözlərin mənalarından asılı olaraq müxtəlif münasibətləri ifadə edir. Belə birləşmələrin birinci tərəfində müəyyənlik, konkretlilik vardır. Məs.: **Tanrıyı göz ilə görmüş** kimsə yoq, əqllə bulurlar.(5,81) Həmmamda **bir tas suyi bilməyən** hamamı başına yıqarsan da bilməz.(5,88)

Süglüyi(qamışı) **verməyincə** sevdügün ələ girməz.(5,109) **Tabanı giciyən** köpək yolçıya uyar.(5,124) **Kəlbi** (iti) **andıqca** ağacı yanına qo.(5,154) Kişi əyalın almaq güc olur, amma bəsləmək qolay olur, **bədasılı almaq** qolay olur, amma bəsləmək güc olur.(5,152)

Müəyyənlik bildirən feli birləşmələrin birinci tərəflərinin sayla və ya əvəzliklə ifadəsinə də təsadüf olunur. Məs.: **Beşini sanan** ilətməz eşqi başa, Səlamət gözləyən varmaz savaşa.(5,74) **Özüni bilməyən**ə bildirirlər, Cəhan xəlqini ana güldürürlər.(5,47) Sevgil **səni sevən**i, iki dişlü qarisə, Sevmə **səni sevməyən**i, gögdən enən hurisə.(5,110)

Müəyyənlik bildirən feli birləşmələrin tərəfləri bir-birinin yanında işləndiyi kimi, bir-birindən aralı da işlənə bilir. Məs.: **Səni** bir **sevməyən**i sən iki sevmə.(5,111) **Sumunu**(pulunu) böyük **istəyən** evinə qabmaq gərək.(5,118) **Hər kişiyi** xoyilə xoş **görmək** gərək.(5,169)

Abidənin dilində təsirlik hallı feli birləşmələrin birinci tərəflərinin həm ikinci, həm də üçüncü növ təyini söz birləşmələri ilə ifadə olunma formalarına da rast gəlinir. Məs.: **Ulular sözin tutmayan** ulayu qalur.(5,57) **Birəginün beş aqçalıq yayın çəkmək**dən beş yüzlıq qılıncın çəkmək yegdir.(5,66) **Siçanın toyu bitdükcə** üşür.(5,117) **Sazanun başını yeyən**in quyruğı ğayət tatlu olur.(5,119)

Təsirlik hallı feli birləşmələrin məzmununu ümumi mənada obyektlə, həmin obyekt üzərində icra edilən, həmin obyektə təsiri keçən hal və hərəkət təşkil edir. Bu ümumi xüsusiyyətini nəzərə alaraq, belə birləşmələrə obyekt əlaqəli birləşmələr adı verilir.(2,68-69)

Yerlik hallı feli birləşmələr. Felin şəxssiz formalarından biri- məsdər, feli sifət və feli bağlamalar yerlik halda olan sözlər və birləşmələrlə əlaqələnərək məkan, obyekt və s. əlaqəli feli birləşmələr yaradır. Adından məlum olduğu kimi, yerlik hal əşyanın məkanını bildirir. Bu birləşmələrdə birinci tərəfin ifadə etdiyi məkan mənası(sahəsi) ikinci tərəfdə ifadə olunan hərəkətin fəaliyyət sahəsindən geniş olur, hərəkət həmin məkanın sərhədlərindən kənarda deyil, onun daxilində baş verir. Məs.: **Həmmamda ırlamaq**(nəğmə oxumaq), ğəriblıqda ögünmək qolaydır.(5,89) **Bin il yerdə yatan** bir duaya möhtacdır.(5,76) **Kölgəsində yatacaq** ağacı budama.(5,152) "Yerlik hallı birləşmələrin tərəfləri arasında bəzən məkan əlaqəsi fonunda, bəzən də bu əlaqədən kənarda başqa məna əlaqələri də özünü göstərir."(2,77) Bu əlaqələr obyekt, zaman və s.-dən ibarətdir.

Yerlik hallı feli birləşmələrin asılı tərəfinin ifadə etdiyi məkan sahəsi kiçildikcə, onun əhatəsi daraldıqca məkan mənasından obyektə doğru meyl əmələ gəlir və bu, nəhayət, məkan çalarlığına malik olan obyektə çevrilir. Məs.: **Oyunda ağlayan**ın başı kəl(keçəl) olur.(5,24) Aşı **çölməkdə bişirən** tez qayrar(peşman olar).(5,25) **Asılında olan** toynağında bəlirdür. (5,61) **Bun dəmində qaçmaq** da ərlikdəndir. (5,78) **Qar üstündə yatan** ölməmiş, **un üstündə yatan** ölmüş.(5,143) Bəzi feli birləşmələrdə əsas tərəf işin adını, asılı tərəf isə işin icra olunduğu vaxtı bildirir. Bu qəbildən olan birləşmələrin birinci tərəfi zaman bildirən sözdən və ya tərkibində zaman anlayışlı söz olan birləşmələrdən ibarət olur. Məs.: **Qavın-qarbuz vaqtında bıçqısuz olan** yanın çarbınur. (5,142) "Oğuznamə" dilində bu növ feli birləşmələr dar mövqedə müşahidə olunur.

Çıxışlıq hallı feli birləşmələr. Bu birləşmələrdə də məkan əlaqəsi əsas yer tutur. Burada birinci tərəf(asılı tərəf) işin çıxış nöqtəsini, hərəkətin haradan, nədən və ya kimdən yönəldiyini göstərir. Birinci tərəfi çıxışlıq halla ifadə olunan feli birləşmələrin ikinci tərəfi(əsas tərəfi) əsasən hərəkət və iş feilləri ilə ifadə olunur. Məs.: **Yurdundan sürülən** yurdına varınca(gedincə) ağlar.(5,186) **Müxənnət** (namərd) **köprüsindən keçmək**dən suya boğulmaq yegdir.(5,162)

Abidənin dilində çıxışlıq hallı feli birləşmələrin tərəfləri arasında aşağıdakı əlaqələr özünü göstərir:

a) Obyekt əlaqəsi: **Atdan düşən** ölməz, **eşəkdən düşən** ölər.(5,28) **Otuz iki dişdən çıqan** ordaya yayılur.(5,40) **İssi aşdan qorqan** sovuğı üfürüp yiyər.(5,40) Dəniz olup taşma, **Əlündən**

gəlməyəcək işə tolaşma.(5,100) **Sərçədən qorqan** darı əkməz.(5,109) Sənəti **ustaddan görməyən** önməz.(5,117) **Tonuzdan** bir qil **çəkmək** assıdır(xeyirdir).(5,123) Qonşı qazan almaq **çanaqdan su içmək** kibidir.(5,133) **Yüksəkdən baqan** alçağa tez enər.(5,186)

b) Səbəb əlaqəsi: **Açlıqdan ölmüş** kimsə yoq.(5,30) **Yağmurdan uluyan** sudan uyurtmaz.(5,177)

Çıxışlıq hallı feli birləşmələrdə bəzən birinci tərəf hərəkətin tərzini də bildirir. Məs.: Budur qanun ki, sevdilər sevəni, Könüldən savdılar **gözdən savan**ı.(5,71) **Toğrudan gedən** gec gəlür, tolamaçdan tez gəlür.(5,125) **Qoltuğı altından yeyən**in qarnı toymaz.(5,132)

"Feil+feil" tipli birləşmələr. Prof.Ə.Tanrıverdi bu tip birləşmələr haqqında yazır: "Belə birləşmələrin birinci tərəfi (asılı tərəf) yalnız feli bağlamalar, ikinci tərəfi (əsas tərəfi) isə felin təsriflənməyən formalarından biri ilə (məsdər, feli sifət, feli bağlama) ifadə olunur."(7,384) "Oğuznamə" dilində "feil+feil"tipli birləşmələrə az təsadüf olunur. Bəzi nümunələri təqdim edirik: **Sorup verincə**, urup ver.(5,114) **Turmayub getməg**ə mənzil doymaz.(5,124**)** Dünya üçün **oda düşüp yanan**ın Su yerinə qanın içər ruzigar.(5,101) **Toyunca yemək**dən toyunca...yegdir.(5,121)

Feli bağlamalar aid olduğu feillə yalnız yanaşma əlaqəsində olur.

Qeyd etmək lazımdır ki, bəzi paremilərin tərkibində məsdərlər və bəzən də feli sifətlər feillərlə əlaqələnərək feli birləşmə əmələ gətirir. Belə məqamlarda tərəflər arasında əsasən idarə əlaqəsi olur. Məs.: **Toğmaqdan qalmayan** ölməkdən qalmaz.(5,125) **Verəsiyi verən**in qoynı boşdur (5,167)

"Zərf+feil"tipli birləşmələr.Bu növ birləşmələrin birinci tərəfi zərf, ikinci tərəfi isə felin şəxssiz formalarından biri ilə (məsdər, feli sifət və feli bağlama) ifadə olunur. Prof. Y. Seyidovun fikrincə, bu tip birləşmələr arasında məna əlaqələri, əsasən, birinci tərəfin mənası ilə müəyyən olunur, yəni birinci tərəf hərəkətin tərzini (tərz əlaqəsi), zamanını (zaman əlaqəsi), yerini (yer əlaqəsi) və kəmiyyətini (kəmiyyət əlaqəsi) bildirir.(7,384)

"Oğuznamə" dilində rast gəlinən "zərf+feil" tipli birləşmələri aşağıdakı kimi qruplaşdırmaq olar: Birinci tərəfi tərzi-hərəkət zərfi ilə ifadə olunanlar: **Ucuz verən** tez satar.(5,57) **Dək duran**ın dəvəcə assısı vardır.(5,94) Şəriəti **xor görən** xor (alçaq) olur.(5,112) **Toğru gələn** dolaşmaz(5,122) **Qavlısız**(xörəksiz) **girən** hasız çıqar.(5,137) **Gen əkən** gensiz bayır (varlanır). (5,151)

Birinci tərəfi yer zərfi ilə ifadə olunanlar: Ğaib **ortaya gəlincə** hazır haqqa irişər.(5,129)

Birinci tərəfi kəmiyyət zərfi ilə ifadə olunanlar: **Çoq yaşayan** çoq bilməz, **çoq gəzən** çoq bilür.(5,83) **Bin çalmaq**dan bir kərrə... yegdir.(5,66) **Çoq söyləyən** çoq yanılur.(5,83) **Çoq yemək** heyvan sifətidir.(5,86) **Yeddi kərrə həcc edən**in hacı qoltuğundan çıqmışdır.(5,175)

Yuxarıda təqdim etdiyimiz "zərf+feil"tipli birləşmələrdə -maq^2 şəkilçili məsdərlər, -an^2 şəkilçili feli sifətlər və -incə şəkilçili feli bağlama əsas tərəf kimi çıxış edir. Həmin birləşmələrin asılı tərəfi isə zərflərdən ibarətdir.

Qoşmalı feli birləşmələr. Qoşmaların köməyi ilə düzələn bu tip birləşmələr üçün "müstəqil mənalı söz+qoşma+şəxssiz feil"modeli əsas götürülür. Qoşma ilə onun əlavə olunduğu söz birləşmənin birinci komponentini (asılı tərəfini), məsdər, feli sifət və feli bağlama isə birləşmənin ikinci, əsas komponentini təşkil edir. Qoşma bu birləşmələrin tərəfləri arasında əsas əlaqələndirici vasitə hesab olunur. Onu da qeyd etmək lazımdır ki, qoşmaların hamısı söz birləşməsi əmələ gətirməyə xidmət etmir. Buna görə də burada daha məhsuldar olan qoşmalardan bəhs edilir. Belə qoşmalardan biri **ilə** qoşmasıdır. "Oğuznamə" dilində də rast gəlinən qoşmalı feli birləşmələrin tərkibində **ilə** qoşması çox işlənmişdir. **İlə** qoşması ilə düzələn feli birləşmələr işin icrasındakı vasitəni göstərir. Məs.: **El ilə gələn** bəla bayramdır.(5,27) **El ilə gələn** qərə gün dügündür.(5,28) **Əl ilə çözüləcəg**i dişinə bıraqma.(5,56**)** **Uslular ilə savaşmaq cahillər ilə halva yemək**dən yegdir.(5,60) **Əl ilə qoduğu**n əlli yıl

durur.(5,61) Bu şimdiki zəmanəyə gül yaramaz, dikən olar, **Əriylə dost oluban,** övrəti...yarar.(5,68) **Toqla yemək** haramdır.(5,81) **Dün ilə yürüyən** sabah sevinür.(5,99) **Subaşı ilə irişən** yurtdan çıqar.(5,111) **Sağırla söyləşmək** güc olur.(5,116)

Bəzi feli birləşmələr isə **ilə** qoşmasının köməyilə əmələ gəlməsinə baxmayaraq, birinci tərəf vasitə obyekti ola bilmir. Belə birləşmələrin asılı tərəfi əsas tərəfin tərzini bildirir. Məs.: **Öykə** (hirs) **ilə qalğan** ziyanla oturar.(5,58) Sağlıq olsun, **əski ğüssə ilə yatduğ**ımız yoq.(5,118) **İllətlə dirilən** möhnətlə can verər.(5,127)

Nümunələrdən göründüyü kimi, ilə qoşması adlıq haldakı sözlərə və birləşmələrə qoşulmuşdur.

Abidənin dilində qoşmalı feli birləşmələrin tərkibində az rast gəlinən başqa qoşmalar da işlənmişdir. Məs.:

Bənzətmə bildirən **kibi** qoşması: Dəvayı **eşək kibi sürmək** gərək.(5,94)

Zaman bildirən **dək** qoşması: **Axşamadək yoldaş olacağ**a **quşluğadək göymək** (halına yanmaq) gərək. (5,59) **Qırqınadək ögməyən** (öyrənməyən) qırqından son ögməz.(5,142)

Səbəb bildirən **içün** qoşması: **El içün ağlayan**ın gözi yaşı dügiməz.(5,44) Yuxarıda göstərdiyimiz nümunələrin hər birində felin şəxssiz formalarından birinin (məsdər və feli sifətlərin) əsas tərəf kimi çıxış etməsi aydın şəkildə görünür. Deyilənlərdən aydın olur ki, minillərin fikri ifadəsi olan "Oğuznamə"nin dilində işlənmiş feli birləşmələr də əmələ gəlmə üsul və qaydalarına görə çox zəngindir.

Ədəbiyyat

1.Azərbaycan ədəbi dili tarixi. II cild. XVII – XVIII əsrlər. Bakı, "Şərq – Qərb", 2007.
2.AbdullayevƏ.Z.,Seyidov Y.M.,Həsənov A.Q.Müasir Azərbaycan dili.Sintaksis,IV hissə, Bakı, "Maarif",1985.
3.Kazımov.Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, "Təhsil" nəşriyyatı, 2007.
4.Müasir Azərbaycan dilində söz birləşmələri. Bakı, Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1961.
5. "Oğuznamə". Bakı, "Şərq – Qərb", 2006.
6. Seyidov Y. Əsərləri. III cild, Bakı, 2007
7.Tanrıverdi Ə.V. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, "Elm və təhsil" 2012.

Ш. Гумбатова

Глагольные сочетания, формирующие паремические единицы с грамматической точки зрения в языке «Огузнаме»

Резюме

В этой статье рассказывается о глагольных сочетаниях, играющих важную роль в формировании с грамматической точки зрения паремических единиц в языке памятника «Огузнаме», относящегося к XVI-XVII векам. В языке памятника много использовано таких сочетаний.

При исследовании глагольных сочетаний, использованных в составе паремических единиц в языке «Огузнаме» становится ясно, что они не отличаются от современных и по своему происхождению, а также по своему смыслу и по свойствам выражения. Так как, основная часть этих сочетаний, созданных при помощи связей управления и примыкания, является инфинитивом, причастием и деепричастием. А зависимая часть, образована с помощью различных частей речи, таких как деепричастие, причастие, предлог и т.д. Глагольные сочетания, наблюдаемые в языке памятника, можно сгруппировать так:

глагольные сочетания типа «имя + глагол», «глагол + глагол», «наречие + глагол», глагольные сочетания с предлогами. Как видно, эти формы соответствуют моделям глагольных сочетаний в современном нашем языке. В языке памятника, в глагольных сочетаниях типа «имя + глагол» первая часть употребляется в именительном, дательном, винительном, творительном и в предложном падежах существительного и выражает разные отношения. Сочетания такого типа многочисленны. В составе паремий глагольным сочетаниям типа «глагол + глагол» и глагольным сочетаниям с предлогами встречается мало. Также относительно мало использовано глагольные сочетания типа «наречие + глагол».

Проведенные нами наблюдения показывают, что и глагольные сочетания исторически не были малыми от современных форм.

Ключевые слова: «Огузнаме», памятник, паремические единицы, глагольное сочетание, первая часть (зависимая часть), вторая часть (основная часть), инфинитив, причастие, деепричастие.

Sh.Humbatova

Verbal combinations forming, from the grammatical point of view paremic units in the “Oghuzname” language

Summary

This article talks about verb combinations that play an important role in the formation from a grammatical point of view of paremic units in the “Oghuzname” language, in the monument of the 16th and 17th centuries. Too many combinations are used in the language of the monument. Verb combinations used as part of paremic units in the “Oguzname” language aren’t different from modern ones in their origin, including in their meaning, and in the properties of the expression. So the main part of these combinations created by the help of managing and adjacency are consist an infinitive, a participle and an adverbial participle. The dependent part formed by the help of different parts of speech, participle, adverbial participle and verb combinations with prepositions. Verb combinations observed in the language of the monument can be grouped as follows: verb combinations of the type “name + verb”, “verb + verb”, “adverb + verb”, verb combinations with prepositions. As you can see, these forms correspond to models of verb combinations in the modern language.And the first part in verb combinations of the type “name + verb” in the language of the monument expresses different relations. There are too many combinations like this. We see verb combinations of the “verb + verb” type and verb combinations with prepositions in the composition of paremias rarely. Verb combinations of the “adverb + verb” type are also relatively used less. Our observations show that verb combinations historically were not less from modern forms.

Key words: “Oghuzname”, monument, paremic units, verb combinations, first side (dependent part), second side (main part), infinitive, participle, adverbial participle.

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 06.08.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Gülarə Abdullayeva tərəfindən çapa tövsiyə olunmuşdur.

AYBƏNIZ HÜSEYNOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
ADİU (UNEC),
Təbriz küçəsi 81
Fidto@bk.ru

DİLİMİZ MİLLİ VARLIĞIMIZDIR

Xülasə

Azərbaycan dili qədim dillərdən biridir. Bu dil zəngin ümumtürk dil bazasında formalaşmışdır. Azərbaycan dili digər türk dilləri ilə qarşılıqlı inkişaf yolu keçmişdir. Qarşılıqlı əlaqə müəyyən zaman kəsiyində fərqlərin də ortaya çıxması ilə nəticələnmişdir. "Kitabi-Dədə Qorqud" ilk yazılı abidəmiz olaraq dil faktlarının öyrənilməsində müstəsna rola malikdir. Ədəbi dilin başlanğıcı olaraq Nəsimi yaradıcılığına əsaslanırıq. O, Azərbaycan ədəbi dilinin lüğət tərkibini xeyli zənginləşdirmiş, ana dilinin bütün leksik-semantik imkanlarını üzə çıxarmışdır. Füzuli yaradıcılığı ilə ədəbi dil zirvəyə çatmışdır.XVII-XVIII əsrlərdə Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması dövrü bitir. Yerini isə ədəbi dilin milli dil əsasında formalaşması dövrü alır. Bu dövrdə Vaqif ilə milli ədəbi dil təşəkkül tapır. Şərti mənada XVII əsrə qədərki Azərbaycan ədəbi dilini - köhnə, XVII əsrdən sonrakı isə yeni Azərbaycan ədəbi dili adlandıra bilərik. Sonrakı dövrlərdə artıq Azərbaycan dili müasirləşməyə doğru istiqamət almışdır. Texnikanın inkişaf etdiyi bir dövrdə Müasir Azərbaycan dilində neologizmlərin üstünlüyü müşahidə olunur. Alınma neologizlərlə müqayisədə öz sözlərimiz azlıq təşkil etsə də, hazırda bunun üçün islahatlar aparılır. Azərbaycan dili müxtəlif dövrlərdə fərqli adlarla adlandırılmışdır. Uzun müddət "türki", "türk dili", "Azərbaycan türkcəsi", "tatar dili" kimi adlarla adlandırılan bu dil müstəqillikdən sonra "Azərbaycan dili" olaraq sənədlərdə əksini tapmışdır.Hazırda dövlətin diqqət və qayğısı nəticəsində dilin inkişafı ilə bağlı proqramlar hazırlanır, sərəncam və fərmanlar verilir. Məqalədə Azərbaycan dili ilə və onun təşəkkülü ilə bağlı məsələlərdən bəhs edilir.

Açar sözlər: Azərbaycan, dil, türk, söz, xalq, inkişaf, yazıçı, klassik

Dil sözləri bir-biri ilə əlaqələndirən sistem olub, pozulmaz, nizamlı şəkildə təşəkkül tapan məfhumdur. "Dil elə bir güzgüdür ki, xalqın tarixi, dünyabaxışı, adət və ənənələri öz əksini bu və ya digər şəkildə həmin güzgüdə tapır" (1, 22). Bir dilin sözlərini xalqın dünyagörüşünü, adət-ənənələrini bilmədən izah etmək olmaz. Türk dillərinə daxil olan oxşar adət-ənənələrə sahib olan xalqlar eyni anlayışı, demək olar ki, eyni dil vasitələri ilə izah edirlər.

Azərbaycan dili türk dil ailəsinə daxil olan qədim, eyni zamanda zəngin bir dildir. Bu zənginlik dədə-babalarımızın məsəlləri, analarımızın, nənələrimizin laylaları ilə günümüzə qədər ötürülmüşdür.

Türk dilləri ilə qarşılıqlı şəkildə inkişaf edən, ümumi normadan uzaqlaşaraq xüsusiləşib özünküləşən Azərbaycan dili ədəbi dil səviyyəsinə çatmış, yüksələn xətt üzrə inkişaf etmiş, özündən əvvəlki ilə təşəkkül taparaq sonrakı üçün başlanğıc olmuş, yəni tarixi-diaxron keyfiyyətlə yüklənmişdir. XIII-XIV əsrlər Nəsimi, XV-XVI əsrlər Füzuli, XVII-XVIII əsrlər isə Vaqif yaradıcılığında ədəbi dil təşəkkül tapmış, yüksək zirvəyə çatmışdır. Nəsiminin ədəbi dili Füzuli ədəbi dili üçün, Füzuli ədəbi dili isə Vaqif yaradıcılığı üçün zəmin yaratmışdır.

Azərbaycan ədəbi dilindən danışarkən ilk nəzər saldığımız abidə "Kitabi-Dədə Qorqud" olmalıdır. "Kitabi-Dədə Qorqud" dastanı anadilli Azərbaycan ədəbiyyatı tarixində yazıya alınmış ilk abidədir. Dastanın poetik dili zəngin təsvir vasitələri ilə diqqət çəkərək dil faktları və

hadisələri ilə seçilir. "İlk orta əsrlərə aid olduğundan abidənin dilində başqa türk dilləri, xüsusən oğuz qrupu dilləri ilə müştərək cəhətlər çoxdur. Çünki həmin dövr türk dilləri arasında differensiasiyanın başlanğıcıdır" (8, 105).

XIII-XIV əsrlərdə dilimiz ərəb-fars dilinin təsirindən yan keçməsə də, bu dövrdə Azərbaycan dilində yazıb-yaradan şairlər artmağa başladı. İlk dəfə Azərbaycan dilində poetik əsərlərin yaranması da məhz bu dövrə aiddir. İzəddin Həsənoğlunun, Bakui Nəsirin, Qazi Burhanədinin yaradıcılığı bunun bariz nümunələridir. Musiqişünas olsa da, şairliyi ilə də məşhurlaşan Əbdülqadir Marağayi bu dövrdə doğma dilimizdə şeirlər yazıb-yaratmışdır. Həsəoğlunun Azərbaycan dilində yazdığı qəzəllər dərin məzmunu və forma gözəlliyi ilə seçilir. Bu da onu göstəriri ki, o dövrdə də dilimizə önəm verilmiş, ədəbi əsərlərin bu dildə yazılmasına önəm verilmişdir.Azərbaycan yazılı ədəbi dilin başlanğıc mərhələsi Nəsiminin yaradıcılığı ilə bağlıdır. Nəsimi yaradıcılığında dilimizin bədii potensialı öz əksini tapmışdır. Nəsimi yaradıcılığının çox hissəsi zəmanəmizə qədər çatdığı üçün əminliklə deyə bilirik ki, o, qüdrətli söz sənətinin yaranmasında böyük rol oynamışdır. Nəsimi ədəbi dildə ənənə yaradaraq sələflərinə və digər sənətkarlara örnək olmuşdur. Şair Azərbaycan ədəbi dilini lüğət tərkibi ilə zənginləşdirərək leksik-semantik, qrammatik cəhətdən ana dilinin imkanlarını genişləndirmişdir. O, yaradıcılığında mümkün qədər ərəb-fars sözlərindən az istifadə etməyə çalışmışdır.Nəsimi ədəbi dilinin maraqlı məqamlarından da biri də etnos adlarının çoxluq təşkil etməsidir. Ən çox türk etnoslarının adlarını çəkən şair ümumxalq dilinin müəyyən çəkisini özündə ehtiva edən frazeologizmlərdən də yetərincə istifadə edir. Hansı ki, bu frazeologizmlər türk xalqlarının oxşar ənənələrini, dünyagörüşünü, tarixini özündə əks etdirir. Nəsimi sintaksisinə isə ümumilikdə nəzər yetirsək, deyə bilərik ki, bu ədəbi dil üsyankarlığı, çevikliyi, azadlığa çağırışa səsləmə və bu kimi əlamətləri özündə cəmləyir.

Azərbaycan ədəbi dil tarixinin ən maraqlı dövrü kimi XV – XVI əsrləri qiymətləndirmək olar. Əvvəlki dövrlərdə şahlar ərəb-fars dillərinə üstünlük versə də, bu dövrün şahları Azərbaycan dilinə maraq göstərmiş, saraylarında bu dilə önəm vermişlər.Cahan Şah Həqiqinin sarayında Azərbaycan ddilində yazıb-yaradan şairlərin yığışması, Şah İsmayıl Xətainin sarayında Həbibinin başçılıq etdiyi şairlər məclisinin fəaliyyət göstərməsi ədəbiyyatın inkişafına geniş imkanlar açmış, dilimizin inkişafı üçün münbit şərait yaratmışdır. Bu illərdə Hamidi, Şah Qasım Ənvar, Şahi, Xəlili, Kişvəri, Sürüri, Tüfeyli, Şahi, Xəzani (Əsiri), Zəmiri, Şah Qasım Ənvar kimi ustad şairlər ədəbi irsimizi zənginləşdirmişlər. Bu dövrdə yazıb-yaradan sənətkarlar Azərbaycan dilində olan bədii nümunələrlə də öz töhfələrini vermişlər.

XVI əsrin əvvəllərində - 1525-ci ildə Həqiri Təbrizi Azərbaycan dilində ilk "Leyli və Məcnun" əsərini yazmışdır. Şərqin böyük söz ustaları Şah İsmayıl Xətai və Füzuli, xalq ədəbiyyatımızın bizə məlum olan ilk qüdrətli nüməyəndəsi Aşıq Qurbani ana dilində qiymətli bədii irs yaratmışlar. XV-XVI əsrdə Ana dilində yazılan əsərlərin çoxluğu ədəbi dilin inkişafına, üslubi zənginləşməsinə gətirib çıxarmışdır. Şah İsmayıl hakimiyyəti sayəsində Azərbaycan dilinin dövlət dili elan olunması, saray dilinə çevrilməsi ədəbi dilin irəliləməsinə, yüksəliş keçməsinə zəmin yaratmışdır. M. Füzulinin sayəsində isə xalq dili yazılı-ədəbi dil səviyyəsinə ucalmış, qrammatik quruluşu işlək hala gətirilmiş, dilimizin lüğət fondu zənginləşmişdir. Füzulinin səlefləri, müasirləri və ondan sonra gələnlər böyük ustad sayəsində dilimizin dərinliklərinə bələd olmuşdur. Sanki Füzuli dilimizin inkişaf yolunda bələdçi rol oynamışdır. Onun zəngin yaradıcılıq irsi ədəbi dilimizə təsirsiz ötüşməyib. Füzuli sözlərdən mirvaritək elə nemətlər yaratmışdır ki, bunlardan dadan hər bir kəs-milliyyətindən asılı olmayaraq zövq alır.

Qeyd edək ki, Füzulinin sözə heyranlığı təkcə qəzəl və müqəddimələrində yer almır. O, qəsidələrində, eləcə də epik əsərlərində də söz və kəlamın dəyərini dəfələrlə vurğulamışdır.

XVII-XVIII əsrlər Azərbaycan ədəbi dili inkişaf baxımından zirvədə dayanır. Azərbaycan ədəbiyyatındakı xəlqiləşmə birbaşa ədəbi dilə də təsir göstərir.

XVII əsr Azərbaycan milli ədəbiyyatının erkən realizm dövrünün girişi, hazırlıq mərhələsidir. Bu dövrdə yazılan əsərlərdəki folklor üslubu görmək olar. Aşıq ədəbiyyatının inkişafı isə ana dilimiz üçün geniş imkanlar açmışdır. XVII əsrdə ana dilində yazma ənənələri davam edir. Hətta bu dövrdə yaşayan Qövsi Təbrizinin ana dilinin sıxışdırılmasına etiraz olaraq yazdığı şeirlər maraq doğurur.

XVIII əsrdə şeir dilinin xalq dilinə yaxınlaşması Molla Pənah Vaqif sayəsində baş vermişdir. Vaqif Azərbaycan ədəbiyyatında yeni cığır və ədəbi dilində isə yeni zirvə kəşf etmişdir. Molla Pənah Vaqifin ideya-estetik dünyagörüşü kimi, həmin dünyagörüşün ifadəsi olan dili, üslubu, poetik nitq texnologiyaları da milli intibahın birbaşa faktı, təzahürüdür. Təsadüfi deyil ki, Azərbaycan dili tarixinin görkəmli tədqiqatçısı professor Əbdüləzəl Dəmirçizadə Azərbaycan ədəbi dili tarixinin bütöv bir dövrünü "Vaqif dövrü" adlandırmışdır. M.P.Vaqifin leksikasını onun məhz “milli şairliyi” müəyyənləşdirir, ana dilimizin şivəsində qələmə aldığı yazılar insanları valeh edir.

Vaqif ədəbi dili və poeziyası XIX əsrdə Q.B.Zakirin, M.F.Axundovun dil yaradıcılığı üçün zəmin təşkil etmişdir.

Bu dövrdə Qasım bəy Zakirin daha çox Azərbaycan türkcəsində şeirlər yazması, türk dilinin saflığının qorunmasında və s. məsələlərə münasibətdə müəyyən rol oynamışdır. Mirzə Fətəli Axundovun, Firidun bəy Köçərlinin, Abdulla Şaiqin, Əbdürrəhim bəy Haqverdiyevin Azərbaycan dilinin gözəlliklərindən danışarkən Qasım bəy Zakirin adını çəkmələri də səbəbsiz deyildir. Dilimizin məna çalarlarından bacarıqla istifadə ustad sənətkarı xalqa sevdirən amillərdəndir.

XIX əsrdə M.F.Axundov ana dili məsələsi ilə yanaşı, Əlifba məsələsini də ortaya qoymuşdur, çünki bizim dil qanunlarımızla əski əlifba uyuşa bilmədiyi üçün yalnışlıqlara və çətinliklərə səbəb olmuşdur. M.F. Axundzadənin yeni əlifba uğrunda apardığı 30 illik mübarizə onun maarifçilik fəaliyyətinin əsasını təşkil edir. M.F.Axundov yaradıcılığı boyunca öz xalqının ana dilində təhsili uğrunda, ana dilində kitab və mətbuatın yaranması və nəhayət, milli maarifin və mədəniyyətin inkişafı uğrunda mübarizə aparmışdır.

XIX əsr həm də ana dilli mətbuatımızın yaranması baxımından önəmlidir. H.Zərdabi də Azərbaycanda maarifçilik ideyalarının yayılması və təbliği sahəsində böyük işlər görmüş, böyük bir zəhmətdən sonra 1875-ci ildə “Əkinçi” adlı ana dilində qəzet nəşr etdirməyə nail olur. Bu qəzetdə nəşr olununan bütün məqalələ və əsrlər hər biri maarifçilik işığı alovlanırmağa xidmət etmişdir.

XIX əsrin ortaları - XX əsrin əvvəllərində maarifçilik toxumları cücərməyə başlamışdır. Bununla bərabər, Azərbaycan dili məsələsi də ortaya çıxmış və ziyalıların diqqət mərkəzində olmuş, yazılarında bu məsələyə toxunulmuşdur. "Molla Nəsrəddin" jurnalı Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemənzadənin sayəsində Azərbaycan dilinin saflığı uğrunda mübarizəyə atılan ilk dərgi olmuşdur.

Görkəmli dramaturq Cəlil Məmmədquluzadə yaradıcılığı boyunca Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparmış, bu mövzuda "Anamın kitabı" əsərini, "Meymunlar" felyetonunu, "Azərbaycan" məqaləsini və digər yazılar yazmışdır. XX əsrin əvvələrində Cəlil Məmmədquluzadənin qoyduğu dilin saflığı məsələsi digər yazıçıların da əsərlərində əks olunmuşdur. Cəlil Məmmədquluzadə 1906-cı ildə yazdığı "Meymunlar" felyetonunda ana dilinə xor baxanları tənqid hədəfinə çevirir. Ədibin Cırcırama imzası ilə yazdığı "Ana dili" adlı publisistik yazısında da "Anamın kitabı" əsəri ilə səsləşən fikir əksini tapmışdır: "Tatarlar ana dilində yazdığı qəzetləri oxuyanda Qafqaz cavanlarının ana dili danışmaqları yada düşür. Tatar qəzetlərinin biri İran barəsində söhbət açıb bir yerdə belə yazır: "Persiyada camaat şaxdan nedavolnudur, yəni istəyir desin ki, "İranda camaat şahdan narazıdır. Yazıq bizim dilimiz: Qafqaz ədiblərimiz "ana" əvəzinə "madər" yazırlar, tatar qəzetçilərimiz də "İran"ı "Persiya"

yazırlar. Və bunların adını da qoyurlar "ana dili". Yazıq analarımız nə "madər" eşidiblər, nə də "Persiya" (11, 263).

Cəlil Məmmədquluzadə "Xatiratım" əsərində də ana dili ilə bağlı məsələlərdən söz açarkən qeyd edir ki, biz ana dilində yazmaqdan utanmadıq. Molla Nəsrəddinçilər kimi türk dilinin ortaq dil kimi istifadə olunması, qorunub-saxlanılması Nemanzadənin də yaradıcılığının özəyini əhatə edirdi. Ömər Faiq Nemanzadə yaradıcılığının tədqiqatçısı olan Şamil Qurbanov qeyd edir ki, "dil məsələsi Ömər Faiqdə ötəri, keçici xarakter daşımırdı" (12,15)

Ədibi düşündürən, eyni zamanda yaradıcılığının qayəsini təşkil edən dil məsələsi "Dilimiz və imlamız" məqaləsində vurğulanır:

"Ədəbiyyatı olmayan bir millətin, dilsiz insanə oxşuyacağını söyləmək üçün dəlilə, təfsilə hacət yox sanıram. Çünki ən böyük şahid keçmiş hallar, indiki vüquatlardır. Bundan ötrü örnək, misal axtarmaq üçün də uzaqlara getməyək: iştə başda çərkəz, ləzgi... dilləri, sonra da bizim türkcəmiz. ... Türkcəmiz, hər nə qədər tez-gec, həqq rəhmətinə gedəcək olan o dillər kimi deyildir. Amma bugünkü qaydasızlıq naxoşluğuna vaxtilə dərman etmək çarəsini axtarmazsaq, onun bu yaman halının da çox uzanacağından qorxulur (12,29)

Ədib "Yazımız, dilimiz, ikinci ilimiz" məqaləsində Əli bəy Hüseynzadənin "Tərəqqe"nin 12 və 13-cü nömrəsində dilimiz ilə bağlı dərc olunan bəzi fikirlərinə etiraz edir. O, Ə.Hüseynzadənin "Sərf qaydalarımıza məxsus olan ədatlar qayət müəyyən olub, adətən heroqlif halını almışdır. Əslində Çin tərəfindən gəldiyimizi unutmayaq. Heroqlifə təəccüb etməyiniz!"- cümləsinə etiraz olaraq "ədatlarımızın o "heroqlif" halı ehtimal dilimizin ibtidai və hicai vaxtında imiş. Amma vaxtın keçməsi ilə, dilin genişlənməsi ilə ədatlarımız "heroqlif" halından çoxdan çıxmışlar. Hətta 1200 il əvvəl türk dili ilə yazılan türk əlifbasının vücudunu bizə bildirən "Orxon" məhkukatında belə türk ədatları heroqlif halından çıxıb ayrı-ayrı yazılmışdır" fikrini irəli sürür və hətta bir az irəli gedərək söyləyir ki, "Türklər nə qədər ki türklükdən, Türküstandan uzaq düşüb, əsrlərcə ərəb hökuməti və dini, fars ədəbiyyatı, nüfuzu altında qaldılar, o qədər türklüklərini və türk dilini itirdilər" (12, 163).Ana dilinin qorunması və dövlət dili olması çar rejimində çətin məsələlərdən idi. Buna baxmayaraq, maarifçilərimiz bu yöndə əllərindən gələni əsirgəmirdilər. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə ana dili məsələsi də ön plana çıxdı. Hər bir müstəqil ölkənin süverenlik göstəricilərindən də biri də xalqın dilinin dövlət dili kimi qəbul edilməsi, idarələrdə bu dildə yazıların hazırlanmasıdır. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixində qərar verdi: "Dövləti lisan türk dili qəbul edilərək, içəridə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istemalına da müsaidə edilsin"(15). Sovet hakimiyyəti qurulduqdan sonra neçə illər Azərbaycan dilinin hakim dil səviyyəsinə yüksəlməsi məsələsi diqqətlərdən kənarda qalmışdır. 70-ci illərdə rus dilinin vahid dil kimi qəbul etdirilməsi Sovet ideologiyasının əsasını təşkil edirdi. O dövrdə Azərbaycan KP MK-nin birinci katibi olan Heydər Əliyev dil məsələsində əsaslı addımlar atmışdır. "Böyük tarixi şəxsiyyət SSRİ Konstitusiyası haqqında danışarkən öz nitqində xüsusi olaraq vurğulamışdır ki, Konstitusiya vətəndaşlara təhsil hüququ vermişdir. Bu hüquq ana dilində oxumaq imkanı ilə təmin olunur. Bu, əslində ana dilinin dövlət dili statusunu qorumaq məqsədi güdürdü" (3) Uzaqgörən dahi lider Heydər Əliyev Sovetin qadağalarına baxmayaraq, Konstitusiya layihəsinə Azərbaycan dilinin dövlət dili kimi salınması üçün çalışırdı. "Dil xalqın böyük sərvətidir" ideologiyasını irəli sürən Ulu öndər L.İ.Brejnevlə danışıqlar apararaq Azərbaycan dilinin dövlət dili statusu kimi Konstitusiyaya salınmasına nail olur. "Ümumxalq müzakirəsinə verilmiş Azərbaycan Respublikası Konstitusiya layihəsinin 73-cü maddəsinə belə bir təklif olundu: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir" (3). Dahi lider Heydər Əliyevin Azərbaycan dilinə göstərdiyi qayğı və diqqət sayəsində çoxlu layihələrə imza atılmışdır.

90-cı illərdə ikinci dəfə müstəqillik əldə edəndən sonra Azərbaycan Respublikasının dövlət dili kimi türk dili (Azərbaycan dili -red.A.H.) qəbul edildi. 22 dekabr 1992-ci ildəki Azərbaycan Respublikasının dövlət dili haqqında Qanuna əsasən, "Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili kimi işlədilməsini öz suverenliyi üçün əsas şərtlərdən biri sayaraq onun tətbiqi, qorunması və inkişafı qayğısına qalır, öz sərhədlərindən kənarda yaşayan azərbaycanlıların ana dilində təhsil almalarına və milli-mədəni tələbatlarını ödəmələrinə himayəçilik edir"(13). Ulu öndərin uzaqgörən siyasəti bu məsələdə də öz sözünü deyir. Dövlət dilinin türk dili adlandırılması məsələsinə böyük siyasətçinin münasibəti heç də yaxşı olmamışdır. O, bu qərarı pisləyərək demişdir: "Bu böyüklükdə tarixi bir qərar Azərbaycan xalqının iradəsi nəzərə alınmadan 26 nəfər tərəfindən qəbul olunubdur. Burada da böyük bir səhv buraxılıbdır"(3).

Ümumiyyətlə, tarix boyu Azərbaycan dilinin müxtəlif anlayışlarla adıandırılmasının şahidi oluruq. Belə ki, ikinci dəfə əldə etdiyimiz müstəqillik dönəmində dövlət dili ilə bağlı keçirilən iclaslarda bu dil müxtəlif anlayışlarla adlandırılmışdır: 1) Azərbaycan dili; 2) Türk dili; 3) Azərbaycan türk dili; 4) Azəri türkcəsi; 5) Azərbaycan türkcəsi; 6) Türk dilləri ailəsinə daxil olan Azərbaycan dili.

"Azərbaycan" qəzetinin 9 noyabr 1995-ci il tarixli sayında yer alan Mərhum Prezidentimiz Heydər Əliyevdən iqtibas: "Gəlin türkdilli xalqlara baxaq. Bəli, biz türkdilli xalqlardan biriyik və türk mənşəli xalqıq. Kökümüz birdir. Özbək dili var, qazax dili var, qırğız dili var, tatar dili var, başqırd dili var, türkmən dili var, kumık dili var. Demək, bu türkdilli xalqların da hər birinin dilinin öz adı var. Türkdilli xalqlarda tatar dili də var, o biri qrup dillər var, onların da hər biri bu qrupa daxildir, amma hər birinin öz adı var… Axı nə təhər Azərbaycan türkcəsi? Millətimiz nədir? Azərbaycan türkü. Nə təhər bu millətin iki adı olsun? Bəs niyə özbək özünə demir ki, Özbəkistan türkü, tatar niyə demir ki, Tatarıstan türkiyəm"(14).

1993-cü ildə siyasi hakimiyyətə gələn ümummilli lider Azərbaycan dili anlayışını geri gətirdi. 1995-ci ildə hazırlanan yeni Konstitusiyada dilimiz Azərbaycan dili olaraq adlanmağa başladı. Ümummilli liderin hakimiyyəti dövründə ana dilimizə xüsusi önəm verilmiş, bununla bağlı fərmanlar, sərəncamlar imzalanmışdır. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanın verilməsi, Dövlət Dil Komissiyasının yaradılması, "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında sənədin imzalanması və bu kimi məsələlər dilimizə olan qayğının bariz nümunələridir.

Ümummilli liderin siyasi kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" olan sərəncamları da dilimizə olan diqqətin göstəricisidir.

Nəticə olaraq, qeyd edək ki, Azərbaycan dili uzun bir inkişaf mərhələsi keçmiş, müasir dil qaydaları da zamanla formalaşmışdır. Aydın oldu ki, ana dili hər bir sənətkarın əlində fikrini, hiss-həyəcanını əks etdirmək üçün silah, xalqın tarixini, adət-ənənəsini əks etdirmək üçün isə bir güzgüdür. Folklor nümunələrinin hər biri, eyni zamanda "Kitabi-Dədə Qorqud" abidəsinin dili xalqın güzgüsü, İ.Həsənoğludan M.F.Axundova yol alan ədəbi dil isə sənətkarların silahıdır. XXI əsrdə də dilin təmizliyi, saflığı uğrunda mübarizə davam edir. Bu məsələyə isə hər bir ziyalının baxışı, yanaşması doğru istiqamətlənməli, problem həll olunmağa yönəlməlidir.

Ədəbiyyat:

1. Axundov A. Dil və adət. "Elm və həyat", 1978, №5, s.22
2. Azərbaycan ədəbi dili tarixi. 4 cilddə, I cild. Bakı, Şərq-Qərb, 2007, 480 səh.

3. Bədəlov Ə. Azərbaycan dilinin dövlət dili kimi rəsmiləşdirilməsi və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalq qəzeti. 2009, 1 avqust, s.3
4. Cəfərov S. Müasir Azərbaycan dili (leksika). Bakı: Maarif, 1970, 235 səh.
5. Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər nəşriyyat, 2004, 368 səh.
6. Dəmirçizadə Ə. "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Bakı, Elm, 1999, 140 səh.
7. Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı: Maarif, 1979, 268 səh.
8. Hacıyev T.İ. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı: Elm, 2012, 476 səh.
9. Həsənov H. Azərbaycan dilinin antonimlər lüğəti. Bakı: Şərq-Qərb, 2007, 144 səh.
10. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər nəşriyyat, 2004, 376 s.
11. Məmmədquluzadə Cəlil. Əsərləri. Dörd cilddə. II cild. Bakı: Öndər nəşriyyat, 2004, 584 səh.
12.Nemanzadə, Ömər Faiq (2006). *Seçilmiş əsərlər*. Bakı: "Şərq-Qərb", 349 səh.
13.İnternet resursu:https://az.wikisource.org/. Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu (22 dekabr 1992-ci il)
14. İnternet resursu: http://www.translit.az/ Eyvazova R. Türk dili terminindən Azərbaycan dili termininə qədər.
15.İnternet resursu: https://az.wikisource.org/wiki/

А. Гусейнова

Наш язык – наше национальное достояние

Резюме

Азербайджанский язык является одним из древних языков. Он сформировался на базе древнетюркского (пратюркского) языка. Взаимодействуя с другими тюркскими языками, азербайджанский язык прошел большой путь в своём развитии. Это взаимодействие в определенные временные промежутки привело также к выявлению языковых различий. «Китаби Деде Коргуд» как первый наш письменный памятник играет исключительную роль в изучении азербайджанского языка. В качестве начала литературного языка принято считать творчество Насими. Он ощутимо обогатил словарный запас азербайджанского литературного языка и раскрыл все лексические и семантические возможности родного языка. Своего же пика литературный язык достиг благодаря творчеству Физули.

В XVII-XVIII веках период становления азербайджанского литературного языка на базе общенародного языка подходит к концу. На смену приходит период формирования литературного языка на основе национального языка. В этот период формирование азербайджанского литературного языка связано с именем Вагифа. Условно азербайджанский литературный язык вплоть до XVII века можно назвать старым, а после XVII века – новым. В последующие годы азербайджанский язык берет курс на модернизацию. В эпоху технического прогресса в современном азербайджанском языке наблюдается преобладание неологизмов. Несмотря на то, что заимствованные неологизмы встречаются чаще исконно наших слов, в настоящее время проводятся реформы в этом русле.В разное время азербайджанский язык назывался по-разному. Этот язык, который долгое время назывался «тюрки», «турецкий язык», «азербайджанский тюркский», «татарский язык», после обретения Азербайджаном независимости был объявлен как «азербайджанский язык», что было зафиксировано в официальных документах.В настоящее время благодаря вниманию и заботе государства подготавливаются программы по развитию языка, издаются приказы и указы, посвященные языковым вопросам, разрабатываются различные

проекты для защиты и сохранения азербайджанского языка. В статье рассматриваются вопросы, связанные с формированием и развитием азербайджанского языка.

Ключевые слова: Азербайджан, язык, тюрк, слова, народ, развития, писатель, классик

A. Huseynova

Our language is our national existence

Summary

The Azerbaijani language is one of the oldest languages. This language was formed on the basis of rich turkic language. Azerbaijani language has evolved with other turkic languages. Interaction of different out there at certain times. The first written monuments as "Kitabi-Dede Gorgud", our language has a unique role in the study of the facts. The creativity of Nasimi is the beginning of a literary language based on. He greatly enriched the vocabulary composition of the Azerbaijani language, the native language has the possibility to identify all of the lexical-semantic. Fuzuli creativity reached the top of the literary language.

In XVII-XVIII centuries the Azerbaijani literary language of the times of formation of national language based on the expires. Is times of formation of the national language and its place on the basis of the literary language. In this period formed the national literary language with Vagif. Condition of Azerbaijani literary language Azerbaijani literary language can be called up in XVII century old, and after XVII century. In subsequent circulation Azerbaijani language has towards modernization. Technology development at a time when the prevalence of neologisms in Modern Azerbaijani language is observed. Obtaining neologism than in our own words the minority, but for now these reforms are carried out.

The Azerbaijani language was called differently at different times. This language, which for a long time was called "Turkish language", "Turki", "Tatar language", "Azerbaijani turkish", after gaining independence was declared as "Azerbaijani language", which was recorded in official documents.

At present thanks to the attention and care of the state program on development of the language is made, orders and decrees issued. The article discusses issues related with the Azerbaijan language and its development.

Keywords: Azerbaijan, language, turkish, word, nation, development, writer, classical

Redaksiyaya daxil olma tarixi: 28.05.2019
Çapa qəbul olunma tarixi: 03.08.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Günal Səfərli tərəfindən çapa tövsiyə olunmuşdur.

МЕХРИБАН БАЙРАМОВА
Бакинский славянский университет
доктор философии по педагогике
г.Баку, ул. С.Рустама 33
mehriban@mail.ru

ИРАНСКИЕ (ПЕРСИДСКИЕ) ЗАИМСТВОВАНИЯ В РУССКОМ ЛИТЕРАТУРНОМ ЯЗЫКЕ: СЕМАНТИЧЕСКАЯ АДАПТАЦИЯ

В статье рассматривается процесс заимствований из персидского языка в русском литературном языке. Автор указывает на пути проникновения иранизмов в русский язык, определяет основные направления изучения заимствований из персидского языка. Описывается сфера употребления заимствований-иранизмов, дается их тематическая классификация. Автор характеризует процессы семантической адаптации иранизмов в русском литературном языке.

В данной статье рассматриваются процессы адаптации иранских (персидских) заимствований, которые вошли в русский литературный язык на разных этапах его развития. Иранизмы считаются одним из древнейших слоев заимствований – первые древнеперсидские элементы заимствовались славянскими племенами до VIII в. н.э. Термин «иранизмы» (иранские слова, персидские слова) мы понимаем широко: это слова исконно иранского происхождения, пришедшие в разное время в русский язык прямо или опосредованно (через тюркские, западноевропейские, кавказские языки).

Анализ иранских заимствований, исходные лексические значения которых в языке-реципиенте подвергались смещению, продемонстрировал семантическую близость коррелятов с прототипами. Перенос наименований происходит в зависимости от ассоциативных связей, появляющихся у носителей русского языка при осмыслении персидского слова.

На основании этих данных можно отметить, что русский и персидский языки находились и продолжают находиться в тесном взаимодействии между собой. Результатом этого взаимодействия является развитие и обогащение словарного состава русского языка.

Ключевые слова: заимствование, русский язык, иранизмы, персидский язык, семантическая адаптация, слово-этимон.

Россия всегда находилась в тесных взаимоотношениях с Востоком, в частности, с Персией, что естественно находило отражение в русском литературном языке. Немаловажной вехой в этом отношении является XIX век, в течение которого дважды – в 1804–1813 и 1826–1828 гг. – вспыхивали русско-персидские войны.

В данной статье мы рассматриваем процессы адаптации иранских (персидских) заимств-ований, которые вошли в русский литературный язык на разных этапах его развития. Иранизмы считаются одним из древнейших слоев заимствований – первые древнеперсидские элементы заимствовались славянскими племенами до VIII в. н.э. Термин «иранизмы» (иранские слова, персидские слова) мы понимаем широко: это слова исконно иранского происхождения, пришедшие в разное время в русский язык прямо или опосредованно (через тюркские, западноевропейские, кавказские языки). Так, через посредство французского языка в русский язык из персидского перешли такие слова, как: *сироп, гарем, софа, жасмин, муссон, газель, эликсир* и др. При английском посредничестве – *сафари, артишок, кофе* и др. Через немецкий язык вошли слова *тара,*

матрац, шафран, алгебра, бальзам и др. Благодаря итальянскому посредничеству – *камфара, авария, шуба*; польскому – *лютня, атлас, лазурь, цифра*. Среди персидских заимствований имеются около 30 лексем, которые по происхождению не являются персидскими, но через персидский язык вошли в словарный состав русского языка. Например, через персидский язык из арабского в русский перешли слова *басурман/мусульманин, гяур, изумруд, лимон* и т.д. (6, с. 195).

Лингвисты начинают интересоваться проблемой славяно-иранских языковых связей с середины XIX в. В разное время этому вопросу посвятили научные труды А. Мейе, Я. Розвадовский, Ф.И. Корш, А.И. Соболевский, В.И. Абаев, О.Н. Трубачев, В.Н. Топоров, В.С. Расторгуева и др.

Во многих случаях ученые обнаруживают специфическую ирано-славянскую словарную близость (8, с.47); существуют также две основные концепции славяно-иранских лексических контактов. Одни ученые считают, что славяно-иранские лексические контакты определяются древним соседством тех и других диалектов эпохи праиндоевропейского единства, другие – что эти лексические проникновения – лишь определенные свидетельства вторичного контакта и, как следствие, влияния иранского словаря на славянский (7, с. 3).

Определенные сходства между славянскими и иранскими языками наблюдаются в области фонетики, морфологии и лексики. Ученые предполагают, что морфологические и фонетические схождения возникли во времена соседства языков и свидетельствуют о наличии в прошлом каких-то связей между данными языками.

В лексике имеется несколько разных слоев этих схождений. Во-первых, собственно славяно-иранские схождения, например: *ткань, небо, слово* и др., балто-славяно-иранские схождения, например: *гора, след* и др. Во-вторых, иранизмы в праславянских или в восточнославянских языках, например: *чаша, чертог, хмель, медь, собака* и др. (3, с. 33-41).

Исследованию заимствований персидского происхождения в русском языке и путей их проникновения в язык-реципиент посвящена работа Е.К. Бахмутовой «Иранские элементы в деловом языке Московского государства» (М., 1940). В трудах ряда персидских и русских иранистов отражаются отдельные аспекты изучения иранизмов в русском языке. Отдельные вопросы иранских заимствований в русском языке освещаются в диссертационном исследовании М. Мортазави, который на основе этимологических и толковых словарей русского языка выявил около 240 иранских заимствований русского языка, распределенных по 16 тематическим группам (4, с.44). Заимствования из персидского языка относятся к религии, культуре, быту, хозяйству и др.: *бадья, стакан, таз, тахта, балахон, бумазея, тафта, тюрбан, булат, кишмиш, киоск, сарай, амбар, бирюза, ферзь, шахматы*.

С точки зрения словоизменения, большинство иранских заимствованных слов полностью подчиняются закономерностям, действующим в русском языке, таким, как фонетическое, графическое, грамматическое и семантическое освоение. Так, в процессе заимствования и усвоения иранизмы претерпели различные фонетические трансформации, обусловленные различием фонетической структуры персидского и русского языков. Специфичные звуки персидского языка или полностью отпали, или же произошла замена их другими звуками русского языка. Например: харбузе – арбуз; бадемджан – баклажан; бакче – бахча; дарвиш – дервиш; ясамин – жасмин; анжир – инжир; кисе («мешочек») – кисет; кешмеш («виноград») – кишмиш; парче – парча; шемшад – самшит; сарапа («с ног до головы») – сарафан, джамедан – чемодан, сорме – сурьма и т.д. (4, с.44-47).

С точки зрения графики иранизмы, как и многие другие заимствования, передаются в русском языке при помощи кириллической графики. По грамматической принадлежности иранская заимствованная лексики представляет собой имена существительные, имена прилагательные, а также имена, объединяющие в себе признаки существительного и

прилагательного. Персидские имена существительные переходят в русский язык только в форме единственного числа и приобретают формы множественного числа с помощью языковых средств русского языка. Отметим, что в глагольной лексике русского языка иранизмы не функционируют.

Анализ иранских заимствований, функционирующих в лексической системе русского языка, позволяет определить следующие направления освоения их семантики по отношению к слову-этимону.

1. Сохранение исходного значения.

В русском языке функционирует группа слов, которые заимствованы из персидского языка с сохранением своей семантики. Это, как правило, моносемичные слова, которые являются однозначными в языке-источнике и потому не представляют собой модели для семантического развития. Обычно они имеют одинаковый моносемичный ряд в русском языке и являются членами таких лексико-семантических групп слов как названия профессий, рода занятий: *паша, чабан*; названия тканей, одежды: *камка, пижама*; названия минералов и химических веществ: *бирюза, бура, изумруд, нефть яшма*; слова, обозначающие явления растительного мира: *инжир, хурма* и др. (4, с.49).

2. Сужение семантического поля слова-этимона.

Основным направлением модификации семантики персидской лексики в русском языке является сужение семантического поля, которое может проявляться в таких случаях, когда: а) количество значений иранизмов при вхождении в заимствующий язык сокращается; б) осмысление персидского слова в принимающем языке конкретизируется носителями русского языка, его значение становится более специализированным по сравнению со значением прототипа; в) родовое понятие используется при назывании видового. К типичным случаям сужения понятийного объёма в принимающем языке можно отнести и слово *парча*, обозначающее в русском языке плотную шёлковую узорчатую ткань, затканную золотыми или серебряными нитями. В русских сказках парча выступает в качестве очень дорогого подарка девушке, женщине и является символом богатства и обеспеченности (БТСРЯ, с. 784). Этимология анализируемого слова остается спорной и неясной. Так, М. Фасмер (Фасмер, т. 3, с. 210), А.Г. Преображенский (Преобр., с. 19) относят его к числу тюркизмов. Но А.Ю. Москвин (Моск., с. 487), А.Н. Чудинов (Чуд., с. 639) считают его персидским заимствованием. Вероятно, слово вошло в русский язык через посредство тюркских языков.

Можно с полной уверенностью утверждать, что большинство полисемантичных слов персидского происхождения при миграции в язык-реципиент утрачивают одно или несколько своих значений, а иногда и вовсе заимствуются в одном значении.

3. Расширение значения слова-прототипа

Одно из направлений дальнейших семантических изменений иноязычных единиц на новой языковой почве представляет собой развитие дополнительных значений и расширение сферы употребления. Как полагает Л.А. Булаховский, «расширение объема применения выступает в тех случаях, когда в новом употреблении слово охватывает больший круг понятий, то есть может быть употреблено как средство называния шире, чем раньше» (1, с. 71). Среди иранизмов это явление мало распространено.

Любопытно проследить процесс заимствования лексемы *бадья.* Слово в русском языке имеет такие значения: 1.Деревянное окованное или металлическое широкое ведро, суженное книзу (для извлечения из колодцев и шахт воды, руды, земли и т. п.). 2. шутл. Об очень большой посудине. 3. Количество чего-л. (обычно жидкого или сыпучего) (БТСРЯ, с. 54). Заимствование активно функционировало в деловых памятниках исследуемого периода (XV-XVII вв.) в значении «широкое деревянное ведро, кадка».

Сема «мера жидкости, помещающейся в этом сосуде» появилась как результат переосмысления значения лексемы *бадья* (2, с. 41).

У прототипа в персидском языке зарегистрированы следующие значения: 1. Глиняный сосуд, в котором хранят вино; кувшин для вина . 2. Металлическая, глиняная или другая посуда для пищи. Характерно, что персидское слово как обозначение сосуда для вина распространено только в художественной литературе (так как по исламским канонам запрещается пить алкоголь), а во втором значении лексема используется как термин в повседневной жизни(5, с. 393).

Сравнение значений коррелята и прототипа свидетельствует о том, что слово *бадья* было заимствовано русским языком в общем смысле («широкое деревянное ведро, кадка»). На следующем этапе в результате метонимического переноса на новой языковой почве у него появилось новое значение («мера жидкости»). А затем в процессе развития семантической сферы слово стало употребляться в метафорическом значении («большая посудина»). Например: «Чем ближе шло к концу, тем дороже становились презенты. Начиналось с роз, конфет; *бадья* французских *духов* или итальянский купальник означали зенит романа» (А.Ткачева. Приворот); « В одной руке – стакан колы, в другой – *бадья* попкорна» (РБК Daily, 2007.10.26)/

4. Изменение значения слова-прототипа.

При миграции из одной языковой системы в другую заимствованное слово может утратить свою исконную сему и приобрести новое значение, отсутствующее в языке-источнике. Это объясняется тем, что слова как названия могут легко переходить с одной вещи на другую, или на какой-либо признак этой вещи, или на её часть. В результате под воздействием новой языковой системы происходит семантический сдвиг в заимствованном слове: оно начинает обозначать уже другой предмет или другое явление. Например, так произошло со словом *арбуз*.

В этимологическом словаре М. Фасмера представлена этимология слова *арбуз*: «Заимств. через кыпч. , тур., крым.-тат. ... из перс. xarƀйza, «дыня», собственно говоря, «ослиный огурец», восх. к перс. «осёл» и ср.-перс. «огурец» (Фасмер, т. 1, с. 83-84). В русском языке слово *арбуз* употребляется для обозначения «большого, круглого, сочного, сладкого плода огородного растения из семейства тыквенных» (Ушак., т. 1, с. 53). А для прототипа [xarƀoze] в языке-источнике зафиксировано два значения: 1. Сладкий, ароматный и сочный плод большой овальной формы с жёлтой, зелёной или белой поверхностью и жёлтой или белой мякотью. 2.Однолетнее растение семейства тыквенных (5, с.394). Из персидского толкования можно понять, что слово в языке-источнике обозначает дыню, а на русской почве значение сместилось (дыня и арбуз – это разные бахчевые культуры).

Анализ иранских заимствований, исходные лексические значения которых в языке-реципиенте подвергались смещению, продемонстрировал семантическую близость коррелятов с прототипами. Перенос наименований происходит в зависимости от ассоциативных связей, появляющихся у носителей русского языка при осмыслении персидского слова.

На основании этих данных можно сделать вывод, что русский и персидский языки находились и продолжают находиться в тесном взаимодействии между собой. Результатом этого взаимодействия является развитие и обогащение словарного состава русского языка.

Литература

1. Булаховский Л.А. Русский литературный язык первой половины XIX века: фонетика, морфология, ударение, синтаксис. М.: Учпедгиз, 1954.

2. 2.Гилазетдинова Г.Х. Ориентализмы в русском языке Московского государства XV - XVII вв. Казань: Казан. ун-т, 2010.
3. Зализняк А.А. Проблемы славяно-иранских языковых отношений древнейшего периода // Вопросы славянского языкознания. М.: Академия Наук СССР. 1962. Вып. 6. С. 28–46.
4. Мортазави М. Персидские заимствованные слова в русском языке. Тегеран, 2011.
5. 5.Моллаахмади Амирреза. Иранские лексические заимствования в русском и украинском языках // Мовні і концептуальні картини світу. Вип. 26, част. 3. Киев, 2009. С. 393–395.
6. 6.Мохаммади М. Р., Сиями Х. Персидские следы в лексике русского языка // Молодой ученый. 2012. №8. С. 195-199. Электронный ресурс. Режим доступа: https://moluch.ru/archive/43/5229/
7. Трубачев О.Н. Из славяно-иранских лексических отношений. // Этимология. 1965. М., 1967. С. 3–81.
8. Фрейман А.А. Ирано-славянские заметки. ДАН СССР, Сер. В. 1924. С. 47–50. Апрель–июнь.
9. БТСРЯ – Большой толковый словарь русского языка. СПб.: Норинт, 2000.
10. Даль – Даль В.И. Толковый словарь живого великорусского языка: в 4 т. - М.: Рус. язык, 1989-1991.
11. Моск. – Москвин А.Ю. Большой словарь иностранных слов. М.: Центрполиграф, 2002 .
12. Преобр. – Преображенский А. Этимологический словарь русского языка: в 3 т. М.: Тип. Г. Лисснера и Д. Совко, 1914. Т. 2.
13. Ушак. – Толковый словарь русского языка: в 4 т. / Под ред. Д.Н. Ушакова. - М.: Астрель, АСТ, 2000.
14. Фасмер – Фасмер М. Этимологический словарь русского языка: в 4 т. М.: Прогресс, 1986-1987.
15. Чуд. – Словарь иностранных слов, вошедших в состав русского языка / Под ред. А.Н. Чудинова. СПб.: В.И. Губинский, 1910.

M.Bayramova

Rus ədəbi dilində iran (fars) alinmalar: semantik adaptasiya

Xülasə

Məqalədə rus ədəbi dilində fars dilində alınmalar prosesi araşdırılır. Burada iran alınmaların rus dilinə keçidi yolları göstərilir, fars dilindəki alınmaların öyrənilməsinin əsas istiqamətləri müəyyən edilir. Fars alınmaların istifadə olunma sferası təsvir edilir, onların tematik təsnifatı verilir. Müəllif rus ədəbi dilində iranizmlərin semantik adaptasiya prosesləri xarakterizə olunur.

Həmçinin, iran (fars) alınmaların adaptasiyası və onun rus dil ədəbi dilinə daxil olmasının müxtəlif inkişaf etapları araşdılır. İranizmlər alınmalar sözlərin qədim qatı hesab olunur – ilk qədim fars elemntlər slavyan qəbilələr tərəfindən eramızdan əvvəl VIII əsrdə istifadə edilib. İranizm termini (iran sözləri, fras sözləri) biz geniş anlayırıq: bu iran mənşəli sözlərdir, rus dilinə müxtəlif vaxtlarda vasitəli (türk, avropa, kavqaz dillərinin vasitəsilə keçən) və ya vasitəsiz keçən sözlərdir. İran alınmaların təhlili – hansıların ki, leksik mənaları resepiyent dildə qarışdırılmış olan, prototiplərlə korelyatların semantik yaxınlığını nümayiş etdirib. Adların keçirilməsi rus dili daşıyıcılarda fars sözlərinin yenidən anlamında əmələ gələn assosiativ əlaqələrdən asılıdır. Bütün bunlara əsaslanaraq qeyd etmək olar ki, rus və fars dilləri

bir biri ilə olub və davam edir sıx əlaqəsi. Bünun nəticəsidir ki, rus dilinin lüğət tərkibi inkişaf edir və zənginləşir.

Açar sözlər: alınmalar, rus dili, fars dili, semantik adaptasiya, etimon-sözlər.

M.Bayramova

Iranian (persian) borrowings in the russian literary language: semantic adaptation

Summary

The article discusses the process of borrowing from the Persian language in the Russian literary language. The author points to the penetration of Iranisms into the Russian language, defines the main directions of the study of borrowings from the Persian language. The sphere of using borrowings-Iranisms is described, their thematic classification is given. The author characterizes the processes of semantic adaptation of Iranisms in the Russian literary language. This article discusses the processes of adaptation of Iranian (Persian) borrowings, which entered the Russian literary language at different stages of its development. Iranisms are considered one of the oldest layers of borrowing - the first ancient Persian elements were borrowed by Slavic tribes until the VIII century. AD We understand the term “Iranisms” (Iranian words, Persian words): these are words of primordially Iranian origin, which came at different times into the Russian language directly or indirectly (through Turkic, Western European, and Caucasian languages). An analysis of Iranian borrowings, the original lexical meanings of which in the recipient language were biased, demonstrated the semantic proximity of the correlates with the prototypes. The transfer of names occurs depending on the associative relations that appear among native speakers of the Russian language when comprehending the Persian word. Based on these data, it can be noted that the Russian and Persian languages were and continue to be in close interaction with each other. The result of this interaction is the development and enrichment of the vocabulary of the Russian language.

Keywords: borrowing, Russian, Persian, semantic adaptation, etymon.

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 10.08.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Mehri Axundova tərəfindən çapa tövsiyə olunmuşdur.

НИГЯР БАБАЕВА
доктор философии по филологии,
Бакинский славянский университет
Баку, ул. С.Рустама, 33
nigar_@mail.ru

ФУНКЦИОНИРОВАНИЕ ПОВТОРА В ПАРЦЕЛЛИРОВАННЫХ СТРУКТУРАХ АНГЛИЙСКОГО И РУССКОГО ЯЗЫКОВ

В статье ставится задача провести сравнительно-сопоставительный анализ парцеллированных структур с повтором в английском и русском языках и установить имеющиеся схождения / расхождения в построении повтора и условиях его функционирования при парцелляции. Повтор рассматривается нами как неотъемлемая часть процесса парцелляции, как средство создания экспрессии в литературном языке.

Сопоставительный план исследования структурного аспекта данного явления представляет, на наш взгляд, особый интерес, поскольку в каждом языке имеются свои правила, закономерности, регулирующие как условия построения предложения, так и условия его членения, парцелляции и определяющие специфику структуры каждого языка. проанализированный материал позволил выявить в обоих языках одни и те же типы повтора для парцеллированных структур, однако не выявил полной идентичности в лексико-морфологической и структурной характеристике окружения ядра повтора, обусловленных особенностями каждого языка. Тенденция к одобрению высказывания, к расчлененной подаче высказывания достаточно активна в обоих языках. Она свидетельствует о стремлении к упрощению синтаксической организации высказывания, к увеличению его синтаксической гибкости и подвижности.

Ключевые слова: *парцелляция, повтор, базовая структура, парцеллят, сопоставление, смысловая целостность, экспрессивность высказывания.*

Одним из показательных и специфических моментов экспрессивного синтаксиса является то, что высказывание может быть реализовано в речи не в одной, а в двух-трех фразах. Причем высказывание здесь понимается как «единица сообщения, обладающая смысловой целостностью и могущая быть воспринятой слушающим в данных условиях языкового общения», а фраза как «наименьшая самостоятельная единица речи, актуализованная единица общения» [2, с. 94]. В соответствии с этим синтаксическая конструкция может быть расчленена с целью «не просто передать адресату ту или иную информацию, а задержать его внимание на ней, максимально акцентировать ее и тем усилить ее действенность» [7, с. 75]. К экспрессивным построениям такого рода относятся и так называемые «парцеллированные» конструкции [3], которые получили весьма широкое распространение в современном синтаксисе. В исследовании парцелляции уже накоплен значительный опыт как на материале английского языка, так и на материале других языков, в частности русского. Лингвистическое поле исследования проблемы парцелляции не ограничивается лишь отдельными языками. Так, делаются первые попытки связать явление парцелляции с общей тенденцией развития синтаксиса современных языков в плане изучения специфики этого явления в неродственных языках, что дает выход в обширные типологические исследования проблемы [10].

В исследуемом материале обоих языков отмечены структуры следующего типа:

Their habits are *very peculiar. Very peculiar* (Sagal).	А все остальное – *слепая схема. Слепая схема* (Из разг. речи).

Этот тип повтора характеризуется полным совпадением лексико-морфологических характеристик соотнесенных в повторе элементов базовой структуры и парцеллята – отсеченного точкой элемента. Исследуемый материал позволяет зафиксировать подобный идентичный повтор группы элементов как нехарактерный для английского языка. С другой стороны, повтор одиночного элемента широко представлен почти всеми частями речи как в английском, так и в русском языках:

Smith was *perfect. Perfect* (Bradbury).	Они *очень способные* ребята. *Очень способные* (Имя прилагательное).
I want *a pattern. A pattern* (Christie).	Он почему-то держался *за плечо. Плечо* (Имя существительное).
He *liked* this colour. *Liked* (Arden).	*Отдадим* им половину? *Отдадим?* (Глагол).
We were to marry *today. Today* (Alridge).	Мы сталкиваться будем с этими проблемами *обязательно. Обязательно* Наречие).

Отметим, однако, что в отличие от русского глагола, для английского финитного глагола зафиксированы лишь немногочисленные случаи подобного одиночного повтора. Это можно объяснить тем, что английскому глаголу вообще не свойственно выступать изолированно, без зависимых [5, с. 33]. Как правило, в идентичном повторе английский личный глагол употребляется вместе со всеми зависимыми членами.

Inexplicably she had lowered her head … and *kissed him. Kissed him* (Burgess).

Одинаково широко представлен в обоих языках сочинительный способ распространения одиночного элемента при его повторе в парцелляте, например: There is *light ... Light* and a wind (Forster). She is *small. Small* and neat and slender (Abrahams).

В его голосе была *ярость. Ярость* и надежда. Но только Генеральный конструктор придает *технике* свое, неповторимое лицо. *Технике* и возглавляемому коллективу (г. «Комс. правда», 06. 03. 2019). Для приведенных структур в обоих языках характерна однотипность морфологического выражения повторяемых элементов. Повтор элемента с приобретением сочинительного распространения дает в смысловом плане развертывание сообщения. В таком случае повторяемый элемент заключает в себе ведущую, первостепенную для данного высказывания информацию. Интересно, что и здесь, в отличие от всех других частей речи, английский личный глагол наименее активен. В отличие от русского языка в таком виде повтора более широко представлен глагол в неличной форме:

You're generous *to come here* in spite of everything.	Человек *живет. Живет, забывает, выздоравливает* (В.Пикуль).
To come here and let me admire you (Oates).	
He wanted *to sleep. Sleep* and *escape torment* (Wilson).	

Для таких координатных групп типичен двухэлементный состав как в английском, так и в русском языках, т. е. повтор + 1 новый элемент (для бессоюзного сочинения допускается несколько большой объем). Можно было бы ожидать (или теоретически предположить) в принципе бесконечное сочинительное распространение структуры в

прогрессивном направлении [6, с. 134]. Однако как в английском, так и в русском материале объем подобного повтора в парцелляте редко фиксируется в большем объеме, чем повтор + 2 новых элемента. Возможность увеличения объема парцеллята с сочинительным распространением, по-видимому, связана с возможностью увеличения длины предложения вообще. Известно, что не только для современного английского языка, но и для других языков на современном срезе исследователи отмечают общую тенденцию к уменьшению объема предложения и высчитывают приблизительный объем простого предложения в 10 ± 2 слова в художественной прозе [9, 13].

Структуры исследуемого типа и в английском и в русском языках по своему объему остаются приблизительно в указанных пределах, несмотря на наличие расчлененности структуры и повтора элементов. В структурах приведенного типа особенно отчетливо выступает в обоих языках и поэтому отмечается многими исследователями организующая роль повтора, когда он не только скрепляет части расчлененного предложения, но и способствует введению новых элементов в структуру. В синтаксическом отношении эти новые элементы в парцелляте лишь повторяют позицию элемента базовой структуры, т. е. сохраняют тип модели. В смысловом отношении парцеллят ориентирован своей лексикой на базовую структуру, которая для него является смысловым центром и с которой он обнаруживает тесную смысловую связь. В обоих рассматриваемых нами языках широко представлен и другой тип повтора:

That's *a reef.* A coral *reef.* I want to get *the picture.* The exact *picture* (Shaw I).	Со времени Пушкина и Лермонтова, Тютчева и Фета мы не слышали таких, как у Блока *ямбов. Ямбов,* которые могли передавать и «глосса скрипок» и категоричное «дроби … каменья» (Н. Озеров).

В структурах с повтором подобного типа совпадение лексико-морфологических характеристик отмечено лишь в ядре повтора, т. е. в его ведущем элементе, а атрибутивные зависимые, появляющиеся в окружении ядра повтора, создают несовпадение по морфологическому признаку. На содержательном уровне появление атрибутивного зависимого служит в обоих языка целям выделения признака элемента: *a coral reef; ямбов,* которые могли передавать и «голоса скрипок».

Можно заметить, что выделение признака в повторяемом элементе не образует нового понятия [6, с. 132]. Это выделение признака идет за счет сужения, ограничения объема понятия, заключенного в повторяемом элементе. Что этот признак действительно сужает, конкретизирует более общее содержание элемента базовой структуры при его повторе в парцелляте, становится особенно очевидным при экспликации этого значения с помощью таких пояснительных, идентифицирующих слов, как *namely, that is* в английском и *то есть, а именно* – в русском. Относя подобные структуры к синтаксическому явлению уточнения, мы исходим из наличия в них таких известных и надежных показателей, как подчинительная связь с общим уточняющим элементом структуры, постпозиция уточняющего по отношению к уточняемому, а также формального лексического средства связи в виде повтора той же лексической единицы.

Как видно из выше приведенных примеров, структура повтора здесь может варьировать как в плане морфологической характеристики, так и в плане расположения элементов окружения повтора. В исследуемом нами материале оказалось возможным выявить для обоих языков несколько разновидностей построения повтора данного типа:

1. Повтор ядра с приобретением зависимых элементов:

I want to get the *picture.* The exact *picture* (Shaw I.).

Стояла *тишина. Тишина,* которая бывает перед парадом (К. Федин).

2. Повтор только зависимых:

Women made such *swell friends.* Awfully *swell* (Hemingway).

От нас легко проехать в тот *дальний лесок. В дальний* (А. Грин); Это были трудные дела. *Трудные,* опасные, интересные (В. Распутин).

При этом, как видно из приведенных примеров, лексический состав и аранжировка левых зависимых может варьировать. Повтор только ядра (с потерей зависимых) не характерен для английского языка, в русском же языке он отмечается как один из случаев экспрессивного повтора существительного, когда для подчеркивания его особой значимости, существительное освобождается от всех зависимых членов, в том числе от прилагательных [5, с. 142]: Они притащили такую огромную охапку *ромашек. Ромашек.* В таком случае возможности парцелляции в русском языке оказываются в сравнении с английским более широкими, а связь элементов в атрибутивном сочетании менее тесной, что и создает возможность отрыва зависимых элементов от ядра.

Остановимся на некоторых структурных различиях в приемах построения повтора первого из выделенных выше типов. В ряде случаев при передаче с одного языка на другой в повторе не наблюдается полного структурного соответствия, например: I've got ideas. A let of them (Wilson). I need sleep. Lots of it (Osborne). Сравним аналогичные русские предложения: *У меня есть идеи. Много идей* (Из разг. речи); *Мне нужен сон. Много сна* (Из разг. речи). В приведенных английских примерах имя существительное при повторе (*ideas, sleep*) заменяется на репрезентирующее местоимение (*them, it*), в то время как в аналогичных русских примерах сохраняется повтор самого существительного: *сон – много сна; идеи – много идей.* В английском материале подобные построения отмечаются для тех многочисленных случаев, когда в качестве структурного ядра выступают определенные сочетания со значением количественной оценки так называемые кванторы *plenty, a number, a couple of* и т. д., а также сочетания *kind of + N, sort of + N. There are jobs. All sorts of jibs.* В английском сочетании в таком случае происходит сдвиг ядра повтора: *ideas – a lot of them; jobs – all sorts of jobs*, который касается лишь линейной организации предложения, а на уровне смысла повторяемое слово продолжает нести на себе основную семантическую нагрузку. Подобный повтор с субституцией – характерная черта повтора в английских парцеллированных структурах. Для английского языка типичен также случай, когда в качестве ядра повтора имени существительного в парцелляте выступает не сам именной компонент, а его заместитель, элемент *one,* осуществляющий структурное оформление английского словосочетания. Come, give Mother a kiss. A nice, big one (Salinger). Сравним с примером из русского языка: Затем он сыграл *роль. Роль* трагикомическую (Д. Гранин); Утверждают: искусство – *особая* форма общения. *Особая,* необычная, наиболее действенная (К. Седых). Несовпадение с русским языком в таких случаях вызвано особенностью репрезентации английского существительного, с необходимостью требующей соответствующего структурного оформления словосочетания [4, с. 99]. При этом элемент *one,* заместитель существительного, не имеет своего лексического значения, а полностью замещает знаменательное существительное. В русском языке такой необходимости замещения, как видно из приведенных примеров, нет. Среди английских примеров выделяется своим построением вид повтора в парцелляте: I could not throw him, which gave him very high pleasure. Invariably did (Updike). Здесь, при повторе знаменательного глагола *gave* в парцелляте произошло замещение его формы на *did* – глагол, который в данном случае лишен всякого лексического значения,

кроме значения действия, являющегося грамматическим значением глагола вообще [4, с. 99-100]. Именно на этом основании мы считаем возможным рассматривать подобные структуры как имеющие повтор элемента с совпадением ядра по лексическому признаку. Присутствие глагола-заместителя в повторе, его «поведение» в структурах подобного типа также обусловлено теми жесткими ограничениями, которые накладываются законами сочетаемости и словоупотребления английского языка (мы имеем в виду ограниченность в употреблении левых и полное отсутствие правых зависимых при элементе *did*). Подобный вид повтора также не имеет структурного соответствия в русском языке.

Итак, проанализированный материал позволил выявить в обоих языках одни и те же типы повтора для парцеллированных структур, однако не выявил полной идентичности в лексико-морфологической и структурной характеристике окружения ядра повтора, обусловленных особенностями каждого языка. Тенденция к одобрению высказывания, к расчлененной подаче высказывания достаточно активна в обоих языках. Она свидетельствует о стремлении к упрощению синтаксической организации высказывания, к увеличению его синтаксической гибкости и подвижности. Поскольку выделенные нами в английском и русском языках конструкции характеризуются и планом содержания (являются высказываниями с повышенным эмоциональным наполнением), и планом выражения (это расчлененные или трансформированные предложения), то можно сделать вывод, что парцелляция – явление экспрессивного синтаксиса.

СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ

1. Астапова Г.М., Андрианова Е. К. Парцелляция как явление экспрессивного синтаксиса // Известия Воронежского государственного педагогического института. Том 170-й. 1976, с. 102-109.
2. Ахманова О. С. Словарь лингвистических терминов. М., 1966, с. 94, 502.
3. Ванников Ю. В. Синтаксические особенности русской речи (явление парцелляции). М.: Ун-т Дружбы народов им. П. Лумумбы, 1969.
4. Варгина Н.В. К вопросу о месте слова-заместителя *one* в системе частей речи английского языка // Исследования по английской филологии. Л., 1973.
5. Гуревич В. В. Теоретическая грамматика английского языка. Сравнительная типология английского и русского языков. М., 2007, 168 с.
6. Иванчикова Е.А. Лексический повтор как экспрессивный прием синтаксического распространения // Мысли о современном русском языке. М., 1969, с. 126-139.
7. Инфантова Г. Г. Современные тенденции реализации текстовых категорий цельности, связности и расчлененности // Филологические науки. 2008, № 6, с. 74-78.
8. Кацнельсон С. Д. Типология языка и речевое мышление. Л., 1972, 213 с.
9. Павлова К. Г. Проблема объема предложения (словосочетания) в лингвистической литературе // Иностранные языки в школе, 1971, № 2, с. 11-15.
10. Турсунов Б. Т. К теории синтаксической парцелляции (на материале немецко-узбекских параллелей) // Материалы III Республиканской научной конференции по вопросам теории и методики преподавания иностранных языков. Ташкент, 1972, с. 87-92.

N.Babayeva

ingilis və rus dillərinin parsellərə bölünmüş strukturlarinda təkrarin işlənilməsi

Xülasə

Məqalədə ingilis və rus dillərinin parsellərə bölünmüş strukturlarında təkrarın işlənilməsi müqayisəli şəkildə tədqiq edilir. Təkrar parselyasiya prosesinin ayrılmaz hissəsi və ədəbi dildə ekspressivliyi yaradan vasitə kimi nəzərdən keçirilir.

Bu dil hadisəsi strukturunun müqayisəli təhlili xüsusi maraq doğurur. Belə ki, söyləmin quruluşu və onun parsellərə bölünməsi hər bir dilin öz qanunauyğunluqları ilə tənzimlənir. Parsellərə bölünmüş strukturlarda təkrarın müxtəlif tipləri müəyyən edilir. Baza strukturu və pareslyat hissələrdə leksik-morfoloji xüsusiyyətləri tam və qismən uyğun olan təkrarların işlənilməsi öyrənilir. Parsellərə bölünmüş strukturlarda təkrarın işlənməsində bağlayıcılar da vacib rol oynayır. Baza strukturu söyləmin mərkəzidir və buna görə də parselyat mənasına görə baza strukturuna söykənir və onunla sıx əlaqədə olur. Parsellərə bölünmüş strukturlarda təkrarın müxtəlif növləri − sonradan qoşulan asılı elementlər olmaqla əsas hissənin təkrarı, yalnız əsas hissənin təkrarı və yalnız asılı elementlərin təkrarı müqayisənin əsasını təşkil edir. Parsellərə bölünmüş strukturlarda təkrarın ingilis və rus dillərində oxşar və fərqli cəhətləri müəyyən edilir.

Açar sözlər: parsellərə bölünmə, təkrar, əsas struktur, parselyat, müqayisə, məna bütövlüyü, söyləmin ekspressivlyi.

N.O.Babayeva

Functioning of repeat in parceled structures of the english and russian languages

Summary

The article investigates comparative studies of the repetition in the divided structure of parcels in English and Russian languages. It is considered as an indivisible part and as the means of expressing literary language. Comparative analysis of this language event structure is of particular interest. Thus, the structure of the text and its division into parcels are regulated by the rules of each language. Different types of repetition are defined in the` split structures. The basic structure and its components are studied in detail and partial repetition of lexic-morphological features.

Binders also play an important role in the processing of repetitions in the split structures. The base structure is a center of speech and, therefore, is based on the base structure of the parcel, and is closely associated with it. Different types of repetition in the split structures are the subsequent repetition of the main part and the repetition of the only dependent elements. In parallel divisions, identical and distinctive features of repetition in English and Russian languages are defined.

Key words: parcel, rebroadcast, base structure, parcel, companionship, comprehension, expressiveness of extirpation.

Redaksiyaya daxil olma tarixi: 29.05.2019

Çapa qəbul olunma tarixi: 12.08.2019

Filologiya üzrə elmlər doktoru, professor Nəsirağa Məmmədov tərəfindən çapa tövsiyə olunmuşdur.

PƏRVİNƏ ƏZİZOVA
Azərbaycan Tibb Universiteti
S.Vurğun167
filologiya üzrə fəlsəfə doktoru, dosent
p.azizova@gmail.com

BƏDİİ MƏTNDƏKİ POLİLOJİ NİTQİN LİNQVİSTİK TƏHLİLİ

Məqalədə bədii mətndə poliloji nitqin statusu, poliloqla dialoq arasındakı oxşar cəhətlər, poliloqun xüsusi nitq forması olması araşdırılır. Poliloqun yalnız iştirakçılar sayına görə deyil, politematikliyə, adresat və adresatların müxtəlifliyinə görə fərqlənməsi diqqət mərkəzinə çəkilir. Poliloqda əsas iştirakçılarla yanaşı müəllifin də olması vacibdir. Müəllif nitqi adresat və adresant iştirakçını təyin etməyə kömək edir. Poliloq iştirakçısının daxili nitqi müəllif tərəfindən canlandırılır. Eyni zamanda, poliloqda nəqledən özü də iştirakçılardan biri ola bilir. Poliloji nitq cümlələrin sadəliyinə, yarımçıq və natamam cümlələrdən istifadə edilməsinə görə dialoqa oxşayır. Poliloqlarda da sual cümlələri və nidalar geniş istifadə olunur.

Ekspressivlik canlı nitqin, o cümlədən poliloji nitqin mühüm xüsusiyyətlərindən biridir. Ekspressivliyin əldə olunması üçün yalnız leksik vasitələrdən deyil, qrammatik vasitələrdən də geniş istifadə olunur. Poliloqlarda dil sisteminin inkişafının potensial istiqamətləri özünü göstərir. Bundan başqa poliloqlarda dilin bütün funksiyaları, o cümlədən emotiv və estetik funksiyaları az və çox dərəcədə reallaşır. Emotiv və estetik funksiyaların, ekspressivliyin poliloji nitqdəki xüsusiyyətlərini poliloji nitq mətnləri əsasında tədqiq oluna bilər.

Məqalədə göstərilir ki, poliloqda cümlələrin yarımçıq olması müşahidə edilir. Bu cəhət poliloq replikalarının həm elliptikliyə, həm də natamamlığa görə təhlilinə imkan verir. Poliloji nitq nidalarla diqqəti cəlb edir. Bu fakt poliloji nitqin sintaktik xüsusiyyəti olmasa da, onun sintaktik qurulmasını əks etdirir. Poliloqda emosional-ekspressiv xüsusiyyətlər dialoq kontekstində üzə çıxır, başa düşülür.

Açar sözlər: nitq, nitq prosesi, dialoq, monoloq, poliloq, nitq aktı, passiv iştirakçı, adresant, adresat, aktiv iştirakçı

Nitq prosesi iştirakçılarının sayına görə nitqin üç forması fərqləndirilir: monoloq, dialoq və poliloq. Bədii əsərlərdə nitqin bu formalarının hər birinin reallaşmaları qeydə alınır. Daha geniş yayılmış forma dialoqlar olsa da, bədii mətndə poliloqa da müəyyən yer verilir. İkidən artıq şəxs arasında baş verən nitq poliloq adlanır. Poliloqda diktorlar növbələşmiş şəkildə nitq aktında iştirak edirlər. Poliloqun müxtəlif diktorlara məxsus iki ardıcıl nitq aktı dialoq təşkil edir. Poliloq şəklində keçən nitqdə diktorlardan biri və ya digəri müəyyən müddət nitqin iştiakçısı olmaq baxımından passiv mövqedə dura bilər. O, nitq aktında iştirak etmir. Poliloqun belə hissələri də dialoq təsiri bağışlayır. İştirakçıların ikidən artıq olması nitqə həm intralinqvistik, həm də ekstralinqvistik səviyyədə təsir göstərir. Bu isə nitq şəraitində, adresat və adresantlar arasında yerdəyişmələrdə başqa ardıcıllığın üzə çıxmasına səbəb olur. Nəticədə informasiya mübadiləsi prosesində, informasiyanın qəbulu və ötürülməsində, eləcə də informasiyanın dərk edilərək ona reaksiyanın verilməsində fərqli cəhətlər ortaya çıxarır. Aşağıdakı poliloqu nəzərdən keçirək. Poliloqun təhlilini sadələşdirmək məqsədilə mətnə nitq aktının müəllifinin adını qara kursivlə əlavə edirik.

"[Qənbər] - Mane olmadım? -dedi Qənbər.
[Qürbət] -Yox!

[Suğra] -Keç əyləş. Mən hindi gedirəm. Keç a, otur orda. Harda ürəgin istəyir otur! - Suğra xala kətildə sağa-sola tərpənib onuncun - Qənbərdən ötrü oturmağa yer aradı.

[Qənbər] - Oturaram elə burda. Divanda, - keçib onların arxasında, divanda əyləşdi.

[Qürbət] -Tələsmirsən? - Qürbət kişi soruşdu.

[Qənbər] -Xeyr, siz işinizdə olun. Mənim vaxtım var.

[Qürbət] - Belədür də, mən sənə yazını, şəriətdə necədür, o sayaq diyirəm. Əti halal heyvanların nişanəsi beləncikdi. - kişi alçaq masanın üstündəki nazik, amma qədim kartondan möhkəm üzlü kitabım vərəqlədi, eynəyini düzəltdi, kitabı götürdü: -"Dörd ayaqlı əti halal heyvanların nişanəsi: Birinci, qoşa buynuzu olsun, dovşandan başqa. Ya dırnağı haça olsun, donuzdan başqa. Əti halal...

[Suğra] - Pəs quş, uçan qismdən necədür?

[Qürbət]- Onu da deyirəm. Qulaq ver...

[MÜƏLLİF] Suqra xala dönüb əlini Qənbərə yellətdi: [Suğra]- Alimdü ha...

[Qənbər] -Bəli elədir.

[Suğra] - Qurban bayramıdı. İndi buradan çıxıb gedirəm Nardaran pirinə. Bunu bir yoldaş demişdi mən öğrənim, lap düzünü.

[Qənbər] - Nə olar, bilmək lazımdır. Elə məndən ötrü də maraqlıdır.

[Suğra] - Əlbəttə, hamımız müsəlman döyürük! [Qənbər] - bu Suqra xalanın nə şirin danışığı varmış" [Azəri S. s.398].

Real gerçəklikdə baş verən hadisə kimi qəbul etdikdə, bu poliloqun üç iştirakçısı vardır: Qürbət, Suğra və Qənbər. Bədii mətndə müəllif nitqi də əlavə olunduğundan poliloq iştirakçılarının sayı 4-ə qalxır. Müəllif poliloq mətnində iştirakçılardan biri kimi görünür. Lakin müəllif özü poliloq çətçivəsindəki söhbətin iştirakçısı olmur. Başqa passiv iştirakçılar isə oxucuardır. Oxucu da əsərdəki hadisələrə müdaxilə edə bilmir. Konkret olaraq əsərdə baş verən hadisədən söhbət gedirsə, biz onları poliloqun iştirakçısı hesab etmirik. Poliloq mətnininə əlavə etdiyimiz iştirakçı adlarını nəzərə almaqla onun gedişinin modelini qura bilərik.

[Qənbər] → [Qürbət] → [Suğra] → [Qənbər] → [Qürbət] → [Qənbər] → [Qürbət] → [Suğra] → [Qürbət] → [MÜƏLLİF] [Suğra] →[Qənbər] → [Suğra] → [Qənbər] → [Suğra] → [Qənbər -(daxili nitq)]

Qənbər içəri daxil olur içəridəki iki adam üç olur. Aparıcı şəxs Qürbət olduğuna görə, Qənbərin konkret adresatı bəlli olmayan "mane olmadım?" sualına da Qürbət cavab verir. Poliloji nitqə üçüncü qoşulan şəxs Suğradır. [Suğra] -Keç əyləş. Mən hindi gedirəm. Keç a, otur orda. Harda ürəgin istəyir otur!

Bu nitqdən sonrakı "Suğra xala kətildə sağa-sola tərpənib onuncun - Qənbərdən ötrü oturmağa yer aradı" nitqi müəllifə və ya nəqledənə aiddir. Lakin burada maraqlı bir fakt vardır. Bu da ondan ibarətdir ki, nəqledən "Suğra"ya hörmət mənasında "Suğra xala" deyir. Belə nəticə çıxarmaq olar ki, nəqledən əsərin müəllifi deyil, personaclardan biridir. "Suğra xala" ifadəsi nəqledənin müşahidə nöqtəsini poliloq iştirakçılarına lap yaxınlaşdırır. Oxucu-adresat bədii mətnin bu hissəsini elə qavraya bilər ki, poliloqda iştirak edənlərin sayı üç deyil, dörddür və bu poliloqda nəqledən də iştirakçılardan biridir. Əslində isə bədii əsərin mətnində dördüncü şəxs təsvir edilməmişdir. Poliloqun mətninin bir yerində də müəllif nitqi yerləşdirilmişdir və bu yerdə müəllif qeyr-verbal vasitələrlə reallaşan məlumatı verballaşdırır: Suğra xala dönüb əlini Qənbərə yellətdi.

Poliloqun nümunə kimi verilmiş hissəsinin son nitq aktı Suğraya aiddir. Bu nitq aktı Qənbərə ünvanlanmışdır. Suğranın nitqindən sonra Qənbərin daxili nitqi verilir: "bu Suğra xalanın nə şirin danışığı varmış". Əgər doğrudan da bu Qənbərin daxili nitqidirsə və Qənbər nəqledən deyilsə, onda həmin nitqi müəllif mətnə daxil etməlidir. Belə məqamlarda müəllif

implisit olaraq iştirakçı mövqeyinə keçir. Personacın daxili nitqinin müəllifə bəlli olması mübahisəli məsələ olsa da, bu hal nəsr əsərləri üçün mümkün haldır.

Dialoqda olduğu kimi poliloqda da istifadə olunan dil vasitələri nisbi qısalığı, yığcamlığı, sintaktik quruluşun nisbi sadəliyi ilə seçilir. Poliloqlar dialoqla müqayisədə az öyrənilmiş sahədir. Son dövrlərə qədər iki nəfərdən artıq iştirakçısı olan nitq situasiyaları dialoqların xüsusi halı kimi qiymətləndirilirdi. Poliloqun yetərincə araşdırılmaması onun monoloq və dialoq çərçivəsində tədqiqata cəlb olunmasına səbəb olmuşdu. Belə hesab edilirdi ki, poliloqda dialoqla müqayisədə yeni linqvistik keyfiyyət yoxdur və poliloji nitq mikrodialoqları əhatə edir [2; 3; 4].

Bədii mətndən fərqli olaraq poliloji nitq radio-televiziya verilişlərində daha çox qeydə alınır ki, bu da eyni mövzu ətrafında aparılan müzakirələrə cəlb edilən iştirakçıların sayının çoxluğunun nəticəsi olaraq özünü göstərir. Poliloq termini dilçilik ensiklopediyasının 1998-ci il nəşrinə ayrıca lüğət məqaləsi kimi daxil edilmişdir[5]. Daha əvvəllər dialoqun iki və daha artıq iştirakçı arasında şifahi nitq prosesi kimi təqdim olunması qeydə alınır [6, s. 388].

«Danışanların sayı (iki və daha çox) «dialoq-poliloq» qarşılaşdırılmasının differensial əlaməti deyildir. Termindəki dia- elementi ümumi əlaməti - danışanla dinləyənin öz rolunu dəyişməsinin göstəricisidir»[7, s.301].

Dialoqu ikitərəfli və çoxtərəfli nitq forması kimi qəbul etmək, poliloqu müstəqil nitq forması hesab etməklə bağlı elmi mübahisələrə hələ də son qoyulmamışdır. Poliloqu dialoqlar cəmi kimi səciyyələndirmək də geniş yayılmış fikirlərdəndir. Bədii bətnin linqvistik təhlili poliloqla dialoqu ayırmaq üçün əsaslı faktların üzə çıxmasına səbəb olmuşdur. Poliloji nitqdə iştirakçıların sayının çoxluğu ötürülən informasoiyanın eyni zamanda fərqli iştirakçılara çatdırılması ilə nəticələnir. Bununla yanaşı, poliloji nitqdə danışanın informasiyanı ünvanlamasının da spesifik xüsusiyyətlərə malikliyi diqqəti cəlb edir.

Poliloqda da sual cümlələrdən istifadə çox olunur. Sual cümləsi adresatı cavaba təhrik edir. Suala verilən cavab həmişə birbaşa, konkret olmur. Müxtəlif bədii əsərlərdə istifadə olunan poliloqlar əsasında aparılmış statistik araşdırmalar göstərir ki, onlarda da yarımçıq cümlələr, replikalar çoxluq təşkil edir. Poliloq da struktur və ya məna rabitəsi ilə əlaqələnən replikalar məcmusu kimi çıxış edir. Poliloq vahidlərinin ardıcıllığı tam nəzərə alındıqda onlar bir-birin aydınlaşdırır. Bədii əsər mətnində poliloji şəraitdə kimin adresant olması faktı çox zaman müəllif nitqi vasitəsi ilə təyin edilir. Bu cəhət adresatı da müəyyənləşdirməkdə aparıcıdır.

Zaman eyniliyi poliloqun getdiyi və poliloqda haqqında söhbət açılan hadisənin baş verdiyi zamanın eyniliyini nəzərdə tutur. Poliloq iştirakçılarının nöqteyi-nəzərindəki eynilik ekstralinqvistik amildir. Bu amil kommunikativ-praqmatik səviyyədə mətnin koherentliyini müəyyənləşdirməyə kömək edir.

Ekspressivlik canlı nitqin, o cümlədən poliloji nitqin mühüm xüsusiyyətlərindən biridir. Ekspressivliyin əldə olunması üçün yalnız leksik vasitələrdən deyil, qrammatik vasitələrdən də geniş istifadə olunur. Dil paradiqmasının mövcud formalarından yayınma ənənəvi hal aldıqda danışıq dilində özünü çox göstərdikdə onlar dilin başqa üslublarına da keçərək normanını özünü, onun üslubi səciyyəsini dəyişir. Beləliklə, poliloqlarda dil sisteminin inkişafının potensial istiqamətləri özünü göstərir. Bundan başqa poliloqlarda dilin bütün funksiyaları, o cümlədən emotiv və estetik funksiyaları az və çox dərəcədə reallaşır. Emotiv və estetik funksiyaların, ekspressivliyin poliloji nitqdəki xüsusiyyətlərini poliloji nitq mətnləri əsasında tədqiq oluna bilər.

Poliloqda diktorlardan birinə məxsus olan nitq digər iştirakçılardan birinə, bir neçəsinə və hamısına yönələ bilir. Poliloq üçün unison, daha doğrusu eynizamanlı nitq də xarakterikdir. Belə hallar iştirakçıların emosional vəziyyətində daha çox üzə çıxır. Dialoqda olduğu kimi,

poliloqda da diktorların nitqi bir-biri ilə əlaqələnir, bir-birini təyin və bərpa edə bilir. Poliloqda nitq iştirakçıları arasındakı münasibətlər, danışıq mövzusu əhəmiyyətli rol oynayır.

[Sara] “ - Sən niyə yemirsən? - [Müəllif] Sara Akifdən soruşdu. Alagöz anasının istiqanlığından və burada olmağından ürəklənib qardaşına üz vurdu:

[Alagöz] - Niyə əlində saxlamısan, ye dayna, ay başına xeyir. Xeyrini bilmirsən. Kütdür, ye, əlinə pul gələcək. Sonra pulu verəsən, bilet alarsan ora!

[Akif] - Uf! - [Müəllif] deyib Akif kütü qızın başı üstünə qaldırdı. Anası Akifi kənara itələdi:

[Akifin anası] - Yavaş görək bir, bu nə ilişikdi?

[Dəstəgül] - A bacı, deyən təndir soyuyub, - dedi Dəstəgül.

[Akif] - Nə ilişmək olacaq. Qızların arzusudu. İstəyirdilər ki, qazmaq çıxsın, yesinlər saçları uzansın, at quyruğu təki. Baş-ş-ş! - [Müəllif]: Akif bu dəfə boş əlini yumruq tutub Alagözün təpəsinə qaldırdı.

[Dəstəgül] - A bacı, deyən təndir soyudu.

[Akifin anası -daxili nitq] - Başına kül olmasın. Elə deyir ki, guya indicə soyuyub. Bayaqdan, mən görürəm, təndir gedib.

[Akifin anası] - Gətir bir yalunqu salaq. Xəmir də axı qalıb gedər?

[Dəstəgül]- Heç-zad olmaz! Gətir təndiri qızdıraq, - [Müəllif]: xəmirin məsuliyyəti Dəstəgülün üstündə deyildi, ona görə də təndirdən yapışdı” [8, s. 220-221].

Poliloji nitqdə beş iştirakçı və əlavə olaraq müəllif nitqi vardır. Müəllif kənar mövqedədir və nəqledən funksiyasını yerinə yetirir. Müəllif bu poliloqda bir dəfə Akifin anasının daxili nitqini də canlandırır: Başına kül olmasın. Elə deyir ki, guya indicə soyuyub. Bayaqdan, mən görürəm, təndir gedib.

Birinci nitq aktı Saraya aiddir və onun Saraya aidliyi müəllif nitqi ilə verilir. İkinci nitq aktının Alagözə məxsusluğu müəllif nitqi ilə verilir. Saranın və Alagözün nitq aktları birbaşa Akifə ünvanlanıb və poliloqun bütün iştirakçıları bu nitqi eçidirlər. Deməli poliloqda həm aktiv adresatlar, həm də passiv iştirakçılar vardır. Passiv iştirakçı olmaq adresat olmamaqdan irəli gəlir. Poliloqu dialoqlar cəmi kimi qəbul etməyin özünü həmişə doğrulmadığı verilmiş poliloq nümunəsində təsdiqini tapır. Saranın Akifə ünvanlanmış nitqi dialoqa çevrilmir. Çünki Akif bacısına cavab vermir. Poliloqun mahiyyətinə dialoq prizmasından yanaşma, göründüyü kimi, heç də özünü həmişə doğrultmur. Bu ondan irəli gəlir ki, poliloqda qarşılıqlı təsir fərqli şəkillərdə gedir. Onu da qeyd etmək lazımdır ki, poliloqlarda politematika daha çox ehtimallıdır. Nümunə kimi verilmiş poliloqda Akiflə bacıları arasındakı nitq prosesinin teması kütü yeməklə bağlıdırsa, Dəstəgüllə Akifin anası arasındakı nitqdə tema təndirin soyumasıdır. Nəhayət, burada üçüncü tema da vardır ki, bu tema təndirin qızdırlıması ilə əlaqədardır və təndirin soyuması temasının davamını təşkil edir. Akifin anası ilə Akif arasındakı iki dialoqdan biri baş verən hadisənin səbəbini öyrənmək, daha doğrusu, Akiflə bacısı arasında münaqişənin səbəbini öyrənməkdir. Poliloqda politematika iştirakçıların sayının çoxluğu və onların öz aralarında münasibətlərin fərqliliyi, baş verən hadisədə hər bir iştirakçının öz rolunun mövcudluğu ilə bağlıdır. Məsələn, Dəstəgül çörək küt getməsin deyə Akifin anasına kömək edir. Uşaqlar (Akif, Sara, Alagöz) təndirin başına ona görə yığılıblar ki, kütü yesinlər.

Dialoji nitqdə iştirakçı tərəflər yalnız informasiyanın ötürülməsi ilə kifayətlənmirlər. Hər bir kommunikant müsahibənin hisslərinə təsir göstərməyə çalışır. Müsahibə təsir göstərmək arzusu nə qədər çox olursa, dil vasitələrinin seçilməsi, nitqdə işlədilməsinə diqqət artırılır. Məlumatın ekspressivliyi dil vasitələrinin daha ciddi şəkildə seçilməsinə səbəb olur [9, s..105].

Poliloqda Alagözlə Akif, Akiflə anası, Dəstəgüllə Akifin anası arasında birgedişli dialoqlar vardır.

Poliloqda da cümlələrin yarımçıq olması müşahidə edilir. Bu cəhət poliloq replikalarının həm elliptikliyə, həm də natamamlığa görə təhlilinə imkan verir. Nümunədə Akifin nitqində bir dəfə nida-cümlə (Uf!) istifadə olunmuşdur. Poliloji nitq nidalarla diqqəti cəlb edir. Bu fakt poliloji nitqin sintaktik xüsusiyyəti olmasa da, onun sintaktik qurulmasını əks etdirir. Poliloqda emosional-ekspressiv xüsusiyyətlər dialoq kontekstində üzə çıxır, başa düşülür.

Nidaların işlənməsinin sintaktik nəticəsi qurulmasında nidaların və ya nidalı birləşmələrin iştirak etdiyi cümlə modellərinin yaranmasıdır. Spesifik danışıq modeli ikikomponentli kommunikativ konstruksiyalarla gerçəkləşir. Belə konstruksiyalarda əsas nitq hissələrinə aid vahidin rema funksiyasında çıxış edərək nidanı motivləşdirməsi və ya nida remanın implisit qiymətləndirdiyi tema kimi çıxış etməsində özünü göstərir.

Beləliklə, nida poliloji nitqdə yalnız real gerçəkliyə emosional münasibəti ifadə etmək vasitəsi kimi deyil, həm də dilin fatik funksiyasını yerinə yetirən, poliloq iştirakçıları arasında ünsiyyət yaradan, nitq rabitəsini davam etdirən vasitə olur.

Ədəbiyyat

1. Azəri S. Süçilmiş əsərləri. Bakı, Yazıçı, 1989, 298 s.
2. Filippow K. Dialog contra Polylog? // Linguistische Arbeitsberichte. – Leipzig : K.-Marx-Universität, 1985. – № 49. – S. 84–90.
3. Кромм О. А. К разграничению понятий «монолог, диалог, полилог» / О. А. Кромм // Wissenschaftliche Zeitschrift der Friedrich-Schiller-Universitat. 1980. – № 2. – С. 121–127.
4. Кларк Г. Г. Слушающие и речевой акт / Г. Г. Кларк, Т. Б. Карлсон // Новое в зарубежной лингвистике. – Вып. 17. – М. : Прогресс, 1986. – С. 270–321.
5. Большой энциклопедический словарь. Языкознание. – М. : Большая Российская энциклопедия, 1998. – 685 с.
6. Большой энциклопедический словарь. – М. : Советская энциклопедия, 1991. – Т. I. – 863 с.
7. Лингвистический энциклопедический словарь. Москва, 1990
8. Əhmədov S. Toğana. Bakı, Yazıçı, 1981, 318 s.,
9.Шендельс Е.И. О стилистической грамматике//Иностранные языки в школе. Вып. 2. Москва, 1966, с.104-115

П.Азизова

Лигвистический анализ полилогической речи
в художественном тексте
Резюме

В статье рассматривается статус полилогической речи в художественном тексте, сходство между диалогом и полилогом как особой формой речи. Отличием полилога является не только количество участников но и политематичность и разнообразие адресатов и адресантов. В полилоге наряду с основными участниками важно участие и самого автора. Речь автора помогает определить среди участников полилога адресата и адресанта. Внутренняя речь участников полилога оживляется автором. В то же время, сам автор может быть одним из участников полилога. Полилогическая речь по простоте предложений, использованию неполных и нераспространённых предложений сходна с диалогической. В полилогах также широко используются вопросительные предложения и междометия.

Одной из основных особенностей живой речи, в частности полилогической речи, является экспрессивность. Экспрессивность выражается не только лексическими средствами, но и грамматическими средствами. В полилогах находят свое отражение потенциальные направления развития языковой системы. Помимо этого, в полилогах реализуются все функции языка, в частности эмотивная и эстетическая функции. Эмотивные и эстетические функции, экспрессивность – особенности полилогической речи можно исследовать на основе речевых текстов.

В статье особое внимание было уделено еще одной особенности полилогов – наличию неполных предложений. Эта особенность позволяет рассмотреть эллиптичность и неполноту реплик полилога. В полилогической речи привлекает внимание употребление междометий. В полилогах эмоционально-экспрессивные особенности выявляются в контексте диалога.

Ключевые слова: речь, процесс речи, диалог, монолог, полилог, речевой акт, пассивный участник, адресант, адресат, активный участник

P. Azizova

Linguistic analysis of polylogical
speech in the literary text
Summary

The article discusses the status of polylogical speech in a literary text, the similarity between the dialogue and polylogue as a special form of speech. The difference in polylogarithm is not only the number of participants, but also polithematicity and diversity of recipients. In polylogue along with the main participants, the participation of the author himself is very important. The author's speech helps to determine the recipient and addressee among participants. Participants' internal speech is animated by the author. At the same time, the author can be one of the participants of polylogue. Polylogical speech may similar with dialogical in simplicity of sentences and in use of incomplete and not widespread sentences. Interrogative sentences and interjections are also widely used in polylogues.

One of the main features of lively speech, in particular polylogical speech, is expressiveness. Expressiveness is expressed not only by lexical means, but also by grammatical means. The polylogue reflects the potential directions of the development of the language system. In addition, all functions of the language, in particular emotive and aesthetic functions, are realized in polylogs. Emotive and aesthetic functions, expressiveness - features of polylogical speech can be investigated on the basis of speech texts.

The article focused on another feature of polylogs, the presence of incomplete sentences. This feature allows you to consider the ellipticity and incompleteness of the polylogue replicas. In polylogical speech attracts attention to the use of interjections. In polylogs, emotional and expressive features are revealed in the context of dialogue.

Key words: speech, process of the speech, dialogue, monologue, polylogue, speech act, passive participant, addresser, address, active participant

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 08.08.2019
Filologiya üzrə elmlər doktoru, professor Əbülfəz Rəcəbli tərəfindən çapa tövsiyə olunmuşdur.

NAİLƏ YUSİFOVA
filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
nailayusifova@yahoo.com

AZƏRBAYCAN TOPONİMLƏRİNDƏ TÜRK MƏNŞƏLİ PALEOORONİMLƏR

XÜLASƏ

Azərbaycanda düzənliklər və vadilər yaşayış üçün daha yaxşı şəraitə malik olduğuna baxmayaraq, arxeoloji qazıntılar göstərir ki, ulu əcdadlarımız dağlıq əraziyə də üstünlük vermişlər.Bu bir tərəfdən həm qonşu, həm də yadelli tayfaların qəfil basqınlarından qorunmaq, digər tərəfdən əkinçiliklə yanaşı maldarlığı inkişaf etdirmək üçün dağlıq ərazilərin üstünlükləri ilə bağlı olmuşdur.Qədim və arxeoloji cəhətdən çoxtəbəqəli yaşayış məskənlərinin əsasən dağlıq yerlərdə aşkarlanması bununla izah olunur.Ona görə də qədim Daş dövründən başlayaraq tayfalar və etnoslar bir-birini əvəz etdikcə dağlıq ərazilərin-oronimlərin dil mənsubiyyəti dəyişmişdir.Odur ki, onlara advermə prosesi də min illər boyu davam etmişdir.Bu baxımdan da Azərbaycanın indiki oronimiyasının yaranma və formalaşma tarixi müəmmalıdır.Lakin onlar mədəni irsimizin tərkib hissəsi olmaq etibarilə xalqımızın özü qədər qədimdir.

Elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar olaraq hazırda oroqrafik obyektlərin dəqiq müəyyənləşdirilməsinin həlli həmin obyektlərin dərketmə parametrlərini (bu və ya digər relyef formasının suvarma,əkinçilik,maldarlıq və balıqçılıq üçün istifadə olunmasının məqsədəuyğ-unluğunun müəyyənləşdirilməsi, yolların çəkilməsi və s.) genişləndirsə də ulu əcdadlarımızın müxtəlif relyef formasına verdiyi adlar praktiki əhəmiyyətini saxlamaqdadır.Onu da qeyd edək ki, oronimlər Azərbaycanda əhalinin əksəriyyətini təşkil edən türkdilli azərbaycanlıların və müxtəlif Dağıstandilli (udinlər, avarlar, saxurlar, ləzgilər, xınalıqlar və s.) və İrandilli (talışlar, tatlar və kürdlər) azsaylı xalqların dilində leksik vahidlərdən ibarət olduqlarına görə xalqımızın müxtəlif tarixi dövrlərdə etnik təşkili məsələlərinin araşdırılması üçün mənbə roluna malikdir.Bununla əlaqədar olaraq xüsusi ilə qeyd etmək lazımdır ki, ermənilərin Azərbaycana qarşı ərazi iddiasının əsassızlığını göstərən faktlardan biri də məhz oronimlərdir.Azərbaycan ərazisində,o cümlədən,Dağlıq Qarabağda erməni dili əsasında yaranmış bir dənə də olsa belə, oronim-dağ adı yoxdur.Azərbaycan oronimiyasının dil mənsubiyyətinə görə təsnifatı nəticəsində, Türk fonunun üstün mövqeyə malik olması tam təfərrüatı ilə sübut olunmuşdur.Qeyd etmək lazımdır ki, son iki min il ərzində Azərbaycan xalqının təşəkkülü və formalaşmasında iştirak etmiş türk mənşəli tayfa ittifaqlarının (Albanlar, Qıpçaqlar, Oğuzlar, Peçeneqlər, Saklar, Xəzərlər, Hunlar və s.) və onların tərkibində olmuş tayfaların əksəriyyətinin adları məhz makrooronimlərdə əksini tapmışdır. Azərbaycan dilində və onun dialektlərində məlum olmayan bir sıra qədim türk sözləri də oronimlərdə daşlaşıb qalmışdır.Bunları tədqiq edib üzə çıxarmaq xalqımızın tarixini müəyyənləşdirməkdə mühüm addım atmaq deməkdir. (2, 676 s) Biz bu qısa məlumatdan sonra faktlar əsasında paleooronimləri, onların yaranmasında əsas rol oynayan, mənaları dəqiq olmayan onomastik vahidləri müəyyənləşdirməyə çalışacağıq.

Açar sözlər: toponim, paleooronim, qədim türk, tədqiqat, müşahidə

İnsanlar məskunlaşdığı ərazilərdə müxtəlif təsərrüfat sahələri (əkinçilik, maldarlıq, ovçuluq və s.) ilə əlaqədar olaraq relyefin oxşar və fərqli cəhətlərini müəyyənləşdirir və onların hər birinə öz dilində adlar verir. Bu dərketmədə insanlar əkinə və maldarlığa yararlı torpaqları,

meşə, bağlıq, biçənəklik, içməli və müalicəvi sular çıxan yerləri, uçurumlu, qayalı, şoran və başqa obyektləri bir-birindən fərqləndirməklə sonrakı tarixi inkişaf prosesində həmin oroqrafik obyektlərdə yerləşən faydalı sərvətlərə də öz münasibətlərini bildirir, bununla da yaşadığı ərazinin bölgələrini mənimsəyir və onlar haqqında tam təsəvvürə malik olur (3, 129 s).

Azərbaycanda düzənliklər və vadilər yaşayış üçün daha yaxşı şəraitə malik olduğuna baxmayaraq, arxeoloji qazıntılar göstərir ki, ulu əcdadlarımız dağlıq əraziyə də üstünlük vermişlər. Bu bir tərəfdən həm qonşu, həm də yadelli tayfaların qəfil basqınlarından qorunmaq digər tərəfdən əkinçiliklə yanaşı daha intensiv təsərrüfat sahəsi olan maldarlığı inkişaf etdirmək üçün dağlıq ərazilərin üstünlükləri ilə bağlı olmuşdur. Qədim və arxeoloji cəhətdən çox təbəqəli yaşayış məskənlərinin əsasən dağlıq yerlərdə aşkarlanması bununla izah olunur. Ona görə də qədim Daş dövründən başlayaraq tayfalar və etnoslar bir-birini əvəz etdikcə dağlıq ərazilərin-oronimlərin dil məsuliyyəti dəyişmiş və onlara müsbət və ya mənfi relyef formalarına ad vermə prosesi də min illər boyu davam etmişdir. Bu baxımdan da Azərbaycanın indiki oronimiyasının yaranma və formalaşma tarixi məlum deyil. Lakin onlar mədəni irsimizin tərkib hissəi olmaq etibarilə xalqımızın özü qədər qədimdir.

Elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar olaraq hazırda oroqrafik obyektlərin dəqiq müəyyənləşdirilməsinin həlli həmin obyektlərin dərketmə parametrlərini (bu və ya digər relyef formasının suvarma, əkinçilik, maldarlıq və balıqçılıq üçün istifadə olunmasının məqsədəuyğunluğunun müəyyənləşdirilməsi, yolların çəkilməsi və s.) genişləndirsə də ulu əcdadlarımızın müxtəlif relyef formasına verdiyi adlar praktiki əhəmiyyətini saxlamaqdadır. Onu da qeyd edək ki, Oronimlər Azərbaycanda əhalinin əksəriyyətini təşkil edən türkdilli azərbaycanlıların və müxtəlif Dağıstandilli (udinlər, avarlar, saxurlar, ləzgilər, xınalıqlar, qırızlər, buduqlular və s.) və İrandilli (talışlar, tatlar və kürdlər) azsaylı xalqların dilində leksik vahidlərdən ibarət olduqlarına görə xalqımızın müxtəlif tarixi dövrlərdə etnik təşkili məsələlərinin araşdırılması üçün mənbə roluna malikdir. Bununla əlaqədar olaraq xüsusi ilə qeyd etmək lazımdır ki, ermənilərin Azarbaycana qarşı ərazi iddiasının əsassızlığını göstərən faktlardan biri də məhz oronimlərdir. Azərbaycan ərazisində, o cümlədən, Dağlıq Qarabağda erməni dili əsasında yaranmış bir dənə də olsa belə, oronim-dağ adı, dağ yoxdur. Azərbaycan oronimiyasının dil mənsubiyyətinə görə təsnifatı nəticəsində Türk fonunun üstün mövqeyə malik olması tam təsərrüfatı ilə sübut olunmuşdur. Qeyd etmək lazımdır ki, son iki min il ərzində Azərbaycan xalqının təşəkkülündə və formalaşmasında iştirak etmiş türk mənşəli tayfa ittifaqlarının (Albanlar, Qıpçaqlar, üğuzlar, Peçeneqlər, Saklar, Suvarlar, Xəzərlər, Hunlar və s.) və onların tərkibində olmuş tayfaların əksəriyyətinin adları məhz makrooronimlərdə əksini tapmışdır. Azərbaycan dilində və onun dialektlərində məlum olmayan bir sıra qədim türk sözləri də oronimlərdə daşlaşıb qalmışdır. Bunları tədqiq edib üzə çıxarmaq xalqımızın tarixini müəyyənləşdirməkdə mühüm addım atmaq deməkdir. Biz bu qısa məlumatdan sonra faktlar əsasında paleooronimləri, onların yaranmasında əsas rol oynayan, mənaları dəqiq olmayan onomastik vahidləri müəyyənləşdirməyə çalışacağıq.

Azərbaycan paleotoponimiyası qədim türk leksik semantik elementləri ilə zəngindir. Belə leksik vahidlərin müxtəlif növ obyekt adlarının tərkibində mühafizə etdikləri arxaik məna çalarlarını isə həm qədim türk abidələri və qohum türk dilləri materialları əsasında, həm də coğrafi obyektin özünün bilavasitə müəyyən səciyyəsi cəhətlərini nəzərə almaqla müəyyənləşdirmək, bərpa etmək mümkündür. Deməli, dilçilik baxımdan xüsusi əhəmiyyət kəsb edən və ayrıca tədqiqata ehtiyacı olan belə bir məsələnin həllində ilk növbədə etimoloji metoda əsaslanmaq lazımdır. Bu baxımdan Azərbaycan toponomik sisteminə daxil olan külli miqdarda toponim və makrotoponimlərin (oykonim, oronim və hidronimlərin) birinci komponentləri yerində işlənən ağ, qara və sarı sözləri diqqəti xüsusilə cəlb edir. Belə ki, göstərilən leksik vahidlərin yüzlərlə coğrafi adın tərkibində təkcə rəng mənasında deyil, bir sıra başqa arxaik


Следующие части работы посвящены описанию различных методов, которые дают студентам возможность полностью понять данную тему. Автор не только описывает эти методы, но и предлагает настольные игры, ряд усных и письменных интерактивных заданий для закрепления недавно полученных знаний.

Чтобы достичь целей обучения в заключении упоминается важность использования интерактивных заданий и различных типов взаимодейсвия после того, как преподаватель обеспечивает класс необходимыми теоретическими знаниями.

Ключевые слова: академическое письмо, придаточные предложения, придаточные определительные предложения, ограничительный, неограничительный, определитель, определяющаяся сторона, относительные местоимения.
Redaksiyaya daxil olma tarixi: 24.07.2019

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.07.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Aytən Byaramova tərəfindən çapa tövsiyə olunmuşdur.

MEHRİBAN ABDULLAYEVA
ADU
Rəşid Behbudov 60
mehriban.abd@rambler.ru

İNGİLİS DİLİNDƏ SİNONİMİK CƏRGƏLƏRİN ƏSAS ZƏNGİNLƏŞMƏ MƏNBƏLƏRİ

Xülasə

Dildə sinonimlərin çox işlənməsi həmin dilin lüğət tərkibinin nə dərəcədə zəngin olmasından bizi xəbərdar etmiş olur.Çünki dildə bəzən eyni bir sözün bütün hallarda,bütün birləşmələrdə eyni cür işlədilməsi,heç bir dəyişikliyə məruz qalmaması dildə ağırlığa səbəb olur.Həmin dildə ahəngdarlıq və çalarlılıq əksik olur.Ancaq eyni bir mənanı ifadə etmək üçün fərqli sözlərin istifadəsi, hər dəfə həmin mənanın fərqli şəkildə əks etdirilməsi dili daha da zənginləşdirir və gözəlləşdirir.

Qeyd etmək lazımdır ki, sinonimlər arasında demək olar ki, eyni semantik mənaya malik olanlar var ki,onlar da xüsusi linqvistik situasiyalarda bir-birini əvəz edə bilirlər.Belə olduğu halda onlar müəyyən bir qrupda birləşərək sinonimik cərgələr yaradırlar.

İngilis dilində sinonimik cərgələrin mənbələri haqqında fərqli fikirlər mövcuddur. Sinonimlərin zənginləşmə mənbələrinə müxtəlif ədəbiyyat mənbələrində fərqli yanaşmalar mövcuddur. Qeyd etmək lazımdır ki,dilçilər bu prosesə bir neçə aspektdən yanaşırlar.

Məqalə əsasən ingilis dilində sinonimik cərgələrin hansı yollarla artırıla bilinəcəyindən bəhs edir.Eləcə də hansı mənbələrin sinonimik cərgələrin zənginləşməsində böyük əhəmiyyətə malik olduğundan danışılır. Dildə sinonimlərin cərgəsi nə qədər zəngin olarsa, dilin lüğət tərkibi də bir o qədər zəngin olmuş olar.

Çünki dildə sinonim cütlüklərin çox olması öz növbəsində dilə xüsusi rəngarənglik gətirmiş olur. Bununla yanaşı, dildəki sinonimlərin çoxluğu dilin inkişafına da kömək etmiş olur.Belə ki, sinonimik cərgələrin zənginləşmə mənbələri arasında ən çox diqqəti cəlb edən və dilçilərin marağına səbəb olan mənbələr əsasən bunlardır:digər dillərdən alınma sözlər,bəzi feli birləşmələr,frazeoloji birləşmələr,dialektizmlər,affikslərin söz köklərinə əlavə edilməsi və ya itirilməsi,söz qısaldılması (shortening),evfemizmlər və s.

Açar sözlər: sinonimik cərgələr,sözdüzəltmə , zənginləşmə mənbələri,nümunələr,mənşə

İngilis dilində olan sinonimik cərgələrin zənginləşmə mənbələri arasında ən çox diqqəti cəlb edən və dilçilərin marağına səbəb olan mənbələr əsasən bunlardır:digər dillərdən alınma sözlər,bəzi feli birləşmələr,frazeoloji birləşmələr,dialektizmlər,affikslərin söz köklərinə əlavə edilməsi və ya itirilməsi,söz qısaldılması (shortening),evfemizmlər və s.

İngilis dilində digər dillərdən alınma sözlərin miqdarı həddindən artıq çox olduğundan bu özünü eyni zamanda sinonimik cərgələrin sıralarının artmasında da göstərir.Bunu aşağıdakı nümunədə bir daha müşahidə etmək mümkündür.

Məsələn: verilmiş bu 13 söz bir-birilə sinonimlik təşkil edə bilər:

See – behold – descry – espy – view – survey – contemplate – observe – notice – remark – note – discern – perceive

Əgər bu sinonimik cərgəni təşkil edən sözlərin mənşəyinə nəzər yetirsək,çox maraqlı bir faktın şahidi olarıq. Belə ki, bu sözlər arasında yalnız iki sözün ‘see’ və ‘behold’-un öz

mənşəyini qədim ingilis dilindən götürdüyünü görmək olar. Digər sözlərin isə fransız və latın mənşəli sözlər olduğunu tədqiqatlar əsasında müşahidə etmək olar.Qinzburq sinonimlərin daha çox digər dillərdən alınma sözlərdən ibarət olduğu barədə fikirlər söylərkən, onu da qeyd etmişdir ki, elə sinonim cərgələri vardır ki, orda sinonimlik təşkil edən sözlərdən biri ingilis mənşəlidirsə, digəri isə digər dillərdən alınma sözlərdən ibarətdir.[7,s.58]Bunu aşağıdakı nümunələrdən görmək mümkündür.

Məsələn: brotherly(ingilis)
- fraternal (latin) (qardascasına),
answer(ingilis)
– reply(yunan) (cavab), fiddle(ingilis)
- violin(fransız) (skripka) və s.

Bu cür sinonimik cərgələri təşkil edən sözlər bəzən üslubi xüsusiyyətlərinə görə də bir-birilərindən fərqləndirilə bilər.

Belə ki, ingilis dilindən öz mənşəyini götürmüş sözlər daha çox ümumi danışıq dilində (colloquial) işlənən sözlərdirsə(brotherly), alınma sözlər daha çox ədəbi dildə işlənən sözlərdən (fraternal) ibarət olur. Bu cür sinonim cütlüklərinin sayını artırmaq mümkündür, bəzi hallarda hətta elə sinonim cütlüklərinə də rast gəlmək olar ki, onlardan biri mənşəyini ingilis dilindən götürürsə, digər iki söz alınma söz olmaqla daha çox ədəbi dildə işlənən sözlərdən ibarət olmuş olur.

Məsələn :
begin,start –(ingilis)
– commence (fransız)
– initiate (latın)
–başlamaq,rise (ingilis)
– mount (fransız)
– ascend (latın) və s.

Sinonimik cərgələrin zənginləşmə mənbələri sırasına digər yolları və vasitələri də aid etmək mümkündür.Məsələn, sözdüzəltmə prosesini də sinonimlik cərgələrinin zənginləşmə mənbələri kimi göstərmək mümkündür.Bu yol çox məhsuldar hesab olunur.Belə ki, dildə uzun müddət mövcud olan sözlər yeni məna çalarları qəbul etmiş olur.Yeni sözlərin yaranma üsullarına nəzər yetirsək, burada müxtəlif yolların mövcudluğunun şahidi oluruq. İngilis dilində söz düzəltmə sayəsində sinonimik cərgələrinin zənginləşmə mənbələrindən danışarkən Arnold affikslərdən(ön şəkilçilər), eləcə də affikslərin itirilməsi, konversiya, mürəkkəb sözlərin əmələ gəlməsi, sözlərin qısaldılması və s. barədə söhbət açmışdır.[2,78]

Bu üsullar arasında bəziləri xüsusi diqqətəlayiqdir. İngilis dilinin xüsusiyyətləri nəzərə alınmaqla daha çox aşağıdakı söz düzəltmə növlərinə sinonim cərgələrin zənginləşmə mənbələri kimi baxmaq olar: mənanın dəyişilməsi, mürəkkəb fellər, mürəkkəb isimlər, söz qısaltma növləri(shortening), ayrılıqda öz mənasını itirərək birləşmə daxilində təmamilə fərqli məna ifadə edən sözlərdən ibarət olan söz birləşmələri, konversiya və s.

Fellərdən və feldən sonra gələn şəkilçilərdən (postpositive) ibarət olan feli birləşmələrə müasir ingilis dilində daha çox rast gəlinir.Belə feli birləşmələr sinonimlik təşkil edərək digər sözlərin əvəzinə mətn daxilində istifadə olunmaqla fikrin daha aydın ifadə olunmasına şərait yaratmış olur. Bunu aşağıdakı nümunələrin timsalında görmək mümkündür:

Məsələn: choose – pick out (seçmək),abandon – give up (imtina etmək,boyun qaçırmaq), continue – go on (davam etmək),postpone – put off (təxirə salmaq),return – bring back (qayıtmaq),enter – come in (daxil olmaq) və s.

Bundan başqa qeyd etdiyimiz kimi,bəzi mürəkkəb isimlər,xüsusən də məcazi məna ifadə edən isimlər də sinonimik cərgələrin zənginləşməsində xüsusi əhəmiyyət daşıyır.Həmin sözlərin işlədilməsi fikrin daha dəqiq və aydın çatdırılması üçün böyük əhəmiyyət kəsb edir,bunu verilmiş nümunələr əsasında da görmək mümkündür:

Məsələn: arrangement – layout (qurgu,düzəliş),regeneration –

feedback,reproduction(dirçəliş) – playback, resistance – fight-back (muqavimət),treachery – sell-out (satqınlıq) və s.

Sinonimik cərgələrin zənginləşmə mənbələrini tədqiq edərkən Arnold bu sahədə ingilis dilində

çox geniş yayılmış xüsusi söz birləşmələrinin (set expressions) rolunu xüsusi vurğulamışdır.[2,178]Belə ki,ingilis dilində bəzi söz birləşmələrinin tərkibində olan sözlər ayrı-ayrılıqda təmamilə fərqli məna daşımalarına baxmayaraq,birləşmə daxilində digər sözlərlə birləşərkən təmamilə fərqli məna daşımış olur.Sinonimik cərgələrin zənginləşməsində xüsusi rola malik olan söz birləşmələrinin tərkibi isə əsasən fellərdən və isimlərdən ibarət olur ki,bu fellər birləşmə daxilində öz əsl mənasından fərqli mənada işlənmiş olur.Belə fellərə əsasən aşağıdakılar aiddir:

to have(malik olmaq),to give(vermək),to take(götürmək),to get(əldə etmək),to make(düzəltmək).

Bunu aşağıdakı nümunələrin əsasında da müşahidə etmək mümkündür:

Məsələn: laugh – to give a laugh (gülmək),sigh – to give a sigh (nəfəs almaq),walk – to take a walk (gəzmək),smoke – to have a smoke (siqaret çəkmək),love – to fall in love (sevmək) və s.

Belə nümunələrin sırasını genişləndirmək heç də çətin olmaz,çünki ingilis dilində belə birləşmələrin sayı sonsuzdur,bu birləşmələrin sadə sözlərin əvəzinə işlənməsi dilə xususi ahəngdarlıq,rəngarənglik gətirmiş olur.Bu barədə təkcə Arnold öz tədqiqat əsərlərində məlumat verməmiş,digər dilçilər də öz əsərlərində bu məsələnin aktuallığını göz önündə canlandırmışlar.

Məşhur dilçi N.N.Amosovanın da bu sahədə rolu təqdirəlayiqdir,o da sinonimik cərgələrin zənginləşməsindən danışarkən məhz belə birləşmələrin nə dərəcədə böyük əhəmiyyətə malik olduğunu bir daha vurğulamışdır.Amosova xüsusən də belə birləşmələrdə fellərin öz əvvəlki kökündən uzaqlaşaraq,xüsusi frazeoloji birləşmə daxilində təmamilə yeni məna ifadə etməsi hallarını vurğulamışdır.[1,s.154]

Sinonimlərin mənbələrini nəzərdən keçirərkən,bu sahədə söz qısaltmalarının da (shortenings) az əhəmiyyətə malik olmadığını görmək mümkündür.Belə ki,digər növlərə,üsullara nisbətən daha az rast gəlinməsinə baxmayaraq,bu üsulun da sinonimlikdə əhəmiyyətli rola malik olduğu danılmaz faktdır.Bu üsul daha çox üslubi(stylistical synonyms) və ideoqrafik (ideographic synonyms) sinonimlərin əmələ gəlməsində rast gəlinən üsuldur.Belə sinonimlərin sayının dildə az olmasına baxmayaraq aşağıdakı nümunələrdən bunu müşahidə etmək mümkündür:

Məsələn: memorandum – memo (kiçik məqalə,məlumat,qeyd),vegetables – vegs (tərəvəz),

margarine – marge (marqarin),microphone – mike (mikrafon),popular(song) – pop (song) və s.

İngilis dilində sinonimliyi nəzərdən keçirərkən,konversiya(conversion) hadisəsinin də bu sahədə müəyyən rolunun olduğunu görmək mümkündür.

Başqa sözlə desək, konversiya hadisəsi də sinonimlik cərgələrinin zənginləşmə mənbəsi kimi göstərilə bilər.Məsələn : commandment – command (əmr),laughter – laugh (gülüş) və s.

Bəzi hallarda isə hətta affikslərin itirilməsi halları da sinonimlik üçün mənbə rolunu oynaya bilər. Bunu aşağıdakı nümunələrdən görmək mümkündür

Məsələn: amongst – among (arasında),await – wait (gözləmək) və s.

Bu kimi misallar bir daha sübut edir ki, ingilis dilində affikslərin də sinonimlik sahəsində rolu danılmazdır və təqdirəlayiqdir.

Sinonimik cərgələrin zənginləşmə mənbələrini nəzərdən keçirərkən, evfemizmlərin rolunu qeyd etməmək olmaz.Evfemizmlərin dildə nə kimi əhəmiyyətə malik olduqlarını nəzərdən keçirsək görərik ki,onlar ingilis dilində xüsusi əhəmiyyət kəsb edən sözlər qrupudur.Belə ki,evfemizmlər dilin lüğət tərkibində xüsusi pillədə dayanaraq dildə bəzi xoşagəlməz sözləri işlətməmək məqsədilə istifadə olunaraq dildə olan bu sözləri onların qarşılıqları ilə əvəz edirlər.

Başqa sözlə desək,dildə olan daha kobud,nəzakətsiz,yersiz sözlərin əvəzinə onların sinonimləri olan və daha ədəbli,xoşagələn sözlərin işlədilməsinə evfemizm adını vermək olar.-Məsələn,ingilis dilində olan “drunk” (içkili) sözü elə də xoş səslənmədiyinə görə onun evfemizm kimi işlənə bilən “merry” sözü ilə əvəz edilməsi daha məqsədəuyğun hesab olunur.Bundan başqa bəzən hətta evfemizmlər olaraq təkcə sadə sözlər deyil,söz birləşmələri də işlənilir ki,bu da dilə xüsusi ahəngdarlıq gətirməklə yanaşı nitqi daha da gözəlləşdirir,yersiz,nəzakətsiz sözlərin işlədilməsinin də qarşısı alınmış olur.

Arnold qeyd etmişdir ki,təkcə ingilis dilində deyil,demək olar ki müasir dillərin hamısında evfemizmlərin sinonimliyin mənbəyi kimi göstərilməsi halına rast gəlmək olar,ümumiyyətlə evfemizmlərin dildə işlədilməsi həmin dilin zənginliyindən xəbər vermiş olur.[2,s.207]Müasir ingilis dilində gündəlik işlənən və təhqiredici xüsusiyyətə malik olmayan bəzi sözlər də bir çox situasiyalarda məhz evfemizmlərlə əvəz olunurlar.Bunu aşağıdakı misaldan görmək olar

Məsələn: die – to be no more – be gone – lose one’s life – breathe one’s last – join the silent majority – go the way of all fresh – pass away – be gathered to one’s fathers (ölmək)

Göründüyü kimi,”to die”(ölmək) felinin əvəzinə nitqin daha nəzakətli səslənməsinə imkan yaratmış çoxlu sayda evfemizmlər işlətmək mümkündür.Qədim ədəbiyyatlardan da məlum olduğu kimi, qədim dövrlərdən indiki zamana qədər Allah adının işlədilməsi çox zaman məhdud olmuşdur.

Belə ki,hələ qədim dövrlərdə kilsə tərəfindən yerli əhaliyə “God” sözünün işlədilməsi qadağan edilmişdir,hətta bəzi hallarda kilsə nümayəndələri bunun günah olduğunu da bildirirdilər.Ona görə də məhz “God” sözünü işlətməmək üçün onu digər sözlərlə əvəz etmək məcburiyyəti meydana çıxmışdı. İndiki dövrdə də bu sözün əvəzinə onun qarşılığının işlənməsi halları heç də az deyil.İlk olaraq bu söz “God” sözünə daha yaxın olan “Goodness” sözü ilə əvəz olunmağa başladı.Ümumiyyətlə,”God” sözünün evfemistik sinonimləri kimi işlənən sözlər əsasən bunlardır:

For goodness sake! Goodness gracious! By Love! Good Lord! By Gum! və s.

Oxşar halı biz “devil”,yəni şeytan sözündə də müşahidə edə bilərik.Belə ki,”God” sözündə olduğu kimi,”Devil” sözünün də işlədilməsinə çox az hallarda rast gəlmək olar.Bu sözün əvəzinə isə əsasən,onun sinonimləri olan evfemizmlər,məsələn,”deuce”, “Old Nick” və s. işlənir.

Ədəbiyyat

1. Амосова Н.Н. Основы английской фразеологии. Л.: Изд-во Ленинградского университета, 1963,208 с.
2.Arnold I.V. English word. M.: Высшая школа, 1986, 276 p.
3.Вилюман В.Г. Английская синонимика. Москва, 1980,128 с.
4.G.B.Antrushina, O.V.Afanasyeva, N.N.Morozova. English lexicology. Москва, Высшая школа, 1988,264 с.
5.Koonin A. English lexicology. M. Book publishing house, 1940, 160 p.
6. Локшина С.М. Краткий словарь иностранных слов. Москва, Русский язык, 1988
7.R.S.Ginzburg. A course in Modern English Lexicology. M.: 1979, 276 p.
8.Webster's New Dictionary of Synonyms. – New York: C. Merriam Co., 2006, 678 p.

M.Abdullayeva

The basic sources of enrichment of synonymous rows in English

Summary

There are various opinions on the sources of synonymous rows in English.The sources of synonyms in the synonymic range have been evaluated differently in different literature. We can mention that linguists have come to appreciate it from different perspectives.

The richer the range of synonyms in the language,the greater the vocabulary of the language.Because of the large number of synonyms in the tongue,the language is of particular colour.However,the majority of synonyms in the language also help to develop the language. It shoud be noted that among the synonyms there are also those who have almost the same semantic meaning.But only in some specific linguistic situations they can replace one another.

This article focuses mainly on how synonyms in English can be upgraded.

At the same time it deals with the sources that are of greater importance in enriching synonyms.Synonyms can be combined in a language into a specific group.

Otherwise these groups are called synonymous rows. The words in these rows are different from one another by their specific characteristics. Therefore,they have different distinctive features.

That is why the richer the synonymous rows, the wider their boundaries, the richer the language .

Key words: synonymous rows,wordbuilding ,sources of enrichment,examples,origin

М.Абдуллаева

Основные источники обогащения синонимических рядов в английском языке

Резюме

Существуют различные мнения об источниках синонимических рядов в английском языке. Источники синонимов в синонимическом диапазоне были по-разному оценены в разных литературных источниках. Источники, которые привлекают наибольшее внимание, вызывают интерес у лингвистов.

Они пришли к выводу, что они оценивают это с разных точек зрения.Чем шире диапазон синонимов в языке, тем больше словарный запас языка. Из-за большого количества синонимов в языке, язык имеет особый цвет .А так же большинство синонимов в языке также помогают развивать язык. Следует отметить, что среди синонимов есть те, которые имеют почти одинаковое семантическое значение. Но только в некоторых конкретных языковых ситуациях они могут заменить друг друга. Синонимы могут объединяться в языке в определенную группу, иначе называемую в синонимический ряд.

В этой статье основное внимание уделяется тому, как можно обогащать синонимы на английском языке. А так же отмечается какие источники имеют большее значение для обогащения синонимов. Как мы знаем, слова в синонимах отличаются друг от друга по своим специфическими характеристиками. В то же время они имеют разные отличительные признаки, отличающие их от других. Поэтому чем богаче синонимические ряды, тем шире их границы, тем богаче и язык.

Ключевые слова: синонимические ряды,словообразование, источники обогащения, примеры,происхождение

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 16.07.2019
Filologiya üzrə fəlsəfə doktoru **Sevinc Səlimova** tərəfindən çapa tövsiyə olunmuşdur.

KƏMALƏ MƏMMƏDOVA
ADU
Reşid Behbudov 80
Kemale_rzayeva@mail.ru

M.T.ZEHTABİNİİN AZƏRBAYCAN DİLİNİN VARLIĞI VƏ TƏMİZLİYİ UĞRUNDA MÜBARİZƏSİ

Xülasə

Məqalə M.T.Zehtabinin həyat və yaradıcılığına həsr olunmuşdur. Professor Zehtabinin Azərbaycan dilinin inkişafı yolunda mühüm rol oynadığı vurğulanır. Məqalədə M.T.Zehtabinin İranda və Cənubi Azərbaycanda milli ruhun formalaşmasında mühüm əhəmiyyət kəsb etdiyi verilir. O, Cənubi Azərbaycanda dilçiliyin yayılmasında böyük əhəmiyyəti olan ziyalılardan biridir.Yorulmaz alim tədqiqatçı Məhəmməd Tağı Zehtabi türk dili haqqında dərc olunmuş bir çox kitabın və onlarca məqalənin müəllifidir.

‘‘İran türkçəsinin sərfi ’’, ‘‘İslama qədər İran Türklərinin dil və *ədəbiyyatı’’*, *‘‘İsmul* məani’’(Leksikologiya), ‘‘Azərbaycanın yer adları’’, ‘‘Azərbaycan dilinin məhvi’’, ‘‘Ana dilimizi necə yazaq’’, ‘‘Zəbane’’,farsi be zəbani milliye digər İrane bərtərətdarəd?’’(fars dili İrandakı digər dillərdən üstündür?), ‘‘Əl qəvaidül farsiyye’’, ‘‘Əbu nəvas əs Həsən bin Haki’’ çap olunmuş doktorluq işi.

Alim dilçiliklə yanaşı,türk ədəbiyyatı ilə də məşgul

olmuşdur.’’Əruzun türk folklorunda izləri’’adı altında çap edilmiş silsilə yazıları ümumtürk ədəbiyyatına daxil olan dəyərli yazılardandır.

Türkologiya,tarix,dilçilik,ədəbiyyat və folklora aid dəyərli əsərlərin müəllifi kimi tanınmış alim bədii yaradıcılıqla da məşğul olmuşdur. Böyük müşahidə qabiliyyətinə malik olan şairin qələmindən onlarla gözəl poemalar çıxıb.’’Qoy olsun on’’, ‘‘ Pərvanənin sərgüzəşti’’, ‘‘Bəz qalasında’’, ‘‘Şahin zəncirdə’’, ‘‘Bağban Eloğlu’’, ‘‘Çelik əfsanəsi’’, ‘‘Həstiyə nəsim’’(farsca şeirləri), Bağdad, İstanbu,l Berlin və Təbrizdə nəşr olunmuşdur Tarixi olayları ədəbiyyata gətirən doktor M .Zehtabi ‘‘ İran türklərinin əski tarixi’’, ‘‘Kulliyate Əliağa Vahid’’, ‘‘Əliağa Vahiddən xatirələr’’, ‘‘Tulim-xan həyatı və yaradıcılığı’’kimi mühim əsərlərin müəllifidir.

Açar sözlər: professor, milli hökumət, sürgün, varlıq, tarix, dil.

Elmi cəhətdən Cənubi Azərbaycan türk kimliyinin meydana gəlmə müddətini incələyərkən bəzi önəmli şəxsiyyətlər, ziyalılar və fəalların geniş çalışmaları insanı heyrətə gətirir. Yox olan və ya uzun müddət yox olan kimlik anlayışını yenidən meydana gətirmək, canlandırmaq ifadə olaraq siyasi səhnəyə daşımaq bu ziyalıların ən önəmli işləri olubdur. Bu sahədə hər bir ziyalı və siyasi fəal özünə görə dəyərli və önəmlidir. Sosial olaraq bəlli bir anlayışın cəmiyyətdə, mədəniyyətdə və millət içində yaymaq nə qədər çətin bir iş olduğunu hər kəs bilir. Amma bu çətinliklərə və işgəncələrə baxmayaraq, bu yola başlayan və davam etdirən dahi insanların mübarizə və inkişafetmə metodlarını araşdırmaq , öyrənmək və örnək tutmaq hər bir mədəni və siyasi hərəkatın aktivlərinin vəzifə borcudur.

Cənubi Azərbaycan milli hərəkatı , siyasi, mədəni və hüquqi olaraq yenidən canlanma və hərəkətə keçməsində bir çox insanın köməyi olmuşdur[1]. Həqiqətən bu insanlar içində

professor Məhəmməd Tağı Zehtabi bambaşqa bir dəyərə sahibdir. Bir neçə faktor professor Zehtabinin önəmli edir. Məqalədə onun sahib olduğu bu faktorları ələ alaraq onun nə qədər strateji və ağıllıca davrandığı incələyəcəyik.

Professor Zehtabinin bütün fəaliyyətləri, yazdığı əsərləri bəzi yazar və fəalların çalışmaları kimi təsadüfi bir iş deyil. Bunlar bütünlüklə bir strateji və şüurlu bir şəkildə görülmüşdür. Buna görə Cənubi Azərbaycan istəklərinə qarşı çıxanlar tərəfindən ən çox tənqid və hətta təxribata məruz qalan ziyalılarımızdır deyə bilərik. Professor Zehtabinin həyatı, fəalliyəti və əsərlərini şüurlu seçilmiş bir hədəfin cizgisində görmək və bu hədəfi açıqlamaq lazımdır. Fars millətçilər tərəfindən açıq-gizli siyasətlərlə silinməsi və assimiliyasiya edilməsi hədəflənən Azərbaycan Türk mədəniyyətini qorumaq, ölümdən qurtarmaq hər bir azərbaycanlının və türkün vəzifəsidir.

Professor Zehtabi bu hədəfi ən yaxşı şəkildə bilənlərdən biridir. Eyni zamanda bu hədəfə yetişmək üçün tələbələr yetişdirmək , kitab yazmaq və siyasi fəaliyyət göstərməklə məşğul olmuşdur. Onun araşdırmaları, yazıları və fəaliyyətləri bir neçə kateqoriyaya ayrılır. Siyasi fəaliyyət, dilçilik, tarix və ədəbiyyat. Bu dörd sahə də paralel fəaliyyət göstərmiş olan professor Zehtabi həyatı boyunca çalışaraq hər birinin əmələ gəlməsində çox böyük rol oynamışdır. Unudulmuş kimliyimizi yenidən kəşf etmək üçün bu dörd sahəni təməl sahələr olaraq təsvir edə bilərik[2].

Birinci olaraq onun gənclik illərindən başlayan və şərəfli ölümündən sonra da davam etdirilən bir siyasi həyat vardır. Bir siyasi fəal fiqurunda gənc ikən demokrat firqəsinin gənc qolun da yer alması və daha sonra Azərbaycan, Bakı və ordan da Sibirə və Bağdada sürgün olması professor Zehtabi ağır bir siyasi yükün daşıdığını göstərir. Hətta İran inqilabından sonra yurduna dönərək daha da önəmli siyasi həyat başlayaraq siyasi düşüncə seçir və nəfəs alıcı çalışmalarını davam etdirir. Bu fəaliyyətlər tələbələri vasitəsilə hələ də davam etdilir. Professor Zehtabinin xüsusən inqilab sonrası siyasi fəaliyyətləri hər bir Cənubi Azərbaycan siyasi fəalına örnək olmalıdır. Siyasi fəaliyyətində şüurlu və elmi çalışmaya önəm vermək onun bir xüsusiyyətidir. Yəni hər bir yazdığı elmi əsər və şeir özlüyündə siyasi bir fəaliyyətdir. Professor Zehtabi və bir neçə başqa ziyalını Pişəvəri dönəminin günümüzə başlayan fiqurlar olaraq da görə bilərik. Milli hökumətin süqutundan sonra Cənubi Azərbaycanda bir intelektual azlıq yaşanmışdır. Eyni zamanda milli hökumətdən sonra bir kimlik və mədəni dirçəlişyaranmışdır. Tarixdə bu cür hadisələr bir millətin nəfəsinin elə kəsər ki, yenidən ayaqda durmaq və ideyalarını canlandırması böyük güc və iradə istər. Çoxlu vəziyyətlərdə də yenidən ayaqda durmaq bir mədəniyyət və millət üçün mənfi hala gətirib çıxarar. Əsas məsələ bu cür tarixi sonrakı nəsillərə daşımaqdır[3].

İdeyaları ölümdən qurtarmaq , onları yenidən cəmiyyətə təzyiq etmək uzun müddətli bir işdir. Bunu öz tariximizdə rahatlıqla görə bilərik. Milli hökumət məşrutə və Xiyabani hərəkatından illər sonra eyni istəklər bir az fərqli durumlarda yenidən canlanmağa başlamış vəziyyətdədir. Bu ideyalar o dönəmlərdən yaxın zamanlara gətirib çatdıran bir neçə şəxsdən danışa bilərik. Barmaq sayıca olan bu şəxslər içində ən çox təsirli və önəmli olan professor Zehtabidir. Professor Zehtabi o dönəmin dəyərli ideyalarının eynisini davam etdirdiyini deyə bilərik. Professor Zehtabi o zaman Vətən anlayışından daha fərqli bir Vətən anlayışı ortaya qoydu. Milli hökumətdə ki, ana dili Azərbaycan və dövlət anlayışlarından təsirlənən bu anlayışlar təkəmmül etmişdir. Yəni Zehtabi milli hökumətin davamıdır. Diqqətli baxsaq, o, milli hökumətin təkamülüdür. “Onu milli hökumətin ideyalarından ayıran və ya birləşdirən insanlar kimlərdir” sualı tariximizin çox önəmli suallarındandır. Zehtabinin fəaliyyəti və əsərlərindən görünür ki, o, ilk dəfə türklüyü o dönəmin ideyalarına qataraq bu üç anlayışı yenidən əmələ gətirmişdir. Nəticə olaraq, Zehtabinin Cənubi Azərbaycan türklüyünün düşüncə atası olaraq təsdiq etmək yanlış olmaz[4]. Zehtabi ilə birlikdə iki düşüncə milli hökumət və

məşrutə sonrası özünü göstərmişdir. Birincisi İran türklüyü təsvir edilə bilər, ikincisi isə türklüyü vurğulamadan Azərbaycan olmuşdur. Bu iki düşüncə hələ də günümüzdə bir sıra fəal və ziyalı tərəfindən davam etdirilir, amma ümumi olaraq bu üç əsas düşüncənin hansı daha çox qəbul olunur?! Bu sual üzərində durmaq və fikirləşmək lazımdır. İranda və Cənubi Azərbaycanda son zamanlar hadisələrə baxdığımız zaman Zehtabinin vurğuladığı anlayışın nə qədər önəmli olduğu bilinir. Əsas məsələ budur ki, Zehtabi bu anlayışı necə yaratmışdır. Onun çəkdiyi cizgi hansı təməllərə dayanır. Bu da təkbaşına bir tədqiqat mövzusu olaraq işlənilməlidir.

Professor Zehtabinin dilçilik sahəsindəki dil çalışmaları, mühüm əsərləri və illər boyu şəhərdən şəhərə, kənddən kəndə dolanaraq dil kursları qurması dilin nə qədər önəmli olduğunu göstərir. Elə ki, o, həyatının böyük hissəsini dillə məşğul olmuşdur. Tələbələrinin dediyinə görə, o, türkcə yazmağa çox əhəmiyyət verirdi. Ona görə də Azərbaycan türkcəsinin öyrənilməsini vacib bilirdi.

Amma onun üçün türk dili niyə bu qədər vacib idi? Türkcənin Azərbaycana və azərbaycanlılara verdiyi nə ola bilər? Birinci olaraq hər mədəniyyətin ən önəmli ünsürü dil olduğunu hər kəs bilir. Dil bütün ictimai sistemlərin mərkəzində olduğunu bir çox ictimai xadim və filosoflar vurğulamışdırlar. Dilimiz mədəniyyət və düşüncə ola bilməz[5].

Eyni zamanda bir siyasi yöntəmin ən təbii və uyğun ictimai vahidi millətdir və hər millət öz gələcəyini təyin etmə bacarığına sahibdir. Yəni siyasi təşkilatlanmanın ideal şəkli millət, dövlətdir və müasir anlamda hər hakim dövlətdə tək bir millət olmalıdır. Bu da ortaq bir mədəniyyət içində ola bilər. Ortaq bir dil olmasa, təxil edilə bilməz. Bunlarla birlikdə tarix ünsürü də millət olmanın bir şərti sayılır. Millətçilik də elə bu deməkdir. Bu ünsürlərin sayəsində millətdə fərdlərə bir aidiyyat duyğusu yaranır. Bütün bunları yaratmaq üçün mərkəzi sayılan ünsür və problem dildir.

Dil hər şeydən öncə bir simvoldur. Dil millətin formalaşmasındaortaq kimliyin simvoludur. Bir olma düşüncəsi ancaq dildən keçir və dil bu anlayışın rəmzidir. Professor Zehtabi də bunu çox yaxşı bilirdi. Çünki, o, çalışmalarında çox önəm verdiyi və mərkəzi mövqedə tutduğu fenomen dildir. Azərbaycan türkcəsinin qrammatikasını, sərf və məhvini yazması, onu sistematikləşdirməsi dilçilik elminin inkişafına böyük kömək olmuşdur. Bir çox fəallar və hətta xalq onun kitabları ilə bu dili öyrənib və bu dildə yazıblar. Professor özü də bu dilin öyrədilməsində böyük rol oynamışdır. Onun dil dərsləri böyük və kiçik şəhərlərdə , dil öyrənmə mövzusunda böyük əhəmiyyət kəsb etmişdir. . Eyni zamanda bu dilin daha sonrakı nəsillərə də öyrədilməsində tələbələrinin boynuna böyük yük düşmüşdür.

Professor Zehtabi təkcə qrammatika, sərf və məhv yazmaqla kifayətlənməyib, eyni zamanda türkcənin tarixində "İran türklərinin əski tarixi" adlı kitabında ta şumerlərə qədər olan tarixi elmi faktlarla isbat etmişdir[6]. Yəni cəmiyyət tərəfindən yazı dili olmasını təmin etmiş və dil dərslərində də tələbələrə öyrətmiş və digər tərəfdən də onun tarixini və kökünü ortaya çıxarmışdır. Eyni zamanda da yazdığı şeirlərdə belə dilə fərqlilik və önəm vermişdir. Onun "Su deyibdir əvvəldə, anam mənə ab ki yox, yuxu öyrətdi uşaqlıqda mənə xab ki yox" şeirində də bu uğurunu görmək olar. Bütün bunlar bunu göstərir ki, professor Zehtabi dilin bütün tərəflərini anlayıb və onun önəmlərini həm siyasi, həm də mədəni olaraq yaxşı bilərəkhəyata keçirtmişdir.

Böyük əhəmiyyət daşıyan elmi tədqiqatlar professor Zehtabinin tarixi araşdırmalarıdır. Hətta pan arya və pan farsi kütlə tərəfindən ən çox tənqid gördüyü çalışmaları da onun tarixi çalışmaları olmuşdur. Professor Zehtabinin tarix çalışmaları İranda alternativ tarix yazarlığı kateqoriyasında yer alır. Araşdırılmayan tarixin əksində o tarixin yalanlarını ortaya çıxardaraq yenidən tarix yazmaq professor Zehtabinin tarix yazarlığının ən mühüm xüsusiyyətidir.

Mustafa Kamal Atatürk“Tarix yazmaq tarix yaratmaq qədər önəmlidir”- deyir. Bu baxışla professor doğrudan da özlüyündə bir tarixdir. Tarix yazmaq keçmişi aydınlığa çıxardaraq gələcəyə işıq tutar. Ölkəsinin tarixini bilməyən tarix yaza bilməz. Kollektiv ad, ortaq tarix, ortaq mədəniyyət, ortaq ərazi dayanışma hissi kimi xüsusiyyətlər, millətləri bir birindən ayırır. Millət tərifində də tarix, torpaq, dil, ölkə, adət-ənənə ünsürləri arasında millət ünsürünü görmək mümkündür. Soykökünü isbat edən bir tarix millətinbirlik duyğusunu artırır. Ard-arda gələn nəsillərin kollektiv təcrübələri tarix kitablarında toplanır və öyrənilir. Təlim baxımından bunun çox önəmli olduğu məlumdur. Uşaqlar cəmiyyət dəyərləri, norma və ümumi olaraq mədəniyyəti öyrənərkən öz tarixini də öyrənirlər və sözü keçən hiss , beləliklə, onlarda da oyanır. Bu duyğu olmadan kimliyi mənimsəmək mümkün deyildir. Nəticədə tarix millətdə millətçilik hissini oyandırır. Bu duyğu, fərd və cəmiyyətdə bir mənsubiyyət şüurunu canlı tutur və onu dərinləşdirir. Professor Zehtabinin tarix çalışmalarında da bu yöndə olmuşdur. Bu gün yaşadığımız torpaqların nəzərində min illər əvvəl atalarımızın yaşadığını isbatlayan Zehtabi bu duyğunun yaranmasında önəmli rol oynamışdır. Zehtabinin tarix çalışmaları eyni zamanda İran, Orta Şərq və Orta Asiya tarixinə elmi olaraq fərqli bir yol açdı. Bu yol günümüzdə də Cənubi Azərbaycan siyasi mühitinin tarixi yönünü əmələ gətirir. Millətçi hissinin əsas dayanağı olan tarix görüşü olmasa, hüquqi istəklər və ideoloji mühit sağlam təmələ malik deyildir. Cənubi Azərbaycan və ümumi İran türklüyün tarix babası sayılacaq qədər önəmli olan professor Zehtabi tarixi araşdırmalarının nə qədər önəmdaşıdığını görmək olar.Tarix millətin xarakter dəyərlərini göstərir.Millət olaraq həyatı davam etdirmək üçün tarixə dayanmaq vacibdir. Nəticədə professor Zehtabi tarixi araşdırmaları ilə Azərbaycan millətinə ortaq bir ruh toxudu və onu bəyənərək zənginləşdirdi. O, tarixdəki hadisələrə keçmişdən qalan hər şeyə dönəmin ehtiyaclarına görə yeni bir nəfəs gətirdi. O bilirdi ki, tarix düşüncəsi keçmişdən qidalanmaqla bərabər irəliyə doğru gedən düşüncəyə dayanır və gələcəyə istiqamət verir. Nəticədə, İranda və xüsusilə Cənubi Azərbaycanda türklüyü və azərbaycançılığı cəmiyyətdə yayan və elmi olaraq geniş bir tədqiqatıortaya qoyan Zehtabi, Azərbaycan milli hərəkatının düşüncə və ilham qaynağıdır. O, bir intelektual şair , dilçi, siyasətçi və bir millətçi kimi simaları daşıyırdı.

Ədəbiyyat

1.Dağşəhərli Həbib “Ustad Məhəmməd Tağı Zehtabi ilə son müsahibə” Mecmua-ye Malakat

2. Əli Qafqasiyalı (2000) “Güney Azərbaycan (İran) Türkləri Ədəbiyyatından incilər” (Palandönen Qazetesi 10 Nisan) Erzurum.

3. Kerimi, Mehemmet Riza. Elimizin Nisgil Çalağı Profesör Zehtabinin Yaşayış ve eserleri. 1389/2011. Elimizin Mübariz Bilgini İntişarat-ı Tekdire (Tehran 1389-2011)

4. Mişovlu M. (prof. Dr.Mahmut taki Zehtabi) (1372/1993) Goy Olsun on, Hikayeler ve xatireler, İntişaratı Eldar, Tebriz

5. Şəbusteri M : (Prof. Dr. Mahmut Taki Zehtabi) (1376/1997) Bağban Eloğlu Moneg Neşriyyat evi

6. Tağıyeva Ş.Rehimli. E.Bayramzadə S. (2000) Güney Azerbaycan Bakı

K.Mammadova

M. Z. Zehtabin's struggle for existence and cleanness
of Azerbaijani language

Summary

The article is dedicated to the life and work of M.Z. Zehtabi. It is emphasized that professor Zehtabi plays an important role in the development of the Azerbaijani language.In the article, M. Z. Zehtabi is given a great importance in the formation of the national spirit in Iran and South Azerbaijan. It is one of the most important damages in the spread of linguistics in Southern Azerbaijan.

Doctor M.Z Zehtabi has remained faithful to his love for nation forever.Tireless scientist researcher M.T Zehtabi is the author of many books and dozens of article about Turkish language. In addition to linguistics,the scientist was also engaged in turkish literature.The are dozens of beautiful poems from the poet's pen, which has great observation ability. ''Qoy olsun on'', ''Pervanenin serguzeşti'', '' Bez qalasında'', ''Şahin zencirde'', ''Bagban Eloglu'', ''Celik efsanesi'', '' Hestiye Nesim'',(persian poems), '' Gashgayı yaylaga kocur'' art works were published in Baghdad, Istanbul, Berlin and Tebriz at different times. M.T Zehtabi devoted his whole life to the Turkish language in the state education in the Southern Azerbaijan.

Keywords: professor, national government, exile, existence, history, language.

К.Маммадова

Борьба М.З. Зехтаби за существование и чистоту азербайджанского языка

Резюме

Статья посвящена жизни и творчеству М.З. Зехтаби. Подчеркивается, что профессор Зехтаби играет важную роль в развитии азербайджанского языка.В статье М.З. Зехтаби отводится большое значение в формировании национального духа в Иране и Южном Азербайджане. Он один из важнейших языкаведов в распространении лингвистики в Южном Азербайджане.Доктор М.Т Зехтаби навсегда остался верен своей любви к нации.Неутомимый ученый-исследователь М.Т Зехтабти-автор многих книг и десятков статей о турецком языке.

Помимо лингвистики,ученый также занимался турецкой литературой. Ето десятки прекрасных стихов из пера поета,который обладает большой способностью к наблюдению. '' Qoy olsun on'', ''Pervanenin serguzesti'', '' Bez qalasinda'', '' Sahin zencirde'', '' Bagban Eloglu'', '' Celik efsanesi'', '' Hestiye Nesim'' (Персидские стихи) Произведения искусства Gashgayi yaylaga kocur были опубликованы в разные времена в Багдаде и в Берлине.Зехтаби посвятил всю свою жизнь турецкому языку в государственном образовании Южного Азербайджана

Ключевые слова: профессор, национальное правительство, изгнание, существование, история, язык.

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 01.08.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Nailə Mustafayeva tərəfindən çapa tövsiyə olunmuşdur.

X.N.MƏMMƏDOVA
ATU, Xarici dillər
kafedrasının müəllimi

THE NATURE AND CAUSES OF SEMANTIC CHANGE TYPES OF SEMANTIC CHANGE

Summary

Language deals with concepts strongly connected with experience, and as experience fluctuates according to many facts in time and space, words referring to such concepts fluctuate too. Although language changes are self-evident and very frequent, they are, at least synchronically, imperceptible and difficult to explain. More often, languages will differ in the precise correspondences between words, so that some languages have broad words with many meanings. They must be translated into multiple words in another language. Words are slowly changing in meaning even now, though the changes happen at the speed of continental drift. Unlike other types of linguistic change, like sound or spelling changes, semantic change is strongly linked to arbitrary cultural and social changes, thus making it very strenuous to predict the direction or depth of this change. The study of semantic change is also known as semantic shift, semantic progression or semantic drift can be observed as a part of etymology, onomasiology , semasiology , and semantics. Furthermore, there are two aspects of semantic change. Change in denotation in which the meaning of a lexeme is 'extended' or 'restricted'; and change in connotation in which a word may be 'ameliorated' or 'pejorated'.Change in the stylistic meaning of words where the meaning of words may be changed radically according to their context. Humans naturally tend to generalize, and this affects their use of language. This is one of the causes of the semantic phenomenon known as semantic broadening (also termed extension, widening, and generalization). In this process, a specific feature of the word is dropped or the word is used outside its original specific context to refer to a more generalized concept or object. The style and context often cause words to shift their meanings, sometimes radically. Sometimes words are used ironically to mean the opposite. Semantic change is highly irregular in direction due to the irregularity of its causes. These causes are usually interrelated, and semantic change is rarely the result of one cause exclusively.

Key words: metonymy, metaphor, generalization. specialization, semantic degredation , ellipsis

Changes in meaning are as common as changes in form. They can be internally or externally motivated. The word field in which words and their meanings stand in a network of relationships in semantics is basically called semantic change.Semantic change is the process of development of a new meaning or any other change of meaning. It can be viewed dispassionately as a natural process, but it can also be invested with a spiritual significance. Developments in linguistic theory may also increase understanding of semantic change, which has long been seen as a domain where description is the highest achievable goal. As is commonly known, all words have a meaning, but since English first appeared from its base language which is Anglo-Saxon, the meanings of words have undergone changes. The present article sustains a view about semantic changes – including a broadening of meaning, a narrowing of meaning or a complete shift in meaning altogether. The discussion of meaning change is often emotionally charged, with the meanings perceived as "improving" -

amelioration or "worsening" – pejoration - over a certain course of time. On one hand, some changes of meaning are due to what may be described as purely linguistic causes, factors acting within the language system. On another hand, some semantic changes may be accounted for by the influence of a peculiar factor usually referred to as linguistic analogy. Semantic change due to the differentiation of synonyms is a gradual change observed in the course of language history, sometimes, but not necessarily, involving the semantic assimilation of loan words.

Types of semantic change

The alteration of meaning occurs since words are constantly used. The case is that what is intended by speakers is not exactly the same each time. If a different intention for a word is shared by the speech community and becomes established in usage then a semantic change has occurred. The abovementioned is the major reason of semantic change. Semantic change as well in terms, is also called semantic shift**.** Change in the meanings of words, especially with the passage of time, the study of which is historical semantics.

At the simplest level, only two types of meaning were distinguished:

1. generalization - a word's meaning widens to include new concepts.
2. specialization - a word's meaning contracts to focus on fewer concepts.

There are four basic types of semantic change which on the one hand refer to the range of a word's meaning and on the other, to the way the meaning is evaluated by speakers.

Generalization

Generalization is also known as extension, generalization is the use of a word in a broader field of meaning than it originally meant to be, often referring to all items in a class, rather than one specific item. [1] It is a natural process, where the speaker has a limited vocabulary at his/her disposal, either because the speaker is young and fledgling and just acquire language skills and he/she is not a master of a language or a native speaker.

Generalization or widening of meaning - the scope of the new notion is wider than that of the original one, whereas the content of the notion is poorer. In majority of cases generalization is combined with a higher order of abstraction than in the notion expressed by the earlier meaning.

Specialization – also known as narrowing is the reduction of scope of the meaning. A word which formerly represented a notion of a broader scope has come to render a notion of a narrower scope. When the meaning is specialized, the word can name fewer objects, have fewer referents. At the same time the content of the notion is being enriched, as it includes a greater number of relevant features.

Narrowing refers to the opposite of broadening, and is defined as a reduction in the contexts in which a word can appear. One example of this would be the world 'girl', which originally meant a child of either gender, rather than a female child. The word has evolved to mean what was only part of its original definition, and this is semantic narrowing.

The simplest type of semantic change is a shift. [2] To take a closer look at all changes in meaning shows that alterations in meaning can be classified according to type. Broadening occurs when over time the meaning of a word has grown to be applicable in contexts that it previously wasn't, and to mean things it previously didn't - it's meaning has simply expanded.

A shift in meaning differs completely from broadening and narrowing in that the word now retains none of its original definition and has come to mean something else entirely.

Semantic degradation - A disapprovement in the meaning of a word. Degradation is the process by which a word's meaning worsens or degenerates, coming to represent something less favorable than it originally did.In official contexts, however, the term 'peasant' is found for small and/or poor farmers. Degradation or pejoration involves a lowering in the social scale.

Semantic amelioration - An improvement in the meaning of a word. Amelioration is the process by which a word's meaning improves or becomes elevated, coming to represent something more favorable than it originally referred to. Amelioration or elevation is a semantic shift undergone by words due to their referents coming up the social scale.

Categories of Semantic Change

The categorization of semantic change – that is in this case the ways in which words can change their meanings – used to be the major field of interest in historical linguistics for a long time. Therefore, there is a wide variety of literature available on this topic. But still, the different types of semantic change can be divided into basic types. Following this further, all of them have in common that they only generate semantic change when the use of a word in a certain way becomes wide-spread among a speech community.

As the most predominant or productive manner of semantic change there is **metaphor**, which is "the transfer of a literal meaning to a figurative area" (Jucker 114). [3] A good example of this is the word *head*, which originally only referred to the top part of a living creature's body. This distinct feature of the head could then be used metaphorically and transferred to other areas of life, as when using expressions like "head of the department"; thereby, the word *head* has extended its meaning capacity from only referring to a body part to also referring to people on high levels of professional life. Metaphorical extension is the extension of meaning in a new direction through popular adoption of an originally metaphorical meaning. Metaphorical extension is almost a natural process undergone by every word. We don't even think of it as meaning change. In its less obvious instances, we don't even see it as extending the meaning of a word.

Metaphor is a transfer of name based on the association of similarity and thus is actually a hidden comparison. It presents a method of description which likens one thing to another by referring to it as if it were some other one.

Another important way to change meanings is through **metonymy**, which is "the substitution of a word referring to an attribute for the thing that is meant" (Jucker 115). [4] An example is the use of the word *crown* for a monarch, relying on the common knowledge of speakers and listeners that it is normally only monarchs who wear crowns. Metonymy is a figure of speech where one word is substituted for a related word; the relationship might be that of cause and effect, container and contained, part and whole.

Metonymy - is a transfer of name based on the association of contiguity. It is a shift of names between objects that are known to be in some way or other connected in reality. The transfer may be conditioned by spatial, temporal, causal, symbolic, instrumental, functional and other relations.

The third major way in which words can change their meanings is by means of **euphemisms**. Speakers use euphemisms whenever they are in need of an inoffensive expression for an otherwise offensive utterance (cf Jucker 115 - 116). [5] For example, it is highly inappropriate in Western cultures to speak of bodily functions in polite conversations. Therefore, speakers use euphemisms – and teach them to their children – in order to be able to speak politely, e.g. the child can speak of "number one" or "number two" in order to express its need to go to the bathroom.

Ellipsis is the formal metonymy-forming mechanism. Ellipses is defined as the omission of a word or words considered essential for grammatical completeness but not for the conveyance of the intended lexical meaning.

Changes depending on the social attitude to the object named, connected with social evaluation and emotional tone, are called amelioration and pejoration of meaning.

Furthermore, speakers can use the stylistic device of **irony** to alter the meaning of a word; ironical use of words occurs when they are used in a way contradicting their normal use

Implicatures are another device that can lead to meaning change. Implicatures are implicit meanings of utterances, or "additional conveyed meanings". For example, if a speaker says that he succeeded in writing a paper, the word *succeed* implies that he tried to write his paper. These implicatures occur frequently in every day speech, but "because of their situation dependence they do not normally function as resources in semantic change" .However, some of them "occur regularly with specific words and may, therefore, become conventionalised and part of the meaning of this word" (Jucker, 116). [6]

The conjunction since, for instance, originally only had a temporal meaning ('from the time that'). However, in many cases a temporal sequence also implies a causal sequence. The utterance "Since he moved, he has been doing better" may be understood in a strictly temporal sense, but generally it will be understood that his success was somehow caused by his moving.

Loan translations are also a resource for semantic change . Yule describes loan translation as "a direct translation of the elements of a word into the borrowing language".

The final resource Jucker gives is **reanalysis**, which he gives the following example for: *dessicated* originally only means 'dried'. After introducing some of the ways in which words can change their meanings, there will now be a description of the results of semantic change.

The semantic motivation - implies a direct connection between the central and marginal meanings of the word. Semantic motivation is based on the coexistence of direct and figurative meanings within the semantic structure of the word.

Word meaning is liable to change in the course of the historical development of language. There are distinguished causes of semantic change, nature and results of the process of change of meaning.

Nature of Semantic Change.

Generally speaking, a necessary condition of any semantic change, no matter what its cause, is some connection, some association between the old meaning and the new. There are 2 kinds of association involved as a rule in various semantic changes namely:

a) similarity of meanings

b) contiguity of meanings.

Causes of Semantic Change

The factors accounting for semantic changes may be roughly subdivided into groups: a) extra-linguistic; b) linguistic.

By extra-linguistic causes various changes in the life of the speech community are meant, i.e. changes in economic and social structure, changes in scientific concepts.

Some changes of meaning occur due to purely linguistic causes, i.e. factors acting within the language system. The commonest form which this influence takes is the so-called ellipsis. In a phrase made up of two words one of these is omitted and its meaning is transferred to its partner.

Another linguistic cause is discrimination/differentiation of synonyms which can be illustrated by the semantic development of a number of words. In OE the word land meant both "solid part of earth's surface" and "the territory of a nation". In the Middle English period the word country was borrowed as its synonym. The meaning of the word land was somewhat altered and "the territory of a nation" came to be denoted by the borrowed word country.

Fixed context may be regarded as another linguistic factor in semantic change. For example, the word token, when brought into competition with loan word sign, became restricted

in use to a number of set expressions, such as love token, token of respect and also became specialized in meaning.

REFERENCES

1. Andy Kirkpatrick, (World English. Cambridge University Press, 2007)
2. Hans Henrich Hock and Brian D. Joseph,(Language History, Language Change, and Language Relationship. Walter de Gruyter, 1996)
3. Sol Steinmetz, Semantic Antics: How and Why Words Change Meanings. Random House, 2008)
4. Geeraerts, Dirk (1983), "Reclassifying Semantic change", Quaderni di semantica, 4: 217–240
5. Grzega, Joachim (2004), Bezeichnungswandel: Wie, Warum, Wozu? Ein Beitrag zur englischen und allgemeinen Onomasiologie, Heidelberg: Winter
6. Grzega, Joachim; Schöner, Marion (2007), English and general historical lexicology: materials for onomasiology seminars (PDF), Eichstätt: Universität

Х.Маммадова

Природа и причины семантических изменений. типы семантических изменений

Резюме

İtalyan dilində siyasi mətnləri təhlil etdikdə burada müxtəlif siyasətçilərin fərqli siyasi dil istifadə etdiyinin şahidi oluruq. Siyasətçilərin dili xüsusi qaydalara riayət etmir və o, dildən istifadə edən siyasətçidən asılı olaraq dəyişə bilir. Belə ki, hər bir siyasətçi özünün xüsusi dilinə malikdir. Məhz ona görə bir çox hallarda hər hansı bir bəyanat və ya siyasi mətni oxuyarkən, hətta siyasi çıxışa qulaq asarkən dərhal onun hansı siyasətçiyə aid olduğunu müəyyən edə bilirik. Məsələn: Bersani metaforalarla dolu çıxışları ilə kütlənin nəzərini cəlb edə bilir. İtaliyanın keçmiş baş naziri Matteo Renzi isə çox enerji saçan bir üsluba malikdir ki, rəngli, yeni və alınma sözlərlə, əsasən də ingilis alınmaları ilə zəngin bir dildən istifadə etməklə yanaşı, öz çıxışlarında bir çox metaforik ifadələrə yer verir. O, öz çıxışlarında xatırlanması asan olan retorik ifadələrdən daha çox istifadə edir. Bu da onu dinləyən və yaxud onun siyasi mətnlərinin oxuyanların diqqətini cəlb etməyə xidmət edir (9, 65).

İtalyan siyasi dilində metaforalar baxımından nəzərə çarpan dəyişikliklər həm leksik, həm də sintaktik səviyyədə müşahidə olunur. Bəzi araşdırmaçılar hətta bəzi sözlərin mənasında da dəyişikliklərin edildiyini və dilə yeni mənaların gətirildiyini də qeyd edir. Məs.: “Lotta di classe”- “Siniflərin mübarizəsi” metaforik ifadəsi “İnvidia sociale” - “Sosial paxıllıq” ifadəsi ilə əvəzlənib. İdman ifadələrindən istifadə edilərək də metaforik ifadələrin yaradılmasının da şahidi oluruq. Məs.: “Discesa in campo”, “Fare squadra”, “Forza İtalia” və s.

Metaforalara istənilən sahədə rast gəlinir. Hüquqda, ədəbiyyatda, hətta siyasətdə. Siyasətdə metaforalara daha çox yer verilir, çünki bu stilistik vasitə ilə siyasətçilər öz dillərini zənginləşdirmiş olurlar. Bəzən isə bu ifadələr həddindən artıq çox işlənir və siyasi dilə ağırlıq gətirir. İtalyan mətbuatına nəzər saldıqda ən çox gözə çarpan və tez-tez işlədilən metaforalardan aşağıdakıları misal göstərmək olar: *Braccio di ferro tra Atene e Berlino, apriamo un tavolo, c’è qualche mela marcia, i cespugli del centro, il teatrino della politica, abbassare la guardia, il*

colpo di spugna, franchi tiratori, gogna mediatica, macchina del fango, staccare la spina, scontro tra falchi e colombe (9,105).

İtalyan mətbuatında istifadə olunan metaforaları iki hissəyə bölmək olar: bir qrup metaforalar sırf manipulyasiya xarakteri daşıyır, digər qismi isə reallığı əks etdirmək üçün istiafadə olunur. İtalyan mətbuatında bu günə qədər istifadə olunmuş metaforalar arasında ən məşhuru Silvio Berlusconinin "discesa in campo" - "meydançaya enmək" ifadəsi hesab oluna bilər. Bu ifadə adətən futbol şərhçiləri tərəfindən istifadə olunur və komandanın meydana endiyini elan edir. Futbol İtaliyan mədəniyyətinin ayrılmaz hisssəsi və italyanların qürur mənbəyi hesab edildiyindən, bu metaforik ifadədə mədəni dəyərin təzahürünü görmək mümkündür. S.Berlusconi futbol kimi sevilən bir idman növündə istifadə edilən ifadəni öz siyasi çıxışında işlədərək onu dinləyən kütlənin diqqətini özünə cəlb etməyi bacarmışdı. Sonrakı dövrlərdə senator Mario Monti "Salire in politica"- "Siyasətə qalxmaq" kimi ifadəni işlətməyə başladı ki, bu da S.Berlusconinin istifadə etdiyi metaforik ifadəni inkar etmək üçün istifadə olunurdu. Berlusconi enirdi, Monti isə qalxırdı. İlk ifadə həqiqi metafor olsa da, ikinci ifadə sadəcə söz oyunu idi.

İtalyandilli mətnlərdə istifadə olunan digər təsirli metaforik ifadələrdə biri də "mettere le mani nelle tasche degli italiani" - yəni "əlini italyanların cibinə salmaq" ifadəsidir. Bu daha çox vergi sistemində olan çatışmazlıqlar və vətəndaşlara qarşı olunan haqsızlıqları özündə əks etdirir. Bu ifadə ilə vergi sistemi bir oğruya bənzədilir və sanki o vətəndaşa aid olanı onun cibindən oğurlayır. Ümumən italyanların mentalitetində və düşüncə tərzində vergi sistemi hər zaman oğru funksiyasına malikdir. Vergi sistemində üzləşdikləri ədalətsizliklər xalqı bu formada düşünməyə vadar edir ki, onlar da öz hisslərini metaforalarla bildirirlər.

İnformasiyanın bu qədər geniş və sürətlə yayıldığı bir dövrdə istər milli, istərsə də beynəlxalq siyasi panoramanın kütləyə çatdırılmasında kütləvi informasiya vasitələri mühüm rola malikdir. Beləliklə, mediya və jurnalistika dili siyasətin kütləyə çatdırlmasının tərkib hissəsinə çevrilir. Bu vasitə ilə müxtəlif siyasi idealogiyalar kütlə şüuruna təsir edir.

Təqdim olunan məqalədə italyan mediya mətnlərində əks olunan siyasi metaforalar tədqiq edilir. Tədqiq olunan siyasi metaforalar əsasən *Corriere della Sera*, *La Repubblica* və *La Stampa* kimi nüfuzlu qəzetlərin 2014 və 2015-ci illərdə olan nüsxələrinə istinadən seçilmişdir. İtalyan siyasi dilində ən çox istifadə olunan tikili (konstruksiya), tamaşa, idman oyunları, müharibə, din kimi domenlər tədqiqata cəlb edilmişdir.

"Tikili" domeni ilə bağlı metaforik ifadələrdə siyasət otaqları, qapı və pəncərəsi olan bir binaya bənzədilir. Siyasi güc möhkəm bir tikili ilə müqayisə edilir. Bu mənada "Siyasi partiya bir tikilidir" metaforasında siyasəti binaya bənzədərək onun möhkəmliyini ifadə edilir. İtalyan siyasətçi Luigi Bersani nitqlərin birində istifadə etdiyi "Demokratik Partiya hamının evi olaraq qalacaq" (12, *Lastampa.it.*, 24/09/2014) metaforik ifadəsində Demokratik Partiyanı ev ilə müqayisə edərək əminlik və rahatlıq hissi bəxş etmək istəyir. Çünki italyan mədəniyyətində ev, ailə, ocaq çox böyük önəm daşıyır. "Siyasi məğlubiyyət dağılmış evdir" ifadəsindəsində isə itirilmiş siyasi güc öz əksini tapır. Siyasətdə məğlub olma evin dağılmasına bərabər tutulur.

Siyasi metaforalarda istifadə oluna digər bir domen "tamaşa" sözüdür. Çünki siyasi dil ilə tamaşa dili istər media mətnlərində, istərsə də siyasətçilərin çıxışlarında davamlı olaraq əlaqədədir. "Siyasət bir teatr tamaşasıdır", "Siyasətçilər aktyordular" və s. bu kimi metaforik ifadələrdə siyasət məhz teatr həyatı ilə müqayisə edilir. Teatr tamaşası zamanı aktyorlar öz məharətlərini göstərdikləri kimi, siyasətçilər də siyasi arenada öz bacarıqlarını nümayiş etdirirlər. "Perchè al ministero non cambiano gli attori" (14, *Corriere.it*,19/03/2015)- "Nazirlikdə aktyorlar dəyişmir" ifadəsində nazirliklərin hər zaman sabit qalan tərkibindən narazı olan xalq onları həm də bəzən pis aktyor kimi qələmə verir.

Məlum olduğu kimi futbol italyan mədəniyyətinin bir parçası olaraq italyanlar tərəfindən ən çox sevilən və izlənən bir idamn növüdür. İtalyanlar üçün futbol sadəcə idman növü deyil, məhz həyat tərzidir. Bu mədəni faktor özünü siyasi dildə istifadə edilən bir çox metaforik ifadələrdə də əks etdirir. "La politica è un gioco, i politici sono giocatori"- "Siyasət oyun, siyasətçilər isə oyunçudurlar" ifadəsi italyan siyasi dilində ən çox istifadə olunan metaforik ifadədir (13, *Repubblica.it*, 03/09/2014). "Fare la politica è giocare a calcio"-"Siyasətlə məşğul olmaq futbol oyanmaqdır" deyən siyasi xadimlər burada siyasəti futbol, siyasətçiləri oyunçularla müqayisə edirlər. "Cambiamenti climatici: dopo la protesta la palla torna ai politici"- "Iqlimi dəyişikliklər: etirazdan sonra top siyasətçilərə qayıdır" (12, *Lastampa.it.*, 22/09/2014). Bu metaforik ifadədə siyasətçilərin yenidən meydanda olması vurğulanır.

Sonda bütün oyunlarda qələbə və ya məğlubiyyət olduğu kimi, siyasətdə də bu öz əksini tapır. Məsələn məşhur siyasətçi Mario Monti öz məğlubiyyətini idman ifadələrindən istifadə edərək çıxışını metafarik baxımdan zənginləşdirərək belə bildirir:"Cos'è la vittoria? E la sconfitta? Certo, ragionando con vecchi schemi ho perso"- "Qələbə nədir? Bəs məğlubiyyət nədir? Əlbəttə köhnə sxemlərlə düşünsək, mən məğlub oldum" (14, *Corriere.it*,15/02/2015).

"Müharibə" domeni ilə bağlı italyan dilində bir çox metaforlar mövcuddur və siyasi dildə istifadə olunur. Məs.: *posti di combattimento, armi, soldati, alleati, offensive, vittorie, sconfitte, assalti, marce tronfali, generali, attacchi frontali, massacri, dichiarazioni di guerra,attacchi*, *bombe mototov*, etc. "La politica è una guerra, i politici sono generali"-"Siyasət müharibə, siyasətçilər isə generallardır" metaforik ifadəsi ilə siyasət döyüş meydanı, siyasətçilər isə buradakı mübarizəni idarə edən generallar kimi əks etdirilir. "Forza İtalia deve allearsi con Alfano e Casini o con la Lega di Salvini? Le alleanze sono importanti"- Forza İtalia Alfano və Casini və ya Salvininin Legası ilə ittifaq qurmalıdır? İttifaqlar vacibdir"- burada istifadə olunan metaforlar isə siyasi gücü əldə etmək üçün düşmənə qarşı birləşməni ifadə edir (10).

"Din" domeninə gəldikdə isə, italyan mədəniyyətinin bir hissəsi olan din və dini ayinlər siyasətdə bir çox metaforik ifadələrdə öz əksini tapır. Xristian dinində kilsədə günahlarını rahiblərə etiraf etmək kimi bir dini ritual siyasi dildə də işlənir. "Monti mi ha confessato: la politica non è pane per i miei denti"- "Monti mənə etiraf etdi: siyasət mənə görə deyil". "Una dichiarazione politica è una confessione"- "Siyasi bəyanat etirafdır" ifadəsində bir siyasətçinin öz sirrlərini, narahatlıqlarını və həyəcanını bildirməsini göstərir (14, *Corriere.it*, 10/02/2015).

Dini baxımdan hər hansı bir iş üçün xeyir-dua almaq təqdirəlayiq hesab olunur. Siyasi dildə isə prestijə malik olan bir siyasi xadimdən dəstək almaq ondan xeyir-dua almaq kimi dəyərləndirilir. Məs: "Renzi ha dovuto aspettare la benedizione di Pisapia che è il sindaco di Milano e gioca un ruolo fondamentale nella politica"- "Renzi Milanın Meri və siyasətdə əsas rol oynayan Pisapianın xeyir-duasını gözləməli oldu". Qeyd olunan cümlədə dini ifadə olan xeyir-dua almaq dəstək almaq mənasında işlədilmişdir (7, 111).

Bütün bu deyilənləri nəzərə alsaq, belə bir nəticəyə gələ bilərik ki, siyasi mətnlər təkcə siyasi məzmuna malik olmamalı, həmçinin öz xarakterinə, daxilə nüfuz etmə xüsusiyyətinə, kütləyə xitab etmə formasına görə seçilməlidir. Bu zaman müxtəlif növ metaforik ifadələrdən istifadə mətnin dilinin zənginləşməsinə və daha effektiv xarakter almasına şərait yaradır. Metaforik ifadələrlə zəngin olan italyandilli ictimai-siyasi mətnlər isə kütlənin diqqətini asanlıqla cəlb edir və daha uzun müddət yaddaşlarda qalmağa nail olur.

Ədəbiyyat

1. Azad Məmmədov, Misgər Məmmədov, Diskurs təhlilinin koqnitiv perspektivləri, Çaşıoğlu, Bakı, 2010

2. Balboni. E.P. "Parole comuni, culture diverse. Guida alla comunicazione interculturale", Venezia, Edizione Marsilio, 1999.
3. Bonomi Ilaria, Silvia Morgano, La lingua italiana e i mass media, Carocci Editori, Roma, 2017
4. Əfqan Abdullayev, Aktual üzvlənmə, mətn və diskurs, Bakı, 2011
5. Вежбицкая А. Язык. Культура. Познание. - М., 1997
6. Fikrət Cahangirov, Dil və Mədəniyyət, Elm və təsil, Bakı, 2014
7. Лакофф Дж., Джонсон М. Метафоры, которыми мы живем // Теория метафоры / под ред. Н. Д. Арутюновой, М. А. Журинской. М. : Прогресс, 1990. С. 387-416.
8. Paolo E. Balboni, La comunicazione interculurale, Marsilio Editori, Venezia, 2007
9. Юрков, Е. Е. Метафора в аспекте лингвокультурологии : автореф. ... дис. ... д-ра филол. наук : 10.02.01. СПб., 2012. URL: http://dissers.ru/avtoreferati- doktorskih-dissertatsii1/a358.php.106
10. Riccardo Gualdo, L'italiano dei giornali, Carocci editore, Roma, 2017
11. Тер-Минасова С.Г. Язык и межкультурная коммуникация. - М., 2000.
12. https://www.lastampa.it/
13. http://www.repubblica.it/
14. https://www.corriere.it/

A.Aliyeva

Political Metaphors as a Mirror of Culture

Summary

The paper *Political Metaphors as a Mirror of Culture* is devoted to the national-cultural features of metaphors. The paper investigates mainly the political metaphors used in Italian media texts. Firstly, general information about the investigation of metaphors in terms of cognitive, cultural, and linguistic aspects has been provided. The concept of cultural connotation in the field of linguocultural studies and the relationship of this connotation with the interpretation of the metaphors have been touched upon. The opinions of the scholars who conducted researches in this field have been grounded.

The political metaphors encountered in the Italian political texts have been analysed and their equivalents in the Azerbaijani language have been provided. Based on a number of newspapers selected from the Italian press, the metaphors employed by the famous Italian politicians have been studied. The domains such as construction, performance, sports, war, and religion which frequently used in the Italian political language have been involved in the research as well. The national-cultural features of the metaphoric expressions preferred by famous Italian politicians S.Berlusconi, M.Renzi, and M.Montini in their speeches have been explained.

The dominating power of the metaphors in the political texts has been emphasized by the examples provided in the paper and the impact of these devices on the public consciousness has been highlighted.

Keywords: anthropocentric paradigm, political language, political metaphor, manipulation, political panorama

А.Алийева

Политические метафоры как зеркало культуры

Резюме

Статья «Политические метафоры как зеркало культуры» посвящена национальным и культурным особенностям метафор. В статье представлены в основном политические метафоры, используемые в итальянских медиатекстах. Первоначально была дана общая информация о когнитивном, культурном и лингвистическом анализе метафор. Рассматривается понятие культурной коннотации в области лингвокультурологических исследований и ее связь с интерпретацией метафор, а также мнения ученых, которые проводили исследовании в этой области.

Были проанализированы итальянские политические метафоры в текстах, и даётся их перевод на азербайджанский язык. На основе нескольких газет, взятых из итальянской прессы, были изучены метафоры, используемые известными итальянскими политиками. В исследовании были приведены примеры из наиболее часто используемых доменов на итальянском языке как конструкции, сооружении, очки, спортивные игры, война и религия.

Выясняются национальные и культурные особенности метафорических выражений выдающихся итальянских политиков С. Берлускони, М. Ренци и М. Монтина. Посредством приведенных в статье примеров подчеркивается сила метафор в политических текстах и влияние на массовое сознание этих средств.

Ключевые слова: антропоцентрическая парадигма, политический язык, политическая метафора, манипуляция, политическая панорама

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 01.08.2019
Filologiya elmləri doktoru, professor Fikrət Cahangirov tərəfindən çapa tövsiyə olunmuşdur.

SƏNUBƏR MUSTAFAYEVA
ADU
Rəşid Behbudov 134
Xarici dillərin tədrisi metodikası kafedrasının baş müəllimi
sanubarmusatafayevasanubar111@mail.ru

ÖZ FİKRİNİ ŞİFAHİİFADƏ ETMƏ VƏ ONU İNKIŞAF ETDİRƏN ÇALIŞMALAR

Avropa Şurasının materiallarına əsasən (1995), anlama – təhlil və sintez qabiliyyətidir.

Fransız dilinin tədrisinin ilkin siniflərində "zehni" bir proses kimi qiymətləndirilən şifahi nitqin anlama (qavrayış) mərhələsi başlayır. Burada, məqsəd fransız dilinin səs tərkibini tanımaq, eşidilənləri anlamaq bacarıqlarını öyrətməkdir.

Didaktikaya görə, anlayışın 2 növü vardır : hissə-hissə və qlobal. Didaktikada müxtəlif növ təlimlər təklif olunur ki, bunlara : cümlələr, açıq suallar (tapşırıqlar), suallara cavab, əlavə cədvəllər və s. daxildir.

Texniki vasitələr danışma bacarıqlarının ortaya çıxmasında (görünüşündə) böyük rol oynayır. CD, kompüter, mobil telefon, planşet və s. xarici dil tədris vasitəsinə çevrilmişdir. Şagird materialı dinləyir, lazımi məlumatları seçir və səhvləri müəyyən etmək üçün bir səs yazısını qeydə alır.

Nəticədə deyə bilərik ki, şifahi nitqi anlamaq bacarıqlarına sahib olmaq, şifahi nitqdə düşüncələrin formalaşdırma qabiliyyətinin inkişafına səbəb olur.

Açar sözlər: oxuyub anlama, şifahi anlama, bacarıq, dil vahidləri

Müasir təhsil konsepsiyası dilin tədrisi zamanı aşağıdakı nitq bacarıqlarına yiyələnməyi əsas tutur:

1. Şifahi anlama
2. Oxuyub anlama
3. Fikrini şifahi ifadə etmə
4. Fikrini yazılı ifadə etmə

Müasir dövrdə nəşr olunan xarici dil dərslikləri, o cümlədən fransız dili dərslikləri kommunikativ yanaşma əsasında yazıldığından kommunikativliyin əsas mərhələlərindən biri olan "fikrini şifahi ifadə etməyə" xüsusi yer verilmişdir. Didaktikada bu proses "əqli əməliyyat" prosesi adlandırılır. Bu o deməkdir ki, dinləyici dinlədiyi mesajları, nitq vahidlərini identifikasiya edir, fərqləndirir, yaddaşında onları müqayisə edir və onu şərh etməyə çalışır. Daha sonra təsəvvüründə onu səsləndirir, canlandırır, fərziyyə və ya mühakimə iraəli sürür, təsvir edir və nəticə çıxarır.

Azərbaycan Respublikasının qəbul etdiyi Milli kurikulumun tələblərinə görə 1-ci, 2-ci siniflərdə yalnız şifahi anlama və fikri ifadə etmə mərhələlərinə geniş yer verilir. Burada əsas məqsəd şagirdlərin fransız dilinin səs tərkibini fərqləndirmə bacarığına və vərdişlərinə yiyələnməsi, dinlədiyini anlamasıdır.

Dinlənilən mətnlər şagirdlərin yaş səviyyəsinə uyğun olaraq bir neçə cümlə və ya kiçik ifadələrdən ibarət olur. Məsələn, 1 – ci sinifdə özünü təqdim etmə və ya salamlaşma, xudahafizləşmə, məktəb, ailə, şəhər və sairə kimi mövzularla başlı dialoji kiçik işlək nitq

etiketlərindən ibarət çox qısa mətnlərdən istifadə edilir. (4. prof. Ç.O.Babaxanova, dos. R.M.İsayeva, Orta ümumtəhsil məktəblərin 1,2 sinif fransız dili dərslikləri, 2014)

Proqramda göstərildiyi kimi fransız dili müəllimi sinfə daxil olur və şagirdləri fransızca salamlayır (bonjour). Şagirdlər ilk dəfə eşitdikləri fransız ifadəsini heç vaxt unutmurlar. Müəllim həmin ifadəni şagirdin ana dilinə tərcümə edir. Aparılan bu iş üsulu şagirdləri ilk gündən məşqə alışdırmaq məqsədi güdür.

Qui est absent ? Comment t'appelles – tu ?,

Lève –toi ! Assieds – toi ! Qui est de service ?

Ouvrez – vos livres ! Au revoir !

Müəllim belə ifadələri "kim yoxdur", "adın nədir", "qalx", "əyləş", "kim növbətçidir", "kitablarınızı açın", "xudahafiz" və s. ifadələri dərsdə işlətdikdə ilk nitq vərdişləri eşitmə yolu ilə aşılanmağa başlayır.

F.Ə.Seyidov şagirdlərin şifahi nitqinin inkişafı haqqında yazır : "Şifahi nitqə yiələnmək üçün ancaq sözləri bilmək kifayət deyil, şagird öyrəndiyi sözlərdən istifadə edib cümlə qurmağı və bu sözləri cümlədə əlaqələndirməyi də bacarmalıdır.

(2 .F.Ə.Seyidov. Şagirdlərin şifahi nitqinin inkişaf etdirmə yolları, 1967, səh. 68)

Təcrübədən göründüyü kimi, şagirdlər öz fikirlərini xarici dildə sərbəst ifadə edə bilmirlər. Buna görə də şagirdləri şifahi nitq bacarıq və vərdişlərinə yiyələndirmək üçün tədrisin ilk mərhələsindən onlara fonetik. lüğət və qrammatika sahəsində verilən biliklər praktik məqsədə yönəldilməli, bu biliklər şifahi nitq bacarıq və vərdişlərinə çevrilməlidir.

Şifahi anlama, əsasən nəzərdə tutulan mövzuya uyğun tərtib olunmuş şəkillər əsasında həyata keçirilir. Şəkillər şifahi anlamaya köməkçi vəsait kimi dialoqun məğzinin anlaşılmasına işarə edir. Şəkillərin rolu dinləmənin şifahi anlaşılmasını asanlaşdırmaq, eyni zamanda şagirddə mövzuya dair maraq oyatmaqdır.

Şifahi anlamaya tədrisin ilkin mərhələsindən başlanıldığından şagirdlər dinləmə strategiyalarına tədricən yiyələnirlər. Yəni, şagirdlərə əvvəl dinləmə bacarığı aşılanır, sonra isə anlama bacarığı qazandırılır. Burada mesajların hamısını tam anlamadan söhbət gedə bilməz. Ona görə ki, şagirdin hər sözün və ya ifadənin tərcüməsini soruşmağa meyl göstərməsi onda özünə inamsızlığa, müəllimdən asılılığa gətirib çıxarır.

Əksinə, şagird ana dilində olduğu kimi sinifdə və sinifdən xaricdə nə eşitdiyi və anladığı haqda fikir irəli sürürsə, deməli o, müstəqil şəxs kimi formalaşır və özünü fransız dilində yoxlayır. Bu, şagirddə tədrisin yuxarı pilləsində yeni strategiyaların inkişaf etdirilməsinə kömək edəcəkdir və dilin öyrənilməsində faydaları olacaqdır. Məsələn, şagird tədricən məlumatların nə zaman, harada, necə, nə üçün baş verdiyini anlamağı, onları ardıcıl düzməyi, qeyd götürməyi, müəllimin səsini dil daşıyıcılarının səsindən fərqləndirmə strategiyaları əldə edəcəkdir.

Orta məktəblərin yeni yazılmış fransız dili dərsliklərində (5. prof. B.B.İsmayılov, prof.Ç.O.Babaxanova, dos.R.M.İsayeva " Le français pour la IX, 2010") şifahi anlamanı təmin edən şagirdlərin yaş və bilik səviyyəsinə müvafiq müxtəlif tipli dialoji və ya monoloji autentik materiallar və anlama çalışmaları təqdim edilir.

Mətn və dialoqların şagirdlərə dinlədilməsi prosesi əsasən iki mərhələdə aparılır: qlobal anlama, hissə - hissə anlama.

Birinci etapda dərsliyə baxmadan mətn və dialoqlar dinlənilir. Bu zaman dərs materiallarının ümumi şəkildə anlaşılması nəzərdə tutulur. İkinci hissədə isə məlumat hissə - hissə səsləndirilir və autentik materialın tam detallarına qədər anlaşılması bir məqsəd olaraq qarşıya qoyulur. Aydındır ki, autentik dərs materiallarının anlaşılmasında onların həcmi, naməlum söz və ifadələrin qədəri də az rol oynamır. Şagirdlər məlumların köməyi ilə naməlumları təxmin edir və anlama çalışmaları etməklə tamamilə oynayır. Didaktiklər şagirdlərin yaddaşının iş salınması prosesini üç mərhələyə bölürlər:

Bilavasitə, birbaşa və qısa yaddaşın işə salınması.

1-ci mərhələdə fransız dilinin tədrisinin ilkin mərhələsidir. Şagird dinlədiyi qısa söz və ya səsləri müəyyənləşdirə bilir, tanıyır və yaddaşında saxlayır.

2-ci mərhələdə yaddaşın orta vəziyyəti işə salınır, yəni şagird identifikasiya edir, sintez etmək üçün nitq vahidlərini seçir, fərqləndirir. Şagirdin diqqəti danışanın səsinin intonasiyasına, ifadəsinə, musiqiyə və s. yönəlir, sonra autentik materialın növünə, nə vaxt baş verdiyi zamanına və mövzusuna yönəlir və bunları hafizəsində saxlamağa çalışır.

3-cü mərhələ isə yaddaşda söz və ifadələrin uzun müddətli toplanmasıdır. Bu mərhələdə anlama çalışmalarının rolu böyükdür. Didaktikada müxtəlif növ anlama çalışmaları, yanlış və ya doğru assosyativ çalışmalar, sıralama, açıq suallar, suallara cavab cədvəli doldurma və s.

Hər üç mərhələnin həyata keçirilməsi şifahi anlama və öz fikrini şifahi ifadə etmə prosesinin əsasını təşkil edir.

Oxuyub anlamanı təmin etmək məqsədilə isə bir sıra çalışma növləri göstərilir :

1) oxudan əvvəl aparılan çalışmalar

2) oxu zamanı aparılan çalışmalar

3) mətn əsasında aparılan çalışmalar

4) oxu üçün hazırlıq çalışmaları mətnin növündən və şagirdlərin yaş səviyyəsindən asılı olaraq seçilir.

1. Oxu mətnlərinə aid şəkilləri, fotoşəkilləri, yarım başlıqları elə seçməlidir ki, şagirdlər onlardan istifadə etməklə mətn haqqında əvvəlcə öz fikirlərini söyləyə bilsinlər.

2. Mətnin məzmununa dair şagirdlərə artıq məlum olan bəzi informasiyaları xatırlatmaq olar.

3. Oxunacaq mətnin mövzusunu izah etməklə şagirdləri müqayisəyə cəlb etmək və oxunacaq mətnə onların marağını artırmaq olar.

4. Mətnin mənasını özündə əks etdirən əsas söz və ifadələri verməklə, şagirdlərə mətnin məzmununa dair şəxsi fikir söyləməkdə kömək etmək olar.

Sonra mətnin məzmununu aydınlaşdırmağa xidmət edən suallardan və ya düzgün ya səhv fikri müəyyənləşdirməyə kömək edən çalışmalardan istifadə etmək olar. Məsələn:

1) mətnin mənasını müəyyənləşdirmək üçün suallar qurmaq ;

2) buraxılmış sözləri və ifadələri yerinə qoymağı bacarmaq;

3) hər hansı məlumatı dəqiqləşdirmək;

4) mətnin məzmununa dair plan tərtin etməyi bacarmaq;

5) mətnin növünü, janrını, məqsədini müəllimin köməyi ilə müəyyənləşdirməyi bacarmaq;

6) əsas qrammatik hadisələri bir – birindən ayırmağı bacarmaq və s. kimi çalışma növlərini nümunə göstərmək olar. Məsələn, 9 – cu sinif dərsliyində mətnin məzmununun başa düşülməsi üçün çalışmalar verilir, mətnin ümumi məzmununun anlaşılmasına xidmət edən, mətnin tam məzmununu açan, verilən arqumentlər əsasında mühakimə yürütməyi tələb edən çalışmalar belə çalışmalardandır.

Oxu prosesindən sonra isə mətnin anlaşılma dərəcəsini müəyyənləşdirməyə, mətnin qısa məzmununu yazılı şərh etməyə, oxunmuş mətndə olan qrammatik və leksik materialın seçilməsi (fellərin zamanını, şəxsini dəyişmək, konkret sözlərin sinonimini, antonimini, eyni kökdən olan sözləri seçmək və s.) bu tipli çalışmalar şagirdlərə hadisələrin harada və nə zaman baş verməsi haqda diskussiyaya girməyə imkan verir. Şagirdlər mətnə daha yaradıcı yanaşır və onların təfəkkürü və nitqi inkişaf edir.

Şifahi nitqi inkişaf etdirmək üçün istifadə olunan çalışmalardan biri də dialoq və şəkillər üzərində aparılan işlərdir. Uzun illər şifahi nitqin öyrədilməsi işi ilə məşğul olmuş C.B.Ablam yazır : “Müəllim şagirdin şifahi nitqini inkişaf etdirmək istəyirsə, o, bu işə aid xüsusi nitq çalışmaları, dialoqlar hazırlamalı və onu şagirdlərə icra etdirməlidir. Belə çalışma və dialoqlar

fəal nitqin yaranmasına köməklik göstərə bilər”.(8. С.В.Аблам, Интенсификация обучения иноязычной устной речи в школе. Минск, 1974)

Dialoqlar öyrənilmiş mətn, şəkil və müxtəlif mövzular üzərində qurula bilər. Şəkil şagirdləri yaradıcı fikirlər söyləməyə sövq edir. Şagirdlər şəkilə baxıb, oradakı əşya və hərəkətləri təsvir etməli, şəklə başlıq verməli və şəklin məzmunu haqqında öz fikirlərini söyləməyi bacarmalıdır.

Şəkil üzərində söhbətlər də aparmaq olar. Aparılan söhbətlər əsasında şagirdlərin söz ehtiyatı artar, cümlə qurmaq və danışmaq bacarıqları inkişaf edə bilər. Belə söhbətlər adətən sual – cavab şəklində qurulur. Verilmiş suallar ardıcıl və məntiqi cəhətdən bağlı olduqda mövzunun məzmunu əhatə edilmiş olur.

Tədris prosesində texniki vasitələr özünəməxsus yer tutur. Dil mühitinin yaradılmasında, dərslərin səmərəli keçirilməsində, tələffüz və intonasiyanın yaxşılaşdırılmasında, başqasının nitqinin başa düşülməsində, vərdişlərin avtomatlaşdırılmasında texniki vasitələr mühüm rol oynayır.

Mediasiya da şagirdlərin nitq fəaliyyətinin formalaşmasına xidmət edən kommunikativ təlim növlərindən biri olub, dilin mənimsənilməsi zamanı mühüm əhəmiyyət kəsb edir. Mediasiya sahəsində şagirdlər kiçik həcmli hər hansı mətni oxuya – oxuya və ya dinləyə - dinləyə qeyd götürməyi, götürdükləri qeyd əsasında həmin mətni şifahi və yazılı ifadə etməyi, verilmiş mətnin məzmununu əks etdirən əsas informasiyaları xarici dildə verməyi, interpretasiya və tərcümələr etməyi bacarmalıdır. Bütün bu metodik vasitələrdən istifadə etsək, xarici dilin tədrisi zamanı şifahi nitqin inkişafında müsbət nəticələr əldə edə bilərik.

Nəticə etibarı ilə deyə bilərik ki, şifahi anlama bacarığına yiyələnmə fikrin şifahi ifadə edilməsinə gətirib çıxarır. Başqa sözlə desək, şifahi anlama bacarığı fikrini şifahi ifadə etmə bacarığını formalaşdırır. Yəni hər bir şagird:

1. Nitqin dialoji və monoloji formasından istifadə etməklə, müvafiq şeiri, mətn parçasını, mahnısını və ya dialoqu söyləməyi bacarmalıdır.

2. Dinlədiyi və ya oxuduğu dialoq və ya monoloqun məzmununu öz bilik dairəsində, əldə etdiyi vərdişlər əsasında ifadə etməyi bacarmalıdır.

3. Gündəlik həyatda rast gəldiyi hər bir hadisəni başa düşüləcək tərzdə şərh etməyi bacarmalıdır.

4. Öyrəndiyi səsləri düzgün tələffüz etməyi, cümlələrin ritmi, səs tonu və səslənməsi, vurğu kimi danışıq üçün vacib olan elementləri yerli – yerində işlətməyi bacarmalıdır.

5. Haqqında bəhs etdiyi məlumatın əsas məğzini yığcam şəkildə ifadə etməyi, sadə sual – cavabdan şəxsi fikirlərini ifadə etməyə keçməyi, eyni bir fikri müxtəlif şəkildə ifadə etməyi bacarmalıdır.

Şagirdlərin produktiv fəaliyyətlərinin inkişaf etdirilməsi üçün verilən tələblərin həyata keçirilməsində çalışma növlərinin düzgün seçilməsi əsas rol oynayır. Belə ki, bu növ çalışmalar elə seçilməlidir ki, onlar danışıq vərdişlərinin inkişaf etdirilməsi üçün vacib olan şəraiti yaratsın. Tapşırıq şagirdi elə maraqlandırmalıdır ki, o, öz yoldaşı ilə danışmağa özündə maraqlı bir mövzu tapsın, deməyə sözü olsun, onun danışığı dinləyəni yormasın, bu danışıqdan özü və dinləyənlər zövq alsınlar.

Ədəbiyyat

1. La communication dans la classe de langue . Les éditions du Conseil de l’Europe, 1993.
2. F.Ə.Seyidov. Şagirdlərin şifahi nitqinin inkişaf etdirmə yolları, 1967, səh 68
3. S.H.Yusifov. Çalışma : Dil dərslərində ondan istifadə yolları. Metodik vəsait, Bakı, 2011

4. prof. Ç.O.Babaxanova, dos. R.M.İsayeva, Orta ümumtəhsil məktəblərin 1,2 sinif fransız dili dərslikləri, 2014
5. İsmailov B.B. , Babakhanova Ç.O., İssayeva R.M. Le français pour la IX, 2010
6. Orta məktəb proqramları. İngilis, alman fransız dili. Bakı, Maarif nazirliyi, 1973
7. R.Y.Barsuk, Azərbaycan məktəblərində xarici dil tədrisinin bəzi problemləri. Bakı, 1967
8. С.В.Аблам, Интенсификация обучения иноязычной устной речи в школе. Минск, 1974
9. A.Tahirov, Ə.Salayeva. Orta məktəbdə ingilis dilinin tədrisi metodikası, Bakı, 1978, səh.137

S. Mustafayeva

Exercises for oral performance development

Summary

According to the materials of European Council (1995) comprehension skill is the ability of analysis synthesis. Oral comprehension phase, defined as mental operation or analysis and synthesis ability , is given a start from the primary class of the French language. This phase aims to gain the students the skill and habits of differentiation of phonetics and help them conceive what they hear. As maintained by didactics there are two types of comprehension : global comprehension and comprehension in parts.

There are myriad comprehension tasks suggested in didactics: completing exercises, open – ended questions, answering the questions, filling up tables etc.

Technical equipment play an essential role in gaining oral comprehension skills; CD, computer, cell phones, tablets have already become an important means in learning a foreign language. Students listen to the necessary information via them and record their voices to correct their mistakes. As a conclusion, we admit that oral comprehension skills lead to rendering the ideas orally. In other words, oral comprehension skills forges oral expression skill of thoughts.

Key words : reading comprehension, oral comprehension, ability, language units

С. Мустафаева

Упражнения развивающие навыки устной речи

Резюме

Согласно материалом Совета Европы (1995) понимание является способностью анализа и синтеза.

Этап понимания (восприятия) устной речи , оцениваемое как “умственны процесс начинается еще в начальных классах обучения французскому языку. Здесь целью является обучение навыкам умениям распознания звукового состава французского языка, а также понимания услышанного.

По мнению дидактиков, существует 2 вида понимания: глобальное и частичное. В дидактике, предлагаются различие виды упражнений: на дополнение предложений , открытые вопросы (задания), ответы на вопросы, дополнение таблиц и т.д.

Технические средства играют большую роль в возникновении (появлении) навыков понимания устной речи. СД, компьютер, мобильний телефон, планшет и т.д. превратились в средства обучения иностранного языка. Ученик слушает материал, выбирает необходимую информацию, а также записывает голос с целью для выявления ошибок.

В результате, мы можем сказать, что обладание навыкам понимания устной речи приводит к развитию способности формирования мысли в устное высказывание.

Ключевые слова : понимание прочитанного, устная речь, способность, языковые единица

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 20.07.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Firuzə Köçərli tərəfindən çapa tövsiyə olunmuşdur.

YETAR AHMADOVA
AUL
R.Behbudov ST. 134
eteri_g@mail.ru

ON SOME BACKGROUNDS OF FORMATION OF THE NEW ZEALAND NATIONAL VARIANT OF THE ENGLISH LANGUAGE.

Summary

The article is dedicated to the peculiarities of the New Zealand English making, in particular, the main historical background is researched. The early national and cultural peculiarities of the New Zealand English are considered.The sociolinguistic status of English in New Zealand can be defined as the national version of English language as it is the official language of the country. This language is spoken by absolute number of residents of the state, it has a literary norm, performs a full range of social functions , also has a national and cultural specificity. In New Zealand the official language is also Maori and New Zealand Sign Language.There are many versions and opinions of different linguists scientists on this issue. For many years , the Cockney dialect was considered to be the basis for the formation of the English language. L. Bauer , E. Gordon put forward different version. They turn to the origin of a new Zealand national variant of English from the South - East English dialects. They explain this by the following reasons: transplantation of South – Eastern dialects, through intensive immigration of early settlers; transplantation of the above - stated dialects trough Australia to New Zealand; the process of new dialect formation; independent process of language development.

Important in the article is the opinions and different approaches of linguists and historians to this problem.

Key words: national variety, national and cultural peculiarity, proper national norm, dialect, pronunciation norm.

England's global foreign policy interests in the 18th and 19th centuries led to the formation of national variants of English in the USA, Canada , New Zealand and Australia. In her research, Shahbagova D.A. notes that all national variants of English have passed similar stages of development. They are the following: 1) the period of transplantation and adaptation of the English language in the new conditions of functioning; 2) the period of formation of national variants of the English language; 3) the period of independent functioning of national variants of English. [1, p. 51-57] .

Today, the new Zealand national version of the English language is of particular interest. This national variant is little studied in comparison with other national variants of English.

The sociolinguistic status of English in New Zealand can be defined as the national version of English language as it is the official language of the country. This language is spoken by absolute number of residents of the state, it has a literary norm, performs a full range of social functions , also has a national and cultural specificity. In New Zealand the official language is also Maori and New Zealand Sign Language.

The need to study this topic was caused by a controversial approach to the national version of the English language in New Zealand. The existence of the new Zealand national option has been questioned for a long time. Many linguists were skeptical about this variant of

the English language. But with the growth of national consciousness, there is a need for a scientific approach to this problem. The fact is that there are many loanwords from the Maori language as New Zealand has a rich flora and fauna. In the life of Europeans appeared new plants and animals, the name of which was not in English and other European languages. Also in the last decades there have been significant changes in the socio-economic situation, which led to the revival of the Maori language and culture.

There are many versions and opinions of different linguists scientists on this issue. For many years , the Cockney dialect was considered to be the basis for the formation of the English language.

Professor of the University of Canterbury, A. Wally, in his work ‘’ New Zealand English: how it should be spoken’’, wrote that… ‘’ about 80% of New Zealand’s population speaks a London dialect or Cockney accent’’. [2, p. 32]. The main ideas of this scientist boiled down to the fact that the features of the speech of the first settlers were similar to the special pronunciation of the speakers of the London vernacular. A. Wally is a founder of the version of the origin of the New Zealand national variant from the Cockney dialect.

L. Bauer , E. Gordon put forward different version. They turn to the origin of a new Zealand national variant of English from the South - East English dialects. They explain this by the following reasons: transplantation of South – Eastern dialects, through intensive immigration of early settlers; transplantation of the above - stated dialects trough Australia to New Zealand; the process of new dialect formation; independent process of language development.

In the works of new Zealand historians such as K. Pickens , R. Arnold , P. Trujillo , emphasizes the idea that the basis for the formation of the early new Zealand national version of English was the dialect base of the South – Eastern counties of England. Pickens K. points out that in the mid- 19th century 54% of New Zealand population were immigrants from England, 16% from Ireland and 15% from Scotland. [3, p. 23].

In the early 80’s of the 20th century , new Zealand linguists L. Bauer , E. Gordon did not rule out the hypothesis that the Australian version formed the basis for the formation of the new Zealand national version of English. According to L. Bauer , English in New Zealand is an imported version of Australian English. [4, p.42].

During the analysis of linguistic literature, many scientists pay attention to the phonetic and lexical similarity of the Australian and new Zealand national version of English. The main prerequisites that determined this theory were the

Influx of early settlers from Australia to New Zealand and the development of their own local norms of the Australian national version of English in 1920s. According to the comments of historical and ethnographic nature in 1850-80s, in the speech of the first generation of new Zealanders not traced dialect characteristics, which spoke their parents.

The greatest activity of the processes of formation of the new Zealand national version of the English language falls at the end of the 19th and beginning of the 20th century. Actually linguistic processes are reflected in the deviation from the British language.

Long-term socio-economic contacts with Australia are reflected in the nationally marked vocabulary of the new Zealand version of the English language, primarily in the emergence of a number of dialect words of UK, which have become widespread in Australia. For example:

dincum- honest, good; paddock – enclosed grounds; cow cockey- farmer; old identity – the first settler; big bikkies – large amount of money; to swag – tie in a knot; tucker – diet, meal; wowser – hypocrite, bigot; skite – a boastful man; billy – pot; stoush – struggle. It should be noted that many of these words, which used in both Australian and new Zealand national versions of the English language, were borrowed from the vocabulary of British dialects.

The British colonizers launched a process of political, economic, cultural integration, inter – ethnic consolidation and the construction of new cities throughout the country. British linguist Crystal D. notes that New Zealand is linked to the UK by a strong sense of historical kinship and common British values. [5].

English language has surpassed the Maori language in scope and scope, thus displacing the Maori language into unequal position. English has become the language of public administration, documentation , education, science, and the media.

Relations with Great Britain have become an important part of the cultural self-determination of new Zealand society. It is the image of England has always been a source of effective economic achievements and literacy.

The specific features of the early new Zealand national version of the English language were formed within 20-30 years. The actual linguistic processes of divergence began in 1900. The main reason for divergent processes was the functioning of the new Zealand national version of English in the specific conditions of New Zealand.

British literary standard during the long period of colonization of New Zealand maintained a high social prestige, exerting a unifying influence on all levels of the language structure of the national variants of the English language. The main lexical and phonetic innovations in the national version of the early period of formation arose on the basis of the literary language of Great Britain, and the peculiarities of pronunciation of the new Zealanders were perceived as errors and vulgarisms.

As you know, in each element of the language

structure in the process of its formation reflects the social activities of the speech collective in the form of phonetic and lexical units. It is quite obvious that by this time in the new Zealand pronunciation norm there were certain features of differentiation from the British national version of

English.

Increased interest in the prospect of development of the new Zealand national version of English in the early of 20th century was due to the rise of national consciousness. Specific activities of the Ministry of education of New Zealand in 1925 were aimed at eliminating pronunciation problems and standardizing language tools.

In the same year, the government issued a speech practice Bulletin in which English - speaking new Zealand students were taught English as a foreign language, with clear guidelines to be followed for the correct pronunciation and use of English words. Various practical books and manuals have been published to teach new Zealand students the correct pronunciation of diphthongs and vowels.

Orientation to the standard of the British pronunciation norm was considered as the main way to quickly achieve the intended goals.

The British norm of pronunciation has realized as a standard against other local forms of speech. The introduction of this form of speech meant an increase in the communicative value of the English language. Cultural, socio – economic and political changes contributed to the rapid growth of national consciousness of the new Zealand language community.

The new Zealand national version of English acquired its own linguistic self - identification together with the state separation in 1907, when New Zealand was granted dominion status. In the conditions of independent functioning of the new national version of the English language has acquired national and cultural characteristics at all language levels.

In this political – territorial association there was a formation of the national literary norm supported was realized by native speakers. The basis of the historical formation of the new Zealand national variant was the literary English of Great Britain.

Literature:

- Шахбагова Д.А. Детерминанты конвергентно – дивергентных процессов развития национальных вариантов английского языка // Всесоюзная конференция ‘’Проблемы вариативности в германских языках.’’ – М.: Инст-т языкозн.АН СССР, 1988.- с.51-57.
- Wall A.’’ New Zealand English: How it should be spoken.’’ – Christchurch: Whitcombe and Tombs, 1939.- p. 32.
- Pickens K. ‘’The origins of the population of the nineteenth century Canterbury’’// New Zealand geographer.№ 33.- Wellington, 1977.- p. 23.
- Bauer L. English in New Zealand // The Cambridge history of the English language. № 5: English in Britain and overseas: origins and development. - Cambridge: Cambridge university press, 1994. – p. 42.
- Crystal D.’’ English as a global language.’’ – Cambridge: Cambridge university press, 2003.

Е.Ахмедова

К некоторым предпосылкам возникновения новозеландского варианта английского языка.

Резюме

Статья посвящена особенностям становления английского языка в Новой Зеландии. В ней раскрываются некоторые предпосылки зарождения новозеландского национального варианта английского языка. Рассматривается национально – культурная специфика функционирования языковых средств в новозеландском национальном варианте английского языка на начальном этапе становления.

Выявлено несколько этапов развития данного национального варианта. Основными предпосылками возникновения новозеландского национального варианта является в первую очередь исторический фактор. Происходит колонизация Новой Зеландии Великобританией.

Второй фактор географический, т.к. Новая Зеландия обладала богатой флорой и фауной. Появился новый растительный и животный мир, название которых не было ни на английском, ни в других европейских языках. Третий фактор лингвистический. На английский язык оказывает влияние язык племен маори. Было много заимствований из языка племен маори. Это также сыграло немаловажную роль в возникновении новозеландского национального варианта английского языка. Социолингвистический статус английского языка может быть определен как национальный вариант т.к. он является официальным языком данной страны. Данный вариант имеет литературную норму, а также выполняет полный спектр социальных функций.

Важным в статье является мнения и разные подходы ученых лингвистов, а также историков к данной проблематике.

Ключевые слова: национальный вариант, национально- культурная специфика, национальная литературная норма, диалект, произносительная норма.

Y. Əhmədova

İngilis dilinin Yeni Zelandiya milli variantının yaranmasının bəzi səbəbləri.

Xülasə

Məqalədə Yeni Zelandiyada ingilis dilinin yaranması xüsusiyyətlərinə həsr olunur. Məqalədə ingilis dilinin yeni Zelandiya milli variantının əsas yaranma səbəbləri təhlil olunur.

Eyni zamanda məqalədə ingilis dilinin yeni Zelandiya milli variantında dil vahidlərinin milli-mədəni xüsusiyyətləri araşdırılır.

Bu milli variantının inkişafının bir necə mərhələsi aşkar olunub. Birinci mərhələyə tarixi amil qoyulur. Yeni Zelandiyanın müstəmləkələşdirilməsi baş verir. İkinci mərhələdə coğrafi amil göstərilir. Yeni Zelandiya zəngin flora və faunaya malikdir. Yeni bitki və heyvan dünyası ortaya cıxır və onların adı nə ingilis nə də digər Avropa dillərində var idi. Bu səbəbdən Maori qabilələrinin dilindən yeni sozlər transfer olunur ingilis diline. Ücüncü mərhələdə isə lingvistik amil göstərilir.

Beləki, Maori qəbilələrin dili ingilis diline öz təsirini göstərir Qeyd etmək lazimdi ki , bu amil ingilis dilinin Yeni Zelandiya milli variantının yaranmasında mühüm rol oynayıb. İngilis dilinin sosiolingvistik statusu Yeni Zelandiyanın milli variantı kimi müəyyən edilə bilər, cünki bu, həmin ölkənin rəsmi dilidi.

Bu variant ədəbi normaya malikdir, həmcinin sosial funksiyaların tam spektrini yerinə yetirir. Məqalədə dilci alimlərin bu problemə olan fikirləri və müxtəlif yanaşmaları mühüm əhəmiyyət kəsb edir.

Acar sözlər: milli variant, milli - mədəni spesiflik, mili ədəbiyyət norması, dialekt, tələffüz norması.

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 01.08.2019
Filologiya üzrə fəlsəfə doktoru Cəvahir Yaqubova tərəfindən çapa tövsiyə olunmuşdur.

NAHİDƏ İMANOVA
ADU
R.Behbudov ST. 134
nahida@mail.ru

VİRTUAL DÜNYADA NİTQ VƏ YAZI ARASINDAKI ƏSAS FƏRQLƏR

Xülasə

İstər real dünyada, istərsə də virtual dünyada insanlar arasındakı qarşılıqlı əlaqə danışığa və yazıya əsaslanır. D.Kristal "İngilis dilinin Kembric ensiklopediya"-sında yazır: "Speech is typically time-bound, spontaneous, face-to-face, socially interactive, loosely structured, immediately revisable, and prosodically rich. Writing is typically to be space-bound, contrived, visually decontextualized, factually communicative, elaborately structured, repeatedly revisable, and graphically rich language means" (2, s.28). Şəbəkə dilini maraqlı edən odur ki, bu dil hər iki tərəfə (həm nitqə, həm də yazıya) aid olan xüsusiyyətlərə əsaslanır (2, s.28).

Elektron poçtlar, çat qrupları, veb səhifələrin ümumilikdə bir cəhəti var. Onlar hamısında elektron qarşılıqlı təsir müşahidə edilir. Bu cür elektron qarşılıqlı təsirlərdə mövzu tamamilə xəyali olur. İştirakçılar arasında baş tutan bütün kommunikasiya yalnız virtual dünyanın qəhrəmanlarına, hadisələrinə və mühitinə istinad edir. Bu virtual dünyalar müxtəlif adlarla adlandırıla bilər. Belə virtual dünyalardan biri ingilis dilində qısaldılmış şəkildə yazılan MUDs-dir. Bu termin Muds şəklində də yazılır.

MUD termini mənşə etibarilə "Multi-User Dungeon" mənasını verir. Sözlərin izahını verək: Dungeon 'əşdaha', Multi-User isə 'çox istifadəçi' deməkdir. Yəni: "Əşdaha adı altında oynalılan oyunun çox istifadəçiləri" mənasını verir. Termin 1970-ci illərdə məşhur olan fantastik oyunu təsvir edir. Həmin zamandan günümüzə qədər bu cür oyunlar (ingilis dilində onlara "D and D games") kütləvi şəkildə oynanılır. Bu oyunların konseptinə qorxu, tarix, elmi ədəbiyyat və başqa sahələr daxildir. Bunların hər birinin eyni orientasiyası var. Bu cür oyunlar ya qrup şəklində, ya da daha çox insanlar arasında oynanılır. Bu cür oyunlarda iştirakçılar həm yazıdan, həm də danışıqdan istifadə edirlər.

Açar sözlər: virtual dünya, nitq, yazı, fərq, oyun, şəbəkə dili

İnternet yazı sisteminin öyrənilməsində insan mədəniyyətinin təkamülü və mənşəyinin çox əlamətləri müşahidə edilir. İnternet yazı sistemini bir neçə kateqoriyaya bölmək olar (3, s.37): 1. Piktoqrafik yazı: bu sistem şəkilli işarələrindən ibarət olur. Onlar əks etdirdiklərini, göstərdiklərini xatırladır; 2. İdeoqrafik yazı: bu sistem şəkillərin və simvolların işlədilməsini əhatə edir. Onlar obyektləri və ideayaları piktoqrafik birləşdirməklə təqdim edirlər; 3. Növbəti sistem sillabarilər (hecalar) adlanır. Bu sistem hecaları göstərmək üçün birləşən işarələrdir; 4. Loqoqraflar: bu sistem birbaşa referenti göstərən simvollardan deyil, sözləri göstərən simvollardan ibarətdir; 5. Hərflər – bu sistem standard hərf yığınından ibarətdir. Bu hərflər qrafemlər adlanır. Onlar fonemlərin (məsələn, fərqli xarakterə malik olan sait və samit səslər) yazıdakı işarələridir.

Qrafemlər müəyyən işarələr yığınından ibarət olur. Məsələn, təxminən iyirmidən otuz beşə kimi. Onlar dildə olan sözləri yazmaq üçün işlədilir. Hecalarda isə dillərdən asılı olaraq təxminən yüzdən çox simvol vardı. Qrafemlərdə durğu işarələri adı ilə tanınan qrafik simvollar işlədilir. Onlar əsasən yazılı mətnin düzgün tərtibatına köməklik göstərir. D.Kristal yazır ki,

internet ünsiyyətində durğu işarələri intonasiya, fasilə kimi prosodik vasitələrin yerinin düzgün müəyyən edilməsində əhəmiyyətli rol oynayır (3, s.35). İnternet əlifba yazıları xətti hesab edilir, çünki yazılan mətnlər hər hansı bir sistem ardıcıllığı ilə, yəni xətti sistem üzrə yazılır. Məsələn, soldan sağa, yaxud sağdan sola, yuxarıdan aşağı, yaxud aşağıdan yuxarı. Qeyri-əlifba sistemlər isə istiqamət bildirən xəttilikdən asılı olmur. Çünki bu zaman simvollar səslərə nisbətən konseptləri daha aydın əks etdirir. N.Baron bu barədə yazır: "Əlifba yazısına məxsus olan əsas xüsusiyyət onun təsvir etdiyi dilin sintaksisi ilə uyğunlaşmasıdır. Bu zaman bəzi qaydaya uyğun olan müddəalara görə, tək fikirlərin birləşmələri mürəkkəb birləşmələrə çevirilir. Bu o anlama gəlir ki, piktoqrafik sistemlər canlı dilin sintaksisindən çox asılı olmur" (1, s.65). D.Diringer də bu məsələyə münasibətini bildirərək yazır: "Onlar (piktoqramlar) epizodların və hərəkətlərin ardıcıl sisteminin təqdimatını göstərmək qabiliyyətinə malikdir" (6, s.21).

Tədqiqatlar göstərir ki, vizual və fonetik yazı sistemi arasındakı balans yazının tərtibatında və üslubunda modallığı ortaya çıxardır (7, s. 19). Məsələn, maya dilində yazıya əsaslanan xeyli sayda fonetik simvollar mövcuddur. Bu fonetik simvollar piktoqrafik işarələrlə yanaşı işlənə bilir. Piktoqrafik işarələr dinamik yazılar üçün nəzərdə tutulur. Bir çox insan üçün onları bu cür oxumaq daha asandır. Bu səbəbdən də maya yazı sistemi hibrid, yaxud "qarışıq-modal" tiplidir. Bu zaman bir dilə məxsus olan yazı digər dilin yazısının başa düşülməsini asanlaşdırır (3, s.8).

Ən qədim "qarışıq-modal" yazı sistemi misir hiyeroqlifi olmuşdur (6, s.102). Təxminən eramızdan əvvəl 2,700-dan 2,500-ci illərə kimi misir hiyeroqlifləri əsasən ikonik formada olmuşdur. İkonlar konkret referentləri göstərmək üçün işlədilir. Məsələn, göz, zürafə, ayaqqabı, çörək, fleyta və s. Sonralar tədricən sistemdə mücərrəd referentləri təqdim edən saysız-hesabsız ideoqraflar yaranmağa başladı. Məsələn, qışqırtı, gəzinti, fasilə, göz qırpma və s. Konkret isimlər əsasən piktoqraflar, feillər isə ideoqraflar vasitəsilə cizilirdi (8, s. 364).

Müasir internet yazılarının çoxu qarışıq-modallıqdan daha çox ikilimodal tərkibli olur (11, s.180). İkilimodallığa yazının iki növü daxildi. Məsələn, yapon dili iki tam heca ilə yazılır- hiraqana və katakana. Bu hecalar əsasən çin dilindən götürülmüş işarələri tamlaşdırmaq üçün işlədilir. Deməli, yazı danışığı göstərmək üçün işlədilən ixtiyari vasitə hesab olunmur. O, (yazı) əsasən məlumatı kodlaşdırmaq üçün işlədilən mədəni vasitə hesab edilir (8, s. 8).

İlk alfabet sistem *abjad* olmuşdur (12, s. 100). Bu sistemdə bir simvol xüsusi samiti əks etdirir. *Abjad* yazı sistemi Yunanıstana çatanda sait simvollar da sistemə əlavə edilməyə başlandı. Bununla da daha mürəkkəb alfabet yazı sistemi yaranmağa başladı. Dünyanın digər yerlərində *abugidas* adlı yazı da mövcud olmuşdu. Bu yazının da samitləri əks etdirən simvolları mövcuddur. Bundan başqa, əlamətləri göstərən yazı da mövcud olmuşdu. Bu sistemdə simvollar səslərdəki fonetik xüsusiyyətləri əks etdirir (12, s.20). Məsələn, "dodaq" samitlərini, yaxud saitləri ayrıca vermək olur. Ən yaxşı cizgili yazı sistemi koreya dilinə aid olan *hangul* sistemidir. Bu sistemdə simvollar söz yazmaq üçün alfabet işarələrini sillabik bloklarla işlədir (3, s.8).

Fərqli mədəniyyətlərin internet yazışmalarını tədqiq edən M.Danesi və P.Paul yazırlar ki, romalılar yunan yazısını qəbul edəndən sonra əlifba yazısı qərb yazı praktikasında norma hesab olunmağa başlandı və bu, internet yazışmalarında oxşar simvollardan istifadədə müşahidə edilir (5, s.89). Hər bir alfaba işarəsi daha əvvəlki piktoqrafın üslubi dəyişikliyinin simvolik qalığı idi. Məsələn, alfabet işarə olan "A" Misirdə öküzün başını əks etdirmək üçün işlədilirdi. Eramızdan 1,000 il əvvəl sağdan sola istiqamətdə yazılan finikiya yazısı kənarlardan ox çəkməklə müşahidə olunmağı başladı. Əyilmiş finikiya fiquru sözün ilk hərfini göstərmək üçün işlədilməyə başlandı. Məsələn, *aleph* sözü üçün *a.* Soldan sağa yazan yunanlar finikiya fiqurunu fərqli yolla işlətməyə başladılar. Eramızdan 500 il əvvəl A bugünki roma yazısında olduğu kimi düz vəziyyətdə işlədilirdi (4, s.33).

İnternet dilində işlədilən əlfaba yazı sistemi tədricən digər fərqli simvollarla qarışmışdır (7, s.149). Durğu işarələri danışığın (prosodik xüsusiyyətlər, məsələn, intonosiya, fasilə və s.) qeyri-seqment xüsusiyyətlərini göstərmək üçün işlədilir. Saylar və digər qeyri-alfabetik simvollar həmçinin geniş alfabet simvollarda müşahidə edilir (8, s. 150). Məsələn, faiz işarəsi: "%", valyuta işarələri: "$", "€" və digər müxtəlif işarələr. İngilis dilində "and" (və) işarəsini göstərən "&" və "at" sözünü göstərən "@" simvolu və s. nümunə verə bilərik (3, s.9). İstənilən yerdə internet dilinin, ünsiyyətinin araşdırılması, təsvir və təhlil edilməsi internet dilçiliyi üçün tədqiqat obyekti olur. Hazırda bu problemlə üzbəüzük.

Piktoqrafik yazı sistemi digər filogenetik növlərdən əvvəl işlənmişdir. Bu yaranma halı alimlərin iddia etdikləri kimi "tarixdən əvvəlki incəsənət" hesab edilir. F.Veysəlli bununla bağlı yazır: "Yazının və incəsənətin eyni ümumi mənşəyi vardır" (13, s. 17). Biz də bu fikirlə razılaşmalı oluruq. Günümüzdə intuitiv olaraq şəkil yazısının istənilən növünü, o cümlədən də emojiləri dərk edə bilirik. D.Kristal yazır: "Şəkli yazı instinkti görünür ki, insanın qanında vardır" (3, s.88). Uşaqlar ilk sözlərini deyən zamandan onlar heç bir məşq görmədən korazehin olaraq cızma-qara ilə məşğul olurlar. Bu da ona əsas verir düşünək ki, D.Kristalın iddia etdiyi kimi, bu qabiliyyət insanlarda doğuşdan mövcuddur və hazırda yazıya bu cür insan qabiliyyətinin yol açması bizi təəccübləndirməməlidir. Bu cür düşənənlər çoxdur. Bəzi alimlər iddia edirlər ki, bu vərdiş insanların qeyri-şüuri olaraq keçmişindən təzahür edən formadır və instinktiv olaraq uşaqlarda da müşahidə edilir (3, s.12). M.Danesi bununla bağlı yazır: "Arxeoloji araşdırmalar göstərir ki, insan cəmiyyətinin müəyyən atributları, məsələn, düşünmək qabiliyyəti, yaxud şüurlu olaraq nəyişə planlaşdırmaq və vərdişlərin bir-birinə ötürülməsi və s. kimi faktorlar dilin yaranması ilə bərabər ortaya çıxmışdı. Bu hal da verbal və qeyri-verbal (məsələn, jestlər və s.) formalarla insanlar arasından bir-birinə ötürülür" (4, s.5).

İnternetin özünəməxsus dili olduğu artıq isbatını tapmışdır. İnternet dilinin danışıq və yazı ilə oxşar və fərqli cəhətləri vardır. Əsas oxşar olan məsələ budur ki, yazıda ənənəvi situasiyalarda fərq hiss olunmur. Məsələn, hüquq dili, jurnalistlərin dili və s. Elektron poçt ünvanlarında, çatda (danışıqda), qısaldılaraq yazılmış mesajlarda danışığın əsas keyfiyyətləri əks oluna bilir. Bu cür yazılarda zaman nəzərə alınır, gözlənilən, yaxud tələb olunan cəld cavablara ehtiyac duyulur. Bu cür cavablar şəffaf olur. Bu mesajların tez silinməsi, bəzi hallarda diqqətdən kənarda olması onlara tez vaxt ayrılmasını tələb edir.

Danışıqla əlaqəli olmaq baxımından skayp (Skype), feysbuk (Facebook) və internet danışığı (iChat) kimi vizual görüntülü danışıqlar üz-üzə olan danışıqları olduğu kimi əks etdirə bilir. Vizual görüntü olmayanda cəld mesajlaşma təxminən dinamik güclə həyata keçirilir. Bu da söhbətin baş tutmasına gətirib çıxarır. Twitter və digər sosial şəbəkələrdə vaxtdan asılı olaraq hərəkətlilik müşahidə olunmur. Sosial şəbəkələrdə insanlar adətən gələn mesajlara dərhal cavab verirlər. Elektron poçtlarda isə bəzi hallarda cavabların gecikməsini müşahidə etmək olar. Bloqqin və bir çox veb səhifələrdə cavabların verilməsi onu qəbul edənin seçimindən asılı olur, qəbul edən cavabı vermək istəsə belə, bəzi hallarda onu tam mənası ilə və vaxtında göndərə bilmir.

İnternet yazılarında oxşar əlaqələr tam anlamı ilə müşahidə olunmur. Əgər kimsə e-poçt ilə mesaj göndərirsə, bu zaman həmin mesajda yazılan mətnin məzmunu digər bir mətnin məzmunu ilə eyniyyət təşkil edə bilməz, çünki digər resipient yazılan mesajdan xəbəbdar ola bilməz. Hətta tələsik yazılan mesajlaşmalarda belə digər bir mesajlarla əlaqəni müşahidə etmək mümkün deyildir. D.Kristal haqlı olaraq iddia edir ki, hətta skayp kimi görüntülü danışma vasitələrində belə söhbət iştirakçıları bir-biri ilə tam anlamda əlaqəsi olan eyni danışıq, yaxud yazı üslubunu işlədə bilməz (82, s.22). Gəlin canlı ünsiyyətlərimizi, yəni üz-üzə söhbət etdiyimiz bir neçə vəziyyəti xəyalımızda canlandıraq. Bir qədər əvvəl dediyimiz, cümləni, sözü əgər qarşı tərəf eşitməyibsə, olduğu kimi təkrar etməyə məcbur deyilik. Texnologiya

yetkinləşdikcə, hər şey dəyişdiyi kimi, intenet söhbətlərinin quruluşunda da dəyişiklik müşahidə etmək mümkündür. İnternet söhbətlərində bizim gündəlik danışıqlarımızda öyrəşdiyimiz, cəld qarşılıqlı cavabdehlik üslubu çatışmır, yaxud müşahidə olunmur.

Bu cür üslubların dilçilik baxımından araşdırılmasına ehtiyac vardır. D.Kristal yazır: "Qeyri-rəsmi söhbətlərin vacib xüsusiyyətlərindən biri onların reaksiya siqnallarının olmasıdır, şərh üslubları, ayrıcı sual formalarının (məsələn, "*mmm*", "*aha*", "*you know*", "*isn't it?*") və s. vasitələr danışanı lazım olan təminedici əlaqə ilə təmin edir. Lakin bu cür əlaqələrin müşahidə olunmadığı situasiyalarda bir qədər çatışmazlıq müşahidə olunur. Bu zaman biz təsviredici vasitələrə ehityac hiss edirik" (8, s.22). Bəzi alimlər iddia edirlər ki, bu xüsusiyyətlərin çatışmamasının səbəblərindən biri bir çox internet interaksiyalarının kəskin, soyuq, yad, yaxud antaqonistik qavranılmalarına, başa düşülmələrinə şərait yaradır.

Bu vəziyyət belə izah oluna bilər ki, sən telefoda kiminləsə danışırsan, o da sənin söhbətlərinə heç bir reaksiya göstərmədən qulaq asır. Təbii ki, bu cür üslubun narahat və qeyri-təbii vəziyyət yaratmasını vurğulamağa ehtiyac yoxdur. Danışq zamanı belə çatışmazlığın müşahidə olunması dilimizi digər hallarda olduğundan daha biçimsiz edir, deyə bilərik.

Yazı sistemi modallığı, yaxud yazı üslubunu genişləndirməklə inkişaf edir. İlkin yazı sisteminin modallığı əsasən ikon formasında olmuşdur. İkon formalar oxşarlıq yolu ilə bir məfhumu göstərmək üçün işlədilir. Məsələn, *günəş* ikonu günəşi olduğu kimi əks etdirir və s. Əhatə dairəsini genişləndirmək üçün bu sistemlər də inkişaf edirlər, məsələn, xüsusi elementləri, yaxud digər sosial ehtiyacları əks etdirmək üçün yeni simvollar yaranır və s. İşarə sistemləri barədə ilk əhatəli araşdırma C.S.Pirsin əsərlərində rast gəlinib. C.Pirsin araşdırmalarından əvvəl ikon termini qorxulu fiqur surətlərini göstərmək üçün işlədilirdi. Bu termin hazırda da belə işlədilə bilir. Dini ikonlar əsasən dini fiqurları göstərir, lakin hər bir fiqurda xüsusi fərqləndirici detallara rast gəlmək olur. Dini ikonlardakı üz ifadələrində əsasən qaraqabaqlıq və dindarlıq ifadəsi əks olunur. Bu o səbəbdəndi ki, onlar öz referentlərinin əsl reproduksiyaları deyildir. Onlar əsasən eskiz, yaxud cizgi formasında çəkilirdi.

İstifadə edilmiş ədəbiyyat:

1. Baron N. Always on: language in an online and mobile world. Oxford: Oxford University Press, 2008, 304 p.
2. Crystal D. The Cambridge Encyclopedia of Language. Cambridge: Cambridge University Press, 3rd edition, 2010, chaper 57, 1036 p.
3. Crystal D. Txtng. Oxford: Oxford University Press, 2008, 256 p.
4. Danesi M., Paul P. Analyzing Cultures. Bloomington: Indiana University Press, 1999, 413 p.
5. Danesi M. On the Metaphorical Connectivity of Cultural Sign Systems. "Signs and Society" 1, Toronto: University of Toronto Press, 2013, p. 33-50.
6. Diringer D. The alphabet: a key to the history of mankind. Volume 1. Britain: Funk and Wagnalls Press,1968, 473 p.
7. Everett A. Digitextuality and click theory: these on convergence media in the digital age. In A.Everett and Jon T.Caldwell (eds.), New Media: Theories and Practices of Digitextuality. New York: Routledge, 2003, 274 p.
8. Fromkin V., Rodman R. An Introduction to Language. USA: Harcourt Brace College Publishers, 1993, 544 p.
9. Mahmudov M. Ə. Kompüter dilçiliyi. Bakı: Elm və Təhsil, 2013, 352 s.
10. Russell P. The Global Brain. New York: Tarcher, 1983, 228 p.

11. Saenger P. Space Between Words: The Origins of Silent Reading. Standford, CA: Standford University Press, 1997, 480 p.
12. Sapir E. Language. New York: Harcourt, Brace, and World, 1912, 200 p.
13. Veysəlli F.Y. Dilçilik Ensiklopediyası. I cild. Bakı: Mütərcim, 2006, 514 s.

N.Imanova

The differences between speech and writing
in virtual world

Summary

The article deals with the differences between speech and writing in virtual world. It states that the internet is an electronic, global and interactive medium, and each of these properties has some consequences for the kind of language found there. The article draws attention to the differences between speech and writing. It states that speech is typically time-bound, spontaneous, face-to-face, socially interactive, loosely structured, immediately revisable, and prosodically rich. Writing is typically to be space-bound, contrived, visually decontextualized, factually communicative, elaborately structured, repeatedly revisable, and graphically rich language means. The article states that e-mails, chatgroups, and the Web have one in common. They are all electronic interactions.

The language of virtual world is stated to totally imaginary. The internet writing system can be divided into some groups. They are: pictographic writing; ideographic writing; logographs, alphabets, etc. It states that graphic may refer to all aspects of written language such as typewritten, handwritten, and printed text. It states that typewritten text is not observed to be relevant. A lot of new facts about the language of the virtual world have been touched upon in the article. The lists of literature cover the sources having referred to in the article.

Key words: virtual world, speech, writing, difference, game, netspeak

Иманова Н.

Отличия между устной и письменной
речью в виртуальном мире

Резюме

В статье рассматриваются различия между устной и письменной речью в виртуальном мире. В нем говорится, что Интернет является электронной, глобальной и интерактивной средой, и каждое из этих свойств имеет некоторые последствия для типа языка, который там встречается. В статье обращается внимание на различия между устной и письменной речью В нем говорится, что устная речь, как правило, ограничена во времени, спонтанна, лицом к лицу, социально интерактивна, слабо структурирована, сразу же доступна для пересмотра и просодически богата. Письменная речь, как правило, должна быть пространственной, надуманной, визуально деконтекстуализированной, фактически коммуникативной, тщательно структурированной, многократно

пересматриваемой и графически богатой языковой средой. В статье говорится, что электронная почта, чат-группы и Интернет имеют одну общую черту. Все они электронные взаимодействия.

Язык виртуального мира считается совершенно мнимым. Система интернет-письма может быть разделена на несколько групп. Это: пиктографическое письмо; идеографическое письмо; логотипы, алфавиты и т. д. В нем говорится, что графика может относиться ко всем аспектам письменного языка, таким как машинописный, рукописный и печатный текст. В нем говорится, что машинописный текст не считается актуальным. В статье было затронуто много новых фактов о языке виртуального мира. Списки литературы охватывают источники, на которые есть ссылки в статье.

Ключевые слова: виртуальный мир, устная речь, письмунная речь, различие, игра, интернет-жаргон

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 02.08.2019
Filologiya elmləri doktoru, professor Leyla Cəfərova tərəfindən çapa tövsiyə olunmuşdur.

GÜNAY ALİYEVA
ADPU
Üzeyir Hacıbəyli 68
gunay-aliyeva@gmail.com

"KEYS" METODU VASİTƏSİLƏ TƏLƏBƏLƏRDƏ MƏDƏNİYYƏTLƏRARASI ÜNSİYYƏT BACARIQLARININ FORMALAŞDIRILMASININ LİNQVİSTİK ƏSASLARI

Xülasə

Məqalə keys-metodu vasitəsilə tələbələrdə mədəniyyətlərarası kompetensiyaların formalaşması probleminə həsr edilmişdir. "Mədəniyyətlərarası kommunikativ kompetensiya" anlayışı hazırda əsas diqqət mərkəzindədir. Tələbələrin xarici dilin peşə-yönümlü metodla təliminə dair konkret işlər görülür. Müxtəlif millətlərin nümayəndələrinin mədəniyyətlərarası əlaqələrinin genişlənməsi gələcək mütəxəssislərdə təkcə xarici dil bilik və vərdişlərini deyil, həm də digər sosiumların nümayəndələri ilə ünsiyyətdə iştirak etmək qabiliyyətini şərtləndirir. Məqalədə həm də keys-metodun linqvodidaktik potensialı nəzərdən keçirilmişdir.

Mədəniyyətlərarası təhsilin müasir meyilləri və ali təhsil müəssisələrinin tələbələrinin mədəniyyətlərarası kompetensiyanın inkişafı üzrə tədris proqramlarının və vəsaitlərinin sərbəst seçimi əsasında nəticə yönümlü kompetent yanaşmanın dayandığı fəal və innovativ təlim metodlarından istifadə olunmasını tələb edir (1). Beləliklə, özünün bütün komponentlərinin rəngarəngliyi ilə birgə xarici dildə kommunikativ kompetensiyanın (səriştənin), yəni mədəniyyətlərarası kompetensiyanın formalaşması ali məktəblərdə xarici dillərin tədrisinin əsas məqsədinə çevrilir.

Mədəniyyətlərarası kompetensya altında özünü "mədəniyyətlərin dialoqu" çərçivəsində reallaşdıra bilmək qabiliyyəti başa düşülür (2; 3; 4). Mədəniyyətlərarası kompetensiyanın konseptual modellərinin öyrənilməsinə dair nəzəri mənbələrin təhlili onun tərkib komponentlərini – "insana digər mədəniyyətin daşıyıcısına qarşılıqlı effektiv və müvafiq təsir göstərmək üçün zəruri olan biliklər, bacarıq və vərdişlər, qaydalar və dərketmə və s." (5, s. 254) dəqiqləşdirməyə imkan verir.

Açar sözlər: mədəniyyətlərarası bacarıqlar, keys-metod, mədəniyyətlərarası kommunikativ kompetensiyalar, professional kompetensiyalar, problem situasiya

Tələbələrin gündəlik və işgüzar ünsiyyət şəraitində bacarıq və vərdişlərinin inkişaf etdirilməsində tədris prosesinin üsul və qaydalarının işlənib hazırlanması və intensivləşdirilməsi xarici dillərin tədrisi metodikasının aktual vəzifələrindən biridir. L.E.Alekseyeva qeyd edir ki, "professional yönümlü ünsiyyətdə xarici dillərin tədrisində istiqamət dəyişməsinin – oxudan nitqə, geniş anlamda professional situasiyalarda xarici dildə ünsiyyətə keçməsi baş vermişdir" (6).

Keyslər 1910-cu ildə Harvard universitetinin professoru Kouplend tərəfindən aspirantları öyrətmək məqsədilə tətbiq edilmişdir (7, s. 47). Keys metodunun texnologiyası ilk dəfə 1870-ci ildə işlənib hazırlanmış və 1910-ci ildə Harvard universitetində iqtisadiyyat və biznes-elmlərin tədrisində tətbiq edilmişdir. Hazırda iki klassik keys metodu paralel fəaliyyət göstərir: Harvadrd (amerikan) və mançester (Avropa). Amerikan keysləri iri həcmli (20-25 səhifə mətn, 8-10 səhifə illüstrasiya), Avropa keysləri isə həcmcə 1,5-2 dəfə az olurlar. Bundan başqa, birincilər yeganə düz cavabı tələb etdikləri halda. ikincilərdə problemin variativ həllinə imkan verirlər.

Amerikan biznes məktəbində öz inkişafına alan situativ tapşırıqların həlli metodu hazırda təhsil, sosiologiya və iqtisadiyyat sahəsində də intensiv inkişaf mərhələsindədir. Dünya təhsil

praktikasında keysə metodu 1970-80-ci illərdə geniş tətbiq edilməyə başlanılmışdır. Rusiyada 1990-cı illərdən tətbiq edilməyə başlayan keys metodu bütün sahələrdə mütəxəssislərin hazırlanmasında əsaslı dəyişmələrə səbəb olmuşdur. Başqa sözlə, B.E.Andrüsevin də qeyd etdiyi kimi, "komandada işləməyi bacaran, innovasiyalara meyilli, geniş həcmli müxtəlif cür informasiyalarla tənqidi və çevik şəkildə işləməyə bacaran mütəxəssislərə ciddi ehtiyaclar duyulmağa başlamışdır" (8, s.61-69).

Professional ünsiyyətin bacarıq və vərdişlərinin formalaşmasının səmərəliliyinin səviyyəsinin qaldırılmasının əsas vasitələrindən biri son illər xarixi dillərin tədrisində geniş yayılmış real situasiya əsasında (yəni situasiyanın təhlil metodu, və yaxud keys-metodudur) ünsiyyətdir. Keys-metodu təhsil məsələlərini həll etmək üçün tətbiq edilən interaktiv təlim metodudur. Keys situasiyanın və ya konkret hadisənin, işgüzar oyunun təhlilidir. Onu konkret situasiyaların təhlil texnologiyası adlandırmaq da mümkündür.

Cəmiyyətdə baş verən dəyişikliklər təhsilin məqsədinin də dəyişməsinə səbəb olmuş və bu, xarici dillərin tədrisində keys metodun istifadəsini şərtləndirmişdir. Keys-metodun tədris prosesini aktivləşdirmək qabiliyyəti və tələbələrin dərk etmə imkanlarının genişləndirmək vasitəsi kimi çıxış etməsi bir sıra elə sahələrində innovasion didaktik vasitə keyfiyyətində istifadə etməyə imkan verir.

Əlavə etmək lazımdır ki, keys vasitəsilə tələbələrdə kompetensiyaların inkişaf etdirilməsi texnologiyasının işlənib hazırlanması problemi bu gün də aktualdır, çünki dünyanın əksər ali təhsil müəssisələrində əsasən iqtisadi ixtisaslarda idarəçilərin hazırlanmasına yalnız ötən əsrin 70-80-ci illərində əsaslı şəkildə başlanılmışdır ki, bu da dil sahəsində təhsildən də təsirsiz ötüşə bilməz.

Keys adətən bu və ya digər fəaliyyət sahəsində baş vermiş və müəlliflərin tədris auditoriyasında diskussiya yaratmaq məqsədilə təsvir etdiyi real hadisələrdir. İngilis dilinin tədrisində keys-metoddan istifadə fənnin səciyyəsi nəzərə alınmaqla tələbələrdə xarici dildə nitq fəaliyyətində bu və ya digər formada zəruri bilik və bacarıqları formalaşdırmaq, habelə müəyyən standart və proqram səviyyəsində linqvistik kompetensiya yaratmaq üçün istifadə edilə bilər.

Bir halda ki, xarici dil mədəniyyət elementi kimi müəyyən mədəniyyət çərçivəsində fəaliyyət göstərir, onda keys-metodun tələbələrin ölkəşünaslıq kompetensiyasının formalaşmasında rolundan da bəhs etmək olar. Dildənkənar mühitdə kommunikativ kompetensiyasını formalaşdırmaq məqsədilə tələbələri fəal mədəniyyət dialoquna daxil etmək üçün yollar araşdırılmalıdır ki, onlar üçün yeni olan mədəniyyətdə ingilis dilinin fəaliyyətinin özünəməxsusluğunu dərk edə bilsinlər. Xarici dillərin öyrədilməsinə bu cür yanaşmanın əsas ideyası tələbələrdə fikrin ifadəsi üçün müəyyən dil vasitələrinə yiyələnməni tələb edən fəal təfəkkür fəaliyyətini formalaşdırmaqdan ibarətdir.

Xarici və daxili şərtlərin dəyişməsi nəticəsində Azərbaycanın təhsil sistemində və onun məqsədində islahatların aparılması xarici dillərin tədrisində öz əksini tapmışdır. Tədris fənni çərçivəsindən kənara çıxan xarici dil gələcək fəaliyyət üçün hazırlanan mütəxəssis üçün professional baxımdan mühüm keyfiyyətin formalaşdırılmasının vasitəsinə çevrilir. Xarici dildə ünsiyyətə girmə təlimi, bir tərəfdən, dilöyrənən professional fəaliyyətində qarşılaşacağı vəzifələr nəzərə alınmaqla qurulmağı, digər tərəfdənəbələrə fəallıq, təşəbbüskarlıq, müstəqillik, öz yoldaşları ilə fikirlərini razılaşdırmaq, şəxsi fikir hüqüqunu qorumaq və s. keyfiyyətlərini nümayiş etdirmək imkanı verməldir.

Beləliklə, gələcək peşə fəaliyyətində real situasiyaları modelləşdirən keys metodun interaktiv təlim texnologiyasının istifadə olunması qeyri-dil ali təhsil müəssisələrində metodik cəhətdən özünü doğrultmuş təlim metoduna çevrilmiş oldu. B.E.Andrüsevin qeyd etdiyi kimi, "tədris bilikləri və tədris prosesi məqsəd deyil, dilöyrənənin kompotent təlimə daxil olması üçün instrumentdir" (8, s. 61-69).

M.V.Qonçarovun qeydinə görə, "bu metodun reallaşması üçün bir sıra aspektlər əhəmiyyətli hsab edilirlər: keys metodun mahiyyətinin başa düşülməsi, təlimin məqsəd və vəzifələri, materialın seçilmə prinsipləri, qərarların təhlil və prezentasiyası üzrə işin mərhələləri" (9, s. 27). Y.P.Surmin fikrincə, "keys-metodun mahiyyəti tələbələrə təsri yalnız hər hansı konkret praktik problemi əks etdirməyən, həm də həmin problemin həlli üçün mənimsənilmısi zəruri olan müəyyən biliklər kompleksinin aktuallaşdıran real həyat situasiyasını dərk etməkdən ibarətdir. Bu zaman problemin birmənalı həlli yoxdur" (10).

Xarici dildə ünsiyyətin təliminin müasir meyilləri cəmiyyətin mədəniyyətlərarası ünsiyyətdə tam iştirak etmək qabiliyyətinə malik yüksək peşəkar mütəxəssislərə ehtiyacını əks etdirirlər. Beynəlxalq əlaqələrin və mədəniyyətlərarası bağların genişlənməsi gələcək mütəxəssislərdə yalnız xarici dil biliklərinin və bacarıqlarının olmasını deyil, həm də digər linqvososiumların nümayəndələri ilə ünsiyyətdə iştirak etmək qabiliyyətini şərtləndirir. Bu zaman xarici dil professional keyfiyyətləri, digər mədəniyyətin təmsilçisi ilə adekvat qarşılıqlı təsiri təmin edən çoxmədəniyyətli şüuru formalaşdırmağa qabil əsas vasitədir.

Aparılan tədqiqatlardan da məlum olur ki, ixtisas ali təhsil ocaqlarında tələbələrdə mədəniyyətlərarası kommunikativ kompetensiyanın formalaşması problemlərinin işlənib hazırlanması onunla bağlıdır ki, real mədəniyyətlərarası ünsiyyət prosesi onlardan yalnız yüksək səviyyədə kommunikativ və professional kompetensiyanı tələb etmir. Mədəniyyətlərarası dialoqda iştirak üçün onlar yeni professional davranış modellərini müstəqil refleksiv mənimsəməyə, mürəkkəb professional problem situasiyada ana və başqa professional konseptsferin dərin təhlili əsasında əsaslandırılmış (kollektiv) qərarlar qəbul etməyə qabil olmalıdırlar. T.V.Taryevin qeyd etdiyi kimi, "bu cür qabiliyyətin formalaşması isə yalnız Keys-metodun tətbiqi sayəsində mümkündür. Keys-metod işgüzar ünsiyyətin real praktikasından götürülmüş işgüzar situasiyanın təhlilinə əsaslanır. Bu situasiya, bir qayda olaraq, birmənalı həlli olmayan hər hansı bir praktik problemi əks etdirmir, həm də müəyyən professional bilik və bacarıqların kompleksini aktivləşdirir" (11, s. 43-49).

Keys-metod və ya konkret situasiyalar metodu konkret tapşırıqların – situasiyaların həlli yolu ilə təlimə əsaslanan fəal problem-situasiyanın təhlil metodudur. Keys-metodun birbaşa məqsədi tələbə qruplarının birgə müzakirə və keyslərin (bu və ya digər fəaliyyət sahələrində baş vermiş hadisələrin) təhlil etmək, təklif olunan alqoritmlərin sonradan qiymətləndirmə yolu ilə praktik həllinin işlənib hazırlanması və qoyulan problem kontekstində ən yaxşısını seçməkdən ibarətdir.

Xarici dillərin tədrisi prosesində mədəniyyətlərarası kompetensiyanın formalaşması "Linqvistika" ixtisası üzrə təhsil alan tələbələr üçün xüsusi əhəmiyyət kəsb edir, çünki onlar gələcək fəaliyyətlərində daima mədəniyyətlərarası ünsiyyətdə iştirak edəcəklər. Mədəniyyətlərarası kontakların səmərəliliyi isə tələbələrin mədəniyyətlərarası bacarıqlarının inkişafından birbaşa asılıdır.

Deyilənlərdən məlum olur ki, ali təhsil ocaqlarının məzunları öz həmkarlarının (fərqli mədəniyyətin təmsilçilərinin) fikir və baxışlarını başa düşməyi bacarmalı, professional kommunikasiya prosesində doğma mədəniyyətin öyrənilən dilin mədəniyyəti dəyər sistemləri arasındakı fərqlilikdən yaranan münaqişələri aradan qaldırmalıdır. Məhz belə bacarıqlar professional mədəniyyətlərarası kommunikasiya sahəsində ünsiyyətin səmərəliliyini təmin edir. Başqa sözlə, məzuna mədəniyyətlərarası kommunikativ kompetensiya yiyələnmək mütləq xarakter daşıyır. E.Q.Taryevanın qeyd etdiyi kimi, "bu professionalın dünyanın ana dili və başqa dil mənzərəsini qarşılıqlı əlaqədə dərk etəmk, başa düşmək və şərh etmək və bu əsasda digər linqvososiumun nümayəndəsi ilə xarici dildə ünsiyyət prosesini qurmaq qabiliyyətidir" (12, s. 238).

Mədəniyyətlərarası bacarıqları tələbələrin ali təhsil müəssisələrini bitirdikdən sonra bilməli olduqları ümummədəni və professional kompetensiyalarla aşağıdakı kimi əlaqələndirmək olar:

1) ümummədəni kompetensiyalar "ümumbəşəri dəyərlər sistemində istiqaməti müəyyənləşdirmək və sosiumun müxtəlif sosial, milli, dini, professional icma və qruplarının dəyərlərini öyrənmək" mədəniyyət haqqında yeni bilikləri mənimsənilməsindən ibarət mədəniyyətlərarası bacarıqlara uyğun gəlir;

2) mədəniyyətlərarası bacarıqlar mədəniyyət faktlarını, hadisələrini məxsusi dəyərlər sistemi mövqeyindən şərh etmək, mədəniyyət fərqliliklərini nəzərə almaqla davranış və situasiyaları dəyərləndirmək (təhlil etmək) ümummədəni kompetensiyalarda reallaşır (bu zaman tələbənin etnosentrizmdən imtina etməli və yad mədəniyyətin özünəməxsusluğuna və xaricidilli sosiumun dəyərlərinə hörmət tələb edən etik normalar və mədəniyyət relyativizminin prinsiplərinə riayət edir);

3) tələbənin ümummədəni kompetensiyaları - "müasir sivilzasiyaların saxlanılması və inkişafı üçün humanistik dəyərlərin əhəmiyyətinin dərk etmək, ətraf mühitə, cəmiyyətə və mədəni irsə münasibətdə əxlaqi dəyərlərini qəbul etməyə hazır olmaq" mədəniyyətlərarası bacarıqlar kimi mədəniyyət faktlarının, hadisələrin özünün dəyərlər sistemi çərçivəsindən, yəni doğma vətəninin (mədəniyyətinin) nümayəndəsi kimi çıxış edərkən özünü büruzə verir;

4) doğma vətənin (mədəniyyətin) nümayəndəsi kimi çıxış etmək, qarşılıqlı anlaşma səviyyəsinə yüksələn qarşılıqlı münasibətləri qurmaq kimi mədəniyyətlərarası bacarıqlar ümummədəni kompetensiyaları formalaşdırır: "sosial-şəxsi münaqişələrdə vətəndaş mövqeyində dayanmaq qabiliyyətinə malik olmaq".

Ədəbiyyat:

1. Алмазова Н.И. Подходы, принципы и технологии иноязычного образования в неязыковых вузах на современном этапе // Вопросы методики преподавания в вузе: сборник научных статей. СПб., 2007. Вып. 9, с. 55-63.
2. Федеральный государственный образовательный стандарт высшего профессионального образования по направлению подготовки «Лингвистика» (степень бакалавр). М.: 2010.
3. Сысоев П.В. Культурное самоопределение личности как часть поликультурного образования в России средствами иностранного и родного языков // Иностранные языки в школе. 2003. № 1, с. 42-47.
4. Сысоев П.В. Культурное самоопределение обучающихся в условиях языкового поликультурного образования // Иностранные языки в школе. 2004. № 4, с. 14-21.
5. Deardorff D.K. Identification and assessment of intercultural competence as a student outcome of internationalization //Journal of Studies in Intercultural Education. 2006. № 10, p. 241-266.
6. Алексеева Л.Е., Методика обучения профессионально-ориентированному ИЯ. 2002 Электр.ст.- Режим доступа к ст. http://www.lingva.iml.pu.ru/ course_view.php?course=6
7. Гозман О., Жаворонкова А., Рубальская А. Путеводитель по MBA в России и за рубежом. М.: 2004.
8. Андюсев Б.Е. Кейс-метод как инструмент формирования компетентностей // Директор школы. № 4. 2010, с. 61–69.

9. Гончарова М.В. Методика анализа ситуаций в обучении студентов иноязычному профессио-нально-ориентированному общению: на материале специальностей «Менеджмент», «Управление»: автореф. дис. … канд. пед. наук. М.: 2005.
10. Сурмин Ю.П., Что такое кейс-метод? Взгляд теоретика и практика. 2002: [Электронный ресурс].Дата обновления: 28.04.2005. –URL: https://iphras.ru/uplfile/ethics/RC/ed/school2/materials/apressyan6.html#7/.
11. Тарева Е.Г. Межкультурный подход к подготов-ке современных лингвистов //Проблемы теории, практики и дидактики перевода: сб. науч. тр. Сер. Язык. Культура. Коммуникация. Т. 1, Вып. 14. Н. Новгород: Изд-во НГЛУ, 2011, с. 237-244.
12. Тарев Б.В. Межкультурное измерение бизнес среды посредством метода «кейсов» // Ино-странные языки: теория и практика. М.: Тезаурус, 2010, № 2, с. 43-49.

G.Alıyeva

The linguistic bases of forming students' intercultural communication skills through case method

Summary

The article deals with the linguistic basis of forming the intercultural communication skills of students through keys method. 'The intercultural communication competence' has been looked through in the article. The researcher uses concrete sources about the training of professional-oriented method of the foreign language to the students. All these sources have been referred to in the article. The article highlights the fact that spreading the intercultural communication of different nations can ensure not only the skills of foreign language learning but also the ability of communicating with the delegations of other fields. The linguodidactic potential of case method has been touched upon in the article as well. The ability of realizing oneself is performed under the intercultural competence in the frame of 'dialogue of cultures'. The analyzing of theoretical sources about the studying of conceptual models of the intercultural competence and its structural contents give the opportunity of specifying necessary knowledge, skills, abilities, rules, etc. to make an appropriate impact and mutually effect on the delegation of other culture.

Depending on the changing conditions, the reforms in the educational system of Azerbaijan are reflected in the teaching of foreign languages. A foreign language that goes beyond the subject of teaching is becoming a tool for professional development of a professional quality for a future professional. Foreign language communication training, on the one hand, is based on the tasks that a student will encounter in his/her beginning career, on the other hand, activation, initiative, independence, going on with friends, protecting personal opinion, and so on. may help to increase the quality of communication.

Key words: intercultural skills, cross-cultural communicative competence, case-study method, professional competences, problem situation

Г.Алиева

Лингвистические основы формирования у студентов межкультурных способностей общения посредством Кейс-метода

Резюме

Данная статья посвящена проблеме формирования межкультурной коммуникативной компетенции студентов посредством кейс-метода. В нейе рассмотрены сущностные характеристики понятия «межкультурная коммуникативная компетенция». При рассмотрении проблемы автор ссылается на конкретные источники, в которых анализированы вопросы, связанные с методом профессионально-ориентированного обучения иностранному языку студентов. В статье подчеркивается, что расширение межкультурных контактов представителей разных национальностей обусловливает наличие у будущих специалистов не только иноязычных знаний и умений, но и способности участвовать в общении с представителями других лингвосоциумов. В статье рассмотрен также лингводидактический потенциал кейс-метода. Способность к самореализации осуществляется в рамках межкультурной компетенции в рамках «диалога культур». Анализ теоретических источников об изучении концептуальных моделей межкультурной компетенции и ее структурного содержания дает возможность указать необходимые знания, навыки, способности, правила и т. д., Чтобы оказать соответствующее влияние и взаимно влиять на делегирование другой культуры.

В зависимости от меняющихся условий реформы в системе образования Азербайджана отражаются на преподавании иностранных языков. Иностранный язык, который выходит за рамки предмета обучения, становится инструментом профессионального развития профессионального качества будущего профессионала. Обучение общению на иностранном языке, с одной стороны, основано на задачах, с которыми студент столкнется в начале своей карьеры, с другой - на активизации, инициативе, независимости, общении с друзьями, защите личного мнения и т. д. может помочь повысить качество связи.

Ключевые слова: межкультурные умения, кейс-метод, межкультурная коммуникативная компетенция, профессиональные компетенции, проблемная ситуация

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 02.08.2019
Filologiya elmləri doktoru, professor Dilarə İsmayılova tərəfindən çapa tövsiyə olunmuşdur.

NƏRMİN MƏMMƏDOVA
ADU
Rəşid Behbudov 134
nermin-mammed@yahoo.com

MÜXTƏLİF DİLLƏRDƏ FEİL PARADİQMLƏRİNİN XÜSUSİYYƏTLƏRİ

Xülasə

Nitq hissələri və onların təsnifi olduqca aktual məsələlərdın biri hesab edilir. Qədim zamanlardan müasir dövrə kimi nitq hissələrinin təsnifi dilçilərin, alimlərin diqqətini cəlb etmişdir.

Nitq hissələrinin təsnifində sözün mənası ilə morfoloji əlamətini, məna ilə sintaktik mövqe, morfoloji əlamət və sintaktik mövqe kimi əlaqələrin öyrənilməsi vacib hesab edilir. Məlum olduğu kimi, semantik prinsipdə nitq hissələrinin qruplaşdırılması sözün mənası əsasında durur.

Morfoloji prinsipdə sözlərin formalarına görə dəyişilməsi nəzərə alınsa, sintaktik prinsipdə isə sözlərin cümlədə daşıdığı vəzifələri əsas götürülür.

Müasir ingilis dilində nitq hissələrinin təsnifi O.İ.Musayev tərəfindən də araşdırılmışdır. Müasir ingilis dilində mövcud olan nitq hissələri dildəki və nitqdəki rollarına görə bir-birindən fərqlənir. Müasir ingilis dilində mövcud olan nitq hissələrini üç qrupda fərqləndirmək olar: 1) əsas nitq hissələri; 2) köməkçi nitq hissələri; 3) sərbəst nitq hissələri (5, s. 22).

Müasir ingilis dilində nitq hissələrinin təsnifinə dair araşdırma aparan dilçilərdən E.Hacıyevin də adını çəkmək olar. O, nitq hissələrinin təsnifinə dair məqalə yazmış və nitq hissələrinin təsnifi problemini ətraflı izah etmişdir. E.Hacıyevin nitq hissələrinə dair bölgüsündə O.Musayevin bölgüsü əsas götürülür. O, bu qənaətə gəlir ki, O.Musayevin təsnifi dilin təbiətinə, onun funksiyasına daha uyğundur və münasibdir. Feil əsas nitq hissələri arasında xüsusi yeri ilə çox fərqlənir.

Açar sözlər: feil, paradiqm, leksik, qrammatik, təsnifat, nitq hissələri

Feli ifadə etdiyi hərəkət müqabilində danışıqda əsas rol oynayır və təşkilatlandırıcı mövqedə olur. Müxtəlif sistemli dillərdə feil cümlənin əvvəlində də gələ bilər, sonunda da və bu onun aparıcı mövqedə olmasına təsir etmir. Məsələn, ingilis dilində feil cümlənin növündən asılı olaraq cümlənin ortasında, ya əvvəlində işlənə bilər. Nümunələrə baxaq:

He (subject) *goes* (predicate) *to work every day.* (O, hər gün işə gedir).

Bu nümunədə feil mübtədadan sonra işlənir.

İngilis dilində feilin cümlədə işlənmə yerini əks etdirəcək digər nümunələri nəzərdən keçirdək:

1.Time *flies*. (Zaman uçur).
2.We *will try*. (Biz cəhd edəcəyik).
3.The Aliyevs *have returned*. (Əliyevlər ailəsi qayıdıb).
4.She *has never driven before*. (O, əvvəllər heç vaxt avtomobil sürməyib).
5.We *will try harder next time*. (Biz gələn dəfə daha ciddi çalışacağıq).
6.These kinds of birds *sing* beautifully. (Bu quşlar çox gözəl nəğmə oxuyur).
7.He *has not returned from the store*. (O, hələ mağazadan qayıtmayıb),
8.My sister *flew* a helicopter in Ankara. (Bacım helikopterlə Ankaraya uçdu).
9.My mother *took* our dog *for a walk*. (Anam itimizi gəzintiyə apardı).

10. Our school cafeteria *always smelled like stale cheese and dirty socks*. (Bizim məktəbin bufeti həmişə kiflənmiş pendir və çirkli corab iylənirdi).

İngilis dilində cümlənin növündən asılı olaraq xəbər cümlənin əvvəlində də işlənə bilər. Məsələn:

So *wore* the day away. (Beləliklə, gün batdı).

Thus *spoke* Mr.Aliyev. (Beləliklə, cənab Əliyev danışdı).

Now *was* the moment to act. (İndi hərəkət vaxtıdır).

Göründüyü kimi, bu nümunələrdə söz sırası pozulmuş və xəbər mübtədadan əvvələ keçmişdir.

Alman dilində də xəbər çox halda ikinci yerdə işlənir (7, s. 90). Məsələn:

Ich (mubteda) *sehe* (xəbər) die Sterne (direct object). (I see the stars; Mən ulduzları görürəm).

Du (subject) *bist* (verb) müde (objective). (You are tired; Sən yorğunsan).

Wir (subject) *lesen* (verb) den Text (direct object). (We are reading the text; Biz mətn oxuyuruq).

Alman dilində sual cümlələrində xəbər cümlənin əvvəlinə keçir. Məsələn:

Sehe Ich (mubteda) (xəbər) die Sterne (direct object)?

Bist du (subject) (verb) müde (objective)?

Lesen wir (subject) (verb) den Text (direct object)?

Türk dillərində isə xəbər cümlənin sonunda gəlir. Məsələn:

Mən hər gün dostuma zəng edirəm.

Bu kimi səbəblərdən də çox Avropa ölkələrində dilçilər feili "canlı" nitq hissəsi, digər sözləri isə "ölü" nitq hissələri adlandırıblar (6, s.100).

Felin çox əhəmiyyət kəsb etməsi çox halda onun semantikası ilə əlaqələndirilir. Məsələn, L. Tipinq yazır ki, feilin ifadə etdiyi güc, yəni cümlədki gücü onun mərkəzi yadra kimi qəbul edilməsini şərtləndirir və bu da onun semantikası ilə əlaqədardır (10, s. 98).O yazır: "Özünü vəziyyətlər və hərəkətlər kimi təzahür etdirən proseslər vasitəsilə predmetlər öz mövcudluğunu göstərə bilir. Məsələn, yaşıllaşmaq prosesi ilə ağac, çəmən, meşə və s. danışıqda gerçəkliyi əks etdirə bilir" (10, s. 99).

Digər dillərdə olduğu kimi, müasir ingilis dilində də feil mürəkkəb təbiətə malik olması ilə seçilir. A.İ.Smirnitski ingilis dili feilini "sistemlər sistemi" adlandırır. O, feil dedikdə həm şəxsli, həm də şəxssiz formaları nəzərdə tutur (2, s.140).

İngilis alimi L.U.Çeyf yazır ki, sintaktik təlimdə ən mühüm yer cümləyə məxsusdur. Cümlədə isə əsas yeri feil tutur (1, s.115). Hər hansı bir cümlə predikativ elementin sayəsində formalaşa bilir. Məsələn: The clothes are washed every day.

L. U.Çeyf predikativ elementi feil, adlıq elementi isə isim adlandırır. O, feil və isim anlayışlarına daha geniş palnada yanaşır. U.Çeyf bununla bağlı olaraq yazır ki, insanları əhatə edən varlıq əsasən iki formada təzahür edir. Bunlardan biri hərəkət, hal-vəziyyət bildirən feil, digəri isə əşya (sözün geniş mənasında) bildirən söz, yəni isimdir. O, feili cümlənin mərkəzi, ismi isə ikinci dərəcəli vahid kimi qeyd edir (1, s. 116). Lakin bu məsələdə dilçilər bir qədər fikir ayrılığına düşürlər. A.R.Hüseynov məsələ ilə bağlı fikrini belə ifadə edir: "Qeyd etmək lazımdır ki, bu fikrin hamı tərəfindən qəbul edilməsini gözləmək düzgün deyildir. Bizim əksər kitablarda cümlədə əsas amil kimi isim, yəni mübtəda qəbul edilir" (3, s.135).

3) Feil ən çox qrammatik kateqoriyaya malik olan nitq hissəsidir. Feilin şəxs, zaman, növ, tərz və s. kateqoriyaları vardır.

4) feil əsasən isim, əvəzlik, həm də zərf kimi işlənə bilər.

5) Feil cümlədə əsasən xəbər funksiyasında işlənir (3, s. 135).

Müasir ingilis dilində feillər aşağıdakı prinsiplərə əsasən təsnif olunurlar.

1) morfoloji quruluşuna görə;
2) birləşmə qabiliyyətinə görə;
3) keçmiş zaman və Participle II formasının düzəlməsinə görə.
4) leksik mənasına və cümlədəki funksiyasına görə;
5) şəxs kateqoriyasına münasibətinə görə (3, s. 135).

O.Musayev yazır ki, morfoloji quruluşuna görə ingilis dilində feillər sadə, düzəltmə, tərkibi və mürəkkəb olur (5, s.97).

Bir sözdən ibarət olan feillər sadə hesab edilir. Məsələn: *to go* (getmək), *to come* (gəlmək), *to take* (götürmək), *to meet* (görüşmək) və s.

Kök, suffiks və ya prefiksdən ibarət olan feillər isə düzəltmə feillər hesab edilir. Məsələn:

Wide – widen (geniş – genişləndirmək), *real – realize* (həqiqi – həyata keçirmək), *large – enlarge* (geniş – genişləndirmək), *appear – disappear* (peyda olmaq – qeyb olmaq) və s.

A.Hüseynov yazır ki, müasir ingilis dilində tərkibi feillər daha geniş işlədilir (3, s.136). İki sözdən ibarət olan feillərə tərkibi feillər deyilir. Məsələn: *whitewash* (ağartmaq), *broadcast* (yayımlamaq), *sightsee* (görməli yerlərə baxmaq), *fulfill* (yerinə yetirmək) və s.

Birləşmə qabiliyyətinə görə ingilis dilində feillər təsirli və təsirsiz ola bilər. Təsirsiz feillər əsasən mübtəda ilə birləşir. Təsirsiz feillər obyektə, yəni tamamlığa qarşı yönələ bilmir. Məsələn:

Anar came. (Anar gəldi).
She went. (O, getdi).
He is sleeping. (O yatır) və s.

Təsirli feillər həm mübtəda, həm də tamamlıqla birləşə bilir. Məsələn:

He took the book. (O, kitabı götürdü).
The boy broke the window. (Oğlan pəncərəni sındırdı).
They met the woman in the yard. (Onlar qadını həyətdə qarşıladılar).

L.V.Kauşanskaya yazır ki, bir sıra hallarda bu və ya digər feil həm təsirli, həm də təsirsiz feil kimi işlənə bilər (4, s. 75). Məsələn:

The car stopped. (Avtomobil dayandı). (təsirsiz feil)
The driver stopped the car. (Sürücü avtomobili saxladı). (təsirli feil)
A lot of flowers grow in our garden. (Bağımızda çoxlu güllər bitir). (təsirsiz feil)
My mother grow a lot of flowers in our garden. (Anam bağçamızda çoxlu güllər əkir). (təsirli feil)
The meeting began at six yesterday. (İclas dünən saat altıda başladı). (təsirsiz feil)
The boss began the meeting at six yesterday. (Müdir iclası dünən saat altıda başladı). (təsirli feil)

A.Tomson və A.Martinet yazırlar ki, ingilis dilində feilin şəxsli və yaxud səxssiz olmasını gösərən heç bir morfoloji əlamət olmadığı üçün bu mənalar yalnız verilən cümlədə aydınlaşır (9, s. 137).

Leksik mənasına və cümlədəki funksiyasına görə ingilis dilində feillər əsasən dörd qrupa bölünür: 1) *əsas feillər*; 2) *köməkçi feillər*; 3) *bağlayıcı feilər*; 4) *modal feillər* (3, s.138).

1) Əsas feillər müstəqil leksik mənaya malik olur. F.Palmer yazır ki, bu cür feillər cümlədə tək işlənə bilir və feili xəbər kimi çıxış edir (7, s.96). Məsələn:

Go! (Get!)
He will come tomorrow. (O, sabah gələcəkdir).

2) Leksik mənasına və cümlədəki funksiyasına görə feillərin ikinci qrupu köməkçi feillər hesab edilir. Bu cür feillər müxtəlif zaman formalarının düzəldilməsində iştirak edir. Köməkçi feillərə missal olaraq to be, to have, to do və s. göstərmək olar. Məsələn:

She is doing her homework now. (O, indi ev tapşırıqlarını edir).

They have already come. (Onlar artıq gəliblər).

He does not go to university every day. (O, hər gün universitetə getmir).

I will write to you. (Mən tezliklə sənə məktub yazacağam).

3) A.Hüseynov yazır ki, leksik mənasını müəyyən qədər itirmiş feillər bağlayıcı feillər hesab edilir (3, s.138). Bu cür feillər mürəkkəb ismi xəbərin komponentlərindən biri kimi çıxış edir. İkinci komponenti, yəni predikativi mübtəda ilə birləşdirir. *To be* (olmaq) feili ən çox işlənən bağlayıcı feil hesab edilir. Bağlayıcı feillərə nümunə kimi *to become* (olmaq)*, to seem* görünmək)*, to grow* (böyümək)*, to look* (görünmək) və s. göstərmək olar. Məsələn:

He is ill. (O, xəstədir).

She looked happy. (O, xoşbəxt görünürdü).

She turned pale. (Onun rəngi soldu).

4. Azərbaycan dilindən fərqli olaraq, ingilis dilində modal feillər adlanan feillər qrupa da mövcuddur. Modal feillərin ayrılıqda heç mənası yoxdur (3, s. 138). Onlar məsdərlə işlənərək icra olunan hərəkətin vacibliyini, mümkünlüyünü, qadağasını, ehtimalını və s. bildirir. Modal feillər məsdərlə birlikdə cümlədə mürəkkəb modal feili xəbər kimi çıxış edir.

İstifadə edilən ədəbiyyat:

1. Chafe L.W. Structure and meaning of Language. Cambridge: Cambridge University Press, first edition 1970, 360 p.
2. Смирнитски А.И. Морфология английского языка. М.: Из-во литературы на иностранных языках. 1959, 440 с.
3. Hüseynov A.R. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. Bakı: Mütərcim, 2015, 376 s.
4. Kaushanskaya V.L., Covner R.L. English Grammar. Leninqrad: Prosveshenie, 1973, 320 p.
5. Musayev O. İngilis dilinin qrammatikası. Bakı: Maarif, 1996, 385 s.
6. Palmer F.R. A linguistic study of the English verb. London: Miami, 1965, 211 p.
7. Palmer F.R. Grammar. UK: Penguin books, 1975, 200 p.
8. Rəhimov İ., Hidayətzadə T. İngilis dilinin praktik qrammatikası. Bakı: Qismət, 2007, 587 s.
9. Thomson A.J., Martinet A.V. A Practical English Grammar. Oxford: Oxford University Press, 1987, 383 p.
10. Tipping L. A Higher English Grammar. London: Macmillan and Co. Ltd, 1964, 378 p.

N.Mamedova

The features of the verb paradigms in different languages

Summary

The article deals with the paradigm features of the verb in different languages. It gives some information about the part of speech. The different classification about the parts of speech has been touched upon in the article as well. Especially, the article highlights the classification by O.Musayev. According to the article, the verb has taken a special role among the parts of speech. The verb is considered to be the parts of speech denoting an action or a state. In modern English, the verb is said to have the morphological categories such as person, number, tense, aspect, voice and mood. Reading the article, it becomes clear that the verbs in English can be classified according to two principles. They are 1) according to its morphological structure; 2)

according to its meaning. According to their morphological structure, verbs are divided into some groups such as simple, derivative, compound, composite. According to their meaning the verbs are divided into the following groups. They are: actional verbs, statal verbs, transitive verbs, intransitive verbs, terminative verbs, non-terminative verbs. All of the classification has been analyzed fully in the article. The basic forms of the verb have also been touched upon in the article. The basic forms of the verbs in modern English are four in number. They are: the infinitive, the past indefinite, the participle II, the participle I. The infinitive is said to be built in two ways: a) The first one is the synthetic present and b) past indefinite forms, c) the present subjunctive, and d) the imperative mood.

Key words: verb, paradigm, lexical, grammatical, classification, part of speech

Мамедова Н.

Черты глагольных парадигм в разных языках

Резюме

Статья посвящена чертам глагольных парадигм в разных языках. Дается некоторая информация о части речи. В статье также были затронуты различные классификации частей речи. В особенности статья освещает классификацию О. Мусаева. Согласно статье, глагол занял особую роль среди частей речи. Считается, что глагол это часть речи, обозначающая действие или состояние. В современном английском языке глагол имеет морфологические категории лица, числа, времени, аспекта, залога и наклонения. Читая статью, становится ясно, что глаголы в английском языке классифицируются согласно двум принципам. Это 1) согласно своей морфологической структуре, 2) согласно своему значению. Согласно своей морфологической структуре глаголы делятся на несколько групп такие как простые, производные, составные и сложные. Согласно своему значению глаголы делятся на следующие группы.

Это глаголы действия, глаголы состояния, переходные глаголы, непереходные глаголы, предельные глаголы и непредельные глаголы. В статье широко анализированы все классификации. В статье были также затронуты основные формы глагола. Существует четыре основные формы глагола в современном английском языке. Это- инфинитив, прошедшее неопределенное, причастие II и причастие I. Инфинитив образуется двумя способами: a) первый- синтетический(простой) настоящий и b) прошедший неопределенный c)настоящее сослагательное и d) повелительное наклонение.

Ключевые слова глагол, парадигма, лексический, грамматический, классификация, часть речи

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 01.08.2019
Filologiya elmləri doktoru, professor Əfqan Abdullayev tərəfindən çapa tövsiyə olunmuşdur.

TƏRANƏ ƏLİYEVA
Heydər Əliyev adına Azərbaycan
Ali Hərbi Məktəbi
taranaaliyeva@hotmail.com

SİNTAKSİS bölməsinin tədrisinin əhəmiyyəti.
Cümlə üzvləri წინადადების წევრები

Xülasə

Sintaksisin sözlər və cümlələr arasında olan əlaqələri, yəni hansı sözlərin bir-biri ilə əlaqədə olmasını, necə bağlanması və hər birinin cümlədə hansı rolu oynadığı öyrəndiyini yada salırıq. Söz və cümlələrin biri-biri ilə ünsiyyətini öyrənmək üçün biz artıq hazırlıq görmüşük, yəni morfologiya fəslində nitq hissələrini öyrənmişik. Deməli, sintaksis bölməsi sözlərin əlaqə və ümumiyyətlə biri-biri ilə bağlanmasını öyrənir. Sintaksis cümlədəki hər sözü, ona müəyyən məna vermək üçün oynadığı roluna görə xüsusiyyətləndirir. Bu bölmənin öz nəzəri və tətbiqi əhəmiyyəti var. Kursant sintaktik söz düzümünü, söz və cümləni əlaqələndirən qayda və normaları öyrənir, müəyyən bir həqiqətə toxunur və bilik öyrənir. Beləliklə, mütaliə etmə vərdişi inkişaf edir. Sintaksis biliyi kursantın şifahi və yazma qabiliyyətinin təməli olur, o ,müvafiq praktiki vərdişlərə sahib olur, fikir-düşüncələrini dəqiq məntiqlə çatdırmağı bacara bilir. Ana dilinin sintaksis strukturuna (quruluşuna) yiyələnmiş kursant üçün hər hansı xarici dilin xüsusiyyətlərini ifadə lərini başa düşmək asan olur.

Müvafiq məşğələ nəticəsində kursant cümlə tiplərini və cümlənin üzvlərinin (ana dilində təkrar edərək) seçməsini bacarmalıdır. O əmin olmalıdır ki, istədiyi mənanı (insanın fikir-düşüncələrini) bildirmək üçün tərkibindəki sözləri biri-biri ilə müəyyən formalarda birləşdirən cümlədir. Məhz həmin sözlərin birləşdirici formaları sintaksis əlaqələri yaradandır. Sintaksis əlaqələrinin öz qaydaları var. O qayda pozularkən cümlənin mənası da pozulur, bəzən dəyişir.

Cümlə üzvlərini müəyyən qayda ilə əlaqələndiririk və nəticəni qeyd edirik: «cümlənin hissələri arasında yaradılmış qaydalı ünsiyyət sintaksis qaydalarına uyğun olur».

Gürcü (kartuli) dili, meqrel, svan və laz dilləri ilə birlikdə Qafqaz dilləri qrupu daxilində, Qafqaz iber ailəsinin tərkibində yer alır.

Gürcü dilinin tədrisinin geniş və şaxəli əhəmiyyəti var, kursant gürcü xalqının dilini, adət-ənənələrini, təbiətini, mentalitetini öyrənir. Böyük gürcü pedaqoqu Yakob Qoqebaşvili deyirdi: «Dil dərrakənin inkişafı və bilik qazanmaq üçün ən yaxşı əlacdır».

Açar sözlər: sintaktik əlaqələr, sintaqma, vərdiş, mübtəda, cümlənin baş üzvləri, ikinci dərəcəli üzvlər, subyekt, xəbər, təsirli və təsirsiz feillər, morfoloji əlamətlər, tamamlıq, zərflik, təyin, uzlaşma əklaqələri, yanaşma əlaqələri, idarə əlaqələri.

Müasir dövrdə azərbaycanlı gənclər üçün xarici dilləri, o cümlədən qonşu gürcü xalqının ana dilini öyrənmək su və hava kimi vacibdir. Gürcü dili Azərbaycan xalqını gürcü xalqı ilə yaxınlaşdırır, onlara müxtəlif sahələrdə geniş əməkdaşlıq imkanı verir.
Dili öyrənmək və öyrətmək üçün onun müxtəlif yönlərinə diqqət etmək lazımdır. Gürcü dilinin müxtəlif xüsusiyyətlərini bir-biri ilə əlaqələndirmə yolları var.

Qruplarda kursantlarin ana dilinə müvafiq şəkildə qrammatikanın sintaksis fəslinə aid giriş edilməlidir. Sintaksisin sözlər və cümlələr arasında olan əlaqələri, yəni hansı sözlərin bir-biri ilə əlaqədə olmasını, necə bağlanması və hər birinin cümlədə hansı rolu oynadığı öyrəndiyini yada salırıq. Söz və cümlələrin biri-biri ilə ünsiyyətini öyrənmək üçün biz artıq

hazırlıq görmüşük, yəni morfologiya fəslində nitq hissələrini öyrənmişik. Deməli, sintaksis bölməsi sözlərin əlaqə və ümumiyyətlə biri-biri ilə bağlanmasını öyrənir. Sintaksis cümlədəki hər sözü, ona müəyyən məna vermək üçün oynadığı roluna görə xüsusiyyətləndirir. Bu bölmənin öz nəzəri və tətbiqi əhəmiyyəti var. Kursant sintaktik söz düzümünü, söz və cümləni əlaqələndirən qayda və normaları öyrənir, müəyyən bir həqiqətə toxunur və bilik öyrənir. Beləliklə, mütaliə etmə vərdişi inkişaf edir. Sintaksis biliyi kursantın şifahi və yazma qabiliyyətinin təməli olur, o ,müvafiq praktiki vərdişlərə sahib olur, fikir-düşüncələrini dəqiq məntiqlə çatdırmağı bacara bilir. Ana dilinin sintaksis strukturuna (quruluşuna) yiyələnmiş kursant üçün hər hansı xarici dilin xüsusiyyətlərini ifadə lərini başa düşmək asan olur. (3. 34)

Sintaksis elementlərinə əlifbanı öyrənərkən toxunuruq: şəkilçilərin o mərhələdə yazıb – oxumağın tədrisi ilə bağlayırdıq. Artıq epizodik yox, sistemləşmiş hala gətiririk və tədrisi bünövrəsinə uyğun:

1. Asandan başlayıb mürəkkəb formalara keçirik;

2. Kursantların şüurlu mənimsəmə yoluyla inamlı bilik qazanması və belə biliyin əsasında müvafiq praktiki vərdişlərə nail olması son hədəfimizdir.

Əvvəlcə nitq hissələrini: isim – არსებითი სახელი; sifət – ზედსართავი სახელი; say – რიცხვითი სახელი; əvəzlik – ნაცვალსახელი; feil – ზმნა və zərf – ზედსართავი –nı yada salaq, qısaca olaraq – nə nədir? xatırlayaq. Sonra qoşma, bağlayıcı, ədat, modal sözlər və nidaların gürcü dilindəki alternativlərini cümlə tərkibində öyrənəcəyimizi qeyd edək. Cümlə üzvlərini yada salaq.

1. Cümlə üzvlərinin adları (terminlər)

a) cümlənin baş üzvləri წინადადების მთავარი წევრები

xəbər – შემასმენელი; mübtadə – ქვემდებარე; obyekt– დამატება ობიექტი;

b) II dərəcəlilər – დამხმარე (მეორეხარისოვანი) წევრები sadə tamamlıq - უბრალო დამატება; təyin – განსაზღვრება; zərflik– გარემოება

2. Tərkibinə görə cümlə tipləri: tam – სრული , natamam – არასრული, sadə – უბრალო (მარტივი) –, geniş – გავრცობილი ,mürəkkəb – რთული (2. 135)

Mənasına görə cümlə tipləri - წინადადება შინაარსის მიხედვით

a) Nəqli – მოთხრობითი წინადადება – hekayə edən, rəvayətçi.

b) Sual – კითხვითი – sual verici.

c) Əmr – ბრძანებითი – əmr verən.

d) Nida – შორისდებული - emosiya bildirən.

Qeyd: Müvafiq məşğələ nəticəsində kursant cümlə tiplərini və cümlənin üzvlərinin (ana dilində təkrar edərək) seçməsini bacarmalıdır. O əmin olmalıdır ki, istədiyi mənanı (insanın fikir-düşüncələrini) bildirmək üçün tərkibindəki sözləri biri-biri ilə müəyyən formalarda birləşdirən cümlədir. Məhz həmin sözlərin birləşdirici formaları sintaksis əlaqələri yaradandır. Sintaksis əlaqələrinin öz qaydaları var. O qayda pozularkən cümlənin mənası da pozulur, bəzən dəyişir.

Cümlə üzvlərini müəyyən qayda ilə əlaqələndiririk və nəticəni qeyd edirik: «cümlənin hissələri arasında yaradılmış qaydalı ünsiyyət <u>sintaksis qaydalarına</u> uyğun olur».

Beləliklə, kursant başa düşür ki,

1. sintaktik ünsiyyət (bağlamalar) iki hissə, yəni cütlük (sintaqm) arasında yaranır. Sintaqm sintaksisin ən kiçik vahididir.

2. Cümlədə hər hansı bir üzv bir, yaxud bir neçə üzvlə ünsiyyətdə ola bilər, məs: Bu çayda bir neçə növ balıq olur ამ მდინარეში რამდენიმე ჯიშის თევზი ბუდობს > ამ მდინარეში, > მდინარეში ბუდობს, თევზი ბუდობს, რამდენიმე ჯიშის, >ჯიშის

თევზი, რამდენიმე ჯიშის თევზი. Cümlədə sintaqmaların sayı üzvlərin sayından az olur. (3.85)

Cümlə üzvlərin ünsiyyəti

წინადადების წევრთა ურთიერთ კავშირი –ünsiyyət sadə cümlələrdə daha aydın düzəlir, buna görə də (kursant üçün) mürəkkəb cümlələri sadələşdirməklə öyrətmək labüddür. Sadə cümlədə cümlə üzvlərinin hansı forma (qrammatik kateqoriyaları düzəlmiş) ilə ünsiyyətdə olduqlarını dəqiqləşdiririk, məs: ჩემი მეგობარი კარგად სწავლობს – «mənim dostum yaxşı oxuyur». Cümlədə 4 üzv var, yəni üç sintaksis vahidi (sintaqma) ჩემი მეგობარი – mənim dostum (azərbaycan dilində yiyəlik hal, gürcü dilində isə üzvün ikisi də eyni-adlıq haldadır). İki sözdən birisinin formasını dəyişmək anlaşılmamazlığa yol verər. მეგობარი სწავლობს azərbaycan dilində hərfi tərcümə etsək – «dost oxuyur» məna dəyişir, çünki mənsubiyyət şəkilçisi dost-um yoxdur, ancaq gürcü dilində mənsubiyyət şəkilçisi ismə yox, əvəzliyə bağlanır və hansı və kimin dostu elə bilinir: ჩემი – mənim მეგობარი dost > mənim dost-um mənasına gəlir. კარგად სწავლობს sintaqmada «oxuyur» necə sualına cavab olaraq yaxşı (zərflik) sözü tələb edir, ancaq gürcü dilində ismin zərflik halı mövcud olduğuna görə კარგი yaxşı > კარგად – yaxşıca, yaxşı olaraq formasını tələb və qəbul edir. Cümlədəki üzvlərin qrammatik say və zaman nöqteyi nəzərindən də bir-birinə uyğun ünsiyyətdə olduqları aydındır. Əsasən də baş üzvlər – mübtəda və xəbərin azərbaycancadan fərqli olduğu qeyd edilməlidir. . (6. 68)

Cümlənin baş və ikinci dərəcəli üzvləri - წინადადების მთავარი და მეორეხარისხოვანი წევრები

1. Baş üzvlər- მთავარი წევრები.

Artıq kursant bilir ki, xəbər შემასმენელი cümlənin baş üzvüdür və mübtədanın ქვემდებარე hal-vəziyyətini, yaxud hərəkətini əks edir. Xəbəri müəyyən etmək üçün: რა მოსდის საგანს? əşyaya (obyektə) nə olur? როგორია საგანი? əşya (obyekt) necə, nə cür, kim və nədir? sualları vermək lazım olur.

Xəbər üçün əsas onun felliyidir. Ancaq xəbər gürcü dilində də müxtəlif tərkibli, düzəlmə fel ola bilir. Düzəlmiş xəbər fellərdən ən çox rast gələn არის vardır, იყო idi və s. rast gəlinir. İsim hissəsi (gürcü dilində adətən) adlıq halda olur. İsim hissəsi formadəyişən, nadir halda formadəyişməyən nitq hissələri olur. Bəzən isim hissəsi arxaya keçə bilir:

Xəbərin əsaslı mənimsənilməsi bütövlükdə cümlənin quruluşu və başqa üzvlərin (mübtəda və tamamlıqların) daha yaxşı öyrənməsinə kömək edir. Cəmdə olan mübtəda müvafiq xəbərdən cəm halda olmasını tələb edir. (

Mübtəda subyektiv (S) şəxsin müvafiq ismidir, yəni cümlədə həmin feldəki subyektiv şəxsin bədəlidir. Həmin subyektə xəbər ilə hərəkət (vəziyyət) şamil olur. Məlumdur ki, təsirli və təsirsiz növ fellər quruluşuna görə müxtəlifdir. Təsirsiz (aktiv Subyektli) və orta (medioaktiv) fellərdə əks olmuş mübtəda, istər qrammatik forması, istərsə real forması dinamikdir (aktivdir). Məs: ჩამოიღო აბგა, მოხსნა მას ყაითანი, შემდეგ სავსე ხურჯინი გადმოდგა ძირს – heybəsini çıxardı, qaytanını açdı, sonra dolu xurcunu yerə qoydu. Burada mübtəda (subyekt) üçüncü şəxs olaraq daim fəaldır - მოქმედია.

Ancaq təsirli növdə: ვანოს კარგი სახლი აუშენდა – Vano üçün bir yaxşı ev quruldu. Burada subyekt təsir altındadır.

Yəni bu nümunələrdən birində mübtəda real (və qrammatik) olaraq fəaldır, ikincisi mübtəda isə qeyri-fəaldır (ancaq yalnız qrammatik kateqoriya olaraq fəaldır, quruldu – nə oldu?

Sanki özü özünü (fəal) qurdu, ancaq mübtəda – (ev) qurmadı, özü quruldu (kimsələr tərəfindən), yəni mübtəda (ev) fəal deyildi.

Gürcü dilində mübtəda 1-ci və 2-ci şəxs olarkən adətən əvəzliklərlə ifadə olur. Bu (mən, sən) əvəzliklər isə adətən hallanmırlar. Ancaq felin təsriflənmə üzrə II seriyada erqativ (rəvayət) halda, III seriyada isə - yönlük halda olur. O zaman mübtədanın yan sırasında əvəzlik də işlənir:. კაცმა გააკეთა - kişi etdi.

Mübtəda çağırış halda olmur. Beləliklə əmr şəklində isim mübtəda ola bilməz. Əmr şəklinin yan sırasında şəxs əvəzliyi, adətən olmur. –მეგობარო, წინ გაიხედე! Dostum, irəli bax! Burada mübtəda «dostum» deyil, «sən» təsəvvür olunur, mübtəda da «sən»-dir. Beləliklə, öyrəndik ki, gürcü dilində cümlə baş üzvlər hesabına əmələ gəlir, mühüm, baş rol xəbər üzərinə düşür.

Xəbər və mübtədanın tədrisi cümlədə onların sintaktik əlaqələrini araşdırmaqla tamamlanır. Sintaktik əlaqələrini bir qədər mənimsəmiş kursant indi konkret nümunələrin təhlili və formaları müqayisə etməlidir.

1. Şəxs əvəzliyi feli idarə edər: მე ვიხატები > ვეხატები (გულზე); შენ იხატები, > ის იხატება > ეხატება (მაგ: გულზე) mən (qeyri-müəyyən, ümumiyyətlə) çəkilir, rəsm oluram, (mən) onun üçün çəkilirəm (rəsm oluram) və s. Burada fel ismi (mübtədanı) idarə etməz.

2. İsim (şəxs) feli idarə edər (lazım olan formaya salar) və özü də feil tərəfdən idarə olunur (lazımı formanı qəbul edər): ის უშენებს > მე ვუშენებ > შენ უშენებ, o (onun üçün) tikir, mən (onun üçün tikirəm); sən (onun üçün) tikirsən. Burada isim (şəxs) feli şəxs formasında idarə edir. Əksinə ის უშენებს > მან აუშენა; მას აუშე – ნეს, burada fel – xəbər ismi (şəxsi) idarə edir – yəni fel keçmiş nəqli və şühudi zamanda olarkən mübtəda (isim) erqativ halda (mütləq) olmalıdır (tərcümədə adlıq halda qalır).

3. İkitərəfli (qarşılıqlı uzlaşma) idarə etmək məqamı da olur: მე ვცურავ; შენ ცურავ; ის ცურავს –mən üzürəm, sən üzürsən, o üzür, burada isim feli qrammatik şəxs üzrə idarə edir, ის ცურავს; მან გასცურა; მან იცურავა – o üzür, o üzdü, o üzmüşdü – fel ismi idarə edir (erqativ halda), qeyd etmişdik, yalnız II və III seriyada. I seriyada fel dəyişilməzdir, II - də dəyişiləndir: bu səbəbdən I seriyada əlaqə birtərəfli, II seriyada – iki tərəfli (qarşılıqlı)-dır.

Mübtəda və xəbər qrammatik sayda bir-biri ilə uyğunluq yaradır. Xəbər sayda mübtəda ilə uyğunlaşır, əgər:

1. Mübtəda tək saydadırsa: მასწავლებელი (ის, მას) ხშირად ჰკითხავდა – müəllim tez-tez soruşardı.
2. Mübtəda qeyri-dəqiq cəm şəklində olarsa: ხალხი მოედნისკენ გაემართა – xalq meydana yönəldi.
3. Mübtəda dəqiq miqdar sayla, yaxud ყველა – "hamı" əvəzliklə düzəlirsə: მაშინ მე ასი კაციც ვერ მაჯობებდა – o zaman mənə yüz kişi belə üstün ola bilməzdi ყველა გიცნობდა, თუ როგორი კაცი იყავი, მათ უყვარდი – hamı sənin kim olduğunu bilirdi, hamı səni sevirdi.

Xəbər cəm sayda mübtəda ilə uyğunlaşır, əgər:

1. Mübtəda cəm şəklində insanları təsvir edirsə: გლეხებმა ხელკეტს დაავლეს ხელი და მგელს დაუწყეს ცემა – kəndlilər dəyənəklərə sarılıb, qurdu döyməyə başladılar.
2. Mübtəda –ებ şəkilçili cəm sayda deyil (çünki bu formada xəbər tək sayda ola bilər) – ნარ şəkilçilidirsə (qeyri-insan da olsa):

«წყალნი, მთით დაქანებულნი, ალმასებრ უფსკრულს ცვივიან„ – sular, dağdan sürət almış, almaztək uçuruma tökülürlər (azərbaycan dilində fel tək şəkildə olur), gürcü dilində - cəmdə.

3. Cansızlar canlandırılmışdırsa (diri kimi təsəvvür edilirsə): ხმელ წიფელს სხვა ხეები შორს უდგანან – Başqa ağaclar qurumuş fıstıqdan uzaqda dayanmışlar və s .

4. Mübtəda cansız əşya olduqda xəbər ilə sayda uyğun olmur: მირბის წუთები, შემდეგ საათები, გადის კვირები – qaçır dəqiqələr, sonra saatlar, keçir həftələr. (5. 280)

Cümlənin ikinci dərəcəli üzvləri -წინადადების მეორე ხარისხოვანი წევრები

İkinci dərəcəli üzvlər cümlənin baş üzvlərinə aid olaraq, onları aydınlaşdırır və cümləni zənginləşdirir. Onlardan azərbaycan dilindəki üç növü ilə, tamamlıq- დამატება, təyin - განსაზღვრება və zərflik - გარემოება gürcü dilindəki ikinci dərəcəli cümlə üzvləri, əsas etibarilə, üst-üstə düşür. Bunların müqayisəli tədris prosesində 4 əsas üsul var: mətnə diqqət etmək, suallar qoymaq, formanın (morfoloji) əlamətləri üzrə xüsusiyyətləndirməsi və sintaktik əlaqələrini (ünsiyyətlərin) ayırd etməsi. Ayrılıqda hər hansı tək üsulu hər dəfə nəticə vermir, məs: sual qoymaq üsulu, çünki həmin sual cümlənin müxtəlif üzvlərinə şamil ola bilər.

Cümlə üzvlərinin növlərini dəqiqləşdirmək üçün morfoloji əlamətlərin (formant, forma və kateqoriyaların) müəyyən önəmi var, yəni hər hansı üzv hansı nitq hissəsi və hansı forma ilə düzəlmişdir. Nitq hissələri özlüyündə cümlə üzvü olaraq sintaksisin rolunu təyin edir: isim, məsdər və əvəzliklərin müəyyən qrupu (şəxs, işarə, təyin əvəzliyi və s.) əsas etibarilə mübtəda-tamamlıq rolunda olur, zərf – ზმნიზედა; feli-sifət მიმღეობა, say რიცხვითი სახელი və əvəzliklərin bəzi qrupları ნაცვალსახელთა ზოგიერთი ჯგუფი –adətən təyin; zərf-zərflik və s.

Gürcü dilindəki ismin «şah halı» sayılan erqativ (aktiv) hal mübtəda halıdır; adlıq hal-mübtəda və vasitəsiz tamamlıq; yönlük hal – mübtəda və tamamlıq-obyektlər; qoşmalı – თანდებულიანი – formalar – sadə tamamlıq, yaxud zərflikdir və s. Sadə tamamlıq = fel ilə qeyri-şəxsli əlaqədə olan tamamlıqdir.

Ancaq morfoloji əlamətlər də qüsursuz olmur. Bir sıra cümlələrdə müxtəlif üzvlər eyni nitq hissəsi ilə təmsil olur və eyni forma ilə iştirak edir (mübtəda və vasitəli-vasitəsiz obyektlər, təyin və sadə tamamlıq yiyəlik, sadə tamamlıq və yer zərfliyi yönlük və yerlik halda olur.

Beləliklə, cümlə üzvlərinin seçmə-ayırd edilməsi üçün bəzi vəziyyətlərdə bir neçə üsuldan istifadə etmək məqsədə uyğundur.

Tamamlıq - დამატება

Tamamlıq gürcü dilində üç növlüdür: müəyyən vasitəsiz tamamlıq - პირდაპირი დამატება, vasitəli (ikinci dərəcəli də demək olar) tamamlıq - ირიბი დამატება -və sadə (azərbaycan dilinin qrammatikasında: qeyri-müəyyən vasitəsiz) tamamlıqlar უბრალო დამატება

Müəyyən - vasitəsiz tamamlıq

პირდაპირი დამატება Subyektin (mübtədanın) hərəkətinin bilavasitə başqa obyektə ünvanlandığını bildirir.

Bəzi alimlər bu növ tamamlığı cümlənin baş üzvlərindən olduğunu isbat edirlər. Biz (öz dilimizdə də) belə saymırıq və səbəbi də bəllidir. Hərəkətin, icranın obyekti necə baş üzv sayıla bilər?

Müəyyən - vasitəsiz tamamlıq gürcü dilində isim, sifət, say, əvəzlik, məsdər və ismi-sifətlə ifadə olur. O feldən şəxs şəkilçilərin qəbulunu tələb edir, fel-xəbər isə müəyyən - vasitəsiz tamamlığı özünə uyğun halda görür, yəni təsir ikibaşlıdır.

მე წერილი დავწერე – mən məktub yazdım. O (tamamlıq) adlıq halda, fel isə I şəxs şəkilçilidir (zaman-keçmiş şühudidir).

მე წერილს ვწერ –mən məktub yazıram. O (tamamlıq) adlıq halda, fel isə I şəxs şəkilçilidir (zaman-keçmiş şühudidir).

Mən məktub yazıram. O (tamamlıq) yönlük halda, fel isə I şəxs şəkilçilidir (zaman-indiki qeyri-müəyyən).

Nümunələr göstərir ki, felin zamanı tamamlığı özünə uyğun hala salır.

b) Vasitəli tamamlıq ორიბი დამატება

Vasitəli tamamlıq cümlədə mübtədanın birbaşa (vasitəsiz) deyil, «qıyğacı» (yanötücü) tamamlıqdır (obyektdir). Vasitəli tamamlıq müəyyən vasitəsiz tamamlıq kimi isim, say, əvəzlik və məsdər ilə ifadə olur. O da felin tərkibinə özünə uyğun şəxs şəkilçilərini cəlb edir. Beləliklə, bu formada fel (xəbər) və vasitəli tamamlıq (obyekt) arasında qarşılıqlı ünsiyyət yaranır.

Əşyanın (obyektin) hərəkətə (felə) qarşı müxtəlif ünsiyyətini əks edən vasitəli tamamlıq keçici forması olan fellərdə də birgə istifadə olunur (əgər fel iki şəxslidirsə) ლომს ლეკვი უკვდება – şirin balası ölür. ლომს ლეკვი მოკვდომია – şirin balası ölübmüş. ძმა დას წიგნს აჩუქებს – qardaş bacıya kitab hədiyə edəcək. ძმამ დას წიგნი აჩუქა – qardaş bacıya kitab hədiyyə etdi. Burada azərbaycanca tərcümədə obyektlər (tamamlıqlar) fel forması dəyişsə də öz formasını dəyişmədi, ancaq gürcü dilində müəyyən vasitəsiz tamamlıq yönlük haldan (keçmiş şühudi zamanın fel formasına uyğun olaraq) adlıq halda ifasını tapdı. Ancaq vasitəli tamamlıq yönlük halda qaldı. Beləliklə gürcü dilində vasitəli tamamlığın forması yönlük halda olur.

c) Sadə (qeyri-müəyyən vasitəsiz) tamamlıq უბრალო დამატება

Sadə tamamlıq müxtəlif mənalıdır: şəxsli fellərdə də ifadə olur, təsriflənməyən fellərlə də. Ancaq müəyyən vasitəsiz və vasitəli tamamlıqdan fərqli olaraq sadə tamamlıq fellə şəxs formatı ilə unison (uyğun) olmur.

Sadə tamamlıq lokal (yerlik) şəkilçili: –თან yanında, –ში(გ) daxilində və –ზე(დ) üzərində (üstündə) – olur. Bəzən ერთად birgə, bir yerdə, bərabərlikdə sözü də peyda olur. Yiyəlik halda azərbaycan şəkilçi və ədatlarına bədəl olan sufikslər: –გან dan[2] (ჩემგან – məndən və s.); მიერ – tərəfindən (ჩემ(ს) მიერ mən tərəfdən), –თვის üçün (ჩემ(ს) თვის mənim üçün); birgəlik halda: – ურთ "ilə" sonluğu işlənir (ამხანაგით(ურთ) yoldaş ilə > ამხანაგთან ერთად – yoldaş ilə birgə (olaraq). Sadə tamamlıq yiyəlik, birgəlik və istiqamətli formalarda qoşma – ədatsız – sufiksiz də olur. Sadə tamamlıq –ვინ?kim? –რა?nə? suallara cavab olaraq özünə –ში, –ზე, –თან şəkilçiləri də qəbul edir: ვისზე? kim üzərində? რაში? nəyin daxilində? ვისთან? – kimin yanında? Yerlik zərfliyinə –სად? harada? sualı şamil olur:

1. ჭაში ჩავარდნილს დახმარება გაუწიეს – Su quyusuna düşmüşə yardım etdilər – რაში ჩავარდნილს? Nəyə düşmüşə? ჭაში – su quyusuna.

2. საავადმყოფოში მწოლარეს დაეხმარნენ – Xəstəxanada yatana yardım etdilər – სად მწოლარეს? harada yatana? საავადმყოფოში – xəstəxanada.

Təyin – განსაზღვრება

Təyin məlumdur ki, (azərbaycan dilində də) ikinci dərəcəli cümlə üzvüdür. Morfoloji fəsildə sifətdir. Əşyanın əlamətini göstərir: Necə – როგორი? Kimin – ვისი –Hansı – რომელი? Nə qədər – რამდენი? Nədən, nəyin – რისგან, რისი? suallara cavab olur. Təyin (gürcü dilində də) ismə (məsdərə) aid olur və cümlədə hər-hansı üzvü təyin edir, mənsubiyyətini, tərkibini və başqa atributları göstərir. Yiyəlik halda –ნათესაობითში olan

təyin – idarə edilən –მართებული, əlamət göstəricisi olan isə – əlamətdar – ატრიბუტული təyin olur.

Təyin (gürcü dilində də) adətən sifət – ზედსართავი, say – რიცხვითი სახელი, əvəzlik – ნაცვალსახელი, feli sifət - მიმღეობა və isim ilə არსებითი სახელი ifadə olur.

Gürcü dilində, adətən (poetik janrda istisna olaraq) təyin sifətlə düzəlir və təyin edilən sözdən irəlidə gəlir. Təyin termini – განსაზღვრება, təyin edici – მსაზღვრელი –və təyin olunan – საზღვრული adlanır. Nümunələr:

1. ქვის სახლი – «daş ev» (daş kimi, daş ev) təyin edici və təyin olan sözlər eyni, adlıq haldadır. ოქრო ბიჭი –qızıl oğlan, შავი ბიჭი –qara oğlan.
2. ქვის სახლი – daş evi (ev daşdan olduğu qabardılır), təyin yiyəlik haldadır. ოქროს საათი – qızıl (dan olan) saat, აგურის კედელი – kərpic divar.(3.189)

Beləliklə, təyin (hər hansı nitq hissəsi ilə olur-olsun) əşyanın (obyektin) necə, nə cür, hansı, hansısından, necəsindən? olduğunu dəqiqləşdirir.

Sifətin təyin rolu – isim ilə eyni tərzdə hallanır: თეთრი ქაღალდი – ağ kağız, თეთრმა ქაღალდმა – ağ kağız (keçmiş zamanda duran felə uyğun gələn) erqativ hal, თეთრ ქაღალდს – ağ kağıza – yönlük hal; თეთრი ქაღალდის – ağ kağızın – yiyəlik hal və s.

Say təyin rolunda – (istər miqdar, istərsə sıra sayı): სამი ვაჟი კაცი (ვაჟკაცი) – üç igid, მეოთხე წევრი – dördüncü üzv; ასი წელი – yüz il, ოცდამეერთე საუკუნე – iyirmi birinci əsr, ათი ჯგუფი (გუნდი) – on qrup, ნახევარი ვაშლი – yarı alma > ვაშლის ნახევარი – almanın yarısı.

Əvəzlik təyin rolunda (şəxs əvəzlikləri istesna olur): რომელი კაცი – hansı kişi? ის, კაცი – o kişi (burada «o» işarə əvəzliyidir), ჩემი, შენი, მისი ამხანაგი – mənim, sənin, onun yoldaşı, ყოველი მეზობელი ,ზოგიერთი ყბედი – qonşuların hamısı, – bəzi qonşular . . .

İsim təyin rolunda: ქვაკაცი – daş adam, ქვის სახლი – daş (dan) ev, მელის ქურქი – tülkü (xəz) kürkü, კათედრის გამგე – kafedra müdiri.

Feli sifət təyin rolunda: საქართველოს აღმაშენებელი მეფე IV დავითი – Kartlinin dirçəldici mepesi IV Davit, ზღვად გადაშლილი მინდორი – dəniz kimi açılmış çəmənlik, ცეცხლის მქრობელი/ცეცხლმქობელთა რაზმი yanğın söndürən dəstə və...

Qeyd: Ölçü-çəki (metroloji) göstərən isimlər təyin rolunda olarkən təyin edilənlə həmin sifət tərzində ünsiyyət yaradır: ერთი ბოთლი რძე – (bir) şüşə süd, დიდი ყანწით – böyük çaxır buynuzuyla, სამი ყუთი ვაშლი – üç qutu alma, (ერთი) კილო თაფლი – (bir) kilo bal, ოცი მეტრი ფარჩის ქსოვილი – iyirmi metr toxunma parça və s.(4.284)

Zərflik- გარემოება

Hər-hansı bir hərəkətin (icranın) necə, nə cür, hansı vəziyyətdə baş tutduğunu göstərən cümlənin ikinci dərəcəli üzvünə zərflik deyilir. Sualları belədir: nə zaman?, nə vaxt? – როდის? ,necə? – როგორ? –.nəyə görə? – რატომ? .nə üçün? – რისთვის? – , harada? – სად?

Zərfliklər zərf, isim, sifət, say, əvəzlik və ismi sifətlə təqdim olunur. Adətən felə (xəbərə) aid olur: გუშინ ხშირი სროლის ხმა ისმოდა – dünən sıx atəş səsi eşidilirdi. Zaman zərfliyi გუშინ (dünən) sıx atəşə yox, birbaşa eşidilirdi xəbərə bağlıdır. Bəzən zərflik sifət və qoşmalarla əlaqədar olur: ძლიერ კარგი/კეთილი/ –çox yaxşı, უფრო ცივი – daha soyuq, მეტად კეთილი çox (həddindən artıq, ziyadə) mehriban, xeyirxah və s.

Gürcü dilində beş əsas zərflik növü var: yer, vaxt, tərzi -hərəkət, məqsəd və səbəb zərflikləri (bax: zərfin semantik qrupları).

a) Yer zərfliyi ადგილის გარემოება hərəkətin yer, səth, müstəvi və istiqamətini göstərir, sualları: სად?,- harada?, haradan?,- საიდან? və საითკენ? – haraya?, lokal halların şəkilçilərin ismə bağlamaqla düzəlir, ოთახში – otaqda, ოთახიდან –otaqdan, ოთახისკენ – otaqda, otaq tərəfə və s.

Fel tədrisindən əvvəl feldə hərəkətin istiqamətini (vəziyyətini) özündə əks etməsindən danışdıq və burada fel önşəkilçilərinin rolunu qeyd etdik. Həmin önşəkilçilərin feldə zərflik rolunu oynadığını (bəlkə də birinci dəfədir ki) biz qeyd edirik, çünki hər-hansı ədəbiyyatda bu qrammatik hünəri kimsə tərəfindən qeyd olunmasına rast gəlmədik, məs: ვიდ "yerimək" fel özülündən ავიდა qalxdı (o, yuxarı harasa, nəyinsə üzərinə) fel formasında artıq yer zərfliyi bir qədər dəqiqləşir. Bu felə əks hərəkəti azərbaycan dilində başqa fel göstərir: endi. Ancaq, elə iş də burasındadır ki, gürcü dilində başqa feli axtarmaq lazım gəlmir, həmin fel özülündən düzəlmiş kökə – ვიდა – ya başqa önşəkilçi (preverb) qoşmaqla – ჩავიდა – endi (yeni leksiki məna) alınır və bu da yer zərfliyinə bir işarə əlamətini özündə kəsb edir.

b) Zaman zərfliyi – დროის გარემოება hərəkətin vaxtını göstərir və: როდის? nə zaman?, რა დროიდან? – nə zamandan?, რა ხანიდან? – hansı vaxtdan?, როდემდის? – nə vaxta qədər?, რამდენ(ს) – nə qədər? (zamanla)., suallarına cavab olur.

Zaman zərfliyi zərflə ifadə olur. İsim ilə ifadə olanda ədat və qoşması olur: შარშან დიდი თოვლი მოვიდა – inişil çoxlu qar yağdı. დღეს ბულბულის ადგილზე ყვავი ჩხავის – bu gün bülbülün yerində qarğa qarıldayır. გუშინ (მან) დიდხან (ს) იტირა – dünən uzun zaman (yəni çox) ağladı.

c) Tərzi hərəkət zərfliyi ვითარების გარემოება hərəkətin necə / nə cür / hansı tərzdə baş verdiyini göstərir. Sualları როგორ? – necə?, რანაირად? – nə cür?: ölçü-metroloji və hərəkətin dinamikasını göstərmək üçün: რამდენად? – nə qədər?, nə həcmində? neçəyə? – რა ზომის/ზომით? – hansı ölçüdə?, რამდენჯერ? – neçə dəfə? Nümunələr:

ბესო ყვირილით (როგორ?) მორბოდა – Beso qışqıraraq bizə tərəf qaçırdı.

გემი ნაპირს ნელ–ნელა (რანაირად?) მიადგა – Gəmi sahilə yavaş-yavaş yanaşdı.
მევალემ ფქვილი ბათმან–ბათმან დაუბრუნა – Borclu unu batman-batman qaytardı.
მომღერალმა სიმღერა სამჯერ გაიმეორა – Müğənni nəğməni üç dəfə təkrarladı.

ç) Səbəb zərfliyi მიზეზის გარემოება fel (xəbərə) aid hərəkətə aydınlıq gətirir və: რატომ? – nə üçün?, nədən?, რის გამო? – nəyə görə?, რა მიზეზით? – hansı səbəbdən? suallara cavab olur. Səbəb zərfliyi müvafiq zərflə və nitq hissələrinə yiyəlik və zərflik halında გან və გამო qoşmaları əlavə etməklə ifadə olur, məs: იმიტომ რომ – ona görə ki, toxa suyun yaxınlığında tullantı qaldığına görə paslanmışdır - თოხის წყალთან ახლოს გდებისაგან (რის გამო)? დაჟანგებულა; თავისი სისულელის გამო გაბიაბურდა – özünün əfəlliyinə görə tamamilə biabır oldu –რის გამო? –სისულელის გამო.
ლექციაზე იმიტომ (რატომ?) დავაგვიანე, რომ ჩამძინებოდა – Mühazirəyə yatıb-qaldığıma görə, gecikdim.

d) Məqsəd (hədəf) zərfliyi – მიზნის გარემოება felə bağlanır və hərəkətin hansı məqsədə hədəfləndiyini göstərir. Sualları: რისთვის? – nə üçün?, რად? – nəyə görə?, რა მიზნით? – hansı niyyətlə?, amalı nədir? ola bilir. Məqsəd (amal, hədəf, niyyət) zərfliyi ismin yiyəlik halına – თვის üçün qoşmanı əlavə etməklə, əvəzliklə və feli – sifətlə də ifadə etmək olur, məs:

მისთვის მინდოდა, რომ – onun üçün istəyirdim, çünki სკოლაში მიმაბარეს სასწავლებლად – məktəbə oxumaq üçün qoydular. გავედით ყანაში მწყერზე სანადიროდ – tarlaya çıxdıq, bildirçin ovuna. (5.364.)

Ədəbiyyat

1.Arn. Çikobava, Dilşünaslığa giriş, Tbilisi, 1952.
2. Arn. Çikobava redaktorluğu ilə, Gürcü dili SSRİ xalq dilləri, IV, Moskva, 1967.
3. Ak. Şanidze, Gürcü dili qramatikasının əsasları, Tbilisi, 1973.
4.Ak. Şanidze, Gürcü dilinin qrammatikası, Tbilisi, 1962.
5.M.Talakvadze, Gürcü dili qrammatikasının tədris metodikası, Tbilisi, 1965.
6.Avt. Arabuli, Gürcü nitq mədəniyyəti, II buraxılış, Tbilisi, 2005.

Т.Алиева

Важность обучения раздела синтаксис

Резюме.

Статья посвящена грамматическому разделу «Синтаксис».

В статье рассматривается ситактические нормы и правила между словами и предложениями, которые способствуют развитию навыков письмо, чтения и устной речи курсантов, благодаря которым курсанты обладают практическими навыками и умениями точно и логически выражать свои мысли на грузинском языке.

Для изучения грамматической структуры любового языка необходимо исследовать слова, словосочетания и предложения.

Чтобы изучать язык и обучать языку следует обратить внимание разным методам обучения, например, ознакомиться с нормами языка и развитием речи, понятием и восприятием, умением правильно произносить (орфоэпия) и грамотно говорить (ОРФОграфия), автоматизированным усовершенствованием употребления знаков препинаний (пунктуация) и т.д.

Грузинский (картули) язык наряду мегрел, цван и лазским языками входит в Кавказскую группу языков, имеет место в Кавказско–иберской семье.

Обучение грузинскому языку имеет широкое и разностороннее значение, курсант изучая язык грузинского народа, одновременно знакомится с его обычаями, традициями, природой и менталитетом.

Великий грузинский педагог Якоб Гогебашвили говорил: «Язык является лучшим средством для развития мышления и завоевания знаний.»

Статья посвящена грамматическим методам преподавания грузинского языка. В статье раскрывается грамматические методы и способы преподавания грузинского языка, фонетический разбор слов, морфологический и синтаксический разбор предложений, синтаксические связи между словами и предложениями. В статье большое внимание уделяется в основном фонетике, лексике и морфологии грузинского языка. Чтобы изучать грузинский язык необходимо познакомиться с развитием языка и его языковыми нормами.

Ключевые слова: синтактические связи, синтагмы, навык, главные члены предложения, второстепенные члены предложения, субъект, сказуемое, подлежащее, переходные и непереходные глаголы, морфологические признаки, дополнение, обстоятельство, определение, согласование, управление и примыкание.

T.Aliyeva

The importance of teaching of syntax

Summary

This article is about a grammatical branch of syntax. Syntactical norms and rules between words ands sentences which sorves to the development of skills of correspondence, reading and oral speech of cadets in this article, so that the cadets get practical skills and abilities to express their thoughts precisely and logically in Georgian language. In order to study grammatical structure of a language it is necessary to research words, word combination and sentences.

You have to pay attention to different sides of teaching and learning of language for example: get to know the norms and development of speech, to understand and to adopt, to speak correctly (orthoepia) and to be able to write accurately (orphography), to imprave automating of using punctuality and etc.

Georgian (kartuli) language with the languages of meqrel,svan and laz in the group of Caucauses iber familys.

Teaching of Georgian language has vast and branchy significance. Cadet leains Georgian peoples language, customs, nature, mentality a qreat Georgian scholar Yakob Qoqebashvili said: “Language is the best cure of qaining knovledge and developing your mind”.

This article deals with grammatical methods of teaching Georgian language Phonetical parsing of words, morphological and syntactical analysis of sentences, syntactical relations among words and sentences, grammatical methods and ways of teaching Georgian language are explored in this article, a great attention is paid especially to phonetics, lexics and morphology of georgian language. For studying georgian language, it is important to get to know the development of speech and norms of language.

Key words: syntactical connection, sintagma, habits, subject, main parts of speech, auxilary parts of speech, predict, trancitive and intransitive verbs, morphological signs, object, adverb, attribute, coherence, approach and management relations.

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 02.08.2019
Filologiya üzrə fəlsəfə doktoru Ülviyyə Əfəndiyeva tərəfindən çapa tövsiyə olunmuşdur.

NƏRMİN ƏHMƏDOVA
ADU
Rəşid Behbudov 134
E-mail: narmin324@mail.ru

QRAMMATİKA HAQQINDA

Xülasə

İnsan bir çox nəzəriyyələrdə əsas tədqiqat obyekti hesab edilir. Antroposentrizm nəzəriyyəsi də insanı kainatın aparıcı qüvvəsi, hər bir şeyin başlanğıcı və üzərində heç bir digər varlığın hökmü olmayan obyekt kimi öyrənir. Bu dini-fəlsəfi düşüncə tərzi İntibah dövründə formalaşmış və nəinki Avropa, eyni zamanda Asiya təfəkkürünün formalaşmasında əsas vasitə hesab edilir.

İnsanı digər canlılardan fərqləndirən onun danışa bilmək qabiliyyətidir. Necə deyərlər: Ağlı, müdrikliyi olan fərd insan hesab edilir. Bu zaman diqqəti cəlb edən insanın işlətdiyi cümlələrin qrammatik quruluşudur və onların koqnitiv əsaslı olmasıdır. F.Palmer yazır: "Dilin insana məxsus olan xüsusiyyətini belə əhəmiyyətli edən şey onun qrammatikası və konseptidir".

Bəzi dillərin qrammatikası vardır, bəzilərinin isə yoxdur. Məsələn, çin dilinin qrammatikası yoxdur. İngilis dili isə mükəmməl qrammatikaya malikdir. Məlumdur ki, ingilis dilində hər bir sözün fərqli forması vardır, çin dilində isə bütün sözlər eyni formaya malikdir. Latın dilində *amo* ("I love" - "Mən sevirəm") cümləsinin yüz fərqli forması vardır. İngilis dilində işlətdiyimiz *to love* feilinin isə dörd forması vardır: *love, loves, loved, loving*. Yaxud: *take, takes, took, taken, taking* və s. Qrammatikada müşahidə olunan fərqliliklər dilin morfologiyası və sintaksisi tərəfindən öyrənilir.

Açar sözlər: qrammatika, incəsənət, yazı, qədim, yunan, Latın

Hər hansı bir konseptin istər tarixi inkişafını, istərsə də quruluşunu təhlil etməzdən əvvəl həmin konseptin nə olduğunu, nəyi ifadə etdiyini bilmək lazımdır. Odur ki, biz də "Qrammatika nədir?" sualının cavabını axtaraq.

Qrammatika termini qədim yunan sözü olan *grammatikē* sözündən götürülmüşdür. *Gram* 'yazı, yazılmış', *tikē* isə 'incəsənət' mənasını verir və bütövlükdə *grammatikē* 'yazının incəsənəti' kimi ifadə edilir. Qədim Yunanıstanda və qədim Romada *grammatikē* və *qrammatika* terminləri bütövlükdə dilçilik elmini əhatə edən bir sahə kimi başa düşülsə də, erkən orta əsrlərdə qrammatika Latın dilinin öyrənilməsi kimi də qəbul edilirdi (2, s.79). Qrammatikaya bu cür yanaşma İngiltərədə XVI əsrin sonlarına qədər davam etdi. Qeyd edək ki, həmin dövrdə Latın dilinin qrammatikası məktəblərdə tədris olunan yeganə qrammatika idi.

Bəzi iddialara görə, qrammatika termini ilk dəfə Platonun əsərlərində işlənmişdir. Lakin həmin dövrdə qrammatika 'oxumaq, yazmaq, savad almaq' mənasını ifadə edirdi (4, s. 595-610; 7, s. 65).

Qrammatik kateqoriyaların tədqiqinə qədim yunan alimlərinin əsərlərində rast gəlmək olur. Qrammatikanın elm kimi əsası isə 2.500 il əvvəl qədim Yunanıstan və Hindistanda qoyulub. Yunan alimi Dionisi qrammatikanı "şeir və nəsr əsəri yazan ədiblərin təcrübi biliyi kimi izah edirdi.

N.Xomski və M.Heyl "The Sound Pattern of English" adlı kitablarında qrammatikanı belə təsvir edirlər: "Biz 'qrammatika' terminini sistemli ambiqyutivlik kimi işlədirik. Bir tərəfdən bu termin dilçilər tərəfindən yaradılan eksplisit nəzəriyyəni əks etdirir və danışanın kom-

petensiyasının təsviri kimi qəbul edilir. Digər tərəfdən isə o (qrammatika) kompetensiyanın özü kimi qəbul edilir (3, s.13).

V.Fromkin və R.Rodman isə qrammatikanı belə ifadə edirlər: " Dildə mövcud olan səslər və səs nümunələri, mənanın əsas vahidləri, məsələn sözlər və yeni cümlə qurmaq üçün sözlərin birləşdirilməsi qaydaları dilin qrammatikasını əhatə edir" (5, s.13).

Bu alimlərin qrammatikaya yanaşma tərzi N.Xomskininki ilə üst-üstə düşür, yəni onlar da qrammatikanı insanların linqvistik kompetensiyasının təqdimatı kimi qəbul edirlər. Ümumiyyətlə, dili başa düşmək üçün ilk növbədə dilin daxili qanunauyğunluqlarını, onda ifadə edilən şüurlu və şüursuz qaydalar ardıcıllığını, həmçinin gündəlik danışıq qaydalarını bilmək lazımdır.

V.Fromkin və R.Rodman qrammatikaya iki yanaşma təklif edirlər: birinci yanaşmada qrammatikadan istifadə edərək danışanların beyinlərində olanlar öyrənilir; ikinci yanaşmada isə beyin daxilində olan qrammatika təsvir olunur (5, s. 15). Təxminən 2000 il əvvəl yunan qrammatiki Dionisi qrammatikanı belə təsvir edirdi: lazım olan dildə danışmaq və yaxud lazım olan dil haqqında danışmaq. Hazırda biz bu iki mənanı fərqləndirməyə çalışmayacağıq, çünki dilçinin deskriptiv qrammatikası danışıqda ifadə olunan qrammatikanın formal cümlələrinin təsvirinə cəhddir.

Biz deyəndə ki, cümlə qrammatikdir, bu onu ifadə edir ki, bu cümlədə qrammatik qaydalar gözlənilmişdir. Məsələn, cümlənin mübtədası, xəbəri və s. vardır. Əksini deyəndə isə, yəni cümlə qrammatik deyil deyiriksə, bu onu ifadə edir ki, cümlənin quruluşunda nə isə bir çatışmazlıq mövcuddur.

Hər bir dilin qrammatikası mürəkkəbdir, məntiqidir və o, düşüncənin qeyri-müəyyən sayda olan cümlələrini ehtiva edə bilər.

İngilis dilinin qrammatikası haqqında ilk kitab 1585-ci ildə Vilyam Bullokar tərəfindən yazılmış "İngilis dili üçün yığcam qrammatika" kitabı (Brief Grammar for English) oldu. Lakin ən təsiredici və daha çox marağa səbəb olan kitab 1762-ci ildə dərc olunan və müəllifi R.Louz olan "İngilis dilinin qrammatikasına qısa giriş" (Short Introduction to English Grammar) adlı kitab idi. Bu kitabla ilk dəfə preskriptiv, yəni normativ qrammatika erası başladı. Preskriptiv qrammatikaya üstünlük verən alimin fikrincə, qrammatika dilin düzgün istifadə qaydaları haqqında elm kimi qəbul edilməlidir və onun məqsədi müəyyən dövrdəki aktual istifadəsini deyil, hansı istifadənin daha doğru olduğunu araşdırmaqdır.

İnsan bir çox nəzəriyyələrdə əsas tədqiqat obyekti hesab edilir. Antroposentrizm nəzəriyyəsi də insanı kainatın aparıcı qüvvəsi, hər bir şeyin başlanğıcı və üzərində heç bir digər varlığın hökmü olmayan obyekt kimi öyrənir. Bu dini-fəlsəfi düşüncə tərzi İntibah dövründə formalaşmış və nəinki Avropa, eyni zamanda Asiya təfəkkürünün formalaşmasında əsas vasitə hesab edilir.

İnsanın yaranmasının öyrənilməsi, insan dilinin inkişaf mərhələləri, onun danışığının öyrənilməsi, yazısı və oxusu, cümlə qurması və s. kimi amillər həmişə müzakirə və diqqət mərkəzi olmuşdur. Bir çox antropoloqlar insanı "alət hazırlayan insan" adlandırırlar, lakin F.Palmerin də iddia etdiyi kimi meymunlar da sadə alətlər hazırlaya bilirlər. Belə olan halda insanı digər canlılardan fərqləndirən nədir? Artıq təsdiq olunmuşdur ki, bu, insanın danışa bilmək qabiliyyəti ilə bağlıdır. Necə deyərlər: İnsan: "danışan heyvan", yaxud *homo loquens* "man with wisdom" ("ağlı, müdrikliyi olan insan" yaxud "müdrik insan") adlanır. Bu zaman diqqəti cəlb edən insanın işlətdiyi cümlələrin qrammatik quruluşudur. F.Palmer yazır: "Dilin insana məxsus olan xüsusiyyətini belə əhəmiyyətli edən şey onun qrammatikasıdır" (10, s.5). F.Y.Veysəlli yazır: "Bir çox heyvanlar fərqli səslər çıxara bilirlər. Məsələn, it hürür, at kişnəyir və s. Səs və məna arasındakı əsas əlaqə insanın səs vasitəsilə sözlərə verdiyi qrammatik

quruluşdur” (13, s.19). Bu səbəbdən də insan *homo grammaticus* ("grammatical man", human use of grammar, language) “qrammatik adam” adlanır (10, s.8).

Əsrlərdir ki, insanlar danışdıqları dilin inkişaf yollarını araşdırmaqla məşğuldurlar. Dilin “elmi”, yaxud obyektiv yolla öyrənilməsi də diqqəti cəlb etmişdir. Bəzi alimlərin qənaətinə görə, dilə ünsiyyət sistemi kimi yanaşılır və bu sistem digər canlıların ünsiyyət sistemi ilə müqayisə edilir. Məsələn, müəyyən olunmuşdur ki, gibbonlar ən azı doqquz fərqli səs çıxarırlar. Yaxud arıları nümunə göstərə bilərik. Arılar istiqaməti göstərmək üçün mürəkkəb rəqs etmə sisteminə malikdirlər. Daha sonra alimlər insan tərəfindən yaradılmış, icad edilmiş bəzi mexanika sistemlərinin ünsiyyət vasitəsi kimi düşündürücü qabiliyyətlərinin olduğunu irəli sürürlər (7, s. 65). Məsələn, işıqfor. Üç rəngli işarənin istiqamətverici əlaməti insanın düşünmək bacarığını əks etdirir. Bütün bu kimi xüsusiyyətlər dilin ünsiyyət sistemi əlamətlərilə bağlı hesab edilir. Bu sistemlərin hər biri dili anlamaq üçün insana yardım edir, onların hər birinin ünsiyyət növü kimi öz fərdi yolları, üsulları vardır.

Onlar arasındakı fərq əsasən qrammatikada müşahidə olunur. Təbii ki, gibbonların çıxardığı səsdə qrammatika var deyə bilmərik. Lakin onların yaradılışında mövcud olan bir sistemlilik vardır. Yaxud arıların elm tərəfindən hətta bəzi hallarda möcüzə hesab edilən ünsiyyət sistemində bir sistemlilik olduğu faktdır. Həmçinin, insanın hazırladığı və müəyyən ardıcıllıqla qurulan işıqforun əlamətlərində belə sistemlilik, əlaqəlilik müşahidə olunur. Müşahidə olunan bu qaydalı ünsiyyət ardıcıllığı bizə mənanı anlamağa istiqamət verir.

Qrammatikaya aid ilk əsər Panininin Sanskritin mövcud olan ən erkən qrammatikasından bəhs edən *Astādhyāyī* əsəri hesab edilir (11, s. 89). Həmin əsər sanskritin danışıq versiyasında 5 dil daşıyıcısının danışığını təsvir edir. Əminliklə deyə bilməsək də, güman edirik ki, Panini dilin quruluşunun müəyyən edilməsi, qorunması barədə çox araşdırma aparmışdır (2, s. 79). Dilin hind mədəniyyətində dini uyğunluğu da Panininin əsərində izah edilir. Panini dilin qrammatikasının insan danışığına gətirilməsində ruhun xidməti olduğunu iddia edirdi və bunu araşdırırdı. Amerikalı strukturalist L.Blumfild Panininin təsviri Sanskrit qrammatikasını təhlil etmişdir. L.Blumfild yazırdı: “İnsan ağlının ən böyük qabiliyyətini əks etdirir və ... dillərin təsviri üçün əla modeldir” (1, s.267).

Paninidən başqa, qrammatikanı öyrənən ilk alim kimi Donatusun adını çəkə bilərik. Donatus latın qrammatikası (*Ars Grammatica*) adlı ilk hesab edilən kitab yazmışdı. Həmin kitab iki hissəyə bölünür: Kiçik qrammatika (*Ars Minor-Shorter Grammar*) və Geniş qrammatika (*Ars Maior - Longer Grammar*). Kiçik qrammatikanın məqsədi hər bir nitq hissəsini müəyyən etmək, onların qruplarını sadalamaq və adlandırmaq, dilin flektiv sistemi daxilində fərdi sözləri müəyyən etmək məqsədi daşıyırdı. Asan yadda qalması üçün A.Donatus mətnləri suallar və cavablar şəklində tərtib edir və ierarxik olaraq hər səviyyəni təkrar-təkrar hazırlayırdı (12, s. 20).

Qrammatikanın tərifi fərqli şəkildə verilir. F.Palmer yazır: “Qrammatika düzgün qurulmuş cümlələrin sonsuz birliyini müəyyənləşdirən fiqur hesab olunur. Qrammatika həmçinin bu cümlələrin hər birinin bir, yaxud daha çox struktural təsvirini müəyyən edir” (10, s.9). O.Musayev yazır: “Qrammatikasız dil yoxdur və ola da bilməz. Qrammatika hər bir dilin onurğa sütunu, quruluş skeletidir. Dilin yerinə yetirdiyi başlıca funksiya, yəni kommunikasiya funksiyası ancaq qrammatikanın sayəsində gerçəkləşir, dil ünsiyyət vasitəsinə çevrilir və insanlara xidmət edir” (8, s.6). F.Y.Veysəlli yazır: “Ənənəvi qrammatika bir elm sahəsi olaraq çoxşaxəli və rəngarəng bilgilər tarixidir və bu tarixin dərin mərhələlərində hələ də açılmamış qapılar, ziddiyyətli məsələlər qalmışdır” (13, s.16).

Qrammatikanın təbiətini anlamaq üçün dilin üç xüsusiyyəti müəyyən edilmişdir. Dil mürəkkəbdir, məhsuldardır, ixtiyaridir (1, s.10).

1.Qrammatikanın mürəkkəb təbiətini tərcümə zamanı aydın müşahidə etmək olar. Məsələn, bir dildən digər dilə tərcümə edərkən qarşılaşdığımız çətinliklər bizə bunu düşünməyə əsas verir. Hələ elə bir üsul tapılmayıb ki, bir dildə olan materialı digər dilə olduğu kimi tərcümə etsin. Heç bir kompyuter proqramı bu qarışıqlığı həll edə bilmir. Doğrudur, tərcümə zamanı üzləşdiyimiz bu problemi kompyuterin üzərinə atırıq. Amma unutmayaq ki, kompyuteri yaradan insandır və bu da o anlama gəlir ki, insanın belə tərcüməni öhdəsinə götürə bildiyi bir üsul mövcud deyil. 2.İkinci xüsusiyyət dilin məhsuldarlığıdır. Hər bir insan gündəlik danışığında əvvəl eşitmədiyimiz çoxlu cümlələr işlədə bilər. Hər bir fərdə məxsus cümlələr vardır və işlədilən bu cümlələr hətta şəxsin özü tərəfindən belə ikinci dəfə eyni formada səslənmir, işlədilən cümlələr hər səsləndiyində yeni məna kəsb edə bilir. Bu da dilin məhsuldarlığını sübut edir. 3.Üçüncü xüsusiyyət dilin ixtiyariliyidir. Bu, səs və məna arasında birbaşa əlaqənin olmadığını göstərir. Bu da dillərin fərqliliyi faktına söykənir. Dil fərqlidirsə, o halda onun qrammatikası da fərqlidir. Bəzi alimlər iddia edirlər ki, "dilin dərinliyində" güclü oxşarlıq müşahidə etmək olar. Dillərin universal xüsusiyyətlərini burada xatırlamaq olar.

Hazırda əsas diqqət qrammatikanın tədrisinə yönəldilir. Qrammatikanın tədrisi çox zaman mübahisə doğurur. N. Nazari yazır ki, qrammatikanın tədrisinə çox zaman ayırmaq lazımdır. O, həmçinin ünsiyyət zamanı işlədilən qrammatikanın öyrədilməsini ön plana çəkir (9, s.156).

Dil öyrənmədə və öyrətmədə qrammatikaya üstünlük vermək zəruridir. Düzgün qrammatika həmin dilin sanki aynası hesab olunur. Düzgün ardıcıllıqlı cümlələr dilin təsvirini olduğu kimi anlamağa imkan verir.

Ədəbiyyat

1. Bloomfield L. 'Review of Konkordanz Panini-Candra by B.Liebich', Language 5, 1929, pp.267-76.
2. Bhate S. and Kak S. 'Panini's grammar and computer science,' Annals of the Bhandarkar Oriental Research Institute, 72, 1993, pp. 79-94.
3. Chomsky N. Aspects of the Theory of Syntax, Cambridge, MA: MIT Press, 1965.
4. Demos R. 'Symposium : Plato's theory of language and Plato's philosophy of language'. *The Journal of Philosophy*, 61, 1964, pp.595-610.
5. Fromkin V., Rodman R. An Introduction to Language. USA: New York, 1993.
6. Krashen S. Principles and Practice in SLAcquisition (Vol.2). Oxford: Pergamon, 1982.
7. Law V. The History of Linguistics in Europe from Plato to 1600, Cambridge: Cambridge University Press, 2003, pp.65-80.
8. Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 1998.
9. Nazari N. The effect of implicit and explicit grammar achievements in receptive and productive modes. Procedia-Social and Behavioral Sciences, 70, pp.156-162.
10. Palmer F.R. Grammar. Great Britain: Hazell Watson and Viney Ltd, 1971.
11. Rogers D.E. 'The influence of Panini on Leonard Bloomfield', Historiographia Linguistica, 14, 1987, pp. 89-138.
12. Thomas M. Fifty Key Thinkers on Language and Linguistics. New York, NY, 2011.
13. Veysəlli F.Y. German dilçiliyinə giriş. Bakı: "Təhsil" NPM, 2003.

N.Akhmedova

About grammar

Summary

The article searches the answer of *what is grammar*? It deals with the history of grammar beginning from ancient times. It states that it is necessary to define what the concepts express

before investigating their historical development and their structure.The article clarifies the meanings of the terms *gram* and *tikē*. It states that gram means writing, and *tikē* means art. So, grammar is understood as art of writing. The grammar was used to be the teaching way of Latin in middle ages though it was used as part of linguistics in ancient Greek and Rome. The new ways of approaching grammar have also been touched upon in the article.The definition of grammar has been given differently by many linguists. For instance, F.Palmer considers grammar as definite set of sentences. O.Musayev writes that there is not any language without grammar. According to this linguist, grammar is meant to be the main unit of every language. Communication is the main function of the language, and this function is only realized through grammar. The opinion of F.Veysalli has been touched upon in the article as well. Nowadays, the ways of teaching grammar are paid much attention to, and they need to be given much time to. Grammar is also meant to be useful in the communication process.

It is necessary to differentiate grammar in language learning as well as in language teaching.

Key words: grammar, art, writing, ancient, Greek, Latin

Н.Ахмедова

О Грамматике

Резюме

Статья исследует ответ -что такое грамматика? Она посвящена истории грамматики с древних времен. Она указывает, что необходимо определить, что выражают концепции прежде чем изучать ее историческое значение и структуру. Статья поясняет значения терминов gram и tikē. Она указывает, что *gram* означает письмо, *tikē* -искусство. Так, грамматика понимается как искусство письма. Грамматика использовалась как способ изучения Латинского языка в средние века, хотя она использовалась как часть языкознания в Древней Греции и Риме. В статье также затронуты новые подходы к грамматике. Определение грамматики было дано по-разному многими лингвистами. Например, Ф. Палмер рассматривает грамматику как определенный набор предложений. О. Мусаев пишет, что нет ни одного языка без грамматики. Согласно этому языковеду грамматика считается главной единицей каждого языка. Общение-главная функция языка и эта функция реализуется только через грамматику. Мнение Ф. Вейсялли было также затронуто в статье.

В настоящее время уделяется много внимания способам изучения грамматики и для этого требуется много времени. Грамматика также считается полезной в процессе коммуникации. Необходимо дифференцировать грамматику в изучении языка и в преподавании языка.

Ключевые слова: грамматика, искусство, письмо, древний, греческий, Латынь

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi:01.08.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Fəridə Allahverdiyeva tərəfindən çapa tövsiyə olunmuşdur.

XURAMAN RƏFİYEVA
E-mail: xrefiyeva@gmail.com
ADPU-nun Şəki filialının
(Şəki şəh.,M.Rəsulzadə küç., 305)

AZƏRBAYCAN VƏ FRANSIZ DİLLƏRİNDƏ SİFƏTİN DƏRƏCƏLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

Xülasə

İstər fransız, istərsə də Azərbaycan dillərində sözlərin böyük bir qrupu əşyanın əlamət və keyfiyyətini bildirir. Belə sözlər sifət adlanır. Lakin Azərbaycan və fransız dillərində sifətlərin isimlərlə, yəni əşya, şey bildirən sözlərlə əlaqəsi müxtəlifdir. Məlum olduğu kimi, dilimizdə isimlərlə sifətlər arasında sintaktik əlaqə yanaşmadır.

Fransız dilində isə sifətlər əlamətini işləndiyi isimlərin cinsindən, tək-cəmindən və halından asılıdır. Başqa sözlə desək, fransız dilində sifətlər isimlərlə uzlaşır. Sifət əşyanın əlamət və keyfiyyətini bildirən əsas nitq hissəsidir. Sifətlər daha çox əşyanın əlamətini,rəngini bildirir. Əlamət dedikdə əşyanın zahiri görkəmi, keyfiyyət dedikdə isə onun daxili xüsusiyyətləri nəzərdə tutulur. Fransiz dilində azərbaycan dilində olduğu kimi sifətin üç dərəcəsi vardır.

1.Le degré positif - adi dərəcə;
2.Le degré comparatif - müqayisə dərəcəsi;
3.Le degré superlatif-üstünlük dərəcəsi.

Fransiz dilində sifətin adi dərəcəsi (le degré positif) aid olduğu ismin keyfiyyətinin adi vəziyyətdə olduğunu bildirir. Fransiz dilində sifətin **müqayisə dərəcəsi** (le degré comparatif) iki və daha artiq şəxs və əşyaya aid olan keyfiyyətin müqayisəsini ifadə edir. Burada bir keyfiyyət digərindən aşaği, üstün və ya bərabər ola bilər.Müqayisənin **azaltma növü** (intériorité) keyfiyyətin adi haldan az olduğunu bildirir, və bu zaman sifətdən əvvəl **"moins" (az)** zərfi,sifətdən sonra isə, **"que' '** işlənir. Üstünlük dərəcəsi (le degré superlatif)- Sifətin üstünlük dərəcəsi əlamət və keyfiyyətin ən yüksək dərəcədə olduğunu bildirir. Bu dərəcədə "plus, moins, aussi" zərflərin önündə ismin cinsinə və miqdarina uyğun olaraq müəyyən artikllardan istifadə olunur. (le,la les) artikllarından biri işlənir.**(le,la,les+plus,moins+sifət).**

Açar sözlər: *sifət,sifətin isimlə uzlaşması, sifətin dərəcələri*

6. Emprunts au russe. C'est au XVIIIe siècle que ces premiers emprunts étaient alors peu nombreux et ils appartenaient à des domaines différents de l'activité humaine. Ces premiers emprunts au russe ne sont encore pour la plupart que des mots exotiques dans le vocabulaire français. Ce sont des mots tels que : *archine, artel, boyard, balalaïka, cosaque, datcha, dvor, hetman, izba, hacha, knout, kopeck, koulak, mammouth, mazout, moujik, rouble, samovar, steppe, taïga, tchernoziom, téléga, touloupe, tonne troïka, ukase, verste, vodka, zakouski, intelligentsia.*

Ces mots avaient pénétré en France par l'intermédiaire de la littérature russe traduite en français et ils désignaient pour la plupart des phénomènes ayant exclusivement trait à la vie de la Russie.

Les emprunts faits au russe après la Révolution d'Octobre sont surtout des termes de valeur sociale et politique, ainsi que les termes économiques. Ce sont des mots qui ont été adoptés intégralement, par exemple : *kolkhoze, sovkhoze, komsomol, bolchevik, Soviet ;* mentionnons encore, d'une part, *samizdat* qui reflétait les aspirations des démocrates à la liberté de la parole et, d'autre part, le *spoutnik* qui a fait sensation dans le monde entier.

Parfois ce sont des bases formatives russes auxquelles se sont ajoutés des affixes internationaux ou français : *léniniste, léninisme, kolkhozien, sovkhozien, stakhanovisme, stakhanoviste.*

Cela peuvent être aussi des mots qui ont été déjà formés en russe avec des morphèmes ou éléments internationaux : *collectiviser, collectivisation, tractoriste, soviétique, agit-prop* « agitation et propagande ».

Une partie des emprunts russes reflétant l'époque soviétique sont devenus des historismes.

Un cas curieux est présenté par le mot *lunik* qui a été formé en français par l'adjonction à *lune* de l'élément **-ik** extrait du mot *spoutnik.* Ainsi **-ik** fait figure de suffixe exotique en français.

Les emprunts au russe représentent souvent des calques qui reproduisent la « forme interne » et le sens du vocable étranger par les moyens linguistiques de la langue emprunteuse comme dans : *autocritique, plan quinquennal, maison de repos, jardin d'enfants, sans-parti, minimum technique.* Citons encore *refusnik*— sorte de calque-centaure à base française flanquée d'un suffixe russe.

Parmi les mots les plus récents nommons *kalachnikov* et *tokamak* (terme de physique), sans oublier les fameux *glasnost, perestroïka.* Signalons que certains emprunts au russe ont pris une connotation nettement défavorable (cf. *apparatchik, goulag).*

Les emprunts aux langues des minorités nationales. L'apport fait au vocabulaire du français par les langues des minorités nationales habitant le territoire de la France est moins considérable. Signalons toutefois les emprunts faits au breton qui sont les plus nombreux : *goéland* ← bas breton *gwelan*- « grande mouette », *bijou* ← *bizou* — « anneau pour le doigt *(biz)* » qui a supplanté en partie *joyau, biniou* - « sorte de cornemuse bretonne », *dolmen* fabriqué avec deux mots bretons *taol* — « table » et *men* — « pierre » et désignant un monument mégalithique, d'une grande pierre plate posée sur d'autres pierres verticales, *menhir* de *men* - « pierre » et *hir* - « long » qui est un autre mégalithe.**(4.p.137-139)**

7. L'adaptation des vocables empruntés au vocabulaire du français. Les mots empruntés s'adaptent à un degré différent au vocabulaire de la langue emprunteuse. L'intensité du processus d'adaptation qui s'effectue sous l'action des lois internes de développement varie selon l'origine du mot emprunté, sa structure, son sens, la sphère de soif emploi ; elle dépend aussi de l'époque à laquelle se rapporte l'emprunt. II faut distinguer :

1) Les emprunts qui manifestent une **faible adaptation** et qui par leur structure figurent dans le vocabulaire du français moderne en qualité de mots étrangers. Ces vocables étrangers qui vivent ainsi en marge de la langue courante sont appelés **xénismes** (du grec *xenos* -« étranger »). Ici il faut nommer tous les mots exotiques servant à rendre la couleur locale (entre autres : *condottiere, vendetta* de l'italien, *izba, ukaze, samovar, zakouski* du russe, *chapska, mazurka* du polonais, *paria* de l'indien, *cornac*- « conducteur d'éléphants » du portugais.

Beaucoup d'emprunts anglais ou anglo-américains, surtout parmi les plus récents, conservent, eux aussi, leur aspect étranger non seulement pour l'orthographe, mais aussi pour la prononciation, qui reste souvent insolite : *cottage, cocktail, groorn, whisky, container, walkman,* etc.). Tous ces mots font figure d'intrus dans le français moderne.

2) Les emprunts naturalisés français qui en vertu des modifications phonétiques et morphologiques plus ou moins profondes ne se distinguent plus des mots de souche française.

Parmi les emprunts assimilés viennent se ranger en premier lieu les mots d'origine latine et romane qui par leur structure se rapprochent le plus des mots purement français et se confondent souvent avec ces derniers. Les mots d'origine non romane se conforment moins aisément à la langue française. Cependant les lois d'adaptation restent dans les grandes lignes les mêmes pour n'importe quel mot d'emprunt.

En ce qui concerne la prononciation, la grande majorité des mots d'emprunt s'accommode à l'accentuation et au système de sons du français.

L'adaptation à l'accentuation française se fait de la façon suivante :

a) lorsque le mot étranger est un oxyton, aucune de ses syllabes n'est supprimée ; par exemple : *caparaçon* ← esp. *caparazon, bouledogue* ← angl. *bull-dog, redingote* ← angl. *riding-coat ; bolchevik* (russe) ;

b) lorsque le mot étranger est un paroxyton, on conserve souvent l'accent sur la même syllabe ; alors, à cet effet, tantôt on retranche la dernière syllabe, par exemple : *artisan* ← ital. *artigiâno, balcon* ← ital. *balcône, chocolat* ← esp. *chocolaté* ; tantôt on remplace la dernière voyelle par un e muet, par exemple : *cadence* ← ital. *cadénza* ; *mascarade* ← ital. *mascarâta ;* parfois, cependant, l'accent ne s'est pas maintenu et le paroxyton devient sans aucun retranchement de syllabe un oxyton, par exemple : *bravó* ← ital. *brávo, malariá* ← ital. *malária, guérillá* ← esp. *guerílla, flamenkó* ← *esp. flaménko, loustíc* ← all. *lústig ; partenaíre* < angl. *pártner, spoutník* < russe *спу́тник.***(5.p.95-97*)***

8. Les doublets étymologiques sont une des conséquences de l'emprunt. Les doublets étymologiques sont des dérivations doubles d'un même mot ayant des sens distincts et apparues dans le vocabulaire du français à différentes époques de son évolution.

D'après leur origine on distingue plusieurs groupes de doublets:

1. Doublets d'origine populaire et savante venus du latin.

Mots latins	**Mots fr. populaire**	**Mots fr. savant**
advocatum	avoué	avocat
auscultare	écouter	ausculter
captivus	chétif	captif
circulare	cercler	circuler
cumulare	combler	cumuler

dotare	douer	doter
fabricum	forge	fabrique
fragilem	frêle	fragile
hospitale	hôtel	hôpital
integrum	entier	intègre
legalem	loyal	légal
liberare	livrer	libérer
mobilem	meuble	mobile
pensare	peser	penser

2. Doublets empruntés aux langues romanes et aux dialectes.

Mots latins	**Mots français**	**Mots tirés d'une langue Romane ou d'un dialecte**
balneum	bain	bagne (ital.)
caballarium	chevalier	cavalier (ital.)
duos	deux	duo (ital.)
operam	oeuvre	opéra (ital.)
dominam	dame	duègne (esp.)
supersaltum	sursaut	soubresaut (esp.)
caput	chef	cap (provenç.)
carricare	charger	carguer (provinç.)
cancer	chancre	cancre (picard.)
nigrum	noir	nègre (esp.)

3. Doublets empruntés à l'anglais:

Mots latins	**Mots français de l'anglais**	**Mots tirés**	
expressum	exprès	express	express
juratam	jurée	jury	jury
humorem	humeur	humour	humour

Signalons que les mots *express, humour, tunnel* sont « des emprunts aller-retour » : ils avaient été empruntés par l'anglais à l'ancien français. La langue française les a repris, mais avec une forme et un sens modifiés.

Généralement les doublets se spécialisent d'après leur signification *(combler* et *cumuler, loyal* et *légal, livrer* et *libérer, peser* et *penser).* Plus rarement les doublets sont des synonymes qui diffèrent toutefois par les nuances de leurs acceptions et par leur emploi ; ainsi pour *frêle* et *fragile* on dira : *une personne **frêle**, une santé **frêle**, une plante **frêle**,* mais *un objet **fragile**.* **(1.p.70-72)**

Littératures utilisées

1. Абрамов Г.Г. Lexicologie du français moderne. Ростов н/Д: ПИ ЮФУ. 2009. - 172 с. Учебное пособие по лексикологии современного французского языка для самостоятельной работы студентов 3 курса факультета иностранных языков.

2. N.N.Lopatnikova, N.A.Movchovitch. **Lexicologie du français moderne**. Учебник по **лексикологии** на французском языке.

3. Тимошенко И. С., Пояркова Е. В. Les emprunts anglais dans la langue française au Québec // Юный ученый.- 2016.- №5.- С. 34-38.

4. Макарова Л.С. Stylistique française [DOC] - **Стилистика** современного французского языка.Майкоп: Изд-во АГУ, 2010. 200 с. Учебное пособие для студентов.

5. Морен М.К., Тетеревникова Н.Н.**Stylistique française**. **Стилистика** современного французского языка.

B.Ibrahimova

Fransız dilinə digər xarici dillərdən keçən alınma sözlər
(II hissə)
Xülasə

Məqalənin adı ” Fransız dilinə digər xarici dillərdən keçən alınma sözlərdir”. Müəllif məqalədə qeyd edir ki, Alman dilinin fransız dilinə verdiyi töhfə çox vacibdir. XVI əsrə qədər Alman dilindən alınan sözlər çox az olub. XVII əsrdə fransız ordusunda alman muzdlularının istifadəsi ilə almanların təsiri aydın hiss olunmağa başlayıb. Sonrakı əsrlərdə daha müntəzəm ticarət və mədəni əlaqələr, Fransa İnqilabının və iki imperiyanın düşmənçiliklərini xatırlatmaqdansa, yeni kreditlərə səbəb oldu. Məlumdur ki, iki dünya müharibəsi, əsaslandırılmış bir dil müdafiə refleksi ilə əlaqəli heç bir iz buraxmayıb.

İngilislərin təsiri XVII əsrdən bəri açıq şəkildə ortaya çıxdı.

Ancaq XVIII-XIX əsrlərdə İngilis sözlərinin bir çoxu Fransız lüğətinə nüfuz etdi. Bu fakt, Fransızların 1649 inqilabından sonra İngiltərədə yaradılan parlament sisteminə artan marağı ilə izah olunur; həm də ingilis fəlsəfəsi və ədəbiyyatının təsirinin nəticəsi idi. İngilis dili fransızları siyasi baxımdan zənginləşdirdi.

XVIII əsrdə fransız dilinə keçən sözlər az idi və insan fəaliyyətinin müxtəlif sahələrinə aid idi. Bu ilk rus sözləri hələ Fransız lüğətindəki yalnız ekzotik sözlərdir.

Müəllif göstərir ki, alnma sözlər arasında əvvəlcə quruluşlarına görə sırf fransız sözlərinə ən yaxın olan və tez-tez qarışıq olan Latın və Roman mənşəli sözlər var idi.

Açar sözlər : alınma sözlər, linqvistik fenomen, lüğət tərkibi, romantik dil, dil siyasəti

B.İbrahimova

French borrowed words from other foreign languages
(II part)
Summary

The title of the article is “French words from other foreign languages”. The author notes that the contribution of the German language to the French language is very important.In the seventeenth century, with the use of German mercenaries in the French army, the influence of the German is clearly felt. The more regular trade and cultural relations over the following centuries, not to mention the hostilities of the times of the French Revolution and the two Empires, provoked new loans. It is well known that the two world wars have left no trace of what is due to a well-justified linguistic defense reflex.

The English influence manifests itself clearly from the seventeenth century.

But it was during the eighteenth and nineteenth centuries that a considerable number of English words penetrated French vocabulary. This fact is explained by the growing interest of the French for the parliamentary system established in England following the revolution of 1649; it was also the result of the influence of English philosophy and literature. English has enriched French in political terms.

In the eighteenth century there were few words from Russian to French, and they were associated with various fields of human activity. These first Russian words are still the only exotic words in the French dictionary.

Key words: borrowed words, linguistic phenomenon, vocabulary composition, romantic language, language policy

Б.Ибрагимова

Французские заимствованные слова из других иностранных языков
(2-я часть)
Резюме

Название статьи «Французские слова из других иностранных языков». Автор отмечает, что вклад немецкого языка во французский язык очень важен. До шестнадцатого века заимствование немецкого еще мало. В семнадцатом веке, с использованием немецких наемников во французской армии, влияние немцев явно ощущалось. Более регулярные торговые и культурные отношения в последующие века, не говоря уже о военных действиях времен Французской революции и двух империй, спровоцировали новые займы. Хорошо известно, что две мировые войны не оставили никаких следов того, что связано с хорошо обоснованным языковым оборонительным рефлексом.

Английское влияние проявляется явно с семнадцатого века.

Но именно в восемнадцатом и девятнадцатом веках значительное количество английских слов проникло во французский словарь. Этот факт объясняется растущим интересом французов к парламентской системе, созданной в Англии после революции 1649 года; это было также результатом влияния английской философии и литературы. Английский обогатил французский в политическом плане.

Это было в восемнадцатом веке, что эти первые кредиты были тогда немногими и принадлежали к различным областям человеческой деятельности. Эти первые ссуды русским по-прежнему по большей части всего лишь экзотические слова во французском словаре. В восемнадцатом веке было мало слов с русского на французский, и они были связаны с различными областями человеческой деятельности. Эти первые русские слова до сих пор являются единственными экзотическими словами во французском словаре.

По словам автора, изначально существовали латинские и римские слова, которые были наиболее близки французским и часто путались с их структурой.

Ключевые слова: заимствованные слова, лингвистический феномен, состав словаря, романтический язык, языковая политика

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 25.07.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Yeganə Orucova tərəfindən çapa tövsiyə olunmuşdur.

SEVİNC MİRZƏYEVA
BSU
S.Rüstəm 33
mirzayevas@icloud.com

AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATININ AKTUAL PROBLEMLƏRİ

Xülasə

Müəllif məqalədə qeyd edir ki, Azərbaycan dili böyük inkişaf yolu keçmiş qədim dillərdən biridir. Azərbaycan dili xalqımızın mənəvi sərvəti, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməli, dövlətimizin müstəqilliyinin başlıca rəmzlərindən biridir. Bu dildə dünya ədəbiyyatı xəzinəsinə daxil olan misilsiz əsərlər yaradılmışdır.

Son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlardan lazımınca və düzgün istifadə edilməməsi diqqəti çəkir. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir.

Dilin böyük ictimai-siyasi hadisə və mənəvi həyatımızın mühüm amili olduğunu çox zaman nəzərdən qaçıran bəzi mətbuat orqanlarında, radio və televiziya kanallarında ədəbi dil normalarının pozulması adi hal almışdır. Hazırda Azərbaycan dilinin işlənməsi üçün geniş bir meydan yaranıb. Mətbuat orqanlarının, televiziya, radio verilişlərinin sayı artıb, o cümlədən, internet bizə dilin imkanlarını tətbiq etmək üçün geniş imkan verir.

O, izah edir ki, Təhsil Nazirliyinin bütün qurumlarında, eləcə də qeyri-hökumət təşkilatlarında Azərbaycan dili və ədəbiyyatının tədrisi, təbliği və yayılması problemləri araşdırılır. Bu isə Respublikamızın Konstitusiyasının tələblərinə uyğun olaraq dilimizin saflığını qorumağa xidmət edir. ”Təhsil haqqında” qanuna uyğun olaraq, Azərbaycan dili və ədəbiyyatı sahəsində təhsil islahatlarının istiqamətləri geniş surətdə göstərilmişdir.

Açar sözlər: dilçilik, ədəbiyyat, aktual problemlər, mətbuat

Azərbaycan dili böyük inkişaf yolu keçmiş qədim dillərdən biridir. Azərbaycan dili xalqımızın mənəvi sərvəti, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməli, dövlətimizin müstəqilliyinin başlıca rəmzlərindən biridir. Bu dildə dünya ədəbiyyatı xəzinəsinə daxil olan misilsiz əsərlər yaradılmışdır. Hər bir azərbaycanlı tarixin ayrı-ayrı dövrlərində dilimizin dövlət dili kimi fəaliyyət göstərməsindən böyük qürur hissi keçirir. Ölkəmizin zaman-zaman müxtəlif imperiyalar tərkibində yaşamağa məcbur olmasına baxmayaraq, ana dilimiz bu ağır vaxtlarda belə milli məfkurənin, milli şüurun və milli-mədəni dəyərlərin layiqincə yaşamasını və inkişafını təmin etmişdir. Bu gün onun qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətandaşının borcudur. (2, 265)

Son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlardan lazımınca və düzgün istifadə edilməməsi diqqəti çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir.

Dilin böyük ictimai-siyasi hadisə və mənəvi həyatımızın mühüm amili olduğunu çox zaman nəzərdən qaçıran bəzi mətbuat orqanlarında, radio və televiziya kanallarında ədəbi dil normalarının pozulması adi hal almışdır. Dublyaj edilən filmlərin, xarici dillərdən çevrilən elmi,

bədii və publisistik əsərlərin tərcüməsi bir qayda olaraq yüksək estetik tələblərə cavab vermir, onlar sönük və yarıtmazdır, dilimizin hüdudsuz ifadə imkanları ilə müqayisə edilməyəcək qədər aşağı səviyyədədir. Küçə və meydanlardakı reklamlarda, afişalarda Azərbaycan dilinin ən adi leksik və qrammatik qaydalarının pozulması təkcə dil mədəniyyətinin deyil, ümumi mədəni səviyyənin də arzuedilməz göstəricisinə çevrilmişdir.

Hazırda Azərbaycan dilinin işlənməsi üçün geniş bir meydan yaranıb. Mətbuat orqanlarının, televiziya, radio verilişlərinin sayı artıb, o cümlədən, internet bizə dilin imkanlarını tətbiq etmək üçün geniş imkan verir. Çox təəssüf, indi dildə elə proseslər gedir ki, istər dilçiləri, istərsə də bu sahədə mütəxəssis olmayanları ciddi şəkildə düşündürür. Azərbaycan dilinin qaydalarının pozulması, ədəbi dil normalarından yayınma prosesi gedir, dilə laqeydlik hökm sürür. Orfoqrafiya qaydaları, televiziya və radio verilişlərində aparıcının dilində orfoepik normalar tez-tez pozulur. Sanki heç bir dil qaydası mövcud deyilmiş kimi, insanlar fikirlərini dolaşıq şəkildə çatdırırlar, bunu da kütləvi auditoriya anlamır. Mənim fikrimcə, ən bağışlanılmaz qüsur Azərbaycan dilinin qaydalarına sayğısızlıq, bu qaydaları bilməmək, həm də bilməyib öyrənməməkdir.

Bəzən dilimizin tarixinə aid səslənən səhv fikirlərə vaxtlı-vaxtında cavab verilmir və bu dilin keçdiyi inkişaf mərhələlərini etibarlı tarixi mənbələr əsasında dolğun əks etdirən fundamental əsərlər yaranmır. Elmi tədqiqatlar üçün bəzi hallarda müasir dünya dilçiliyinin nəzəri səviyyəsindən xeyli geri qalan, heç bir ciddi praktik əhəmiyyət daşımayan bəsit mövzular seçilir.

Azərbaycan dilində internet resurslarının qıtlığı, elektron və interaktiv dərsliklərin yoxluğu, Azərbaycan dilini öyrənən əcnəbi dilli insanlar üçün tədris vasitələrinin bir çox hallarda müasir tələblərə cavab verməməsi narahatlığı doğurur. Sovet dövründə Azərbaycan dilçilərinin dünya elmində gedən proseslərdən təcrid olunması ilə ölkəmizdə dilçilik sahəsindəki nəzərəçarpan boşluq hələ də aradan qaldırılmamışdır.

Dilçilik elmimiz təkcə Azərbaycan dili ilə bağlı deyil, həmçinin onun digər türk dilləri ilə münasibətlərini öyrənmək istiqamətində ciddi addımlar atmalı, müasir dillərin nəzəri cəhətdən araşdırılmasına, eyni zamanda qədim dilləri və mədəniyyətlərinin tədqiqinə yönələn yeni layihələr işləyib hazırlamalıdır.

Azərbaycan dili daim inkişaf edir və dəyişir. Ona görə də Azərbaycan dilinin yad təsirlərindən qorunması mümkün deyil. Azərbaycan dili ən böyük yazılı tarixə malik olan dildir. Dilin özünəməxsus təbii qanunauyğunluqları var və dil onlar ilə inkişaf edir.

Dilimizin yazı normalarında problemlər kifayət qədərdir. Düzdür, dövlət tərəfindən sərəncamlar, fərmanlar verilir. Amma onun icrası bir tərəfdən dövlət qurumlarının işidirsə, digər tərəfdən xalqın işidir. 30 il əvvəl ədəbi dilin formalaşması və inkişafında bədii üslub öndə idisə, indi publisistik üslub qabaqdadır. Bu üslubun da dili zənginləşdirmək üçün kifayət qədər imkanı var. Daha çox ağırlıq da elə mətbuatın üzərindədir.

Norma pozuntusunu da biz həm yazılı dildə, həm də şifahi nitqdə axtara bilərik. Bu gün nəinki orta statistik vətəndaşın, mütəxəssislərin də yazılarında xeyli xəta görürük. Orta məktəblərdə ədəbi dilə heç də xoş olmayan müdaxilə var. Jurnalisti işə götürəndə dil qabiliyyətinə baxılır, müəllimi işə götürəndə yox.

Digər problem isə Azərbaycanda elektron lüğətin demək olar ki, olmamasıdır. Azərbaycan dilində elə sözlər var ki,onların hələ izahlı lüğətləri yoxdur. Tərcüməçilikdə çətinlik ona görə var ki, ilk növbədə tərcüməçilər azdır. Azərbaycan ədəbiyyatı xarici dillərə tərcümə olunmalıdır. Azərbaycan dilini inkişaf etdirmək lazımdır. Təəssüf ki, bəzi yazıçılar əsəri yazırlar, amma tarixə istinad etmirlər. (3,34)

Azərbaycanın indiki şeir, qəzəl dili 20-30-cu illərin dilidir. Azərbaycanın şeir dilində bu gün daha çox türk poeziyasından təsirlənmələr müşahidə olunur. Ondan əvvəlki dövrlərdə isə

yazılan şeirlər rus poeziyasının təsiri altında olub. XIX əsr Azərbaycan şeiri isə birbaşa fars dilinin təsiri altında qələmə alınıb.

Dildə kalkalar mövcuddur. Yalnız kalkalar dildə əsrlərlə yaşaya bilir. Yazıçı öz əsərində nə qədər gözəl ifadə işlətsə, bir başqa yazıçı həmin fikrə başqa cür münasibət göstərəcəkdir. Və yaxudda yazıçının işlətmiş olduğu fikir əsrdən-əsrə keçmir. Aforizmləşmiş fikirlər yalnəz növbəti əsrə keçir.

Ədəbiyyat hər birimizin ömürboyu qət etdiyi yoldur. Ədəbiyyat insanın mənəviyyatını, dünyagörüşünü, xarakterini müəyyənləşdirir. Ədəbiyyat mənəvi-etik qaydaları, cəmiyyətlə ahəngdar olmağı öyrədir, bütün xalqın əxlaqi dəyərini yüksəldir.

Azərbaycan klassik ədəbiyyatının fundamental problemlərini – nəzəri müxtəlifliyi şərtləndirən üslubi təmayüllərin qarşılıqlı təsiri, klassik ədəbiyyatın (poeziyanın) qarşılıqlı əlaqələri, bədii tapıntıların, axtarışlar üfüqünün yüksələn xətlə genişlənməsi, janr məsələlərinə aydınlıq gətirilməsi və s. zəruri tədqiqat obyektlərindən birinə çevrilməlidir. (1,195)

Müasir ədəbiyyatda bütün qaydalar inkar edilir, gündəlik məişət mövzusuna daha çox yer ayrılır, bəzən əxlaqi-dəyər qorunmur, bütün hadisələrə səthi yanaşılır, qəhrəman və onun xarakteri qismən təqdim edilərək oxucu təxəyyülünün ixtiyarına verilir. Müasir ədəbiyyat bizə əxlaqi-mənəvi mövzu xaricində, çərçivələrin aşılması, mətnin abstraksiyası, kreativləşməmiş yazı dilini nəql edir. Müasir ədəbiyyat bünövrəsi məşhur olan klassik ədəbiyyatın plagiatına bənzər ədəbiyyatdır. Oxunan hər bir kitab insana təsir edir, lakin xüsusi təsvir qaydaları olmasa oxucunu çaşdıra, ikili məna daşıyan fikir aşılaya bilər ki, bu da onun həyat yolunda öz təsirini göstərər.

Növbəti problem yazıçının təhkiyə istedadına bağlıdır. Bəziləri heç bir bədiilik olmadan sözün əsl mənasında psixoloji dəlilikdən, anarxist xarakterdən yazır. İndi kim fikir bildirmək istəyir, oturub yazır və beləliklə, müəlliflər sırasında yer alır. Əslində isə, yazıçılıq ruhun vəziyyəti, peşəsi, ilahi vergisidir. Təhkiyəçinin əsas hədəfi kədərin dərinliyindəki pessimizmdən, ya da optimizmin bəşəriyyət üçün əhəmiyyətli problemlərin həllinə yönəlir.

Bir çox müasir müəlliflər öz qəhrəmanlarını çoxşaxəli xarakterli, insana xas müxtəlif aspektli xüsusiyyətləri təsvir etməyə çəkinirlər. Buna səbəb senzura və tənqid qorxusudur, çünki hətta hazırkı günümüzdə belə həqiqəti oxumaq, bilmək xoş gəlmir.

Digər mühüm problemlərdən biri də "zamanımızın qəhrəmanı"-nın yoxluğudur. Elə "qəhrəman" ki, ona nifrət edə və ya ona bənzəmək istəyək. Parlaq prototiplər yoxdur, bir-birinin əksi olan keyfiyyətlərin daşıyıcısı var ki, bu da tamamilə sürrealizmdir.

Müasir ədəbiyyat qeyri-qəhrəmanlara yox, həyat eşqi bol olan, böyük şücaətlər göstərəcək dahi qəhrəmana ehtiyac duyur. Sanki hər şey rəng çalarlarına bölünür: ağ və qara. Bəzən isə elə gəlir ki, bu sərhədlər heç də yoxdur və ədəbiyyat janrların, üslubların toplusundan formalaşır kimi təəssürat yaranır.

Ədəbiyyatın ən mühüm problemi "yaradıcılıq"dır. Təkrar edirəm, hüdudsuz plagiat, piratçılıq, insanların acgözlüyü və tənbəllik ədəbiyyatı xüsusiləşdirmir. Ədəbiyyat xeyirxahlıqdır, müasirlik isə onu heç nəyə lazım olmayan qaydalar sayəsində adiləşdirir.

Yaxşı ədəbiyyat nümunəsi insan qəlbində canlana, onu yenidən düşündürə, təhlil edə və yaşada bilirsə, müasir "ədəbiyyat" hər şeyi mümkün olduğu qədər sadələşdirə, qısalda bilir. İnsanlar şablon fikirlərlə düşünür, cəmiyyətdə sərbəst mövcud ola bilmir və ətrafıyla münaqişəsiz ünsiyyət qura bilmir. Ədəbiyyatın dəyəri hər janrdan sonsuz sayda kitab təqdim edildiyində, kitabların satış qiyməti hədsiz yüksəldiyində, çap işi köhnəldiyində itdi. Məhz buna görə indi kitab reklamlarına küllü miqdarda pul, kitabın adına və annotasiyasını cəlbedici etmək üçün əlavə enerji xərclənilir. İnsanlar adətən yüksək mənəvi təsiri olmayan fikirləri yazır və bunu həqiqət kimi dəyərləndirir. Halbuki, təcrübəsiz gənc məlumatçı rolundadır. Bir çox

müəlliflərə elə gəlir ki, ədəbi yaradıcılıq ruhun çıxışı deyil, "elit", indulgensiya və ziyalı şəxsiyyətlər sırasında olmaq mənası verir.

ƏDƏBİYYAT

1. B.Babayev. Ədəbiyyat məsələləri. Bakı: "Müəllim" nəşriyyatı, 2015. - 278 s.
2. Süleyman Səfər oğlu Hüseynov, Elvira Muxtar qızı Qaracayeva. Azərbaycan dili və nitq mədəniyyəti (dərslik). Bakı, "Elm və təhsil", 2016, 408 səh.
3. Ülviyyə Rəhimova, Romantik üslub və tərcümə problemi, monoqrafiya, Bakı 2005, 114 s.

S.Mirzəyeva

Actual problems of Azerbaijani language and literature

Summary

The author notes that the Azerbaijani language is one of the oldest languages in the world. The Azerbaijani language is one of the main symbols of the independence of our state,the spiritual wealth of our people, the solid foundation of solidarity of the world Azerbaijanis. In this language there are unique works that are included treasury of world literature.

It is noteworthy that recent literary language of modern Azerbaijan has not been used properly and properly. As a result, a number of problems in the use of the state language are clearly visible.

Violations of literary language norms in some media outlets, radio and television channels, often overlooking the fact that language is a major social and political event and an important factor in our spiritual life. At present there is a large area for the development of the Azerbaijani language. The number of media outlets, television and radio broadcasts has increased, and the Internet has provided us with greater opportunities to use language capabilities.

She explains that the problems of teaching, propagating and disseminating Azerbaijani language and literature are being investigated in all institutions of the Ministry of Education, as well as in non-governmental organizations. It serves to preserve the purity of our language in accordance with the requirements of the Constitution of the Republic. In accordance with the Law on Education, the directions of educational reform in the field of Azerbaijani language and literature are widely presented.

Keywords: linguistic , literature, actual problems, press

С.Мирзоева

Актуальные проблемы азербайджанского языка и литературы

Резюме

Автор отмечает, что азербайджанский язык является одним из древнейших языков мира. Азербайджанский язык является одним из главных символов независимости нашего государства, духовного богатства нашего народа, прочной основы солидарности азербайджанцев мира. На этом языке есть уникальные произведения, в которые входит сокровищница мировой литературы.

Примечательно, что современный литературный язык современного Азербайджана не использовался должным образом и должным образом. В результате ряд проблем в использовании государственного языка отчетливо виден.

Нарушения норм литературного языка в некоторых средствах массовой информации, на радио и телевизионных каналах, часто упускают из виду тот факт, что язык является важным социальным и политическим событием и важным фактором в нашей духовной жизни. В настоящее время существует большая область для развития азербайджанского языка. Количество средств массовой информации, теле- и радиопередач увеличилось, и Интернет предоставил нам больше возможностей для использования языковых возможностей.

Она поясняет, что проблемы преподавания, распространения и распространения азербайджанского языка и литературы изучаются во всех учреждениях Министерства образования, а также в неправительственных организациях. Он служит для сохранения чистоты нашего языка в соответствии с требованиями Конституции Республики. В соответствии с Законом об образовании широко представлены направления образовательной реформы в области азербайджанского языка и литературы.

Ключевые слова: языкознание , литература, актуальные проблемы, пресс

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 25.07.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent İradə Dadaşova tərəfindən çapa tövsiyə olunmuşdur.

FATİMƏ İBRAHİMOVA
ADU
Rəşid Behbudov
fatimaibrahimova1@gamil.com

NİTQDƏ PROSODİK KOMPONENTLƏRİN VƏHDƏTİ

Xülasə

İntonasiya cümlələrin və intonasiya qruplarının formalaşmasına, "cümlənin kommunikativ tipinin müəyyən edilməsinə, danışanın fikir və münasibətinin ifadəsinə xidmət edir. Tonun və cümlə vurğusunun hərəkəti sintaqmın intonasiya strukturunun əsas səciyyəsini təşkil edir. Hər bir sintaqm ya enən, ya da qalxan tonla qurtarır. Uzun cümlələr, bir qayda olaraq, sintaqmlara – intonasiya qruplarına bölünür. İntonasiya qruplarının bölgüsü cümlənin mənasından, qrammatik quruluşundan və danışığın üslubundan asılı olur. Hər bir intonasiya qrupu müəyyən struktur elementlərdən ibarət olur.Cümlə vurğusu cümlədə bir və ya bir neçə sözün digərlərinə nisbətən enerji qüvvəsinin nisbi çoxluğu ilə qabardılaraq nəzərə çarpdırılmasıdır. Cümlə vurğusunun ən adi növü sintaktik vurğu növüdür. Sintaktik vurğu növü cümlədə əsas nitq hissələrinin, bir qayda olaraq, vurğulu, köməkçi nitq hissələrinin isə vurğusuz olmasını nəzərdə tutur. Temp cümlələrin və onun bir hissəsi olan intonasiya qruplarının nisbi tələffüz sürətidir. Tembr səsin xüsusi rəng çalarları olub, danışanın emosional vəziyyətini (razılığını, narazılığını, kədərini, sevincini və s.) göstərir. Cümlə bir və ya bir neçə sintaqmdan, yaxud intonasiya qrupundan ibarət ola bilər. Mənaca bölünməz olan, nisbi fikir bitginliyi ifadə edən cümlənin bir sintaktik və ritmik-melodik parçası sintaqm adlanır. Lakin, bəzən bir sintaqm bir cümləyə də bərabər ola bilər, yaxud bir cümlə bir və ya bir neçə sintaqmdan ibarət ola bilər. Fonetik cəhətdən hər bir sintaqm müəyyən intonasiya strukturu ilə xarakterizə olunur. Tələffüz zamanı əsas tonun yüksəkliyinin, intensivliyin, temp və tembrin əlaqəli dəyişməsinin mürəkkəb birliyi intonasiya adlanır.

Açar sözlər: tələffüz, məna qrupu, nitq, vurğu, heca, cümlə.

Dillərin təsirində fonetik hadisələrə münasibət baxımından dilçilər fonologiyanın iki müxtəlif tətqiqat obyektini fonometika və prosodiyanı bərabərləndirilər. Bununla əlaqədar dini fonololoji ünsürləri və ya vahidləri iki qrupa fonomenlərə və prosederlərə ayrılır. Biriniclər seqment vahidlər ikincilər isə supraseqment vahidlər adlanır. Ümumiyyətləri porojedemləri (vurğu,ton, intonosiya, həcmini səslərin kəmiyyəti) öyrənən sahə supraseqmnet fonetika adlanır.

Nəzəri cəhətdən fonomatik və prosodik hədlərin fərqlənməsi bir o qədərdə cəmin deyildir. Çətinliklər prosoderik vasitələrin dəqiq öyrənilməsi, onların həm fiziki-akustik həm də, funksional mahiyyətilərinin tədqiq zamanı özünü göstərir. Doğrudan da, bu və ya digər danışan hər kəs sait və samitin nə olduğu məlumdur[1, s. 64].

'Prosodiya' anlayışının əhatə dairəsini dəqiqləşdirmək asan deyildir. Dilçilik elmində dilin səs sisteminin tədqiqi zamanı yuxarıda qeyd etdiyimiz kimi adətən seqment elementlər istiqaməti elementlər sırasına aid eilərsə supraseqment vahidlər sırasına davamlığı aid fonelərin davamlığından daha çox olan nitq vahidləri daxil edilir ki bu vahidlər də mahiyyət etibarilə fonelərdən iridirlər. Lakin, fonemlərdən iridir. Dedikdə ehtiyyatlı olmağ lazımdır. Çünki, fonemdən ibarər olan diftonqlora triftonqlara heç cür prosodik vahid demək olmaz. Bu baxımdan fonoloji kəmiyyət anlayışını özü də qismən prosodiya anlayışını tərkibinə daxil olur. Çünki bu və ya digər heca uzunluğu vardırsa belə halda məsələ prosodiya baxımından

öyrənilməlidir. Qeyd etmək lazımdır ki, intensivliyin özü də analoji şəkildə həm fonetik həm də prosodik sahəyə aid edilə bilər. Belə ki, sohbət əgər samitlərin intensiv tələffüzə görə qarşılamasından (oppozisiyasında) gedirsə biz fonometika ilə intensivliyin vurğu şəkilində reallaşmasında danışanda prosodiya ilə üz üzə gəlirik. Vurğunun özünündə prosodiya münasibəi o qədərdə aydın deyildir. Dünya dillərinin bəzisində o cümlədən ingilis dilində vurğu prosodir səciyyə daşıyır. Bu cür dillərdə vurğu ilə prosedir uzunluq arasında bilavasitı əlaqə mövcud olur. Dilçilər vurğudan məsələn məntiqi vurğudan danışdıqda ilk növbədə onun ayrıcı və nəzərə çapdırıcı funkskiyasını qeyd edir və intonasiya sahəsi kimi təqiq edirlər. Bu səbəbdən bəzi tədqiqatlarda məntiqi vurğu termini əvəzinə intonasiya vasitəsilə ayırma termini də işlədilir.

Prosodik vahidlər və ya prosodemlər fonemlərə nisbətən daha az dərəcədə ixtiyaridirlər. Məsələn, intonosiyanın ən adi formalarda belə ciddi linqvətik çərçivəyə salmaq vahid sistem halında öyrənmək mümkün olmur. Fonematika az sayda vahidlərdən ibarətdirsə nitq parçalarını xarakterizə edən prsodiya daha zəngin çox şəkilli və müxtəlif aspektlidir[4, s. 71].

Nitqin prosodiyası dedikdə müxtəlif nitq parçalarını-hecanı sözü müxtəlif dərəcəli ritmik vahidləri hökm-frzanı və kontekstik müəyyənləşdirən onların bitkinliyini və spesifikiliyini xarakterizə edın temp səs tonunun yüksəklik və intensivlik dərəcələri nəzərdə tutulur. Hökm və frozanın prosodiyası və ya intonosiyası dedikdə eyni fonotik hadisə nəzərdə tutulur. Frozonun prosodiyası müxtəlif məqsədlər güdür.Sintaktik məntiqi-predikativ frazofərqləndirici üslub fərqləndirici modallıq yaratmaq və s.

Prosodik vahid və vasitələr məhz faznı yaxud hökmü ayrı-ayrı hissələrə parçalanmasında uyğun şəkildə öyrədilməlidir. Başqa sözlə desək hər bir nitq parçasının özünə məxsus prosdik keyfiyyətləri vardır və bu keyfiyyətlərdə həmin nitq parçaları ilə vəhdətdə tədqiq edilməlidir.

Nitqin ən kiçik parçası hecadır. Heca ən kiçik tələffüz vahidləridir.Nitq nə qədər yavaşıdılsada onun aydınlığına nə qədər çox cəhd edilsə də hecadan o yana parçalanmır. Vurğu hecanın əsas prosodik əlamətidir onun maddi linqvistik ifadəsi heca düzəldən saitdən ibarətdir. Bəzi dillərdə hecalar özlərinə məxsus ton parametrləri ilə xarakterizə olunurlar. Məsələn bəzi dillərdə hər bir heca ton yüksəkliyi və ya metodik ahəngin müəyyən çalarlıqları ilə səciyyələnir.

Nitqin həcmə daha iri prosodik vahidi ritmik qurupduki o da bir neçə hecadan (vurğulu və vurğusuz(ibarət olur. Ritmik qrupların bir-birini izləməsi nitqin tirmik quruluşunu əmələ gətirir. Ritmik qrupun prosodik parametrləri həm linqvistik həm də qeyri-linqvistik faktorlarla bağlıdır[5, s. 42].

Ritm nöqteyi-nəzərindən ingilis dilində məna qrupu musiqili taktına bənzər ritmik qruplara bölünür. Məna qrupunda vurğulu hecaların sayı qədərdə ritmik qruplar olur. Ən kiçik(minimal) ritmik qrup yalnız bir vurğulu hecadan ibarət olur. Məsələn , Yes You want here.

Bir çox böyük(maksimal) ritmik qruplar bir vurğulu hecadan və ya daha vurğusuz hecalardan ibarət olur. Məsələn, Ilt's a very lovely day[2, s. 26].

Adi nitqdə vurğunun hər bir ardıcıl cütü arasındakı vurğusuz hecaların sayı nəzərə çarpacaq dərəcədə fərqlənir. Vurğulu və vurğusuz hecaların əvəzlənməsini müəyyən mütəzimliyi ölçü ilə tələb olunan nəzmdə ritm asanlıqla müşahidə edilə bilər. Nitqin ritmi musiqinin ritmindən daha sərbəst və elastik olduğu üçün nitqdəki təkrar olunan vəzinin, taktın müntəzimliyi yalnız təqribi xarakter daşıyır. Vurğulu hecalar məna qrupunun strukturasının imkan verdiyi qədər zaman daxilində sürətdə bölüşdürürlər. İngilis dilinin ritminin əsas qaydaları aşağıdakılardır:

1.Məna qrupunun vurğulu hecaları bir-birinə müntəzəm vaxt (zaman(intervallarında izləyirlər. Yalnız çox uzun ritmik qruplarda çoxlu vurğusuz hecalar olarsa müntəzzimlik ciddi müşahidə edilmir.

2.Bir çox ritmik qruplar vurğulu hecalı olur. Yəni vurğulu heca ilə başlıyır. Məna qrupunun içində yaranan vurğusuz hecalar özlərindən əvvəlki vurğulu hecalara yanaşma meyilində olurlar ki bunlarda bir az əvvəl yuxarıda qeyd etdiyimiz kimi enklitizalar yaradırlar: yalnız ilkin vurğusuz hecalar həmişə gözlərindən sonrakı hecalara yanaşmaqla prolitikalar yaradırlar.

3.Vurğulu hecalar arasında yerləşən vurğusuz hecaların sayı nə qədər çox olarsa bir o qədər də daha sürətlə tələffüz olurlar. İlkin vurğusuz hecalar həmişə sürətlə tələffüz olunurlar.

4.İlkin vurğusuz hecalar həmişə sürətlə tələffüz olunur.

5.Hər bir məna qrupunun özünə məxsus ritmi var ki bu ritimlər də cümlənin digər məna qrupları ilə müqayisədə semantik əhəmiyyətin dərəcəsindən asılı olur[6, s. 54].

Səs tembri-intonasiyanın keyfiyyət komponentidir. Bu komponent müxtəlif cümlələrinin və məna qruplarının tələffüz edilməsində nitqə emosianal çalarlıq verir. Bu nitq prosesində müxtəlif səs keyfiyyətlərinin akustik ifadəsidir. Səs tembri danişana sevinc, kədər, qəzəb qorxu pərişanlıq sevgi nifrət və s kimi emosiyaları ifadə etməkdə kömək edir. Səs tembrinə həmçinin müəyyən mənada səsin ucalığınıda aid etmək olar. Tembr vasitəsilə müxtəlif insanların səslərini ayırd etmək olar. Tembr emfatik intonasiya üçün xüsusi olaraq əhəmiyyətlidir. Belə ki tembr nitqinin hiss-heca həyəcan çalarlıqlarının yeganə ifadəsidir.

Pauza(fasilə) intonasiyanın mühüm tərkib hissələrindən biridir. Danışıq vaxti nitq parçalarının arasındakı zaman qırıqlığı kimi meydanaa çıxan pauza akustik cəhətdən səsin fizioloji cəhətdən isə tələffüzün kəsilməsi kimi izah edir. Pauzaya belə bir tərif vermək olar; mənalı səsələməni fasilələr halında təzə təzahür edən növünə pauza deyilir[3, s. 84].

Pauzanın bir sıra vəzifələri vardır. O müxtəlif sintatik vahidlərin(həmcins üzvlər, xitablar, ara sözlər və ara cümlələr tabeli mürəkkəb cümlələrin komponenetləri baş və budaq cümlələr və s (bİir-birindən ayırmasına və sərhədləndirilçəsinə xidmət edir. Lakin bu onun yeganə vəzifəsi deyilir. Pauza eyni zamanda sözlərin bir-birinə münasibətini bu münasibətin səciyyəsini müəyyənləşdirir.

Pauzanın emfotik nitqdə ekspressiv çalarlıqları da vardır. Onun vasitəsilə müxtəlif hissi münasibətlər(təəccüb, kədər, sevinc və s (ifadə oluna bilər.Semantik vəziffədə pauzanın əsas funksiyalarındandır. Pauzanın yerini dəyişdikdə məna da dəyişir. Bunu misallarla izah edək. Məsələ; ‘One of the trawellers’, says Mr Michael Collins’, was calm’

Əgər biz yuxarıda verilmiş cümlədə iki dəfə pauza etmiş olsaq onda cümlə aşağıdakı kimi tələffüz olunacaq: One of the trawellers ;(says Mr Michael Collins(was calm’.

Bu cümlə dilimizə belə tərcümə olunacaq;

“Səyahətçilərdən biri”- deyə cənab Maykl Kollinz davam etdi-təmkinli idi.”

Lakin biz həmin cümlədə pauzanın yerini dəyişsək və yalnız bir pauza etməli olsaq onda cümlə aşağıdakı kimi tələffüz olunacaq:

One of the trawellers says (Mr Michael Collins was calm.

Əgər biz bu cümləni dilimizə tərcümə etsək tamamilə başqa bir mənada cümlə alınacaq:

Səyahətçilərdən biri deyir ki cənab Maykl Kollinz təmkinli idi.

Və yaxud da başqa bir misala müraciət edək. Məsələn,

A . Would you like tea /or coffe

B. Would you like tea or, coffe

Yuxarıda verilmiş sturukturlu cümlələrdən birində bu zamandan istifadə olunmuşdur. Lakin ikinci cümlədə heç bir pauzadan istifadə edilməmişdir. Əgər birinci cümlədə iki içki növündən yalnız birinin seçimi bildirirsə ikinci cümlədə bundan fərqli olaraq ümumiyyətlə içki istənilib-istənilməməsi nəzərdə tutulur. Bu cümlələr ana dilimizə də müxtəlif cür tərcümə olunurlar. Məsələn.

A Çay istəyirsiniz, yoxsa kofe?

B Çay və ya kofe istəyirsinizmi?

Bu isə bir daha sübut edir ki, pauza mənalı səslənmənin bir növüdür, və nitiq ayını parçalarının bitkinliyini təmin edən mühüm vasitədir.

Pauza öz müddətinə görə:

1. böyüyür (uzun)
2. kiçik (qısa)

Böyük pauza müəyyən mənada bitmiş bir fikir ifadə edən nitq parçasıdır.Böyük pauzaları *tam pauzalar* kimi də adlandırmaq olar. Çünki tam pauzalar ayrı – ayrı, yəni müxtəlif cümlələr arasıda işlənir. Bu pauza sintaqmlararası pauzadan daha uzundur. Və cümlənin sonunda iki şaquli xətlə (II) göstərilir. Məsələn, Mr. 'Broun's, study. II His ‘telephone is ‘ringing II He is ’aut II.



Yuxarıda verilmiş cümlələr biri digərindən asılı olmadığı üçün hər bir müstəqil cümlədən sonra tam pauza işlənilmişdir.

Sintaqmlararası kiçik (qısa) pauzalar orta uzunluğa malik olurlar. Tonoqramda olan bir şaquli xətlə (I) göstərilir. Məsələn (we ‘Sit and, tolk I or ’listen to the, wireless I or ‘read I)



Yuxarıda verilmiş cümlə tabesiz mürəkkəb cümlədir və dörd tərkib hissədən ibarətdir. Lakin bu tərki hissələr olmadığından və biri digərindən asılı olduğuna görə və nəhayət tərkib hissələr bitkin fikir ifadə etmədiyi üçün yarımçıq fikir bildirən bu nitq parçalarından sonar kiçik (qısa) pauzalar işlənmişdir.

Bundan başqa ingilis dilində çox qısa pauzalar da vardır ki, bunlarda cüzi olaraq hiss olunan sintaqmlararası pauzalardır və tonoqramda şaquli dalğavari xətlə göstərilir. Məsələn This is a ‘picture ‘painted by an’ancient ’artist II.



1. Buray qədər deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, pauzalar da intonasiyanın digər komponetləri kimi özünəməxsus xüsusiyyətlərə malikdir. Pauza eyni zamanda nitq axınında həll edici rola malikdir və bəzən də emosional çalarlıqda yaradır. Başqa sözlə desək, pauza nitqin mənalı ifadəsi, təcəssümüdür [2, s. 54].

Ədəbiyyat

1.Axundov A.Azərbaycan dilinin fonetikası.B.,1984.
2. Dikuşina O.English Phonetics.M.,1965.
3. Roach P.English Phonetics and Phonology.C.,2000.

4. Sokolova M.Теоретическая фонетика английского языка.М.,1996.
5. Vassilyev V.English Phonetics.M.,1980.
6. Zeynalov F.Introduction to English Practical Phonetics.B.,2003.

Ф.Ибрагимова

Единство компонентов просодики в речи

Резюме

Данная статья посвящена ключевой характеристике произношения в современном английском языке.Интонация в английском языке – это совокупность определенных характеристик предложения, которые являются обязательным признаком устной речи.Основные составляющие интонации в английском языке – это мелодика речи (тон), ритм, темп, тембр голоса, фразовое и логическое ударение. Ритм – это чередования смысловых отрезков речи, ударение всегда выделяет самое главное, важное слово в смысловом отрезке. Мелодика речи – это чередование повышения и понижения тона голоса. Именно благодаря интонации в английском языке мы можем сделать нашу речь эмоционально богатой – выразить удивление, расстройство, негодование, восхищение и много другое. Интонация сложное единство высоты, силы, тембра и темпа в речи являющееся одним из главнейших средств выражения значения высказывания.Каждая синтагма (стало быть и предложение) в живой речи в интонационном отношении оформлена по заданию содержания определенным, типичным для данного языка, образом. Именно интонация и придает определенную степень смысловой ,законченности как синтагме, так и предложению. В каждом предложении есть свой смысловой центр. При помощи интонации и выражается этот смысловой центр. Интонация оформляет, организует предложение как таковое, выделяет его смысловой центр и выражает коммуникативный тип предложения таким образом, интонация выполняет определенные синтактические функции. Экспрессивная функция силового компонента — выделять слова в предложении, выражать степень их значимости. Экспрессивная функция мелодического (высотного) компонента — выражать коммуникативную направленность предложения, его модальность в широком смысле. Силовой и высотный компоненты имеют и организующую функцию: определенные ритмико-мелодические соотношения являются одним из основных признаков синтагмы и предложения. Тембральный и скоростной компоненты характеризуют предложение в эмоциональном отношении.

Ключевые слова: произношение, смысловая группа, речь, ударение, слог, предложение.

F.Ibrahimova

The Unity of the components of prosodic in speech

Summary

The article deals with the key characteristics of the pronunciation in modern English.Intonation is a complex unity of variations in pitch, sentence stress, tempo, rhythm and tamber. This greater prominence is achieved by a combination of the following means. By uttering the stressed syllables with greater force of exhalation and with greater muscular tension. Markedly changing the pitch level or pitch direction with which the stressed syllable is pronounced. Pronouncing the stressed syllables longer than they would be pronounced when unstressed. Pronouncing the vowel of a stressed syllable without changing its quality. Sentence-stress serves to single out words in the sentence according to their relative semantic importance. Speech melody and sentence-stress are the most important components of intonation. Because it is chiefly thanks to them that the meaning of a sentence can be expressed. Their close interconnection manifests itself, among other things, also in that the last stressed word in a sense-group or sentence contains the significant change in pitch. The pitch component of intonation, or melody, is the changes in the pitch of voice in connected speech.Rhythm is the recurrence of stressed syllables at relatively regular intervals of time in an intonation group. Sentence stress or the force component of intonation is the greater prominence of one or more words among other words in the same sentence.Speech tempo is the relative speed with which sentences and intonation groups are pronounced in connected speech.It is because of the intonation we can make our speech emotionally rich – expressing surprise, upset, resentment, admiration etc.

Key words: pronunciation, sense group, speech,stress, syllable, sentence.

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.07.2019
Filologiya üzrə fəlsəfə doktoru Nailə İbrahimova tərəfindən çapa tövsiyə olunmuşdur.

SAMİRƏ SULTANOVA
Bakı Dövlət Universiteti
Zahid Xəlilov küç23
samirasultanova@yahoo.com

AZƏRBAYCAN DİLİNİN FƏLSƏFƏ VƏ TARIXŞÜNASLIQ TERMİNOLOGİYASINDA ŞƏRQ-QƏRB LEKSİK TERMİNOLOİI PARALELLIYİ

Xülasə

Azərbaycan dilində humanitar elmlərə aid terminlər kimi ictimai elmlərin texnologiyasında da Şərq mənbəyi tarixən həmişə məhsuldar olmuşdur ki, bu, ilk növbədə, humanitar-ictimai təfəkkürün milliliyilə bağlıdır. Lakin nəzərə almaq lazımdır ki, qloballaşan dünyada humanitar-ictimai şüur özünün ən müxtəlif təzahürlərində, bir tərəfdən, mühafizəkardırsa, digər tərəfdən, ümumbəşəri (beynəlmiləl) prinsiplərə, formullara, etiketlərə möhtacdır.

Bu sahələrin özünəməxsus terminləri ilə yanaşı, ortaq terminologiyası da mövcuddur ki, ictimai intellekt universallığından irəli gəlir. Eyni zamanda xüsusi olaraq qeyd etmək lazımdır ki, ictimai elmlərin anlayışları və müvafiq olaraq, terminologiyası publisistik təfəkkür, kütləvi informasiya vasitələrinin dili üçün də səciyyəvidir.

Məsələ burasındadır ki , bizim günlərdə dilin daxili imkanları hesabına yaranan terminlər üçün də ideya istinadı, adətən məhz beynəlmiləl anlayışlardır. Bunu milli terminologiyanın yaranma yolları da göstərir.Əgər beynəlmiləl anlayışın milli dilə ideya təzyiqi yoxdursa, yeni terminin yaranması da ya mümkün deyil, ya da olduqca qeyri məhsuldardır.

Azərbaycan dilinin fəlsəfə terminologiyası Şərq-Qərb paralellizmini kifayət qədər geniş bir miqyasda əks etdirməsilə fərqlənir. Doğrudur, bu terminologiyanın əsasını Şərq mənşəli leksemlər, təşkil etmişdir, lakin son illərdə Qərb terminologiyasının sürətlə artması müşahidə olunur ki, bu da özünəməxsus paralellik yaradır.

Azərbaycan dilinin tarixşünaslıq terminologiyasında Şərq (əsasən, ərəb) mənşəli leksemlər, ənənəvi olaraq, mütləq əksəriyyət təşkil etsə də, onların Qərb mənşəli sinonim-paralelləri də miqdarca az deyildir.

Açar sözlər:sahə, universal, məqsəd, kütləvi,imkan.

"Fəlsəfə" termini, görünür, Şərq dillərinə Qərbdən (yunan dilindən) keçmiş ilk və ən populyar sözlərdən biridir. Sözün uğradığı ciddi fonetik dəyişiklik (filosofiya → fəlsəfə) də mənimsəmə prosesinin uzun zaman davam etmiş olduğunu göstərir. Əsas fəlsəfi kateqoriyaların antik yunan məktəbinə mənsub Sokrat, Platon və Aristotelin əsərlərinin ərəbcəyə kütləvi tərcümələri və şərhləri nəticəsində İslam dünyasında geniş yayılması məlumdur ki, bu sahədə azərbaycanlı mütəfəkkirlərin də tarixi xidmətləri böyük olmuşdur.

Azərbaycan dilinin fəlsəfə terminologiyası Şərq-Qərb paralellizmini kifayət qədər geniş bir miqyasda əks etdirməsilə fərqlənir. Doğrudur, bu terminologiyanın əsasını Şərq mənşəli leksemlər, təşkil etmişdir, lakin son illərdə Qərb terminologiyasının sürətlə artması müşahidə olunur ki, bu da özünəməxsus paralellik yaradır. Ona görə "özünəməxsus" deyirik ki, fəlsəfi anlayışlar digər elm sahələrinin anlayışlarından fərqli olaraq çox dinamik, çox aforistikdir. Məsələn, F.İsmayılov yazır: "Qərbin intelektuallarını ən çox narahat edən şüur, ruh və ruhilik problemidir. Bu da təsadüfi deyil, çünki hər şey, gərdişi-dövranın gedişi, bəşəriyyətin taleyi

bundan asılıdır. P.Sorokin əsrin "katastrofizmindən" söhbət açır, Spenqler onu "axırıncı katastrof əsri", bəziləri "qürub çağı", "absurd əsri", "narahatlıq əsri", "iztirablar əsri", "xəstə epoxa " və s. kimi xarakterizə edirlər" (49, s. 10-11).

Odur ki, fəlsəfənin müasir terminologiyasını standartlaşdırmaq o qədər də asan deyil və istər-istəməz onlar təhrifə məruz qalmalı olur.

"Fəlsəfənin dəyəri sözün sirli, mülhəm möcüzəsidir. Bir hind hikmətində deyilir ki, "söz adlanan bir məşəl işıq saçmasaydı, dünyamız zülmətə qərq olardı", başqa bir hikmətdə "hər şey sözlə müəyyən olunur, sözdə gizlənir, sözdən əmələ gəlmişdir" deyilir. Millət öz inkişafının ali mərhələsində ancaq zəkanı ali hakim, avtoritet kimi qəbul edir, bu isə dildə gerçəkləşən ideyalardan zövq almaq, zəka səltənətində yaşamaq deməkdir" (49, s. 14).

Bununla belə F.İsmayılovun müasir fəlsəfi təfəkkürlə, eləcə də onun problemləri səviyyəsində yazılmış "Müqəddəs od və yaxud fəlsəfənin fəlsəfəsi" kitabında işlənmiş terminologiyada özünü göstərən Şərq-Qərb paralelliyi faktlarını nəzərdən keçirək: *paradoks – əksliklərin qardaşlaşması; konsolidasiya qüvvəsi – sementləşdirici qüvvə –mərkəzləşdirici qüvvə; intellekt enerjisi – zəka enerjisi; kriteriya – meyar; limit – ölçü, məhdudiyyət; absurd – mənasızlıq, qeyri-müəyyənlik; tendensiya – meyl, istiqamət; orqanik – üzvi; kontrast – əkslik* və s.

İlk növbədə diqqəti cəlb edən odur ki, bu paralellər yalnız fəlsəfənin dilində işlənmir və bir növ, universal xarakter daşıyır. İkincisi isə, müasir Azərbaycan ədəbi dilinin elmi üslubunda fəlsəfə terminologiyası bəzən klassik elmi üslub tələblərindən kənara çıxır ki, buna təbii baxmaq lazım gəlir. Çünki fəlsəfənin dili öz-özlüyündə "izhar" funksiyası daşıyır və çox hallarda müəllifin stilizasiyalarını əhatə edir. Məsələn, Azər Turan esselərindən birində yazır: **ridir.** "Ruh dəyişmə, birin ikiləşməsi" adlı həmin essenin terminologiyası, əslində, Şərq mənşəli ümumişlək sözlərin terminləşdirilməsi yolu ilə yaradılmışdır ki, bu cəhd fəlsəfi terminologiyadakı Qərbləşmə meylinə qarşı olub, Şərq mənşəli fəlsəfi anlayışları "dərinləşdirmək" tendensiyasını ifadə edir. Bu cür "dərinləşdirmə" isə, heç şübhəsiz, Şərq-Qərb leksik-terminoloji paralelliyinin yeni qatlarını müəyyənləşdirmiş olur.

Ədəbiyyatşünas, filosof Rüstəm Kamalın dilində də həmin tendensiya nisbətən fərqli çalarda özünü göstərir: –Burada Qərb terminologiyasına meyl vardır, lakin aparıcı istiqamət Şərq və Qərb anlayışlarını daha dərin qatlarda müqayisə etməkdən, paralelliyi "yaxınlaşdırmaq" dan, nəticə etibarilə, terminoloji fərqliliklər arxasındakı anlayış universallığını və ya birliyini təsbit eləməkdən ibarətdir.

Ümumiyyətlə, fəlsəfənin ictimai elmlər sferasına daxil edilməsi şərtidir və bu şərtilik onun "elmlər elmi" təyinatından da irəli gəlir. Fəlsəfi təfəkkür təbiidir ki, öz ortaq, identik və ümumbəşəri anlayışlarını formalaşdırmaqla yanaşı, həmin anlayışlara hər dəfə tənqidi, bir çox hallarda isə tendensiyalı münasibətin çoxsaylı təcrübələrini təqdim edir.

Azərbaycan filosofu Fərman İsmayılov bu məsələnin daha qlobal, daha kütləvi xarakter daşıdığını göstərir: "Ekzistensional böhranın ən faciəvi nəticəsi – dilin özgələşməsidir. İnsanlar dili bu və ya digər məna yaratmaq üçün yaratmışlar. Müasir dillər isə çox vaxt məna əvəzinə absurd istehsal edirlər. Təbiidir ki, absurd əsrində dil də absurddan başqa şey ifadə edə də bilməz. Başlanğıcda dillə gerçəklik arasında eyniyyət olur – dil konkret gerçəkliyin ifadəsi, onun təbiət ilə əlaqədar olduğuna görə dilin özgələşməmiş halı ideal variantdır. XX əsrin əvvəllərində filosoflar və riyaziyyatçılar ideal dil proqramı qəbul etmişdilər və bu bir müddət texniki məqsədlər üçün kara gəlirdi. Lakin dil insan və cəmiyyətlə əlaqədar olduğuna görə o sistematik təşəkkületmə və inkişaf prosesi keçirməyə məhkumdur. Həmin fakt dilin də ideal haldan müasir abstrakt – konkretlikdən uzaqlaşmış hala – mənadan absurda doğru dəyişilməsini məntiqi zərurətə çevirir. Nəticədə, dildə gerçəklik, sözlə onun ifadə etdiyi məzmun arasında fərq əmələ gəlir" (49, s. 390).

Odur ki, filosofun termin axtarışları digər elm sahələri üzrə mütəxəssislərin müvafiq

axtarışlarından fərqlənir. F.İsmayılovun“Müqəddəs od və yaxud fəlsəfənin fəlsəfəsi” kitabının“Giriş”inin terminologiyası üzərində Şərq-Qərb paralelliyinin tənasübünün vəziyyəti ilə bağlı apardığımız müşahidələr belə bir mənzərə yaradır:

a) Şərq mənşəli terminlər: *böhran, maddilik, müsbət, mənfi, ruh, əfkari-ümumiyyə, fəaliyyət, mahiyyət, məram, məna, hərəkətverici, zəka, həyat tərzi, idrak, əxlaq, şüur, qanun, zövq, amal, yadlaşma, özgələşmə, müdriklik, mövcudluq, dünyagörüşü* və s.

b) Qərb mənşəli terminlər: *total, proses, epoxa, obyektivizm, subyektivizm, hegemon, obyekt, tendensiya, aspekt, absurd, katastrof, varvar, restavrasiya, etik, konsolidasiya, patalogiya, intellektual, model, oriyentasiya, rassional, humanizm, ideya, paradiqma, etalon, panseya* və s.

Hər şeydən əvvəl onu demək lazımdır ki, buradakı Şərq mənşəli terminlərin əksəriyyətinin Qərb, Qərb terminlərin isə çoxunun Şərq mənşəli qarşılığı vardır. Ona görə də müəllifin gah bu, gah da digər terminə üstünlük verməsi, fikrimizcə, metodoloji əhəmiyyət kəsb etmir. İkinci tərəfdən, “Giriş”in, ümumiyyətlə monoqrafiyanın dilində Şərq və Qərb mənşəli fəlsəfi terminologiya çox çevik, məntiqli bir şəkildə ideya-məzmunca birləşərək aydın assosiativ əlaqələr yaradır: *mənfi tendensiya, müsbət tendensiya, sivilizasiya pərdəsi, etik əsaslar, rasional fəaliyyət, nəzəri sistem, intellektual fəaliyyət normaları, nəzəri və praktik, irrasional məxluq, intellektual varlıq, kütləvi şizofreniya, həyat prinsipi, strateji məqsəd* və s.

Nəhayət, üzərində müşahidə apardığımız mətndə diqqəti çəkən üçüncü cəhət Qərb mənşəli terminin Şərq mənşəli terminlə və ya əksinə müəyyən qədər obrazlı şəkildə izah olunmasıdır; məsələn:

1)...Onu *paradokslar* və ya *əksliklərin* qardaşlaşması dövrü kimi də xarakterizə etmək olar (49, s.10).

2)...Fəlsəfə *küncə sıxışdırılmış*, *persona-non-qrata halına salınmışdır*.

3)...Dəyərlərin öz *məcrasından çıxması, patologiyaya məruz qalması* deməkdir (49, s.12).

Fəlsəfi terminologiyada Şərq-Qərb münasibətləri xüsusilə son dövrlərdə anlayışın stabil, metafizik dərkindən daha çox, assosiativ improvizasiyalara, hadisələrin dinamik izahına, anlayışların metaforik ümumiləşdirilməsinə əsaslanır.

Fəlsəfənin ən “mühafizəkar” sahəsi olan məntiq elminin terminologiyası müəyyən qədər fərqlənir; belə ki, burada terminlərdən “sui-istifadə etmək” özünü doğrultmur: “Bir qayda olaraq, sillogizmin təhlilinə nəticə hökmündən başlayırlar, çünki sillogizmlərdə əlaqələndirilən hökmlərdə S və P-nin yeri vardır. Bu baxımdan, nəticə hökmündə predikat yerində duran termin böyük termin adlanır və “P” hərfilə göstərilir, subyekt yerində duran termin kiçik termin adlanır, “S” hərfi ilə ifadə olunur. Hər iki hökmdə iştirak edən, onların arasında məntiqi əlaqəni yaradaraq, heç vaxt nəticəyə çıxarılmayan termin otra termin adlanır və “M” hərfilə göstərilir(lat. medius-orta deməkdir). M-ə əlaqələndirici, yaxud vasitəçi termin də demək olar. S və P-yə birlikdə kənar terminlər də deyilir. Sillogizmdə verilən çıxış hökmləri də terminlərlə müəyyən olunur. Böyük terminin daxil olduğu hökm böyük müqəddimə (lat. major), kiçik terminin daxil olduğu hökm kiçik müqəddimə (lat. minor), bunlardan alınan yekun birliyi isə nəticə hökmü (lat. conquliso) adlanır. Orta termin böyük müqəddimədə ümumini, kiçikdə təkcəni, xüsusini əks etdirir (52, s.197-198).

Göründüyü kimi, mətndə həm Şərq, həm də Qərb mənşəli terminlər nəinki hər cür əqli “improvizasiya”dan uzaq riyazi dəqiqliklə verilir, həmçinin hər bir əsas termin müxtəlif mövqelərdən(izah, müqayisə, etimoloji şərh və s.) mükəmməl şəkildə modelləşdirilir.

Azərbaycan dilinin tarixşünaslıq terminologiyasında Şərq (əsasən, ərəb) mənşəli leksemlər, ənənəvi olaraq, mütləq əksəriyyət təşkil etsə də, onların Qərb mənşəli sinonim-paralelləri də miqdarca az deyildir. Müşahidələr göstərir ki, həmin paralelliklər, əsasən, aşağıdakı yollarla əmələ gəlir:

a) ənənəvi Şərq mənşəli terminin Qərb analoqu tarixşünaslıq mətnlərinin dilinə daxil olaraq sinonimlik yaradır; məsələn: *mərhələ – etap, dövr – epoxa, tərəqqi –proqres, irticaçı – aqressor, sülalə – dinastiya, xalq – etnos , təcavüzkar – uzurpator* və s.

b) Qərb mənşəli termin üçün milli qarşılıq axtarışı gedir və yaxud o, sadəcə olaraq, tərcümə edilərək terminoloji paralellik yaradır; məsələn: *proses – gedişat, paleolit – qədim daş, neolit – yeni daş, ekspedisiya – yürüş, renesans – intibah, dirçəli*ş və s.

Maraqlı faktlardan biri də bu və ya digər region üçün səciyyəvi olan siyasi, yaxud etnoqrafik adlardır ki, öz adlarında üslubi sinonim assosiasiyası meydana gətirirlər. Məsələn: *şah – çar – kral; şahzadə – prins, senat – duma – parlament –qurultay – məclis, fərman – qramota, cəngavər – rıtsar* və s. Təbii ki, burada paralellikdən daha çox Şərq və Qərb mənşəli realiyaların ekvivalentliyindən söhbət gedə bilər. Bir mühüm məsələ də həmin ekvivalentlərin, bir qayda olaraq, Şərq və ya Qərb oriyentasiyasından kənara çıxıb daha diferensial etnoqrafik xüsusiyyət kəsb etməsidir.

Tarixşünaslıq terminologiyası bütün dillərdə olduğu kimi Azərbaycan dilində də "qapalı" bir sistem deyil. Tarixçinin dilində yalnız tarixşünaslığa və ya istorioqrafiyaya aid olduğunu israr edə biləcəyimiz söz-terminlər, əslində, çox azdır. Çünki *sosial tarixşünaslıqda sosioloji, siyasi tarixşünaslıqda politoloji, iqtisadi tarixşünaslıqda iqtisadi, mədəniyyət tarixşünaslığında kulturoloji* və s. terminlər böyük üstünlük təşkil edir.

N.Cəfərovun "Azərbaycan xalqının tarixi və ya "tərcümeyi-hal"ı "kitabının dili üzərində apardığımız təhlillər nəticəsində aşağıdakı Şərq-Qərb leksik-terminoloji paralellik faktlarını müşahidə etdik: bölünmə-diferensiasiya, birləşmə – inteqrasiya, mərkəzləşmə – konsentrasiya, etnik mənşə – etnogenez, xalq – etnos, mədəni-kulturoloji, daimi – stabil, mənzərə – panoram, çevik – passionar, yerli – aborigen, təşəkkül – formalaşma, müasir – modern, memarlıq-arxitektura, mütərəqqi – proqressiv, xəlqi – demokratik, ictimai – sosial, imkan – potensial, cümhuriyyət- respublika, rəhbər – lider, məfkurə – ideologiya, quruluş – struktur, amil – faktor, gerçək – real, əlaqə – kontakt və s. (29).

Lakin müşahidələr göstərir ki, müasir Azərbaycan tarixşünaslığının dilində Şərq mənşəli terminlərə daha böyük üstünlük verilir.

Yaqub Mahmudov yazır: Göründüyü kimi, mətndə Qərb mənşəli terminlərdən yalnız *diplomatiya* və *imperiya* sözlərinə təsadüf edilir ki, bunların Şərq qarşılıqları mövcud deyil. Müəllif çalışmışdır ki, Şərq mənşəli terminlər işlətsin. Əlbəttə, burada Yaqub Mahmudovun orta əsrlər üzrə mütəxəssis olması müəyyən rol oynasa da həlledici deyil. Çünki müasir dövrə aid tarixşünaslıq araşdırmalarının dilində də Qərb mənşəli terminlərin işlədilməsinə o qədər də meyl görünmür; məsələn, "Azərbaycan-Rusiya münasibətləri müasir dövrdə" məqaləsinin müəllifi yazır: – Mətndə *represiya, proses* və *forma* terminlərini çıxmaq şərtilə, yerdə qalan tarixşünaslıq terminologiyası Şərq mənşəlidir.

Fikrimcə, bu, aşağıdakı səbəblərdən irəli gəlir:

a) milli tarixşünaslıq təfəkküründə millilik-azərbaycançılıq meyllərinin güclənməsi;

b) tarix elminə kütləvi marağın təsiri altında tarixşünaslığın dilinin müəyyən mənada publisistikləşməsi.

Son illər Azərbaycanda bir sıra tarix kitabları rusca yazılıb Azərbaycan dilinə tərcümə olunur ki, həmin əsərlərin dilində Şərq-Qərb terminoloji münasibətləri müəyyən qədər fərqlidir. Məsələn, Zaur Həsənovun "Çar skiflər" monoqrafiyasının dili bu baxımdan tipik sayıla bilər: "Yuxarıda sadalanan dəlil və arqumentlər birmənalı olaraq skiflərin İran etno-dil mənsubiyyətini iddia edən konsepsiyanın əsassız olduğunu söyləməyə imkan verir. Bununla da, skif cəmiyyətinin dil mənsubiyyətinin müəyyənləşdirilməsi problemi gələcək araşdırmalar üçün də aktuallığını qoruyub saxlayır. Bu tədqiqatda biz bütün skiflərin eyni bir dil ailəsinə mənsubluğu tezisindən çıxış etmirik. Biz belə fərz edirik ki,"çar skiflər", habelə Heradotun "korların oğulları" adlandırdığı tayfalar Altay dil ailəsinə aiddir.

Skif problemi ilə bağlı təklif etdiyimiz konsepsiyanın əsasında skif cəmiyyətinin polikultural və polilinqvistik səciyyədə olması barədə tezis durur. Topladığımız məlumatın bütün aspektlərini nəzərdən keçirərək, biz diqqətimizi təkçə o skif tayfa birləşmələrinin üzərində cəmləmişik ki, tədqiqatdan alınan nəticələr onların dil və mədəniyyətcə potensial olaraq Altay (türk-monqol) mənsubiyyətini üzə çıxarmışdır. Skif cəmiyyətinin sosial müəyyənliyi problemi də bilavasitə etnik konsepsiya ilə bağlıdır" (41, s.72).

Müqayisə edək:

a) Şərq mənşəli terminlər – dəlil, cəmiyyət, dil, araşdırma, tədqiqat, dil ailəsi, tayfa, tayfa birləşməsi, mədəniyyət və s.

b) Qərb mənşəli terminlər – arqument, konsepsiya, problem, tezis, polikultural, polilinqvistik, aspekt, potensial, sosial, etnik və s.

Göründüyü kimi, həm *dəlil*, həm də *arqument* terminlərindən istifadə edilir, *etno-dil* və *aktuallıq* terminlərində Qərb-Şərq hibridləşməsi özünü göstərir.

Qərb mənşəli *polikultural* və *polilinqvistik* mürəkkəb quruluşlu terminlər, əslində, Şərq qarşılıqları (*çoxmədəniyyətli* və *çoxdilli*) ilə verilə bilərdi, lakin, görünür, müəllif-tərcüməsinin tarixşünaslıq üslubu daha çox Qərb modelləri ilə bağlı olduğundan terminologiyada da Qərb ənənəsinə üstünlük verilmişdir. Ümumiyyətlə, monoqrafiyanın dilində, yuxarıda göstərilənlərdən əlavə, çoxlu sayda Qərb mənşəli terminlər işlənir: modifakasiya (41, s. 35), panteon (41, s. 37), poliobraz, polifunksiya, polisemantika (41, s.47), geneoloji, iyerarxik, triada (41, s. 121), status, diskussiya (41, s. 153), konsonant, analoq, transformasiya (41, s. 210) və s.

"Çar skif"lərdə müəllifin terminologiya məsələsinə nə qədər dəqiq, həssas yanaşdığı onun verdiyi metodoloji izahdan da qörünür:

"Beləliklə də, ümumiləşdirilmiş mənada "identifikasiya" – "eyniləşdirmə" anlayışı məqsədi tam eyniyyət, oxşarlıq, uyğunluğu müəyyənləşdirmək olan bir proseslə bağlanır ki, bu da "identikliy"i, yəni müəyyən obyektlərin bu və ya digər əlamətlər zəminində uyğunluğunu təsdiq etməyə imkan verir.

Bizim nəzərimizcə, tarix elmində skif və yunan tanrılarını tutuşdurarkən yer alan "bərabərləşdirmə" anlayışı ilə skif-türk paralellərində işlətdiyimiz "eyniləşdirmə"anlayışı arasında prinsipial fərq vardır. Misal olaraq, Herodotun skif tanrılarını yunan tanrıları ilə müəyyən oxşarlıq zəminində bərabərləşdirməsini göstərmək olar; bu, eyniləşdirmə deyil.

Herodot tərəfindən tətbiq olunan bərabərlik parametrlərin oxşarlığına əsaslanır, bizim irəli sürdüyümüz eynilik isə bütün parametrlər çevrəsi boyu tam uyarlıq, uyğunluq və birmənalılığı nəzərdə tutur" (41, s. 45).

Göründüyü kimi, müəllif termin dəqiqləşdirilməsi apararkən beynəlxalq tarixşünaslıq anlayışlarını – ideya – konsept standartlarını müqayisə edir ki, bu, ümumiyyətlə, anlayış-termin ekvivalentliyinin və ya adekvatlığının ciddi problemlərlə, mübahisələrlə müşayiət olunduğu, anlaşılmazlıqların meydana çıxdığı ictimai elmlər üçün zəruri hadisədir.

Azərbaycan tarix elminin dilində bir sıra terminlər var ki, məhz milli tarixşünaslıq təfəkkürü baxımından mübahisə doğurur. Məsələn, İsmayıl Hacıyev "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" monoqrafiyasında yazır: "Azərbaycan tarixində "dövlət" və "dövlətçilik" anlayışları kifayət qədər elmi nəzəri bazaya əsaslanmadığına görə, dövlətin yaranması şəraiti və ilkin xronologiyasının şərhi də diqqəti cəlb edir. Azərbaycan tarixinin yeddicildlik akademik nəşri və digər ümumiləşdirilmiş Azərbaycan tarixi kitablarında bu suallara aydın cavab tapmaq mümkün deyil" (39, s. 14).

Əlbəttə, burada məsələyə dilçilik müdaxiləsi özünü yalnız müəyyən həddə qədər doğruldur. Termin-anlayışın elə konseptual cəhətləri vardır ki, məhz tarixşünaslıq elmi tərəfindən formalaşdırılmalıdır. Məsələnin mürəkkəbliyi isə ondadır ki, "dövlət" və

"dövlətçilik" anlayışları bu baxımdan həm Şərq, həm də Qərb dillərində məzmunca xeyli yayğındır. Və ona görə də müvafiq Şərq-Qərb termin – ekvivalent qarşılaşdırılması əhəmiyyətli dəqiqləşdirmə aparmağa imkan vermir.

Ədəbiyyat

1. Cəfərov N. Azərbaycan xalqının tarixi və ya "tərcümeyi-hal"ı. Bakı, 2014, 144 s.
2. Hacıyev İ. Naxçıvan Azərbaycanın dövlətçilik tarixində. Bakı: Elm, 2018, 372 s.
3. Həsənov Z. Çar skiflər. Bakı: Əbilov, Zeynalov və oğulları, 2005, 480 s.
4. İsmayılov F. Müqəddəs od və yaxud fəlsəfənin fəlsəfəsi. Bakı, Elm və təhsil, 2015, 544
5. İsrafilov M. Məntiq. Bakı: Kitab Klubu, 2017, 408 s.
6. Kamal R. Güzgü günü (filoloji esselər). Bakı: Çaşıoğlu, 2017, 276 s.
7. Mahmudov Y. Azərbaycan dövlətcilik tarixinə ümumi bir baxış // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2001, №2, s.68-75.
8. Məmmədov Ə. Azərbaycan-Rusiya münasibətləri müasir dövrdə // AMEA-nın Xəbərləri. Humanitar və ictimai elmlər seriyası. Bakı, 2003, №1-4, s.111-115.
9. Turan A. XX əsr. Fəryadın metafizikası. Bakı: Elm və təhsil, 2017, 424 s.

Султанова С.

Восточно-Западный параллелизм в философии и историографии азербайджанского языка.

Резюме

В азербайджанском языке, а также в терминах, используемых в социальных науках, восточный источник всегда был продуктивным, в первую очередь благодаря национализму гуманитарной и социальной мысли. Однако важно помнить, что в глобализованном мире гуманитарное и социальное сознание в его самой разнообразной форме консервативно, с другой стороны, нуждается в универсальных (международных) принципах, формулах и ярлыках.

В дополнение к конкретным терминам в этих областях, существует общая терминология, которая вытекает из универсальности общественного интеллекта. В то же время следует отметить, что понятия социальных наук и, соответственно, терминология типичны для публицистического мышления и языка средств массовой информации.

Хотя лексемы восточного (в основном арабского) происхождения традиционно составляют большинство в терминологии азербайджанского языка, их синонимы западного происхождения не являются незначительными.

Наблюдения показывают, что язык современной азербайджанской историографии больше предпочитает термины восточного происхождения.

Термин «философия», по-видимому, является одним из первых и самых популярных слов в восточных языках, которые перешли с Запада (греческого). В результате популярных переводов и интерпретаций произведений Сократа, Платона и Аристотеля на арабском языке, основные философские категории широко известны во всем исламском мире.

Философская терминология азербайджанского языка отличается от того, что она отражает довольно большой масштаб параллелизма Восток-Запад. Правда, восточные

лексемы являются основой этой терминологии, но в последние годы произошел быстрый рост западной терминологии, что является своеобразным.

Ключевые слова:область, универсальный, цель, массивный, возможность.

Sultanova S.

Eastern-Western parallelism in the philosophy and historiography
of the Azerbaijani language.

Summary

In the Azerbaijani language, as well as in terms used in the social sciences, the oriental source has always been productive, primarily due to the nationalism of humanitarian and social thought. However, it is important to remember that in the globalized world, the humanitarian and social consciousness in its most diverse form is conservative, on the other hand, it needs universal (international) principles, formulas and labels.

In addition to specific terms in these areas, there is a general terminology that derives from the universality of social intelligence. At the same time, it should be noted that the concepts of social sciences and, accordingly, terminology are typical of journalistic thinking and the language of the media.

Although tokens of eastern (mainly Arabic) origin traditionally make up the majority in the terminology of the Azerbaijani language, their synonyms of western origin are not insignificant.

Observations show that the language of modern Azerbaijani historiography prefers terms of eastern origin. The term "philosophy", apparently, is one of the first and most popular words in Eastern languages that came from the West (Greek). As a result of popular translations and interpretations of the works of Socrates, Plato and Aristotle in Arabic, the main philosophical categories are widely known throughout the Islamic world.

The philosophical terminology of the Azerbaijani language differs from the fact that it reflects a rather large scale of East-West parallelism. True, oriental tokens are the basis of this terminology, but in recent years there has been a rapid growth in Western terminology, which is peculiar.

Key words:field, universal, aim, massive,opportunity.

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 25.07.2019
Akademik Nizami Cəfərov tərəfindən çapa tövsiyə olunmuşdur.

ÜLVİYYƏ ƏLİYEVA
Bakı Dövlət Universiteti
Zahid Xəlil küç 23
ulviyye_a @yahoo.com

KONTENSİV TİPOLOGİYA BAXIMINDAN AZƏRBAYCAN DİLİNDƏ CÜMLƏNİN NOMİNATİV STRUKTURU

Xülasə

Kontensiv tipologiya məzmun planının universal vahidlərinin dildəki ifadəsinə əsaslanan semantik determinantlı tipologiyadır. Kontensiv tipologiya baxımından Azərbaycan dili başqa türk dilləri kimi nominativ quruluşludur. Sistemli linqvistikanın prinsiplərinə əsaslanan kontensiv tipologiyada dil strukturunun iyerarxiyası əhatə olunur, dilin fonetik-fonoloji, leksik, morfoloji, sintaktik xüsusiyyətləri nəzərə alınır.

Azərbaycan dilində xəbərin ifadəsi olan feili leksemin semantikasından, yəni təsirli və ya təsirsizliyindən asılı olmayaraq, qrammatik subyekt – mübtəda həmişə adlıq halda olur. Müstəqim obyekt – vasitəsiz tamamlıq ancaq təsirli feillərlə işlənir. Azərbaycan dilində vasitəsiz tamamlıq həm şəkilçili, həm də şəkilçisiz forma ilə ifadə olunur. Şəkilçisiz, yəni sıfır formalı vasitəsiz tamamlıq həmişə feili xəbərin yanında gəlir; subyekt, obyekt və predikat ardıcıllığı onların həm formasını, həm də funksiyasını müəyyənləşdirir.

Sintaktik baxımdan Azərbaycan dilinin nominativ quruluşunu fərqləndirən hər şeydən əvvəl vahid tipoloji xüsusiyyətlərə malik olmasıdır. Azərbaycan dilinin nominativ tipinin morfologiya ilə bağlılığı özünü daha qabarıq göstərir.

Kontensiv tipologiyada müxtəlif dil tiplərinə, əsasən, stadial inkişafın nəticəsi kimi yanaşılır. Bu baxımdan nominativ quruluşlu hind-Avropa dilləri erqativ dillərlə müqayisə edilir. Türk dillərinin, eləcə də Azərbaycan dilinin yazılı abidələri bu dillərdə aktiv dil tipinin relikt əlamətlərinin qorunduğunu göstərir.

Açar sözlər: Morfoloji və kontensiv tipologiya. Cümlə strukturu. Neytral tip. Aktiv, erqativ və nominativ dillər. Subyekt və obyekt. Tranzitiv və intranzitiv feillər.

Azərbaycan dili başqa türk dilləri kimi morfoloji tipologya baxımından aqqlütinativ, kontensiv tipologiya baxımından isə nominativ dillər sırasına daxil olur. Cümlənin nominativ quruluşu həm aqqlütinativ, həm də flektiv dillərdə özünü göstərir.

Tipoloji dilçilik morfoloji tipologiya kimi yaranıb. Sintaktik tipologiyanın yaranması ilə cümlə üzvləri və nitq hissələrinin münasibətinə əsaslanan tipologiyanın, eyni zamanda cümlə strukturu əsasında sintaktik tipologiyanın prinsipləri müəyyənləşdirilir (6, 7, 8). Sintaktik tipologiyanın yaranması ilə tipoloji təsniflər üçün çıxış nöqtəsi kimi qəbul edilən sözün morfoloji quruluşu cümlənin strukturu ilə əvəz edilir, cümlə strukturunda tipoloji baxımdan rellevant olan əlamətlər axtarılır. Belə bir fikir var ki, tipologiya dilə, dildəki ayrıca hadisələrə bir-birindən asılı olan bir bütöv kimi yanaşmalıdır (13).

Sistemli linqvistikanın prinsipləri əsasında dilə sistem struktur münasibətləri əsasında yanaşılması tipoloji dilçiliyin də bu baxımdan inkişafına səbəb olmuş, dillərin tipoloji baxımdan təsnif prinsipləri əhəmiyyətli dərəcədə dəqiqləşdirilmişdir. XX əsrin 60-cı illərindən etibarən yeni bir tipologiya-kontensiv tipologiya və ya məzmun tipologiyası formalaşmışdır. Morfoloji tipologiya dil strukturunun formal, xarici, kontensiv tipologiya isə daxili, məzmun cəhətinə əsaslanır. Lakin morfoloji və kontensiv tipologiyalar bir-birini inkar etmir, əksinə bir-birini

tamamlayır. Linqvistik tipologiya iyerarxik münasibətlərin təsbitinə əsaslanan taksonomik təsnifatlandırmadan törəyən sistemləşmə mexanizmidir. İfadə planından məzmun planına, məzmun planından forma planına istiqamət morfoloji və kontensiv tipologiyaları bir-birinə qarşı qoyur. Tipoloji dilçilikdə dilin iyerarxik təşkilinin nəzərə alınması, səviyyələr tipologiyasının, ayrıca olaraq, leksik, semantik, sintaktik tipologiyaların yaranması, dil universalilərinin bu istiqamətli tədqiqatlara daxil edilməsi kimi müxtəlif amillər semantikanın, semantik ölçülərin tipoloji tədqiqatlara daxil olması ilıə nəticələnir. Nəzərə alınmalıdır ki, kontensiv tipologiya, bütövlükdə semantik determinantlı tipologiyadır. Sintaktik tipologiyanın əsasında formalaşan kontensiv tipologiya sistemli linqvistikanın prinsipləri əsasında bütöv dil strukturunun xüsusiyyətlərinə əsaslanan təsnif prinsiplərinə malikdir. Universal subyekt-obyekt münasibətlərinin dildəki ifadəsinin dil strukturunun təsvirinə yönəlməsinin kontensiv tipologiyanın formalaşmasında ayrıca rolu olub (4, 16). Subyekt-obyekt anlayışları ilə bağlı olan qrammatik münasibətlər dilin bütün səviyyələri üçün relevantdır və bu münasibətlər, bütövlükdə linqvistik nəzəriyyə üçün mühüm əhəmiyyət daşıyır. Eyni tipoloji sinfə daxil olan dillərin struktur oxşarlığının əsasında subyekt-obyekt münasibətlərinin ifadəsindəki oxşarlıq dayanır. Kontensiv dil tipi müxtəlif dil səviyyələrini ehtiva edən əlamətlərin məcmusudur. Kontensiv tipologiyada dilin leksik, morfoloji və sintaktik xüsusiyyətləri əhatə olunur. Fonoqrammatik vsitə olan intonasiya da cümlənin struktur-semantik və funksional müəyyənliyinin qazanılmasına mühüm əhəmiyyət daşıyır. Bir sıra dillərdə subyekt-obyekt münasibətlərinin ifadəsində fonoloji səviyyə vahidləri də mühüm rol oynayır (5, 196-197).

Kontensiv tipologiya baxımından əsasən dörd dil tipi fərqləndirilir: sinifli dil tipi, aktiv dil tipi, leqativ dil tipi, nominativ dil tipi. Bəzən bu sıraya beşinci dil tipi- neytral dil tipi də əlavə edilir. Tədqiqatçılar belə bir cəhətə də diqqət yetirirlər ki, neytral dil tipi dedikdə real olaraq mövcud olan dilin və ya dillərin tipi deyil, bərpa edilən dilin tipi nəzərdə tutulur 94, 271). Neytral dillər təcrid olunan dillərlə əlaqələndirlir. Formal tipologiya baxımından təcrid olunan dil kimi qəbul edilən bəzi dillərdə subyekt-obyekt münasibətlərinin ifadəsi dilin leksikası ilə məhdudlaşır, lakin bu tipli dillərin kontensiv tipologiya baxımından öyrənilməsi onların struktur xüsusiyyətlərinin məzmun planı əsasında müəyyənləşməsi fikrinə gəlməyə əsas vermir (4, 227-229). Hal-hazırda bu tipə daxil edilən dillərin bir çoxu həm də erqativ və nominativ dillərin xüsusiyyətini daşıyır.

Kontensiv tipologiya baxımından dünya dillərinin böyük əksəriyyəti nominativ tipə daxil edilir. Başqa türk dilləri kimi Azərbaycan dili də nominativ dillərdəndir. Bu dildə də cümlənin nominativ strukturunun formalaşmasında dilin həm leksik, həm morfoloji, həm də sintaktik vasitələri əhəmiyyət daşıyır. Nominativ quruluşuna görə Azərbaycan dili başqa nominativ dillərlə oxşar xüsusiyyətlərə malik olduğu kimi, aktiv, erqativ və s. dillərdən də bir sıra cəhətlərinə görə fərqlənir. Azərbaycan dilində feillərin təsirli və ya təsirsizliyi onun qrammatik xüsusiyyəti kimi qəbul edilir. Bu dildə elə morfoloji göstəricilər var ki, feillərin təsirli və ya təsirsizliyinə təsir göstərə bilir; bəzi şəkilçilər təsirli feili təsirsizə və ya əksinə olaraq, təsirsiz feili təsirliyə çevirə bilir. Məsələn; çıxmaq, itmək (təsirsiz), çıxarmaq, itirmək (təsirli), yazmaq (təsirli), yazılmaq, yazışmaq (təsirsiz) və s. Lakin tədqiqatçılar haqlı olaraq göstərirlər ki, təsirlilik və təsirsizlik feilin leksik semantikası ilə bağlıdır. Heç bir morfoloji göstəricisi olmayan istənilən feil ya təsirli, ya da təsirsiz olur: yaz, var, tut (təsirli) – bax, dön, çıx (təsirsiz). "Lakin təsirlilik və təsirsizlik həm də morfoloji kateqoriyadır. Ona görə ki, feilin təsirli və təsirsiz olması paradikmatik planda sistemli ifadəyə malikdir, təsirli və təsirsizlik sintaktik valentliyə təsir göstərir, feili sözün vasitəli və vasitəsiz obyektə münasibətini müəyyənləşdirir" (9, 199). Azərbaycan dilində feillərin təsirli və təsirsizliyi qrammatik subyektin, yəni mübtədanın formasına təsir göstərə bilmir: mübtəda bütün hallarda öz formasına görə ismin adlıq halında olan vahidlə ifadə olunur. Mübtəda cümlənin ən müstəqil üzvüdür. O,

isimlə, yaxud ismi xüsusiyyətə malik olan, isimləşən, adlıq halda olan istənilən bir söz və ya söz birləşməsi ilə ifadə olunur, cümlənin ikinci baş üzvü olan xəbəri qrammatik cəhətdən özündən asılı vəziyyətə salır; xəbər şəxsə və kəmiyyətə görə dəyişir, mübtədanın şəxs və kəmiyyətini öz üzərinə götürür. Xəbərin mübtəda ilə şəxsə görə uzlaşması daimidir. Məsələn: Mən oxuyur(am)-I ş.tək; Sən oxuyur(san)-II ş.tək; O oxuyur(o)-III ş.tək. Lakin III şəxsin cəmində kəmiyyətə görə uzlaşma pozula bilər. Məsələn: Tələbə(lər) (III ş.cəm) oxuyur(lar)-III ş.cəm; Ağac(lar) yaşıllaşır (III ş.tək) və s. Azərbaycan dilində müstəqim obyekt –vasitəsiz tamamlıq ancaq təsirli feillərlə işlənir. Bu dildə vasitəsiz tamamlıq iki cür olur: qeyri-müəyyən vasitəsiz tamamlıq və müəyyən vasitəsiz tamamlıq. Qeyri-müəyyən vasitəsiz tamamlıq sıfır forma ilə ifadə olunur, tamamlığın bu növünün xüsusi şəkli əlaməti yoxdur. Azərbaycan dilçiliyində qeyri-müəyyən vasitəsiz tamamlığın bəzən qeyri-müəyyən təsirlik hal (10,197), bəzən isı adlıq halla ifadə olunduğu göstərilir. Xüsusi şəkli əlamətə malik olmayan vasitəsiz tamamlıq qeyri-müəyyənlik bildirir. Belə ki, "şagird dəftəri aldı" cümləsində məlumat verənlə dinləyən arasında onlara vaxtilə və ya söhbət zamanı məlum olan bir əşyadan (obyekt) söhbət gedirsə, "şagird dəftər aldı" cümləsində, ümumiyyətlə, qeyri-müəyyən bir əşya-dəftər haqqında söhbət gedir (1, 141). Qeyri-müəyyən vasitəsiz tamamlıq həmişə aid olduğu feili özvün yanında gəlir. Belə cümlələrdə subyekt (S), obyekt (O) və predikatın (P) vahid sıralanma qanunauyğunluğu var. Cümlədə SOP ardıcıllığı subyekt və obyektin formasını və funksiyasını müəyyənləşdirir. Müəyyən vasitəsiz tamamlıqlar müəyyən təsirlik halda olur (Şagird dəftəri aldı və s.). Belə cümlələr də SOP ardıcıllığına malikdir. Lakin aktual üzvlənmə, tema rema münasibətlərinə, məntiqi vurğunun təsirinə görə bu tipli cümlələrdə vasitəsiz tamamlıq yerini dəyişə, mübtədadan əvvəl işlənə, feili xəbərdən müxtəlif üzvlər vasitəsi ilə ayrıla bilər.

Azərbaycan dilində vasitəsiz tamamlıq hallana bilən bütün söz və söz birləşmələri ilə ifadə oluna bilər. Lakin bu baxımdan da qeyri-müəyyən vasitəsiz tamamlıq müəyyən vasitəsiz tamamlıqdan və vasitəli tamamlıqdan fərqlənmir. Müəyyən vasitəsiz tamamlıq vəvasitəli tamamlıqlar müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası ilə bağlı olaraq daha geniş, qeyri-müəyyən vasitəsiz tamamlıqlar isə məhdud ifadə vasitələrinə malikdir. Belə ki, Azərbaycan dilində qeyri-müəyyən vasitəsiz tamamlıqlar müəyyənlik bildirən söz və söz birləşmələri, xüsusi isimlər, yiyəlik və qayıdış əvəzlikləri, bir qrup feili sifət və feili sifət tərkibləri və s. ilə ifadə olunmur (1, 140).

Tipoloji tədqiqatlarda nominativ dillərdə feilin təsirli və təsirsizliyi feillərin transizitiv və intranzitivliyi kimi qiymətləndirilir. Azərbaycan dilində təsirli feillər həm vasitəsiz, həm də vasitəli tamamlıqlarla, təsrsiz feillər isə ancaq vasitəli tamamlıqlarla işlənə bilər. Feillərin təsirli və təsirsizliyi nominativ dil tipinin xüsusiyyətidir. Kontensiv tipologiya baxımından fərqləndirilən erqativ və aktiv dillərdə təsirlilik kateqoriyası və bunun subyekt obyekt münasibətlərinə təsiri özünü göstərmir. Erqativ dillərdə leksik-semantik baxımdan agentiv və faktitiv leksemlər bir-birinə qarşı durur. Başqa sözlə desək, şəklini dəyişdirən, başqa şəklə düşən hərəkəti bildirən qoparmaq, sındırmaq kimi feillərlə, şəklini dəyişməyən hərəkət və ya vəziyyəti bildirən öpmək, yatmaq kimi feillər bir-birinə qarşı durur. Bu qarşıdruma Azərbaycan dilində təsirli və təsirsiz feillərin qarşıdrumasına qismən uyğun olur. Lakin bir sıra dillərdə bu qarşıdurmadan kənarda qalan feillər də müşahidə edilir. Eyni feil həm absolyut, həm də erqativ konstruksiyalarda işlənir. Avar dilində ekana feili "qırmaq", həm də "qırılmaq" mənasında işlənir. Məsələn; İstakan bekana "Stəkan qırıldı", Vacas istakan bekana "Qardaçım stekanı qırdı". Erqativ dillərdə labil və stabil strukturlar fərqləndirilir. Stabil strukturlu dillərdə birinci halda cümlədə müstəqim obyekt olanda real subyekt erqativ halda olur, feil isə təsirli feillərin xüsusiyyətini daşıyır. Stabil strukturlu dillərdə isə agentiv feillər agensin erqativ formasını tələb edir. Erqativ dillərdə sintaktik səviyyədə aktant-predikativ münasibətləri erqativ və absolyut konstruksiyaların qarşıdrumasında özünü göstərir. Morfoloji səviyyədə isə bu, ad sistemində

erqativ və absolyut halların, feillərin təsniflənməsində isə erqativ və absolyut cərgənin qarşıdrumasında özünü göstərir.

Aktiv dillərdə isimlər aktiv və inaktiv olmaqla iki başlıca qrupa ayrılır. İsimlərin aktiv sinfinə insan, başqa canlı və bitkilərlə bağlı sözlər, inaktiv sinfə isə başqa cansız varlıqların adları daxil olur. Eyni zamanda feili leksemlər aktiv və stativ feillərə ayrılır. Aktiv feillərə, əsasən, hərəkət feilləri, stativ feillər isə hal-vəziyyət bildirən feillər daxil olur. Nominativ quruluşlu Azərbaycan dilindən fərqli olaraq, bu dillərdə təsirli və təsirsiz feillər differensiallaşmayıb. Ölmək-öldürmək, qurumaq-qurutmaq, yanmaq-yandırmaq kimi anlayışlar çox zaman bir feil vasitəsilə sinkretik şəkildə ifadə olunur. Aktiv feili xəbər əksər hallarda aktiv sinfə, stativ feili xəbərlər isə inaktiv sinfə daxil olan isimlərlə ifadə olunmuş mübtəda ilə işlənir. Bu dillərdə feillərin şəxs şəkilçiləri də aktiv və inaktiv olmaqla iki qrupa ayrılır. Aktiv şəxs şəkilçiləri aktiv feillərin, inaktiv şəxs şəkilçiləri isə stativ feillərin subyektini bildirməyə xidmət edir. Eyni xüsusiyyət ismin hallanmasında da müşahidə olunur. Bir sıra hallarda ismin aktiv və inaktiv halları qarşıdurma təşkil edir, aktiv və stativ feillərin mübtədasını fərqləndirməyə xidmət edir.

Azərbaycan dili nominativ quruluşuna görə sinfi dillərə də qarşı durur. Sinfi dillərdə ismi leksika müəyyən siniflərə ayrılır. Bu bölgünün əsasında canlı və cansız qarşıdruması dayanır. Bununla yanaşı, müxtəlif dillərdə siniflərə görə bölünmə insan, heyvan, bitki siniflərini, əşyaların fiziki xüsusiyyətlərinə görə qarşıdruması və s.-ni əhatə edə bilər. Siniflərə görə bölünmə bu dillərdə feili leksemlərin fərqli ifadəsinə səbəb ola bilmir. Sinifli dillərdə feilin morfoloji strukturu material bütövlüyü və funksional diffuzluğu ilə seçilir. Bu dillərdə subyekt-obyekt münasibətlərinin ifadəsində şəxs göstəriciləri ayrıca əhəmiyyətə malik olur. Sinifli dillərdə aktiv, erqativ və nominativ dillərdə özünü göstərməyən xüsusi bir sistemlə, şəxs kateqoriyasının daha ümumi sinif kateqoriyasına tabe olduğu bir sistemlə qarşılaşırıq. Başqa bir tərəfdən sinifli dillərdə feilin növ kateqoriyasında aktiv və passivin nominativ dillərdəki qarşıdurması da yoxdur.

Nominativ dil kimi Azərbaycan dilini başqa dillərə qarşı qoyan həm də bu dildəki növ kateqoriyasıdır. Feilin növ kateqoriyası aktiv və erqativ dillərdə müşahidə olunmur. Bir sıra erqativ dillərdə feillərdəki məlum və məchulluq morfoloji vasitələrlə deyil, yalnız kontekst və söz sırasının köməyi nəticəsində aydınlaşır. Qeyd edildiyi kimi, aktiv dillərdə feillər aktiv-passiv, erqativ dillərdə isə agentiv-faktitiv qarşıdurmasında olurlar. Feilin növ kateqoriyası isə təsirlilik-təsirsizlik qarşıdurmasının yaranması ilə bağlıdır. Ona görə də felin növ kateqoriyası nominativ dillərdə özünü göstərir. Onu da qeyd edək ki, Azərbaycan dilində feilin növ kateqoriyası özünməxsus xüsusiyyətləri ilə seçilir. Feil növləri subyekt, obyekt və predikat arasındakı müxtəlif münasibətlərin ifadə forması kimi və meəyyən konstruksiyalar daxilində sintaktik və semantik vahidlərin uyğunluğunun ifadə forması kimi qiymətləndirilir (5, 210). Tədqiqatçılar belə bir cəhətə diqqət yetirirlər ki, bu baxışların heç biri "Azərbaycan və eləcə də türk dillərində növ kateqoriyasının sərhədlərini müəyyənləşdirməyə imkan vermir" (11,87). Həqiqətən də Azərbaycan dilində qarşılıq-müştərək və icbari növdə olan feillərdə işin müəyyən subyekt tərəfindən icra olunması mahiyyətcə məlum növdə olan feillərdən fərqlənmir. Müasir Azərbaycan dilində bəzən məlum və qayıdır növlər bir-birini əvəz edir: Günəş doğdu. Günəş doğuldu. Müasir salar dilində məlum və məchul feillərin bəzən kontekst daxilində bir-birini əvəz etməsi, bir sıra türk dillərində feil növlərinin semantik cəhətdən qarışıqlığı feilin növ kateqoriyasının daha sonralar formalaşması fikrini təsdiq edir (11, 88). Lakin bütün bunlar müasir Azərbaycan dilində növ kateqoriyasının mövcudluğunu, feil növlərinin bu dilin nominativ quruluşu ilə bağlı olduğunu inkar etmir. Azərbaycan dilinin nomiantiv quruluşu bu dilin hal sistemində də özünü göstərir. Müasir Azərabaycan dilində ismin altı halı vardır: adlıq, yiyəlik, yönlük, təsirlik, yerlik, çıxışlıq. Aktiv və erqativ dillərdən fərqli olaraq, nominativ

quruluşlu Azərbaycan dilinin hal sistemində özünəməxsus yer tutur. Belə bir fikir var ki, genitiv adlıq və təsirlik halların transpozisiyasıdır. Bu isə yiyəlik halın nominativ dillərdə nə üçün öz ifadəsini tapmasına aydınlıq gətirir. Təsadüfi deyil ki, yiyəlik hal nominativləşən bəzi erqativ dillərdə də özünü göstərir. Nominativ dillər üçün xarakterik olan yönlük və birgəlik hallar da aktiv və erqativ dillər üçün xarakterik deyil. Nominativ dillərdə vasitəli və vasitəsiz obyektlər bir-birinə qarşı dursalar da, onların heç biri subyekt funksiyasını öz üzərinə götürə bilmir. Bunun əksinə olaraq, erqativ dillərdə təsirlik hala ehtiyac qalmır. Belə ki, bu dillərdə təsirlik halın funksiyası absolyut halın semantikasına, yönlük və tvoritelnıy halların semantikası isə erqativin semantikasına daxil olur.

Sintaktik baxımdan nominativ dilləri fərqləndirən, hər şeydən əvvəl, cümlənin vahid tipoloji xüsusiyyətlərə malik olmasıdır. Bu dillərdə xəbərin tranzitiv və intranzitiv feillərlə ifadə olunmasından asılı olmayaraq cümlə vahid konstruksiyası ilə seçilir.

Tipoloji araşdırmalar onu göstərir ki, müasir nominativ dillər öz strukturunda başqa dil tiplərinin qalıq əlamətlərini saxlayır. Belə bir fikir var ki, türk dilləri sinifli dil tipindən aktiv dil tipinə doğru inkişaf etmiş, sonralar bu aktiv dil nominativ dilə çevrilmişdir (2, 330). Bir sıra hallarda nominativ dillər erqativ dillərin təkamülünün nəticəsi kimi qəbul edilir. Dillərin mərhələli inkişafını əsaslandırmağa çalışan Q.A.Klimovun fikrinə görə, erqativ dillər nominativ dillərə nisbətən arxaik struktura malikdir, aktiv dillər isə tarixən erqativ və nominativ dillərə doğru inkişaf etmişdir (4, 202). Nominativ quruluşlu tükr dilləri, eləcə də Azərbaycan dilində aktiv dil tipinin relikt əlamətləri özünü göstərməkdədir.

Ədəbiyyat

1. Abdullayev Ə.Z., Seyidov Y.M, Həsənov A.T. Müasir Azərbaycan dili. Sintaksis. IV hissə, Bakı, Maarif, 1985.
2. Qıpçak M.D kəmiyyət anlayışının dildə ifadəsi, Bakı, Elm, 2000.
3. Касевич В.Б. Semantika. Sintaksis. Morfologiya, M, 1988
4. Климов Г.А. Прицип контенсивной типологии, М, Наука, 1983.
5. Климов Г.А. Типология языков активного строя, М, Наука 1977.
6. Мещанинов И.И. Номинативные и эргативные структуры предложения, М, Наука, 1984
7. Мещанинов И.И. Структура предложения, М-Л, Изд.во АН СССР, 1963.
8. Мещанинов И.И. Члены предложения и части речи. М-М. 1963.
9. Məmmədov M. Dilçiliyə giriş (dərs vəsaiti), Bakı, "Ləman nəşriyyat poliqrafiya" MMC, 2017.
10. Müasir Azərbayacan dili, III cild. Sintaksis, Bakı, Elm. 1981.
11. Novruzov M.D. Azərbaycan dilində məchul feilin formalaşma tarixi // Azərbaycan dili tarixi məsələləri elmi əsərlərin temaik toplusu, Azərbaycan universiteti nəşriyyatı, Bakı, 1989.
12. Seyidov Y.M. Azərbaycan dilinin qrammatikası, morfologiya.
13. Скаличка В.О. Современном состоянии типологии // Новое в лингвистике, М, Изд-во иностранном литературы, 1963.

U. Aliyeva

Nominative structure of the sentence in Azerbaijani language
with contextual typology

Summary

Contextual typology is a semantic deterministic typology based on the expression of the language of universal units of the content plan. From the point of view of contextual typology, the Azerbaijani language is nominally structured, like other Turkic languages. A contextual typology based on the principles of systemic linguistics covers the hierarchy of the structure of the language, taking into account the phonetic-phonological, lexical, morphological and syntactic features of the language. The verb in the Azerbaijani language, regardless of the semantics of the token, whether it is transitive or intransitive, is a grammatical subject - the subject is always in the nominative case. Direct object is used only by transitive verbs. Direct addition is expressed either by a suffix or without a suffix in the Azerbaijani language. Without a suffix, a direct object always comes with a verb; the subject, object, and sequence of predicates determine both their form and function.

The syntactic aspect of the Azerbaijani language is, first of all, unique typological features.

In a contextual typology, various types of languages are considered mainly as a result of stage development. That is why nominative structured Indo-European languages are compared with ergative languages. Written monuments of the Turkish and Azerbaijani languages show that these languages retain the relic features of the active language type.

Key words: Morphological and contextual typology. The structure of the proposal. Neutral type. Active, ergative and nominative languages. Subject and object. Transitive and intransitive verbs.

У. Алиева

Номинативная структура предложения на азербайджанском языке
с точки зрения контенсивной типологии

Резюме

Контекстуальная типология - это семантическая детерминированная типология, основанная на выражении языка универсальных единиц плана содержания. С точки зрения контекстуальной типологии, азербайджанский язык номинально структурирован, как и другие тюркские языки. Контекстуальная типология, основанная на принципах системной лингвистики, охватывает иерархию структуры языка с учетом фонетико-фонологических, лексических, морфологических и синтаксических особенностей языка. Глагол в азербайджанском языке, независимо от семантики лексемы, является ли он переходным или непереходным, является грамматическим предметом – подлежащее всегда на именительном падеже. Посредственное дополнение используется только переходными глаголами. Прямое дополнение выражается либо суффиксом, либо без суффикса на азербайджанском языке. Без суффикса прямое дополнение всегда идет с

глаголом; субъект, объект и последовательность предикатов определяют как их форму, так и функцию.

Синтаксический аспект азербайджанского языка - это, прежде всего, уникальные типологические особенности. В контекстуальной типологии различные типы языков рассматриваются, главным образом, в результате стадиального развития. Вот почему номинативные структурированные индийско-европейские языки сравниваются с эргативными языками. Письменные памятники турецкого и азербайджанского языков показывают, что эти языки сохраняют реликтивные особенности активного языкового типа.

Ключевые слова: Морфологическая и контекстуальная типология. Структура предложения. Нейтральный тип. Активные, эргативные и номинативные языки. Предмет и объект. Переходные и непереходные глаголы.

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 01.08.2019
Filologiya elmləri doktoru, professor Məmmədəli Novruzov tərəfindən çapa tövsiyə olunmuşdur.

GÜNEL ƏLƏKBƏROVA
ADU
Rəşid Behbudov2
Gunel_rahimova@mail.ru

CAVAD HEYƏTİN "MÜQAYISƏTÜL – LÜĞƏTEYN" ƏSƏRİNDƏ ANA DILININ ÜSTÜNLÜYÜ MƏSƏLƏSİ

Xülasə

Hər xalqın öz dili var və bu dil həmin xalq üçün hər cəhətdən gözəldir, əvəzsizdir. Elə qohum dillər var ki, eyni sözlər xalqların danışığında, yazısında, tələffüzündə çox müxtəlif çalarlar kəsb edir, tərcüməsiz qonşu, daha doğrusu qardaş xalq onun çox ifadə və sözlərini anlamır, yaxud izahsız, lüğətsiz qavraya bilmir. Bu işdə Cavad Heyətin "Müqayisətül-lüğəteyn" ("Sözlərin müqayisəsi") kitabı həmişə müsbət rol oynamış və xalqların bir-birilə dil, ədəbi və mədəni əlaqələrinin daha da yaxınlaşmasına kömək edəcəkdir. Cavad Heyət sənəti türk xalqlarının mədəniyyət sütunlarından biridir. Ana dili qarşısında böyük məsuliyyətini anlayan sənətkar öz təmiz amalı, yorulmaz zəhməti ilə türk dilini ağır sınaqda üzüağ çıxarmış, dünyanın mükəmməl, zəngin dil kimi onu bir daha təsdiq etmişdir. Cavad Heyəti Azərbaycana bağlayan körpülər çoxdur, bu körpülərin başında türk dili fenomeni dayanır. Məqalədə də bu məsələ araşdırılmış, türk dilində feillərin zənginliyi, leksikasının çoxşaxəliliyi tədqiqata cəlb edilmişdir.

Bu əsər problemlərinin dərinliyi, mövzusunun çoxcəhətliyi və polemikliyi ilə dil mütəxəssislərinin diqqətini cəlb etmişdir. Elmi tədqiqat işinin müəllifi də kitabda yer alan elmi-nəzəri məsələlərə toxunmağa çalışmış, kitabdan çıxış edərək türk və fars dillərini sistemli şəkildə müqayisə etməyə cəhd göstərmişdir. Bəyənilən cəhətlərdən də biri ondan ibarətdir ki, Cavad Heyətin də öz kitabını Əlişir Nəvainin "Mühakimətül lüğateyn" əsərinin davamı kimi qiymətləndirdiyini nəzərə alaraq, tədqiqatçı öz tədqiqat işinə bu əsəri dəcəlb etməyə çalışmış və maraqlı paralellər aparmışdır.

Cavad Heyət 1984- cü ildə yazdığı "Müqayisətül-lüğəteyn" əsərində ana dilinin varlığı, saflığı, zənginliyi əsas mövzu olaraq seçilmişdir. Türk dilinin fonetikası, morfologiyası, sintaksisi, söz yaradıcılığı fars dili ilə qarşılaşdırılmışdır. Əsaslı şəkildə üstünlük türk (Azərbaycan) dilinə verilmişdir.

Eyni zamanda əsərin müəllifin də qeyd etdiyi kimi 15-ci əsrdə yaşamış Əlişir Nəvainin yazdığı "Mühakəmətül-lüğateyn" kitabından nümunələr gətirilmişdir. Hər iki kitabdan türk və fars dilləri arasındaki qarşılaşdırmaya aid nümunələr seçilmiş, paralellər aparılmışdır.

Doktor Cavad Heyət türk (Azərbaycan), fars və ərəb dillərinin qrammatikasını, xüsusilə, Azərbaycan dilinin başlanğıcdan bugünə qədər tarixi inkişaf mərhələlərini, onun morfologiya, sintaksis və leksikonunu dərindən bilən görkəmli türkoloqlardan biri və türk dünyasının adı şərəflə çəkilən böyük söz ustalarından biridir.

Açar sözlər: fars dili, türk dili, müqayisə, üstünlük

Türk dünyasının fəxri, tanınmış cərrah və alim, universal biliklərə malik dahi şəxsiyyət Cavad Heyət klassik türkologiyanın nəzəri və tarixi problemləri, xüsusən Azərbaycan dilinin və ədəbiyyatının tədqiqinə dair bir neçə kitabın və yüzdən artıq məqalənin müəllifidir. Cavad Heyət uzun müddət Cənubi Azərbaycanda doğma xalqının milli dilini, ədəbiyyatını, folklorunu araşdırmış, şöhrətli həkimlik fəaliyyəti ilə yanaşı, türkologiyanın metodoloji problemləri,

Azərbaycan xalqının mədəniyyəti, ədəbiyyatı və Azərbaycan dilçiliyi ilə bağlı mövzularda İranda geniş yayılan səhv yanlış ədəbi-elmi məlumatlara tutarlı və prinsipial nəzəri- tarixi təqziblərlə çıxış etmişdir.

Cavad Heyət tibb sahəsinə aid yüzlərlə məqalənin, türkologiya, Azərbaycan ədəbiyyatı və dilçiliyinə dair bir çox kitab və məqalələrin müəllifidir: "Azərbaycan şifahi xalq ədəbiyyatı" (1988), "Azərbaycan ədəbiyyat tarixinə bir baxış"- (1, 2) (1980), "Ədəbiyyatşünaslıq" (1995), "Müqayisətül-lüğəteyn" ("Sözlərin müqayisəsi) (1984), "Türklərin tarix və mədəniyyətinə bir baxış" (1988), "Türk dili və ləhcələrinin tarixi" (1986) kitabları və Cənubi Azərbaycanda özünün redaktoru olduğu "Varlıq" jurnalında nəşr etdirdiyi məqalələri ilə Cavad Heyət İranda türk dilinin nüfuzunu qaldırmaq, türkün tarixinə, dilinə, mədəniyyətinə dil uzatmış bəzi fars tədqiqatçılarına öz tutarlı sözünü çatdıra bilmişdir.

"İki dilin müqayisəsi" ("Müqayisətül-lüğəteyn") kitabı İranda Cavad Heyətin redaktorluğu ilə fəaliyyət göstərən "Varlıq" toplusunun əlavəsi kimi nəşr edilmişdir. "Varlıq" dərgisi nəşr olunmağa başlayanda İranda Azərbaycan türkcəsi yenicə passiv ətalətdən və əsarətdən qurtarmış, buna görə də Azərbaycan türkcəsində demək olar ki, gizli bədii üslub istisna edilərsə, heç bir üslub yaranmamışdı [1.s 63]. Məhz belə bir zamanda "İki dilin müqayisəsi" kitabı ana dilimizin nüfuzuna, saflığına, zənginliyinə diqqət çəkmək baxımından olduqca böyük əhəmiyyətə malik olmuşdur.

Kitabın ön sözü xalq yazıçısı Mirzə İbrahimova məxsusdur. O, ön sözə "Hər kəsə lazım olan kitab" başlığı ilə giriş edir və qeyd edir ki, "Müqayisətül-lüğəteyn" ("Sözlərin müqayisəsi") kitabı qonşu xalqların bir-birilə dil, ədəbi və mədəni əlaqələrinin daha da yaxınlaşmasına kömək edəcək [2, s. 3].

1982-ci ildə Tehranda çap edilən sözügedən kitab mövzusunun çoxcəhətliliyi, problemlərinin dərinliyi ilə Azərbaycan türkoloqlarının və dil mütəxəssislərinin diqqətini cəlb etmişdir. Kitabda Azərbaycan dilinin fonetikası, morfologiya, sintaksis - qrammatikasınının bir sıra mürəkkəb mövzuları tədqiq obyektinə çevrilmiş, türk dillərinin mənşəyi, onun digər dillərlə müqayisəsinə dair dərin araşdırma aparılmışdır.

Əsərin tərcüməsi ilə orijinal mətni arasında yeganə fərq ondan ibarətdir ki, əsərin farsca mətnindəki "türk dili", "türk sözü", "azəri ləhcəsi", "azəri türkcəsi" birləşmələri tərcümədə "Azərbaycan dili", "Azərbaycan sözü" birləşmələri ilə paralel işlədilir ki, oxuculara aydın olsun. Kitabın tərcüməçisi dos. İ.Şəms tərcümə üzərində ciddi redaktə işi aparmış, buraxılan bəzi səhvlər üzərində işləyərək tədqiqat işini orijinal mətninə yaxınlaşdırmışdır.

Kitabın ən üstün məziyyəti onda Azərbaycan dilinin yüksək inkişaf etmiş dünya dillərindən biri olduğunu, elmi-fəlsəfi, ictimai fikirləri mükəmməl və anlaşıqlı ifadə etməyə bütünlüklə yararlığını və fars dilindən bir sıra üstünlükləri elmi dəlillərlə izah edilməsidir [2, s. 7].

Məhz bu əsərlə İranda türkologiyanın elmi əsası qoyulmuş olur. Qeyd edək ki, tədqiqatçılar Cavad Heyətin sözügedən kitabının Əlişir Nəvainin "Mühakimətül-lüğateyn" ("İki dilin mübahisəsi") əsərinin davamı kimi dəyərləndirirlər. "Mühakimətül lüğateyn" kitabında cığatay türkcəsi sart (fars) dili ilə müqayisə edilir, "Müqayisətül lüğəteyn"də də eynilə türk (Azərbaycan) dili fars dili ilə qarşılaşdırılır.

Məhz bu hərarətlə qatlandığı acı arsusu onun sirridir.
Yaratmaq zövqünün atəşiylədir onun varlığı.

Həyatın sirrləri məhz bu atəşlə ortaya çıxmaqdadır,
Yalnız bu atəşlə canlı olmaqdadır dünyanın varlığı (3, s.135).

Ona görə də M.İqbal qadınları analıqdan məhrum edən Qərb tendensiyasını qəbul etmir, "Avropaya heyranlığın" müəyyən bir çərçivə içində həllini müzakirəyə gətirir. "Hind və yunanların heyran olduqları Avropa müdriklərindən biri soruşsun" (3, s. 128) misraları ilə başlayan "Bir sual" şeirində yazır:

Budurmu mükəmməl cəmiyyət forması?
Kişisi avara, qadınının isə qucağı boş qalsın" (3, s. 128).

Qadın haqqındakı fəlsəfi şeirlərində M.İqbalın sufi düşüncələrinə də təsadüf edirik. Filosof şair müasiri olduğu dünyanın "özünü göstərmə həvəsi"dən (s. 130) şikayətlənir, "düşüncələri dağınıq və pozğun" (3, s. 130) hala gətirən ifrat meyllərdən uzaqlaşmağa çalışır, mənlik həqiqətlərini dərk etmək üçün inzivaya çəkilməyi vacib sayır:

Mənlik özünü inzivada dərk edir, lakin
O inziva artıq nə bütxanədə, nə Hərəmdə var (3, s. 130).

Göründüyü kimi, M.İqbal "Zarb-i Kelim" əsərinə daxil olan "Qadın" bölümündə qadın mövzununu müxtəlif aspektlərdən qələmə almış, qadının cəmiyyətdə mövqeyini müəyyən edən cəhətləri önə çəkmişdir. Bu mövzu çərçivəsində filosof şair müasiri olduğu zaman üçün Şərq və Qərb dünyasındakı tendensiyalara öz münasibətini bildirmiş, ifrat meyllər və təqlidçiliyi kəskin şəkildə tənqid etmişdir. İslam alimi olaraq M.İqbal bir çox digər məsələlərdə olduğu kimi, qadınla bağlı fikirlərdə də dini dünyagörüşünü mühafizə etmiş, adət-ənənələrin yeniliyə zidd olmadığı, islam düşüncəsinin müasirliyi mövqeyindən çıxış etmişdi.

Ədəbiyyat:

1. Bünyadov Z.M. Dinlər, təriqətlər, məzhəblər. Bakı, Şərq-Qərb, 2007.
2. İkbal Muhammed. Cavidname. Tercüme Eden: Halil Toker, İstanbul, Kaknüs Yayınları, 2014.
3. İkbal Muhammed. Musa Vuruşu. Hicaz Armağanı. Tercüme Eden: Celal Soydan, Ankara, Hece Yayınları, 2013.
4. Quran (Tərcümə edənlər: Z.Bünyadov, V.Məmədəliyev). Bakı: Möminin nəşriyyatı, 2000.
5. Soydan Celal. Önsöz. İkbal Muhammed. Musa Vuruşu. Hicaz Armağanı. Tercüme Eden: Celal Soydan, Ankara, Hece Yayınları, 2013.
6. İntroduction "Zarb i Kalim". Iqbal Academy Pakistan. Retrieved 14 November 2014.

Басира Азизалиева

Вопросы женщины и общества в произведении «зарб-и-келим» м.игбала

Резюме

В творчестве ученого–исламиста, философа, поэта и общественного деятеля пакистанского происхождения Мухаммед Игбала произведение «Зарб-и-Келим» занимает значимое место. В главе «Женщина», включенного в произведение «Зарб-и-Келим» М.Игбал описал тему женщины с разных аспектов, передвинув на передний план стороны, определяющие позицию женщины в обществе. Поэт-философ в рамках этой

темы высказал свое отношение к Восточным и Западным тенденциям своего периода, резко раскритиковал крайности и плагиат. М.Игбал как ученый-исламист сохранил свое религиозное мировоззрение в своем мнении о женщине, выступил с позиции современности исламского мышления, что обычаи и традиции отнюдь не противоречат новизне.

Произведение, написанное в стихах, имеет шесть основных частей: «Ислам и мусульманин», «Образование и обучение», «Женщина», «Литература и искусство», «Политика Запада и Востока», «Подарок Хиджаза». Каждая глава произведения посвящена важным вопросам общественно-политической жизни, истолковывается литературно-культурные, религиозные, философические особенности.

Ключевые слова: Мухаммед Игбал, «Зарб-и-Келим», женщина, Восток, Запад

Basira Azizaliyeva

Issues of a woman and society in the work "zarb-i-kelim" by m. iqbal

Summary

In the work of the scientist-Islamist, philosopher, poet and public figure of Pakistani origin Muhammed Iqbal, the work "Zarb-i-Kelim" occupies a significant place.

In the chapter "Woman", included in the work "Zarb-i-Kelim", M. Iqbal described the topic of women from various aspects, moving to the forefront the sides that determine the position of women in society.

The poet philosopher, in the framework of this topic, expressed his attitude to the Eastern and Western trends of his period, sharply criticized extremes and plagiarism. M. Iqbal, as an Islamist scholar, retained his religious worldview in his opinion about women, spoke out from the perspective of Islamic thinking today, that customs and traditions are by no means contrary to novelty.

The work, written in the form of poems, has six main parts: "Islam and the Muslim", "Education and Learning", "Woman", "Literature and Art", "Politics of the West and the East", "Gift of the Hijaz". Each chapter of the work is devoted to important issues of social and political life, where literary, cultural, religious, philosophical features are interpreted.

Key words: Muhammed Iqbal, "Zarb-i-Kelim", women, East and West

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 01.08..2019
Filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov tərəfindən çapa tövsiyə olunmuşdur.

ƏFLATUN BAXŞƏLİYEV
Filologiya üzrə fəlsəfə doktoru, dosent
H. Cavid prospekti
ehmedova_1984@dk.ru

ÖZBƏK ƏDƏBİYYATINDA SƏMƏD VURĞUNUN BƏDII OBRAZI

Xülasə

Məqalədə tədqiqatçı Səməd Vurğun ümumtürk poeziyasında yaranan bəddi obrazı probleminə toxunur. Müəllif Səməd Vurgunun bədii obrazını yaratmış adlı özbək şairlərinin – Qafur Qulamın, Zülfiyyənin, Şöhrətin və başqalarının adını çəkir. Görkəmli Azərbaycan şairinə həsr edilmiş şeirlərin üzərində dayanır. Müəllif bu poetik nümunələri dərin analizdən keçirir. Əsərlərdən müəyyən parçaları misal çəkərək, müəllif özbək şairlərini Səməd Vurğunla mənəvi yaxınlığını göstərir. Ədəbi ictimaiyyətin diqqətindən kənarda qalan bir sıra şeir nümunələrini tədqiq edir. Ədəbiyyatşünas alim daha çox bu məsələnin elmi tərəfini işıqlandırır. Eyni zamanda mövzunun bədii-estetik məğzini də, üzə çıxarır. Bu şeirlərdə Vurğunun ədəbi-bədii təsirinin gücündən söz açılır. Beləliklə, Səməd Vurğunun özbək ədəbiyyatında bədii obrazı problemi ədəbi əlaqələr səviyyəsində elmi izahını tapmış olur.

Azərbaycan və Özbək ədəbi əlaqələr sistemində bu problem zəngin ştrixlərlə təsvir olunmuşdur. Eyni zamanda məqalədə göstərilir ki, özbək şairlərinin yaradıcılığında S.Vurğun obrazı bədii qəhrəman səviyyəsinə yüksəlmişdir. Həmçinin bu problemin fonunda təkcə şairin sənətkarlığı deyil, eləcə də, bədii ideya mündəricəsi açıqlanır.

Məqalədə S.Vurğunun bədii obrazının yaradılması sahəsində dərin elmi-nəzəri təhlillər öz əksini tapır. Beləliklə də, bu problemin təhlilində elmi-nəzəri yanaşmalar məqalədə nəzər diqqəti daha çox cəlb etməkdədir.

Açar sözlər: Türk xalqları, poeziya, bədii, obraz, ədəbiyyat

Görkəmli Azərbaycan şairi Səməd Vurğun həm də bir sıra şeir və poemaların, oçerk və xatirə ədəbiyyatının bədii obyektinə çevrilmişdir. Bu eyni zamanda şairə olan böyük sevgi və ehtiramı bədii ifadəsidir. Onun ürək dostları olan müasirləri şairə gözəl poetik nümunələr həsr etmişlər. Əlbəttə, sənətkarın obrazını yaradan şairlər az olmamışdır. Bütün dünya poeziyasının azman söz sərrafları sənətkara bir sıra əsərlər həsr etmişlər. Rus xalqının görkəmli qələm sahiblərindən sayılan A.Fadayev, N.Tixnov, M.Şoloxov, P.Antoqolski, J.Libedinski, K.Siminov, J.Dolmatovski, Ukrayna şair və yazıçılarından – M. Bajan, M.Rilski, D.Belous, M.Naqnibeda, J.Kirilyuk, Belarus şairləri – J.Kolas, P.Brofka, Özbək şairi Q.Qulam, Qazax yazıçısı M.Auezov, Gürcü şairləri – G.Zionidze, K.Kaladze, Litva yazıçıları – A.Venslova, A.Jukasiskas, P.Sivilka, Latış şairləri – Y.Sudrabkalı, M.Tursunzadə, Türkmən yazıçısı B.Kerbabayev, Qırğız şairi A.Tokonbayev, Eston yazıçısı Y.Smul, Avar şairi R.Həmzətov, Tatar yazıçısı Ə.Minski, Abxaz şairi G.Qulian və digərləri.

Bu poetik nümunələr oxucuların gözündə Azərbaycan şairini bir daha yüksəklərə qaldırır, bu böyük insanı bir şəxsiyyət kimi onlara daha yaxından tanıdır. Xalq şairi Səməd Vurğun şeir və poemalarda bir bədii obraz kimi çox canlı şəkildə təsvir olunur. Sənət və poeziya dünyasında külüng çalan bir qəhrəman kimi onun bədii obrazı sözlə böyük sərraflıqla yaradılmışdır. Sanki bu şeirlər arasından Səməd Vurğun boylanaraq bir bədii, poetik qəhrəman kimi oxucuları ilə söhbət edir, dərdləşir, öz fikri və arzularını onlarla bölüşür.

Türk xalqları ədəbi simalarının Səməd Vurğun haqqında yazdıqları poeziya nümunələri isə daha ölməz və daha əbədidir. Bu poetik nümunələr daha geniş miqyasda tədqiq və təqdir olunmalı, araşdırılmağa ehtiyac doğuran bir ədəbi proses kimi zəruridir.

Özbək ədəbiyyatşünası Kamil Yaşen "Dostluq duyğuları" məqaləsində bu dostluğun, doğmalığın, yaxınlığın rəhmi kimi, parlaq ifadəsinin canlı təsvirini vermişdir. O həmçinin Səməd Vurğunun öz bədii yaradıcılığının yeni mövzular və surətlərlə zənginləşdirilməsindən urək dolusu söz açır. O qeyd edirdi ki: "Səmədi 30 il bundan əvvəl görmüşəm. O vaxtdan çoxlu sular axıb, bu müddətdə ölkəmizdə, bütün planetdə böyük dəyişikliklər baş verib. Ədəbiyyatda yeni nəsil yetişib. Mədəni həyatımızın başqa sahələrində də yeniliklər az deyil. Deyirlər ki, illər gördüklərini və yaşadıqlarını yaddaşından silir. Bu fikirlə razılaşa bilmərəm. Qəlbin dərinliklərinə hopmuş nə varsa unudulmur, silinmir. İnsan nəfəs aldıqca yaşayır. Səməd...o, özbək ədəbiyyatının dostu idi. Bizim xalqa hörmət edər onu yüksək qiymətləndirərdi. Respublikamızda baş verən hadisələrdən həmişə xəbər tutar, qələm dostlarının yaradıcılığını izləyər, xoşuna gələn əsərlərə biganə qalmaz, həyatla ayaqlaşmayan yazılara qarşı isə çox ciddi və tələbkar mövqe tutardı. Ədəbi fəallığı, vətəndaşlığı ilə seçilən Səməd qayğıkeş, sənətkar, ağıllı, tərbiyəçi, gözəl insanlıq nümunəsi idi. Vurğun milli mədəniyyətlərin yaxınlaşmasına və zənginləşməsinə böyük diqqət yetirirdi. Onun Azərbaycan-Özbəkistan ədəbi əlaqələrinin inkişafındakı xidmətləri buna parlaq misal ola bilər". (1,4-5)

Kamil Yaşen bu iki xalq arasındakı dostluq köklərinin çox-çox gedib qədimlərə çıxmasını qeyd edir. Müəllif göstərir ki, onları böyük məsafələr ayırsa da bədii söz sənətinin söz yaxınlığı birləşdirir. Ədəbiyyatşünas məqaləsində eyni zamanda göstərirdi ki, xeyirxahlığı, qəhrəmanlığı vəsf edən, satqınlığı qana, hərisliyi damğalayan folklor nümunələrimiz Azərbaycanda da yayılıb rəğbətlə qarşılanıb. Özbəkistan baxşıları və Azərbaycan aşıqları işıqlı həyat arzularından söz açır.

Təxmini hesablamalara görə Səməd Vurğuna minə qədər irili-xırdalı sənət əsərləri həsr olunmuşdur ki, bunların bir qismi də Türk xalqları ədəbiyyatının yazarlarının yaratdığı sənət əsərlərindən ibarətdir.

Bunlardan Q.Qulamın, Zülfiyyənin, Şöhrətin, Q.Quliyevin, M.Auezovun, B.Kerbabayevin, A.Tokonbayevin, Ə.Minskinin, İ.Nuriyevin, R.Rskulovun, S.Rusiyevin, Q.Seyitliyevin və daha başqalarının adını çəkmək olar. Şairə olan istək və sevginin nəticəsi idi ki, özbək yazarları S.Vurğuna şeir və poemalar həsr etmişdir. Bu baxımdan özbək şairi Q.Qulamın Azərbaycan şairinin anadan olmasının 50 illik yubileyi münasibəti ilə yazdığı "Qardaşım S.Vurğuna" şeirini nümunə göstərmək olar. Bu şeir 1956-cı ildə may ayının 12-də "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunmuşdur. Şeiri azərbaycan dilinə ilk dəfə Z.Xəlil tərcümə etmişdir. Sonralar bu şeir "Özbək ədəbiyyatı antalogiyası"nda verilmişdir. 1979-cu ildə Q.Qulamın "Ömrün baharında", X.Rza Ulutürkün "Turan çələngi", "Nəğməli Özbəkistan" almanaxlarında X.Rzanın tərcüməsində dərc olunmuşdur. Q.Qulam S.Vurğunun bədii obrazını parlaq bədii boyalarla oxucularına təqdim edir:

Sən xalqını ucaltdın,
Xalq da səni – Səmədi.
Əsl şair sənəti,
Yurdun hünər sənəti.
Yazdığın şeirlərin,
Dağ kimidir siqləti.
Tükənməyən sərvəti,
Soyumaz hərarəti.
Burnumun ucu göynər,

Yada düşəndə dostlar.
Səməd Vurğun adını,
Çəkərəm qürur ilə.
Özbəkistan göyləri,
Mənim qəlbim tək dolar. (2-1)

Müəllif bu şeirində xalq və onun sənətkarları məsələsinə assosativ tərzdə yanaşır. Onun poetik misralarını xalqın hünər sənəti hesab edir. O, bu şeirləri xalqın tükənməz sərvəti bilərək, bu poetik nümunələrin dağ siqlətindən söz açır. Müəllif öz şair dostundan ötrü burnunun ucu göynədiyini, S.Vurğunun poeziya dünyasının soyumayan hərarəti, mənəvi qüruru adlandırır. Q.Qulamın bu iki xalq arasındakı ədəbi münasibətlərinin çiçəklənməsinin təsvir və tərənnüm edilən "Bir-birinə şagird, bir birinə ustad" şeiri daha maraqlı olmaqla bərabər, həm də dillər əzbərinə çevrilmişdir:

Şagirdlər qəlb evinin,
Parlayan çırağıdır.
Ustadı ötən şagird,
Ustadın bayrağıdır.
Mərifət insana xas,
Könül göz bulağıdır.
Yurdu sevənlər üçün,
Yurd bir çiçək bağıdır.
Yurdu sevən bu bağda
Olar Şirin ya Fərhad,
Biri-birinə şagird,
Biri-birinə ustad.
Füzulinin rubabı
Milyon canda yerləşir,
Bulaq başı ustadı,
Şair-ata Əlişir.

Şagird-ustad anlamı bu poetik misraların simvolik daşıyıcısına çevrilir. Özbək şairi bu potik lövhələrdə simvolik obrazlar sistemini yaratmaqla bərabər, ustad şair anlayışında Vurğunu bir ustad simasında görür. Onu özündən ucada tutur. Həmçinin bu şeirdə poetik misralar kontekstində daha bir məna yaşanır. Belə ki, Səməd Vurğun klassik ustad şairlərə bir şagird olsa da, şagird olmasıyla belə o, bu ustadların qəlbinin çırağıdır, ustadından irəli getdiyi üçün, ustadın bayrağıdır - deyir. Q.Qulam onu da təsvir edir ki, yurdunu sevdiyi üçün, onun şeiriyyəti bir çiçək bağını xatırladır. O, həm də şeir dünyasının Fərhadıdır. Müəllif Füzuli və Nəvai kimi klassikləri yada salaraq, Səməd Vurğunu da bu poeziya çeşməsinin başında əyləşdiyini fəxarətlə qeyd edir. Sonra isə müəllif ötən əsrləri ekskursiya edərək, böyük klassikləri yada salır. Müquminin ilk müəllimi kimi Seyid Əzim Şirvanini xatırlayır. Onların hər ikisini poeziya dünyasında uçan qoşa qartala bənzədir. Həmçinin özü ilə Vurğunu bir ana döşündən süd əmən əkizlərə bənzədərək ruhunu dilə gətirir:

Müquminin gülüşü,
Zülmətləri qəhr edir.
Onun ilk müəllimi
Seyid Əzim Şirvanidir.

Üfüqdə qoşa qartal,
Qoşa uç, evin abad!
Biri-birinə şagird,
Biri-birinə ustad.
Bakının günəşidir,
Sanki otağımdakı,
Yalnız otağımı yox,
Ürəyimi, beynimi,
İşıqlandırırdı Bakı.
Mənim könlüm bu nuru,
Daim bəslər, əzizlər.
Eyni ana döşündən
Süd əmən bu əkizlər.
Biri-birinə şagird,
Biri-birinə ustad.

Özbək şairi Şöhrətin də "Səməd Vurğuna" şeiri özünün səmimi hissləri, o azərbaycan şeirinə yüksək məhəbbəti ilə zəngin bir sənət nümunəsidir:

Səməd Vurğun coşub daşırdı,
Yeni həyat quranlara şeir qoşudu.
Kürsülərə sığışmırdı coşqun ilhamı,
Öz elinə, öz yurduna vurğun ilhamı.

Müəllifin poetik sistemində cilalanan misralarda Azərbaycan şairinə onun ehtiram və minnətdarlığı duyulur. Ondan şeirin bir çox sirlərini mənimsəməsi poetik bir ruhda həmin şeirdə daha qabarıq verilir.

Şöhrətin "Səməd Vurğuna" şeiri özünün yüksək bədiiliyinə, daha qaynar hiss və duyğuların təsiri ilə yazıldığına görə maraqlı və oxunaqlıdır. Burada təbiilik və səmimiyyət xüsusi olaraq şeirin mündəricəsinə, keyfiyyətinə, fikir dərinliyinə xidmət edir. Şeirin bədii dəyərini artırır:

Dindi məhəbbətlə qəlbinin simi,
Ucaldı göylərə müqəddəs adın.
Övlada intizar bir ana kimi,
Mehrini vətənə, elə bağladı. (3-1)

Burada şairə, onun poeziyasına məhəbbət şeirdən xüsusi bir qırmızı xətlə keçir. Bu şeirdə eləcə də şairin namuslu, məğrur və bu nəcib hisslərə görə də bəxtiyar olduğunu müəllif qeyd edir. Şeirdə həmçinin şair təbiətini tufana bənzədilərək, onun xarakter və xislətindəki müsbət keyfiyyətlər göstərilir və şairin bədii portreti belə fərdi cizgilərlə canlandırılır:

Yaşadı namusla məğrur, bəxtiyar,
Nagahan tufandı sənin varlığın.
Adına and içir böyük bir diyar,
Eli sevmək idi bəxtiyarlığın.

Sonra isə şeirdəki bu hiss və duyğular kədərli notlarla əvəz edilir. Şair Şöhrət Səməd Vurğunun vəfatı ilə bağlı səhnələri göz önündə canlandırır. Səməd Vurğunun poeziya

kəhkəşanında ulduzlardan biri kimi söndüyünü göstərir. Sonra isə şair etiraf edir ki, mən səhv etdim. Çünki Vurğun ölməmiş, gözlərdən qəlblərə köçmüşdür, əbədiyyətə, ölməzliyə qovuşmuşdur:

Ölüm nə tez gəldi məzarın üstə,
Qara haşiyəli vətən bayrağı.
Gömüldü torpağa bir arzu istək
Söndü üfüqlərdə ulduz sayağı.

Yox, yox ölməmisən səhv elədim mən,
Geymisən əyninə nur biçimli don.
Ürəklər zövq alır şeiriyyətindən,
Gözlərdən qəlblərə köçmüsən Vurğun.

Şeirdə əbədiyyətə qovuşan şairin vətənə, xalqa, insanlığa bağlılığından söz açılır. Nərmurad Nəzrullayevin poetik qəhrəmanları, Azərbaycan xalqının tarixi şəxsiyyətləridir. O, öz şeirlərində Nəvainin, Nəsiminin, Füzulinin, Vurğunun poetik obrazlarını ustalıqla yarada bilmişdir:

Nəğmələr qoşaraq doğma elinə,
Mehriban qoynunda Vurğun yaşayır.
Sənin çiçəyinə, sənin gülünə,
Sənin torpağında Vurğun yaşayır.

Feyzi Şahismayıl "Laləzar diyar" şeirində Azərbaycanın təbiətini böyük vurğunluqla vəsf edərək, onu doğma yurdu Özbəkistan qədər yüksək məhəbbətlə sevdiyini bildirsə də, Azərbaycanın sənətkar övladlarını da yaddan çıxarmır. Vurğun obrazını şair xüsusi olaraq bu şeirdə qabardır, onun bədii obrazını çılğın notlarla şeirdə təsvir və tərənnüm edir:

Nizami Nəvainin məhəbbətinin,
Bir cüt aynasıdır hər iki "Xəmsə".
Qafur, Səməd Vurğun sədaqətinin,
Tərifi sığmayır bəyana, bəhsə. (6-792)

Artıq 40-50-ci illərdə Vurğun obrazı Özbək sənətkarlarını qəlbində Səməd Vurğuna olan sevgi məşəli alovlanır, ona olan bu istək özbək şairlərinin qələmində xüsusi bir məna çalarları kəsb edir. Şairin bədii tərənnümü bu şeirdə xüsusi bir yer alır. Bu müəlliflərin bəziləri onu poeziya günəşi adlandırır, öz yazdıqları şeirlərin söz və kəlmələrini torpağa səpilən toxuma bənzədirlər. Məhz bu günəşin hərarəti ilə bu toxumların cücərdiyini qeyd edirlər.

Gümənniyaz Cabbarlı "Bakı səfəri" adlı altı misralı şeirində yenə də Səməd Vurğunla Qafur Qulamın mənəvi qardaşlığından və dostluğundan poetik dillə söz açılır, Səməd Vurğunu nəhəng bir söz sərrafı kimi qiymətləndirir:

Qafur Qulam ilə qardaş kimiydi,
Bu sənət nəhəngi, o söz mahiri.
Elə ki, dil açıb danışardılar,
Sapa düzülərdi söz cəvahiri.
Kəlamları müdrik, söhbətləri xoş,
Turan dünyasının iki şairi. (4-96)

Özbək şairlərindən Abdulla Aripovun, Həmid Alimcanın, Erkin Vahidovun yaradıcılığında da Səməd Vurğun mövzusu qırmızı xəttlə keçir. Onların yaradıcılığında Səməd Vurğunun poetik təsiri açıq-aydın duyulmaqdadır. Bu şairlərin bədii irsində Səməd Vurğunun "Azərbaycan" şeirinin təsiri daha böyükdür. Abdulla Aripovun yazdığı poetik nümunə daha qəribə və maraqlıdır. Belə ki, şeiri təşkil edən beytlərin bir misrası Özbəkistana, digər misrası isə Azərbaycana həsr edilir. Bu, eyni zamanda hər iki xalqın qardaşlığına, vahid bir ailədə eyni adət-ənənələrə, etnoqrafiyaya malik olmalarına bir işarədir. Bu şeir iki xalq arasındakı mənəvi qardaşlığın həzin tərənəsidir:

Nizami balından halva bişirdi,
Nəvai türk şeiri tutdu cahanı.
Özbək bircə ləhzə əldən verdimi,
Füzuli əlindən çıxan divanı.
Daşkəndin Vurğuna can qurban eylər,
Bakı əsirgərmi Qafurdan canı.

Abdulla Aripov öz publisitik yazılarının birində qeyd edirdi ki, Səməd Vurğun özbək oxucularına Qafur Qulam qədər əzizdir, müqəddəsdir.

Turab Tölənin "Dilimdəsən hər bir zaman" şeirində Vurğunun təsiri daha aydın hiss edilməkdədir. Turab Tölən bu şeirində ustad Səməd Vurğunun "Azərbaycan" şeirindən:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.

Misralarını öz şeiri üçün epiqraf seçmişdir:

Çox dolandım bu dünyanı,
Ellər gördüm ulduz sanı.
Seyr etdikcə kəkəşanı,
Yeri, göyü, asimanı,
Çulğalayan nursan inan,
Azərbaycan, Azərbaycan.

Üzümüzə qapın açıq,
Nəğmələrin saçaq-saçaq
Sənə vurğun olan nə çox,
Məndə vurğun, mən də aşiq,
Dilimdəsən hər bir zaman,
Azərbaycan, Azərbaycan. (7-1)

Səməd Vurğunun 50 illik yubileyi münasibəti ilə Özbək şairləri Zülfiyyə xanım, Q.Qulam, Aybək Bakıya gəlmiş, bu yubileyin fəxri iştirakçıları olmuşlar. Səməd Vurğuna həsr etdikləri şeirləri o günlərdə mətbuat səhifələrində dərc etdirmişlər. Şairin ev muzeyinin açılışı ilə bağlı Özbək şairəsi ona "Bir dənə papiros" adlı şeirini qələmə alır. Şairəni külqabıda qalmış yarımçıq papiros çox mütəəssir edir, o, təsirlənərək bu şeiri qələmə alır:

Qəlbində intizar, gözündə maraq,
Onunla öpüşüb ömrün sonunda.
Papirosda olan etibara bax,
Yarımçıq qalıbdı ömrü onun da.

Yarımçıq papiros gör nələr deyir,
Təkcə od sönməyib onun qorunda.
Ey sözün xaqanı, sərraflı şair,
Neçə nəğmə sönüb dodaqlarında.

Səkkiz bənddən ibarət olan bu şeirin digər bəndləri də daha oxunaqlı və emosionaldır, təsirlidir.

Özbək xalqı arasında daha məşhur olan, daha geniş yayılan Qafur Qulamın "Qardaşım Səməd Vurğuna" şeiridir:

Ən yaxın dostlarımı,
Bircə-bircə anarkən.
Səməd Vurğun adını,
Çəkərəm qürur ilə.

Özbəkistan göyləri
Mənim qəlbim tək dolar,
Azərbaycandan gələn,
Sevinc ilə, nur ilə.

Əlbəttə, bu nur, şübhəsiz ki, şairin fikrincə Səməd Vurğun poeziyasının ziyası və hərarətidir. Qafur Qulam Azərbaycan şairini körpənin əvvəlinci sözü kimi dəyərləndirir:

Gözəllərin gözündə,
Atəş kimi, köz kimi.
Körpələrin dilində
Əvvəlinci söz kimi.

Ellərin çörəyində,
Pak-pakizə duz kimi.
Sən xalqını ucaltdın,
Xalq da səni, - Səməd.

Və yaxud başqa bir misal:

Sən Qafqaz ətəyində,
Mən Ceyhun sahilində.
Nuşirəvan qəbri tək,
Gedərdik bir gün bada.

Əlinin istisini,
Duymasaydım əlimdə.
Dostluğumuz, əzmimiz,
Olmasaydı dünyada.

Vətənimiz, xalqımız,
Dövlətimiz, möhrümüz.
Min-min illər olacaq
Öz yerində bərqərar.

Bu misralar Özbək şairinin Səməd Vurğuna, əlbəttə, sevgi dolu poetik müraciətidir. Bu mübarək ənənə XX əsrin II yarısında da Özbək sənətkarları tərəfindən bu günümüzə qədər davam və inkişaf edir. Azərbaycan-özbək ədəbi əlaqələrinin görkəmli tədqiqatçısı Almaz Ülvi yazır: "XX əsrin 40-50-ci illərindən sonra ədəbiyyata gələn hər bir Özbək şair və yazıçılarının qəlbində Səməd Vurğun nurundan öz oxucusuna bir zərrə pay çatdırır. Qəlbdən doğan sevgini günəşə bənzətdikləri Səməd adına ərməğan edirlər. Bu etiraf, bu məhəbbət əslində ustad bildikləri XX əsr şeirimizin ən parlaq ulduzu sayılan Səməd Vurğundan sanki uğurlu yol, "xeyir-dua" diləkləri olmalarına işarədir" (5-10)

Əlbəttə, bu da etiraf olunmalıdır ki, Cığatay-Özbək poeziyasının baş mövzusu əsrlər boyu Azərbaycan və o xalqın sənətkarları olmuşdur. Azərbaycan türkcəsində də özbəkistan mövzusu və klassik, çağdaş şairləri əsas yerlərdən biri təşkil etmişdir. Səməd Vurğun obrazı isə özbək poeziyasının XX əsrin zaman kəsiyində yaranan ən parlaq bir sənətkar obrazıdır. Bu obraza müraciət XX əsr özbək şeirində bir mühüm ənənəyə çevrilməsinə baxmayaraq, hər bir özbək sənətkarları tərəfindən yeni biçim də, orijinal cizgilərlə qələmə alınmış, şairin həyatının ayrı-ayrı mühüm məqamları bədii şəkildə canlandırılmışdır. Ya da onun təsirindən çıxa bilməyərək Səməd Vurğun ruhunda gözəl sənət inciləri yaratmışlar. Bu da Özbək xalqının Azərbaycan sənətkarına əbədi sevginin rəhnidir.

XX əsrin 70-ci illər Özbək poeziyasının görkəmli ədəbi simalarından bir də Rəmz Babacan olmuşdur. O bu illər ərzində öz yaradıcılığı ilə özbək bədii fikrini yüksək bir inkişaf mərhələsinə qaldırmışdır. Onun yaradıcılığı bu illərdə Özbək poeziyasının poetik manifesti olmuşdur. Təsadüfi deyildir ki, o, 1973-ci illər SSRİ Dövlət Mükafatına layiq görülmüşdür. Rəmz Babacan Səməd Vurğuna böyük hörmət və ehtiramı olan şairlərdən biridir. O Səməd Vurğun poeziyası, onun sehirli yaradıcılığı ilə mənim tanışlığım gənclik illərindən başlayır. "Vaqif" dramından əzbərlədiyim monoloq aradan illər keçsə də, yaddaş o yaddaş olmasa da indi də xatirimdədir. Bu böyük şairin sirli, əfsunlu misraları elə poetik axıcılıqla ürəyə dolur ki, heyrətlənməyə bilmirsən. Nə qədər yaxın olsa da, başqa ədəbiyyatla bağlı ümumiləşmiş fikir demək adamdan məsuliyyət və cəsarət istəyir. Mənə elə gəlir ki, Vurğun klassik ədəbiyyatla, folkloru birləşdirmiş ən böyük Azərbaycan şairidir və onun xalqın ürəyində kök salmış məhəbbətini də bununla izah etmək lazımdır.

Onun Özbəkistanda dəfələrlə kitabı nəşr olunub. Hətta bəstəkarlarımız böyük şairin sözlərinə mahnı bəstələyiblər. Səməd Vurğun hər şeydən əvvəl milli şair idi. Yəni əsrlərin arxasından gələn poetik ənənələrə arxalanırdı. Xalqın arzu və istəklərini tərənnüm edirdi. Məlum həqiqətdir ki, belə millilik həm də beynəlmiləl şair olmaq deməkdir. O cür sənətkarlar bir xalqa məxsus olmur. Məncə, böyüklüyü şərtləndirən əsas xüsusiyyət budur. Azərbaycan ədəbiyyatı, Azərbaycan xalqı mənim üçün həmişə doğmadır və doğma da olacaq.

Onun poetik yaradıcılığında Azərbaycanın xalq şairi Səməd Vurğunun poetik təsiri çox güclü şəkildə duyulmaqdadır. Rəmz Babacanın istər ayrı-ayrı şeirlərində, istərsə də "Dirilik suyu" adlı poemasında bu təsir açıq-aydın bir şəkildə duyulmaqdadır. Belə ki, Rəmz Babacanın bir sıra şeirlərində Səməd Vurğunun şeirlərinin bəndlərində misraların təkrar işlənməsi prinsipi – yəni misra təkrirlərindən istifadə etməsi qaydaları Rəmz Babacanda nəzərə çarpır. Eləcə də Rəmz Babacanın qələmə almış olduğu "Dirilik suyu" poemasında Səməd Vurğunun "Muğam" poemasının təsiri göz qabağındadır. Bu poemalar ideya və məzmun mündəricəsi baxımından biri-birinə çox yaxın və oxşar poemalardır. Çox güman ki, Rəmz Babacan öz ana dilində Ərrəşid Rəzzaqın tərcüməsində "Muğam" poemasını heç də oxumamış deyildir. Rəmz Babacanın şeirləri də öz quruluş və struktur baxımından da S.Vurğun poeziyasına çox yaxındır. Səməd Vurğunun ruhu öz dərinliyi və səmimiyyəti ilə Rəmz Babacan poeziyasında duyulmaqdadır:

Mənim sənə xoş ərmağan nəğmələrimdir,
Sənə məftun, sənə heyran nəğmələrimdir.
Hər arzumu, diləyimi verirəm sənə
Mən öz şair ürəyimi verirəm sənə
Qəbul elə sözlərimin əl rəngini,
Cəh-cəh vuran ilhamımın xoş ahəngini.

Və yaxud:

Pir Nizami böyük ustad, mənim də pirim,
Füzulidən feyziyabdır mənim də şeirim.
Sabir mənim məhəbbətim, Vurğun qürurum,
O, vurğundur, aşiq kimi vuruldu. (5-318)

Beləliklə də, belə bir məntiqi nəticəyə gəlmək olar ki, ədəbi-əlaqələr müstəvisində Azərbaycan və Özbək ədəbiyyatı probleminin bir tərkib hissəsi kimi Səməd Vurğunun bədii obrazın türk xalqları ədəbiyyatında məsələsi dərin analizə, konseptual elmi-nəzəri araşdırmalara ehtiyacı olan bir ədəbi prosesdir.

Ədəbiyyat:

1. Kamil Yaşen. “Azərbaycan” jurnalı 1986, №10, səh.4-5
2. Qafur Qulam. Səməd Vurğun: şeir (tərcümə edəni Xəlil Rza) – “Şərq qapısı”, 18 noyabr 1976.
3. Şöhrət. Səməd Vurğuna. Şeir-Ulduz, 1972, №1, səh.1.
4. Qulam Qafur. Ömrün baharında. B.; Yazıçı, 1979, səh.96
5. Arıpov Abdulla. Qarabaşlıq bayramı. “Kommunist”, 2 oktyabr 11975.
6. Nəğməli Özbəkistan: şeir almanaxı (Tərtib edəni Əhəd Muxtar. Ön söz Xəlil Rza). B., Yazıçı, 1979, səh.318.
7. Ulutürk Xəlil Rza. Turan çələngi. B., Elm, 1992, səh. 792

А. Бахшалиев

«Художественный образ Самеда Вургуна в узбекской литературе»

Резюме

В статье исследователь касается проблемы художественного образа Самеда Вургуна, созданного в общетюркской поэзии. Он упоминает имена Гафура Гулама, Зульфии, Шухрата и др. узбекских поэтов, прославившихся в узбекской поэзии и создавших Художественный образ Самеда Вургуна. Он останавливается на стихотворениях, посвященных великому Азербайджанскому поэту. Он подвергает глубокому анализу эти поэтические образцы. Приводя определенные отрывки из этих произведений в качестве примеров, автор показывает духовные связи узбекских поэтов с Самедом Вургуном. Он исследует множество стихотворных примеров, оставшихся вне внимания литературной общественности. Ученый-литературовед больше освещает научную сторону этой проблемы. В то же время он выявляет художественно-эстетическую цель этой темы. Также он представляет полный научный комментарий этой проблемы. В этих стихах говорится о силе литературно-художественного влияния

Вургуна. Таким образом, проблема художественного образа Самеда Вургуна в узбекской литературе находит свое достаточное научное объяснение на уровне литературных связей.

В системе азербайджанско –узбекских литературных связей эта проблема описана яркими штрихами. Одновременно в статье говорится о том, что в творчестве узбекских поэтов образ Самеда Вургуна возведен до уровня художественного героя. Также на фоне этой проблемы раскрывается не только мастерство поэта, но и его художественно-идейная суть. В статье отражается глубокий научный анализ в области создания художественного образа Самеда Вургуна. Таким образом, в статье привлекает внимание научно-теоретический подход к анализу данной проблемы.

Ключевые слова: Тюркские народы, поэзия, художественный, образ, литература

A. Baxshaliyev

"The artistic image of Samad Vurgun in Uzbek literature"

Summary

In the article, the researcher deals with the problem of the artistic image of Samad Vurgun created in the common Turkic poetry. He mentions the names of Gafur Gulam, Zulfiya, Shokhrat and other Uzbek poets who became famous in Uzbek poetry and created the artistic image of Samad Vurgun. He dwells on poems dedicated to the great Azerbaijani poet. The author analyzes these poetic samples in depth. Citing certain passages from these works as examples, he shows the spiritual connections of Uzbek poets with Samad Vurgun. He explores many poetic examples that have remained outside the attention of the literary public. A literary scholar more illuminates the scientific side of this problem. At the same time, it reveals the artistic and aesthetic purpose of this topic. He also presents a full scientific commentary on this problem. These verses speak of the power of Vurgun's literary and artistic influence. Thus, the problem of the artistic image of Samad Vurgun in Uzbek literature finds its sufficient scientific explanation at the level of literary connections.

In the system of literary connection of Azerbaijan and Uzbek, this problem had been described with rich features. In the literary activities of Uzbek poets the image of Samed Vurgun rose in the level of literary hero. At the same time on the view of this problem not only the art of the poet but the literary idea investigated.

In the article the deep scientifical–theoretical investigations are reflected in the field of the form of the literary image of Samed Vurgun.

So in the analysing of this problem the scientific and theoretical method are more attracted the opinions.

Key words: Turkic peoples, poetry, artistic, image, literature

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 01.08.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent İlham Məmmədli tərəfindən çapa tövsiyə olunmuşdur.

TAHİR ƏMİRASLANOV
Tarix elmləri üzrə fəlsəfə doktoru
amiraslanovtahir@mail.ru

5 – ƏLA

Xülasə

Dünyada bir çox möcüzələr var. Bu möcüzələrdən biri də aşkarda gizlənənlərdir.5 barmaqdan ibarət olan əl əladır.Buna görə də 5 əladır.Yalnız onu deyək ki,"beş" rəqəmi başlanğıc, ilk kişilik rəqəmini 3 və ilk qadınlıq rəqəmini "iki" birləşməsindən doğulur, ona görə də pifaqorçular onu nigah rəqəmi adlandırırlar.Beləliklə 5 rəqəmi yüksəklik, alilik rəmzi kimi hər yerdə keçir. Ekstrasenslər də insan bədənindəki informasiyanı əlləri ilə qəbul edib ötürür, əlləri ilə müalicəvi təsir göstərirlər. Məsələ ondadır ki, əllər ən hissiyyatlı orqanlardır.

Beş rəqəminin özüylə münasibətində heç vaxt qeyri mükəməllik və yad bir şey doğmur .Müəyyən qanunauyğunluğa tabe olur: o ya özü özünü doğur və ya daha mükəmməl özünə məxsus on rəqəmini yaradır. Seyid Yəhya Bakuvi Elmin və Alimin Fəzilətlərindən yazarkən qeyd edir. Beş şeydə alim, əməl sahibindən üstündür.

Birincisi: Ən xeyirli əməl elm ilə olar. Elmsiz əməl faydasızdır.

İkincisi: Əməlsiz elm fayda verir, lakin elmsiz əməl fayda verməz.

Üçüncüsü: Əməl lazımdır. Elm isə əməl üçün şərtdir. Elm ilə əməl işıq və çıraq kimidir.

Dördüncüsü: Alimlərin məqamı nəbilərin məqamıdır. Əməl sahiblərinin məqamı isə övliyaların məqamıdır.

Beşincisi: Elm Allahdandır,əməl isə quldandır.

Hər ədəd altında bir sirr gizlənir.

Açar sözlər: beş, əla, yüksək, Allah, say, din, inanc.

Saat neçədir? artıq demək olar ki 5.
Mən bu rəqəmə yeri gəlmişkən pərəstiş edirəm.
Leyla Əliyeva (28 iyun 2016-cı il) (tərcümə T.Ə.)

Çox qəribədir ki, bu gənc şairədə bu şüurlu və ya şüuraltı müdriklik haradandır. Əslində şairənin rus dilində işlətdiyi "обожаю" daha geniş anlamdadır. Yəni "sevirəm", "pərəstiş edirəm", "səcdə edirəm" anlamlarını birləşdirir. Və sətri mənada bu söz "ilahlaşdırıram" deməkdir.

Niyə şairə 5-ə люблю (sevirəm), поклоняюсь (səcdə edirəm) və s. deyil, məhz "обожаю" (sevə-sevə ilahiləşdirirəm) deyir. Axı bu rəqəm (5) başqalarından nə ilə fərqlənir ki?!

Dünyada bir çox möcüzələr var. Bu möcüzələrdən biri də aşkarda gizlənənlərdir.

Aşkarda gizlədilənlərdən biri də 5 rəqəmidir. Bu rəqəm dilimizdə həm də əla adlanır. Görəsən niyə 3, 7, 12, 40 və s. rəqəmlər deyil məhz 5 rəqəmini əla hesab edib əcdadlarımız?! Rus dilində də 5-ə "otliçno" yəni, fərqli "yüksək" deyirlər.

Məktəbdə də bizə əla qiymət yazanda 5 yazırdı müəllimlərimiz. 3 kafi idi, 4 yaxşı, 5 isə əlaydı. Rus dilində də 5 rəqəminə həm "pyat"(beş), həm də otliçno (fərqli) deyirlər. Görəsən səbəbi nədir? Niyə bu rəqəm belə fərqlidir?! Nizami Gəncəvi də daxil olmaqla sonra gələnlərin çoxu "xəmsə" yəni beşlik yaratmağa çalışdılar, bəziləri buna nail oldu. Niyə məhz "xəmsə"?! Niyə üçlük, dördlük, altılıq və s. yox məhz beşlik, bunun səbəbi nə idi?! Niyə Nizami ilk əsərində, "Sirlər xəzinəsi"ndə Məhəmməd Peyğəmbərə 5 gözəlləmə yazıb? Bu nəyə işarədir?

Seyid Yəhya Bakuvi Elmin və Alimin Fəzilətlərindən yazarkən qeyd edir. Beş şeydə alim, əməl sahibindən üstündür. (1,51)

Birincisi: Ən xeyirli əməl elm ilə olar. Elmsiz əməl faydasızdır.

İkincisi: Əməlsiz elm fayda verir, lakin elmsiz əməl fayda verməz.

Üçüncüsü: Əməl lazımdır. Elm isə əməl üçün şərtdir. Elm ilə əməl işıq və çıraq kimidir.

Dördüncüsü: Alimlərin məqamı nəbilərin məqamıdır. Əməl sahiblərinin məqamı isə övliyaların məqamıdır.

Beşincisi: Elm Allahdandır, əməl isə quldandır.

Yenə də Seyid Yəhya Bakuvi "Mərifət" sözünün ərəbcədən 5 hərfdən ibarət olduğunun deyərək bu əlamətin yüksəkliyindən danışır.

"Mim" hərfi arifin nəfsində məlamət əhli olmasına işarətdir.

"Eyn" hərfin onun Eybinə işarətdir.

"Ra" hərfi Allah Təalanın məxluğuna Rəhmət göstərməyinə işarətdir.

"Fa" hərfi Allahın qüdrəti ilə nəfsinin eyblərinə qarşı Fətalığa işarətdir.

"Ha" hərfi Nəfsinin Həvasına, yəni dəyərsizliyinə işarətdir.

Niyə Seyid Yəhya bu və başqa beşlikləri ortaya qoyur?

Plutarx "Süfrəarxası söhbətlər" kitabında "5" badə-hə, "3" badə-hə, "4"-yox qaydası haqqında" ayrıca bir fəsil yazır. Niyə "5" badə-hə?

Öz dilimizdə də bununla səsləşən bir ifadə var. Çayın biri qaydadı, ikisi cana faydadı, üçü bəsdi, dördü nəhsdi, çatdı beşə, çıx (vur) on beşə. Niyə belə deyirik?

Niyə adada tək qalan Robinzon Kruzonun yanına Daniel Defonun təfəkkürü məhz Cüməni, yəni beşinci günü, rusca desək Pyatnitsanı gətirir? Niyə şənbəni, çərşənbəni və s. gətirmir?

Qəribə deyilmi beş rəqəminin belə yüksəldilməsi?!

Qəribəliklərdən biri də odur ki, Uca Allahımız müsəlmanlara gündə 5 dəfə namaz qılmağı buyurdu. Müsəlmanların birgə namazını beşinci günə-cümə gününə saldı. Məhz cümə-beşinci gün namazı müsəlmanları bir-biri ilə görüşdürən, bir amalda, bir duada birləşdirən dini faktora çevrildi.

İngiliscə 5-ci günə Friday-yəni boş, pulsuz, müftə, azad gün deyirlər. Əslində xristianlar üçün bazar günü, yahudilər şənbə günü boş, işdən, dünyəvi problemlərdən azad gün olsa da ingilislər nədənsə bu adı müsəlmanların mənəvi birlik gününə veriblər. (2,45)

Beləliklə 5 rəqəmi yüksəklik, alilik rəmzi kimi hər yerdə keçir.

Bütün bunların əsasında duran ehtimal ki, 5 ədədini insanla bağlılığı, əlaqəsidir.

İnsan gövdəsindən 5 çıxıntı var. İki əl, iki ayaq və baş. Hər çıxıntıda da beşlik çıxıntılar var. Hər əldə və hər ayaqda 5 barmaq var. Başda 5 çıxıntı iki qulaq, iki göz bəbəyi və bir burun. Başda 5 dəlik var- 2 qulaq, 2 burun dəliyi və ağız. İnsanda 5 hissiyyat var. Görmə, iy bilmə, dad duyma, səs duyma və təmas (lamisə).

Əgər nəzərə alsaq ki, bütün qədim dillərdə yalnız samitlər yazılır, saitlər və H hərfi, onun keçidləri (X, Q) yazılmır. Beş sözü sadəcə beş kimi yazıldığından beşdən sonra həm də baş və boş kimi yazılır. Başda olan 5 görülən boşluq (dəlik) barəsində yazdıq.

Saitlərin və "H" hərfinin yazılmadığını nəzərə alsaq, "bş" sözünü yəni "beş" sözünü həm də "behiş" kimi səsləndirmək olar. "Behiş" danışıq dilimizdə behişti, cənnəti bildirdiyindən 5 rəqəminin cənnətlə bağlılığını düşünə bilərik. Əslində üç ədəd 6 rəqəminin şeytana bağlanması (666) mövcuddur. 13 rəqəmini bir çox xalqlar nəhs rəqəmi hesab edirsə, onlara qarşı "5" rəqəminin cənnətlə bağlılığını düşünsək, bu rəqəmin niyə əla olduğuna bir cavab da tapa bilərik.

Beşin baş olması fikrimizcə onu əla edir, bütün başqa-yəni başdan qeyri rəqəmləri fərqləndirir. (2,95)

Ona görə ki, ağıl başdadır və əla qiymət ən ağıllı başa yəni beşə verilir. Amma baş boş olanda ona beş verilmir. Çünki beş ya boş ya da baş olur. 5 baş olanda əla olur. Əla sözü yalnız "L" kimi yazılır. Saitləri əlavə etməklə bu sözdən "əl" (ovuc və 5 barmaq) sözü yaranır. Yəni əla əslində əldir, 5 barmaqdan ibarətdir. Əla əli göstərir. Ələm (bayraq) da əl formasındadır.

Yusif peyğəmbər (ona bizdən salam olsun) vəhy mələyindən bilgi istəyəndə vəhy mələyi ona -"Ya Yusif, əllərinə bax və söylə hər əlində neçə barmaq və neçə uy var". - "Ya mələk, hər əlimdə 5 barmaq və 14 uy var" deyə Peyğəmbər cavab verir. - "Ya Yusif, dünyanın bütün bilgiləri əllərindədir" deyə vəhy mələyi cavab verir. (4,35)

Sonrakı dövrdə xiromantlar buna əsaslanıb, əllərə baxıb xəbər verirdilər.

Bütün dillərdə insanlar əllərini gözlərinin önünə gətirib dua edirlər. Bu zaman əllər antena rolunu oynayır. Iki beş başdan gələn məlumatı alıb kainata, uca Allaha, Allahdan gələn məlumatı isə başa ötürürlər. Deməli kainatla əlaqə quran "beşlərdir".

Ekstrasenslər də insan bədənindəki informasiyanı əlləri ilə qəbul edib ötürür, əlləri ilə müalicəvi təsir göstərirlər. Məsələ ondadır ki, əllər ən hissiyyatlı orqanlardır. əllərin içərisində çoxlu kapilyarlar var və bu kapilyarlarda qan axır. Harda axın varsa onun ətrafında mütləq cərəyan, elektromaqnit və digər sahələr yaranır.

Müalicə etmək, ağrıları götürmək üçün təcrübələrimdə əllərimi 3-7 dəqiqəlik buzun üzərinə qoyuram. Əllərimi soyuqdan mühafizə etmək üçün orqanizm əllərimə daha çox qan göndərir, qan əllərimdə daha sürətlə hərəkət edir. Kapilyarlardakı qanın hərəkəti əllərimdə daha güclü elektromaqnit və digər sahələr yaradır.

Bu o qədər güclü olur ki, bu sahələrin enerjisi istiliyə çevrilir, əllərdən sanki od çıxır. İnsan bədəninə yaxınlaşdıranda insanın harasından soyuq gəldiyini belə əllər hiss edir. Soyuq gələn yeri toxunmadan sığallayanda o yer isinir, soyuq bitəndə ağrı yoxa çıxır. Təxminən eyni müalicə üsulunu fizioterapiya kabinetlərində həkimlər də istifadə edir. Sadəcə oradakı cərəyanlar, sahələr texniki vasitələrlə yaradılır. Yəni bu zaman sadə fizika qanunları işləyir. (4,58)

İnsan dərindən düşünəndə iki əli ilə başını tutur. Üç (iki əl və bir baş) beş hissiyyatı sakitləşdirib, düşüncəni istiqamətləndirir, xəyalı dərinləşdirir. Çətin anda stressə məruz qalanda özündən olmayaraq insan əlləri ilə başına vurur, qan təzyiqini bununla nizamlayır, insultdan özünü xilas edir.

Əllərində təsbeh çevirmək, barmaqlardakı üylərə toxunaraq zikr etmək də qan dövranına qan təzyiqinə müsbət təsir etməyə, sakit axarlı düşüncə üçün şərait yaratmağa hədəflənir. Buna görə də əl həm də al-dır, yəni informasiya alandır. Digər tərəfdən elə buna görə də əl həm də qırmızı qan rəngində aldır, çünki qırmızı qanı tənzimləyir. Baş kimi əllər də biliklə bağlı olduqları üçün onları bədənə birləşdirən hissəyə "bilək" deyilir. Bilik isə həmişə əladır-beşdir. Buna görə də mühazirələrdə tələbələrə mütləq yazı yazdırılır. Əslində ən yaxşı yaddaş mexaniki yəni əl yaddaşıdır. Mühazirə zamanı səs (qulaq) yaddaşı, göz yaddaşı və əl yaddaşı bir yerdə işləyir. Kitab oxuyanda qələmsiz oxumaq olmaz, elə kitabda daha yaxşısı isə bir dəftərdə qeydlər aparmaq çox yararlıdır. Kitab vərəqlərinin kənarlarında qeydlər aparmaq mənə daha rahat gəlir.

Əl həm də al olduğu üçün ondan alov (istilik) çıxır.

Əl həm də el-dir yəni el-oba mənasında ən sıx ünsiyyətdə olan, tez-tez görüşə bilən, bir-birinin əlini sıxa bilənlərin əl-ələ verənlərin ünsiyyət vasitəsidir. Əllər sevənlər arasında da ən gözəl ünsiyyət vasitəsidir.

Əl həm də il-dir yəni zaman ölçüsüdür. İnsan yaşlandıqca bu illər əldə toplanır və əllərdə özünü daha çox biruzə verir. Bu mənada əl həm də ol-dur, var olmaqdır, həm də öl-dür, ölü-dür yox olmaqdır.

Əl həm aladır, əslində əladır. Mahnılarımızdakı kimi "gözlərin aladır (əladır) yar" yəni gözlərin gözəldir yar.

Əl həm də ulahdır, ulu-dur. 5 barmaqdan ibarət olan əl (ol, öl, al, el, ulu, ilah) əla-dır. Buna görə də 5 əladır. (4,265)

Islami dəyərlərimizdə əla ((yalnız "L") yazıldığındandır) həm də "Əli"-dir ,həm də İlah, ilahi, Allahdır. Buna görə də, sufizmdə Əli əladır, seçilən, fərqlənən, üstün, yüksəkdir. Və əla rəqəm kimi 5(beş) ilahi göydən gələn rəqəm, Allaha və Əliyə aid rəqəm hesab edilir.

Plutarx ""E" və Delflər barədə" əsərində 5 rəqəminə xüsusi diqqət yetirir. (səh 178; 179; 180)

Plutarx "E" hərfinin "Apallona" həsr edildiyini, Apallona aid edildini yazır. Plutarx yazır ki, özü özlüyündə "E" hərfi başqa hərflərdən nə yazılışı, nə də səslənməsi ilə fərqlənmir. Amma onun dəyəri başqa rəqəmlərdən üstün olan beş rəqəmini ifadə etməsi ilə bağlıdır. Ona görə ki, müdriklər hesablamaq (saymaq) felini – "beşliklərlə hesablamaq (saymaq)" kimi dilə gətirirlər.

Hər bir rəqəm cütə və təkə bölünür, bir isə hər ikisinə aiddir (belə ki tək rəqəmə əlavə ediləndə onu cüt, cütə əlavə ediləndə onu tək rəqəmə çevirir) 2 rəqəmi cüt rəqəmlərin, 3 isə tək rəqəmlərin başlanğıcı hesab edilir, 5 rəqəmi isə bu ilk iki başlanğıcın birləşməsindən əmələ gəlir. Ona görə də təbii ki, o xüsusi rəğbətə layiq hesab edilir, çünki iki başlanğıcdan əmələ gələn ilk rəqəmdir və nigah (ailə T.Ə.) rəqəmi hesab edilə bilər çünki qadınlığa uyğun olan cüt və erkəkliyə uyğun olan tək rəqəmdən əmələ gəlib... Buna görə də tək rəqəm daha çox istehsalçıdır. Nəinki cüt rəqəm.

Yalnız onu deyək ki, "beş" rəqəmi başlanğıc, ilk kişilik rəqəmini (üç) və ilk qadınlıq rəqəmini ("iki") birləşməsindən doğulur, ona görə də pifaqorçular onu nigah rəqəmi adlandırırlar. (Digər tərəfdən düşünmək olar ki, belə olan tərzdə "5" həm də ilkin aləmi, bədənindən hələ Həvva ayrılmamış bütöv Adəmi və ya eyni zamanda Həvva ilə yenidən birləşməmiş son Adəmi ifadə edir. Çünki nigah da elə bu bütövləşən Adəmin ifadəsidir. T.Ə.) Ola bilsin ki, buna görə də bunu təbii rəqəm adlandırırlar. Çünki özünə vuran zaman o cavabı yenə özüylə bitirir. Eynilə onun kimi də təbiət buğdanı dəndə alıb və onu həzm edir, dərinliklərdə onu müxtəlif formalara və görkəmlərə salaraq əmələ gəlmə prosesini sona çatdırır. Sonra isə hamıya yenə buğda göstərir. Beləliklə onu yenə əvvəlki, ilkin formasına qaytarır.

Beş və altı yeganə rəqəmlərdir ki, özünə vuranda cavabın sonunda yenə özlərini yaradır və saxlayırlar. Amma onlardan 6 əgər bu nəticəni yalnız bir dəfə ikinci dərəcəyə (kvadrata) yüksəldəndə verirsə, 5 rəqəmi daimi olaraq ya özü ilə ya da 10 rəqəmi ilə cavabı sonluqlayır. Beləliklə sona qədər ona görə ki, bu rəqəm (5 T.Ə.) özündə bütün kainatı təşkil edən başlanğıcı ilki təkrar edir. Axı bu kosmosu özündə ehtiva edir, kosmosdan yenə özünə qayıdır. (6,58)

Beş rəqəminin özüylə münasibətində heç vaxt qeyri mükəməllik və yad bir şey doğmur. Müəyyən qanunauyğunluğa tabe olur: o ya özü özünü doğur və ya daha mükəmməl özünə məxsus on rəqəmini yaradır.

Hər halda aydındır ki, ilahla(Appalon nəzərdə tutulur T.Ə.) və 5 rəqəmi arasında uyğunluq tapırlar, o gah oda bənzər təmiz halda özünü göstərir, gah da özündən kosmosu ifadə edən 10 rəqəmini ayırır.

Musiqi Allaha xoş gələn şeylərdən olduğu üçün biz hesab etmirikmi ki, o (musiqi T.Ə.) bu rəqəmlə münasibətdədir?! (6,258)

Harmoniyanın əsası belə demək mümkünsə səslərdədir. Onlar isə beşdir, artıq deyil. Bunu istəyən simlərdə yaxud fleytanın deşiklərində mühakimə yürütmədən hiss edə bilər. Axı səslər də rəqəmlerin nisbətindən doğur. Birinci səsin dörd səslənmədən sonrakı hesabı epitritdir. İkinci səsinki 5 səsdən sonra hesabı tempoludur. Üçüncünün hesabı ikiqat səs bütün səslərdən, hər

şeydən keçən hesab və beşdən sonra üç qat, dörd qat isə odur ki, iki dəfə bütün səslərdən keçir. Musiqini bilən adamlar bu dörd intervala ritmnən çıxan daha birisini əlavə edirlər ki, o hər şeydən və bu dörddən keçir amma bunu, bu səsi qayda kimi qəbul etmək olmaz. Mən burada tetroxordların 5 pozisiyada və ilk beş tonda ya ladda dayanmayacağam. Onları harmoniya adlandırmaq daha düzgün olardı. Var olan çoxluqdan daha doğrusu saysız intervallardan yalnız beşi: diez, yarımton, ton, bir yarım ton, iki ton musiqi deyilmi?!... Platon deyir ki, kosmos vahiddir, birdir. Amma fərz etsək ki, ondan başqaları da var, o tək deyil, onda onlar beş olacaq, artıq olmaz. Amma Aristotel demişkən kosmos tək və vahiddir. Onda bu beş dünyadan formaşıb. Onlardan biri yerdir. O biri su dünyasıdır, üçüncü, dördüncüsü hava və od dünyasıdır. Beşinci isə səmadır. Buna görə də Platon təbiətdə ən mükəmməl olan həndəsi fiqurları: piramidaları, kubu, oktaedri, eykosaedri və dodekaedri görüb, hər birini uyğun dünyaya aid etdi. Az qaldı ki, biz Homerin yanından keçək, sanki birinci olaraq kosmosu beş hissəyə o bölməyib: ortadakı üç hissəni Allahlara, iki qıraq hissələri Olimpi və yeri bölünməz və hamıya ayırıb. Beləliklə bu rəqəm yalnız ikidən və üçdən törəməyib, həm də ilkin elementlərdən törəyib. Bütün rəqəmlərin başlanğıcı birdir, ilk kvadratsa dörddür. Bu ikisindən forma və materiya kimi beş əmələ gəlir. Bəziləri düzgün olaraq hesab edirlər ki, bir ilk kvadratdır. Yəni özünə vuranda bir alınır, onda beş rəqəmi iki ilk kvadratdan əmələ gəlib ki, bu da onun ali mənsəbliliyinə xələl gətirmir.

Plutarx "İsida və Osiris barədə" əsərində yazır ki, Qelios biləndə ki, Reya xəlvətcə Kronla nigaha girib, qarğış etdi ki, o (Reya) heç bir ayda və heç bir ildə doğmayacaq. Onda ilahəyə (Reyaya) vurğun olan Hermes onunla yaxınlıq elədi, sonra isə ayla şaşki oynayaraq ondan onun hər siklinin 17-dən bir hissəsini udub onlardan 5 gün düzəltdi və onları qalan 360 günə əlavə etdi və o vaxtdan misirlilər bu beş günü "calaq" və "allahların doğulduğu günlər" adlandırırlar.

Plutarxın yazdığı əfsanəyə görə birinci gün Osiris, ikinci gün Arueris bəziləri ona Apallon, bəziləri Qor deyir, üçüncü gün Tifon, amma qeyri adi yolla anansının böyrünü vurub çıxdı. Dördüncü gün İsida , beşinci gün Neftida doğuldu ki, onu da Sonluq yaxud Afrodita, bəziləri isə Qələbə adlandırırdılar.

Yəni Plutarx demək istəyir ki, bu beş gündə 5 Allah dünyaya gəldi. Yəni Allahlar zamansızlıqda doğdular.

Koroğlu dastanında Koroğlu Gizir oğlu Mustafa bəy barəsində belə bir ifadə işlədir.

Kaş əzəldən eş olaydıq
Anadan 15 alaydıq
Əvvəldən qardaş olaydıq
Gizir oğlu Mustafa bəy!

İzmirdə Türk Dünyası Araşdırmalar İnstitutunun banisi Türkmən bəyin açıqlamasına görə "Anadan on beş olaydıq" (əslində alaydıq T.Ə.) ifadəsi ana südünün ilk on beş gününə, ağız südünə aiddir. Plutarxa və digərlərinə görə 10 rəqəmi (5+5) kosmosu ifadə edir. 5 isə vahid Adəmin (Həvva bətnindən ayrılmamış və ya artıq birləşmiş Adəmin) simvoludursa onda 15 kosmos və Adəmin vahidliyini əks etdirir. Ana südünün kainat, nəsil haqqında tam məlumat ötürücüsü, informasiya daşıyıcısı olduğunu elmi işlərimizdə sübut etmişdik. Bizim qədim adətlərimizdə ailə qurulanda, oğlan evi qızın anasına "süd pulu" ödəyirdi. Bu məbləğin digər adı "başlıqdır". Dediyimiz kimi əslində saitlər yazılmadığından baş həm də "beşdir-əladır". Bəlkə də Ana südünün müqəddəsliyinə görə qız anasına əslində "əlalıq"-"beşlik" pulu, ödənişi verilirdi. (5,66)

Belə çıxır ki, Koroğlu ilə Mustafa bəyin birləşməsi anadan 15 olmaları kosmosla Adəmin birləşməsidir, bütövlük kainatın əvvəlki halına, gücünə malik olmasıdır. Biz əvvəlki yazılarımıza mənbələrə istinadən Koroğlunun əslində Qoroğlu, Qorqud oğlu olduğunu,

Qorqudun isə ilahi başlanğıclıqla, Peyğəmbərliklə bağlı olduğunu bildirmişdik. Belə olan halda Mustafa adının da sonuncu Peyğəmbərimizə aid edildiyini nəzərə alsaq, söhbət burada Peyğəmbərlərin güclərini birləşdirməsindən, əzəli gücü əldə etməklərindən bəhs edilir. Elə həmin şeirdə Koroğlu belə davam edir.

Bir atlı var Alapaça
Aman vermir Qırat qaça
Şeşpərinin ucu haça
Gizir oğlu Mustafa bəy. (5,185)

Koroğlunun 2 əla (5), fərqli atı var idi-Qır at və Dür at. Qır at zülməti, gecəni bildirir, Dür at isə işıqlı gündüzü. Yəni Koroğlunun atları əslində 10 rəqəmini-kosmosu ehtiva edir.

Mustafanın atı Alapaça isə bir əlanı (5-i) alatoranı, gecə ilə gündüz arasındakı zamanı, keçidi özündə birləşdirir. Ona görə Alapaça (Alatoran) Qırata (gecəyə) qalib gəlir. Bu üç atın, üç əlanın birləşməsi də 15-i verir ki, bu da fikrimizi kosmosla Adəmin birləşməsini təsdiqləyir. Əgər Mustafa adı sonuncu Peyğəmbərimizə işarə edilirsə, onda Alatoranlıq Peyğəmbərimizin merac atıdır. İki dünya (maddi və mənəvi) arasındakı keçidi təmin edəndir.

Yenə də Alapaçanı işarələdiyi Alatoran da qaranlıqdan işığa keçidi, mənəvi dünya (zülmət) ilə maddi dünyanı (işığı) birləşdirən körpünü ehtiva edir.

Burada İncilin ilk sətrini xatırlamaq istərdik:

"Dünya Zülmət içindəydi və Müqəddəs ruh Elovim Zülmət üzərində bərqərar idi. O dedi: Qoy işıq olsun. Dünya işıqlandı."

Beləliklə Koroğlunun Mustafa ilə anadan 15 almaq istəməsi, 3 əlanın (3x5) birləşdirilməsi, kosmosla Adəmin birliyi mənasındadır ki, burada da 5-in əla olduğunu görürük.

Koroğlunun Mustafa ilə birləşib bir anadan əkiz doğulub qardaş olması, bir ananın südünü içmələri onları bir yürgəhdə, bir nənnidə birləşdirəcəydi. Yürgəyin, nənninin bir qədim adı da dilimizdə "beşik" adlanır. "Beşik" sözü dilimizdə həm də bir əlayıg mənasını verir. Koroğlu (bir əla-5) və Mustafa (bir əla-5) Beşiyə (bir əla-5) onlar 3 əla, üç beş birləşib yenə 15-i böyük birliyi, gücü yaratmalıydılar.

Koroğlu əslində bu tərifnamədə Kosmoqolik birliyə, özlərinin bu birliyin maddi dünyadakı əksləri olduğunu bildirir. (2,258)

XVI əsrin ən böyük sufilərindən biri Seyid Yəhya Bakuvi "Şəfa əl Əsrar" əsərində Şeyxliyin Əsasları bölməsində Beşinci babda (məqamda) yəni, xacə məqamında Şeyxin Allahın fərmanı ilə "xacə"-yə əsa verməsindən danışır.

Və indiyə qədər Peyğəmbərlərə verilmiş 10 əsadan söhbət açır. Seyid Yəhyaya görə:

I əsa Adəm Əleyhissalamın əsasıydı ki, bu əsa Cənnətdən ayrıldığı, Adəm isə qovulduğu üçün ağlayırdı. Əsa Adəm Peyğəmbəri yırtıqlardan qoruyardı.

II əsa İdris Peyğəmbərə verilmişdi. Əsa ona kitabdakıları xatırladar, o da əsa vasitəsiylə dərs verərdi.

III əsa Nuh Peyğəmbərin əsasıdır. Qövmünün həlak olacağını Nuha əsası xəbər verdi. Əsanın altından və üstündən qara su axırdı.

IV əsa İbrahim Peyğəmbərin əsasıydı ki, Cənnət reyhanından idi. Əsa İbrahimin əlində yaşıla dönürdü.

V əsa İshaq Peyğəmbərin idi. Oğlu Yaqubun dünyaya gəldiyini əsanın gülməyindən bilmişdi.

VI əsa Yaqubun əsasıydı. Əsa ağlamaqla Yusifin ayrılığını bildirdi.

VII əsa Musanın əsasıdır. Lazım gələndə ilan olurdu.

VIII əsa Süleymanın əsasıdır. Əsanı gördüyü zaman bilirdi ki, duası qəbul edilib.

IX əsa İsanın əsasıdır. Əsa xəyanət olacağını öncədən xəbər verdi.

X əsa Məhəmməd Əleyhissalamın əsasıydı. Aclıq anında yaşıllaşıb xurma verdi. Taif döyüşü günündə qılınca çevrildi.

Beləliklə Seyid Yəhya bizə 5-ci məqamda (bir əlada), 10 möcüzə (iki əla) əsadan xəbər verir ki, burada biz kosmos (10) və Adəm (15) vəhdətini, yəni 15-i görürük.

Biz burada da 5 rəqəminin yüksək tutulduğunu görürük. Hesab edirik ki, Sirlər xəzinəsində qədim filosofların dünya görüşlərini ortaya qoyan Nizami Gəncəvi bu filosofların beş rəqəminə olan münasibətlərini bilməmiş deyildi. Bəlkə də xəmsənin hər bir əsəri elə bu 5 allahın simvolizə etdiyi ilahi fəlsəfəni, ehtiva etdikləri təbii qüvvələri və estetikanı əks etdirir.

Bunları Nizami Gəncəvinin əsərlərinin adından görmək olar. Sirlər Xəzinəsi, Xosrov və Şirin, Leyli və Məcnun, Yeddi gözəl, İskəndərnamə. Məsələn Leyli və Məcnun özündə Osirisi və İsidanın sevgilisini əks etdirə bilərdi. Onlar bir birini oqədər sevirdilər ki, artıq analarının qarnında birləşmişdilər. Osirisin yer altı dünyanı idarə etməsi, parçalanıb dağılması Məcnunun həyatını, İsidanın əzabları isə leylinin əzablarını ehtiva edə bilər. (6,87)

Əgər Şərəfnamədə İskəndər Tifona bənzəyirsə, döyüşkəndirsə, İqbalnamədə o daha çox gözəl və müdrik Apallona (Qora) bənzədilir. Yeddi Gözəl özlüyündə artıq Afroditanın (digər adı Qələbə və Sonluq) xüsusiyyətlərini əks etdirir. Sirlər Xəzinəsi isə ehtimal ki, İsidanın müdrikliyini və yaradıcılığını əks etdirir. Əslində bu bölgü Nizami Gəncəvinin ezoterik bilgiləri daha da dəqiqləşdirilə, əsaslandırıla bilər. Amma bu başqa bir mövzu olduğu üçün hələlik bu məqaləmizdən kənara çıxmaq istəməzdim.

Ola da bilsin ki, Şeyx Nizami və sonrakılar bu beşlikləri, xəmsələri məhz namazlara həsr ediblər. Hər namaza, onun böyüklüyünə bir əsər. Bəlkə də hər poemanın, bir namaza istinadı ilə hər əsərin əslində elə namaz olduğunu, şairin Allahla söbətinin, namazının nəticəsi olduğunu demək istəyiblər. "Axı bir saatlıq elm qiyamətdə 40 illik ibadətə bərabər tutulacaq"- fikrinə söykəniblər. Axı Quranda namazın forması göstərilməyib. Bəlkə bu əsərləri namazın bir forması hesab ediblər. Bəlkə də! Ola bilsin ki.. Bəlkə Səmavi kitablar şeirlə, nəzmlə gəldiyi üçün "xəmsələr" beşliklər də şeirlə yazılıb. Hər ikisinin eyni mənbədən – Allahdan gəldiyini göstərmək üçün bəlkə belə yazıblar! Əlbəttə ki, bunlar hər biri nəticəsindən asılı olmayaraq, ayrıca tədqiq edilməlidir.

Amma başqa cür də ola bilərdi. Nizami qədim filosofların əsərləri ilə tanış olduğundan Plutarxın "beşə"-əlaya olan münasibətindən də xəbərdar ola bilərdi. Və yaxud Musanın "beş kitabını" (Pyati knijie Moiseya) tanımamış olmazdı.

Digər tərəfdən "Kəlilə və Diminənin" əsl birinci adının sanskritdə "Rancatantra" - yəni "5 tantra" olmasından da Nizami və digərləri xəbərsiz deyildilər. (6,54)

Çin xalqının yaranması haqqında olan epik əsər "Çin (konfisian) beş kitabı" da məlum mənbələrdən idi.

Artıq yaxın tarixdə "Dostoyevskinin Böyük Beş kitabını" ("Великое пятикнижие Достоевского") tərtib edənlər də ("Karamazov Qardaşları", "Yeniyetmə", "İdiot", "Cinayət və Cəza", "Şeytanlar") beşliklərə bağlı bu tarixi faktlardan xəbərdar idilər.

Amma 5 bucaqlı ulduz işarəsi monoteist dinlərdən öncə də müqəddəs işarələrdən sayılırdı. Beləliklə axtardıqca 5 rəqəminin bütün sahələrdə kamillik göstəricisi, yüksək məqama, aliliyə, seçkinliyə malik olması ilə bağlı faktlarla qarşılaşırıq.

Ən əsası isə bu nəinki bizim şüurumuzda, hətta şüur altı qatda belə artıq özünə yer tutub.

Biz zaman və məkanla hasarlanmış şüurumuzun çərçivəsindən çıxmağa çalışdıq. Hasarın o tayından gördüklərimizi hasarın hasarın çərçivəsinə salmağa və bu çərçivədə anlatmağa çalışdıq.

Amma mütləq həqiqət sahibi icazə və imkan verdiyi, bizə təlgin etdiyi miqdarda.

Məqaləmizi böyük Azərbaycan filosofu Şeyx Mahmud Şəbustərinin "Gülşəni-raz" əsərindəki ifadə ilə bitirmək qərarına gəldim.

"Hər ədəd altında bir sirr gizlənir."

Ədəbiyyat

1. Şah İsmayıl Xətayi "Əsərləri" "ŞƏRQ-QƏRB" Bakı-2005
2. " Koroğlu" Dastanı- "Lider Nəşriyyat"- Bakı 2005;
3. "Məlikməmmədin nağılı" Xalqın söz xəzinəsi; 1985.
4. Şəmsi Tebrizi- "Makalat" – "Ataç" İstanbul 2014
5. Е.Гасанов «Бог Един» Баку. Изд. "Elm və Təhsil" 1999-2016 г.
6. Firudin Gilar Bəg "Batini Quran" Bakı "Qanun", 2008, 794 səh.

Т. Амирасланов

5 – Отлично

Резюме

В мире много чудес. Одно из этих чудес скрыто в ясности. Руки сделаны из пальцев. Вот почему 5 отлично. Давайте просто скажем, что цифра «пять» происходит с самого начала, номер первого лица 3 и первая женственность, «два», поэтому Пифагор называет это цифрой брака. Психики также передают информацию в теле человека и имеют терапевтический эффект на руках. Дело в том, что руки являются наиболее чувствительными органами.

Отношения между пятью фигурами не имеют ничего общего с чем-то экстраординарным. Существует определенное правило: оно либо приводит себя в порядок, либо создает более совершенную цифру «десять». Сейид Яхья Бакуви написал в своей книге «Добродетели науки и науки» работа: «Ученый превосходит пять вещей».

Первое: лучшее действие - это знание. Невежественный поступок бесполезен.

Второе: знание с делом приносит пользу, а дело без знания не приносит пользы.

Третье. Наука - это условие действия. Это как свет и лампа.

Четвертое: авторитет ученых - это положение набожных.

Пятое: наука от Бога, а дела - рабы людей.

Под каждой фигурой есть секрет.

Ключевые слова: пять, отлично, высшее, Бог, счет, религия, вера.

T. Amiraslanov

5 – Excellent

Summary

There are a lot of miracles in the world. One of these miracles is hidden in clearness. Hands are made of fingers. That's why 5 is excellent. Let's just say that the figure "five" comes from the beginning, the first person's number 3 and the first femininity, "two", so the Pythagoras call it the marriage figure.Psychics also transmit the information in the human body, and have a therapeutic effect on their hands. The point is that hands are the most sensitive organs.

The relationship between the five figures has nothing to do with anything extraordinary.There is a certain rule:it either brings itself up or creates a more perfect "ten" digit.

Seyyid Yahya Bakuvi has written in his "the Virtues of Science and Scholar "work : "Scientist is superior with five things".

The First: The best action is by knowledge. The ignorant act is useless.

The Second: The knowledge with deed benefits, but deed without knowledge does not benefit.

The Third: Science is a condition for action. It is like a light and a lamp.

The Fourth: The authority of the scholars is the position of devouts.

The fifth: Science is from God, and deeds are people's slaves.

There is a secret under every figure.

Key words: five, excellent, higher, God, number, religion, faith.

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi03.08.2019
Tarix elmləri doktoru İlhamə Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

AFAQ QASIMOVA
AMEA -nın Folklor İnstitutu
Müslüm Maqamayev dongəsi 3
qasimovaafaq@mail.ru

QAÇAQ QƏHRƏMAN OBRAZININ QƏDİMƏ SÖYKƏNƏN TARİXİ KÖKLƏRİ

Məqalədə qədim köklərə malik olan "nəcib quldur", "xalq intiqamçısı" obrazları qaçaq obrazı ilə müqayisəli təhlil edilir. Real qaçaq qəhrəmanlarla əfsanəvi "nəcib quldur" obrazının yeddi bənzər xüsusiyyəti üzə çıxarılır. Təhlil zamanı qaçaq dastanlarından epizodlar verilir. Araşdırma göstərir ki, tarixin bütün dönəmlərində "nəcib quldur", "xalq intiqamçısı", "ədalət bərpaçısı" və.s kimi qəhrəmanlara ehtiyac olmuşdur. Aydın olur ki, bizim qaçaq hərəkatı kimi adlandırdığımız hərəkatlar, bənzər formada tarixin bütün dönəmlərində dünyanın bir çox ölkəsində mövcud olmuşdur. Onların bəziləri yalnız öz məmləkətində məşhur olmuş və öz ölkələrində müxtəlif cür adlandırılmışdır. Məsələn, Balkanlarda **hayduk,** Hindistanda **dakoit**, Braziliyada **congaço**, Ukraynada **oprişka,** Macarıstanda **betarı,** Yunanıstan və Kiprdə **kleft** və s. milli adlarla adlandırılır. Ədalətsizliklə üzləşən xalq öz arzularını bu qəhrəmanların simasında yaşatmışdır. Qaçaq qəhrəmanlar folklor nümunələrində qüsursuz təsvir edilmişlər. Bu da təbiidir. Çünki qaçaq qəhrəmanlar "nəcib quldur" və ya "xalq intiqamçıları" kimi folklorda epik qəhrəmana xas olan xüsusiyyətlərə malikdirlər. İstər qaçaq dastanlarında, istərsə də qədim epos və ya yazılı ədəbiyyatda "nəcib quldur" obrazını təmsil edən nümunələrdə dörd obraz tipinə rast gəlirik ki, bunlar da məqalədə sadalanır.

Belə nəticəyə gəlinir ki, xalq hətta müasir dövrdə belə "xalq intiqamçısı", "nəcib quldur" obrazını yaşatmışdır. Bu obrazlara müraciət edərək onları kinofilmlərdə, çizgi filmlərində canlandırmışlar.

Açar sözlər: qaçaq obrazı, "nəcib quldur", "xalq intiqamçısı", Tiamida obrazı, Qaçaq Nəbi, Robin Hud

Xalq yaradıcılığının maraqlı və əvəzsiz janrlarından biri olan dastanlarımız rəngarəng, geniş həcmli sözlü tariximizdir. Bu janr hansı dövrdə yaranmağından asılı olmayaraq həmişə yaşardır. Qəhrəmanın həyat yolunu əks etdirən dastanlar onların şəxsi özəlliklərini deyil, yarandığı gündən hər zaman məxsus olduğu xalqın yaşam, düşüncə tərzini, ictimai-siyasi durumunu əks etdirmiş, zamanının tələblərinə uyğunlaşmışdır. Yaxşı yaşamaq, ədələtli zamanda və ədalətli cəmiyyətdə ömür sürmək xalqın bütün dövrlərdə ən ümdə arzusu olmuşdur.

Tarixin müxtəlif dövrlərində hakim təbəqənin ədalətsizliklərindən narazı qalan insanlar qəhrəman obrazı yaratmış və onlar tarix boyu hakim təbəqənin düşməni, kasıbların isə dostu sayılmışdır. Bu obrazlar dünya folklorunda **"nəcib quldur" (**"благородный разбойник", "a noble robber", "gentleman thief") **"xalq intiqamçısı"** (народный мститель) adlandırılır. Bizim folklor nümunələrimizdə də onlara müxtəlif adlar vermişlər. Folklorşünas R.Rüstəmzadə qeyd edir ki, "Kitab aləmində onları "xalq intiqamçıları", "həqiqət mübarizləri", "yoxsulların havadarı", kəndli cəngavərləri", "ədalət mücəssəməsi" kimi ifadələrlə səciyyələndirirdilər." (15, 54) Dünya folklor nümunələrində kifayət qədər rast gəldiyimiz xoşniyyətli qəhrəmanların məqsədi heç zaman kimləri isə talayıb varlı olmaq deyil, kasıbların haqqını qorumaq, varlıların başqalarına zülm etməklə topladıqları var-dövləti onlardan alıb kasıblara verməkdir. O, qəhrəman taleyin qisməti nəticəsində, məcburiyyət qarşısında cinayətkar olsa da, sona qədər şərəf-ləyaqətini qoruya bilir, bəzən insanlarla kobud davransa da, hətta insan öldürsə belə, onların bu hərəkəti xalqın gözündə humanist görünür. Onların cəzalandırdıqları xalqın sevmədiyi insanlar olduqları

üçün oxucuda bu obraz haqqında cinayətkar təsəvvürü formalaşdırmır. Bu obrazlar xalqı təmsil edən və yol kəsərək igidliklər göstərən ingilis balladalarının dünyaca məşhur qəhrəmanı Robin Huddun adı ilə daha çox bağlıdır. "Xalq intiqamçıları"nın simvoluna çevrilmiş Robin Hudun dəstəsində bütün insanlar xeyirxah, xoşniyyətli və kasıbların dayağıdırlar. Hakim dairələrin özbaşınalığından cana gələn Hud Şervud meşəsinə üz tutur, öz ətrafına kasıb təbəqəni təmsil edən insanları toplayır. Arvadı Marian tarixi qəhrəman Qaçaq Nəbinin Həcəri kimi onun həm dostu, həm də silahdaşıdır. Düşməni isə Nottinqemin şerifi, cənab Qay Qisborndur. Ümumiyyətlə, "xalq intiqamçıları"nın adətən düşmənləri yerli hakim dairələr olur. Dünya folkorunda "Robin Hud"un missiyasını davam etdirən epos qəhrəmanları kifayət qədərdir. Yarı gerçək, yarı əfsanəvi qəhrəmanlar feodal özbaşınalığına, müstəmləkə siyasətinə qarşı sadə əhalinin mənafeyini müdafiyə edirdilər. Əhali isə onları hökumətdən gizlədib, adlarını qəhrəmanlaşdırıb, folklorda yaşadıb. Bizim qaçaq hərəkatı kimi adlandırdığımız hərəkatlar, bənzər formada tarixin bütün dönəmlərində dünyanın bir çox ölkəsində mövcud olmuşdur. Onların bəziləri yalnız öz məmləkətində məşhur olmuş və öz ölkələrində müxtəlif cür adlandırılmışdır. Məsələn, Balkanlarda **hayduk,** Hindistanda **dakoit**, Braziliyada **congaço**, Ukraynada **oprişka,** Macarıstanda **betarı,** Yunanıstan və Kiprdə **kleft** və s. milli adlarla adlandırılır. Onların xeyirxah əməlləri və varlılardan var-dövləti alaraq kasıblar arasında bölüşdürməsi xalqın qəlbinə yol tapıb. Məsələn, Koreyada kasıbların sevimlisi Xon Qildon obrazına 16-17-ci əsrlərdə yaradılmış eposda rast gəlinir. Dünyanın bütün ölkələrininin folklorunda bu tip qəhrəmanlara rast gəlmək olar. Bu "Robin Hudlar" haqqında bilgilər dünyanın müxtəlif ölkələrinin uzun süjet strukturlu janr olan dastanlarında təsvir edilmişdir. "Bu uzun süjet strukturlu janr bütün hallarda qəhrəmanın həyat bioqrafiyasının təqdimidir. Bu qəhrəman şəxsi özəlliklərindən, istək və arzularından azad olmuş, milli xarakteri tipikləşdirən, millətin simvolu olmuş bir personajdır. Dastan qəhrəmanı tarixi bir zamanda yaşamış, mübarizə aparmış və ya yaşadığına inanılan şəxs də ola bilər." (3, 255) Həmin personajlar öz xalqının qəhrəman simvoludur. Araşdırma göstərir ki, xalqın xilaskarına çevrilən qəhrəman obrazının tarixi qədimdir və tarixin bütün dövrlərində onlara müraciət olunmuşdur. Nəcib qəhrəmanlar bütün dövrlərdə xalqın arzu və istəklərinin təmsilçisi olmuşdur. Hələ qədim folklor nümunələrində xalqın xilaskarı obrazına rast gəlirik. Məsələn, e.ə. 6-cı əsrin sonlarında yazılmış Geliodoranın "Efiopika" povestində **Tiamida** adlı qəhrəman haqsızlıqlara dözməyərək meşələrdə qaçaq həyatı yaşayır. O, ətrafına dəstə toplayaraq xeyirxah və ədalətli başçı olmağa çalışır. "*Əldə etdiyimiz azuqəni bölməndə sizinlə eyni paya qane olmuşam, əsrləri satanda gəliri ümumi xəzinəyə qoymuşam, hesab etmişəm ki, yaxşı sərkərdə olmaq üçün əməyin çox hissəsini öz üzərimə götürməli, gəliri isə bərabər bölməliyəm*." (22,103) Verilmiş parçada qəhrəmanın ədalətli mövqedə dayanması aydın sezilir. Dahi filosof Aristotel "Poetika" əsərində belə xarakterin vacib dörd cəhətini sadalamışdır ki, bunlardan ən birincisi nəciblikdir. "Birincisi və ən mühümü budur ki, xarakterlər gərək nəcib olsun. Təsvir olunan şəxs xarakterə o zaman malik ola bilər ki, deyildiyi kimi, nitqində, yaxud hərəkətində necəliyindən asılı olmayaraq, hər hansı iradi istiqamət olsun; lakin xarakter məhz o zaman nəcib ola bilər ki, iradənin də nəcib istiqamətini təmsil eləsin." (2, 44-45) Ümumiyyətlə, "Qaçaq" terminini ilk dəfə yazılı ədəbiyyata Alman yazıçısı Şiller "Qaçaqlar" əsərini yazmaqla gətirmişdir. Şiller kimsəsizlərin dostu, haqsızlığa və ədalətsizliyə qarşı mübarizə aparan yazıçı kimi tanınmış, **Karl Moorun** timsalında romantik arzu və istəklərini gerçəkləşdirmişdir. Onun bu əsəri folklordan yararlanaraq millilik, doğma elə, kökə bağlılıq, azadlıq mübarizəsi kimi əsas ideyaları təbliğ edir və qəhrəman ictimai siyasi şəraitlə razılaşmayan mübariz insan olur. Əsərinin qəhrəmanı Karl bir müddət Boqem meşəsində yaşayaraq varlıları talayıb mal-mülkü kasıblara paylayır. Özünün ədalətli, ətrafının isə ədalətsiz olması, haqsızlığı sezərək ondan uzağa qaçması Karlı yolkəsən, soyğunçu quldurlardan fərqləndirir. Bir körpəni oda ataraq qatil hərəkəti ilə öyünən dəstə üzvü Şufterleyə "*Elə isə qoy, həmin od sinəndə qiyamətə qədər əbədi alovlansın. İtil əclaf! Bir də səni öz dəstəmdə görməyim.*"

(23,70) deyərək onu dəstəsindən qovur. Qaçaq Nəbi, Qandal Nağı, Dəli Alı, Qaçaq Kərəm və başqa qaçaqlar da Karl Moor kimi dəstəsində ədalətsizliyi qəbul etməz, əksinə ona qarşı ciddi mübarizə aparardılar. Rus ədəbiyyatında isə məşhur alicənab qaçaq obrazı A.S.Puşkinin "Dubrovski" əsərinin qəhrəmanıdır. Dubrovski güclülərin tərəfini saxlayan, atasının mal-mülkünü ədalətsiz qərarla varlılara verən məhkəməyə qarşı çıxaraq nəcib quldur həyatı yaşamağa məcbur olur. Əsər boyu dəstəsindəki haqsızlığa qarşı çıxır, sonda isə məmləkətini tərk edir.

Dünya folklorunda alicənab, nəcib qaçaq obrazı daha əvvəllərə təsadüf etdiyi kimi Azərbaycan folklorunda da bənzər obrazın tarixi qədimdir. A.Dobrolyubov qeyd edir ki, "Doğma vətənin fəlakətə uğradığı zamanlarda xalq öz keçmiş şöhrətini xatırlayaraq qədim əfsanələrə, rəvayətlərə müraciət edir, onları yenidən işləməyə, yenidən canlandırmağa başlayır." Azərbaycan dastanlarında xalqın mənafeyini təmsil edən qəhrəman obrazına hələ 12-ci əsrdən rast gəlinir. Belə ki, qaçaqçılıq hərəkatının qəhrəmanı olmayan lakin, qaçaq həyatı yaşayan ilk qaçaq obrazı Qara Məlikdir. Qara Məliyin həyat hekayəsi Qaçaq Nəbi və digər qaçaqların həyatına bənzəyir. "Qara Məlik acınacaqlı güzəranla ərsəyə çatmış, atası hambal olmuş, o öləndən sonra, anası onu əzab-əziyyətlə böyütmüşdür. 11 yaşına çatanda isə o özü hamballıq etmiş və həm özünü, həm də anasını saxlamışdır. Lakin Nüsrəddinin və onun əmisinin təqibi nəticəsində kəndindən didərgin düşmüş, qəhrəmancasına həlak olmuşdur. Xalq isə öz xilaskarını nəğmə və dastanlarda yaşatmışdır." (15, 41) "Qara Məlik" dastanında Məliyin Şəmsəddin Eldəgizin nəvəsi Nüsrətəddinlə aralarında olan şəxsi münaqişə zəminində elindən-obasından qaçaq düşməsi, Nüsrətəddinin onu öldürmək istəyindən qurtularaq Təbrizin Ocan dağı yaxınlığındakı meşələrində özünə məskən salması, Nüsrətəddindən intiqam almaq üçün onun qohumlarına, yaylaqlarına hücum edib mal-qarasını talayıb, sonra var-dövləti öz ətrafındakı cavanlara, kənd yoxsullarına paylaması, Rüxsarə ilə ədalətsiz zamana qarşı mübarizəsi, Rüxsarənin onların sevgisinə sona qədər sadiq qalması faktlarına rast gəlinir. O, da bizim folklorumuzda xalqın sevimlisi, xilaskarı, ədalətli qəhrəman simasındadır. Qara Məliyin müsbət keyfiyyətlərindən biri də ailəyə, vətənə bağlılığıdır. Onun ölüm ayağında dediyi sözlər bunu təsdiqləyir. "*Ey kimsən? Ölməkdə olan mən yersizin sözlərini Rüxsarəyə yetir ki, Qara Məlik mərdliklə Ozan dağını düşmənlərdən qoruyarkən öldü. Amma, yarından niyaran, anasından uzaqlarda öldü. Çünki, onun bir koması olmadı. On ildir dağlar, dərələr onlara ev, meşələr isə yorğan olmuşdur."* (15, 38) "Qara Məlik" dastanından sonra yaranan və türkdilli xalqların ortaq dastan qəhrəmanı olan "Koroğlu" dastanının qəhrəmanı xalqın xilaskarı, kasıbların havadarı hesab edilirdi. Koroğlu da öz sələfləri kimi yol kəsərək varlıların malını talayıb kasıblara paylayan yari mifik, yarı gerçək qəhrəmanlardan biridir. Koroğlunun iştirak etdiyi hərəkat birbaşa Azərbaycanda genişlənən kəndli hərəkatı ilə də əlaqələndirilir. "1610-1630-cu illərdə daha kəskin xarakter almış Cəlalilər hərəkatının başçılarından biri də Koroğlu idi. Burada kəndli hərəkatı ilə əlaqədar bir çox fakt və hadisələr mühafizə edilib saxlanılmışdır ki, bunlar eposun XVI-XVII əsrlərdə Azərbaycanda baş verən kəndli hərəkatının təsiri, inkişaf leymotivi əsasında meydana gəldiyini söyləməyə əsas verir." (12, 487-488) Koroğlu da türk dastan qəhrəmanı olaraq bir çox folklorşünasların tədqiqat obyektinə çevrilmiş, lakin onun tarixi şəxsiyyət olması və kəndli hərəkatı ilə əlaqəsi sübuta tam olaraq yetirilməmişdir. O, Türk dünyasını təmsil edərək nəcib qəhrəman kimi eposlarda yaşamış, xalqın arzu və istəklərini təmsil etmişdir. Qısası, Koroğlu kasıbları təmsil edir, onların mənafeyini qoruyur, bu səbəbdən sadə xalq qəhrəmanı qoruyur, onun ətrafına toplaşır, hətta onunla birgə vuruşur. Sonra onları dastanlarda yaşadır. Çünki bu cür qəhrəmanlar xalqının mənəvi xəzinəsidir və bu xəzinəni qoruyub gələcək nəslə çatdırmaq gərəkdir. Koroğludan sonra tarixi hadisələrlə əlaqədar olaraq yeni qaçaq qəhrəmanlar ortaya çıxdı. "Türk dünyasında qaçaqçılıq hərəkatı ilk öncə Osmanlı dövlətində XVI yüzildə başlasa da və bunun ən böyük və ən məşhur təmsilçisi Koroğlu olsa da, XVII əsrdə Karahaydar oğlu Mehmedlə davam etmiş, Osmanlı dövlətinin zəiflədiyi XIX yüzildə daha geniş vüsət almışdır. Ancaq quldurluq, yolkəsənlik, cənayətkarlığı

sosial əşkiyalıqla qarışdırmamaq lazımdır. Hər ikisinin təməlində iqtisadi amillər dursa da əşkiyalıq və ya qaçaqçılıq dövlətə qarşı deyil, pis yönəticilərə qarşı çevrilmişdir.” (4,26) Türk folklorunda da qaçaqlar dünyanın müxtəlif ölkələrindəki qaçaqlarla eyni müstəvidə dayanır. “Koroğlu, Tənha Efe, Çakırcalı Efe kimi xalqın içindən çıxmış və zalım bəylərə, ağalara qarşı yoxsul xalqı qoruyan qaçaq fiquru yalnız Türkiyədə deyil, bütün dünya ədəbiyyatında rast gəlinir. Ona görə də İncə Mehmed yalnız Türk soylu qaçaqları ilə deyil, çeşidli ölkələrin, Robin Hood, Billy the Kid, Jasse James kimi əfsanələşmiş haydutlarla qohum hesab edilir.” (10) Türk folklorunda “kaçak” kimi tanınan qəhrəmanlar bəzən qanundan qaçan mənasını da verərək əsasən iki - haram mala göz dikməmək və fağır-fuğura, kasıblara əl tutmaq kimi qanuna əməl edirdilər. Bu qanuna əməl edənlər xalqın sevimli qaçağına çevrilə bilmişdir. (18) Folklorşünas Füzuli Bayat isə söyləyir ki, “məlum olduğu kimi, “qaçaq və ya qaçaqlar dövlətə və ya onun idarəçilərinə qarşı savaşan, öz ədalət anlayışları, öz qanunları ilə hərəkət edən kəndliyə və ya kəndlilərə deyilir.” **(3, 261)**. Öz mübarizə üsulu ilə qədim köklərə bağlanan qaçaq obrazları konkret olaraq qaçaqçılıq hərəkatı zamanı meydana gəlmişlər. Qaçaq hərəkatının kökləri feodalizm cəmiyyətinin qurulması ilə bağlıdır ki, bu cəmiyyətin ədalətsiz idarə etmə sistemi bu hərəkatı yaradıb. Qaçaq hərəkatı həm də xarici işğalçılara qarşı, müstəmləkəçiliyinə qarşı idi. Doğurdan da “tarixdə qaçaq hərəkatı azadlıq uğrunda mübarizənin tərkib hissəsini təşkil edib. “Qaçaqçılıq hərəkatı mərkəzi hakimiyyətin zəiflədiyi və qanunların işləmədiyi yerlərdə insanların haqq-ədalət axtarışından yaranan hərəkatdır”. (5) Kökləri daha qədimə bağlanan “nəcib quldur” və ya “xalq intiqamçıları” nın, dünyaca məşhur “Robin Hud”ların qaçaqlarla ümumi cəhətləri çoxdur. Məsələn, qədim folklorda, istər yazılı, istərsə də şifahi ədəbiyyat nümunələrində dörd obraz tipinə rast gəlinir. 1. Hakim təbəqə (həmin dövrün vəzifə sahibi) 2. Xalqın nümayəndəsi (xalq qəhrəmanı və onun dostları) 3. Düşmən ünsürlər (həmin dövrün hakim təbəqəsinə xidmət edənlər) 4. Onlara qarşı dayanan xalq kütləsi. Bu obraz tipləri Tiamida, Karl Moor, Robin Hud, Dubrovski, Qara Məlik, Koroğlu kimi qəhrəmanları tərənnüm edən folklor və yazılı ədəbiyyat nümunələrindən başlamış qaçaq dastanlarına qədər xalq tərəfindən yaşadılmışdır. Kökləri qədimə bağlanan “nəcib quldur” obrazları ilə qaçaqların fəaliyyət xətti də bənzərdir. Onlar folklor nümunələrində:

1. **Kasıbları müdafiə edərək onlara dayaq dururlar.**

Həmin bu xüsusiyyəti Azərbaycanın qaçaq dastanlarının hər birində asanlıqla tapa bilərik. Çünki qaçaqlar kasıbları müdafiə edən zaman qaçaq düşmüş, sadə kəndliləri qoruduğu üçün ömrünün sonuna kimi təqiblərə uğramışdır. “Qaçaq Nəbi” dastanında bir nüçə epizoda nəzər yetirək. *Nəbi vergiyığanı öz yanında əyləşdirdi. Kəndlilərə gələn qızıl pulunu varlılardan alıb ona verdi, qəbz alıb кəndlilərə payladı. (1,359)*

“Qaçaq Kərəm” dastanında isə Kərəm ilə İsrafil ağa arasında Kərəmin kəndlini döyən bəyi vurması hadisəsindən sonra soyuqluq yaranır. İsrafil ağa Kərəm bəyi yenidən vurmağa qoymur və geri çəkir. *“- Sən neyləyirsən, bu, bəydir!*

-Bəy olanda nə olar? Bir qoyun üstündə adamı belə döyərlərmi? İnsafsız!” (16, 6)

Deməli, “yerli yönətici tərəfindən cinayətkar, qanun dışı adam elan edilən qaçaq kəndlilər tərəfindən haqqı bərpa edən, zalımdan məzlumun haqqını alan, azadlıq mücahidi, qəhrəman kimi qəbul edilir” (4,*13).*

2. **Qaçaq həyatı yaşamağının səbəbləri asan gəlir əldə etmək deyil, cəmiyyətdə baş verən haqsızlıqdır.**

Bu xarakter də qədim köklərə bağlanır. Molla Nur, Dəli Alı, Qaçaq Kərəm, Qaçaq Nəbini, Qaçaq Gülsümü, Qaçaq Tanrıverdi, Qandal Nağı və.s qəhrəmanların apardığı mübarizənin başlanğıcında haqsızlıq durur. Cəmiyyətdəki haqsızlıq üzündən qaçaq düşən qəhrəmanın təsviri ən orijinal şəkildə “Qaçaq Gülsüm” dastanda təsvir edilib. O, qadın olmasına baxmayaraq özündə cəsarət taparaq atasının kürəyinə yanan samovarı bağlayan Çar məmurunu layiqincə cəzalandırır. Qaçaq Nəbi atasını döyən çar məmuruna qarşı çıxmışdır. Qara Yusif kimi tanınan

qaçaq kəndin bəyinin bacısına qarşı etdiyi təhqir onu bəydən intiqam alaraq qaçaq düşməyə məcbur edir. Qaçaq Molla Nurun qaçaq düşməsinin səbəbi isə tamamilə fərqli məsələdir. Bir çox mənbələrdə onun əmisinin itini təsadüfən öldürməsindən sonra qaçaq düşməsi yazılır. Həmin dövrün yazılmamış qanununa görə iti öldürülən şəxs təhqir olunmuş hesab edilirdi və o, itin intiqamını Molla Nuru öldürməklə almaq istəyir **(8)** Bütün səbəblərin mahiyyətində ictimai quruluşun apardığı uğursuz siyasət, mülkədar özbaşınalığı dayanırdı.

3. Qanuni əməlləri ilə belə düşmənlər mənən onlardan aşağıdırlar.

"Xalq intiqamçısı" və ya "nəcib quldur" obrazını təmsil edənlər adam öldürür, qarət edir, lakin həmin əməllər xalq tərəfindən qəbul edilir. Çünki onlar bu əməlləri xalq tərəfindən sevilməyənlərə qarşı törədirlər. İstər Robin Hud, istərsə də Qaçaq Nəbinin hərəkətlərində kifayət qədər bu motiv özünü büruzə verir.

Nəbi görür ki, dostu Tunc Vəli tacirlərin qatırını dayandırıb. Nəbi onlara yaxınlaşdı. Çərçiləri tacırlərdən ayıran Nəbi onları buraxdı, xocaları saxladı. Tunc Vəli soruşdu:

– Bunlar кimdi?

Nəbi cavab verdi:

– Bəylər, varlılar.

Tacirbaşı yalvarıb dedi:

– Ay Nəbi bəy, heç olmasa, atlarımızı, qatırlarımızı ver, minib gedəк.

Nəbinin acığı tutdu:

– Bəy babandı. Mən it olaram, bəy olmaram! Sizi кi, öldürməyib salamat buraxıram, sevinin! Tez buradan uzaqlaşın. (1,144) Nəbi xocaların parçasını, atını, qatırını əllərindən aldı. Tacirlik etmək qanunsuz əməl deyil, əksinə Nəbinin onları talaması əməli qanunsuzdur. Dastanda bu epizodu oxuyarkən Nəbinin hərəkəti xalq tərəfindən müsbət qarşılanır. Çünki soyğunculuq əməli xeyirxah əməl təəssüratı yaradır. Belə ki, Nəbi əldə etdiyi hər bir şeyi yaxınlıqda yerləşən kəndin sakinlərinə paylayır.

4. Yalnız məcburiyyət qarşısında qaçaq düşür və ya adam öldürürlər.

Azərbaycan qaçaq dastanlarına nəzər yetirsək onların hər birində qəhrəmanın qaçaq düşmə səbəblərinin yalnız məcburiyyətdən baş verdiyini görərik. Hər bir qaçaq xalqı təmsil edən kəndliyə hökumət adamları tərəfindən törədilən haqsızlığa qarşı çıxaraq qaçaq düşməsi dastanın aparıcı xəttini təşkil edir. "*Bəylərin fürsət axtardıqlarını Nəbi də hiss edir, bir müddət onlardan uzaq gəzir, konfliktə girmək istəmir. Lakin atası Alı kişini xəstə yatdığı yerdə döyən Mahmud bəyin ədalətsizliyinə Nəbi göz yuma bilmir, onları şil-küt edib əzişdirir*." (19, 63)

"Xalq intiqamçısı" düşmənlə qarşılaşanda ilk öncə özünün insanlığını, ləyaqətini göstərir. Düşmən həddini aşanda ona ləyaqətlə layiq olduğu cavabı verir.

Belə ki, bəylər tərəfindən öyrədilən Vasili adlı birisi Nəbini öldürməyi onlara söz verir. O, Nəbini Çiçəklidə tapır.

"Vasilinin gəldiyini Nəbi eşitdi, bir yüкsəк yerə çıxdı:

– Ay Vasili, – dedi, – igid adamsan, özünü ölümə vermə, qayıt, get evinə. Mənim sənnən işim yoxdu. Yəqin səni öyrədiblər.

Vasili Nəbiyə dalbadal üç güllə atdı. Az qala güllələr Nəbinin ortasından кeçmişdi. Nəbi yenə ona dəlil-dəlalət elədi, bu yoldan çəкindirməк istədi. Vasili onun sözünə qulaq asmadı. Ona güllə ilə cavab verdi. Nəbi üçüncü dəfə dedi:

– Mən üç dəfədi səni düz yola çağırıram. Genə də deyirəm, səni aldadıblar. Özünü ölümə vemə, qayıt get." (8, 99) Nəbinin sözünü dinləməyən Vasili onu söyməyə başlayır. Nəbi məcbur olub ona atəş açır və öldürür. Nəbi onun ölmündən çox heyfslənir. "*Nəbi onun meyidinin yanında xeyli dayandı. Üzünü qibləyə çevirib onunla vidalaşdı.*" (1, 99)

Bir çox dastanlarda qəhrəmanın ona hücum edən qoşunun adamlarına atəş açmaq istəməməsi epizodlarına rast gəlirik.

"Qaçaq Kərəm" dastanından:

"- *Ədə, özünüzü öldürüb, bağrınızı yarmayın! Onsuz da sizə güllə atan deyiləm. Yazıq adamlarsınız, gedin başınızı saxlayın! Bir də bəyin, xanın fitnəsinə aldanıb canınızı güdaza verməyin!"* (16, 34) Qaçaq Kərəmin dilindən deyilən məşhur "incitmə məni Zalı xan" misrası da buna nümunədir. Düşməni ilə nəzakətli davransa da, Zalı xan asıb-kəsməkdən əl çəkmir. Sanki, Kərəmi onu öldürməyə sövq edir. Kərəmin Zalı xanı öldürmək fikri olmayıb. Zalı xan Kərəmi buna vadar edib. Təbrizə getmək istəyən Qaçaq Kərəmi yolda bir nəfər görüb tanıyır. Zalı xana onun yerini nişan verir. Zalı xan onu çayxanada yaxalayır.

Zalı xan məni görəndə salam verdi. ... Dedi:- pasportun var? Dedim: -bəli. Dedi: vəliəhdin, rus konsulunun yanına getməliyik ki, sənin pasportunu görsünlər. .... İltimas elədim ki, məni vəliəhdin yanına aparma, mənə pislik etmə, mənim ziyarətimə mane olma. Bir daha ona and verdim. Dedi: yox, olmaz. Ona min manatdan üç min manatadək pul verdim, almadı. Dedi: getməliyik. Ölüb-öldürməkdən başqa çarəm yox idi." (11,248-249) Ona bir neçə nəfər tərəfindən hücum olunduğunu görən Qaçaq Kərəm Zalı xanı öldürür.

5. Qadınlara qarşı zorakılığı özünə yaraşdırmır, əksinə alicənab hərəkətləri ilə digərlərinə nümunə olurlar.

Həcəri axtaran Nəbi xəbər tutur ki, bəylər Pəhim bəyin evində qonaqdırlar. Pəhim bəyin evinə gedən Nəbi bəyləri öldürmək istəyir.

"Pəhim bəyin arvadı Natəvan xanım yaylığını onun ayaqlarının altına atdı, gözlərinin yaşını töküb dedi:

– Ay Nəbi qağa, əgər səndə igidlik qanı varsa, mənim ləçəyimi qana bulama! Bu üzüqaraları bu dəfə mənə bağışla!

Nəbinin qolları boşaldı, közün üstünə su səpən kimi, acığı yatdı. Natəvan xanımın yaylığını yerdən götürüb özünə verdi:

– Bağışla, bacı, səni incitdim. Bunların nə qədər günahları olsa da, sənə bağışlayıram…" (1,144)

Qadına qarşı alicənab olan ən məşhur qaçaqlar arasında Qaçaq Kərəm, Qaçaq Nəbi, Molla Nur, Qaçaq Dəli Alının adını çəkmək olar.

Qaçaq Kərəmin qadınlara ola hörməti hamıya məlum olduğundan Gəncə əhalisi yaylağa köçən zaman Kərəm onların yolunu kəsirdi. Kişilər qiymətli əşyalarını qadınların çadraları altında gözlədirdi. Kərəm isə bunu görsə belə öz dəstəsinə tapşırırdı: *"...nəbadə qadınlara toxunasınız. Çünki onlar bizim namusumuzdur. Biz onların namusunu hər cür hücumlardan muhafizə etməliyik*." (11, 220)

6. Bu obrazı təmsil edənlər yalnız "varlılardan alıb kasıblara paylamaq" prinsipi ilə oğurluq edirlər.

Bu prinsip qaçaq dastanlarında qorunub. Məsələn, "Qaçaq Kərəm" dastanında kiçik bir epizoddan Qaçaq Kərəmlə Sədr Əzəm-Əli Sultanın dialoqundan onun mübarizəsinin məqsədi aydın sezilir. Belə ki, Nəsrəddin şahın xəzinəsi sarayın nüfuzlu şəxsləri tərəfindən oğurlanaraq bu iş Qaçaq Kərəmin üstünə atılır. Kərəm oğurlanan bütün xəzinəni dövlətə qaytarır. Sultan Qaçaq Kərəmlə görüşür və ondan soruşur.

-Kərəm, sən ki gözü-könlü tox adamsan, dövlətin xəzinəsini bütövlükdə özünə qaytardın. Bəs yüz mindən artıq qoyun-quzunu, otuz mindən artıq mal qaranı nəyə görə talamısan?

-Sədr əzəm Əl Sultan sağ olsun. Sizin o siyahıdakı rəqəmlər mənim etdiklərimdən qat-qat azdır. Ancaq nəzərinizə çatdırıram ki, mən o qədər haqq-hesabdan bir quzu da kəsib yeməmişəm. Nə də o sürülər bu dövlətin ərazisindən kənara çıxmayıb. Sadəcə olaraq sahiblərini dəyişib. Əgər mən 5000 qoyundan min qoyun almışamsa, o bir agadan ötrü heç nədi. Əvəzində isə bu dövlətə nifrət bəsləyib, qarğış tökən kasıbların, acından ölən körpələrin

sayı azalıb. Əkin yerində taxılı da, pambığı da eləcə ədalətnən böldürmüşəm. Mənim üsyanım dövlətə qarşı yox, xalqa qənim çıxan harınlaşmış adamlara qarşı olub. (13,132)

7. Onlar talançı, quldur-oğrularla şəxsən mübarizə aparırlar.

Əvvəldə göstərdiyimiz nümunədə qədim povest qəhrəmanı Tiamida, Robin Hud, Dubrovski, Karl Mur öz dəstələrində oğrulara qarşı mübarizə apararaq onları qovmuşlar. Dastanlarda qaçaqlarların oğru-quldurlarla mübarizə aparması bir çox epizodlarda özünə yer alıb. Dastanda yer alan epizodlara arxiv materiallarında rast gəlirik. Deməli, bəzi tarixi faktlar rəngarəng boyalarla təsvir edilərək dastanlaşıb. Məsələn, "Qaçaq Nəbi" dastanında iki Nəbi obrazı qarşılaşdırılır. Qaçaq Nəbi quldurluq və soyğunçuluğa qarşı çıxan, onu-bunu talayaraq varlanan quldurlara qarşı mübarizə aparan obrazdır. Qara Nəbi isə quldur və soyğunçudur. Hətta Maksim Qorki də ona mənfi münasibət bildirərək demişdir: "O, Zaqafqaziyada 1887-ci ildə peyda olmuşdur və demək olar ki, düz on il bütün camaata hədə-qorxu gəlmiş, onları amansızcasına soymuş və əzab-əziyyət vermişdir. Onu Zaqafqaziyada tayfaların hamısı tanıyır və ona lənət yağdırırdı." (15,57) "Qaçaq Nəbi" dastanını toplayan folklorşünaslardan biri Ə.Tahirov yazır ki, "Bir çox burjua ədəbiyyatşünasları, eləcə də xalqın qəddar düşmənləri, xalq arasında böyük nüfuza malik olan Nəbini quldur, bandit adlandırıb onun əsl tarixi-ictimai simasını gizlətməyə çalışmışlar." (17, 3) Qaçaq Nəbini Qara Nəbi ilə eyniləşdirməyə çalışmışlar. Əvvəllər həmin quldurun milliyəti açıqlanmasa da sonradan professor A.Nəbiyev yazırdı "Tarixi faktlar göstərir ki, XIX əsrin ikinci yarısında gəlmə ermənilər arasında "yol kəsib, quldurluq eləyənlər" vardı. Onlar içərisində Qara Nəbi kimi özünü qələmə verən Aşot Qriqoryan və Kərəm adı altında yaşayan Maştop Sarkisyan ermənilərin qanını içən, kəndlərini yandıran, qız gəlinini özü ilə dağlara götürüb gedən quldurlar idi." (12,588). Bu tarixi faktlar yaddaşlarda yaşayaraq dastanlara daşınmışdır.Dastanda əvvəllər Qaçaq Nəbi ilə həbsxanada yatan oğru və yolkəsən quldur kimi təsvir edilən Qara Nəbi elə Qaçaq Nəbinin özü tərəfindən öldürülür. Qara Nəbi öz çirkin əməllərini bəzən Qaçaq Nəbinin adı ilə həyata keçirirdi. "Qaçaq Nəbi" dastanından:*Bəs Qara Nəbi кim idi? Qara Nəbi Arazın hər iкi tərəfində soyğunçuluq edən bir quldur idi. O, çox zaman özünü Qaçaq Nəbi adlandırıb hər yerə gedirdi. ...Özünün də yaranallarla, naçalniкlərlə, pristavlarla əlaqəsi var idi. Həm də onların casusu idi.*(1,108) Qaçaq Nəbi öyrənəndə ki, Qara Nəbi Hilal bəy ilə onun adından kəndliləri talayıb çox əsəbləşir və hər ikisindən bu özbaşınalığın hesabını sorur.

Qaçaq Süleyman da oğru xislətli Şirxanın kəndi talan etməsini eşidəndə Kərbəlayi Behbuda bu kəlmələri söyləyir:

- Bir-birimizin harayına gəlməsək, meydanda tək qalarıq. İmkan vermək lazım deyil Nerses, Yapon, Şirxan kimi nadürüstlər bu torpaqda at oynatsınlar! Bilirsiniz, onların xisləti oğurluqla, qəddarlıqla yoğrulub. Ya camaatın mal-qarasını yağmalayıb aparacaq, ya da örüşə buraxılmış atları qaçırdacaq, ya da ki, çalışacaqlar kasıb-kusubun mal-mülkünü əllərindən alsınlar... (14,75)İndidə Qaçaq Gülsümdən bəhs edən "Qaçaq Süleyman" dastanından bir epizoda nəzər yetirək. Gülsüm Şəmkir ərazisində başçısı Çaqqal Səlim olan dəstəyə qoşulur. Lakin, Səlimin fikri çoxlu var-dövlət toplayıb İrana qaçmaq idi. Buna görə kasıbların da qarşısını kəsir, əllərində olan-qalanı alırdı. Bu isə Gülsümün xoşuna gəlmirdi. Çaqqal Səlimin öz dostunu öldürüb qızıl-gümüşünü ələ keçirməsi və bir çobanın sürüsünü aparıb Göyçədə satmasını görən Gülsüm daha buna dözmür, Çaqqal Səlimin yeməyinə bihuşdarı qatır və sonra da başını kəsir. (7)Kiçicik epizodlarda qəhrəmanların oğrularla amansızcasına mübarizəsi bədii boyalarla təsvir edilir. Yuxarıda sadalanan yeddi xüsusiyyət qaçaq qəhrəmanları kökləri daha qədimə söykənən dünyanın bir çox ölkələrinin "nəcib quldur", "xalq intiqamçısı" obrazları lə ümumi cəhətidir. İnsanlar "nəcib quldur", "xalq intiqamçısı" obrazını müasir dövrdə hətta kinofilmlərə, çizgifilmlərinə də daşımışdır. Məsələn, Jonston Makallinin "Kapistranonun lənəti" povestində **"Zorro"** adlı İspan xalqının əfsanəvi qəhrəmanından bəhz edilir. Bu qəhrəmanın

Meksikanın əfsanəvi Robin Hudu Xoakin Muretanın prototipi olduğu söylənilir. (20) Xoakin isə qrinqoların (ingilis dilli, ağ dərili gəlmələr) onun ailəsinə qarşı törətdiyi zorakılıqdan sonra ətrafına qohumlarını toplayaraq dağlıq ərazilərdə qaçaq həyatı yaşayır. Tezliklə, o, çililərin və meksikalıların patriot qəhrəmanına çevrilir. Onun filmdəki obrazı olan "Zorro" qara maska altında gizlənərək sadə insanları hakimiyyətdə baş verən bəzi ədalətsizliklərdən qoruyaraq xalqın sevimli qəhrəmanına çevrilir. Yaxud da, "Avtomobildən qorun" filmini nümunə çəkə bilərik. Sovetlər dönəmində çəkilmiş filmin qəhrəmanı **Yuriy Detoçkin** təmiz qəlbli bir insandır. O, haram yollarla gəlir əldə edib avtomobil sahibi olan varlıların avtomobillərini oğurlayıb satır. Əldə etdiyi gəliri isə uşaq evlərinə təhvil verərək bir tərəfdən oğurluq etsə də, digər tərəfdən xeyirxah iş görür. Onun xeyirxah əməli tamaşaçıda qəhrəmana qarşı böyük sevgi doğurduğu üçün oğurluq etməsi arxa planda qalır. Filmin ssenarisi Sovet dövründə xalq arasında gəzən söz-söhbətlərə əsasən yazılsa da, bu söhbətlərin əsassız olduğu ortaya çıxıb. Aydın olub ki, xalq arasında yayılan "xeyirxah avtomobil oğrusu" həqiqətdə yoxdur, bu yalnız uydurulmuş qəhrəmandır. (20) Bu film Sovet ideologiyasına uyğun olmasa da, xalq tərəfindən böyük məhəbbətlə qarşılanmışdır. Rafael Sabatinin "Kapitan Bladın uğuru" adlı romanı əsasında çəkilən "Kapitan Bladın Odisseyası" fiminin qəhrəmanı isə pirat Piter Bladdır. O, klassik el qəhrəmanı obrazındadır. Kapitan Blad piratlara zorakılığı, oğurluğu qadağan edərək onları ləyaqətli olmağa məcbur edir. Piter Blad yoldaşları arasında öz zəhmi və ağlı ilə seçilir. (21) Tarixin bütün dövrlərində kasıbları təmsil edənlər ədalətli hökmdar arzusunda olmuş, xəyallarında varlılardan mal-mülkü alıb kasıblara paylayan cəsur qəhrəman obrazı yaratmışdır. Qaçaqların qəhrəmanlıqları folklorda daha çox şişirdilir. Bu isə onu göstərir ki, xalq öz arzularını həmin qəhrəmanların simasında həyata keçirmək istəmişdir. Bütün bunlar qaçaq dastanlarında bir bütöv olaraq öz ifadəsini tapır.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Axundov Ə. "Qaçaq Nəbi". Bakı 2008, 432 s
2. Aristotel. Poetika. Bakı "Qərb-Şərq", 2006, 120 səh.
3. Bayat F. Folklor dərsləri. Bakı, "Elm və təhsil", 2012, 424 səh. Səh 258,
4. Bayat F. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Bakı, "Nurlan" 2011, 160 səh.
5. Cahitakın. Əşkiya və İnce Memed. 1 Ocak 2007
6. Dastançı Ə.Q. Dəli Alı. Bakı, 2003, 261 s.
7. Əliyev Z. Stalinin xilaskarı, ermənilərin kabusu: kişi paltarlı qaçaq Gülsüm. Publika.az
8. Qaflanoğlu Ə. Qaçaq Molla Nur." Kulis.lent.az www/kulis.az
9. Qarabağ: folklor da bir tarixdir, VI kitab Bakı, "Zərdabi LTD" MMC, 2013.
10. Moran Berna. Türk romanına eleştirel bir bakış. 2 cild.
11. Namazov Q. Xalq qəhrəmanının şöhrəti. Bakı."Orxan" 2005. 298 səh.
12. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II hissə, Bakı, "Elm"-2006, 685 səh
13. Pirsultanlı Sədnik Paşa. "Qaçaq Gülsüm". "Ünsiyyət" Bakı 2012. 273 səh.
14. Rüstəmov V. Qaçaq Süleyman. Bütöv Azərbaycan qəzeti. 14 aprel. 2014
15. Rüstəmzadə R. El qəhrəmanları xalq ədəbiyyatında. Bakı, "Gənclik" 1984.
16. Rüstəmzadə R. Yeddi dastan. Bakı, Azərnəşr, 1989, 168 s.
17. Tahirov Ə. Qaçax Nəbi. Bakı, Sovet Yazıçılar İttifaqı, 1938. 49 səh
18. Tarih ve medeniyet. Töreleri ve Tarihleri ile Eşkiyalar. 23 kasım.
19. Vəliyev V. Azərbaycan folkloru. Bakı, Maarif, 1985, 414 s.
20. Архетип благородного разбойника: от Тиамида до Леона, Благородный_разбойник
21. Гелиодор. Эфиопика. В 2 томах, Том 1, Книга 1, М., «Просвещение», 1965,
22. Шиллер Ф. Драмы и стихотворения. Художественная литература. 278 ст. с 31-32.

А.Гасимова

Древние исторические корни образа Качакского героя

Резюме

В статье анализируются качагские герои с их древними корнями как «благородный разбойник» и «народный мститель». А так же раскрывается семь качеств легендарных «благородных разбойников» и настоящих беглецов. Ясно, что действия, которые мы называем Качаскими движениями, были во многих странах мира на всех этапах истории. Некоторые из них были популярны только в своей стране и назывались по-разному в их странах. Например, вождение на Балканах, дакойт в Индии, конга в Бразилии, опришки в Украине, бетар в Венгрии, клефт в Греции и на Кипре. называется национальными именами.В ходе анализа приводятся эпизоды из Качагских дастанов. Исследование показывает, что такие герои, как «благородный разбойник», «мстители народа», « востонавители справедливости» и т. д. были востребованы на протяжении всей истории. Люди, столкнувшиеся с несправедливостью, жили своими мечтами и и оживляя своих герое в фольклоре. Качаги безупречно проиллюстрированы недостатками в фольклоре. Это естественно. Потому, эти герои имеют характерные черты эпических героев, таких как «благородный разбойник» или «мститель народа». Будь то Качакские дастаны, древний эпос или письменная литература, мы встречаемся с четырьмя типами образа, которые описаны в статье.Делается вывод, что даже в наше время у людей сформировался образ «народной мститель», «благородный разбойник».

Ключевые слова: беглый образ, «благородный раб», «народная месть», образ Тиамиды, беглый пророк, Робин Гуд

A.Gasimova

The ancient historical roots of the image of a fugitive hero.

Summare

The article compares the heroic characters of the noble slave with the ancient roots. Seven identical features of the legendary noble bandits are analyzed by the historical fugitive heros.During the analysis the study shows that in all periods of history there was a need for heroes. It is clear that the actions that we call Kachak movements were in many countries of the world at all stages of history.

Some of them were popular only in their own country and were called differently in their countries. For example, driving in the Balkans, Dacoit in India, Conga in Brazil, oprichki in Ukraine, Betar in Hungary, Kleft in Greece and Cyprus. called national names. Fugitive heroes are flawlessly illustrated in folklore. This is natural

Whether in the runaway epics or in the ancient epic or written literature we come across four types of images which are described in the article. It is concluded that even in modern times the people have formed the image of people's revenge, noble bandits. Referring to these images they were animated in films and cartoons.

Keywords: fugitive image, noble slave, people's revange, Robbin Hood

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 04.08.2019
Filologiya elmləri doktoru, professor Mahmud Allahmanlı tərəfindən çapa tövsiyə olunmuşdur.

MƏTANƏT İSGƏNDƏROVA
Azərbaycan Dillər Universiteti
Təbriz küç 81 Nerimanov rayon
matanat-88@mail.ru

VOLFQANQ BORXERTIN YARADICILIĞINDA MÜHARIBƏ MÖVZUSU

Xülssə

Müharibə və sülh problemi bəşəriyyəti daim düşündürən məsələlər olmuşdur. Müharibələr həmişə xalqların həyatında dərin izlər buraxan, cəmiyyətin inkişafına güclü təkan verən amil olmuşdur. İkinci dünya müharibəsi Almaniya kimi güclü və qüdrətli bir dövləti həm maddi, həm də mənəvi cəhətdən darmadağın etsə də, yazarlar və ədəbiyyat üçün yeni mövzular gətirdi. Alman ədəbiyyatının ən parlaq səhifələrindən biri ikinci dünya müharibəsindən sonrakı dövrdür. Bu dövr alman ədəbiyyatında "Xarabalıq ədəbiyyatı" adlanır. İkinci dünya müharibəsinin Almaniyaya gətirdiyi bəlaları, ağır fəsadları, əhalinin keçirdiyi yoxsul həyat tərzini müharibədən sonra yaranmış bu ədəbiyyat özündə daha aydın şəkildə göstərirdi. İkinci dünya müharibəsindən sonra Almaniya ədəbiyyatı haqqında danışarkən biz burada "47-lər qrupu"-nun (die Gruppe-47) da adını qeyd etməliyik. Müharibənin ağrı acısını dadmış bu gənc yazarlar yaşlı nəsildən bəhrələnərək, ədəbiyyatda özlərinə məxsus bir istiqaməti yaratmışlar. V.Borxert Almaniya ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri kimi öz şeirləri, nəsr əsərləri və teatr parçaları ilə çox böyük şöhrət qazanmış və müharibədən sonrakı ədəbiyyatın ən məşhur simalarından biri olmuşdur. "Xarabalıq ədəbiyyatı "nı V.Borxert yaradıcılığı olmadan təsəvvür etmək olmaz. O, əsərlərində real sujetləri, real situasiyaları , real detalları əks etdirir və abstrakt səhnələri konkret, konkret olanları isə abstrakt şəkildə verirdi. Müharibədən sonrakı ədəbiyyatda onun adı ilə alman ədəbiyyatı tarixindən silinməyəcək yeni bir səhifə açıldı.

Açar sözlər: Müharibə, problem, ədəbiyyat, faciə, insan, psixologiya

Müharibə və sülh problemi bəşəriyyəti daim düşündürən məsələlər olmuşdur. İnsanlar sülhü həmişə ən böyük nemət və sərvət kimi qiymətləndirsələr də, uzun müddət müharibədən tarixi inkişafa güclü təkan verən, zənginliyə və hakimiyyətə aparan mühüm vasitə kimi istifadə etmişlər. Müharibələr həmişə xalqların həyatında dərin izlər buraxan, cəmiyyətin inkişafına güclü təkan verən amil olmuşdur. Bununla yanaşı bütün dövrlərdə, xüsusilə də xalqlar arasında münasibətlər siyasi xarakter kəsb etdikdən sonra insanların təsəvvürlərində sülh anlayışı da yüksək qiymətləndirilmiş, o, müstəqillik, suverenlik, təhlükəsizlik anlayışları ilə eyniləşdirilmişdir. XX əsrin 30-cu illərinin sonu üçün dünyada beynəlxalq vəziyyət yenidən olmazın dərəcəsində gərginləşmişdi. Yer kürəsində iki dünya müharibəsi baş vermişdir. Müharibələr bütün planeti əhatə etməsə də, dünaynın aparıcı ölkələrinin hamısı həmin müharibəyə qatılmışdır.Almaniya ikinci Dünya müharibəsinə kifayət qədər güclü bir dövlət kimi qatılmasına baxmayaraq bu müharibəni məğlub bir dövlət kimi tərk etdi *(398;2)* .

İkinci dünya müharibəsinin Almaniyaya gətirdiyi bəlaları, ağır fəsadları, əhalinin keçirdiyi yoxsul həyat tərzini müharibədən sonra yaranmış "Xarabalıq ədəbiyyatı" (Trümmerliteratur) özündə daha aydın şəkildə göstərirdi. Bu ədəbiyyat eyni zamanda "Müharibə ədəbiyyati", "Vətənə qayıdış ədəbiyyatı" kimi adlarla tanınırdı. Bu ədəbi cərəyanın nümayəndəsi olan yazıçı və şairlər öz əsərlərində ikinci dünya müharibəsi, bu müharibənin yaratdığı problemləri və sonrakı dövrdə əhalinin qarşılaşdığı çətinlikləri qələmə almışdılar. İkinci dünya müharibəsindən sonra Almaniya ədəbiyyatı haqqında danışarkən biz burada "47-

lər qrupu”-nun (die Gruppe-47) də adını qeyd etməliyik. 1947-ci ildə bir qrup yazıçı öz əsərlərini oxumaq məqsədi ilə bir yerə yığışdıqdan sonra yarandı və yazıçılar yaranan bu qrupu “47-lər qrupu” adlandırdılar. Bu dövrün yaşlı nümayəndələri gənc yazarlara örnək olurdular, gənc nəsil də onların irsinə hörmətlə yanaşırdılar *(8;29)*. Yaşlı nəsildən bəhrələnən bu gənc yazarlar sonradan özlərinə məxsus bir üslubda fəaliyyət göstərməyə başladılar. Biz bu yazıçılar sırasında Qünter Qrass, Haynrix Böll, Arno Şmidt, Peter Rühmkorf və Volfqanq Borxertin adını qeyd edə bilərik. Onlar öz əsərlərində sabaha ümidliklə yanaşan, müharibədən sonrakı həyatda çətinliklərlə üzbəüz qalan əhalinin çətinliklərini, müharibənin ağrı-acılarını bütün dəhşəti ilə öz əsərlərində qeyd etmişdir.Bu yazarlar sırasında XX əsr alman ədəbiyyatının ən görkəmli nümayəndəsi Volfqanq Bolxertin xüsusi yeri vardır. V.Borxert Almaniya ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri kimi öz şeirləri, nəsr əsərləri və teatr parçaları ilə çox böyük şöhrət qazanmış və müharibədən sonrakı ədəbiyyatın ən məşhur simalarından biri olmuşdur. O, müharibədən sonra yaranmış “Xarabalıq ədəbiyyatı” (Trümmerliteratur) adlı cərəyanın ən görkəmli nümayəndələrindən biridir. Bu cərəyanın bir nümayəndəsi kimi V.Borxert də öz əsərlərində müharibədən sonrakı dövrün ictimai-siyasi və sosial vəziyyəti, eləcədə müharibə dövründə insanların çəkdiyi çətinlikləri qələmə almışdır.

“Xarabalıq ədəbiyyatı”nı V.Borxert yaradıcılığı olmadan təsəvvür etmək olmaz çünki, onun yaradıcılığı həmin dövrün mənzərəsini özündə geniş şəkildə əks etdirir. V.Borxert bu ədəbiyyatın görkəmli nümayəndələrindən biri olmuş və əsasən kiçik nəsr əsərlərinin, yəni hekayələrin müəllifi kimi tanınmışdır. V.Borxert bir çox qadağalara baxmayaraq öz yaradıcılığı ilə ədəbiyyat aləmində birinci olmağı bacardı. Heç kimin qələmə almadığı mövzulara müraciət edən yazıçının təsvir etdiyi səhnələr onun öz gözləri ilə gördüyü real təsvirlər idi.V.Borxert öz yaradıcılığı boyu həmişə öz əsərlərində real hadisələrin təsvirini vermişdir. O, öz yaradıcılığı ilə bəşər cəmiyyətinin məhvinə gətirib çıxaran müharibələrdən söz açırdı. V.Borxert çox gözəl başa düşürdü ki, bu müharibəni unutmaq və ya insanların yaddaşından silmək qeyri - mümkündür. Müharibə bütün dəhşəti ilə insanların yaddaşına, hafizəsinə, daxili aləminə təsir göstərmişdir.V.Borxertin həyatda qazandığı təcrübələr onu böyük yazar kimi yetişdirmişdir. Onun əsərlərində olan səslər, rənglər müəyyən bir fikrin simvoludur. Bir rəssam kimi o, əsərlərində real sujetləri, real situasiyaları , real detalları əks etdirir və abstrakt səhnələri konkret, konkret olanları isə abstrakt şəkildə verirdi.

V.Borxert 1947-ci ildə xəstə yatağında olarkən yazdığı “Qapının arxasında” (Draußen von der Tür) dramı ilə alman ictimaiyyətinə tanınmışdır.Onun əsərləri özündə müharibələrdə, həbsxanaların və xəstəxanaların dörd divarları arasında acı çəkən insanların taleyini əks etdirir. Bu əsərlər əsgərlərin və vətəndaşların müharibə dövründə ruhi vəziyyətindən xəbər verir. Bu əsərləri oxumaq çox çətindir, çünki , V.Borxert yazdığı əsərlərdə müharibənin təsir gücünü, dəhşətli anlarını göstərmək üçün natamam cümlə və fikirlərdən istifadə etmişdir. V.Borxert yaradıcılığının ən gözəl nümunələrindən sayılan bu əsər 1947-ci ilin 2 fevral tarixində bu əsər drammaturq Ernst Şnabel tərəfindən qısaldılmış bir formada radio dinləyicilərinə təqdim olunmuşdur *(7;91)*.

Müharibədən sonrakı ədəbiyyatda V.Borxertin adı ilə alman ədəbiyyatı tarixindən silinməyəcək yeni bir səhifə açıldı. Bu səhifədə V.Borxert amansız müharibənin yaratdığı bir şəraitdə həyat adlı yolda yürüyən insanların taleyini təsvir etmişdir.Bu müharibələr insanları həm mənəvi həm də fiziki cəhətdən məhvə aparırdı. Borxertin çox sayda hekayələri var ki, biz onları qəddar mövzulu hekayələr adlandıra bilərik çünki, bu əsərlərdə müharibədən sonrakı və əvvəlki həyatın qəddar həqiqətləri əks olunub. Lakin Borxert üçün son deyildir çünki, həyatda qəddarlıqla yanaşı mehribanlıq və səmimilik da vardır. O, bu kimi hisslərini özünün “Çörək”, “Üç qara kral” əsərlərində təsvirini vermişdir*(14)*.

Zəncirotu (Die Hundeblume) hekayəsi V.Borxertin 1946-cı il yanvarın 24-də qələmə

aldığı əsərdir. Bu əsər ilk dəfə 1946-cı ildə Hamburg Azad mətbuatında ictimaiyyətə təqdim olunmuşdur. Əsərdəki hadisələr bir həbsxanada cərəyan edir və əsas qəhrəmanı 22 yaşlı bir gəncdir. V.Borxert də məhz o yaş dönəmlərində həbsxana həyatı yaşamışdır. O, bu əsərdə öz həyatından milli–sosializm dövründə yaşadıqları avtobioqrafik xatirələri oxucularla paylaşmışdır. 22 yaşlı dustaq öz 432 nömrəli dustaq otağında xarici aləmdən özgələşmiş , yadlaşmış şəkildə günlərini keçirir. Bir dəfə həbsxanaya həyətinə gəzintiyə çıxarkən o, həyətdə otlar arasında bir zəncirotuna rast gəlir. Onu dərib su dolu bir qabda saxlayır. Bu güldən o, sanki, həyatın və təbiətin qoxusunu alır. Bu gül sevginin, dünyanın simvoludur. 1946 – cı ildə o, bir dostuna göndərdiyi məktubda yazır: "Əgər mən həbsxanaya düşməsəydim, "Zəncirotu" kimi bir hekayəni yazmayacaqdım*"(13;104*). Əsərdə V.Borxert müxtəlif üslub vasitələrdən istifadə etmişdir. Buraya metaforalar, metonimiyalar, təşbehlər daxildir. Bu vasitələr əsərin məzmunun oxucuya çatdırılmasında böyük rol oynayır. Rəng simvolikası da əsərə başqa bir rəng qatır. Sarı və boz rəng işıq, istinın simvolu kimi həbsxananın soyuğuna qarşı durur.

V. Borxertin digər ən məşhur hekayələrindən biri "Çörək" əsəridir. Əsər "Xarabalıq ədəbiyyatı "na çox gözəl bir nümunədir və özündə müharibə dövrünün əsas motivlərini əks etdirir.Əsərdə baş verən hadisələr bir gecədə ,bir ailə daxilində cərəyan edir.Əsərin əsas qəhrəmanları yaşlı bir qadın və onun həyat yoldaşıdır. Qadın gecə yarısı mətbəxdən gələn bir səsə oyanır və həyat yoldaşının yanında olmadığını görür. Mətbəxə gedərək orada işığı yandırır və mətbəx stolunda çörək qırıntılarını görür.Bu əsər bizə ikinci dünya müharibəsindən sonra bir ailənin gündəlik həyat tərzi xatırladır və əhalinin necə səfalət, aclıq içərisində yaşadığı göstərir. Bir parça çörəyə görə gecə yarısı ayağa qalxan ailə başçısı öz hərəkərlərini həyat yoldaşından gizlətməyə çalışır. Gələn səsin küləyə aid olduğunu bildirir. Guya əsən külək çardaqda bu səsi yaradır. Bu isə insanın aclıq hissi qarşısında necə aciz olduğunu göstərir.Bir parça çörəyin çətin tapıldığı bir zamanda ailə üzvlərinə düşən çörək payı 3 dilim olmalı idi. Səhəri gün qadın öz həyat yoldaşına 3 dilim əvəzinə öz payından olmaqla 4 dilim verir. Əslində qadının da güclü aclıq hissi olmasına baxmayaraq o, bunu yoldaşından gizlədir. Onun həyat yoldaşına olan sevgisi aclıq hissinə qalib gəlir.

V.Borxertin digər bir hekayəsinə nəzər salaq. Bu "Uzun, uzun yollar boyunca" (Die lange, lange Strasse lang) hekayəsidir. Bu hekayədə V.Borxertin ,eləcədə digər alman yazıçılarının əsərlərində olmayan məqamlar var. Əsər qəhrəmanın monoloqundan ibarətdir.Bu əsərdə o,müharibə vaxtı öz əzizlərini itirmiş rus qadınlarının , xüsusilə analarının kədərli taleyini təsvir etmişdir. Müharibə amansız bir vasitədir. Burada itirilmiş ən qiymətli varlıq isə insandır. Kimin qələbə çaldığından asılı olmayaraq heç bir tərəf bu itkidən yan qaça bilməz. Bu əsərin əsas qəhrəmanını da düşündürən müharibənin saysız - hesabsız qurbanlarıdır. Əsərdə oxucuya xüsusilə təsir edən məqamlar var. Bu məqamlarda insanın öz vicdanına uyğun hərəkət etməsi göstərilir. Məs: Əsərin bir hissəsində əsgərlə silahsız bir qocanın qarşılaşması çox təsiredicidir. Bir anlıq silahsız qocaya əl qaldırmağa qalxan əsgər bu hərəkətindən daşınır çünki, gözləri qarşısına atasının siması gəlir. Bu qoca onun atasının tam oxşarıdır. Əslində nə qədər düşmənə , faşist rejiminə nifrət bəslənilsə də ,sanki, bu nifrət hissi insanlığın olduğu yerə qədərdi. Əsil vətənpərvərlik, insanlıq millətindən, dinindən, dilindən aslı olmayaraq hər kəsi birləşdirən bir hissdir. Bu əsərdə insanları birləşdirən əsas hiss insanlıqdır. Əsərin digər bir maraqlı anı qoca birinin döyüşdə 86 rus əsgərinin necə öldürüldüyünü təsvir etməsidir. Bu anı sanki, qocanın dili vasitəsilə V.Borxert özü oxuculara danışır. Çox güman ki, bu onun əsgərlikdə qarışlaşdığı epizodlardan biri ilə bağlı idi. Müharibənin ən dəhşətli tərəflərindən biri insanların gözü qarşısında baş verməsidir. Artıq bu hal insanlarda cəmiyyətdən təcrid olunma hissi yaradır, onlara əzab verir. Bunların nəticəsində insanların öz bacarıqlarını və özlərini inkişaf etdirmək hissi yarıda qalır. Həyat zəncirləri müəyyən bir məqamda qırılır.Yeni bir həyata başlamaq, təcrid olunduqları cəmiyyətə uyğunlaşmaq çox çətin bir prosesdir. V.Borxert

bütün mətinləri simvollarla, xüsusilə də rəngli simvollarla, əks cümlələr və hisslərlə nəzərə çatdırılır, bu əsərlərdə olan hərəkətlər müəyyən mühitdə təkrar olunur və müəyyən hissələrlə əvəz olunur. V.Bolxert əsərlərində verilmiş rənglər müxtəlif həyatı anları özündə əks etdirir. Məsələn: Yaşıl rəng həyatı, yaşamaq həvəsini qırmızı rəng sevgini, eyni zamanda müharibəni, mavi rəng gecə və soyuğu, sarı rəng isə həyatda olan yaşam qaydalarını özündə əks etdirir. Al-əlvan olmayan rənglər isə özündə neqativ təsvirləri cəmləşdirir. Boz rəng pessimistliyə, ağ rəng xəstəliyə işarədir , qara rəng isə bəd əlamətı, qaranlığı əks etdirir.

V.Borxertin digər maraqlı hekayələrindən biri "Mariya, hər şeyi o etdi" (Maria alles, Maria) hekayəsidir. Əsərdə V.Borxert yenidən həbsxana həyatına müraciət etmişdir. "Zəncirotu" əsərindən fərqli olaraq o, bu əsərində bir polyak qadın dustağın həyatından danışmışdır.Təsadüf nəticəsində sağ qalan qadın bunu müqəddəs Mariya ilə əlaqələndirir. O, öz dininə, xristianlığa çox bağlı bir insandır. Hər an İlahə Mariyanın şəklini üzərində gəzdirir.

V.Borxert ölümünə bir neçə həftə qalmış "Yalnız biri var" (Dann gibt es nur eins) hekayəsini yazmışdır və bu əsər onun öldüyü gün radioda səslənmişdir. Müharibə mövzusunun aparici olduğu bu əsərin əsas şüarı " Yox de! " -dır. O, bu şüarla müharibəyə yox demək istəyirdi. Qeyd etmək lazımdır ki, V.Borxertə həsr olunan xatirə abidələrinin çoxunun üzərində məhz bu şüar yazılmışdır. Əsər bu sözlərlə başlayır:

"Sən. Bacarıqlı insan. Sabah onlar sənə əmr etsələr, nəyisə etməli olduğunu desələr, yalnız deyəcəyin bir şey var. Yox de!" (117:15)

Müharibənin dəhşətli anlarını göz qarşısında əks etdirən hekayələırdən biri "Mətbəx saatı " (Küchenuhr) hekayəsidir. Bu hekayədə mətbəx saatından heç vaxt ayrıla bilməyən və ikinci dünya müharibəsində bombardman zamanı ana–atasını , evini itirən bir gənc oğlandan bəhs edilir. Evləri bombalanan zaman onu 20 yaşı var idi, amma siması qoca yaşlı təsiri bağışlayırdı. Oğlan öz anasına həddindən artıq bağlı idi və əsərdə onun anası haqqında olan xatirələrindən söz açılır. Hər gecə evə gec gələn gənc oğlan valideyinlərini , xüsusilə anasını oyatmamaq üçün , çalışardı ki , yavaş hərəkət etsin. Amma oğlunu səbirsizliklə gözləyən ana oyanar və oğluna yemək hazırlayardı. Bu hadisə hər gün saat üçün yarısına təsdüf edirdi. Ana yenə həmişəki görünüşündə idi: əynində jaket, çiynində şal və ayaqları yalın . Yarımçıq yuxudan oyanan ana diqqətlə oğluna tamaşa edərdi. Yuxusu gəlsə də yatmazdı. Bir gün evə gələn oğlan tamam başqa mənzərə ilə üzləşir. Evləri bombalanmış və yerlə bir olmuşdur Bütün ev dağılmışdı, anası isə bombardman zamanı ölmüşdü.Ona xatirə qalan yeganə əşya , əqrəbləri üçün yarsını göstərən xarab mətbəx saatı idi.Bu mənzərə qarşısında o, yalnız susurdu. Əldə qalan mətbəx saatının vasitəsi ilə o ,anasını xatırlayır və itirilən ailə həyatının , keçmişinin bir cənnət olduğunu dərk edir və anasının ölüm xəbəri qarşısında yalnız susurdu. Qısa hekayənin mərkəzi şəkli mətbəx saatıdır. O, bir obraz kimi bir - birinə zidd olan saysız fikilərin mərkəzində dayanır. Xarab mətbəx saatının çox sayda adlanması və onun gənc insan üçün mənası müxtəlif situasiyalarda verilməsiylə ortaya çıxır. Saatın yararsızlığını göstərməklə burada bir fikir ifadə edilir ki, artıq o cəmiyyətin istifadəsi üçün lazım deyil, belə ki, keçmiş vaxtı geriyə qaytarmaq -mümkün olmayacaq. İkinci dünya müharibəsindən ən çox əziyyət çəkənlərin uşaqlar olduğunu nəzərə alsaq, o zaman V. Borxertin əsərlərinin daha çoxunun uşaqlarla bağlı olması, onların taleyindən bəhs etməsi normal bir fakt kimi qəbul edilməlidir. Bu hekayələrindən biri "Siçovullar ki, gecələr yatır" (Nachts schlafen die Ratten noch) hekayəsidir. 1947–ci ildə ortaya çıxan bu əsər, həmin ilin noyabrında V.Borxertin ikinci nəsr toplusu olan "Bu çərşənbə axşamında" dərc edilir.*(15)* Əsərin qəhrəmanı 9 yaşlı Yürqendir. İkinci dünya müharibəsi zamanı evləri bombalanan bu uşaq 4 yaşlı qardaşını itirir. Bu hadisə ona çox pis təsir göstərir və onun cəmiyyətdən təcrid olması ilə nəticələnir. O, insanlara olan inamını itirir. Hər gün qardaşının məzarına gedərək ona keşik çəkir çünki, məktəbdə müəllimlərindən birindən eşitmişdi ki, siçovullar ölü əti yeyir. Ona elə gəlirdi ki, siçovullar

onun qardaşının ətini yeyəcək. Ona görə də o, növbətçi əsgər kimi qardaşının keşiyini çəkirdi. Təsadüfən onunla rastlaşan biri ondan burda durmağının səbəbini soruşur. Sonra onu inandlrmağa çalışır ki, siçovullar da gecə yatır. Bundan sonra Yürqen oranı tərk edir.Bu dəhşətli hadisə balaca Yürqeni çox təsirləndirdi. Cəmiyyətdə gördüyü ədalətsizliklər onda inam hissini boğmuşdu. O, qardaşını heç vaxt tək buraxmaq istəmirdi. Bu onun insanlara qarşı olan inamsızlığından irəli gəlirdi. Müharibə cəmiyyətə mənəvi tərəflə yanaşı, maddi və sosial cəhətdən də ziyan vurur. İnsanların psixologiyası , yaşayış tərzi ilə yanaşı , dövlətin iqdisadiyyatına , maddi vəziyyətinə pis təsir göstərir. Müharibə nəticəsində yoxsulluq artır, yoluxucu xəstəliklər getdikcə genişlənir. Müəyyən müddət müharibə dövlətlərin inkişafında durğunluq yaradır. İnsanlar dövlət qarşısında duyduqları vəzifələrini yerinə yetirə bilmirlər. Uşaqlar təhsildən geri qalırlar. Təhsildən geri qalma gələcəkdə savadsızlığa və işsizliyə səbəb olur. Nəticədə onlar özlərini təsdiq etmək hüququndan məhrum olurlar.

İkinci dünya müharibəsinin digər mənfi cəhətlərindən biri də budur ki, o, insanları öz vətənlərindən, yurd yuvalarından uzaq salmışdı. Məhz bu hadisə nəticəsində yüzlərlə insan qərib ölkədə yaşamağa məcbur olmuşdur. Dövrün yazar və şairləri yad ölkədə mühacirət həyatı yaşamışdır. Soyuq qış gecələrində insanların ehtiyac duyduğu əsas vasitələrdən biri də odun idi. V.Borxert "Sabah uçun odun" (Das Holz für Morgen) hekayəsində ikinci dünya müharibəsi zamanı normal bir alman ailəsinin üzləşdiyi ehtiyacları və onun yaratdığı problemləri qələmə almışdır. Hekayənin əsas qəhramanı müharibə zamanı öz ailəsi ilə birlikdə çox çətin bir şəraitdə kirayədə yaşayan cavan bir oğlandı. Problemlərdən bezən bu gənc hər şeyin çıxış yolunu intihar etməkdə görür. Ancaq anasının ondan odun gətirmək istəyi buna mane olur. O, intihar etmək fikrindən əl çəkir. Bu hekayədə quru odun taxtası insan həyatının bir xilaskarı simvollaşdırılır. Əsərin əsas cəhtlərindən biri budur ki, o ikinci dünya müharibəsinə aid olan bir əsərdi və aid olduğu dövrlə tam səsləşir, oxucuda bu haqqda geniş təsəvvür yaradır. Əsərin əsas qəhramanı olan oğlan ikinci dünya müharibəsində bir əsgər kimi xidmət etmişdir və əsərdə baş verən hadisələrin ona aid olması, müharibənin vahiməsini və sonrakı təsirini oxucuya daha yaxşı çatdırmaqda kömək edir. Onun yazıb yaratdığı "Xarabalıq ədəbiyyatı" dövrü uzun bir dövrü əhatə etməsə də alman ədəbiyyatının ən vacib dövrlərindən biri sayılır. Onun əsərlərinin əsas tədqiqat mövzusu ikinci dünya müharibəsi zamanı insanların, xüsusi ilə az yaşlı uşaqların faciələri, keçirdikləri hiss və həyəcan, eləcədə bu müharibənin onların psixologiyasında yaratdığı problemlər idi.1945-ci ildə artıq müharibə bitmişdi. Müharibədən güclə can qurtaran sadə xalq indi də onun ağır nəticələri ilə üzbəüz qalmışdı. Müharibənin dəhşətli günlərini unuda bilməyən insanlar, indi onun nəticələrini aradan qaldırmaq üçün yollar axtarırdılar. (22)

İkinci dünya müharibəsi Almaniya kimi güclü və qüdrətli bir dövləti həm maddi, həm də mənəvi cəhətdən darmadağın etsə də, yazarlar və ədəbiyyat üçün yeni mövzular gətirdi. Müharibədən öz evlərinə geri qayıdanlar yeni bir dünyanın yaranacağına ümid bələyərkən, müharibənin ağri-acıları, bəlaları ilə üz-üzə qaldılar. Ümidləri puç olmuş insanlar yenidən güc toplayaraq özlərinə yeni həyat qurmağa cəhd etdilər. Amma bu sınaqdan qalib ayrılmaq heç də həmişə uğurlu olmurdu. Onlar bəzən ağır sınaq qarşısında aciz qalırıdlar.Müharibəni yaşayanlar üçün bu hadisələr sanki, dünən baş vermiş kimidir. V.Borxertin əsərlərinin qəhrəmanları da bu hadisələrin canlı şahidi olmuş real insanlardır.

Ədəbiyyat

Azərbaycan dilində
1.Alman ədəbiyyatı antalogiyası.Bakı-2006
2. Şirəliyev Həsən və Əhmədov Əli; “Politologiya”, “Elnur -P”nəş:Bakı-1997
3. Quliyev Qorxmaz; XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları,”Çaşıoğlu” nəş; Bakı-2012

Alman dilində

4. Germanistisches Jahrbuch für Estland, Lettland und Literatur,DAAD-2002
5.Hans Mayer: "Deutsche Schriftsteller und Bücher" , "Siedler Verlag", Berlin -1998
6.Horst Dieter Schlosser "Deutsche Literatur","Taschenbuch Verlag",München -1983
7.“İnterpretationen zu Wolfgang Borchert” München-1962
8. Literarische Gesellschaften in Deutschland: "Aufbau Verlag",Berlin-1995
9. Rodolf Wolff “W.Borchert, Werk und Wirkung”,1975
10."Literatur der Weimarer Republik 1918- 1933" ,"Hans Verlag", München-1968
11. “Notwendige Geschichten 1933-45”, “Piper Verlag”,München 1969
12.Wolfgana Borchert; “Die traurigen Geranien” ; “Rowohlt Verlag”; Hamburg-1962
13.W.Borchert; “Das Gesamtwerk”; “Rowohlt Verlag” ;Hamburg-2002

İnternet resusları

14.de.wikipedia.org
15.www.vikipediya.az
16.www.google.az
17.www.google.de
18. translate.google.com
19. wolfgangborchert.org
20. uni-potsdam.de
21. www.geschichte-projekte-hannover.de
22.www.abipur.de/referate

Матанат Исгандарова Сарваз

Тема война творчество Вольфганга Борхертина

Резюме:

Человечество всегда рассуждало о проблемах войны и мира. Война все время оставляла глубокий след в жизни народов и давала толчок для для развития общества. Хоть война и нанесла моральный и материальный ущерб такой сильной и несокрушимой стране, как Германия, но несмотря на это, дала пищу для размышления писателям и литературе. Неизгладимый след в немецкой литературе оставил период после Второй мировой войны. В немецкой литературе этот период называется "Литературой руин". В этой литературе ярко выразилисъ тяжелые последствия, бедственное положение и плохой образ жизни людей в Германии, которые были вызваны в результате II мировой

войны. Если речь идет о немецкой литературе, то следует упомянуть о "Группе 47". Испытавшие всю горечь войны, эти молодые писатели, создали свое направление в литературе. Одним из известных представителей немецкой литературы, прославившийся после войны своими стихами, произведениями и пьесами является В.Борхерт. "Литературой руин" невозможно представитъ без творчества В. Борхерта. В его работах отображаются реалъный сюжет, ситуации и детали, где конкретные сцены представяются в абстрактной форме, а абстрактные в конкретной. В послевоенной литературе с именем В. Борхерта открылась новая страница в истории немецкой литературы.

Ключевые слова: Война, проблема, литература, трагедия, человек, психология

Matanat Isgandarova Sarvaz

The theme of war is in the work of Wolfgang Borchert

Summary:

Mankind has always talks about the problems of war and peace. War always leaves a deep mark in the life of nations and gave impetus to the development of society. Although the Second World war devastated a strong and invincible country like Germany in both material and moral way, it brought new topics for writers and literature. One of the most prominent pages of the German literature ist the period after the second World war. In German literature this period is called "the ruins of the literature.

This literature, organized after the war, reflected the misfortunes brought by the second World war to Germany, the poor living conditions of the people more clearly. While talking about the German literature after the second world war, we should also mention the name of the 47s Group. Having experienced the bitterness of war, these young writers created their own trend in literature. One of the prominent representatives of German literature, became famous after the war for his poems, works, and plays - V.Borhert. It is impossible to imagne “The ruins literature” without the works of V.Borxert. He reflected real plots, real situations, real detals and showed abstract scenes real and concrete ones abstract. In the post-war literature there opened a new page in the history of German literature with the name of Borchert .

Keywords: War, problem, literature, tragedy, people, psychology

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 04.08.2019
Filologiya elmləri doktoru, dosent Nilufər Məmmədzadə tərəfindən çapa tövsiyə olunmuşdur.

AYGÜN İBRAHİMOVA
ADU Rəşid Behbudov134
aygunibrahimova@yahoo.com

PROBLEM ƏSASLI ÖYRƏNMƏ VƏ ONUN ƏSAS XÜSUSIYYƏTLƏRİ

Xülasə

Bu məqalə xarici dil öyrənmə prossesində problem əsaslı yanaşmalar mövzusundan bəhs edir. Problem əsaslı təlim 1970-ci ildən bəri bütün dünyada tətbiq edilməyə başlamışdır. Bu yanaşmanın təcrübəyə əsaslanan təlim prossesini dəstəkləyən uzun bir tarixi vardır. Problem əsaslı öyrənmə tələbələrə özləri üçün məqsədi müəyyənləşdirməkdə köməklik edir. Belə ki, bu yanaşma tələbələrə gələcəkdə onların özlərini necə gördüklərini və onların dili hansı yolla öyrəndiklərini anlamalarına köməklik edir. Bu elə bir təlim metodudur ki, burada tələbələrin diqqəti bir neçə cavabdan ibarət olan mürəkkəb bir məsələ üzərində cəmləşir. Öyrənənlər qrup çəklində əməkdaşlıq edərək problemli məsələni həll etməyə çalışırlar. Lakin onlar fərqli nəticələr əldə edə bilərlər. Effektiv şəkildə situasiyanı idarə etmək məqsədi ilə onlar həmin situasiyaya uyğunlaşmalı və öyrəniləcək məlumatı müəyyənləşdirməlidirlər. Bu yanaşma tələbəyönümlü yanaşma olub, tələbələrə təlim prossesini öz ehtiyacları ilə əlaqələndirməyə və onların tədqiqat zamanı sərbəst fəaliyyətlərini təmin etmək üçün geniş məlumat toplusunun kəşfinə şərait yaradır. Bu yanaşma öz əməkdaşlıq xüsusiyyətinin effektivliyi, daxili motivasiyanın inkşafı, sabitliyi və müxtəli məzmunlarda və fərqli mövzularda özünü göstərən müxtəlifliyi ilə xarakterizə olunur. Müəllim təlim prossesində fasilitator kimi çıxış edir. O tələbələri yeni biliklərlə təmin etməkdən çox onları istiqamətləndirir. Bu məqalədə biz problem əsaslı təlimdə öyrənmənin xarakterini və təcrübi cəhətdən ona dəstək olan sübutları araşdırmağa çalışmışıq.

Açar sözlər: problem əsaslı öyrənmə, öyrənmə prossesi, problemin həlli, müstəqil öyrənmə

Problem əsaslı öyrənmə tələbə yönümlü yanaşma olub dilöyrənənlərə istiqamət-ləndirilmiş tədris metodlarını özündə ehtiva edir. Eyni zamanda problem əsaslı öyrənmə tələbələrin məlumat xarakterli ehtiyaclarını müəyyənləşdirmək bacarığını nümayiş etdirməkdə onlara köməklik edir. Bu yanaşma elm və tibb sahəsində müvəffəqiyyətlə tətbiq edilmişdir. Həmçinin, problem əsaslı öyrənmə tələbələrin tənqidi təffəkkürünün inkşafında, onların dil öyrənmə prossesində qarşılaşdıqları problemləri həll edərkən yaradıcı düşünə bilmək, məntiq irəli sürmək, təhlil etmək kimi keyfiyyətlərin ön plana çəkilməsində çox böyük əhəmiyyətə malikdir. Psixoloji araşdırmalar göstərmişdir ki, problem əsaslı öyrənmə zamanı tələbələr həm problemin məzmunu ilə tanış olur, həm də düşünmə strategiyasını müəyyənləşdirirlər.

Problem əsaslı təlim elə bir təlim növüdür ki, burada tələbələr asan yollarla problemin həlli yollarını tapmağa çalışırlar. Problem əsaslı təlimdə tələbələrin fikri mürəkkəb bir problem ətrafında mərkəzləşir. Bu problemin isə bir neçə həlli yolları ola bilər. Tələbələr problemi həll etməkdən və ehtiyac duyduqlarının nə olduğunu müəyyənləşdirməkdən ötrü qrup şəklində fəaliyyət göstərirlər. Onlar əldə etdikləri bilikləri problemin həlli üçün istifadə edir və tətbiq edilən strategiyların uğurlu olub olmamağı üzərində düşünürlər. Tələbələr uyğun biliklərini müəyyənləşdirir, problemin mümkün həlli yollarını kiçik qruplarda toplaşaraq tapmağa

çalışırlar. P.Hager və J.Butlerə görə bacarıqlara əsaslanaraq öyrənmənin əsas hədəfi problem əsaslı təlimin təhsilverici model ilə bir sırada durmasıdır. (4, 35)

Problem əsaslı təlimin tətbiqində məqsəd yalnızca müəyyən bir problemin həlli deyil, o problem əsasında meydana çıxan yeni öyrənmə hədəflərinin üzə çıxarılması və problemi həll etməyə cəhd edərkən öyrənənin tədqiqata cəlb edilməsi, araşdırma aparması, müzakirə və soruşub cavablandıra bilmə kimi bacarıqlarının formalaşmasıdır.

Problem əsaslı təlimin tətbiqi zamanı yerinə yetirilən tapşırıqların dəqiqliyi və tamlığı əsas prinsiplərdən biri kimi qarşımızda durur. Bu zaman müəllimin əsas rolu tələbələrin biliyini artırmaqdan çox öyrənmə prossesini asanlaşdırmaqdır. Eyni zamanda müəllim dil öyrənənə öyrənmək işində rəhbərlik etməli və onlar üçün yararlı öyrənmə mənbələrini təqdim etməlidir. Başqa sözlə öyrənməyi öyrətməlidir.

E. Cindy Hmelo-Silver problem əsaslı təlimin məqsədlərini aşağıdakı kimi müəyyənləşdirmişlər:

- sərbəst biliklərə yiyələnmək;
- səmərəli problem həll etmə bacarığının inkşafı;
- avtonom bacarıqların inkşafı;
- səmərəli əməkdaşlıq bacarığının inkşafı;
- daxili motivasıyanın inkşaf etdirilməsinə koməklik;(2, 235)

Bir çox mənbələrdə problem əsaslı öyrənmənin əsasən 3 ilkin məqsədini əhatə edən araşdırmalar qeyd edilmişdir. Lakin son 2 məqsəd çox geniş şəkildə işlənməmişdir. Problem əsaslı öyrənmə tələbələrdə sərbəst öyrənməni və uzunmüddətli öyrənmə bacarıqlarının inkşafına köməklik edəcək bir potensial irəli sürən bir yanaşmadır.

D.Boud və E. Grapame problem əsaslı təlimin aşağıdakı xüsusiyyətlərini qeyd etmişlər.

- vacib problem, sual və ya məsələni müzakirə etmək üçün stimulverici materiallardan istifadə edərək tələbələrə köməklik etmək;
- problemi real həyatla əlaqələndirərək tələbələrə təqdim etmək;
- tələbələrdə tənqidi düşünə bilmə bacarıqlarının inkşafına nəzarət etmək. Problemlərin həlli yollarını müəyyənləşdirərkən tələbələrə köməklik etmək məqsədi ilə onlara əlavə mənbələr təqdim etmək;
- tələbələrə öz ehtiyaclarını müəyyənləşdirməyə və onları lazımi mənbədən sərbəst şəkildə istifadə etməyə cəlb etmək;
- əldə edilən biliyi əsas problemin həllinə yönəltmək və öyrənmə prossesini qiymətləndirmək;
- tələbələrə qrup şəklində əməkdaşlıq etməyi, sinifdaxili və xarici kəşf ediləcək problemin səriştəli müəllim tərəfindən təqdim edilməsi və müəllimin öyrənmə prossesini fasilitasiya etməsi problem əsaslı təlinmin əsas xüsusiyyətləri kimi verilmişdir; (3, 3)

Problem əsaslı öyrənmədə şagirdlər problemi həll edərək və təcrübələrinə əsaslanaraq öyrənməyə çalışırlar. Problem əsaslı öyrənmə öyrənənlərə fəal öyrənən olmaqda köməklik edir. Ona görə də problem əsaslı öyrənməni bəzi metodistlər fəal tədris kimi də qeyd edirlər. Müasir dövrdə müəllimlər bu yanaşmaya daha çox maraq göstərirlər. Problem əsaslı təlim fəal, dəyişə bilən öyrənmə prossesinə daha çox əsaslanır və öyrənənləri həvəsləndirmək üçün çox böyük əhəmiyyətə malikdir.

Problem əsaslı təlimin birinci mərhələsi qrupları müəyyənləşdirməklə xarakterizə olunur. Bu qruplar bir qrup tələbələrdən, bələdçidən və məsləhətçidən ibarətdir. Onlar adətən müzakirə edəcəkləri mövzunu əvvəlcədən bilməlidir. Bu isə, onların öz özünə öyrənmə və hər bir ani krizis anına hazır olma bacarığını inkşaf etdirir.

Problem əsaslı təlim prossesi bir qrup tələbəyə mürəkkəb problem barədə minimal məlumat verməklə başlayır. Tələbələr isə öz növbəsində əlavə məlumat əldə etmək üçün suallar

verməyə çalışırlar. Onlar həmçinin məlumatı tədqiqat apararaq da əldə edə bilərlər. Problemi həll etməyə çalışarkən tələbələr ağıllarına gələn fikirləri yazmaq üçün lövhədən istifadə edirlər. Faktlar, fikirlər, məsələlər, fəaliyyət planı olmaqla lövhəni 4 sütuna bölürlər. Faktlar bölməsi problem nədir və harada yaranır kimi məlumatları əhatə edir. Fikirlər bölməsi problemin həlli yollarını, məsələlər bölməsi isə tələbələrin daha sonra nələri öyrənmək istədiklərini əhatə edir. Fəaliyyət planı bölməsində isə onlar problemi həll etmək və ya əlavə məlumat əldə etmək üçün planlar toplusunu qeyd edirlər. Lövhə problemə qarşı fikri cəmləşdirməyə və tələbələrin biliklərinin yenidən formalaşdırılması üçün bir forma kimi istifadə edilir. Bu problemin həlli prossesinə sistemli şəkildə yanaşmanın bir modelini təşkil edir. Yəni bu model sayəsində tələbələr nəyi lövhədə qeyd etmək lazım olduğunu aydın şəkildə təsəvvür edə bilirlər.

Problem əsaslı təlimdə qarşıya qoyulan problem çox böyük əhəmiyyətə malikdir. Bu halda problem mürəkkəb, açıq sonluqlu, daxili motivasiyanı təmin edən və real olmalıdır. Problem tələbələrə biliklərinin effektivliyini və öyrənmə strategiyalarını dəyərləndirməyə köməklik edir. Problem həmçinin təxmin edilə bilən və mübahisəni təmin edə bilən olmalıdır. Problemin həlli əlaqəli parçaları birləşdirə bilmək üçün kifayət qədər mürəkkəb olmalı, eyni zamanda tələbələri bilmək və öyrənməyə həvəsləndirməlidir.

Belə problemlər tələbələrin ilkin anlamaya əsaslanan öyrənmə prossesinə maraqlarının artmasında köməklik edir. Effektiv problem əsaslı öyrənmə zamanı problem vacib bir amildir, lakin yeganə faktor deyil. Problem əsaslı təlimin effektivliyində fasilitator olan müəllimin rolu əvəzedilməzdir. Problem əsaslı təlimdə müəllim öyrənmə və düşünmə üçün yaxşı startegiya modelləri verə bilən təcrübəli öyrənəndir. Bu zaman müəllim sual-cavab və müzakirə üsulundan istifadə edə bilər. Fasilitator tələbələri problem əsaslı təlimin müxtəlif mərhələlərinə yönəltmək və qrupa nəzarət etmək üçün məsuliyyət daşıyır. Bu nəzarət bizi əmin edir ki, bütün tələbələr prossesə cəlb edilsinlər.

Problem əsaslı təlimdə müəllim tələbələri öz düşüncələrini əsaslandırmaq üçün həvəsləndirir. Müəllim ilk növbədə problemin həlllinin modelini yaradır, daha sonra müəllim tələbələrə yaxşı əməkdaşlıq etməyi öyrədir. Bu zaman müəllimin əsas vəzifəsi dil öyrənən fərdə öyrənmə prossesində rəhbərlik etmək və onları onlar üçün yararlı olacaq mənbələrlə tanış etməkdir.

Müəllimin qarşısında bir çox məqsədlər durur. Birincisi o problemin həlli prossesinə nəzarət edir və tələbələrin öz səyi ilə bilik əldə etmələrinə köməklik edir. İkincisi müəllim tələbələrə daha yaxşı əməkdaşlığın əhəmiyyətini başa salır. Belə təxmin edə bilərik ki, müəllim öyrənmə və əməkdaşlıq prossesinə rəhbərlik etdikdə tələbələr sərbəst biliklərə daha yaxşı yiyələnə bilirlər. Fasilitasiya necə aparılmalıdır və nə üçün fasilitator üçün bir qrup və ya bir neçə sayda tələbələrlə işləmək, bir neçə qrup və daha çox tələbələri əhatə edən bir siniflə işləməkdən daha çətindir. Fasilitasiya incə bir işdir. Bu nə zaman hansı sualı tələbələrə ünvanlamaq lazım olduğunu, onlar geri qalanda onlara köməklik etməyi və problem əsaslı öyrənmə prossesini təmin etməyi özündə ehtiva edir.

Müəllim məqsədə çatmaq üçün ötrü problem əsaslı təlimin müxtəlif mərhələlərinə uyğunlaşan bir çox üsullardan istifadə edir. Tələbələr təlim materialının məzmununa və bacarıqların əsasən problemi həll etməyə çalışır və əldə etdikləri nəticələri gələcəkdə istifadə edəcəkləri barədə müzakirələr aparırlar

J.S.Atertona görə problem əsaslı təlimin bir çox formaları vardır. Yaxşı təşkil edilmiş problem əsaslı təlimdə aşağıdakı amillər diqqət mərkəzində olur:

- Öyrədilənlər real həyat problemləri ilə əlaqəli olmalı;

- Normal öyrənmə metodunda bildiyimiz kimi tələbələr özlərinin əvvəlcədən əldə etdikləri

biliklərə əsaslanaraq sualları cavablandırmağa çalışırlar. Ancaq bu metoddan fərqli olaraq problem əsaslı təlimdə tələbələr heç bir ilkin biliklərindən istifadə etməyərək sualları cavablandırmağa cəhd edirlər. Bu halda onlar sualllarla təchiz edilmiş bir çox bölmələri açmağa, bu suallara cavab tapmağa çalışırlar;

- Öyrənmə prossesinin başlanğıcında problemlər məqsədli olaraq tələbələrə verilir;
- Problem əsaslı öyrənmə təsirli qrup işi əsasında öyrənməni təmin edir, Problem elə bir yolla öyrənilməlidir ki, sualın hər bir aspekti qrup üzvləri arasıda bölünə bilsin. Belə ki, hər bir şəxs bu prossesdən yararlana bilsin;
- Müəllim fasılitatordur, yəni müəllim məsləhətçidir;
- Problem əsaslı təlim uzun vaxt tələb edir və tələbələrə öyrənmək və mənimsəmək üçün vaxt verilməlidir;
- Problem əsaslı təlim əgər qaydalara əməl edilərsə daha effektiv olur. Bu problem əsaslı təlimin bir çox sahələrdə effektiv olmasına köməklik edir;

Problem əsaslı təlim tələbləri düşünməyə təhrik edən autentik, real həyatla əlaqəli problem və təcrübələri özündə əks etdirir. Tələbələr müəllimlər tərəfindən bələdçilik edilən qruplar şəklində birləşirlər. Ənənəvi öyrənmə metodunda şagirdlər öyrənilən mövzular barədə yüklənirdilər. Bütün öyrənmə prossesi darıxdırıcı və sıxıcı olurdu. Tələbələr real həyatla əlaqəli olmayan mövzuları öyrənmək və yadda saxlamağa çalışırdılar. Bu isə təhsili yalnızca öyrənmək deyil gələcəkdə diplom alıb iş tapmaq məqsədinə yaxınlaşdırırdı. Tələbələrin sinif otağında öyrədilən heç bir şeyə maraqları olmurdu. Əsas məsələ isə mövzu barədə heç bir effektiv müzakirələrin olmamasıdır və tələbələr müəyyən mövzunu necə istifadə ediləcəyi baradə fikirlərini bölüşə bilmirdilər

Problem əsaslı təlimdə isə məlumat aydin olur. Tələbələr problemi həll edərkən və müzakirə edərkən məlumatı araşdırmaya ehtiyac duyurlar. Belə ki, tələbələrin öyrənməyə maraqları artır. Dərsin məzmunu yəni tələbələrə məlumatın necə veriləcəyi, təqdim etmə üsulları əvvəlcədən müəyyənləşir. Bunun arxasında isə tələbələrin problem əsaslı təlimdən nə qədər əsaslı məlumat əldə edəcəklərinin narahatlığı yatır. Bu təlim prossesi sonsuz bir prossess kimi qəbul edilir.(1, 481)

Problem əsaslı təlim və fəal öyrənmə arasındakı fərq çox vaxt aydın olmur, çünki onların arsınsda bir çox ümumi xüsusiyyətlər vardır. Belə ki, problem əsaslı təlimin əsas komponenti mürəkkəb, real həyatla əlaqəli problemlərin məcmusudur. Başqa sözlə, bu təlim prossesində problemin qoyuluşu və həlli yollarının tapılması birinci gəlir.(5, 19)

Problem əsaslı təlimin 3 növü vardır.

1. Problem stimullaşdırıcı problem əsaslı təlim- Bu təlim zamanı problemi həll etmək üçün uyğun biliklər və məlumatlar istifadə edilir. Bu zaman 3 əsas məqsəd yerinə yetirilir

a. Əsas bacarıqların inkşafı;

b. Problemin həlli üçün bacarıqların inkşafı;

c. Əsas biliklərin kəşfi;

2. Tələbəyönümlü problem əsaslı təlim yuxarıdakı növ kimi eyni məqsədlərə xidmət edir. Yuxarıda verilən növdən fərqli olaraq uzun müddət davam edəcək bacarıqların inkşafına istiqamətləndirilir. Bu faktor öyrədən və müəyyən bir sahədə uzun müddət ərzində öyrəndikləri

bacarıqları təcrübədə istifadə edən insanlar üçün münasibdir. Bu bacarıqların müntəzəm olaraq yenilənməsi vacibdir. Bu isə əsasən həkimlər, mühəndislər, icraçı vəzifədə olan insanlar üçün münasibdir.

3. Vəziyyətə əsaslanan problem əsaslı təlim- Bu təlim prossesində məsələniin həlli yolları müəyyənləşir, verilən problemi hərlll etmək üçün nədən istifadə edilə bilər. Bu təlim növü vurğunun öyrədilən mövzu üzərində olması ilə müəyyənləşir.

Beləliklə problem əsaslı təlim ənənəvi təlimdən fərqli olaraq iddialı öyrənmə prossesidir. O özündə müzakirə və təcrübəni cəmləşdirir. Tələbələr arasında nə qədər çox müzakirə təmin edilərsə o qədər tələbələrin bilik səviyyələri artar. Bu təlim prossesində birbaşa öyrətmə azaldılır. Bu isə tələbələri öyrənmə prossesində öz təşəbbüslərini irəli sürməyə həvəsləndirir. Bu tələbələrdə motivasiya hissini artirir. Eyni zamanda öyrənmə prossesini çox maraqlı edir. Problem əsaslı öyrənmə problemi həll etmək üçün əvvəlki biliklərə əsaslanır. Davamlı olaraq biliklərin təkrarı təmin edilir. Eyni zamanda tənqidi düşüncənin inkşafına təkan verilir. Tələbələr mövzunun müxtəlif aspektləri barədə düşünməyə çalışırlar. Problem əsaslı təlimdə öyrənənlər məlumatı toplamaqda ənənəvi təlimdə olan öyrənənlərdən fərqli olaraq daha bacarıqlı və səriştəli olurlar. Ənənəvi şəkildə öyrənənlər dərs kitablarına asılı olurlar. Onlar yeni mənbələrdən istifadə etməyə cəhd belə etmirlər. Digər tərəfdən problem əsaslı təlimdə öyrənənlər daha təcrübəli olurlar və bu təlim onları daha geniş düşünməyə təhrik edir. Problem əsaslı təlim real həyatda istifadə edilə biləcək bacarıq və təcrübənin inkşafına zəmin yaradır. Bu bacarıqlar real həyatda bir vəsait kimi istifadə edilə bilər. Problem əsaslı təlimdə qoyulan problemlər açıq sonluqlu suallardır. Bu isə mövzu haqqında daha çox müzakirə və düşünməyə imkan yaradır. Belə ki, bu sualların yalnış və ya doğru cavabları ola bilməz. Daha münasib cavablar diqqət mərkəzində olur. Bu halda bir mövzunun bir deyil bir neçe cavabı ola bilər. Bu zaman öyrənənlər faktları daha dərindən öyrənməyə çalışırlar. Problem əsaslı təlim yaxşı ünsiyyət bacarıqlarını inkşaf etdirir. Bu təlim öyrənənlərin hər birinə eyni cür yanaşmanı təmin edir. Bu həmçinin tələbələrdə qarşıdurma və inandırma bacarıqlarını inkşaf etdirir.

Yaxşı problem əsaslı təlim prossesinin təşkili üçün uzun müddət və iş lazımdır. Bu prosses boyunca tələbələrə nəzarət və onların fəallığının qeyd edilməsi tələb edilir. Bütün suallar açıq sonluqlu suallardır və bu suallara aid məlumatın toplanması vaxt aparır. Bu isə problem əsaslı təlimin çatışmayan cəhəti kimi qeyd edilə bilər. Eyni zamanda, bütün müəllimlər yaxşı məsləhətçi deyillər. Problem əsaslı təlim üçün çalışqan və təcrübəli fasilitatorlara ehtiyac duyulur. Problem əsaslı təlimdə hazırlaşmaq, müzakirə və cavabları müqayisə edə bilmək üçün daha çox iş saatlarına ehtiyac duyur. Tələbələr vaxtaşırı görüşlər təşkil etməli olurlar. Ənənəvi təlimdən fərqli olaraq bu təlim növü öyrənənləri daha az faktlarla təmin edir. Müəllimlər bu səbəbdən problem əsaslı təlimi seçərkən tərəddüd edirlər. Bu təlim növü elə sahələri əhatə edir ki, tələbələrin ilkin biliklərə ehtiyacı olmasın. Ədəbiyyat dərsləri problem əsaslı təlimin tətbiqi üçün mükəmməl seçim ola bilər.

Problem əsaslı təlim həmçinin, öyrənmənin əsas yoludur. Çünki bu təlim öyrənənlərin ətrafdakı həyatla üzləşməsinə və cəmiyyətin güclü və dəyərli nümayəndəsi olmasına köməklik edir. Bu təlim növü həmçinin digər insanları və cəmiyyəti təcrübənin bir hissəsi olmağa cəsarətləndirir.

Ədəbiyyat

1. H.S. Barrows, A taxonomy of problem-based learning methods. Medical education, 1986, 20.
2. Cindy E. Hmelo-Silver, Educational Psychology Review, 2004, Volume 16, Issue 3
3. D. Boud and E. Graphame Fletti, The challange of problem-based learning. London. Stirling (USA) Second edition, 1997
4. P. Hager and J. Butler, Problem-based learning and paradigm of assessment. İn reflection on Problem based learning, Campelltoün NSW, Australian PBL Network, 1994
5. D. Woods, Problem-based learning and problem solving.In D.Boud(ed) Problem-based learning in educationfor the proffessions, Sydney, HERDSA, 1985
6. Vygotsky's Educational Theory in Cultural Context. Edited by Alex Kozulin, Boris Gindis, Ageyev V.S, Suzanne M.Miller. Cambridge: Cambridge University Press, 2003,

A. İbrahimova

PBL and its characteristic features

Summary

This article deals with the Problem-based approaches to learning process. Problem based learning is an approach that has grown across the world since the 1970s. It has a long history of supporting experience-based education. Problem-based learning (PBL) can help students to make sense for themselves. It means that this approach enables the students to understand their own situations so that they are able to comprehend how they learn and how they see themselves in future. It is an instructional method. In PBL, students focuses on a complex problem that does not have a single correct answer. Students work in groups or teams collaboratively to solve or manage the problem situations but they are not expected to acquire determined right answer. In order to control the situation effectively they are expected to be attached to the situation and decide what information they need to learn. It is student-centered and it offers the students opportunites for exploring a wide range of information to connect the learning processs with their own needs and to develop the independence in enquiry. It is characterized by the effectiveness of it's collaboration skills, improving intrinsic motivation, flexibility and divercity in the sense that can be implemented in a variety of ways in different subjects in divese context. The teacher is a facilitator in the learning process. She facilitates the students rather than to provide them with knowledge. In this article we try to discuss the character of learning in PBL and investigate the experimental evidence supporting it.

Key words: problem based learning, learning processes, problem solving, self-directed learning

А.Ибрагимова

Проблемное обучение и его характерные особенности

Резюме

В данной статье рассматриваются проблемные подходы к процессу обучения. Проблемное обучение - это подход, который вырос во всем мире с 1970-х годов. Он имеет долгую историю поддержки обучения на основе опыта. Проблемное обучение (PBL) может помочь студентам понять смысл для себя. Это означает, что этот подход позволяет студентам понять свои собственные ситуации, чтобы они могли понять, как они учатся и как они видят себя в будущем. Это учебный метод. В Проблемное обучение студенты сосредотачиваются на сложной проблеме, у которой нет единственного правильного ответа. Учащиеся работают в группах или коллективах совместно, чтобы разрешить или справиться с проблемными ситуациями, но от них не ожидается, что они получат определенный правильный ответ. Для эффективного управления ситуацией они будут привязаны к ситуации и решат, какую информацию им необходимо изучить. Он ориентирован на студентов и предлагает студентам возможность изучать широкий спектр информации, чтобы связать учебные процессы с их собственными потребностями и развить независимость в запросах. Он характеризуется эффективностью навыков совместной работы, улучшением внутренней мотивации, гибкости и разнообразия в том смысле, который может быть реализован различными способами в различных предметах в контексте диверсификации. Учитель является помощником в учебном процессе. Она облегчает процесс учении скорее, чем дат им знания. В этой статье мы пытаемся обсудить характер обучения в проблемное обучение и исследовать экспериментальные доказательства, подтверждающие это.

Ключевые слова: проблемное обучение, учебные процессы, решение проблем, самостоятельное обучение

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 02.08.2019
Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur.

ZEYNƏB ƏSGƏROVA,
ŞƏFƏQ RZAYEVA
Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi
zeyneb@mail.ru

ANGLO- NORMAN ƏDƏBİYYATI

Xülasə

Anglo-norman ədəbiyyatının ən çiçəklənən dövrü XII əsrin başlanğıcından XIII əsrin birinci yarım ilinə qədər davam edən dövrüdür.

1066-cı ildə norman kralı Vilhelm özünü İngiltərənin kralı elan etdi. Bu dövrdən başlayaraq XIV əsrə kimi İngiltərədə uç dil mövcud idi: fransız dili, latın dili, anglo-sakson dili.

Normanlar fransız dilində danışır, dövlət idarələrində, məhkəmələrdə fransız dili işlənirdi. Kilsədə və tədris müəssisələrində latın dili işlənirdi. Elmi əsərlər latın dilində yazılırdı. Geniş kütlə isə anglo-sakson dilində danışırdı. Bu uç dillilik ədəbiyyatın inkişafında da öz sözünü deyirdi.

XI-XII əsrlərdə də latın dilində yazılmış ədəbi nümunələrə misal olaraq Kenterberi Edmerin yazdığı "Yeni tarix", "History Novorum", Malmsberi Vilyamın yazdığı "Historia regum Anglorum" (İngilis krallarının tarixi), Henri Qentinqdonun yazdığı "Historia Anglorum" kitablarını göstərmək olar.

Orta əsrlərdə yazılmış və sonrakı ədəbiyyatın inkişafına müəyyən təsir göstərmiş Monmaut Halfridin "Historia Britonum" əsəridir. Sonralar bu əsərdən Avropanın başqa ölkələrində istifadə edilmiş müxtəlif dastanlar yaradılmışdır.

Ilkdəfə olaraq bu əsərdə kral Artur haqqında sehrbaz Merlinq, mələk Morqan, kralica Cenevra və digər igid cəngavərlər haqqında məlumat verilir, fransız və ingilis dillərində cəngavərlik poeziyasında özünün mühüm yerini tutur. İlk dəfə olaraq kral sarayı ədalət, xeyir xahlıq və ağıl tərənnüm edən Artur obrazında öz təsvirini tapır.

XI-XIII əsrlərdə fransız dilində də əsərlər yazılmışdı. İngilis ədəbiyyatında əsas yeri fransız dilində olan əsərlər tuturdu, həmin əsərlər qədim fransız dilinin normand dialektində təqdim olunurdu. Fransız dilində ədəbiyyat, Fransadan gətirildiyi kimi İngiltərənin özündə də yaradılırdı. Bunların içərisində fransız xalqının qəhrəmanlıq eposu olan "Roland haqqında nəğmə ", normanların tarixindən bəhs edən Vasın "Brut" və "Ru haqqında Roman" romanları və başqalarını göstərmək olar.

Açar sözlər: cəngavər, kraliça, kral sarayı, əfsanə, abbatlıq

Norman dili İngiltərədə Fateh Vilhelmin adı ilə bağlıdır, onunla birlikdə gəlmişdir. Norman istilasının ardınca norman dili İngiltərənin zadəgan dili olmuşdur. Bütövlükdə XII əsr ərzində anglo-norman dili latın dili ilə paylaşaraq, İngiltərənin ədəbi dilinə çevrilmişdi və bu dil XIV əsrə qədər məhkəmədə işlənirdi. Fransız dilinin böyük nüfuzu XIV əsrin sonlarına kimi davam etdi, "Maniere de Language" əsərinin müəllifi fransız dilini belə vəsf edirdi:

... çox gözəl və çox iltifatlı bir dildir, məktəblərdə tədris edilən latın dilindən sonra dünyada danışmaq üçün ən zadəgan bir dildir. Hər bir kəs, bütün zadəganlar onu digər dillərdən daha çox sevir(Allah özü onu mükafat olaraq belə şirin və sevimli etmişdir.Onun bu böyük şirinliyi və gözəlliyinə görə göydəki mələklərin dili ilə müqayisə edilə bilər). Zeydulla Ağayev "İngilis Ədəbiyyatı Antologiyası" səh. 5

Anglo-norman ədəbiyyatının ən çiçəklənən dövrü XII əsrin başlanğıcından XIII əsrin birinci yarım ilinə qədər davam edən dövrüdür.

1066-cı ildə Heystenq çölündə ingilis qoşunları məğlub olduqdan sonra II Harold öldürüldü, norman kralı Vilhelm özünü İngiltərənin kralı elan etdi. Bu dövrdən başlayaraq XIV əsrə kimi İngiltərədə uç dil mövcud idi:

1)fransız dili 2) latın dili 3) anglo-sakson dili

Qalib gəlmiş normanlar fransız dilində danışır, dövlət idarələrində, məhkəmələrdə fransız dili işlənirdi. Kilsədə və tədris müəssisələrində latın dili işlənirdi. Elmi əsərlər latın dilində yazılırdı. Geniş kütlə isə anglo-sakson dilində danışırdı. Bu uç dillilik ədəbiyyatın inkişafında da öz sözünü deyirdi.

- XI-XII əsrlərdə də latın dilində yazılmış ədəbi nümunələrə misal olaraq Kenterberi Edmerin yazdığı "Yeni tarix", "History Novorum", Malmsberi Vilyamın yazdığı "Historia regum Anglorum" (İngilis krallarının tarixi), Henri Qentinqdonun yazdığı "Historia Anglorum" kitablarını göstərmək olar. Mühazirə materialları (İsmixan Rəhimov)

Orta əsrlərdə yazılmış və sonrakı ədəbiyyatın inkişafına müəyyən təsir göstərmiş Monmaut Halfridin "Historia Britonum" əsəridir. Sonralar bu əsərdən Avropanın başqa ölkələrində istifadə edilmiş müxtəlif dastanlar yaradılmışdır.

Ilkdəfə olaraq bu əsərdə kral Artur haqqında sehrbaz Merlinq, mələk Morqan, kralica Cenevra və digər igid cəngavərlər haqqında məlumat verilir, fransız və ingilis dillərində cəngavərlik poeziyasında özünün mühüm yerini tutur. İlk dəfə olaraq kral sarayı ədalət, xeyir xahlıq və ağıl tərənnüm edən Artur obrazında öz təsvirini tapır.

XI-XIII əsrlərdə fransız dilində də əsərlər yazılmışdı. İngilis ədəbiyyatında əsas yeri fransız dilində olan əsərlər tuturdu, həmin əsərlər qədim fransız dilinin normand dialektində təqdim olunurdu. Fransız dilində ədəbiyyat, Fransadan gətirildiyi kimi İngiltərənin özündə də yaradılırdı. Bunların içərisində fransız xalqının qəhrəmanlıq eposu olan "Roland haqqında nəğmə ", normanların tarixindən bəhs edən Vasın "Brut" və "Ru haqqında Roman" romanları və başqalarını göstərmək olar.

XII əsr İngiltərədə fransız ədəbiyyatının çiçəklənmə dövrünü Vas, Benua de Sent-Mor, Robert de Borron, Fransız Mariya kimi yazıçılar təqdim etmişlər.

Bu dövrdə yaranan fransız dilli ədəbiyyatın ən gözəl nümunəsi "Kral Artur və dəyirmi masanın cəngavərləri" adlı dastandır. Kelt mənbələrindən götürülmüş bu süjet müxtəlif variantlarda işlənmiş və bunun müxtəlif qolları yaranmışdır sonuncu dastan Tomas Malori tərəfindən toplanmış, sistem halına salınmış "Arturun ölümü"dastanıdır.

Əfsanəyə görə kral Yuter öz qraflarını evinə dəvət edir.Kralın gözü Kornvol qrafnın arvadına düşür. Sehrbaz Merlinin vasitəsilə kralın üzü Kornvol qrafnın üzünə oxşayır. Öz ərini kraldan seçməyən qadın, əri müharibədə olan zaman kralı öz əri kimi qəbul edir. Qraf müharibədə öldükdən sonra Yuter Cenevra ilə evlənir. Onların qanuni övladı Artur dünyaya gəlir.Merlin Arturu başqalarına tərbiyə üçün verir. Kral Yuter öldükdən sonra adətə görə, ölkənin kralı o adam ola bilərdi ki, o qayaya çırpılmış qılıncı oradan çıxarda bilsin. Arxiyepiskopun və bütün əyanların qarşısında Artur bu qılıncı qopara bilir. Onu olkənin kralı elan edirlər, böyük bir masa ətrafında yüz cəngavər otura bilərdi və ona əlli cəngavər verirlər. Masanın ətrafında əlli yer boş idi. Igidliyindən, cəsarətliyindən, öz eşqinə sadiq olan və sözünü doğruldan cəngavərlər Arturun və başqa cəngavərlərin razılığından sonra bu masa arxasında otura bilərdilər. Buradan da hər cəngavər haqqında yeni bir dastan söylənir. Dastana görə Artur Romada vuruşduğu zaman Mordred sarayı öz əlinə alır, özünü kral elan edir. Bunu eşidən Artur geri qayıdır, Mordredi öldürür və özüdə yaralanır. Sehrbaz göl bacıları Arturu yaralı-yaralı aparırlar, qılıncını isə gölə atırlar. Ondan sonra yaranan dastanların çoxunda həmişə Arturun qayıdacağını və İngiltərəni xilas edəcəyini söyləyirlər.

Artur dastanları içərisində ən maraqlısi " Ser Qeveyn " və "Yaşıl Cəngavər" dastanıdır.

Bu dastanda ilk dəfə olaraq insani hisslər, ölümdən qorxmaq, öz sözündə bütöv olmaq,məşuqəsinə qarşı sadiq qalmaq kimi hisslər təsvir olunur. Çernışevski deyirdi ki, dünya ədəbiyyatında ilk dəfə qadına yüksək qiymət verən, qadın ləyaqətini canından keçməyə hazır olan cəngavərlərin təsviri Artur dastanlarında olmuşdur.

XIV əsr – İngiltərənin həyatında böyük dəyişikliklər və sıçrayışlar dövrüdür. Həmin dövrdə ingilis millətinin və dilinin formalaşması prosesi baş verirdi. Ədəbiyyat yaradıcılığı tarixində bu əsr həmin dövrün həyat və mədəniyyətinin səciyyəvi xüsusiyyətlərini əks etdirən Lenqlend və Çoser əsri adlandırılır.

Bu dövrdə üç böyük ingilis yazıçısı yaşayıb- yaratmışdır:

Vilyam Lenqlend, Con Gauver, Cefri Çoser.

XIV əsr İngiltərənin həyatında böyük iqtisadi və siyasi dəyişikliklər olmuşdur.

Mühüm üsyanlar, yoluxucu xəstəliklər, məsələn, vəba epidemiyası kimi ağır xəstəliklər, ölkənin simasını dəyişmişdi. İngilis mədəniyyəti yeni bir istiqamətdə inkişaf etməyə başlamışdı.

Bu dövrdə milli ingilis dili yaranır.

Ədəbiyyatda da yeni formalar, yeni ifadə tərzi yaranmışdı. XIII əsrin əvvəlinə nisbətən sonunda ingilis şəhərlərinin sayı üç dəfə artmışdı. Kəndlilərin ağır vəziyyəti, müflisləşməsi nəticəsində bir neçə üsyanlar olmuşdu. İngilis yununun dünya bazarında dəyəri artdıqca ingilis kəndlilərinin torpaqları əllərindən alınır, otlaqlara çevrilirdi. Kəndlilər şəhərə doğru gedirdilər. Bu zaman baş verən üsyanların ən böyüyü 1385-ci ildə London yaxımlığında olan üsyan idi. Üsyanın başçısı Uot Tayler idi. Üsyana ideoloji rəhbərlik edən isə keşiş Con Boll idi. Con Boll bazar meydanlarında xalq içərisində çıxış edərək, əhalini üsyana çağırırdı. Kilsənin göstərişinə tabe olmadığı üçün onu həbs etmişdilər. Kəndlilər onu zindandan azad edir, özlərinə başçı təyin edirlər. Con Boll ortaya belə bir şüar atmışdı: “When Adam delved and Eve spent who was the gentleman” (Adəm yer şumlayanda, Həvva yun darayanda bəs ağa kim idi).

Üsyan başlayanda üsyanın başçıları xaincəsinə öldürüldü. Belə bir ictimai-siyasi şəraitdə xalqın narazılığını təsvir edən əsərlər yarandı. İngilis ədəbiyyatı dünyanın bədii söz xəzinəsinə ən zəngin töhfələr vermiş ədəbiyyatlardan biridir. Məkan etibarilə İngiltərəyə yaxın və uzaq olan bütün xalqlar Böyük Britaniya adalarında yaşayanların tarixi, adət və ənənəsi, xarakterik xüsusiyyətləri, ailə və cəmiyyəti və s. haqqında ilkin tanışlığa məhz bədii ədəbiyyat vasitəsilə nail olmuşlar. Məlum olduğu kimi, bu gün dünyanın ən aparıcı dili statusunu qazanmış ingilis dilinin cəmi altı əsrlik tarixi vardır –XIV əsrdə Böyük Britaniyada rəsmi dövlət dili kimi fransız, elm, din və təhsil dili kimi latın dili işlənir, sayı yüzdən artıq olan yerli tayfalar isə öz dialektlərində danışırdılar.Yalnız həmin əsrin ən böyük söz sərkərdəsi olan Cefri Çoserin italyan və fransız dillərindən London dialekinə tərcümələr etməsi (paytaxtın dialekti daha populyar olduğundan hamı tərəfindən başa düşülürdü),bir qədər sonra isə öz əsərlərini həmin dialektdə qələmə alması tədricən bu dialektin müstəqil dövlət dilinə cevrilməsi ilə nəticələndi. XVII əsrin axırlarında yaşamış məşhur ingilis tənqidçisi və şairi Con Drayden nahaq yerə deməmişdir ki,”Cefri Çoser ingilis dilinin banisidir”. İngilis poeziyasında realizmin banisi olan Cefri Çoser həm də dünya şerinin ənənələrini Dumanlı Albiona gətirən ilk şair olmuşdur- Çoserə qədər Böyük Britaniyada yaradılan poetik esərlərdə ritm yalnız alliterasiya (bizim yanıltmaclarda olduğu kimi,sətirdə vurğulu bir səsin ritmik təkrarı) vasitəsilə əmələ gətirilirdi. Uilyam Şekspir, Con Qouer, Cefri Çoser, Uilyam Lenqlend və s. adı çəkilməmiş onlarca, yüzlərcə düha məhz son altı əsrin nümayəndələridir; başqa sözlə desək, ingilis ədəbiyyatı Avropa qitəsində ən gənc ədəbiyyatdır.

Düzdür, XIV əsrdən qabaq Böyük Britaniyada “ Orta əsrlər ədəbiyyatı” adlandırılan ədəbiyyat da (eramızın V-XIII əsrləri) mövcud olmuşdur, lakin o ədəbiyyat tarixə “ Anqlo-Sakson” və “Anqlo- Norman” ədəbiyatı kimi daxil olmuşdur. Həmin dövr adalarda yaşayan xalqların və tayfaların (şotland, irland, kelt, saks, anql və s. şifahi ədəbiyyat nümunələrinin

yaranması ilə xarakterizə olunur. Qeyd etdiyimiz kimi, ingilis ədəbiyyatı Avropada ən gənc ədəbiyyatdır, lakin müasir dünyamızın ən aparıcı ədəbiyyatlarından birinə çevrilmişdir. Görəsən, az müddətdə qazanılmış bu keyfiyyət göstəricisi haradan qaynaqlanır? Birincisi, ingilis ədibləri tərəddüd etmədən dünya ədəbiyyatının, qədim latın, yunan və Roma söz xəzinələrinin məşhur mənbələrindən bəhrələnməyə başlamışlar.Yəni, bir sıra qələm sahibi mövzu axtarmaq üçün vaxt itirməmiş, hazır mövzulara bu və ya digər cür müdaxilə edərək öz əsərlərini yaratmışdır. Məsələn, Cefri Çoser öz şah əsəri olan "Kentiberi nağılları"nı XIV əsrin məşhur italyan yazıçısı, Ciovanni Bokkaççionun "Dekameron" əsərinin birbaşa təsiri altında qələmə almışdır (əvvəlcə Çoser həmin əsəri London dialektinə tərcümə etmişdi).

Uilyam Lenqlend (təxminən 1332-1386) Uilyam Lenqlendin həyatı haqqında çox az məlumat var. Onun Qərbi Midlenddə, Malvern Hills regionunda anadan olduğu güman edilir. Ədəbiyyat tarixində Lenqlend özünün " The Vision of piers the Plowman"(Pyotrun röyası) alleqorik poeması ilə məşhurdur. Bu əsər dövrün ictimai - siyasi hadisələlrini, xalqın ağır vəziyyətini, xoş güzərana ümidini və inamını təsvir edir. Buna görə də bu poema tezliklə xalq arasında yayıla bildi. Lenqlend haqqında çox az məlumat var. O, kəndli ailəsindən çıxmış, kilsədə təhsil almış, maddi ehtiyac içərisində yaşamış, heç zaman başqalarına boyun əyməmişdir. Özü demişkən, o, aşağı enmək üçün həddindən artıq uca idi.

Lenqlendin poeması orta əsrlərdə yayılmış "Röya" üslubunda yazılmışdır. Həqiqət yuxu kimi təsvir olunur. Isti may aylarının birində yuxuya getmiş şairin gözü qarşısında böyükk bir meydan canlanır. Burada cəmiyyətin bütün üzvləri iştirak edirlər. Şərqdə bir qala görünür, bu Xeyirin yaşadığı yerdir. Qərbdə dərin bir dərədə zindan var. Bu Şərrin yaşadığı yerdir.

Poema alleqorik tərzdə yazılmışdır. Əsərin iştirakçıları konkret əşyalar deyil, mücərrəd anlayışlardır: həqiqət, yalan, hiylə, və s. Boyük meydanda olan adamlar həqiqət axtarırlar. Bunun yerini kimsə bilmir. Birdən hamının gözünə əkinçi Pyotr sataşır. O, həqiqqətin harada olduğunu bilir. Lakin o, çöldə işlədiyi üçün bunlara cavab vermir. Cəmiyyətin bütün həqiqətlərini təmsil edən adamlar Pyotla birgə çöldə işləyirlər. Işin sonunda Pyotr deyir ki, həqiqət əməkdədir. İlk dəfə olaraq dünya ədəbiyyatında ümumi əmək məsələsini irəliyə atan Lenqlend olmuşdur. Lenqlendin poeması kompozisiya baxımından və bədiilik cəhətdən Çoserin əsərlərindən aşağı səviyyədədir. Con Qauer (1330-1408) https; //en.wikipedia.org /wiki/ John Gower.

Ədəbiyyat:

1. Q.V. Anikin; N.P. Mixalskaya, История Английской Литературы, Москва, «Высшая школа» 1985
2. Zeydulla Ağayev "İngilis Ədəbiyyatı Antologiyası"
3. https; //en.wikipedia.org /wiki/ John Gower.
4. Mühazirə materialları (İsmixan Rəhimov)
5. Q.V.Anikin, N.P. Mixalskaya " İngilis ədəbiyyat tarixi",Moskva1995, təkrar nəşr 2005

Z.Askerova,
Sh. Rzayeva

" Anglo – Norman literature"

Summery

This article deals with the Anglo-Norman literature. It existed three languages at that time. The Norman language came over to England with William the Conqueror. Following the Norman conquest, theNorman language became the language of England's nobility. During the

whole of the XII century the Anglo-Norman language shared with Latin the distinction of being the literary language of England, and it was in use at the court until the XIV century.

The author of the "Maniere de language" calls French:

… the most beautiful and gracious language, and the most noble one in the world to speak, after the latin of our schooldays.

Writers, poets wrote their works in these languages. The literature was connected with the three names in England in those days: Lanqland, Gower, Chaucer.

Chaucer is known as the Father of English literature. He is best known today for The Canterbury Tales.

Key words: knight, queen, king palace, legend, abbot

З.Аскеровой, Ш. Рзаевой

«Англо – норманнская литература»

Резюме

В статье описывается англо – норманнская литерРтура XI –XIII веков. В те времена население говорило на трёх языках. Писатели той эпохи писали свои произведения на французском, латинском и англосаксонском языках.

Официальным языком в стране был французский. На нём говорила правящая верхушка; он употреблялся в парламенте, суде, школах, на нём говорили те слои населения, которые переселились из Франции. Коренное население говорило на англосаксонском языке, претерпевшем после нормандского завоевания значительные изменения. В церковных кругах пользовались латынью. Трёхъязычие сказалось на развитии литературы. Возникали литературные произведения на латинском, французском и англосаксонском языках. На латинском языке писались научные труды, исторические хроники, антицерковные сатиры. Литература на французском языке была представлена рыцарской поэзией. XIV век- период больших изменений и сдвигов в жизни Англии. В это время происходит процесс формирования английской нации и её языка. В истории литературы – это век Ленгленда, Гауэра и Чосера, творчество которых отразило наиболее характерные черты жизни и культуры того времени. Ленгленд всецело связан с культурой средневековья; Чосер- последний поэт средних веков и предвестник эпохи Возрождения в Англии. Эта эпоха связывается с именами таких крупных писателей, как Ленгленд, Гауэр, Чосер. Ввиду того, что в этих произведениях описываются быт и нравы той эпохи, они и сейчас читаются с большим интересом.

К таким произведениям относится книга Чосера «Кентерберийские рассказы».

Ключевые слова: рыцарь, королева, королевский дворец, легенда, аббатство

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 02.08.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Məmmədova Münəvvər tərəfindən çapa tövsiyə olunmuşdur.

GÜLNAR ƏQİQ
AMEA Nizami Gəncəvi adına Milli
Azərbaycan Ədəbiyyatı Muzeyi,
İtiqlaliyyət 53
gulnarjafarzade2002@gmail.com

QACARLAR DÖVRÜNDƏ NƏSRIN İNKİŞAFI VƏ BU DÖVRÜN TARIXİ-ƏDƏBİ MƏNZƏRƏSİ

XÜLASƏ

Qacarlar dövründə yaşayan Əbdürrəzzaq bəy Dünbüli, Fazil xan Gərrusi, Mirzə Sadiq Hümay Mərvəzi, Rzaqulu xan Hidayət və digərlərinin yazdıqları əsərlər bu dövrün nəsri haqqında mükəmməl təsəvvür yaradır. Bu ədiblərin əksəriyyəti Qacarların saray katib və salnaməçiləri və ya mühüm mənsəb sahibləri olmuş, əsasən tarixi xronika məzmunlu əsərlər qələmə almışlar. Bunların arasında İranla yanaşı Qafqaz, o cümlədən bütöv Azərbaycanın tarix və coğrafiyasının öyrənilməsi üçün də əhəmiyyət kəsb edən çox qiymətli bədii və tarixi əsərlər, təzkirələr vardır.

Fikrimizcə, məşrutə dövründə İranda meydana gəlmiş milli şüurda oyanış və ictimai-siyasi fəallıq öz qaynağını bu dövrün ədəbi mühitindən almışdır. Bütün dünyada baş verən böyük inqilabi təbəddülatların nəticəsində meydana çıxan cərəyanlar İranda da öz tərəfdarlarını tapırdı. Qacarlar dövrünün sonlarında qələmə alınmış Zeynəlabidin Marağayinin "Səyahətnameyi-İbrahim bəy" romanı, Əbdürrəhim Talıbovun, Mirzə Ağa xan Kirmaninin və digər maarifçilərin əsərləri vətənpərvərlik və milli şüur təfəkkürünün formalaşması yolunda böyük addım idi.

Qacarlar dövründə qələmə alınan nəsr əsərləri sonrakı yüzillikdə yenilikçiliyə doğru gedən ilk cığırların açılmasında böyük rol oynamışdır.

Açar sözlər: Qacarlar, XIX yüzillik, nəsr, təzkirələr, yenilikçilik.

Tarix boyunca baş verən mühüm olaylar həmin dövrün ədəbi mühitinə də öz təsirini göstərmişdir. Əgər qüdrətli səfəvilər sülaləsinin hakimiyyət illəri həm İran, həm də Azərbaycanda mədəniyyət və incəsənətin çiçəklənməsi ilə müşahidə olunurdusa, əfşarlar dövründə ölkənin mədəni həyatında durğunluq yaşanırdı. XVIII əsrin sonlarında Qacarlar sülaləsinin siyasi hakimiyyətə gəlməsi ədəbiyyat aləmində də bir canlanma yaratdı. Bu dövrün ictimai-siyasi mənzərəsinə nəzər salsaq, ədəbi mühitdə baş verən "yenilikçilik" hərəkatının Çar Rusiyası və Osmanlı Türkiyəsi ilə həmsərhəd olan Azərbaycandan başladığının şahidi oluruq. XIX əsrdə mədəni həyatda baş verən dirçəliş prosesi bu dövrdə Şimali Azərbaycanda A. Bakıxanov, M. Ş. Vazeh, M. F. Axundzadə, İ. Qutqaşınlı, H. Zərdabi kimi maaarifpərvər ziyalılar yetirmişdirsə, Cənubi Azərbaycanda da mədəniyyətin müxtəlif sahələrində, o cümlədən ilk mətbəəbnin yaradılması, qəzet-jurnal çapı, hərbi sənaye və silah istehsalı kimi sahələrdə və Avropa ölkələri ilə iqtisadi-mədəni əlaqələrin yaradılması işindəki nailiyyətlər bu dövrün əsas göstəriciləridir.

Qacarlar sülaləsinin hakimiyyətə gəlişi farsdilli poeziyanın inkişafında yeni mərhələnin başlanğıcı oldu. Bildiyimiz kimi 140 ilədək hakimiyyət sürən bu sülalənin əsası Ağa Məhəmməd şah tərəfindən 1794-cü ildə qoyulmuşdur. Bütün hakimiyyəti boyunca hərb meydanlarında ölkənin birləşdirilməsi uğrunda mücadilə aparan Ağa Məhəmməd şah mədəni həyata ilgi göstərə bilməmişdi. Lakin o "tacqoyma mərasimində Şeyx Səfi məqbərəsindəki səfəvi şahlarının qılıncını rəmzi şəkildə belinə bağlaması ilə qacarlar sülaləsinin səfəvilərin

rəsmən varisi olmasını və onların dini siyasətini himayət etməsini nümayiş etdirdi.” [1, 931] Ağa Məhəmməd şahın bu siyasi davranışı sonrakı qacar şahları tərəfindən də dəstəklənmiş və qacar dövlətinin siyasətini istiqamətləndirən əsas meyar din olmuşdur.

1797-ci ildə Ağa Məhəmməd xan Qarabağ xanlığının Şuşa şəhərində qətlə yetirildikdən sonra dərhal taxta onun qardaşı oğlu vəliəhd Baba xan Cahansuz əyləşdi və 1726-cı ildə Nadir şah Əfşar tərəfindən öldürülən babalarının şərəfinə özünü Fətəli şah adlandırdı. 1834-cü ilədək dövləti idarə edən Fətəli şahın hakimiyyət illəri də qansız-qadasız ötüşmədi, lakin onun özünün də şairlik istedadına malik olması şahı seirə-sənətə laqeyd qalmamağa sövq etdi. Məhz Fətəli şahın poeziyaya böyük dəyər verməsi həm sarayda, həm də saraydan kənar məhsuldar ədəbi mühitin yetişməsinə və poeziyada yeni inkişaf istiqamətinin yaranmasına səbəb oldu.

Qacar sarayının ədibləri

XIX yüzillikdə poeziya ilə yanaşı nəsr sahəsində də gözəçarpan inkişaf prosesi gedirdi. Qacarlar dövrü nəsrinin əsas istiqaməti saray tarixçiliyi, şairlərin yaradıcılığını əks etdirən təzkirəçilik, divanxana məktub və sənədlərindən ibarət olan “münşəat” yazmaq olmuşdur. Dövrün tanınmış və istedadlı ədibləri bu sahələrə aid qiymətli əsərlər yazaraq təkcə nəzm deyil, nəsr sahəsində də tərəqqi prosesini həyata keçirmişlər. Bu dövrün Əbdürrəzzaq bəy Dünbüli, Fazil xan Gərrusi, Mirzə Sadıq Hüma Mərvəzi Vəqayenegar, Mirzə İsa Qaimməqam Fərahani, Mirzə Tağı Əliabadi Sahibdivan, Mirzə Səfər Riyaz Həmədani, Mirzə Tahir Şeiri, Sultan Əhməd Mirzə Əzödüddövlə, Mahmud Mirzə Qacar, Cahangir Mirzə Qacar, Hacı Fərhad Mirzə Mötəmədüddövlə, İmamqulu Mirzə Qacar, Nadir Mirzə Qacar, Məhəmmədhəsən xan Etimadüssəltənə, Məhəmmədbağır Mirzə Xosrovi, Mirzə Məhəmməd İbrahim Nəvvab Bədayenegar, Mirzə Fəzlullah Şirazi Xavəri, Məhəmmədtağı xan Sepehr Lisanülmülk, Rzaqulu xan Hidayət və başqa mötəbər qələm sahibləridir. Adlarını sadaldığımız bu ədiblərin hər biri qacarlar dövründə sarayla bağlı olan yüksək mənsəb sahibləri, bəziləri isə bu sülaləyə mənsub şahzadələr olmuşlar.

Bu ədiblərdən bəziləri həm tarixi salnamələr, həm də təzkirələr yazmışlar. Təzkirəçilik sənəti qacarlar dövründə yüksək inkişaf mərhələsi keçmişdir. Təzkirə ərəbcə “zikr” sözündən götürülmüş, lüğəvi mənası “xatırlatma, yada salma” deməkdir. Təzkirələr məşhur ədib və şairlərin tərcümeyi-halı və yaradıcılığı haqqında məlumat verən əsərlərdir. Klassik Şərq poeziyasının öyrənilməsində əvəzsiz tədqiqat obyekti kimi təzkirələr ən etibarlı mənbə hesab edilir. Bu təzkirə müəlliflərinin həyat və yaradıcılığına nəzər saldıqda onların hər birinin elm və kamal sahibləri, əksər hallarda isə özlərinin də şair olduqlarınn şahidi oluruq.. Əsasən ərəb, fars və türk dillərində yazılan təzkirələrdə şairlərin doğum və vəfat tarıxi, həyatlarının önəmli məqamları göstərilir, əsərlərinin qısa məzmunu şərh edilir və kiçik nümunələr verilirdi. Ensiklopedik xüsusiyyət daşıyan təzkirələr müasir ədəbiyyat tarixinin qədim şəkli hesab edilə bilər.

Araşdrmalar göstərir ki, Şərqdə ədəbi salnaməçilik və təzkirəçilik ənənəsi orta əsrlərdən başlasa da, daha çox səfəvilər dövründə rövnəq tapmış, XVI yüzillikdən etibarən şairlərin əsərlərindən nümunələr toplanaraq saray katibləri tərəfindən yazıya alınmışdır. Klassik Şərq, o cümlədən Azərbaycan ədəbiyyatının öyrənilməsində mühüm rol oynayan məşhur təzkirələrdən aşağıdakıların adlarını çəkə bilərik: Dövlətşah Səmərqəndinin “Təzkirətüş-şüəra”, Məhəmməd Ovfinin “Lübabül-əlbab”, Sam Mirzənin “Töhfeyi-Sami”, Əhdi Bağdadinin “Gülşəni-şüəra”, Əlişir Nəvayinin “Məcalisül-nəfayis”, Lütfəli bəy Azərin “Atəşkədeye- Azər”, Rzaqulu xan Hidayətin “Məcməül-füsəha”, Sadiq bəy Əfşarın “Məcməül-xəvas”, Əziz Dövlətabadinin “Soxənvərani-Azərbaycan”, Mir Möhsün Nəvvabın “Təzkireyi-Nəvvab”, Məhəmmədəli Tərbiyətin “Danişməndani-Azərbaycan”, Əli Nəzmi “Devist soxənvər”və digər əsərlər Şərq ədəbi mühitinin öyrənilməsi üçün əhəmiyyətli məxəzlər sayılır. Təzkirəçilik tarixi ilə bağlı aparılan araşdırmalar göstərir ki, “bu günədək azərbaycanlı müəlliflər tərəfindən 46 təzkirə

qələmə alınmışdır ki, bunların da təxminən yarısının yazılma tarixi qacarlar sülalələsinin hakimiyyət illərinə təsadüf edir.” [2, 39] XIX əsrin ədəbi mühitinə nəzər salsaq bu dövrdə poeziya sənətində mühüm bir canlanmanın və gözəçarpan sıçrayışın şahidi oluruq. Beləcə, poeziyanın inkişaf mərhələləri öz inikasını təzkirələrdə tapmışdır. Qacarlar sülaləsinin iki qüdrətli hökmdarının, Fətəli şah Qacar və sonralar Nasirəddin şah Qacarın şeirə-sənətə göstərdikləri qayğı sarayda təzkirəçilik ənənəsinin inkişafına səbəb olmuşdur. İranlı ədəbiyyatşünas alim Əhməd Gülçin Məani fars təzkirələrinin tarixini tədqiq edərkən “Tarixi-təzkirehayi-farsi” əsərində XIX əsrdə azərbaycanlı müəlliflər tərəfindən tərtib olunmuş 22 təzkirənin adını çəkir. Bu təzkirə yazarların əksəriyyəti qacar xanədanına mənsub şahzadələrdir. [3, 27]

Əbdürrəzzaq bəy Dünbüli, Məhəmməd Fazil xan Gərrusi, Bəhmən Mirzə Qacar, Hülaku Mirzə Qacar, Xudaverdi xan Qacar, Məhəmmədbağır xan Qacar, Məhəmmədhəsən xan Etimadüssəltənə, Mahmud Mirzə Qacar, Heydərqulu Mirzə, Seyfüddövlə Sultan Məhəmmədtağı və digərləri öz dəyərli əsərləri ilə qacarlar dövrünün tarixi-ədəbi mənzərəsinə aydınlıq gətirməklə yanaşı, həm də Azərbaycan təzkirəçilik sənətini zənginləşdirmişlər.

Əbdürrəzaq bəy Dünbüli Azərbaycani (1762-1827) Cənubi Azərbaycanın Xoy şəhərində doğulmuş, kişik yaşından dövrünün elm və fəzilət sahiblərinin himayəsində olmuş, öz bilik və istedadı ilə yüksək məqama çatmışdır. Bir müddət şahzadə Abbas Mirzə Qacarın xidmətində çalışmışdır. Dərin zəka və qüdrətli qələm sahibi olan Əbdürrəzzaq bəy “Məftun” ədəbi təxəllüsü ilə şeirlər də yazmışdır, qəzəl və qəsidələrindən və “Naz və Niyaz” adlı məsnəvidən ibarət şeir divanı da vardır. Onun ədəbiyyat aləminə üç təzkirəsi məlumdur: “Nigaristani-Dara”, “Təcrübətül-əhrar və təsliyyətül-əbrar” və “Hədayiqül-üdəba”.

Əbdürrəzzaq bəy “Nigaristani-Dara” təzkirəsini Təbrizdə olarkən 1825-ci ildə vəliəhd Abbas Mirzənin sifarişi ilə yazmışdır. Dörd nigarxanadan (fəsildən) ibarət olan bu əsər Fətəli şah Qacara, Qacar şahzadələrinə, saraya yaxın olan qələm əhlinə və əyalət şairlərinə həsr olunmuşdur. Təzkirədə təxminən iki yüzədək şair haqqında məlumat verilir. Əbdürrəzzaq bəyin burada verdiyi şeir nümunələri əsasən farsca olsa da, ara-sıra ərəbcə və türkcə şeirlərə də rast gəlinir.

Əbdürrəzzaq bəyin qələmə aldığı ikinci təzkirə “Təcrübətül-əhrar və təsliyətül-əbrar” adlanır, əsər üç fəsildən ibarətdir, birinci fəsil dünbüli tayfasının tanınmış alim və arifləri, ikinci fəsil zəndiyyə dövrünün şairləri, üçüncü fəsil isə müəllifin həyat və yaradıcılığı və dövrünün ictimai-siyasi hadisələri haqqındadır. M. Bahar bu təzkirəni bazgəşt dövrünə aid olan ən mühüm qaynaqlardan hesab edir.

Əbdürrəzzaq bəyin tarixi mövzuda qələmə aldığı “Məaseri-sultaniyye” adlı əsəri də məlumdur ki, qacarlar dövrünün tarixinin araşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Məhəmməd Fazil xan Gərrusi (1784-1837). Məhəmməd Fazil xan İranın Həmədan vilayətinin Gərrus nahiyəsində doğulmuş, türk tayfası olan Bayandurlar nəslindəndir. Onun uşaqlığı Gərrusda keçmiş, sonra Reyə, oradan da Tehrana köçmüşdür. O, Tehranda saraya yaxın olan tanışları vasitəsilə Qacarlar sarayında işə düzəlmiş, öz bilik və zəkası ilə Fətəli şahın rəğbətini qazanmış və onun ən yaxın adamları sırasında yer almışdır. Azərbaycan türkcəsi ilə yanaşı, fars və ərəb dillərini də mükəmməl bilən Məhəmməd Fazil xan tez-tez sarayda təşkil olunan poeziya məclislərində iştirak edir və bu məclislərdə klassik şairlərin əsərləri ilə yanaşı öz şeirlərini də oxuyurdu. Buna görə də o, “Ravi” (rəvayət edən) adı ilə şöhrət qazanmış, şeirlərini də bu ədəbi təxəllüslə yazmış və divan tərtib etmişdir. Lakin ədəbi tənqidçilər onun nəsr əsərlərini poeziyasından daha yüksək qiymətləndirirlər. Görünür bu fikirlər onun qələmə aldığı ədəbi salnamələrin XIX əsrin Şərq ədəbi mühitinin öyrənilməsi üçün mühüm rol oynaması ilə bağlıdır. Təsadüfi deyil ki, adlarını çəkdiyimiz digər təzkirə müəllifləri

(Əbdürrəzzaq bəy Dünbüli, Rzaqulu xan Hidayət) öz əsərlərini qələmə alarkən məhz Fazil xanın "Əncüməni-Xaqan" təzkirəsindən faydalanmışlar. Bu təzkirə kitabı əsasən Fətəli şah Qacarın İsfəhanda təşkil etdiyi eyni adlı şairlər məclisi və bura toplaşan sənətkarlar haqqındadır. Əsər müqəddimə, dörd əncümən və xatimə hissələrindən ibarətdir Əsərin müqəddiməsində qeyd edildiyi kimi, Məhəmməd Fazil xan ondan daha öncə şahın sifarişi ilə əslən gürcü mənşəli Əhməd bəy Əxtər və onun qardaşı Məhəmməd bəy Bağır Nişati tərəfindən tərtib edilmiş "Əncümənara" adlı təzkirə müəlliflərin vəfatı üzündən bitirilməmiş və o, adı çəkilən əsər əsasında yeni bir təzkirə kitabı ərsəyə gətirmişdir. O, müqəddimədə bu dövrün şairlərinin adlarının heç bir kitbda səbt olunmadığını və bu əsəri Fətəli şahın göstərişi ilə yazdığını qeyd edir. [4,12] Birinci əncümən Qacar elinin müxtəsər tarixini, Fətəli şahın taxta çıxmasını, onun ölkəni idarə etməsi və yaradıcılığından seçilmiş nümunələri əhatə edir. İkinci əncümən Qacar şahzadələri və bu sülalənin adlı-sanlı əmirləri haqqındadır. Üçüncü əncümən sarayla əlaqəsi olan qələm əhlinə, dördüncü əncümən əyalət şairlərinə həsr edilmişdir. Xatimə (sonluq) müəllifin öz həyat və yaradıcılığı haqqındadır. Əsər 1818-1819-cu illərdə Tehranda yazılmışdır. Fətəli şah Qacarın hakimiyyət illərində (1797-1834) poeziyanın sarayda və saraydan kənarda inkişaf dinamikasını öyrənmək baxımından bu əsər qiymətli mənbə sayılır.

Rzaqulu xan Hidayət (1800-1871). Qacarlar dövründə yaşamış görkəmli dövlət xadimi və ədib olmuş, öz fəaliyyəti dövründə müxtəlif vəzifələrdə, o cümlədən İranda açılmış ilk Avropa tipli ali məktəb olan Tehran Darülfununun rektoru vəzifəsində çalışmışdır. Yüksək istedad sahibi olan Rzaqulu xan yaradıcılığının ilk dövrlərində "çakər" təxəllüsü ilə şeirlər yazmış və Fətəli şah Qacarın baş saray şairi olmuş, "Əmirüşşüəra" ləqəbi almışdır Onun ədəbi irsi otuz min beytlik şeir divanından, "Gülüstani-İrəm" və digər altı məsnəvidən, üç təzkirə kitabından və bir neçə tarixi salnamədən ibarətdir. Rzaqulu xanın qələmə aldığı dəyərli əsərləri aşağıdakılardır: "Riyazül-arifin", "Rövzətüs-səfayi-Nasiri" və "Məcməül-füsəha".

Bu əsərlərdən "Riyaz ül-arifin" əsərini Rzaqulu xan Məhəmməd şahın dövründə yazmış və təsəvvüf məqam və hallarının şərhinə və məşhur sufi şairlərinə həsr etmişdir.

Rrzaqulu xan Nasirəddin şahın zamanında isə şahın sifarişi ilə Mirxondun məşhur "Rövzət üs-səfa fi seyrət ül-ənbiya vəl müluk vəl xüləfa" adlı əsərinin əsasında "Rövzət üs-səfayi-Nasiri" kitabını yazmışdır. Hidayət Mirxondun yeddi cildlik tarixi əsərinə daha üç cild əlavə etmişdir, bu kitabın onun tərəfindən əlavə edilən səkkizinci cildi səfəvilərin və əfşarlardan, doqquzuncu cildi əfşarların süqutu və zənd tayfasının hakimiyyətindən, qacarların səltənətə yiyələnməsindən bəhs edilir. Onuncu cilddə isə Məhəmməd şahın hakimiyyəti dövründən və Nasirəddin şahın hakimiyyətinin ilk onilliyindən söhbət açır. Bu əsəri qacarlar dövrünün ən mühüm tarixi mənbələrindən saymaq olar.

Rzaqulu xan Hidayətin "Məcməül-füsəha" təzkirəsi Nasirəddin şah Qacarın dövründə yazılımış və fars dilində yazıb-yaradan şairlər haqqında sonuncu mükəmməl təzkirə hesab edilir. Özündən əvvəl yazılmış onlarla təşkirəni mütaliə edərək sonuncu mükəmməl təzkirə yaradan Rzaqulu xan bu kitabda 115 şah və şahzadə şair, 327 müxtəlif dövlərdə yaşayan şairlər haqqında məlumat verir. Böyük alim, yorulmaz tədqiqatçı olan Hidayət şeiri və şairləri adı sənət növü hesab etmir, onları fövqəladə istedad sahibləri sayırdı. Onun əsərinin müqəddiməsindəki bu sözləri diqqəti cəlb edir: "Heç kəsdən gizlin deyil ki, fələyin dəyirman daşı çox ömürləri öz girdabına salaraq fırladıb udmuş, ən qədim zamanlardan bəri yalnız söz yadigar qalmışdır." [5, 52]

Məhəmmədhəsən xan Səniüddövlə Etimadüssəltənə (1843-1896) Marağa şəhərində dünyaya gəlmiş, qacarlar dövrünün tanınmış dövlət xadimi, elm və kamal sahiblərindən olmuşdur. O, Tehran Darülfununun bitirdikdən sonra Fransaya getmiş, Parisdə təhsil almış, fransız dili, ədəbiyyatı, tarix və coğrfaiyası ilə yanaşı, ingilis dilini də öyrənmişdir. Təhsilini başa vurduqdan sonra İrana qayıdan Etimadüssəltənə Nasirəddin şahın zamanında həm Dar ül-

tərcümənin müdiri, maarif və mətbuat naziri, həm də şahın şəxsi mütərcimi olmuşdur. O, hər gün Nasirəddin şahı Avropa mətbuatının əsas xəbərləri ilə şəxsən tanış edərək şahda fransız dilinə maraq oyatmış və Nasirəddin şah az da olsa fransızca öyrənmişdi.

Etimadüssəltənə eyni zamanda ədəbi fəaliyyətlə də məşğul olmuş, Şərqin məşhur müsəlman qadınları haqqında üç cilddən ibarət mükəmməl bir təzkirə yazmışdır. O, 1887-1890-cı illərdə qələmə aldığı "Xeyrate-həssan" adlanan bu əsərdə 912 şairə haqqında məlumat vermişdir. İrandan təzkirəçilik tarixi ilə məşğul olan Əhməd Gülçin Məani bu şairələrdən 52-nin farsca yazan qadınlar olduğunu qeyd edir. [6, 610]

Etimadüssəltənə bu əsərində təkcə şair qadınlardan deyil, İslam Şərqinin adları tarixdə qalan həzrəti-peyğəmbərin anası Aminə binti-Vəhabdan tutmuş Fatimeyi-Zəhrayadək, həmçinin tanınmış ərəb, fars, türk, hind alim, ədib, arif, rəssam, xəttat qadınlardan da bəhs edir. Bu əsər Şərq qadınlarının ədəbi-mədəni və tarixi-siyasi rolunu öyrənmək baxımından çox qiymətli mənbədir. O, bu əsərində qacar şahlarının, o cümlədən Fətəli şahın hərəmxana qadınları haqqında da məlumat verir. Dil və yazı üslubu baxımından bu əsərin dibaçəsi sadə nəsrlə, kitabın mətni isə bəzi hallarda səclə yazılsa da, ümumiyyətlə sadə və aydın dildə yazılmışdır. İlk dəfə Tehranda müəllifin öz nəzarəti ilə 1887-ci ildə daşbasma üsulu ilə çap edilmişdir. [7, 14]

Mirzə Seyid Əbülqasım Fərahani Qaimməqam (1779-1835) İranın Ərak şəhərində dünyaya gəlib, atası Mirzə Bozorg Seyyidəlvüzəra Azərbaycan valisi idi. Atasının ölümündən sonra o, Təbrizə gedir, atasının yerinə qoyulur və "Qaimməqam" ləqəbi alır. O, Abbas Mirzənin vəliəhdliyi dövründə vəliəhdin şəxsi müşaviri (pişkar) olur və bilavasitə siyasi idarəçilik işlərində iştirak edir. İran-Rusiya müharibələrinin ikinci mərhələsində Qacar hökumətinə savaşı dayandırıb sülh bağlamağı təklif etdiyi üçün Qaimməqamı rusların tərəfdarı olmaqda günahlandırıb bir müddət vəzifəsindən uzaqlaşdırdılar və o, Xorasana gedir. Lakin 1827-ci ildə rus ordusu qraf Paskeviçin başçılığı ilə Təbrizi işğal etdikdə Fətəli şah bu uzaqgörən siyasətçini yenidən Tehrana saraya dəvət edir. İran və Rusiya arasında 1828-ci ilin oktyabrında imzalanan Türkmənçay sülh müqaviləsinin farsca mətnini də Qaimməqam hazırlamış və ruslara ödəniləcək təzminatı da Fətəli şahdan alaraq Təbrizə gətirmişdi. Qaiməqam bu sülh müqaviləsi ilə şahzadə Abbas Mirzənin və ailəsinin rus hökuməti tərəfindən daim himayə ediləcəyini də rəsmilşədirmişdi. Bu müqavilənin imzalanması ilə artıq rus dövləti Abbas Mirzəni İranın gələcək şahı kimi rəsmi olaraq qəbul edirdilər. 1834-cü ildə Fətəli şahın vəfatından sonra Qaimməqamın həyata keçirdiyi uzaqgörən tədbilrləri nəticəsində Abbas Mirzənin oğlu Məhəmməd Mirzə taxta çıxanda rusların da ona dəstəyi olmuşdu. Qaimməqamın İran ərazisində nisbi sabitliyin yaradılmasında, xüsusilə gənc vəliəhdin hakimiyyətə gətirilməsində mühüm rolu olmasına baxmayaraq Məhəmməd şah səltənətinin ikinci ilində ondan bədgüman olmuş, saray intriqalarının qurbanı olan Qaimməqam 1835-ci ildə həbs edilərək öldürülmüşdü..

Bu böyük ictimai-siyasi dövlət xadimi həm də istedadlı ədib və şair idi. Onun gözəl xətti, aydın və səlis yazısı var idi. Yazıçılıq istedadına və yaratdığı nəsr nümunələrinə görə müasirləri Qaimməqamı "fars inşasının allahı" adlandırmışlar. [8, 65]

Qaimməqamın nəsr əsərləri onun Fətəli şah, vəliəhd Abbas Mirzə və Məhəmməd Mirzənin adından müxtəlif məsul şəxslərə yazdığı məktub və fərmanlardan bə bir neçə risalədən ibarətdir. Onun bu məktubları sonralar qacarlar dövrünün ictimai-siyasi mənzərəsini əks edtirən mühüm mənbə kimi "Münşəaate-Qaimməqam" adı altında çap olunmuşdur. O, bu məktublarında Sədinin "Gülüstan"ında olduğu kimi nəsre-müsəccedən və arabir şeirlərdən istifadə etmişdir.

Qaimməqamın şairliyi də var idi, "Sənayi" təxəllüsü ilə hərdən şeirlər yazırdı. Mənbələrdə onun üç mun beytə qədər şeiri var idi. Onun vəliəhd Məhəmməd Mirzənin mədhinə yazdığı "Cəlayirnamə" adlı məsnəvisi var ki, sonralar İrəc Mirzə özünün "Arifnamə" məsnəvisini ona nəzirə olaraq yazmışdır. [9, 48]

Mirzə Məhəmmədsadiq Mərvəzi Vəqayeneqar (1772-1834) Mərvdə əsilzadə ailəsində dünyaya gəlmiş, əvvəlcə Məşhəddə, sonra Nəcəfdə ali dini təhsil almış, atasının ölümündən sonra Kaşana gəlmişdir. Kaşanda dövrünün tanınmış şairlərindən Səbahi Bidqolinin yanında poeziya sənətinin sirlərinə yiyələnmişdir. Bir müddət sonra Tehrana Fətəli şahın sarayına gəlmişdir. Sarayda əvvəlcə münşi (katib), sonra isə "vəqayeneqar" (salnaməçi) vəzifəsinə təyin edilmişdir. Fətəli şahın göstərişi ilə Mirzə Məhəmmədsadıq Mərvəziyə qacarların tarixini yazmaq tapşırılmışdı. O, 1800-cü ildə iki cilddən ibarət olan əsərini yazmağa başladı və əsərin "Tarixe-cəhanara" adlanan birinci cildini 1810-cu ildə yazıb bitirmişdir. Sonra tarixə aid "Qəvaid əl-müluk" və "Şime-Abbasi" adlı iki kitab da yazmış, Fətəli şahın tərifinə yazılmış qəsidələri toplayaraq toplu halına salmış və şah özü bu topluya "Ziynət ül-mədayeh" adını vermişdi.

Mərvəzi qacarlar dövrünün məşhur ədiblərindən sayılır, nəsr əsərləri yazmaqda çox mahir idi, lakin Məlikəşşüəra Bahar onun yazı tərzini yeni hesab etsə də, Qaimməqama çatmadığını yzaır. [10, 337]

Yəğma Cəndəqi (1781-1859). Mirzə Rəhim Yəğma İranın Semnan vilayətinin Xur mahalının Cəndəq adlanan ucqar və yoxsul bir kəndində doğulmuşdu. Yəğma Cəndəqinin çox acı və əzablı həyatı olmuş və çəkdiyi iztirablar bədii yaradıcılığında da öz əksini tapmışdır. Onun bədii irsi əsasən qəsidə, qəzəl, qitə, rübai və tərcibəndlərdən ibarət olan şeirlərindən və yazdığı məktublardan ibarət nəsr əsərlərindən ibarətdir. Yəğmanın nəzm əsərlərinin əsasını müxtəlif şəxslərə yazdığı tənqidi-satirik məzmunlu həcvnamələr təşkil edir. O, bu tip şeirlərində həddindən artıq nalayiq sözlər işlətmiş və çəkdiyi zülmlərin acısını misralarda ifadə etməyə çalışmışdır. [11, 64]

Yəğmanın "Münşəaatı-Yəğma" adı ilə çap olunan və divanının üçdə bir hissəini təşkil edən nəsr əsərləri onun övladlarına (Mirzə İsmayıl Hünər, Mirzə Məhəmmədəli Xətər, Mirzə Əhməd Səfayi və Mirzə İbrahim Dəstan), müasirləri olan qələm əhlinə, o cümlədən şahzadə Seyfəddövlə və Bəhaüddövləyə, Yəğmanın şeirlərini toplayıb divanını tərtib edən Hacı Məhəmməd İsmayıla və b. yazdığı məktublarıdır. Onun məktublarının dili sadə, aydın və hər cür bəzək-düzək və təmtəraqdan uzaqdır. Bunu bir çox tədqiqatçılar Yəğmanın ərəb dilinin incəliklərinə bələd olmaması ilə əlaqələndirirlər. O bəzən bu məktublarında o vaxtadək fars nəsrində işlənməsi dəbdə olan ərəbcə söz və ifadələrinin əvəzinə çoxdan unudulmuş qədim fars sözləi işlədirdi ki, bu da yeni fars nəsrinin formalaşmasında mühüm rol oynamışdı.

İrəc Mirzə (1873-1926). Ulu babası, babası və atası şair olan şahzadə İrəc Mirzə Cəlalülməmalikin şair olması təəcüblü deyildi. O, Təbrizdə şair Qulamhüseyn Mirzə Behcət Qacarın ailəsində doğulub. İrəc Mirzə şairlik etməyə başladığı ilk dövrdə Təbrizdə vəliəhd Müzəffərəddin Mirzənin sarayında yaşamış və əsasən məədhiyyələr yazmaqla məşğul olmuşdur. Onun yaradıcılığının ikinci və məhsuldar mərhələsi məşrutə inqilabı və bu inqilabın təsiri ilə baş vermiş ictimai-siyasi təbəddülatlar dövrünə təsadüf edir. İrəc Mirzənin Təbrizdə yaşadığı zaman gözəl xətlə qələmə aldığı dəftərxana məktubları yeni fars nəsrinin ən mükəmməl nümunələrindəndir. Rəsmi üslubda qələmə alınmış bu məktublar sadə və aydın dildə yazılmış, o dövrün ədəbi mühiti üçün yenilik idi.

Adlarını sadaladığımız ədiblərin hər birinin XIX əsr fars nəsrinin sadələşməsində mühüm xidmətləri olmuş, onlar yadigar qoyduqları dəyərli əsərləri ilə dövrün ictimai-siyasi və mədəni mənzərəsini işıqlandırmaqda böyük rol oynamışlar.

Qaynaqlar

1. پیرنیا، حسن. آشتیتنی، عباس اقبال. پرویز بابایی. تاریخ ایران. تهران. انتشارات نگاه. 1388
2. Musalı, Vüsalə. Azərbaycan təzkirəçilik tarixi. Bakı, Elm və təhsil. 2012. 377 s.
3. معانی، احمد گلچین. تاریخ تذکره های فارسی. ج اول. تهران، انتشارات دانشگاه تهران. 1363
4. گروسی، فاضل خان. تذکره ی انجمن خاقان. بتصحیح توفیق صبحانی. تهران. انتشارات روزنه.
5. هدایت، رضاقلی خان. مجمع الفصحا. بتصحیح مظاهر مصفا. ج اول. انتشارات امیر کبیر. 1361
6. معانی، احمد گلچین. تاریخ تذکره های فارسی. ج سوم. تهران، انتشارات دانشگاه تهران. 1363
7. خیرات حسان. به کوشش ابوالقاسم رادفر. تهران. انتشارات پژوهشگاه علوم انسانی و مطالعات فرهنگی. 1394.ج اول
8. آرین پور، یحیی. از صبا تا نیما. ج اول. تهران، انتشارات زوار. 1372
9. ایرج میرزا. دیوان کامل اشعار. باهتمام محمد جعفر محجوب. تهران، نشر اندیشه. 1353
10. بهار، محد تقی . سبکشناسی. ج اول. تهران، انتشارات طوس. 1385
11. کلیات یغما جندقی. به ویراستاری علی آل داود. تهران، انتشارات توس. 1384

Aqiq Gulnar

The progress of the prose in the Kajars' era
and the literary-historical appearance of this period

Summary

The writers as Abdurrazzak Beg Dunbuli, Fazil Khan Garrusi, Mirza Sadiq Khumay Mervazi, Rzakulu Khan Hidayat and others living in the Kajars' era make a perfect imagination about the prose of this period. Most of these writers were secretaries and chroniclers, or important personalities in the Kajars' court and had wrote mainly historical chronicles.

Among them are valuable literary and historical works that are very important for the studying of the history and geography of the Caucasus, including the whole Azerbaijan.

In my opinion, the awakening of national consciousness and socio-political activity that formed in Iran during the Constitutional monarchy (Mashrute) period has taken its source from the literary environment of that period. The currents that have arisen as a result of the great revolutions surrounded all over the world have found their supporters in Iran as well.

The book "Sayahatnameyi-Ibrahim Beg" written by Zeynalabidin Maraghai, at the end of the Kajar period, also the novels of Abdurrahim Beg Talibov, Mirza Agha Khan Kirmani and other enlightener novels played a major role in the opening of the first roads to innovation movement in the next century.

Key words: Kajars, 19th Century, prose, lieterary chronicles, innovation.

Агиг Гюльнар

Развитие прозы в эпоху Каджаров и
историко-литературное обозрение этой эпохи

Резюме

Произведения Абдурраззаг бек Думбули, Фазиль хан Герруси, Мирза Садиг Хумай Мервези, Рзакулу хан Хидаята и других поэтов, живших в эпоху Каджаров, создают ясное представление о прозе той эпохи. Большенство этих литераторов были придворными секретарями и летописцами, или же высокими должностными лицами, писавшие , в основном, историческую хронику. Среди них есть исторические произведения и антологии, которые очень ценны в изучении истории и географии Ирана, Кавказа, в том числе и Азербайджана в целом.

По нашему мнению, в Иране в период революции, пробуждение, возникшее в национальном сознании, и общественно-политическая активность берут свои истоки из литературной среды этой эпохи.

Направления, возникшие в результате происходившего во всём мире революционного переворота, нашли своих сторонников и в Иране. Созданные в конце перида правления Каджаров роман Зейналабдина Марагаи «Сеййахетнамеи-Ибрагим бек» , произведения Абдуррагима Талыбова, Мирза Ага хан Кирмани и других просветителей стали первым шагом на пути к патриотизму и формировании национального самосознания.

Прозаические произведения, созданные в период Каджаров, в последующих столетиях сыгрыли большую роль в поисках первых путей к новаторству.

Ключевые слова : Каджары, XIX век, проза, антология, новаторство.

Redaksiyaya daxil olma tarixi: 21.04.2019
Çapa qəbul olunma tarixi: 03.08.2019
Filologiya elmləri doktoru, Kamil Allahyarov tərəfindən çapa tövsiyə olunmuşdur.

LAMİYƏ XANLAROVA
Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası
Ələsgər Qayıbov 6
lamiya.khanlarova@mail.ru

ÜMUMTÜRK PUBLİSİSTİKASINDA MUSTAFA KAMAL ATATÜRK ZİRVƏSİ

Xülasə

Tük dünyasının öndəri Mustafa Kamal Atatürk XX əsrin və mən deyərdim ki, gələcək bütün əsirlərin dünya miqyaslı ən nadir şəxsiyyətlərindəndir. Cümhuriyyət dövründən etibarən Atatürkün fəaliyyəti nə qədər türk ədəbiyyatında, xüsusi olaraq ədəbiyyatın fəal qolu olan poeziyada poetik ifadəsin tapdığı kimi publisistikada da bir Mustafa Kamal Atatürk zirvəsi yaranmağa başladı. Çap olan məqalələrdə şeirdən fərqli olarak Türkiyə cümhuriyyətinin əsasını qoyan Atatürkün fəliyyəti, istər Ankarada, Karsda, Ərzurumda, Samsunda, Amasyada apardığı işlərin əhəmiyyəti də vurğulanırdı. Təbii ki, publisistika digər janırlardan fərqlənirdi. Daha aktiv janr olan publisistikada Atatürkün fəliyyətini, qazandığı nailiyyətləri yalnız Türkiyədə deyil dünyaya yayırdı. Azərbaycanda da zamanından asılı olmayaraq bir Atatürk zirvəsi, Atatürk ucalığı var. Atatürk haqqında Azərbaycanda Ulu Öndər Heydər Əliyev hər zaman Atatürk ideyalarından böyük fəxarətlə bəhrələnirdi. Heydər Əliyev hər zaman deyərdi ki, "Atatürkün yaratdığı Türkiyə sadəcə sizin üçün deyil, bütün türk dünyası və xüsusi ilə Azərbaycan üçün xüsusi əhəmiyyətə malikdir". Azərbaycanda Atatürk mərkəzinin qurulması, Atatürk ideyalarından bəhs edən məqalə və əsərlərin çap olması Atatürk ucalığından bəhs edilməsi böyük əhəmiyyət kəsb edir. Aynurə Paşayevanın "Rafik Zəka Xəndan publisistikasında Türkiyə mövzusu" adlı məqaləsində Rafik Zəkanın uca Atatürk sevgisi ilə bərabər Atatürk fəliyyəti də əks olunur. 1998–ci ildə Rafik Zəkanın "Atatürkiyə" adlı kitabı çap oldu. Kitabda Atatürk şəxsiyyəti Türkiyə respublikasının uluslararası laureatı, prof.R.Z.Xəndanın yaddaşında adi bir dövlət qurucusu deyil, bütün türklərin atası adına laiq olan bir dahi kimi canlanır. Müəllif Türkiyəni Atatürk ismindən ayrı təsvir edə bilmir. 1923-cü ildə Atatürk Türkiyəni xaricilərdən xilas edib yenidən nəfəs verməsi bu əsərin əsas ideyasını təşkil edir. Elə buna görə də Xəndan Türkiyəyə səyahətnaməsini Atatürkiyə adlandırmışdır.

Açar sözlər: Atatürk, publisistika, ideya, sevgi, poeziya, cümhuriyyət

Giriş

Publisistika ədəbiyyatın ən öndə gedən fəal janrıdır. Bir hadisəyə münasibət bildirərkən nəzmdən, nəsrdən fərqli olaraq publisistika öz sözünü boyasız, bədii təxəyyülsüz real şəkildə əks etdirir. Bu janr hər zaman müharibələrdə, faciələr zamanı daha fəal şəkildə münasibət bildirir. Bu baxımdan Mustafa Kamal Atatürkün fəliyyəti, ideyaları, hürrüyyət arzuları, bir cümhuriyyət qurucusu kimi gördüyü işlər ümumtürk publisistikasında mükəmməl şəkildə əksin tapmışdır. Xüsusilə Utkan Qocatürk, Rəfik Zəka Xəndanın, Heydər Əliyevin Atatürk haqqında məruzə və fikirləri, "Atatürkün xatirələri və Atatürk haqqında xatirələr" bu kitaba daxil edilmiş Atatürk haqqında məqalələri xüsusi olaraq qeyd etmək istərdim. Damar Arikoğlu, Dr.Tofiq Rüşdü Aras, Şükrü Qaya, Həsən Rəşid Tanqut, Əhməd Cavad Əmrə və onlarca publisistin Atatürk xatirələri maraq doğurur. Azərbaycanda Qənirə Paşayevanın "Dünyanın itirdiyi böyük

adam" və onlarca publisistik əsərlərlə bərabər hətta Atatürk haqqında şeirlər də yazılmışdır ki, bu şeirlərdə də ulu Atatürkün fəliyyəti bir az da publisistik deyimdə əks edilib,

Bu publisistik əsərlərdə Atatürkə verilən qiymət və böyük məhəbbətdən söhbət açılır. Təbii ki, ilk nümunəni Ulu öndərimiz Heydər Əliyevdən gətirəcək və Heydər Əliyevin Atatürkə verdiyi dəyərdən bəhs edəcəm. "Atatürk fenomeni" başlıqlı yazıda Heydər Əlirza oğlu Əliyev yazır: " Mustafa Kamal Atatürkün xidmətləri bir də ondan ibarətdir ki, o, Türkiyə Cümhurriyyətinin nəyinki əsasını, təməlini qoydu, həmdə onu qurdu, onun bütün təsisatlarını yaratdı., böyük dövlət etdi, bugünkü nəslə, gənclərə əmanət edərək özünü əbədiyyətə qovuşdurdu.(1, 14) Onu da qeyd edim ki, adı çəkilən kitabın tərtibçisi və ön sözün müəllifi Xanım Məmmədovadır və kitaba ön sözündə bir çox məqamlara aydınlıq gətirir. Tərtibçinin də Atatürk haqqında fikirləri maraq doğurur.Böyük Atatürkün fəaliyyətlərindən, onun haqqında xatirələri Azərbaycan türkcəsinə çevirən müəllif yazır:

"Biz Azərbaycanlılar türk dünyasının iftixarı, qüruru olan Atatürkü ürəkdolusu bir məhəbbətlə sevir və onun böyük əmelləri ilə həmişə fəxr edirik Bizim tarixçilərimiz, böyük şəxsiyyətlərimiz də daim ona üz tutur, yeri gələndə onun qiymətli fikirlərinə istinad edir, Onun şərəfli həyat yolunu özləri üçün bir nümunə hesab edirlər. Bu bir həqiqətdir ki, hər bir türk üçün Atatürk sevgisi sonsuz və əbədidir. Böyük Atatürkün Türk millətinə verdiyi ən yüksək dəyər onun bu qiymətli sözlərində çox düzgün və doğru ifadəsini tapmış və o gündən bu günə kimi hər bir türk bu sözləri təkrar edir və nə qədər Türk xalqı Türk Dövləti, Türk Dünyası var, hər zaman da bu sözlər xüsusi qürur hissiləsəslənəcəkdir: "Nə mutlu Türküm deyenə" (2, 5)

Kitabda Əli Qılıncın xatirələri də maraqlıdır. Əli Qılınc Atatürkün hamıdan seçilməsini izah edərkən gözəl müşahidə etdiyi faktlara əsaslanır. Xatirə müəllifi əsgər olaraq iştirak etdiyi Canaqqala savaşında yaralanmış və düşmənlə Qafqaz cəbhəsində də döyüş-müşdür. Milli mücadilədə iştirak etmək üçün ordudan istefa edib Sivas Konfransı keçirilən vaxtlarda Mustafa Kamal Paşanın yanına getmiş, onunla həm tanış olmuş, həm də Fransız işğalı altında olan Maraş və Qazantəp ətrafında bu işğalçı qüvvələrə qarşı lazım olan dəstəni qurması əmir almışdır. Qılınc savaşdan sonrakı vaxtlarda da Atatürklə yaxın olmuşdur ki, məhz buna görə də Atatürk haqqında gözəl xatirələri olub. Qılınc 1930-cu ildə Ankarada toplanan Birinci Türk Tarix Konfransının axırında Mərmərə köşkündə müəllimlərə verilən çay süfrəsində din və xilafət mövzularında bir müəllimin sualına Atatürkün verdiyi cavabı belə xatırlayır.

"- Paşam din lazımlı bir şeydimi? Xilafətin aradan götürülməsi yaxçımı olmuşdur?

Atatürk bu suala çox yumşaq bir şəkildə cavab vermişdi:

- Bəli, din lazımlı bir qurumdur. Dinsiz ölkələrin davamlılığına imkan yoxdur. Yalnız bir məsələ vardır ki, din tanrı illə qul arasındakı bir bağlılıqdır. Mürtəce dindarların havadarlığına imkan verilməməlidir. Dindən maddii gəlir əldə edənlər iyrənc məxluqlardır. Bax, biz belə bir vəziyyətə qarşı çıxırıq və onların bu sahədəki süni canfəşanlığına icazə vermirik. Bu gün din ticarəti, din alveri edən insanlar saf və məsum xalqımızı aldatmışlar.. Bizim və sizin əsil mücadilə etdiyimiz və edəcəyimiz bir tip şəxslərdir və onların törətdikləri əməllərdir"(3, 12)

Məqalədə yalnız Atatürkün dinlə bağlı deyil Laiqliklik haqqında da fikirləri vardır. Qılıncın publisistik yazısında Atatürkün daxili aləminin zəngilikləri, özündən böyüklərlə və eyni zamanda özündən kiçiklərlə rəftarı da belə üzə çıxır.

Məqalədə Hatay problemlərinə də yer verilmişdir.

Kitaba daxil edilmiş SalihBozokun xatirəsi də marq doğurur. Onun xatirəsindən məlum olur ki, Atatürkü şəxsən tanımayanlar onu uzun saqqallı, nurlu üzlü mir peyğəmbər kimi təqdim edərlərmiş. Hətta bir dəfə onu görməyən bir kəndli Ataürkü belə təsvir edir. Bu zaman kəndli Salihə Atatürkün görünüşünün peyğənbər üzlü , Saqqalının göbəyinə qədər düşməsini qeyd edəndə bunu eşidən Atatürk heç nə demədən qulaq asmış , sonra Salehə ,

dəymə , qoy onun da xəyalları yıxılmasın, məni belə tanısın deyərək gülməsi , onun bir azda qəlbinin də kövrək olmasının, heç bir kəsin qəlbinə dəyə bilməməsini də bizlərə bildirir. Yeri gəlmişkən Məqalənin əvvəlində UtkanQocatürkün də "Atatürk " kitabının adını çəkdik . Bu kitab 1991 – ci ildə Azərbaycan dilinə, Dünyamalı Vəliyev tərəfindən tərcümə edilmişdir. Kitabda Atatürkün fəliyyəti ilə bağlı faktlar, onun qiymətli fikirləri də çap edilmişdir. Kitabın ilk səhifəsində Atatürkün İstiqlaliyyət haqqında ölməz ideyasının verilməsi demək olar ki, dəyərini daha da artırmışdır.

"Azadlıq və istiqlqliyyət mənim xarakterimdədir Mən millətimin və böyük əcdadımın ən qiymətli mirası olan istiqlaliyyət eçqi ilə yaranmış bir adamam.

Uşaqlığımdan bu günə qədər ailəvi, şəxsi və rəsmi həyatımın hər səhifəsini yaxından tanıyanlar bu eşqi görüblər. Məncə , bir millətlərdə, şərəfin heysiyyətin, namusun və insanlığın olması və yaşaması, mütləq o millətin azadlığ və istiqlaliyyətə malik olmasından asılıdır. Mən şəxsən bu saydığım keyfiyyətlərə çox əhəmiyyət verirəm və bu keyfiyyətlərin özüdə varlığını iddia edə bilmək üçün millətimin həmin keyfiyyətlərə malik olmasını şərt və əsas hesab edirəm.. Mən yaşaya bilmək üçün mütləq müstəqil bir millətin övladı olmalıyam"(4,17) Atatürkə həsr edilən bütün ədəbiyyat nümunələri mən deyərdim ki, bu ideya üzərindən yola çıxaraq yazılmışdır. UtkanQocatürkün bu kitabında Atatürkün düşüncə sistemi, Aatürkçü düşüncə sisteminin xüsusiyyətləri, Atatürk prinsip və inqilabları, istiqlaliyyət duyğuları , onun dəyərli fikirləri açıklanır. Kitab Atatürk haqqında bir xəzinədir. Və bu kitabı oxuyan hər kəs böyük Atatürkü görüb , tanımış kimi hiss edir. Müllif çox haqlı olaraq Atatürk böyüklüyün bir də onun ağıllı , elimli və gerçəkçi olmasında görür. Və Atatürkün bütün qalibiyyətində , savaşlarındakı uğurda elmiliyin, ağıllığın və gerçəkliliyin dayandığı vurğulanır. Atatürkə görə "Ağıl və məntiqin həll edə bilməyəcəyi bir məsələ yoxdur" Müdrük bir ifadədir. Və onu da qeyd etmək yerinə düşər ki, onun ideyaları , fikirləri gözəl aforizmlərdir. Elə kitabın 3 –cühissəsin də də bu məsələlərə yer ayrılmışdır. Xüsusilə Azadlıq haqqında fikirlərindən birini xatırlatmaq bu gün çox yerinə düşərdi.

"Azadlıq insanın düşündüyü və istədiyini mütləq edə bilməsidir Bu tərif azadlıq sözünün ən geniş mənasıdır. İnsanlar bu mənada azadlığa heç vədə nail olmamışlar və ola bilməzlər. Cünkü məlumdur ki, insanı təbiət yaratmışdır. Təbiiətin özü belə mütləq mənada azad deyildir; kainatın qanunlarından azad deyildir. Buna görə də insan əvvəlcə təbiətin içində, təbiətin qanunlarından , şərtlərindən, amillərindən , səbəblərindən asılıdır. Məsələn dünyaya gəlmək və gəlməmək insanın öz ixtiyarında olmamışdır və deyildir. İnsan dünyaya gəldikdən sonra da, lap ilk andan , təbiətin və özünün yaratdığı bir çox şeyin əsiridir. Himayə edilməyə, bəslənməyə, baxılmağa , böyüdülməyə möhtacdır.(4,18)

Əsərdə bu kimi Ataürk ideyaları ayrı başlıqlar altında verilmişdir ki, bu da kitabda Atatürkün minlərcə ideyası ilə operativ şəkildə tanış olmağa köməklik edir. Yeri gəlmişkən Azərbaycanda Qənirə Xanım Paşayevanın da uca Atatürk haqqında dəyərli publisistik yazıları çap olub ki, bunlardan biri də " Dünyanın itirdiyi böyük adam" adlı məqaləsidir. Qənirə xanım məqaləsində Atatürk ideyalarına türk xalqlarının deyil, eyni zamanda ona məğlub olan insanların vurğun olduğunu qeyd edir. Qənirə xanımın Atatürk haqqında bu fikri bir daha Atatürkün düşmənlərinin belə dana bilmədiyinin sübut və dəlilidir.

"1922-ci ildə Türk ordusunun zəfəri nəticəsində, Anaduluda apardığı siyasəti iflasa uğrayan İngiltərənin baş naziri DavidLioyd, ölkəsinin parlamentliyində üzləşdiyi tənqidlərə görün nə cavab verir." Dostlar yüzillər nadir hallarda dahi yetişdirir. Bu talesizliyimizə baxın ki, o böyük dahi çağımızda türk millətinə nəsib olub.Mustafa Kamalın dahiliyi qarşısında əldən nə gəlirdi ki,.. insan qürur duyur... Atatürk dünyanın bu gün əsas gücləri olan qüvvələrin demək olar ki, hamsı ilə demək olar ki, üz-üzə gəldi. Türkiyə torpaq-larının bütün istiqamətlərində Türk torpaqlarına göz dikənlər, Türkiyəni məhv etmək

istəyənlər, param –parça etmək arzusunda olanlarla Atatürk və silahdaşları savaşdı və bütün dünyaya Türk millətinin gücünü, əzmini, iradəsini, onu yıxmağın mümkünsüzlüyünygğstərdi.”(5,38) Məqalədə Qənirə Paşayeva Atatürkün böyüklüyünü onun ağıllı ideyalarında görür. Savaşmaq elə bir iş deyildir, amma ağıllı ideya ilə savaşmaq , qalibiyyətin açarıdır. Bu məqalədə bizə, oxucuya ötrülən fikirlərdən biri də budur. Daha sonra Qənirə xanım məqalədə o, günüdə xatırladan bir hadisəni xatırladır. 1938-ci ildə həmin o ağrılı gündə bu hadisəni eşidən alman professor bu xəbəri eçidərkən dərsə girib girməyəcəyinə qərar verə bilmədiyi halda unversetin rektoruna yaxınlaşıb nə edəcəyini bilmədiyini söyləyərkən rektor ona sizdə belə böyük dövlət xadimi ölüncə nə edirsinizsə elə də edin , söyləyir. Professor bəlkə də fərqinə varmadan, “ bizdə bu qədər böyük dövlət xadimi ölməyib axı”- deyərək bir daha Atatürkün dünyada əvəzsiz biri olduğunu ifadə etmişdir. Tür dünyasında Atatürk zirvəsindən bəhs edən publisistik yazılar, xatirələr minlərcədir. Bu məqaləyə Uluslararası Atatürk ödülünəlaiq görülmüş Rəfik Zəka Xəndanın Atatürklə bağlı yazılarından bir neçə cümlə yazmaq yerinə düşər. Aynurə Paşayeva “Rəfik Zəka Xəndan publisistikasında Türkiyə mövzusu” məqaləsində çox incə məqamlara toxunmuşdur. Rəfik Zəka türkiyə deyəndə Atatürk , Atatürk deyəndə isə Türkiyə yada düşür. Bu başqa cürə də ola bilməz.Atatürk yaradıcılığını, fəliyyətini bilən hər kəslər bunu elə beləd başa düşür.

“1923 –cü ildə Atatürk Türkiyəni xaricilərdən xilas edib yenidən nəfəs verdiyi üçün Rəfik türkiyə səyahətini belə “ Atatürkiyə”adlandırmışdır.” Bu özü Atatürk zirvəsinin ucalığından xəbər verir. Rəfikin Atatürk sevgisi şeirlərində də əks olunur. Və bu çeirlərdə də Atatürkə olan sevgisi bir az da publisistik ruhla birləşir. O, gələcəyimiz olan uşaqlara da Atatürk zirvəsindən bəhs edir və publisistik ruhla demək istədiyin bəyan edir.

Könül sizə türküsünü açıklar,
sevginizlə ətirlənir butamız,
Atanıza ata deyin çocuklar,
Gecə-gündüz yada düşsün atamız (6,2)

O da son dərəcə maraqlıdır ki, ölkələrin, dövlətlərin və xalqların həyatındakı oxşarlıq onlara başçılıq edənlərin Mustafa Kamalın hərbi xidmətlərinin ilk günlərindən onu gözü götürməyənlər tapıldı. Hərbi məktəbdə və hərbi akademiyada üsyankar bir zabit kimi tanınan Mustafa Kamal xidmətdə olduğu müddətdə təzyiqlər, həbslər, məqsədli sürgünlər gördü. Dövlət və hökumət tərəfindən qiyamçı adlandırıldı. Hərbi məhkəməyə verilməsi tələb edildi. Hətda o ölkənin ilk prezidenti olanda belə yeni Türkiyənin düşmənləri Mustafa Kamalı hörmətdən salmaq üçün onun haqqında müxtəlif şayiələr yaydılar. İkinci dəfə prezident seçilməsin deyə seşkilər haqqında qanuna belə bir maddə salmağa çalışdılar ki, indiki Türkiyənin hüdudlarında yerləşməyən ərazidə anadan olan, beş il müddətinə bir seçki dairəsində yaşamayan hər kəsin deputat seçilmək hüququ əlindən alınsın. Bu da o demək idi ki, yeni Türkiyənin ərazisinə daxil olmayan Salonikidə doğulan və beş il bir yerdə yaşamayan Mustafa Kamal Atatürk Vətən, xalq qarşısında xidmətlərinə baxmayaraq, deputat seçilə bilməzdi. Taleyin işinə bax bir. Bütün bu məhrumiyyətlər Heydər Əliyevin də alın yazısı oldu. Uzun müddət respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri işləyən, 13 il Azərbaycana rəhbərlik edən, bir müddət ərzində təkcə dövlət quruculuğunda deyil, ölkənin iqtisadi cəhətdən inkişaf etdirilməsində nailiyyətlər qazanan respublikamızın paytaxtı Bakı şəhərində, rayonlarda yeni-yeni sənaye, kənd təsərrüfatı və mədəni-məişət obyektləri tikdirən, incəsənət abidələri və kompleksləri yaradan bir adam Moskvaya, yüksək vəzifəyə irəli çəkiləndən sonra onun da haqqında şaiyələr və böhtanlar yayılmağa, əleyhinə kompaniyalar aparmağa başlandı. O, Sov.İKP MK Siyasi Bürosu

üzvlüyündən istefa verəndən sonra bütün bunlar daha da gücləndirildi. Hətta Moskvada qəsdlərdən, təqiblərdən yaxa qurtarmaq üçün doğma Bakıya qayıtmasına belə imkan verilməsi. İş o yerə çatdı ki, gələcəkdə xalqın Heydər Əliyevi siyasi və iqtisadi girdablar içində boğulan Azərbaycana rəhbər gətirəcəyindən ehtiyatlanan bədxahlar onun prezident seçkilərində iştirakına mane olan yaş senzini konstitusiya tələbinə çevirdilər. Prezident seçiləndən bir az sonra şəxsiyyətinə, fəaliyyətinə qarşı yönəldilən sui-qəsdlə, qiyamlar bütün dünyaya məlumdur. Mustafa Kamal və Heydər Əliyev öz ölkəsinin, Vətəninin, xalqının azadlığı, müstəqilliyi hər cür böhtan və şaiyələri onları nəinki xalqdan ayıra bilməmiş, əksinə xalqa qırılmaz tellərlə bağlamışdır. İndi bütün olanlara, ötüb keçənlərə açıq gözlə baxanda, bütün olmuşları ağılın süzgəcindən keçirəndə Allahın birliyinə şükür edirsən ki, ölkənin, Vətənin və xalqın belə bir agır günündə nə yaxşı ki, Mustafa Kamal Atatürk varmış. Nə yaxşı ki, Heydər Əliyev varmış. Dar günün xilaskarına, bir ölkənin, bir xalqın, bir dünyanın xeyirxahına, sevimlisinə çevrilmək özüdə bir xoşbəxtlikdir.(7.5)

Ədəbiyyat:

1.Heydər Əliyev, “Atatürk fenomeni”, “Atatürkün xatirələri və Atatürk haqqında xatirələr”, “Elm” nəşriyyatı, 2006
2.Xanım Məmədova,”Atatürkün xatirələri və Atatürk haqqında xatirələr” kitabına ön sözdən, “Elm “, 2006
3.Əli Qılınc,” xatirələr”, “Atatürkün xatirələri və Atatürk haqqında xatirələr”,”Elm”, 2006
4.Utukan Qocatürk, “Atatürk”, Bakı “Elm”,1991
5.Qənirə Paşayeva, “Dünyanın itirdiyi böyük adam”, cetinbayramoğlu.vvordpress.com
6.Aynurə Paşayeva, “Rəfik Zəka Xəndan publisistikasında Türkiyə mövzusu”, bizimyazı, 06, may
7. Türk dünyasının xilaskarları, Bakı- 2001

Л.Ханларова

Роль Мустафа Кумаль Ататюрка в общуй тюркологической публисистике

Резюме:

Лидер тюркского мира Мустафа Кемаль Ататюрк один из самых редких личностей мирового масштаба XX века, и даже я бы сказал всех будущих веков. Начиная со времен Республики, деятельность Ататюрка нашла свое поэтическое выражение не только в турецкой литературе, в особенности поэзии, являющейся активным жанром литературы, так же в публицистике началась вершина Мустафы Кемаля Ататюрка. В отличии от стихотворений, в издаваемых статьях особое внимание уделялось деятельности Ататюрка, основоположника Турецкой Республики, значимости его работ, проведенных в Анкаре, Карсе, Эрзуруме, Самсуне, Амасии. Безусловно, публицистика отличалась от других жанров. Публицистика как наиболее активный жанр распространяла деятельность Ататюрка, его достижения не только в Турции, но и во всем мире. В Азербайджане так же независимо от времени существует вершина Ататюрка, авторитет Ататюрка. Великий лидер Азербайджана Гейдар Алиев всегда с почтением пользовался преимуществами идей Ататюрка. Гейдар Алиев всегда говорил: «Турция, созданная Ататюрком, обладает особым значением не только для вас, но и для всего тюркского мира, особенно для Азербайджана». Создание в Азербайджане центра Ататюрк, издание статей и произведений, посвященных идеям Ататюрка, его авторитету, имеет большое значение.

В статье Айнуры Пашаевой «Тема Турции в публицистике Рафика Зеки Хандана» наряду с большой любви Рафика Зеки к Ататюрку, также отражается деятельность Ататюрка. В 1998 г. была напечатана книга Рафика Зеки «Ататюркия». В книге личность Ататюрка воображается в памяти профессора Р.З. Хандана, межнационального лауреата Республики Турции, не только как обычный создатель государства, но и как гения, заслужившего имени отца всех тюрков. Автор не может представлять Турцию без имени Ататюрка. Основную идею этого произведения составляет освобождение в 1923 г. Турции Ататюрком от иностранцев, и вдохновения ею новой жизни. Именно поэтому Хандан назвал свою книгу путешествия в Туркию Ататюркия.

Ключевые слова: Ататурк, публисистика, идея, любовь, поэзия, республика

L.Khanlarova

Mustafa Kemal Ataturk`s summit in the universal Turkish publicism

Summary

The Turkish Leader, Mustafa Kamal (Ataturk), is one of the rare talent leaders and most effective figures of 20th century and, I do believe, even in the future. The formation of Mustafa Kamal (Ataturk) Peak started to emerge since the republic era in poetry, especially in the works of well-known poets, as well as in publicity sector. In spite of poems, the importance of founder of the Republic of Turkey, Mustafa Kamal (Ataturk), has been emphasized in the papers published in newspapers in Ankara, Kars, Arzrum, Samsun and Amasya. It's evident that the publicity is different from any other journalistic publications. The publicity sector, which is rather more active sector, played a drastic role in introduction of achievements of Ataturk not only in Turkey but also in the else of the world. Notwithstanding the time, there has always been an Ataturk Peak in Azerbaijan. The Great Leader of Azerbaijan, Heydar Aliyev has always mentioned Ataturk's ideas as a great source of proud. "The Republic of Turkey founded by Ataturk does not limit to Turkey mere, rather it belongs to whole of Turkic world and has a paramount importance to the Republic of Azerbaijan." Great Leader, Heydar Aliyev said. In a paper written by Aynura Pashayeva under the title of "The Turkey Subject in Rafik Zaka Khandan Publicity" in addition to the huge love of Ataturk in Rafik Zaka's works, Ataturk's activities have also been pointed out. Rafik Zaka published his book, "Ata Turk" in 1998. According to the winner of international prize, R. Z. Khandan, Ataturk is not just a founder of a government, he is a genius figure deserves the nickname of father of whole of Turkey. The author can't imagine Turkey without the name of Ataturk. The salvation of Turkey from foreign enemies in 1923 and giving new life to it as an independent country is the core subject dealt in the book. This is the reason behind the fact why Khandan has named his travel book "Ata Turk".

Keywords: Ataturk, publicitu, idea, love, poetry, republic

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 05.08.2019
Filologiya üzrə fəlsəfə doktoru,dosent Kəminə Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur.

PƏRVANƏ QULİYEVA
Gəncə Dövlət Universiteti
Heydər Əliyev küç
gunay-ismayilovagdu@rambler.ru

İ.ƏFƏNDİYEVİN DRAMLARINDA LİRİK QƏHRƏMAN PROBLEMİ

Xalqın tarixən qarşılaşdığı taleyüklü hadisələrdə ən mühüm siyasi və mənəvi dəyərlərin, qalibiyyət və faciənin böyük vətəndaşlıq yanğısı ilə bədii təhlilini İlyas Əfəndiyevin müraciət etdiyi ədəbi janrların hər birində görmək olar. Epik və dramatik növlərin daxili poetik gücünü eyni ustalıqla üzə çıxaran yazıçı oxucunu tarixi dinləməyə, xatırlamağa və düşünməyə vadar edir. Onun "Geriyə baxma, qoca", "Üçatılan", "Natəvan", "Hökmdar və qızı" kimi əsərləri yazıçının tarixi mövzunu işləməkdə əsas bədii-estetik məqsədini bəyan edir: xalq öz tarixi dəyərləri ilə güclü və yenilməzdir. Bu mənada İlyas Əfəndiyevin yaradıcılığı yeni dövr Azərbaycan tarixinin bədii salnaməsidir.Yaradıcılığı boyu hakim ideologiyanı tərənnüm etməyən ədib o dövrdə ədəbiyyatda yasaq olan Cənubi Azərbaycan və mühacirət mövzularında əsərlər yazmışdır. Sənətkarın yaradıcılığında Qarabağ mövzusu da əsas yer tutmuşdur. O, namərd qonşularımızın ötən əsrin 90-cı illərindən başlayan xəyanətkarlıqlarını, işğalçılıq hərəkətlərini dərin narahatlıq, vətəndaş yanğısı ilə izləmiş, əsərlərində Qarabağın qədim tarixini əks etdirmişdir.Həyat hadisələrini bütün incəliklərinə qədər tərənnüm edən, onları dərin bədii təhlil süzgəcindən keçirib ümumiləşdirən, səlis, təbii dillə oxuculara çatdıran İlyas Əfəndiyev həm də şairanə ruha, poetik ifadə tərzinə malik sənətkardır. Onun yazıçı dili və bədii üslubu ədəbiyyatımızda yeni bir ədəbi məktəb səviyyəsinə yüksəlmişdir.

Açar sözləri: yaradıcılıq, dramaturgiya, lirik qəhrəman, müasirlik, əsər, müəllif, ədəbiyyat

İlyas Əfəndiyev Azərbaycan ədəbiyyatını öz dəyərli əsərləri ilə zənginləşdirmiş sənətkarlarımızdandır. Onun əsərlərində müəllifin tərcümeyi-halı, bioqrafiyası yox, bəlkə daha çox daxili "mən"i, mənəvi aləmi, xarakteri açılır; portreti yox şəxsiyyəti görünür.

Əlbəttə, İlyas Əfəndiyevin heç bir əsərində ayrıca bir İlyas Əfəndiyev yoxdur. Lakin İlyas Əfəndiyevdən bir duz, bir iz onun hər əsərində, hər obrazında var.

İlyas Əfəndiyev həmişə irəlini görmək üçün geriyə baxmağın tərəfdarı olub, gələcəklə keçmiş arasındakı körpünün üzərində dayanaraq, həyata və insanlara buradan boylanıb baxıb. Kökə, əcdada boylanmayanda isə nə şəxsiyyət nə də xalq irəlini görə bilməz. Onun bütünlükdə bədii yaradıcılığının məntiqi ilə ifadə olunan qanunauyğunluq bir də bu həqiqətdən ibarətdir.

Müasir həyatı ardıcıl tədqiq edən, diqqətlə öyrənən və məharətlə canlandıran İlyas Əfəndiyevin tarixi keçmişə müraciəti də zərurət nəticəsi olub, onun nasirlik və dramaturqluq təcrübəsində yeni nailiyyətlərini müəyyənləşdirir, fıkri-mənəvi təkamülünü bütövlükdə izləyib aydınlaşdırmağa geniş imkan yaradır. Müasirlik ruhunun belə əsərlərdə də güclü çıxmasına səbəb müəllifin xalq həyatı və mənəviyyatı ilə bağlı problemləri, aktual məsələləri həssas duyğu ilə yeni təfəkkür işığında mənalandırmağı bacarmasıdır.

İ.Əfəndiyevin romanları lirik qəhrəman problemi psixoloji məqamların bolluğu ilə seçilir. Yazıçı bu ənənəni o zaman böyük təlatümlərə, mübahisələrə səbəb olan "Körpüsalanlar" romanında da davam etdirir. Bu əsərdə ədib maraqlı, ədəbiyyat üçün yeni olan surətlər yaradır.

İlyas Əfəndiyevin əsərlərində məhəbbət mühüm yer tutur, şəxsiyyətin mənəvi aləmini əxlaqi qənaətlərini sınağa çəkən güclü təbii amillərdən biri kimi tədqiq olunur. Ədibin ilk hekayələrində olduğu kimi tədqiq olunur. Ədibin ilk hekayələrində olduğu kimi, ona həqiqi sənətkar şöhrəti gətirmiş nəsr və dram əsərlərində də bu hiss dərin, güclü və aparıcıdır.

İ.Əfəndiyev qələminin ən uğurlu nümunələrindən olan "Unuda bilmirəm" əsərində konflikt əsasən surətlərin daxili aləmi ilə əlaqədardır. Onların hər birinin həlli zəruri problemlər, arzularına çatmağa əngəl törədən müəyyən maneələr vardır.

Dramın başlıca konfliktini ümumi şəkildə aşağıdakı kimi müəyyənləşdirə bilərik, insanın şəxsi arzuları ilə ictimai borcu arasında meydana çıxan uyğunsuzluğun doğurduğu ziddiyyət. Bu inkar edilməz bir faktdır ki, şəxsiyyət özünü cəmiyyətin bərabər hüquqlu üzvlərindən biri kimi aparanda, şəxsi arzularını ictimai mənafeyə qarşı qoyub, vətəndaşlıq borcuna laqeydlik göstərmədikdə şəxsiyyətlə cəmiyyət arasında tam bir ahəngdarlıq yaranır.

Professor Möhsünzadə üçün elm milli şüurun formalaşması, xalqın təfəkkür yüksəlişidir. Elmin əsas məqsədi isə insanların səadətinə, daha xoşbəxt gələcəyinə xidmət olmalıdır. Möhsünzadənin arvadı Səadət xanım elmi ailə səadətinin başlanğıcı sayır.

Kamranın ictimai əqidəsi " elm insanın xoşbəxtliyinə xidmət etməlidir " sözlərində öz ifadəsini tapır. Əqidə saflığına Kamran özünün harada xalq üçün daha lazımlı olduğunu çox yaxşı başa düşür və doğma yurdu Borçalıya təyinat alır. Onun ehtirasları və arzuları bəzən "Yüyənsiz at kimi" baş alıb getsə də, əməlləri konkret və faydalıdır.

Sürücü Kərimin fikrincə, elm aləminə xeyirxah, insanpərvər, sadə qəlbli, torpağına, xalqına bağlı adamlar gəlməlidirlər.

Nərmin elmə hünər, qəhrəmanlıq meydanı kimi baxır, ancaq bu xüsusiyyətlərin zahiri tərəfini gördüyü, daxili psixoloji dərinliyi görə bilmədiyi üçün səhv edir.

Mürəkkəb həyat hadisələri göstərir ki, Cəmili Nərminə bağlayan dərin məhəbbət telləri deyil, Cəmil məharətlə pərdələnmiş meşşan, elmə gəlir mənbəyi kimi baxan karyeristdir. Bu maska yırtılanda Nərmin hər şeyi dərk edir, Cəmildən ayrılır.

Möhsünzadənin ictimai mövqeyi onu kamil şəxsiyyət, müdrik insan səviyyəsinə qaldırır. Pyesdə o, oxucuya vətən qeyrəti çəkən vətəndaş kimi təqdim olunur. Pyesdə o, oxucuya vətən qeyrəti çəkən vətəndaş kimi təqdim olunur.

Roman iki əsas surətin - Səriyyə və Adilin üzərində qurulmuşdur. Hadisələrin mərkəzində bu iki surət dayanır.Müasir Azərbaycan romanının inkişafında mühüm xidməti olan İ.Əfəndiyev yeni romanında əvvəlki qadın obrazlarından tamamilə fərqlənən, həyata, insanlara münasibəti nöqteyi-nəzərindən onlara oxşamayan Səriyyə kimi bir surət yaratmışdır.

Roman çap olunduğu illərdə geniş müzakirəyə səbəb olmuşdur. Bunun əsas "günahkarı" Səriyyə idi. Onun bəzi hərəkətləri oxucuları razı salmırdı. Səriyyənin ərinə münasibəti, başqa adamlarla ayı ovuna getməsi, şərab içməsi, Qəriblə yaxınlığı, mənfi hal kimi qiymətləndirilmişdir.

Hekayəti Səriyyə başlayır. Əvvəldə o, evli olduğunu, yoldaşının yollar idarəsində mühəndis işlədiyini bildirir. Onun yoldaşı hamı tərəfindən hörmət qoyulan, ağıllı, işinə ciddi yanaşan, ailəsini ürəkdən sevib, onlara bağlı yaşayan insandır.

"Unuda bilmirəm" pyesində əsas məzmun Kamran və Nərmin xəttidir. Professor Möhsünzadənin ailəsi nəzəri diqqəti cəlb edir. Kamran sözün həqiqi mənasında yüksək vətəndaşlıq və humanist qeyrətə malik olan hüquq işçisidir. O, əsərdə baş verən keçmiş əhvalatları tamamilə unudur, öz keçmiş tələbə yoldaşı Cəmilin qəza törətdiyini bilir və onu cəzalandırmır. Bunu Kamran ona görə etmişdir ki, o intiqam hissi ilə yaşayan şəxsiyyət deyildir. O, professor Möhsünzadənin ailəsinə özünün əvvəlki münasibətini saxlayır və ona görə də Cəmilin qəza işini onun insani hissləri Cəmilə bağışlatmışdır. Əsərdə təsvir olunan Cəmil obrazı dövrünün zəmanəsinin yaltağı, ikiüzlüsü, tez – tez öz rəngini dəyişən buqələmunlərə bənzəyir. Beləliklə əsər təkcə İ.Əfəndiyev yaradıcılığı üçün deyil, Azərbaycan dramaturgiyası üçün tapıntı hesab oluna bilər.

"Sarıköynəklə Valehin nağılı" kəskin tənqidi, ifşaedici qüvvəyə malikdir. Müəllif burada satirik boyalarını lirik-romantik mündəricə ilə paralel inkişaf etdirir, həm həyatın mənfi halları ilə mübarizənin qurtarmadığını, həm də Məcidovların parıltılı xarici görünüşləri altında iyrənc

daxili aləmin, yırtıcı psixologiyanın gizləndiyinə güclü inam hissi oyadır. Düzdür, "Valehlə Sarıköynəyin nağılı" nöqsansız da deyildir. Valehlə Rəcəbin gülüşmə səhnəsi bizə heç nə demir. Güllübəyim hadisələr axınında itir, bir surət kimi natamam qalır. Bununla belə, problemin aktuallığı, yazıçınm cəsarəti, onun üslubunun təzəlik və orijinallığı ciddi maraq doğurur, bütövlükdə əsər oxucunu fəallaşdırır, onun dünya görüşünə dərin təsir göstərir.

İlyas Əfəndiyev yenə də öz yaradıcılıq xüsusiyyətlərinə sadiq qalaraq, təbii insan psixologiyasını və sadə boyalarla göstərdiyi üçün «Atayevlər ailəsi» pyesi də bizim realist dramaturgiyamızm sevindirici nailiyyətlərindən biridir. Əsərdə verilmiş müsbət surətlər əsl mənada xalq nümayəndələridir. Onların mədəni səviyyəcə, zəka və düşüncə e'tibarilə mənfı surətlərdən nə qədər yüksək olduqlarını isbat etməyə ehtiyac yoxdur. Əsas hadisə və personajlar Atayevlər ailəsi ilə bağlıdır. Bu ailə müxtəlif münasibət və ziddiyətləri, təşəbbüs və görüşləri aşkara çıxaran, biri digərinə əks qüvvə və xarakterləri üz - üzə gətirən meydan, süjet inkişafına təkan və istiqamət verən mərkəz mövqeyindədir. Əsərdə ayrı - ayrı şəxslər xalqın etimadından sui - istifadəyə yol verib, vəzifə hüquqlarından, dövlət vəsaitindən şəxsi mənfəət naminə istifadə edir, varlanmaq, istədikləri kimi yaşamaq ehtirası ilə qanuni cəmiyyətin əxlaqi tələblərini gözləmirlər.

Bu əsərdən sonra ədib onillik fasilə edir. Ancaq bu onun yaradıcılığına süqut və böhran deyildi. Müasirlik axtarışlarını bu müddətdə. demək olar, bədii nəsr sahəsinə yönəldir, ədəbiyyatımız bir çox hekayə, oçerk və romanla zənginləşir. Müəllif müsbət qəhrəmanın mübarizəsindəki yeniliyi, gözəlliyi və çətinliyi dərindən hiss edir, şairanə ilhamla, həqiqi sənətkarlıqla göstərməyi çox mühüm yaradıcılıq məsələsi hesab edirdi. Müsbət qəhrəmandan söz açanda İlyas Əfəndiyev bir həqiqəti də unutmur. Bu həqiqət müsbət qəhrəmanın yalnız xarici amillərlə deyil, eyni zamanda, öz dixilindəki, mə'nəviyyatındakı ziddiyyətlərlə mübarizədə yüksəlməsi idi.

İlyas Əfəndiyev müsbət qəhrəmanı əsərin ləyaqəti, müsbət müəllif idealı kimi qiymətləndirirdi. Onun əsas müsbət qəhrəmanları işıqlı fikirlər, saf duyğular, nəcib əməl və ideallar daşıyıcıları kimi mübarizə meydanma girəndə heç bir maneə və çətinlik onları yolundan döndərə bilmir. İlyas Əfəndiyev bu təşəbbüskar, möhkəm iradəli və mərd təbiətli adamların xarakterini dram əsərlərində əks etdirmişdir.

Ümumiyyətlə, onun əsərlərində sanki epik möhtəşəmliyi, epik genişlik və dərinliyi sevən bir yazıçı ilə ideyanı, estetik qayəni, romanın, ya pyesin mündəricəsini incə lirizmlə açmaq istəyən qüdrətli bir şair yarışır. Belə bir yarışda isə nasir şairi, şair də nasiri tamamlayır.

Əsərlərinin bədii-fəlsəfi tutumu, yüksək mənəvi-əxlaqi dəyərlərə malik qəhrəmanları ilə adını yaddaşlara yazdıran görkəmli yazıçı-dramaturq İlyas Əfəndiyevin (1914-1996) Azərbaycanın ədəbi və mədəni mühitində özünəməxsus yeri və çəkisi var. Onun qələmindən çıxan nəsr və dram əsərləri böyük oxucu sevgisi qazanmış, müəllifinə böyük şöhrət gətirmişdir. Oxucunu düşündürmək, onun hislərinə hakim kəsilmək, gözəlliklər aləminə dəvət etmək, həqiqət və ədalət üçün savaşa ruhlandırmaq kimi yüksək keyfiyyətlərə malik olan İlyas Əfəndiyev yaradıcılığı XX əsr Azərbaycanını əks etdirən çox qiymətli xəzinədir.

Ədəbiyyatımıza lirik-psixoloji üslubu gətirən, ilk hekayələrindən başlayaraq mənəvi axtarış soraqlı böyük ədibin qəhrəmanları öz səmimiliyi ilə seçilir. “Necə varsa, elə də görünən”, özünün yaradıcılıq manerası ilə ədəbiyyatımızın unudulmazlarından birinə çevrilən müəllifin zəngin nəsri “Söyüdlü arx”, “Körpüsalanlar”, “Dağlar arxasında üç dost”, “Sarıköynəklə Valehin nağılı”, “Üçatılan”, “Geriyə baxma, qoca” romanlarını, “Kənddən məktublar”, “Aydınlıq gecələr”, “Torpağın sahibi”, “Qaçaq Süleymanın ölümü”, “Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı” povestləri və bir-birindən maraqlı, ibrət dolu hekayələri əhatə edir. Xalq yazıçısının gəncliyimizdə əlimizdən qoymadığımız “Körpüsalanlar”, “Söyüdlü arx” və başqa əsərlərini oxuyanda aldığımız mənəvi güclə tez böyümək, həkim, müəllim,

mühəndis olmaq, arzularımızın ardınca Azərbaycanın ucqar kəndlərində çalışmaq istəyi ilə tutuşub yanırdıq. Çünki onun qələmə aldıqları o qədər təbii, o qədər inandırıcı və o qədər səmimi, real və real olduğu qədər də romantik idi ki... Onun oxucunu məftun edən "Söyüdlü arx"ından "XX əsr Azərbaycan lirik nəsri su içdi", qəlblərə sevgi, məhəbbət, səmimilik körpüsü saldı. Masa arxasında üç dostun - qələm, kağız, bir də sənətkarın düşüncəsindən yaranan "Dağlar arxasında üç dost"u isə dağlar qədər ucalaraq mənsub olduğu xalqın kökü əsrlərin dərinliklərindən gələn ədəbiyyatının zirvəsinə qalxdı.

İlyas Əfəndiyevin kiçik hekayələrindən tarixi dramlarına qədər bütün yaradıcılıq örnəkləri insanı düşünməyə, həyatdakı gözəllikləri görməyə, onlardan zövq almağa sövq etdiyi kimi, gənclərə də uğurlu gələcək naminə düzgün yol göstərir. Böyük yazıçının dramaturgiyaya gedən yolu da kiçik hekayələrdən başlayıb. Əsasən 1940-cı illərdə yazılan bu hekayələri gənc yazıçının qəlbinin ilk duyğu və düşüncələri adlandırmaq olar. Hekayələrin yazılmasından yarım əsrdən çox vaxt keçməsinə baxmayaraq, bu gün də sevilə-sevilə oxunur, insanları hisləri ilə baş-başa qoyur.

İlyas Əfəndiyev yaradıcılığında zəngin şifahi xalq ədəbiyyatımızdan da geniş şəkildə bəhrələnib. Yazıçının "qəm notları üstündə köklənən" "Apardı sellər Saranı" hekayəsinin mövzusu maraqlı bir əfsanədən götürülüb. Əsərdə müəllifin aşıladığı qənaət bundan ibarətdir: "Namussuz yaşamaqdansa, ölmək gözəldir". Çünki namussuz yaşamaqdansa, ölümü ilə yüksələnlər əbədiyaşarlıq qazanırlar (dahi Hüseyn Cavidin "Ölmək, yaşamaqdır! Sərsəm yaşamaq ömrə yamaqdır" düşüncəsi kimi).

"Aydınlıq gecələr" hekayəsində yazıçının kiçik süjet xəttinə malik hadisələri alman mütəfəkkir dramaturqu İ.V.Hötenin "bir az daha işiq" fəlsəfəsi ilə izah etməsi onun hələ gənclik illərindən bədii əsərlərində dərin fəlsəfi düşüncələrə geniş yer verdiyini göstərir. Bu hekayələrdə real hadisə və düşüncələr yazıçının romantik baxış və duyğularının süzgəcindən keçirilərək təqdim olunur. Onun lirik-romantik süjet xəttinə malik olan "Qəhrəman ilə bülbülün nağılı" hekayəsi kimi. Yazıçı şifahi xalq ədəbiyyatının gözəl nümunələrindən olan "Bülbül və qızılquşun nağılı" əfsanəsinə yeni bir ahəng gətirib, maraqlı bədii don biçib. Əsər oxucuya öz yurdu üçün qanını və canını əsirgəməyən vətən övladlarının bu ali missiyalarından örnək almağı təlqin edir.

İlyas Əfəndiyevin lirik, ürəyəyatan üslubunu, psixoloji incəliklərə dərindən nüfuz etmək qabiliyyətini onun dram əsərlərində də müşahidə edirik. 1948-ci ildə yazdığı "Bahar suları" pyesi ilə İlyas Əfəndiyev Hüseyn Cavidsiz, Cəfər Cabbarlısız "yetim qalmış" dramaturgiyamıza yeni nəfəs, yeni ab-hava gətirir.Sözügedən dövrdə repressiyalar bir qədər səngisə də, tam bitməmişdi. Hələ Stalin yaşayırdı, ədəbiyyatımızda "ehtiyat igidin yaraşığıdır" - fəlsəfəsi ilə hərəkət edənlər, onu (Stalini) öyənlərin, mədh edənlərin işğalı isə davam edirdi. Hələ də xalq qorxu və səksəkə içində yaşayır, pıçıltı ilə danışırdı. Belə bir qorxunc zamanda qələmdaşlarından fərqli olaraq İlyas Əfəndiyevin "Bahar suları" pyesini qələmə alması böyük cəsarət idi. Eyni zamanda repressiyanın davam etdiyi bir dövrdə "Erkək Tükəzbanlar"ın əksinə olaraq yaratdığı müsbət qadın obrazları Sədəf və Turacın lirik-psixoloji duyğularının təsviri də ədəbiyyatda yenilik idi. O, sovet ideologiyasının hökmran olduğu "qadağalar dövrü"ndə belə böyük cəsarətlə bir çox mövzuları "Hacı Axundun cənnət bağı necə oldu" hekayəsində, "Xan qızı Gülsənubərlə tarzən Sadıqcanın nağılı" povestində, "Dəlilər və ağıllılar", "Tənha iydə ağacı" pyeslərində ədəbi gündəmə gətirmişdi.Dramaturgiyada bir-birinin ardınca uğurlara imza atan, insan psixologiyasına yaxından bələd olan ədibin "Mənim günahım", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər" kimi lirik-psixoloji məzmunlu pyesləri də XX əsr ədəbiyyatımızın qiymətli nümunələrindəndir. "Unuda bilmirəm"də Nərminin söylədiyi mahnı uzun illər dilimizin əzbərinə çevrildi, yaddaşımıza yazıldı.

İlyas Əfəndiyev "Xurşidbanu Natəvan", "Şeyx Xiyabani" kimi tarixi məzmunlu dram əsərlərində gənc nəslə öz soykökünə, mədəniyyətinə sevgi hissi aşılayır. "Şeyx Xiyabani"də

müəllif bütöv Azərbaycan dərdini diqqət mərkəzinə çəkir. Ədib bir əsərində həllini qoyduğu problemi digər dram əsərində məharətlə şərh edirdi ki, əslində Şeyx Məhəmməd Xiyabani mübarizliyi və vətənpərvərliyi ilə dramaturqun özü idi.

Yazıldığı gündən ədəbi hadisəyə çevrilən "Xurşidbanu Natəvan" dramının qəhrəmanı sələflərinə əqidə və mübarizliyi ilə sadiq qaldığını, Azərbaycan qadınının xalqının taleyi və birliyi üçün hər cür fədakarlığa qabil olduğunu sübut edir. Ədib Xan qızı Natəvanı nə qədər sevgi ilə yaradırsa, mənfur ermənini (Ter-Vahan) bir o qədər nifrətlə təsvir edir, hər bir türkün daim ayıq-sayıq olmasını, vətənin hər qarış torpağının qədrini bilib qorumaq, gələcək nəsillərə şəriksiz verməyi tapşırır. Bu tapşırıq isə müəllifin Vətən və millət qarşısında daşıdığı məsuliyyət hissindən doğurdu. İlyas Əfəndiyevin Vətəninə, onun hər bir övladına sevgisi əsl vətəndaş örnəyidir.

Yazıçı-dramaturq ideya-sənətkarlıq baxımından bir-birindən qiymətli əsərləri ilə Azərbaycan teatrında da yeni mərhələ açmış, sənət salnaməmizə ayrıca olaraq "İlyas Əfəndiyev teatrı" anlayışı daxil olmuşdur. Teatrla uzunmüddətli yaradıcılıq əlaqəsi olmuş sənətkarın, demək olar ki, bütün pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur. Geniş mənada XX əsrin ikinci yarısından etibarən Azərbaycan teatr poetikası bədii-estetik dəyərini "İlyas Əfəndiyev teatrı"nda tapmışdır.

Böyük sənətkar XX əsr ədəbiyyatımızın klassiki, milli nəsr və dramaturgiyamızın, teatr sənətimizin, ədəbi-tənqidi, ictimai fikrimizin inkişafında mühüm xidmətlər göstərmişdir. O, "Mahnı dağlarda qaldı", "Xurşidbanu Natəvan", "Şeyx Məhəmməd Xiyabani", "Hökmdar və qızı" və digər tarixi dramları ilə xalqımızın azadlığı və müstəqilliyi uğrunda apardığı mübarizənin, istiqlal məfkurəsinin, azadlıq hərəkatının, milli birliyin bədii tərənnümçüsünə çevrilmişdir. Haqlı olaraq İlyas Əfəndiyevin yaradıcılığını "yeni dövr Azərbaycan tarixinin bədii salnaməsi" də hesab edirlər. Fikrimizcə, bu salnamə bütün zamanlar üçün aktualdır və gələcək nəsillər də bu zəngin qaynaqdan bəhrələnməlidir.

Sənətin, müdrikliyin zirvəsinə yüksəlmiş görkəmli yazıçı-dramaturq İlyas Əfəndiyev 1996-cı ilin 3 oktyabr tarixindən, yəni 21 ildir bir daha "geriyə baxmasa" da, qiymətli əsərlərinin "diktəsi" ilə oxucuları və tamaşaçıları daim ötənlərə nəzər yetirəcək, sevimli müəlliflərini hörmətlə anacaqlar.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

1. A.Hacıyev "Yazıçı şəxsiyyəti və bədii qanunauyğunluğu" Bakı "Yazıçı", 1986
2. A.İsmayıloğlu "Əbədiyyətə aparan yol" Bakı, 1996
3. A.Salahova, H.Qıırbanov "İlyas Əfəndiyev yaradıcılığının poetikası" Bakı "Yazıçı", 1984
4. İ.Qəhrəman, R.Vəliyev "Yaddaşın'boy çiçəyi " Bakı "Qərənfil", 2006
5.M.Arif. Əsərləri (üç cilddə). I cild, EA nəşriyyatı, Bakı, 1967
6.Q.Xəlilov. Azərbaycan romanının inkişaf tarixindən. Bakı, 1973.
7. B.Nəbiyev. Təzə izlər sorağında. Bakı, 1979
8. M.Cəlal "İlyas" Bakı "Gənclik", 1942

E.Guliyeva

The problem of the lyrical hero in the i. efendiyev's dramas

Summary:

A fictional analysis of the most important political and moral values, wars and tragedies in the fateful history of the people can be seen in each of the literary genres addressed by Ilyas Afandiyev. The writer, who simultaneously identifies the inner poetic power of epic and

dramatic species, encourages the reader to listen to history, remember and think. His works such as "Don't looking back, old," "Triathlon", "Natavan", "Ruler and Daughter" are the main artistic-aesthetic purpose of the writer's historical work: the people are strong and invincible with their historical values. In this sense, Ilyas Afandiyev's creative activity got a new era of art history of Azerbaijan.

The writer who did not praise the dominant ideology during his creative career, wrote works in South Azerbaijan and immigration issues in literature.

The subject of the Karabakh issue is also important in the art of the artist. He reflected the treachery of our neighbors, which began in the 90s of the last century, with deep concern and apprehension of the aggression, the ancient history of Karabakh.

Ilyas Afandiyev is a poet, a poetically expressing figure, who sings all the details of life into all its subtleties, and passes them to a deep analysis of the fiction, to the readers in fuzzy and natural language. His writer's language and art style have risen to a new literary school in our literature.

Key words: creativity, drama, lyric hero, modernity, work, author, literature

Е.Кулиева

Проблема лирического героя в драмах и.эфендиева

Резюме:

В каждом литературном жанре Ильяса Эфендиева можно увидеть анализ важнейших политических и моральных ценностей, войн и трагедий в роковой истории народа. Автор, который одновременно определяет внутреннюю поэтическую силу эпических и драматических видов, призывает читателя слушать историю, помнить и думать. Его произведения «Не смотри назад, старик», «Триатлон», «Натаван», «Правитель и дочь» являются главной художественно-эстетической целью исторического произведения писателя: люди сильны и непобедимы со своими историческими ценностями. В этом смысле творчество Ильяса Эфендиева - новая эра в истории искусства Азербайджана.

Писатель, который не хвалил доминирующую идеологию во время своей творческой карьеры, писал произведения о Южном Азербайджане и вопросы иммиграции в литературе и впервые привел тему иммиграции в литературу.Тема Карабахского вопроса также важна в творчестве художника. Он отразил предательство наших соседей, которое началось в 90-х годах прошлого века, с глубокой озабоченностью и опасениями агрессии, древней истории Карабаха.Ильяс Эфендиев - поэт, поэтически выраженная фигура, которая показывает все детали жизни во всех ее тонкостях и передает их глубокому анализу художественной литературы читателям на четком и естественном языке. Язык и художественный стиль писателя выросли до новой литературной школы в нашей литературе.

Ключевые слова: творчество, драматургия, лирический герой, современность, творчество, автор, литература

Redaksiyaya daxil olma tarixi: 21.05.2019
Çapa qəbul olunma tarixi: 5.08.2019
Filologiya üzrə fəlsəfə doktoru,dosent Afaq Yusifli tərəfindən çapa tövsiyə olunmuşdur.

NƏRMİN CAHANGİROVA
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Hüseyn Cavid 31
nermincahangirova83@gmail.com

LU SİNİN "BİR DƏLİNİN GÜNDƏLİYİ" HEKAYƏSİ VƏ ÇİN MODERNİZMİ

Xülasə

Çin ədəbiyyatının dünyada tanıdan imzalardan biri də Lu Sindir. Qərbin Lu Xun olaraq tanıdığı Lu Sin XX əsr modern Çin ədəbiyyatının formalaşmasında mühüm xidmətləri olan şəxsiyyətlərdəndir. "Silahlara çağırış", "A-künün əsl tarixçəsi", eləcə də çoxsaylı tənqidi yazılar və esselər müəllifi hər zaman xalqının problemlərini, cəmiyyətin inkişafına mane olan nöqsanları ədəbi müstəviyə gətirməyə çalışmışdır. Lu Sin ədəbiyyatı mübarizə üsulu kimi dəyərləndirirdi. Hekayələrini danışıq dilinə yaxın olan "bay-xua" dilində yazması və yenilikçiliyi ilə seçilən müəllif ənənəni inkar etmədən müasirliyi təbliğ edir və inkişaf edən cəmiyyət üçün vacibliyini xüsusi vurğulayırdı. Lu Sini geniş xalq kütlələrinə tanıdan və sevdirən isə yaradıcılığının dönüş nöqtəsi olan "Bir dəlinin gündəliyi" hekayəsi olmuşdu. Müasir Çin ədəbiyyatının, modern çin hekayəçiliyinin ilk nümunəsi olan bu hekayə həm strukturu, həm də məzmunu ilə dövrün ədəbi nümunələrindən seçilməkdə idi. Qərb ədəbiyyatını, rus müəlliflərini sevən və çoxsaylı tərcümələr edən Lu Sin bu hekayəsini N.Qoqolun eyniadlı əsərindən bəhrələnərək yazmışdı. Qoqol kimi Lu Sinin də məqsədi mənsub olduğu toplumun mənəviyyatındakı boşluqları göstərmək, ikiüzlülükləri, ədalətsizliyi ifşa etmək idi. Lu Sin bütün həyatı boyu Çini yenidən qurmağa, sistemi dəyişməyə cəhdlər göstərsə heç bir partiyaya üzv olmamışdı. Xalqının siyasi partiyalarla deyil, humanist ideyalarla idarə olunmasına daha çox önəm veriridi.

Açar söz: ədəbiyyat, Lu Sin, "Bir dəlinin xatirə dəftəri", ənənə və müasirlik

XX əsrin birinci yarısında Çin ədəbiyyatının və ictimai-siyasi mədəniyyətinin formalaşması və inkişafında böyük rol oynayan ədəbi şəxsiyyətlərdən biri də Lu Sindir. Modern Çin ədəbiyyatının banisi hesab edilən Lu Sin çoxşaxəli fəaliyyət göstərmiş, yazıçı, tərcüməçi, redaktor, tənqidçi, esseisit, hətta şair kimi xalqına xidmət etmişdir.

Əsl adı Czou Şu Zen olan yazıçı ziyalı və varlı bir ailədə dünyaya gəlsə də, babası və atasını kiçik yaşda itirmiş, məhrumiyyətlər içində həyat keçirməli olmuşdur. Tibb təhsili almaq üçün Yaponiyaya gedən gənc Czou Şu Zen dərin müşahidə qabiliyyəti ilə ətrafında baş verənləri izləyir və gördüyü haqsızlıqlar onu yazmağa təhrik edirdi. İnqilab ədəbiyyatında aktiv surətdə iştirak edən Czou hakim dairələrin maraqlarına uyğun olan "Ven-Yan" dilinə qarşı çıxaraq, danışıq dilinə uyğun olan "bay-xua" dili uğrunda mübarizə aparır. Tərcümələr edib, esselər yazan gənc anasının soyadından olan Lu-nu da özünə təxəllüs seçərək ilk hekayələrini məhz bu dildə yazmağa başlayır. "İksir", "Kun I-tzu", "Kiçik hadisələr" adlı ilk hekayələrini qələmə alan Lu Sini bütün xalqa tanıdan və sevdirən "Bir dəlinin xatirə dəftəri" hekayəsi olur.

İlk dəfə 1918-ci ildə "Yeni gənclik" ("Sip-tsin–nyan)" jurnalında çap olunan "Bir dəlinin xatirə dəftəri" hekayəsi yazıldığı dövrdə böyük əks-səda yaratmış, müəllifinə böyük şöhrət gətirmişdir. "Bir dəlinin xatirə dəftəri" Çində iğtişaşların militaristlər arasında toqquşmalara səbəb olduğu və Rusiyadakı inqilabın milli azadlıq ümidlərinə ilham verdiyi bir

vaxtda yayımlandı. İdeologiya yönümlü bir ədəbi əsərin ağırlığını və gücünü başa düşmək üçün Çində ənənəvi olaraq yazılı sözə verilən əhəmiyyəti təsəvvür etmək lazımdır" [1, s.3].

Müasir Çin ədəbiyyatının, modern çin hekayəçiliyinin ilk nümunəsi olan bu hekayə həm strukturu, həm də məzmunu ilə dövrün ədəbi nümunələrindən seçilməkdə idi. Lakin burada diqqət çəkən bəzi məqamlar da var. Belə ki, "Bir dəlinin xatirə dəftəri" heç də tamamilə Lu Sinin təxəyyül məhsulu deyildi. Çünki bu başlıqdan Lu Sindən öncə N.V.Qoqol istifadə etmiş, 1834-cü ildə "Bir dəlinin qeydləri" povestini qələmə almışdı. İlk dəfə 1835-ci ildə "Arabesklər" toplusunda "Bir dəlinin qeydlərindən hissələr" adı altında dərc edilmiş povest indiyə kimi orijinal strukturu və ideya-məzmun özəllikləri ilə N.V.Qoqol yaradıcılığında mühüm yer tutmaqdadır.

Təbii ki ədəbiyyatda eyni struktur və ya mövzudan istifadələr hər zaman olmuş və hər bir müəllif məlum süjetlərə özündən nələrsə qatmaqla orijinal əsərlər ərsəyə gətirmişdir. Bizim ədəbiyyatımızda bunun kifayə qədər nümunəsi var, lakin Lu Sinin N.V.Qoqolun hekayəsinin başlıq və strukturundan istifadəsi səbəbsiz deyildi. Necə ki Qoqol rus cəmiyyətinin qüsurlarını, ikiüzlülüklərini, ədalətsizliyini ifşa etməyi məqsəd seçmişdi, Lu Sin də Çin cəmiyyətinin, Çin insanının mənəviyyatındakı boşluqları göstərməyə, özünün təbirincə desək "xəstəliyini müalicə etməyə" çalışırdı. Elə onu Yaponiyadakı tibb təhsilindən uzaqlaşdıran məqam da bu deyildimi? Kitablarının birinin ön sözündə bu haqda qeyd edən müəllif yazırdı ki, anladım ki, Çinin nə mühəndisə, nə təbibə ehtiyacı var. Çinin əsas ehtiyacı xəstə ruhları sağalmasıdır. Çıxış yolunu bədii ədəbiyyatda görən Lu Sin bu amal uğrunda yorulmadan mabarizə aparır, bütün həyatını ədəbiyyata həsr edir.

"Bir dəlinin xatirə dəftəri" şizofrenik xəstənin gündəlik qeydlərindən ibarətdir. Hekayə təhkiyəçinin gündəliyi tapması və oxuması ilə başlayır. Giriş və 13 qısa hissədən ibarət gündəlikdə hər şeydən şübhələnən, heç kəsə inanmayan, ətrafdakılarının hərəkətlərini müxtəlif cür yozan xəstə bir insanın düşüncələri ilə tanış oluruq. Hekayənin nə girişində, nə də gündəlik qeydlərdə onu bu hala gətirən səbəblərdən bəhs edilmir, eləcə də sonluq bizim üçün qeyri-müəyyən qalır. Müəllif yalnız cəmiyyətin qüsurlarına yönəlir, sosial problemlərin insan psixologiyasında açdığı yaralara köklənir.

Gündəlik müəllifini ətrafındakı hər şey qıcıqlandırır, adidən də adi hadisələri özünəməxsus şəkildə mənalandıran bu insan itin hürüşünü, ayın həmişəki kimi bədirlənməməsini pis əlamət hesab edir, gördüklərinin onun üçün yaxşı nəticələnməyəcəyini düşünür. İş o yerə çatır ki, insanların pıçıldaşmasını, uşaqların gülüşməsini, anaların uşaqlarını döyüb-söyməsini də özünə qarşı davranış kimi mənalandırır, hər kəsin ondan nifrət etdiyini düşünür. Lakin bu hallar təkcə qəhrəmanın psixoloji halının nəticəsi deyildi, cəmiyyətin yaşadığı böhranı dilə gətirən yazıçı qəhrəmanı vasitəsilə insanları bu hala gətirən səbəblər haqqında düşünür və qandonduran nəticələrə varır…

"*Keçmişdə insanları tez-tez yeyərmişlər: tarixdən dumanlı da olsa xatırladım. Marağımın öhdəsindən gəlmək üçün tarix kitabını açdım, kitabda tarixlər yox idi, ancaq hər səhifə Konfutsiçiliyin məlum "insanlıq", "ədalət", "mənəviyyat" və "fəzilət" sözləri ilə doldurulmuşdu. Mən hələ də yuxuya gedə bilmirdim və bütün gecə kitabı çox diqqətlə oxudum, birdən sətirlərin arasında gizlədilmiş ismarıcları görə bildim - "hannibalizm". Bu sözlər sanki zarafatcıllıqla mənə baxır və lağ edirdilər.*

Mən də insanam və məni yemək istəyirlər!"(2. Səh)

Beləliklə də hekayə qəhrəmanı əvvəllər insanlarda aydınlaşdıra bilmədiyi davranışları dərk etdiyini və ətrafındakı hər kəsin onu yemək istədiyini düşünür. Həkimin müayinəsini, qardaşının qəribə hesab etdiyi hərəkətlərini hannibalizmlə əlaqələndirən, beynində müxtəlif ssenarilər quran adam gecə-gündüz yalnız bu haqda düşünür. Hekayənin bir çox hissələri də qəhrəmanın düşüncələri ilə davam edir.

"Mən onların hiylələrini başa düşdüm, birbaşa öldürmək istəmirlər və pis vəsvəsələrdən qorxaraq cəsarət etmirlər. Buna görə hamısı bir-biri ilə əlaqə yaradıb, hər yerdə tələlər və torlar qurublar ki, mən özüm onların toruna düşüm. Bir neçə gün əvvəl küçədə dayanan kişiləri və qadınları xatırlayın, qardaşımın davranışlarını təhlil edin və buna demək olar ki, yüz faiz əmin olacaqsınız. Mənim üçün ən yaxşısı- kəməri çıxartmaq, boğazıma keçirmək, bərk dartıb özümü boğmaqdır, beləliklə onlar özlərini günahlandırılmayacaqlar və çoxdankı arzuları yerinə yetdiyindən sevinərək gülməyə başlayacaqlar."

Köhnə kitabları və hadisələri yada salan təhkiyəçi tarix boyunca insanların necə bir-birini yediklərini xatırlayır və ayrı-ayrı hissələrdə bunları qeyd edir. Ətrafındakı insanların davranışlarını bu hadisələrlə əlaqələndirməklə onun hisslərini, qorxularını daha yaxşı anlayırıq. Qardaşının, ailəsinin insan əti yeyənlərdən, bu ailədən olduğunu həzm edə bilməyən qəhrəmanımız bi hisslə yaşamağın çətinliyini dilə gətirir və bu mühitdə, bu cəmiyyətdə yaşadığına görə özünü qınayır.

"Yalnız bu gün anlayıram ki, dörd min ildir insan əti yeyən bir dünyada yaşamışam; bacım vəfat edəndə böyük qardaşım evi idarə edirdi və kim bilir gizli-gizli onun ətini bizə yedirməyib. Bəlkə də, bilmədən bacımın ətindən bir neçə parça yemişəm, indi də mənim növbəmdir... Çiyinlərimdə dörd min illik hannibalizmin ağırlığını daşıyan mən, hər nə qədər bir zamanlar günahsız olduğuma inansam da həqiqi bir insanla tanış olmağın çətinliyini indi anladım."

Aydın görünür ki, bu fikirlər şizofren xəstənin düşüncələrindən daha məntiqli, daha ağlabatandır. Metoforik çalarlarla zəngin hekayə Lu Sinin yaşadığı dövrün acı reallıqlarını üstüörtülü şəkildə oxuculara çatdırmaq məqsədi daşıyırdı. Konfutsiçiliyə qarşı çıxan, insan şəxsiyyətini hər dəyərdən yüksək hesab edən Lu Sin insanı əzən, mənəviyyatını yox edən dəyərləri qəbul etmirdi. Klassik ədəbiyyatda doğruluq, insansevərlik kimi keyfiyyətlər tez-tez xatırlansa da, böyüklərə itaət etməyi, haqsız belə olsalar qarşı çıxmamağı təlqin edən məqamlar da kifayət qədər idi. Təbii ki insanı müstəqil, arzu-istəkləri, seçimləri olan şəxsiyyət kimi qəbul etməyən bu dəyərlər yenilikçi Lu Sinin qəlbində inqilab eşqini gündən-günə qüvvətləndirirdi. Konfutsiçiliyin Çin cəmiyyətinin inkişafına olan təsirini görən müəllif ondan xilas olmadan irəliləlmənin mümkünsüzlüyünü, Çinin müasir ölkəyə çevrilməyəcəyini dərk edirdi. Lakin Lu Sinin yaradıcılığını və bioqrafiyasının nəzərdən keçirərkən bir cəhət diqqəti çəkir ki o, konfutsiçiliyi, ənənəni tamam inkar etmirdi. Lu Sin ənənə və yeniliyi birləşdirməyi, klassika və müasirliyi bir müstəvidə görməyi arzu edirdi və Çinin modernləşməsi üçün başqa yolun mümkünsüzlüyünü dərk edirdi. Fikrimizcə, hekayənin bu qədər kəskin boyalarla verilməsi də bu səbəbdən idi. Hekayə boyu vurğulanan və insanda bu cəmiyyətə ikrah hissi oyadan hannibalizm məqsədli olaraq seçilmiş bir anlayış idi. Lu Sinin hannibalizm dediyi, əslində feodalizmin hökm sürdüyü, insanın insan yerinə qoyulmadığı, köləliyin baş aldığı cəmiyyətə verdiyi şərti ad idi. Güclülərin zəiflər üzərində hökmran olduğu cəmiyyətdə gücsüzlərin yalnız itaət etdiyi müddətdə yaşama haqqına sahib olması yazarı çox düşündürür və mədəni-inqilabi mübarizəsinin əsas hərəkətverici qüvvəsinə çevirir.

Lu Sin istər bu, istər də digər hekayələrində cəmiyyəti bu bəladan təmizləməyi məqsəd seçərək gücü, qüdrəti, zənginliyi deyil, insanlığa xidmət edən, insanı mənən ucaldan keyfiyyətləri təbliğ edirdi. Təbii ki yalnız mərhəmət, sevgi, dostluq, ədalət kimi yüksək dəyərlər üzərində qurulan cəmiyyət azad, modern və dinamikliyi ilə ölkəni irəli apara bilər.

Hekayənin sadəcə iki cümlədən ibarət son bölməsi olduqca təsirli və məntiqlidir.

"*Görəsən insan əti yeməyən uşaqlar qalıbmı?*

Uşaqları xilas edin!"

"Uşaqları xilsas edin" ismarıcı isə təsadüfi deyildi. Lu Sin gələcəyimiz olan uşaqların bu cahil, insanı kölələşdirən dəyərlərdən uzaq, müasir düşüncəli, həyatı reallığı ilə dərk edən bir

şəxsiyyət kimi böyüməsini modern Çin cəmiyyəti quruculuğundakı vacib şərt olaraq qəbul edirdi. Təhkiyəçi qismində çıxış edən qəhrəmanın dəliliyi də sual doğurur. Burada müəllifin işlətdiyi priyomlar olduqca təqdirəlayiqdir. Ənənəvi prinsiplərlə yaşayan cəmiyyətin ağıldərrakəsi yerində olan biri tərəfindən tənqid edilməsi müəllifini hədsiz hücumlar altında qoyardı. Reallığı xırda məqamlarına qədər duymaq, gördüklərini qorxusuzca dilə gətirmək, hətta təsadüf etdiyi hadisələri düşünüb analiz etmək cəmiyyətin ağıllı qəbul etdiyi insan üçün çox çətindir. Təkcə özünü deyil, ətrafını, sevdiklərini də düşünən, vəzifəsini vicdanla yerinə yetirən ağıllı insan cəmiyyətə qarşı çıxmamalı, fərd olaraq düşündüyü, istədiyini deyil, ondan gözlənilənі etməli olur. Lakin dəlilərin belə bir məcbiriyyəri yoxdur. Vurğulamalıyıq ki, dəli deyib keçdiyimiz insanların əslində bizlərdən daha çox ağıllı olduğu, bizim görmədiyimiz, duymadığımız məqamlara diqqət yetirdiyi ilk dəfə deyil. İstər rus və avropa ədəbiyyatında çoxsaylı nümunələri olan dəlilik mövzusu hər quruluşda, hər cərəyanda fərqli mənalandırılır.

Həm Lu Sində, həm də N.Qoqolda dəli xarakteri məhz deyilməsi mümkün olmayanı deyən, görə bilmədiyimizi görən, düzgün hesab etdiyi kimi davranmaqdan çəkinməyən azad, müstəqil insandır. Düzdür, hər iki əsərin obrazları fərdi cizgiləri ilə seçilir – Qoqolun qəhrəmanı kiçik adamlar sırasından olub maraqları üçün hərəkət edən, eqoist biridir. Lu Sinin adsız qəhrəmanı isə dərk edir, düşünür, analiz qabiliyyəti, əksinə, daha da yaxşı işləyir. Qoqolun qəhrəmanından fərqli olaraq o özü üçün yox, cəmiyyətin korlamadığı uşaqlar üçün narahatlıq keçirir, onların xilası üçün müraciət edir. “Psixi xəstənin fikirləri ilə sənətkarın riyakar əxlaqa - "hannibalizm"ə dərin nifrəti ortaya çıxdı. Deməli, L. S. emosional tarazlığını bərpa etmək və yeni, daha “sakit” fəaliyyətə başlamaq üçün bu qədər dərin hekayə yazmağa ehtiyac duymuşdu”[2, s.461].Lu Sin bu hekayəsi ilə yanaşı digər əsərlərində Çini yenidən qurmağa, sistemi dəyişməyə cəhdlər göstərsə də reallıqlar onun ümidlərini alt-üst etdikcə ruhdan düşürdü. Bəlkə də məhz bu səbəbdən də o, 4 may hərəkatının aparıcı qüvvələrindən olmağına baxmayaraq heç zaman kommunist partiyasına, nə də başqa bir partiyaya üzv olmamışdı. O, xalqının siyasi partiyalarla deyil, humanist ideyalarla idarə olunmasına daha çox önəm veriridi.

Lu Sinin hekayə və esseləri, məqalələri modern çin ədəbiyyatının ilk nümunələrindən olmaqla bərabər, özündən sonrakı gənclər, ədəbiyyatçılar üçün ilham qaynağı olmuşdur. Hazırda hər üç ildən bir LU SİN adına müəyyən edilmiş ədəbiyyat mükafatı Lu Sinin Çinin dəyərli ədəbi şəxsiyyətlərindən olmasının təsdiqidir.

Ədəbiyyat

1. Л. Эйдлин, Лу Синь. Повести. Рассказы. / Пер. с китайского. — М., «Художественная литература», 1971.səh.3
2. Семанов В.И. Лу Синь // Краткая литературная энциклопедия / Гл. ред. А. А. Сурков. — М.: Сов. энцикл., 1962—1978., Т. 4: Лакшин — Мураново. — 1967.—С.459—462

N.Jahangirova

“A madman's diary" by lu xun and chinese modernism

Summary

One of the famous writers of Chinese literature is Lu Xun. Lu Xun is one of the most important figures in the development of literature and socio-political thought in China in the first half of the 20th century. As the author of “Arms Call”, the “True Story of A-kyu” Lu has always tried to bring the problems of his people, the disadvantages of society, to literary excellence. The

writer considered literature to be the best method of struggle. He wrote his stories in Bai Hua, close to colloquial speech. The innovatively chosen author promotes modernity without denying tradition, and emphasizes its importance for a developing society. Being the first example of modern Chinese literature, modern Chinese narration, this story differed in structure and content from literary examples of that time.The publication of the story of the “Diary of a Madman” was a turning point in his work, which made him one of the most influential writers of his time. Being the first example of modern Chinese literature and modern Chinese narrative, this story differed in structure and content from literary examples of that time. Lu Xin, who loved Western literature and Russian authors, wrote this story using the same work of N.Gogol. Lu Xin's goal as Gogol was to show the gaps in the morality of the community he was exposed to, to expose hypocrisy and injustice. Although Lu Sin has been trying to reconstruct China and change its system throughout his life, he has never been a member of any party. He focused more on managing his people on humanistic ideas, rather than political parties.

Key words: literature, Lu Xin, "A Madman's Diary", tradition and modernity

Н.Джахангирова

Рассказ “Дневник Сумасшедшего" Лу Синя и китайский модернизм

Резюме

Одним из известных писателей китайской литературы является Лу Синь. Лу Син является одной из самых важных фигур в развитии литературы и общественно-политической мысли Китая первой половины XX века. Как автор книги «К оружию», «Истинная история А-кью» Лу Син всегда стремился довести проблемы людей, недостатки общества до литературного совершенства. Писатель считал литературу лучшим методом борьбы. Он писал свои истории на языке бай-хуа, близком к разговорной речи. Новаторски избранный автор продвигает современность, не отрицая традицию, и подчеркивает ее важность для развивающегося общества. Публикация рассказа «Дневник сумасшедшего» стала поворотным моментом в его творчестве, что сделало его одним из влиятельнейших писателей своего времени. Будучи первым примером современной китайской литературы, современного китайского повествования, эта рассказ отличалась по своей структуре и содержанию от литературных примеров того времени. Лю Синь, который любит западную литературу, русских авторов и многочисленные переводы, написал эту историю, используя те же работы Н. Гоголя. Целью Лу Си как Гоголя было показать пробелы в нравственности своего сообщества, разоблачить лицемерие и несправедливость. Хотя Лу Син на протяжении всей своей жизни пытался восстановить Китай и изменить его систему, он никогда не был членом какой-либо партии. Он больше акцентировал внимание управлению своих людей на гуманистических идеях, а не политическим партиям.

Ключевые слова: литература, Лу Синь, “Дневник сумасшедшего”, традиции и овременность

Redaksiyaya daxil olma tarixi: 21.06.2019
Çapa qəbul olunma tarixi: 06.08.2019
Filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov tərəfindən çapa tövsiyə olunmuşdur.

MÜNDƏRİCAT

DİLÇİLİK

NADİR MƏMMƏDLİ 3
İDRİS ABBASOV
GÜNEL BAYRAMOVA
SƏS TONUNUN TƏSVİRİ İLƏ BAĞLI MƏKAN METAFORALARININ İYERARXİK STRUKTURU (SEMİO-KOQNİTİV YANAŞMA) 10
ƏSMƏTXANIM MƏMMƏDOVA
FARS DILINDƏ [y], [r], [l] SONORLARININ DİSTRİBUTİV VƏ FONETİK XÜSUSİYYƏTİ..... 17
TƏRANƏ XƏLİLOVA
TERMİN YARADICILIĞINDA ŞƏKİLÇİLƏRDƏN İSTIFADƏ 22
ŞƏRQİYYƏ HÜMBƏTOVA
"OĞUZNAMƏ"NİN DİLİNDƏ PAREMİK VAHIDLƏRİ QRAMMATİK CƏHƏTDƏN FORMALAŞDIRAN FELİ BİRLƏŞMƏLƏR 27
AYBƏNIZ HÜSEYNOVA
DİLİMİZ MİLLİ VARLIĞIMIZDIR 34
МЕХРИБАН БАЙРАМОВА
ИРАНСКИЕ (ПЕРСИДСКИЕ) ЗАИМСТВОВАНИЯ В РУССКОМ ЛИТЕРАТУРНОМ ЯЗЫКЕ: СЕМАНТИЧЕСКАЯ АДАПТАЦИЯ 41
НИГЯР БАБАЕВА
ФУНКЦИОНИРОВАНИЕ ПОВТОРА В ПАРЦЕЛЛИРОВАННЫХ СТРУКТУРАХ АНГЛИЙСКОГО И РУССКОГО ЯЗЫКОВ 47
PƏRVİNƏ ƏZİZOVA
BƏDİİ MƏTNDƏKİ POLİLOJİ NİTQİN LİNQVİSTİK TƏHLİLİ 53
NAİLƏ YUSİFOVA
AZƏRBAYCAN TOPONİMLƏRİNDƏ TÜRK MƏNŞƏLİ PALEOORONİMLƏR 59
NABAT CƏFƏROVA
DIL QAYDALARI ÜZRƏ İŞİN NİTQ İNKIŞAFI İLƏ İNTEQRATİV TƏŞKİLİ 65
ИЛАХА ГУЛИЕВА
КЛАССИФИКАЦИЯ ОДНОСОСТАВНЫХ НОМИНАТИВНЫХ ПРЕДЛОЖЕНИЙ НА БАЗЕ СИСТЕМЫ РЕЧЕВЫХ АКТОВ 74
V.G. ABIYEVA
A.H.SAFIKHANOVA
THE PARTS OF SPEECH IN ENGLISH AND THE İNTERRELATİON AMONG THEM 84
SAMİRƏ ƏHMƏDOVA
AZƏRBAYCAN VƏ TÜRKİYƏ TÜRKCƏSİNDƏ MƏKANİ QRAMMATİK HALLAR 89
ƏLİCAN SULTANSOY
ƏSASI VAHİD OLAN VAHİDLƏŞMƏYƏ BİLMİR 96

ÜLKƏR XANLAROVA
İNGİLİS DİLİNDƏ AKADEMİK YAZI NÜMUNƏLƏRİNDƏ
TƏYİN BUDAQ CÜMLƏLƏRİNDƏN İSTİFADƏ OLUNMASININ
TƏDRİSİ YOLLARI 101
MEHRİBAN ABDULLAYEVA
İNGİLİS DİLİNDƏ SİNONİMİK CƏRGƏLƏRİN ƏSAS ZƏNGİNLƏŞMƏ
MƏNBƏLƏRİ 108
KƏMALƏ MƏMMƏDOVA
M.T.ZEHTABİNİİN AZƏRBAYCAN DİLİNİN VARLIĞI VƏ
TƏMİZLİYİ UĞRUNDA MÜBARİZƏSİ 114
X.N.MƏMMƏDOVA
THE NATURE AND CAUSES OF SEMANTIC CHANGE
TYPES OF SEMANTIC CHANGE 119
MEHRIBAN ƏFƏNDIYEVA
MÜASİR DÖVRDƏ DİLİN LEKSİK SİSTEMİNDƏ
BAŞ VERƏN DƏYİŞMƏLƏRƏ BİR BAXIŞ 125
KAMALA İMANOVA
MY TEACHING PHILOSOPHY 132
AYDAN ƏLİYEVA
SİYASİ METAFORALAR MƏDƏNİYYƏTİN GÜZGÜSÜ KİMİ 137
SƏNUBƏR MUSTAFAYEVA
ÖZ FİKRİNİ ŞİFAHİİIFADƏ ETMƏ VƏ ONU İNKIŞAF ETDİRƏN
ÇALIŞMALAR 143
YETAR AHMADOVA
ON SOME BACKGROUNDS OF FORMATION OF THE NEW
ZEALAND NATIONAL VARIANT OF THE ENGLISH LANGUAGE..... 149
NAHİDƏ İMANOVA
VİRTUAL DÜNYADA NİTQ VƏ YAZI ARASINDAKI
ƏSAS FƏRQLƏR 154
GÜNAY ALİYEVA
"KEYS" METODU VASİTƏSİLƏ TƏLƏBƏLƏRDƏ MƏDƏNİYYƏTLƏRARASI
ÜNSİYYƏT BACARIQLARININ FORMALAŞDIRILMASININ
LİNQVİSTİK ƏSASLARI 160
NƏRMİN MƏMMƏDOVA
MÜXTƏLİF DİLLƏRDƏ FEİL PARADİQMLƏRİNİN XÜSUSİYYƏTLƏRİ 166
TƏRANƏ ƏLİYEVA
SİNTAKSİS bölməsinin tədrisinin əhəmiyyəti.
Cümlə üzvləri წინადადების წევრები 171
NƏRMİN ƏHMƏDOVA
QRAMMATİKA HAQQINDA.....181
XURAMAN RƏFİYEVA
AZƏRBAYCAN VƏ FRANSIZ DİLLƏRİNDƏ SİFƏTİN DƏRƏCƏLƏRİNİN
MÜQAYİSƏLİ TƏHLİLİ 186
AYNURƏ QURBANOVA
SİNTAKTİK KONSEPT BİLİYİN İFADƏ VAHİDİ KİMİ 192
BƏSTİ İBRAHİMOVA
LES EMPRUNTS FRANÇAIS PROVENANT D'AUTRES
LANGUES ÉTRANGÈRES(II PARTIE) 200

SEVİNC MİRZƏYEVA
AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATININ
AKTUAL PROBLEMLƏRİ 207
FATİMƏ İBRAHİMOVA
NİTQDƏ PROSODiK KOMPONENTLƏRİN VƏHDƏTİ 212
SAMİRƏ SULTANOVA
AZƏRBAYCAN DİLİNİN FƏLSƏFƏ VƏ TARIXŞÜNASLIQ
TERMİNOLOGİYASINDA ŞƏRQ-QƏRB LEKSİK
TERMİNOLOİI PARALELLIYİ 218
ÜLVİYYƏ ƏLİYEVA
KONTENSİV TİPOLOGİYA BAXIMINDAN
AZƏRBAYCAN DİLİNDƏ CÜMLƏNİN NOMİNATİV STRUKTURU 225
GÜNEL ƏLƏKBƏROVA
CAVAD HEYƏTİN "MÜQAYISƏTÜL – LÜĞƏTEYN" ƏSƏRİNDƏ ANA DILININ
ÜSTÜNLÜYÜ MƏSƏLƏSİ 232
RƏNA MUSTAFAYEVA
ФОРМИРОВАНИЕ ЛЕКСИЧЕСКИХ НАВЫКОВ В ПРЕПОДАВАНИИ
РУССКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО 241
Н.ГАСАНОВА
О ТКТ КАК ОБ УНИКАЛЬНОМ ПОДХОДЕ К ПРЕПОДАВАНИЮ
ИНОСТРАННОГО ЯЗЫКА 247
САРЫГЮЛЬ САДЫХОВА
ПОЛЬЗА РОЛЕВЫХ ИГР В УЧЕБНОМ ПРОЦЕССЕ 252
GÜLZAR HƏSƏNOVA
PSİXOLOGİYA VƏ PEDAQOQİKA ELMLƏRİNİN QARIŞILIQLI
ƏLAQƏSİ VƏ ALİ SİNİR FƏALİYYƏTİNİN ONTONEGEZ
MƏRHƏLƏSİNDƏ TƏLİM VƏ TƏRBİYƏ PROSESİNİN TƏNZİMLƏNMƏSİ 258

ƏDƏBİYYATŞÜNASLIQ

BƏSİRƏ ƏZIZƏLİYEVA
M.İQBALIN "ZARB-İ KELİM" ƏSƏRİNDƏ QADIN VƏ
CƏMİYYƏT MƏSƏLƏLƏRİ 263
ƏFLATUN BAXŞƏLİYEV
ÖZBƏK ƏDƏBİYYATINDA SƏMƏD VURĞUNUN BƏDII OBRAZI 270
TAHİR ƏMİRASLANOV
5 – ƏLA 280
AFAQ QASIMOVA
QAÇAQ QƏHRƏMAN OBRAZININ QƏDİMƏ SÖYKƏNƏN TARİXİ KÖKLƏRİ ... 289
MƏTANƏT İSGƏNDƏROVA
VOLFQANQ BORXERTIN YARADICILIĞINDA MÜHARIBƏ MÖVZUSU 298
AYGÜN İBRAHIMOVA
PROBLEM ƏSASLI ÖYRƏNMƏ VƏ ONUN ƏSAS XÜSUSIYYƏTLƏRİ 305
ZEYNƏB ƏSGƏROVA,
ŞƏFƏQ RZAYEVA
ANGLO- NORMAN ƏDƏBİYYATI 312

GÜLNAR ƏQİQ
QACARLAR DÖVRÜNDƏ NƏSRIN İNKİŞAFI VƏ BU
DÖVRÜN TARIXİ-ƏDƏBİ MƏNZƏRƏSİ 317
LAMİYƏ XANLAROVA
ÜMUMTÜRK PUBLİSİSTIKASINDA MUSTAFA
KAMAL ATATÜRK ZİRVƏSİ 325
PƏRVANƏ QULİYEVA
İ.ƏFƏNDİYEVİN DRAMLARINDA LİRİK QƏHRƏMAN PROBLEMİ 332
NƏRMİN CAHANGİROVA
LU SİNİN "BİR DƏLİNİN GÜNDƏLİYİ" HEKAYƏSİ
VƏ ÇİN MODERNİZMİ 337

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***Filologiya elmləri doktoru, professor* Nadir MƏMMƏDLİ**

Dizayn: Kamran İbrahimov
Texniki redaktor: **Yadigar Mirbagırzadə**

Çapa imzalanmış 25. 08. 2019.
Şərti çap vərəqi 43,25 Sifariş № 11
Kağız formatı 60x84 1/8. Tiraj 300.

Jurnal "Elm və təhsil nəşriyyat-poliqrafiya" müəssisəsində
elektron nüsxə əsasında çap olunmuşdur.
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 055 426 -72-27
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.